FAİQ ƏLƏKBƏRLİ

MİLLİ İDEOLOGİYA PROBLEMİNƏ TARİXİ-FƏLSƏFİ BAXIŞ

3 CİLDDƏ

II CİLD

“Elm və təhsil”
Bakı-2025

Elmi redaktorlar: **Əli Abasov**
Fəlsəfə elmləri doktoru, prof.
Əlikram Tağıyev
Fəlsəfə elmləri doktoru, prof.

Rəyçilər: **Dilqəm İsmayılov**
Fəlsəfə elmləri doktoru, prof.
Vaqif Sultanlı
Filologiya elmləri doktoru, prof.
Müstəqil Ağayev
Fəlsəfə üzrə fəlsəfə doktoru,
Qabaqcıl Maarif Xadimi

Faiq Ələkbərli. Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış. Üç cilddə, II cild. Bakı, "Elm və təhsil", 2025, 512 səh. (təkrarnəşr)

Müəllif monoqrafiyanın II cildində, ilk dəfə XIX-XX əsrlərdə Azərbaycanda gedən ideoloji proseslərdəki ikili xətti: 1. İslam-Türk mədəniyyəti və ideologiyası: islamlaşmaq, türkləşmək, müasirləşmək, milli azərbaycançılıq; 2. Rus-Avropa-Qərb mədəniyyəti və ideologiyası: qərbpərəstlik, avropasayağı "mollanəsrəddinçilik", milli bolşevizm-sosializm, sovet azərbaycançılığı müəyyənləşdirmişdir. Bu metod əsasında hər iki xəttin nümayəndələrinin XX əsrdə və günümüzdə müdafiə etdikləri ideyaların mahiyyəti açıqlanmaqla yanaşı, kitabda müəllifin Azərbaycan Milli İdeyası və Azərbaycan Milli İdeologiyasına tamamilə yeni yanaşması, mövqeyi geniş şəkildə öz əksini tapmışdır. Özəlliklə, milli ideyaların çağdaş dövrdə nə dərəcədə akutallığı məsələsi araşdırılmış, yeni fikirlər irəli sürülmüşdür. Eyni zamanda, kitabın II cildində milli şüur məsələsi, milli şüurun dini dəyərlər və vətəndaş cəmiyyəti ilə oxşar və fərqli cəhətləri ilk dəfə tədqiqata cəlb edilmişdir.

Monoqrafiyadan fəlsəfə, tarix, politologiya, ədəbiyyat, dilçilik, etnoqrafiya, kulturologiya və başqa elm sahələrində çalışan müxtəlif səviyyəli mütəxəssislərin – bakalavrların, magistrlərin, doktrantların, elmi işçilərin, müəllimlərin, eyni zamanda geniş oxucu kütləsinin faydalanması nəzərdə tutulur.

ISBN: 978-9952-8024-1-2

Təkrarnəşr-2
© F.Ələkbərov-2014
© F.Ələkbərli-2025

İÇİNDƏKİLƏR

MÜƏLLİFDƏN-1……...……...5

MÜƏLLİFDƏN-2……...……...7

ÖN SÖZ…….……...……17

I FƏSİL XX yüzilliyin əvvəllərində (1900-1920) Azərbaycan fəlsəfi fikrində Milli ideya axtarışı

1.1. Milli ideya, onun mahiyyəti və əsas xətləri…….....27
1.2. İslam-Türk-Şərq mədəniyyəti və ideologiyası: islamlaşmaq, türkləşmək, müasirləşmək…….....31
1.3. Rus-Avropa-Qərb mədəniyyəti və ideologiyası: qərbpərəstlik, "molla nəsrəddinçilik", milli sosial-demokratiya, marksist-leninçi sosial-demokratiya…….....86
1.4. Azərbaycan milli ideyasının – azərbaycançılığın yaranması…….....136

II FƏSİL SSRİ dövründə (1920-1991-ci illər) Azərbaycan milli ideologiyasının həlli yolları (millililik və beynəlmiləlçilik)

2.1. "Sovet Azərbaycanı" ideyası: milli təmayülçülük və sovet beynəlmiləlçiliyi…….....175
2.2. Milli mədəniyyətlə "proletar mədəniyyəti" arasında mübarizə.…….....201
2.3. Milli dil və əlifba məsələsinin ideoloji yönləri..……..217
2.4. Sovet dövrü Azərbaycan fəlsəfəsində islamçılıq və türkçülüyə münasibət……..…….....244

III FƏSİL Mühacirət dövründə (1920-1991-ci illər) milli-demokratik ideyalar: milli azərbaycançılıq, yeni turançılıq, qafqazçılıq, milli təsanüd

3.1. Milli azərbaycançılıq və yeni turançılıq…….....257
3.2. Milli azərbaycançılıq və Qafqazçılıq ideyası….....273
3.3. Milli azərbaycançılıq və milli təsanüd…….....277

IV FƏSİL XX yüzilliyin sonu – XXI yüzilliyin başlanğıcında milli ideologiyanın dirçəlişi: yeni baxışlar və problemlər

4.1. XX yüzilliyin sonu - XXI yüzilliyin başlanğıcında milli ideologiya probleminə ikili baxış və milli şüur məsələsi…….301
4.1.1. Milli şüur məsələsi: tarix və çağdaşlıq.....307
4.1.2. Milli şüur və vətəndaş cəmiyyəti,modernləşmə.....325
4.2. Milli ideologiyanın əsas problemləri və onun həlli yolları…….....387
4.2.1. Azərbaycançılıq: tarix və çağdaşlıq…….....390
4.2.2. Türkçülük və azərbaycançılıq: alternativlik və eynilik kimi…….....401
4.2.3. Milli dil məsələsi: Türk dili və Azərbaycan dili…….451
4.2.4. Azərbaycançılıq: millilik və kosmopolitizm.....471

NƏTİCƏ…….....484

ƏDƏBİYYAT VƏ QAYNAQLAR…….....493

MÜƏLLİFDƏN-1

"Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış" adlı kitablarımızın ilk iki cildini yenidən yayınlamaqla yanaşı, üstəlik üçüncü cildini də yazaraq bu mövzunu davam etdirmək fikri təsadüfən meydana çıxmadı. Məqsədimiz milli ideyalarımızı (azərbaycançılıq, türkçülük) yer kürəsində təqribən 60 milyona yaxın əhalidən ibarət Azərbaycan xalqına, Azərbaycan türklərinə, bütövlükdə 300 milyondan çox Türk xalqlarına həm yenidən çatdırmaq, təbliğ etmək, həm də dünyada və regionda baş verən mühüm dəyişikliklər fonunda Azərbaycan Respublikasının bölgənin və Türk Dövlətləri Təşkilatının (TDT) lider dövlətlərindən biri kimi əhəmiyyətini ortaya qoymaqdır. Xüsusilə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yeni milli ideya axtarışı ilə bağlı tezisləri, o cümlədən Azərbaycanın dünyada yeganə ailəsinin Türk dünyasının, yəni Türk ailəsinin olması ilə bağlı mülahizəsi milli ideologiya probleminin bir daha aktuallığını ifadə etməkdədir. Eyni zamanda, ilk iki cilddə milli ideologiya, milli ideya ilə bağlı hələ də aydınlığa qovuşmamış, mübahisəli qalan məsələləri 3-cü cilddə yenidən dəyərləndirib əsaslandırmağa çalışacağıq!

P.S.: Qeyd edək ki, kitabın 2011-ci və 2014-cü illərdə nəşr olunmuş I-II cildlərinə müəllif tərəfindən heç bir dəyişiklik və əlavələr olunmayıb. Yəni ötən illərdə nəşr olunan adıçəkilən kitablarımız olduğu kimi yayınlanır. Burada əsas məqsədimiz, həm həmin dövrdə kitablarımızı yazarkən qarşılaşıdğımız problemlərlə bağlı dövrün şərtlərini, gerçəkliklərini, həm də o zamana aid düşüncələrimizi olduğu kimi təqdim etməkdir.

Türklüyün varlığı qeyrə nə böyük qorxuymuş –
Dost-düşmən onu məhv etməyi istər, Azər!
Səməd Mənsur

MÜƏLLİFDƏN-2

"Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış" adlı monoqrafiyanın I hissəsi 2011-ci ildə AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu Elmi Şurasının (20 aprel 2011-ci il, 4 saylı protokol) və həmin institutun "Fəlsəfə və ictimai fikir tarixi" şöbəsinin (7 fevral 2011-ci il, 2 saylı protokol) qərarları ilə çap olunmuşdur.

2013-cü ildə həmin kitabın II hissəsi "Fəlsəfə və ictimai fikir tarix" şöbəsində iki dəfə müzakirə olunmuşdur. İlk iclasda (**1 fevral 2013-cü il tarixli 1 saylı protokol)** müəllifə monoqrafiya ilə bağlı şöbənin əməkdaşları tərəfindən bir sıra iradlar qeyd edilmiş, növbəti müzakirəyə qədər bunları aradan qaldırmaq, yaxud da razılaşmadığı iradları elmi sübutlarla əsaslandırmaq tövsiyə olunmuşdur. Şöbənin bəzi əməkdaşlarının iradı əsasən kitabın türkçülük ruhunda yazılması ilə bağlı olmuşdur. Məsələn, əməkdaşlardan biri "XX yüzilliyin başlanğıcında (1900-1920-ci illər) Azərbaycan Türk ictimai-fəlsəfi fikrində milli ideologiya problemi" adlanan I fəsildən "Türk" sözünün çıxarılmasını təklif etmişdir. Ümumilikdə, şöbənin bəzi əməkdaşları müəllifin əsərdə "Azərbaycan Türk filosofu", "Azərbaycan Türk ideologiyası", "Azərbaycan Türk milləti", "Azərbaycan Türk dövləti", "Azərbaycan Türk dili" və s. bu kimi söz birləşmələrində "Türk" sözünün işlədilməsini məqbul saymamışlar.

Kitabın ikinci müzakirəsində (**23 sentyabr 2013-cü il tarixli 7 saylı protokol**) də başda şöbə müdiri Arzu Hacıyeva olmaqla bəzi əməkdaşların əsas tənqid hədəfi yenə də müəllifin türkçülük ideyası ilə bağlı olmuşdur. Bu mənada, monoqrafiya-

nın ikincı müzakirəsində müəllifin bir sıra iradları aradan qaldırmasına, eyni zamanda, razılaşmadığı iradları tutarlı arqumentlərlə əsaslandırmasına baxmayaraq, "Fəlsəfə və ictimai fikir tarix" şöbəsinin adından aşağıdakı qərar qəbul edilmişdir:"**Şöbə əməkdaşlarının müxtəlif səciyyəli ciddi tənqidi qeydləri nəzərə alınaraq F.Ələkbərovun "Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış" (II hissə) adlı monoqrafiyasının dövlət vəsaiti hesabına çapı məsləhət görülmür"**.

Birincisi, kitabın 23 sentyabr 2013-cü il tarixli müzakirəsində 20 nəfər şöbə əməkdaşlarından 12-si iştirak etmiş (müəllif də daxil olmaqla), onlardan yalnız səkkizi monoqrafiyaya münasibətini bildirmişdir. Həmin 8 nəfərdən 2-si monoqrafiyanın institut xətti ilə çapının əleyhinə, beşi müəyyən və ya əsaslı düzəlişlərdən sonra institutun xətti ilə çapının lehinə olmuş, bir nəfər isə bitərəf qalmışdır (bunu sübut edən dəlillər var). **İkincisi,** qərarda ümumi şəkildə qeyd edilən "müxtəlif səciyyəli ciddi tənqidi qeydlər" açıq şəkildə öz əksini tapmamışdır. Yəni bu qərardan bəlli olmamışdır ki, "müxtəlif səciyyəli ciddi tənqidi qeydlər" deyildikə konkret nələr nəzərdə tutulur? Halbuki qərar verilən zaman bütün bunlar hökmən nəzərə alınmalı və orada öz əksini tapmalı idi. Əgər söhbət yuxarıdakı razılaşmadığımız iradlardan gedirsə, həmin iclasda bütün bunlara aydınlıq gətirilmişdir. **Üçüncüsü,** müəllifin dəfələrlə şöbə müdirinə müraciətinə baxmayaraq, kitab çapa gedən vaxta qədər protokolun məzmunu ilə tanış ola bilməmişdir. Hər dəfə müəllifə bildirilmişdir ki, protokol hələ hazır deyildir. **Dördüncüsü**, şöbənin adından verilən qərarın özü mahiyyət etibarilə hüquqi cəhətdən doğru deyildir. Belə ki, şöbə monoqrafiyanın ya çapına tövsiyə edə, ya da tövsiyə etməyə bilərdi. Çünki kitabın dövlət vəsaiti hesabına çap edilib-edilməməsi şöbənin səlahiyyətinə aid deyildir. Belə bir qərarı institutun Elmi Şurası verə bilərdi. Bu cür qərar isə o zaman verilir ki, institut kitabın Elmi Şuranın qərarı ilə çap olunmasına

etiraz etmir, ancaq müəllifə dövlət vəsaiti ilə deyil, öz vəsaiti hesabına çapını məsləhət görür. Yəni, bu, ikinci dərəcəli məsələdir. Bu mənada, şöbənin qərarı hüquqi cəhətdən də yanlış olmuşdur.

Bütün bunlara baxmayaraq, "Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış" (II hissə) adlı monoqrafiya müzakirə olunmaq üçün AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Elmi Şurasına təqdim olunmuşdur. İnstitutun Elmi Şurasının 3 fevral 2014-cü tarixli iclasında müəllifin həmin monoqrafiyasının müzakirəsi zamanı bildirilmişdir ki, "Fəlsəfə və ictimai fikir tarix" şöbəsində kitabla bağlı müzakirəyə münasibət birmənalı olmayıb. Məlum qərar Elmi Şura üzvlərinin nəzərinə çatdırıldıqdan sonra həmin şöbənin müdiri, fəlsəfə elmləri doktoru Arzu Hacıyevaya bu məsələyə aydınlıq gətirməsi üçün söz verilmişdir. **A.Hacıyeva şöbənin məlum qərarı verməsinə səbəb kimi təxminən aşağıdakıları demişdir:** "Yenilik yoxdur. Eklektikdir. Metod yoxdur. Ədəbiyyat siyahısı düzgün tərtib edilməyib. Xarici ədəbiyyatın kitabın içində heç bir əksi yoxdur. Kitabın adında deyilmişdir dəyişikilik edilsin, çünki adı çox gurultuludur, böyük problem kimi qoyulub milli ideologiya məsələsi, amma içəridə yalnız və yalnız Azərbaycandan, Azərbaycan milli ideologiyasından söhbət gedir… Adı dəyişdirilməyib, elə əvvəlki kimi qalıb. ...Əsərin müəyyən yerlərində lazım olmadan tarixilik çox olsa da, müəyyən yerində isə metodoloji baxımdan tarixilik yoxdur. Faiq müəllim sovet ideologiyasını pisləyir, amma özü o standartlarla, ehkamlarla çıxış edir. Məsələn, mütəfəkkirlərimizi sosial-demokrat, islamçılıq, mədəni islamçılıq, mühafizəkar islamçılıq, mütərəqqi islamçılıq şəklində qruplaşdırır. Əvvəlla hər bir mütəfəkkirin ideyaları çox dəyişilir. Əvvəl bir ideyada idi, sonra tamamilə başqa ideyanı seçir. Onları hansısa yalnız bir cərəyana aid etmək, bu formada vermək olmaz.... ...Hüseyn Cavidə, Əli bəy Hüseynzadəyə, N.Nərimanova birtərəfli

yanaşmalar var. Burada bütün tədqiqatçıların hamısı tənqid olunur. Çox az adamı çıxmaq şərti ilə burada tənqid olunmayan adam qalmayıb. Məsələn, bir məsələyə diqqətinizi cəlb etmək istəyirəm. Deyir, iki yanaşma var: 1-ci azərbaycançılıqdan çıxış edənlərin tərəfdarlarını göstərir – Ə.Daşdəmirov, S.Xəlilov, R.Mehdiyev və b. 2-ci azərbaycançılıqla türkçülüyün sinergizmindən çıxış edənlər –Ə.Tağıyev, Y.Türkel və b. Sonra nəticə çıxarır ki, bizdə belə bir fikirlərin olmasının səbəbi ondandır ki, biz sovet ideologiyasının təsirindən kənara çıxa bilməmişik. 20 ildir bizdə azad fikir, müstəqil fikir qabiliyyətimiz yoxdur. Axı burda insanlar çalışıblar, tədqiqat aparıblar... Bu cür demək olmaz ki, heç kəs azad fikirləşə bilməyib, Faiq müəllimdən başqa. Sonra müəllif Zümrüd xanımı tənqid edir, türkçülüklə əlaqədar.... Faiq müəllim deyir ki, Azərbaycan xalqının yaranmasında talışlar, qafqazdillilər və türklər bir yerdə iştirak etməyiblər.... Buradan yalnız türk oğlu türk çıxıb... İndi baxırıq ki, nə qədər qarışıqlar var... Deyir ki, Azərbaycan türkçülüyü azərbaycançılıqdır. Mən bunu başa düşə bilmirəm... Deyir ki, türk xalqının adı qaytarılmalıdır. Konstitusiyada dəyişiklik edilməlidir. Azərbaycan dili türk dili yazılmalıdır, Azərbaycan xalqı türk xalqı yazılmalıdır. Türkiyə türkləri ilə Azərbaycan türkləri arasında heç bir fərq yoxdur, hətta dillərində də elə bir fərq yoxdur. Faiq müəllim yazılarında da türk sözlərini çox işlədib... Ulu öndər deyəndə ki, "mən fəxr edirəm ki, mən azərbaycanlıyam" nə isə bilirdi deyirdi. Deyərdi ki, mən azərbaycanlı deyiləm, mən türkəm... Türkiyə ilə nə qədər yaxın olsaq da, amma tarix boyu nə qədər toqquşmalarımız olub. Bunların hamısını mən sadalamayım, bunları yəqin Faiq müəllim özü də çox yaxşı bilir. Bu mənada, biz qərarda yazdıq ki, bəlkə orada düzgün ifadə etməmişik, yəni bu kitab dövlətin xətti ilə, dövlətin adı ilə, bizim institutun, şöbənin adı ilə çap oluna bilməz. Biri var ki, bu ideyanı institutun adınla, dövlətin adı ilə verəsən, onda qıcıqlanma daha çox ola bilər.

Biri də var ki, gedib özü müstəqil şəkildə kitabını çap etdirsin. Biz bu qədər danışandan sonra, Faiq müəllimi iki iclasda inandırmağa çalışdıqdan sonra yenə həmin fikrində qalır. Bu onun hüququdur, özü çap edə bilər. Əslində heç bir yenilik yoxdur, bu ideyaların hamısı olub. Təzə bir şey yoxdur. Bu mənada, müstəqil özü çap edə bilər".

Elmi Şuranın üzvü, kitabın elmi redaktoru, fəlsəfə elmləri doktoru, prof. **Əli Abasov** isə Elmi Şuradakı çıxışında bildirmişdir ki, müəllif millətçidir, sovet vaxtında bunu güllələmək lazım idi. Amma bu gün millətçi olmaq bir mövqedir, müəllif də bu mövqedən çıxış edir. Onun fikrincə, bir çoxlarında bu cür konkret mövqe yoxdur, amma F.Ələkbərovun bu əsərində mövqe var, elm elə budur və onun əsərini mütləq çap etmək lazımdır: "Mən təklif edirəm ki, bu əsəri Elmi Şura qəbul etsin, Arzu xanımın sözü ilə bir yerdə çap etsin".

İnstitutun direktoru, fəlsəfə elmləri doktoru, prof. **İlham Məmmədzadənin isə kitabla bağlı iradları təxminən aşağıdakılardan ibarət olmuşdur:** Milli ideologiya problemi milli ideoloqların fikirləri ilə bağlıdır, yaxud da ideoloji proseslərlə bağlı, bu kitabda aydın deyildir. Yəni kitabda ideoloji proseslər öz əksini tapmamışdır... İşin adı "Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış"dır, ancaq 21-ci əsrin əvvəli tarixi-fəlsəfi baxışdır ya yox, işdə bu dəqiq deyildir... Millət, milliyyət, kütlə, dövlət, xalq və s. anlayışlara münasibət bütövlükdə işdə yoxdur... İşdə əsas problem müəllif üçün nədir: biz Azərbaycan türkləriyik, ya azərbaycanlılarıq. Bu əsas problem deyil. Əsas problem odur ki, Azərbaycan dövləti müstəqil, suverendir və biz millət kimi bu dövlətin millətiyik, yaxud yox... Sovet dövrü ilə bağlı iki baxış var: müstəqillik-millilik, mərkəzçilik-beynəlmiləlçilik. Yaxud həmin fəsil özü adlanır: "SSRİ dövründə (1920-1991-ci illər) Azərbaycan milli ideologiyasının həlli yolları: milli və antimilli". Müəllif 1920-1930-cu ilərdə Sovet Azərbaycanında milli məsələlərə çox yer

ayırıb. Sonra yazır ki, Stalin dövründən başlayaraq antimilli olub. Ancaq 1956-cı ildə Azərbaycan dili dövlət dili kimi qəbul olunub. Bu çox böyük proses idi. Müəllif isə belə hesab edir ki, belə şey olmayıb. Deyə bilərik ki, Heydər Əliyev o dövrdə bugünkü Azərbaycanın bir çox milli işlərinin əsasını qoyub. Bunun hamısını görmək lazımdır... Yaxud 20-ci əsrin axırında Heydər Əliyev faktiki olaraq müstəqil Azərbaycan dövlətini və millətini yaradanlardandır. Heç olmasa belə fikir ola bilər... Açığı deyim burada Faiq Ələkbərov mütləq cavab verməlidir: müasir Avropada və dünyada faktiki olaraq dövləti olan xalq millətdir. Azərbaycan dövləti də Azərbaycan xalqının dövlətidir. Azərbacyan dili dövlət dilidir. Buna başqa cür yanaşmaq dövlətin qurumunda işləyəndə yaxşı çıxmaz…. Axı biz bilirik ki, 90-100 ildə müasirlik anlayışına münasibət dəyişib. Bu gün müasirlik deməklə, 20-ci əsrin əvvəllərində müasirlik demək fərqli şeylərdir. İndi müasirlik nə deməkdir? Misal üçün İlham Əliyevin modernləşmə siyasəti. Bunu kimsə inkar edə bilər, amma reallıqda o var…Aydındır ki, müasirlik bu gün bu proseslərlə bağlıdır. Bu suala cavab qətiyyən işdə yoxdur....".

Bütün bunlarla yanaşı, İ.Məmmədzadənin yekun sözü ondan ibarət olmuşdur ki, kitaba münasibətdə müəyyən qədər bu günün praqmatizmi də var. Bu praqmatizmdən çıxış edən institutun direktoru İ.Məmmədzadənin kitabla bağlı qərarı belə olmuşdur: "Etiraz etmirəm çıxış etsin. Amma işə mən hesab edirəm ki, institutun qrifini vermərik. Öz aramızda. Etiraz etmirsiniz saxlayaq bu məsələ barədə bir də çıxış etsin, bəlkə də biz müəyyən qədər nə isə görmədik o, əsaslandıracaq".

Daha sonra Elmi Şuranın üzvləri qarşısında çıxış edən **monoqrafiyanın müəllifi** bildirmişdir ki, bu kitabı nə özü üçün, nə də institutun Elmi Şurasının qərarı ilə çap olunması üçün yazmayıb: "Mən öz mövqeyimi cəmiyyətə təqdim etmək üçün yazıram. Mən burada yazdığım hər bir cümlənin məsuliyyətini daşıyıram". Eyni zamanda, müəllif şöbə əməkdaşlarının kitabla

bağlı yuxarıda qeyd etdiyimiz münasibətlərini, protokolla bu günə qədər tanış ola bilməməsini Elmi Şura üzvlərinin nəzərinə çatdırdıqdan sonra monoqrafiyanın mahiyyəti ilə bağlı demişdir: "Mən hesab edirəm ki, 20-ci əsrin əvvəllərində, yəni Cümhuriyyətə qədər, Cümhuriyyət dövründə və Cümhuriyyətdən təxminən 10 il sonraya qədər, vaxtilə 19-cu əsrin əvvəllərində parçalanmış Azərbaycanda yeni bir şüur formalaşdı. Bu şüurun təməl daşında türkçülük dayanır. Burda türkçülük dedikdə söhbət yalnız genetik soydan getmir. Mən burada da türkçülükdən danışanda, təkcə mən yox, rəhmətlik Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu türkçülüyü qanla, soyla bağlamayıblar, şüurla bağlayıblar. Türkləşmək, islamlaşmaq dedikdə, şüur məsələsini nəzərdə tutublar. Sovet dövründə bizim şüurumuza yeridiblər ki, türkləşmək, islamlaşmaq dedikdə, guya azsaylı etnosları türkləşdirmək nəzərdə tutulub. Elə bir şey yoxdur. Onların dövründə belə şeylər olmayıb. Nəyi demək istəyirəm? Axı indi yanlış anlaşılır ki, guya mən azərbaycanlılığın əleyhinəyəm. Qətiyyən. Azərbaycanlılıq əsasən türk olan, ancaq digər etnikləri də özündə birləşdirən və etniklərə heç bir ayrımçılıq etməyən, yəni siyasətdə, dövlət qulluğunda etməyən bir şüurdur. Türklüyü vaxtilə kürd də qəbil edirdi. O mənada qəbul etmirdi ki, bununla da türk olurdu. Sadəcə, dövlətin, əhalinin aparıcı etnosu olması bir faktdır, reallıqdır. Üçrəngli Azərbaycan bayrağının birinci rənginin mavi olması hamını türk etmək deyildir. Sadəcə, bu bölgədə yaşayan insanları vahid dövlət halında birləşdirməkdir. Mən o cürə işləmişəm. Əli bəy Hüseynzadəni, Məhəmməd Əmin Rəsulzadəni də o cürə qəbul edirəm. Ancaq mən hesab edirəm ki, Sovet dövründə, xüsusulə 1930-cu illərdən conra o birləşdirici amillər tamam başqa yerə, əks istiqamətə yozuldu. Xüsusilə, milli aydınlarımızı, bizim düşünən beyinlərimizi məhv etdikdən sonra bu baş verdi. Təkcə cismi yox, mənəvi cəhətdən o aydınlarımızı ya məhv etdilər, ya da fikirlərini dəyişdirməyə

məcbur etdilər. Ondan sonra türkləşməyə, islamlaşmağa Sovet-Rus ideoloqlarının baxışları ilə yanaşılmağa başlandı. İslamlaşmaq olmaz, türkləşmək hamını məhv etməkdir, mürtəcedir – panislamizmdir, pantürkizmdir. Mənim demək istədiyim odur ki, mən qismən, sizin əksəriyyətiniz isə əsasən Sövet dövründə yaşamısınız. O ideologiyanın, o təhsilin içindən keçmisiniz. Bir çoxlarınızın da mənə qarşı, mənə qarşı deyəndə bu fikirlərimə qarşı olmağınızı da normal qarşılayıram. Mənim məqsədim budur ki, biz nə istəyirik? Biz əlbəttə, sovet dövründəkindən imtina etmədən, amma Cümhuriyyət dövründən başımızın üzərində dalğalanan üçrəngli bayrağın mənəvi mahiyyətini dərk etməliyik. Yəni bu quru şüarçılıqla, populizmlə və sairlə bağlı olmamalıdır. Mənim əsas istəyim budur. Biz 70 il ərzində bizim şüurlarımıza yeridilən azərbaycançılıq anlayışının da (hansı ki, o dövrdəki azərbaycançılıq anlayışı ilə bağlı müəyyən mənada istisnalar ola bilər), mahiyyətini dərk etməliyik. Yeri gəlmişkən, bu zaman Heydər Əliyevə də, başqalarına da toxunmuşam... Mən nəyi demək istəyirəm, İlham müəllim! Bu mənim yanaşmamdır, bu mənim mövqeyimdir. Mən hesab edirəm ki, 70 illik Sovet imperiyasından sonra, indiki 20 il ərzində bizim şüurumuz yenə də daha çox sovet təfəkküründə əsaslanır. Bu təbiidir. Çünki hətta, biz yaş baxımından 1920-1930-cu illərin nəsli deyilik. Yəni ən azı bir nəsil sovet dövrünün nəslidir. O insanların 1950-ci illərdə artıq əsasən, şüurlarını dəyişdirdilər. Məsələn, İslam dininə münasibətdə qurbanlıq bayramı mənfidir və s....".

Bu zaman müəllifin sözü yarımçıq kəsilmış, bundan istifadə edən Elmi Şura üzvü, fəlsəfə elmləri doktoru **Adil Əsədov** bildirmişdir ki, bu məsələlərə münasibətdə əvvəllərlə müqayisədə F.Ələkbərovun fikirləri xoşuna gəlməyə başlayıb. Onun fikrincə, ancaq müəllifin deməsi ki, Azərbaycanda əsas kütlə türklərdir, doğru deyildir: "Azərbaycanın əsas kütləsi azərbaycanlılardır, Azərbaycanın vətəndaşlarıdır. Başqa cür ola

bilməz. Bu dövləti də quranlar, Azərbaycan Cümhuriyyətini də quranlar, buradakı bütün Azərbaycan xalqı iştirak edib. Həmçinin, Azərbaycanı qoruyanda da hamı bir yerdə iştirak edib, Azərbaycan uğrunda şəhid olublar. Bu bizim xalq, bu Azərbaycan xalqıdır. Bu bizim dövlətdir, azərbaycanlı dövlətidir. Başqa heç bir türkün, heç bir başqasının dövləti deyildir".

Müəllif isə A.Əsədovun xüsuslə, son sözünə, yəni Azərbaycanın türkün dövləti olmaması fikrinə etiraz olaraq demişdir: "Azərbaycan dövləti ilk növbədə, türklük üzərində qurulub. O türklük Sovet dövründə mənfi yerə yozulmuşdur ki, guya hansısa etnikləri assimilyasiya etmək deməkdir. Əksinə, Cümhuriyyət dövründə qeyri-türk etniklərə daha çox şərait yaratmışdılar. Ancaq Sovet dövründə nə etdilər? Ən çox özünü türk kimi dərk edənlər assimilyasiya oldular. Bu fərqli, başqa şeylərdir. Bu gün də Azərbaycanın əsas kütləsi türklərdir...".

Müəllif son olaraq onu da xatırlatmışdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə XXI əsrin Türk əsri olacağını bəyan etmişdir. Bu monoqrafiyanın da əsas mahiyyətini dövlət başçısının irəli sürdüyü bu amal, bu prinsip təşkil edir.

Bütün bunlara baxmayaraq İnstitutun Elmi Şurasının 3 fevral 2014-cü il tarixli iclasında "Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış" (II hissə) adlı monoqrafiyanın müzakirəsindən bir neçə gün sonra sonra müəllifə həmin iclasın 3 saylı protokolundan aşağıdakı "Çıxarış" təqdim olunmuş və həmin "Çıxarış"ın qərar hissəsində yazılmışdır: **"f.ü.f.d. Ələkbərov Faiq Qəzənfər oğlunun "Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış" (II hissə) adlı monoqrafiyasında bir sıra ziddiyətli məqamlar olduğuna görə müəllifə elmi seminarda çıxış etmək və iradlara aydınlıq gətirmək tövsiyə edilsin".**

Ancaq institutun Elmi Şurasının həmin qərarına əsasən müəllifin dəfələrlə İnstitut rəhbərliyinə müraciətlərinə baxmayaraq elmi seminar təşkil edilməmiş, bunun əvəzində ona başqa

bir seminarda həmin məsələ ilə bağlı 10-15 dəqiqəlik çıxış etmək məsləhət görülmüşdür. Müəllif bununla razılaşmayanda və ayrıca elmi seminarın təşkil edilməsini tələb etdikdə institutun direktoru İlham Məmmədzadə bildirmişdir ki, əslində Elmi Şuranın 3 fevral 2014-cü il tarixli iclasında o, monoqrafiyanın institutun xətti ilə nəşrinə "yox" demişdir. Bu mənada, mövcud "Çıxarış"ın qərarında qeyd olunması ki, "monoqrafiyada bir sıra ziddiyyətli məqamlar olduğuna görə müəllifə elmi seminarda çıxış etmək və iradlara aydınlıq gətirmək tövsiyə edilsin", bunun Elmi Şuranın kitabın institutun xətti ilə nəşr olunmaması qərarına aidiyyəti yoxdur və həmin qərar dəyişilməyəcəkdir. Direktor qeyd etmişdir ki, bu baxımdan müəllifə təqdim edilən "Çıxarış" da Elmi Şuranın qərarı öz əksini doğru tapmamışdır. Həmin yanlışlıq yaxın günlərdə düzəldiləcək, yəni Elmi Şuranın kitabın institutun adından nəşrinə razı olmadığı ilə bağlı müəllifə yeni "Çıxarış" veriləcəkdir. Doğrudan da, bir neşə gün sonra müəllifə yeni "Çıxarış" təqdim olunmuş və orada yazılmışdır: "**f.ü.f.d. Ələkbərov Faiq Qəzənfər oğlunun "Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış" (II hissə) adlı monoqrafiyasında bir sıra ziddiyyətli məqamlar olduğuna görə çapa məsləhət görülməsin".**

Bununla da, Elmi Şura adından İ.Məmmədzadə "Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış" adlı kitabın II hissəsinin institutun xətti ilə nəşr olunmasının birmənalı əleyhinə olduğunu ifadə etmişdir. Fikrimizcə**, həm şöbə adından A.Hacıyevanın, həm də institutun Elmi Şurasının adından İ.Məmmədzadənin bu cür qərarlar qəbul etməsinə əsas səbəb monoqrafiyanın türkçülük ruhunda yazılması olmuşdur.** Bütün bunlardan sonra müəllif adı çəkilən kitabının II hissəsini İnstitutun Elmi Şurasının qərarı olmadan çap etdirmək məcburiyyətində qalmışdır.

XXI əsr Türk dünyasının əsri olacaqdır!
Azərbaycan Respublikasının
Prezidenti İlham Əliyev

ÖN SÖZ

Mövzunun aktuallığını nəzərə alaraq kitabın birinci hissəsində nədən bu mövzuya müraciət edilməsi, monoqrafiyanın məqsəd və məramlarının nəzərə çatdırılmasını xatırlatmaqla yanaşı, bu bölümündə də bəzi məqamlara toxunmağı zəruri hesab etmişik.

Azərbaycanda milli ideologiyanın yaranması və formalaşması haqqında mövcud ədəbiyyatda kifayət qədər ziddiyyətli fikirlər verilir. Bu məsələ ilə bağlı görüşlərin nədən ibarət olması, hansı ideyalar və cərəyanlarda öz əksini tapması bir çox hallarda qeyri-müəyyən olaraq qalır. Bunun əsas səbəblərindən biri, çağdaş ədəbiyyatın xeyli qismində hələ də, sovet ideologiyasının qalıqlarının özünü büruzə verməsidir. Belə ki, sovet ədəbiyyatında öz əksini tapmış ideologiya haqqındakı bilgilər, hazırda bir qədər dəyişdirilmiş formada cəmiyyətə təqdim olunur. Şübhəsiz, bu, ciddi tədqiqat işlərinin aparılması əvəzinə sovet ədəbiyyatının məzmununun müəyyən qədər dəyişdirilməsindən, milli fəlsəfi fikir tariximizə obyektiv qiymət verilməsi zamanı qarşıya çıxan əngəllərdən, başqa sözlə, milli məsələlərə hələ də sovet dövrünün prizmasından yanaşılmasından, Azərbaycan fəlsəfəsi tarixinə münasibətdə vahid baxışın olmamasından və bütövlükdə, milli ideologiya sahəsindəki boşluqlardan irəli gəlir. Buna da səbəb odur ki, müstəqilliyimizi bərpa etsək də, ötən illər ərzində nəinki tariximiz, ədəbiyyatımız, dilimiz, dini-fəlsəfi dünyagörüşmüz ilə bağlı

milli konsepsiya formalaşmamış, üstəlik bu müddət ərzində bir-birinə zidd mülahizələr daha da artmışdır.

Qeyd edək ki, çağdaş ədəbiyyatda milli ideologiya probleminə onlarla kitablar, yüzlərlə məqalələr həsr olunmuşdur. Azərbaycanda milli ideologiya probleminin bu və ya digər dərəcədə tədqiqatçıları sırasında – Ramiz Mehdiyev, Əfrand Daşdəmirov, Səlahəddin Xəlilov, Əlikram Tağıyev, Nizaməddin Şəmsizadə, Əbülhəsən Abbasov, Nizami Cəfərov, Yadigar Türkel, Sona Vəliyeva, İlham Məmmədzadə və başqaları var. Bu tədqiqatçılar milli ideologiya və ya milli ideya kimi təqdim olunan türkçülük, islamçılıq, azərbaycançılıq və başqa cərəyanları araşdıraraq bəzən üst-üstə düşən, bəzən də fərqli mülahizələr irəli sürmüşlər. Belə ki, bu araşdırmaçılardan bəziləri azərbaycançılığa (Ə.Daşdəmirov, R.Mehdiyev, S.Xəlilov və b.) çox üstünlük verdikləri halda, digər qismi türkçülük və azərbaycançılığın (Ə.Tağıyev, N.Şəmsizadə, Ə.Abbasov, Y.Türkel və b.) sinergizmindən çıxış etmişlər.

Fikrimizcə, XIX-XX əsrlərdə Azərbaycanda gedən ideoloji proseslərdə əsas iki xətt: 1. İslam-Türk-Şərq mədəniyyəti və ideologiyası: islamlaşmaq, türkləşmək, müasirləşmək, milli azərbaycançılıq; 2. Rus-Avropa-Qərb mədəniyyəti və ideologiyası: qərbpərəstlik, avropasayağı "mollanəsrəddinçilik", milli bolşevizm-sosializm, sovet azərbaycançılığı olmuşdur. Bu ikili mübarizə XXI əsrin əvvəllərində də öz aktuallığını qoruyub saxlamaqdadır. Belə ki, bu iki xəttdən hansının əsasında milli ideyanın müəyyənləşdirilməsi müzakirə obyektidir. Bizcə, Rus-Avropa-Qərb mədəniyyətindən tamamilə imtina etmədən, ancaq milli-mənəvi dəyərlərin əsasında milli ideyanın vacibliyi qaçılmazdır. Monoqrafiyanın ana mahiyyətini də bu ikili xətt arasında gedən ideoloji mübarizə təşkil edir.

Qeyd edək ki, milli-mənəvi dəyərlərə sahib çıxılması və yaşadılmasının vacibliyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən də dəfələrlə səsləndirilmişdir. 2012-ci il

mayın 25-də 28 may – Respublika Günü münasibətilə çıxış edən İlham Əliyev bəyan etmişdir ki, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tarixi bir hadisə olmuşdur. Dövlət başçısına görə, Azərbaycan xalqı və dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır. Bugünkü müstəqil Azərbaycan da Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Prezidentin fikrincə, yeni nəsil də həmin dövrdə yarananan dövlətçilik ənənələrinə sadiq qalmalı, milli-mənəvi dəyərlərimizi qorumalıdır: "Azərbaycan xalqı və Azərbaycan islam dünyasının ayrılmaz parçasıdır. Bu, bizim tariximizdir, bu günümüzdür, ənənəmizdir, milli identifkasiyamızdır. Biz milli dəyərlərimizə çox sadiqik və bu dəyərlər bizim üçün hər şeydən üstündür. Dəfələrlə demişəm və şadam ki, gənc nəsil də milli ruhda böyüyür, milli ruhda tərbiyə alır. Biz Azərbaycan xalqının zəngin milli-mənəvi dəyərlərini, ənənələrini qorumalıyıq, təbliğ etməliyik. Hər bir Azərbaycan gənci, hər bir Azərbaycan uşağı bu əhval-ruhiyyədə böyüməlidir" [86[a]].

Bu mənada, ötən bir əsrdə ikili xəttin ətrafında gedən ideoloji proseslər bugünkü Azərbaycan cəmiyyətinin həyatında nəinki həlledici rol oynamış, eyni zamanda onun gələcəyini müəyyənləşdirmək, konkret bir milli konsepsiyaya əsaslanması baxımından da çox önəmlidir. Ancaq burada, xüsusilə fəlsəfə tarixi baxımından əsas problem odur ki, ötən əsrdən bizə miras qalan ideya və ideologiyaları təsdiq və ya inkar edərkən, digər müəlliflər hansı metodologiyadan çıxış etmişlər və biz, nəyi təklif etmişik.

Bizcə, milli və bəşəri dəyərlərin sintezindən çıxış etməklə yanaşı, birincinin müəyyən üstünlüyünü önə çəkilməlidir. Zənnimizcə, ötən əsrin əvvəllərində Azərbaycan milli ideoloqları (M.Ə.Rəsulzadə, N.Yusifbəyli, Ə.Topçubaşov və b.) da məhz belə bir metoddan istifadə edərək, milli-demokratik məfkurəyə əsaslanan Azərbaycan Cümhuriyyətini yaradarkən

milli özünəməxusuluğu heç vaxt arxa plana keçirməmişlər. Bu Cümhuriyyətin milli ideologiyası dövlət bayrağında da öz əksini tapdığı kimi, türkçülük-milillilik, müasirlik-dünyəvilik və islamçılıq-dini-mənəvi dəyərlər təşkil etmişdir. Bu üç ideya Azərbaycan milli ideologiyasının mahiyyətini təşkil etmiş, Azərbaycan Cümhuriyyətinin yaranması ilə yeni bir ideya – azərbaycançılığı doğurmuşdu. Bununla da, Azərbaycan milli ideologiyasının əsasını artıq dörd ideya xətti: türk(çülük), islam(çılıq), çağdaş(lıq) və azərbaycan(çılıq) təşkil edir.

Şübhəsiz, türkçülük, islamçılıq və müasirliyə əsaslanan azərbaycançılığın yaranmasında M.Ə.Rəsulzadə mühüm rol oynamışdır. Çağdaş Azərbaycan dövlətçiliyinin yaranmasında və milli istiqlal ideyalarının yayılmasında müstəsna əməyi olan M.Ə.Rəsulzadə ədəbi-ictimai fikir tariximizə də layiqli töhfələr vermişdir. Bütün bunların dövlət səviyyəsində qeyd edilməsi də göstərir ki, Rəsulzadə Azərbaycan tarixinin və fəlsəfəsinin dəyərli milli ideoloqlarından biri olmuşdur.

Qeyd edək ki, bu yaxınlarda Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respbulikasının Prezidenti İlham Əliyev sərəncam (2013, 22 noyabr) imzalamışdır. Həmin sərəncamda bildirilir ki, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadə xalqımızın müstəqillik idealının gerçəkləşdirilməsində, Azərbaycan tarixi dövlətçilik ənənələri zəminində milli dövlət quruluşunun dirçəldilməsində, milli istiqlal ideyalarının geniş yayılmasında böyük xidmətlər göstərmişdir [86^{b}].

Biz monoqrafiyada Azərbaycan milli ideologiyasının mahiyyətini açmaq üçün təkamül prinsipinə əməl edilməsini və bu zamanı baş verən siyasi-ideoloji olayların dəyərləndirilməsinin önəmli olması ilə yanaşı, Azərbaycan milli ideyası yaranana qədər mövcud olan və o, yarandıqdan sonra da öz əhəmiyyətini itirməyən milli ideyaların ciddi şəkildə təhlil

olunmasını vacib hesab etmişik. Bu baxımdan monoqrafiyanın ana xəttini, birincisi, islamçılıq, türkçülük və müasirlik ideyalarının azərbaycançılığın (Azərbaycan türkçülüyünün) yaranmasındakı rolu ilə yanaşı, onun mövcudluğu dövründə həmin ideyaların hansı mövqe tutması təşkil etmişdir. Bizcə, bu gün əsas məqsəd həmin ideyaları dirçəltmək, Cümhuriyyət dövründəki milli şüuru bərpa etmək olmalıdır. Əlbəttə, milli şüurun bərpası çağdaş dövrün tələblərini də nəzərə alınmaqla həyata keçirilməlidir. Bu mənada, Cümhuriyyət dövründəki ideyalarla çağdaş dövrün tələblərinin uzlaşdırılması Azərbaycan xalqının milli ideyasının əsas meyarı olmalıdır.

Ona görə də monoqrafiyada öncə islamçılıq, türkçülük və müasirlik ideyaları, onların mənbələri və inkişaf yolları ayrı-ayrılıqda geniş şəkildə araşdırılmışdır. Məsələn, monoqrafiyada islamçılığın nəzəri mənbələrinin göstərilməsi, "panislamizm" və "İslam birliyi" anlayışlarının şərhinin verilməsi ilə yanaşı, bu cərəyanın Azərbaycanda hansı istiqamətlərdə (mühafizəkar və mütərəqqi) inkişaf etməsi, milli ideologiyanın formalaşmasında hansı rol oynaması tədqiqata cəlb olunmuşdur. Ən əsası odur ki, bu kitabda ilk dəfə, mühafizəkar islamçılarla (Ə.Axundoğlu, Y.Z.Talıbzadə, Q.Qarabəyli və b.) mütərəqqi islamçılar (Ə.Ağaoğlu, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə və b.) bir-birlərindən fərqləndirilmiş, onların "İslam birliyi"ni hansı mənada başa düşmələri və bu mənada islamlaşmağın Azərbaycan milli ideyasının – azərbaycançılığın yaranmasındakı rolu dəyərləndirilmişdir.

Monoqrafiyada azərbaycançılığın yaranmasında müstəsna rol oynayan türkçülük cərəyanının necə meydana çıxması və onun hansı mərhələlərdən keçməsi də geniş şəkildə tədqiq edilmişdir. Burada göstərilmişdir ki, türkçülük mədəni birlikdən siyasi-ideoloji birliyə qədər yüksəlmiş, son nəticədə romantik (Turan birliyi və s.) və gerçək türkçülük (Azərbaycan türkçülüyü, Türkiyə türkçülüyü və s.) kimi iki önəmli qola aryılmışdır. Xüsusilə, monoqrafiyada romantik türkçülükdən (Ə.Hüseynzadə

və b.) və gerçək türkçülükdən (M.Ə.Rəsulzadə və b.) çıxış edənlərin mülahizələri geniş şəkildə təhlil olunmuşdur. Eyni zamanda, burada türkçülüyün və Azərbaycan türkçülüyünün (azərbaycançılığın) hansı mənada üst-üstə düşməsi, yaxud da ziddiyyətli olmasının aydınlaşmasına cəhd göstərilmişdir. Xüsusilə, kitabda türkçülüklə bağlı milli dil məsələsi daim diqqətdə saxlanılmış, "türk dili" və "Azərbaycan dili" anlayışlarının Azərbaycan türklərinin dilinin adını özündə nə dərəcədə əks etdirməsi araşdırılmışdır.

Türkçülüyün Azərbaycan Respublikası və onun xalqı üçün əhəmiyyətini dövlət başçısı İlham Əliyev də dəfələrlə bəyan etmişdir. 2013-cü ilin avqustun 16-da Azərbaycanın Qəbələ şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısında İlham Əliyev bildirmişdir ki, bu təşkilatda təmsil olunan xalqları ortaq milli-mənəvi dəyərlər birləşdirir: "Bizim xalqlarımızı ortaq tarix, mədəniyyət və müştərək dəyərlər birləşdirir. Əsrlər boyu bizim xalqlarımız bir-biri ilə sıx əlaqədə olmuşdur, əməkdaşlıq etmişik, bir yerdə yaşamışıq, bir-birimizə dayaq, arxa olmuşuq. Bu gün isə müstəqil dövlətlər kimi, biz bütün məsələlərdə bir yerdəyik, bir yerdə olmalıyıq. Hesab edirəm ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının başlıca vəzifəsi xalqlar və ölkələr arasındakı birliyi daha da möhkəmləndirməkdir" [86^{c}].

İ.Əliyev daha sonra bildirmişdir ki, türkdilli dövlətlər arasında türk mədəniyyətinin birliyi vacib məsələlərdən biridir. Prezidentin fikrincə, türk mədəniyyətinin də əsasında ortaq köklərimiz, ortaq bayramlarımız və ortaq dillərimiz çıxış edir: "Bizim mədəniyyətimiz bir-birinə çox bağlıdır. Bizim köklərimiz də, bayramlarımız da eynidir, dillərimiz də bir-birinə oxşayır. Yəni, humanitar sahə əməkdaşlığımız üçün əsasdır. Yəni, əgər bu olmasaydı yəqin ki, əməkdaşlıq bu dərəcədə inkişaf etməzdi. Ona görə əlbəttə ki, humanitar sahələrdə aparılan işlərə çox böyük diqqət göstərilməlidir. Mən

TÜRKSOY-un fəaliyyətini xüsusi vurğulamaq istəyirəm. TÜRKSOY nəinki türkdilli dövlətlərdə, bütün türk diyarlarında fəal iş aparır və beləliklə, türk dünyasının birləşməsinə xidmət göstərir. Mən çox şadam ki, Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüs də artıq reallaşır. Türk mədəniyyətinə dəstək və Türk İrsinin Qorunması Fondunun tezliklə yaradılması çox önəmli hadisə olacaqdır" [86[c]].

Hazırda dünyanın bir çox bölgələrində ciddi problemlərin yaşandığı bir dövrdə Türk dünyasında sabitlik və inkişafın hökm sürdüyünü bildirən İ.Əliyev qeyd etmişdir ki, bu uğurlar Türk dünyasının bütövlüyünü daha da gücləndirəcəkdir: "Bu gün dünyanın müxtəlif yerlərində, o cümlədən əfsuslar olsun ki, İslam dünyasında proseslər müxtəlif istiqamətdə gedir, qarşıdurmalar, vətəndaş müharibələri, digər xoşagəlməz hallar baş verir. Bizim diyarlarımızda, türk diyarında isə sabitlik, inkişaf hökm sürür Bu, böyük nailiyyətdir, böyük sərvətdir. Xüsusilə nəzərə alsaq ki, dünyada hələ də maliyyə və iqtisadi böhran davam edir, bizim ölkələrimizin uğurlu inkişafı, ölkələrdə mövcud olan sabitlik və tərəqqi hesab edirəm ki, xalqlarımızın böyük nailiyyətidir, dövlətlərimizin böyük sərvətidir. Biz bu sərvəti qorumalıyıq, birgə səylərlə qorumalıyıq, inkişaf etdirməliyik. XXI əsr türk dünyasının əsri olmalıdır" [86[c]].

2013-cü ilin noyabrın 13-14-də Türkiyədə səfərdə olan dövlət başçısı İlham Əliyev burada bir daha bəyan etmişdir ki, 70 il ərzində Azərbaycan və Türkiyə xalqları bir-birindən ayrı düşsələr də, xalqlarımızın qəlbində olan sevgini o ayrılıq söndürə bilməmişdir: "Azərbaycan dövlət müstəqilliyinə qovuşduqdan sonra dərhal Türkiyə ilə əlaqə qurdu. Türkiyə müstəqilliyimizi tanıyan ilk ölkə olmuşdur və o gündən bu günə qədər biz daim Türkiyənin dəstəyini hiss edirik. Bu, bizə əlavə güc verir" [86[d]]. İ.Əliyev daha sonra bildirmişdir ki, bu münasibətlərin təməlində türklük dayanır: "Qardaşlıq, dostluq əbədidir, əbədi olacaqdır. XXI əsr türk dünyasının əsri olacaqdır. Türkiyə

və Azərbaycan bu istiqamətdə liderlik rolunu öz üzərinə götürüb və əminəm ki, biz birgə səylərlə gələcəkdə də böyük uğurlara imza atacağıq" [86[d]].

Monoqrafiyada ilk dəfə olaraq, müasirləşmək ideyası da fərqli yöndən şərh edilərək onun milli ideologiyadakı yeri və rolu dəyərləndirilmişdir. Burada göstərilir ki, hələ ötən əsrin əvvəllərində islamlaşmaq və türkləşməklə yanaşı, liberal-demokratizmin tərəfdarları da (Ə.Topçubaşı və b.) olmuş və onlar bunun Azərbaycan milli ideyası ilə heç bir ziddiyyət təşkil etmədiyini göstərmişlər.

Bütün bunların yekunu olaraq monoqrafiyada ötən əsrin əvvəllərində mövcud olan və Azərbaycan milli ideologiyasının əsasını təşkil edən islamlaşmaq, türkləşmək və müasirləşmək ideyalarının günümüzdə nə qədər aktuallıq kəsb etməsi hərtərəfli şəkildə tədqiq edilmişdir. Bizə elə gəlir ki, hazırda xüsusilə bu "üçlük"lə azərbaycançılıq və modernləşmək ideyaları arasında oxşar və fərqli cəhətlər göstərilməli, bu zaman çağdaş dövrün tələbləri ilə yanaşı, milli-mənəvi dəyərlər də nəzərə alınmalıdır.

Azərbaycan Milli ideologiyası problemi ilə bağlı əsas məsələ yalnız o deyildir ki, ötən əsrin əvvəllərində mövcud olan bu "üçlük" indi nə qədər zəruridir, ya da zəruri deyildir. Yəni bəzilərinə görə hazırda "üçlüy"ün zəruri olmadığı, digərlərinə görə aktual olduğu qənaətlərinə gəlinə bilər. Məsələn, Ə.Daşdəmirov, R.Mehdiyev hesab edir ki, bu gün "üçlük" ötən əsrin əvvəllərində olduğu kimi zəruriyyət kəsb etmir, bu mənada azərbaycançılıq ideologiyasında "üçlük"dən yalnız istifadə oluna bilər. Yəni yenidən "üçlüy"ə qayıtmaq və onu milli ideologiya kimi qəbul etmək doğru olmazdı. Çünki indiki dövrün tələbləri, imkanları ilə həmin dövrün şəraiti xeyli dərəcədə fərqlidir.

Bu cür mülahizələrdə müəyyən həqiqət vardır və onu irəli sürənlərlə əsasən, razılaşmamaq da mümkün deyildir. Sadəcə, burada diqqəti çəkən azərbaycançılıq ideyası baxımından

“üçlük”dən necə və hansı formada istifadə olunmasıdır. Bu baxımdan, bizcə, hazırda bəzi tədqiqatçılar tərəfindən “üçlüy”ün, xüsusilə türkçülüyün azərbaycançılıqdan az qala tamamilə fərqli bir ideya kimi irəli sürülməsi doğru deyildir. Əksinə, “üçlük”lə, daha çox da türkçülüklə azərbaycançılıq arasında heç bir ziddiyyətin olmaması, onların bir-birini tamamlaması mülahizəsi önə çəkilməlidir.

Monoqrafiyada Azərbaycan milli ideologiyasının mahiyyətinin aydınlaşdırmaqdan ötrü milli ideologiya anlayışı ilə yanaşı, milli ideyanın da nədən ibarət olması araşdırılmışdır. Hər halda, hazırkı ədəbiyyatda milli ideya və milli ideologiya məsələlərinin qarışdırılmasına tez-tez rast gəlirik. Bunun da nəticəsi olaraq əksər hallarda azərbaycançılıq həm milli ideya, həm də milli ideologiya kimi təqdim olunur. Bu baxımdan əvvəlcə bilməliyik ki, Azərbaycan milli ideyası və Azərbaycan milli ideologiyası dedikdə, nəyi nəzərdə tuturuq. Bizcə, ideya bir fikri, təsəvvürü, prinsipi özündə əks etdirdiyi halda, ideologiya bir neçə fikri, təsəvvürü və yaxud prinsipi özündə cəmləşdirən baxışlar sistemidir. İlk baxışda, milli ideya nisbətən məhdud, milli ideolgiya isə daha geniş anlayışdır. Ancaq bunun özünə münasibətdə də kifayət qədər ziddiyyətlər vardır.

Kitabın bu hissəsində azərbaycançılığın mahiyyətinə, onun yaranması, formalaşması və inkişaf mərhələlərinə fəlsəfə tarixi baxımından da toxunulmuşdur. İlk dəfə, “azərbaycançılıq” anlayışının ikili xarakter daşıması məsələsi tədqiqata cəlb olunmuş, milli azərbaycançılıqla sovet-kosmopolit azərbaycançılığın fərqləndirilməsinin əhəmiyyətindən bəhs olunmuşdur.

Ümumiyyətlə, monoqrafiyada milli ideologiya ilə bağlı Azərbaycan milli ideyası və Azərbaycan milli ideologiyası, azərbaycançılıqla bağlı milli ruhlu azərbaycançılıq və sovet-kosmopolit azərbaycançılıq, türkçülüklə bağlı romantik və fedaralist türkçülük, islamçılıqla bağlı mühafizəkar islamçılıq (islam fundamentalizmi) və mütərəqqi islamçılıq (dünyəvi islam),

müasirləşməklə bağlı ifrat qərbçilik və yeniləşmə-demokratikləşmə məsələlərinə aydınlıq gətirilməyə çalışılmışdır.

Cəmiyyətimizin zehnində Azərbaycan
istiqlalı fikri yer tutmuş, yerləşmişdir.
Çünki üçrəngli o məğrur bayraq artıq
siyasətən hamımızı birləşdirmişdir!
Məhəmməd Əmin Rəsulzadə

I FƏSİL

XX yüzilliyin əvvəllərində (1900-1920) Azərbaycan fəlsəfi fikrində Milli ideya axtarışı

1.1. Milli ideya, onun mahiyyəti və əsas xətləri

Azərbaycan milli ideologiyasının tərkib hissəsinə bir yox, bir neçə ideya daxildir. Doğrudur, bu ideyalar sıralamalarına görə zaman-zaman yer dəyişdirmiş, hətta bəzən milli ideyaları qeyri-milli ideyalar belə əvəz etmişdir. Məsələn, Azərbaycan milli ideologiyasının tərkib hissəsində dörd ideya: türkçülük, islamçılıq, müasirləşmək, azərbaycançılıq arasından 20-ci əsrin əvvəllərində ardıcılıqla islamçılıq, müasirlik, türkçülük öndə olmuşdursa, SSRİ dövründə (1920-1991) onları qeyri-milli sovet beynəlmiləlçiliyi və "sovet azərbaycançılığı", müstəqilliyimizin bərpasından sonrakı dövrdə (1991-…) isə milli azərbaycançılıq əvəz etmişdir. Ola bilsin ki, müəyyən müddətdən sonra yeni bir ideya, məsələn türkçülük ideyası azərbaycançılığı üstələyəcəkdir. Əlbəttə, bütün bu yer dəyişmələrin baş verməsində dünyada, regionda və cəmiyyətin öz daxilində baş verən proseslər mühüm rol oynayır. Yəni heç bir şeyi mütləqləşdirərək demək ki, yox bu heç vaxt mümkün ola bilməz, doğru deyildir.

Azərbaycan milli ideologiyası probleminin mahiyyətini dərindən başa düşmək üçün, öncə milli ideya və milli ideologiya məsələsinə aydınlıq gətirməyə çalışmışıq. Çünki hər bir millətin

varlığı ilk növbədə, milli ideya və yaxud da milli ideyalarla bağlıdır. Məhz bir və yaxud bir neçə ideyanın sonucu olaraq milli ideologiya yaranır. Ümumiyyətlə, millətin həyatında yalnız bir ideyanın olması və onun əsasında milli ideologiyanın təşəkkül tapması çətindir. Burada ən yaxşı halda hansısa milli ideyanın aparıcı rolundan bəhs oluna bilər. Yəni istənilən halda, milli ideologiyanın tərkibinə bir neçə ideya daxil olur. Ancaq burada diqqət yetirləcək əsas məsələ ondan ibarətdir ki, birincisi, hər hansı millət üçün hansı ideyalar önəmlidir. Yəni bir millət hansı bir neçə ideyanı milli ideologiyanın tərkib hissəsinə qəbul edir. İkincisi isə, həmin ideyalar arasından hansı milli ideya aparıcı mövqeyə malik olur.

O da istisna deyil ki, zaman-zaman milli ideologiyanın tərkibinə ya kənardan, ya da cəmiyyətin öz daxilindən yeni ideyalar daxil olsun. Çünki ideologiya ideya, yaxud ideyalar haqqında təlim olduğuna görə, hər hansı millət müəyyən zaman kəsiklərində yeni ideya ilə üzbəüz qala bilər. Bu zaman yeni ideya və yaxud ideyaların mövcud ideyaların üstündən ya bir dəfəlik xətt çəkməklə (zorakılıqla), ya da müxtəlif üsullarla onları kölgədə qoymaqla cəmiyyətin şüurunda özünə yer tapması da mümkündür. Bu cür hallar ayrı-ayrı millətlərin taleyində dəfələrlə baş vermişdir. Bununla qarşılaşan millətlər yeni ideyalarla mövcud ideyalar arasında ya uzlaşdırma tapmağa çalışmış, ya yeni ideyanı qəbul etməmiş, ya da onun qarşısında məğlub duruma düşmüşlər. Məsələn, ruslar onlara kənardan daxil olan marksizmi rus milli ideyasının bir forması halına gətirmiş, bununla da çar Rusiyasının yerində Sovetlər Birliyi imperiyasını qurmağı bacarmışlar. Bunun eynisini onlardan öncə farslar Hind-Avropa nəzəriyyəsinin yaradıcılarının yardımı ilə etmişlər. Belə ki, farsların bir neçə əsr milli dövlətləri olmamış, yalnız İslam dinini şiəlik adı altında farsçılıqla-irançılıqla eyniləşdirdikdən sonra İranı bir fars dövləti etməyi bacarmışlar. Almanların əksəriyyəti isə bir əsrdə həm millətçiliyin ən

mürtəce forması olan faşizmi-hitlerizmi qəbul etmiş, həm də çox keçmədən ondan imtina etmişlər.

Çar Rusiyası və Qacarlar dövləti arasında gedən müharibələrdən və həmin müharibələrin nəticəsi olaraq bağlanan müqavilələrdən (1813-cü il "Gülüstan", 1828-ci il "Türkmənçay") sonra iki yerə: Quzey Azərbaycana və Güney Azərbaycana parçalanan Azərbaycan türklərinin həyatında da özlərinin müəyyənləşdirdikləri milli ideyalar qədər (türkçülük, islamçılıq, müasirləşmək, milli azərbaycançılıq), kənardan daxil olan qeyri-milli ideyalar (farsçılıq-irançılıq, ruslaşdırma, marksizm-leninizm və b.) da mühüm rol oynamışdır. Məsələn, 1925-ci ilə qədər türk sülaləsinin idarə etdiyi Qacarlar dövlətinin devrilməsində və farsların hakimiyyətə gəlməsində ilk növbədə, Güney Azərbaycan türklərinin İslam dini adı altında onların şüurlarına yeridilən şiəçilik-irançılıq ideyası qarşısında yenilmələri olmuşdur. Təxminən 100 ilə yaxın, özü də demək olar ki, birtərəfli şəkildə aparılan ideya savaşından farsların qalib çıxmasından sonra Güney Azərbaycan türkləri yenidən milli ideyalarını, xüsusilə türkçülüyü dirçəltməkdən başqa yol görmürlər.

Quzey Azərbaycan türkləri isə çar Rusiyası və Sovet Rusiyasının işğalı müddətində ruslaşdırma, rus bolşevizmi və sovetləşdirmə kimi kənar ideyaların təsirinə məruz qalmışlar. Quzey Azərbaycan türklərinin Güney Azərbaycan türklərindən fərqli olaraq kənar ideyalara dirəniş göstərməsində, bunun da nəticəsi olaraq türkçülük, müasirlik anlayışlarını onlardan öncə mənimsəmələrində Vətənlərinin iki yerə parçlanmasından sonra fərqli vəziyyətlərdə, mühitlərdə yaşamaları səbəb olmuşdur.

Bu mənada, çar Rusiyasında baş verən sosial-siyasi, iqtisadi dəyişikliklər və inqilablar fonunda müstəmləkə altında olan bir çox millətlər kimi, quzey Azərbaycan xalqı da milli azadlıq hərəkatından kənarda qala bilməzdi. Şübhəsiz, digər müstəmləkə millətlər kimi Azərbaycan türklərinin də milli azadlıq hərəkatının əsas özəyində milli ideya və yaxud milli

ideyalar dayanırdı. Çünki müstəmləkəçilikdən qurtulmaq istəyən millət ilk növbədə, milli ideya və yaxud milli ideyalarını müəyyənləşdirməli idi.

Təxminən XIX əsrin ortalarından etibarən Azərbaycan Türk mütəfəkkirlərindən bəziləri (M.F.Axundzadə və b.) millətin xilasının İslam dini əsasında axtarılmasının əleyhinə çıxıb daha çox yeniləşmək adı altında Qərb mədəniyyətinə meyil göstərdiyi halda, digərləri (A.A.Bakıxanov, S.Ə.Şirvani və b.) Qərb mədəniyyətindəki müsbət meyilləri inkar etmədən, ancaq Türk-İslam mədəniyyətindən möhkəm yapışıb ilkin İslam və Türk adət-ənənələrini dirçəltməklə cəmiyyətin problemlərinin həll olunmasına inanırdılar. Bununla da, XX əsrin əvvəllərində bu mütəfəkkirlərin sələfləri arasında əsasən qərbçiliyə-avropalaşmağa (M.A.Şahtaxtlı, C.Məmmədquluzadə, N.Nərimanov və b.) meyil edənlərlə yanaşı, türkçülüyü və islamçılığı (Türk-İslam mədəniyyətini) önə çəkənlər (Ə.Hüseynzadə, Ə.Ağaoğlu və b.) də vardı. Doğrudur, hər iki xəttin tərəfdarları arasında da milliliyə və qərbləşməyə meyillər olmuşdur. Ancaq hər iki tərəf bütövlükdə, digər ideyalara münasibətdə tutduqları ideya xətti çərçivəsindən kənara çıxmırdılar. Bu mənada, Ə.Hüseynzadənin, Ə.Ağaoğlunun türkçülük və islamçılıqla yanaşı, müasirləşməyə, hətta sosial-demokratizmə bəzən müsbət münasibətləri başa düşüləndir. Eləcə də, C.Məmmədquluzadənin, N.Nərimanovun Rus-Avropa-Qərb xəttinə üstünlük vermələrinə baxmayaraq türk kimliyini və türk dilini daim müdafiə etmələrində də qəribə heç nə yoxdur. Ancaq hər iki ideya xəttinin tərəfdarları ümumilikdə millətin bu günün və gələcəyini ya Rus-Avropa-Qərb mədəniyyətində, ya da Türk-İslam-Şərq dəyərlərində görmüşlər.

Deməli, Azərbaycan xalqı iki yerə parçalandıqdan sonra Quzey Azərbaycan türk mütəfəkkirlərinin dünyagörüşlərində iki xətt hakim olmağa başladı:

1. İslam-Türk-Şərq mədəniyyəti və ideologiyası: islamlaşmaq (“islam millətçiliyi”-“İslam birliyi”), türkləşmək (osmanlı türkçülüyü-Turan birliyi), müasirləşmək; milli azərbaycançılıq

2. Rus-Avropa-Qərb mədəniyyəti və ideologiyası: qərbpərəstlik (Qərb mədəniyyətinin üstünlüyü), avropasayağı “mollanəsrəddinçilik”, milli bolşevizm-sosializm, sovet azərbaycançılığı.

1.2. İslam-Türk-Şərq mədəniyyəti və ideologiyası: islamlaşmaq, türkləşmək, müasirləşmək

XX əsrin əvvəllərində Azərbaycan milli məfkurəsinin müəyyənləşməsində əsas ideyalar çağdaş ruhlu İslamçılıq və Türkçülük olmuşdur. H.Baykaranın təbrincə desək, bütövlükdə həmin dövrdə mübahisələr “avropalaşmaq, türkləşmək və islamlaşmaq” ətrafında getmiş və onun əsasında Azərbaycan türklərinin milli azadlıq hərəkatı dayanmışdır [52, 119]. Bu xəttin aparıcı daşıyıcıları Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu və Əlimərdan bəy Topçubaşı bir tərəfdən dini-əxlaqi keyfiyyətləri, milli mənsubiyyəti sinfi mübarizə adı altında inkar edən marksist-leninçi və qərbpərəst ifrat tərəqqiçilərə, digər tərəfdən isə hər cürə yeniləşmənin əleyhinə olan mühafizəkarlara qarşı idilər. Milli ideoloqlar cəmiyyətin həyatında milli, dini-əxlaqi keyfiyyətlərin qorunub saxlanılması ilə yanaşı, müsəlman-türk cəmiyyətini yeniləşməsinin zəruriliyindən də bəhs edirdilər. Türkçülüyün ideoloqu Ziya Gökalp yazırdı: “Bu üç şəxs orada o zamana qədər hakim olan sünnilik və şiəlik anlaşılmazlıqlarını ortadan qaldıraraq türklük və islamlıq fikirləri ətrafında bütün azərbaycanlıları toplamağa çalışdılar” [88, 29].

Yeri gəlmişkən, islamlaşmaq və türkləşmək ideyalarının tərəfdarları SSRİ ədəbiyyatında milli burjuaziya kimi qələmə verilmişdir. Çağdaş ədəbiyyatda isə milli burjuaziyanın əvəzinə

daha çox "milli-demokratik" anlayışından istifadə olunur. Ancaq milli burjuaziya anlayışından fərqli olaraq "milli-demokratik" anlayışı ilə bağlı müəyyən bir tərifin, dəqiq təsəvvürün olmamasının nəticəsidir ki, sovet ədəbiyyatında Azərbaycanda "inqilabi-demokratik" cərəyanın tanınmış nümayəndələri kimi təqdim olunan M.F.Axundzadə, N.Nərimanov, C.Məmmədquluzadə və başqaları hazırda bəzi ədəbiyyatda milli-demokratik cərəyanın təmsilçiləri kimi qələmə verilirlər. Hətta, qeyd olunur ki, hazırda dövlət müstəqilliyinin möhkəmləndirilməsində, milli ideologiyanın formalaşdırılmasında N.Nərimanovun zəngin ədəbi, elmi, nəzəri-fəlsəfi irsi etibarlı mənbə kimi son dərəcə aktualdır [94, 3]. Bunun əvəzində, SSRİ dövründə "pantürkist" və "panislamist" mütəfəkkirlər kimi qələmə verilib sosialist dünyagörüşünə, fəhlə sinfinin inqilabi hərəkatına xəyanət etdiklərinə görə tənqid olunan Ağaoğlular, Rəsulzadələr, Topçubaşılar və başqaları [65[a]] haqqında hələ də, birmənalı olmayan fikirlərə, mülahizələrə rast gəlirik.

Fikrimizcə, ciddi araşdırmalar aparılmadan, problemə kompleks şəkildə yanaşılmadan hazırda ayrı-ayrı mütəfəkkirlər, eləcə də siyasi-ideoloji cərəyanlar haqqında təsadüfi, yersiz mülahizələrin səsləndirilməsi doğru deyildir. Xüsusilə, bəzi ədəbiyyatda həmin dövrün bir çox aydınlarına münasibətdə, elmi obyektivlikdən daha çox subyektiv yanaşmalara rast gəlirik. Ən acınacaqlısı odur ki, həmin dövrün ziddiyyətlərini aydınlaşdırmaq, bir çox mütəfəkkirlərin nədən təzadlı mövqelərdən çıxış etməsini aşkara çıxarmaq, mühitin mürəkkəbliyini nəzərə almaq əvəzinə, sovet ədəbiyyatının məzmununun bir qədər dəyişilməsi, yaxud da SSRİ müəlliflərinin irəli sürdüyü mülahizələrin doqmatik şəkildə qəbul edilməsi halları ilə qarşılaşırıq. Bu baxımdan Milli Azadlıq Hərəkatı uğrunda mübarizə aparanların çar Rusiyası və SSRİ ədəbiyyatında "millətçi", "pantürkist", "panislamist" kimi verilməsi təəccüblü olmasa da, hazırda, ciddi araşdırmalar aparılmadan sovet dövründə

marksizmin qatı düşmənləri kimi qələmə verilən həmin şəxsiyyətlərin, əsasən layiq olduqları yüksək mövqelərinin aşağı salınmasına cəhd, əvəzində yenidən marksist-leninçi ideoloqların müdafiə olunması başa düşülən deyildir.

Ümumiyyətlə, hesab edirik ki, SSRİ dövründə yeri gəldi-gəlmədi bir çox mütəfəkkirlərin yaradıcılığında marksizmin, ateizmin elementləri "aşkar" edilərək onların bolşevikləşdirilməsi, ya da "inqilabçı-demokrat" kimi qələmə verilməsi doğru olmadığı kimi, hazırda eyni ənənənin davam etdirlərək səmimi qəlbdən marksizm, yaxud da bolşevizmə xidmət edənlərin milli məfkurəyə aid edilib "milli-demokrat" adlandırılması da yanlışdır. Sadəcə, qeyd edilə bilər ki, Azərbaycan milli ideyası – azərbaycançılıq yaranana qədər, mütəfəkkirlərimizdən bir qismi nicat yolunu Türk-İslam-Şərq mədəniyyətinə əsaslanan türkçülük və islamçılıqda, başqa qismi Rus-Avropa-Qərb mədəniyyətinin təsiri altında ya liberal-demokratizmdə, ya da sosial-demokratizmdə görmüşlər. Bütün bunlar ona dəlalət edir ki, millətin varlığı və nicatı uğrunda müxtəlif ideyalara üz tutan, bəzən öz ideoloji baxışlarını dəyişərək birindən digərinə keçən Azərbaycan türk aydınları üçün milli ideya xəttini seçmək, onun ətrafında birləşmək heç də asan proses olmamışdır. Bu dövr o qədər xaotik, qarışıq olmuşdur ki, bir çox aydınlar uzun müddət islamçılıq, türkçülük, müasirlik, liberalizm, ittihadçılıq, marksizm, liberal-demokratizm və başqa ideyalar arasında çırpınmış, bir-birinə zidd olan gah bir, gah da digər cərəyana üz tutmuşlar. Ona görə də ötən 20 il ərzində mövcud olan ideyaların saf-çürük edilərək Azərbaycan milli ideologiyasının yaranması prosesi heç də asan olmamışdır.

İslamçılıq, onun mahiyyəti və əsas istiqamətləri. İslam-Türk-Şərq mədəniyyətinə əsaslı milli ideyalar arasında ilk olaraq önə çıxan dini birlik - **İslam birliyi** olmuşdur. Din qan-nəsil (etnos) birliyinə əsaslanmasa da, ancaq bir çox millətlərin varlığında və özünü qorumasında mühüm rol oynamışdır. Hətta,

bəzi millətlər bu günə qədər var olmalarında tapındıqları dinə borcludurlar. Çünki dinin cəmiyyətin şüuruna təsiri qan-nəsil birliyindən daha çox etiqad, inam və inanclarla bağlıdır. Bu inanclar, inamlar müxtəlif millətlər daxilində fərqli mahiyyətlərə malik olmalarına baxmayaraq, onların əsas təsiretmə vasitəsi ilk növbədə, şüurla bağlıdır. Yəni din ideyasında insanları birləşdirən onların şüurlarındakı hər hansı sitayiş obyektləri və ona gətirilən inamlar, etiqadlardır.

Özəlliklə, müstəmləkə halına düşmüş bir çox millətlərin bundan qurtulmaq üçün milli ideya kimi tapındıqları hər hansı dini seçmələri də təbiidir. Məlum olduğu kimi milli özünütəyin, milli özünüdərklə bağlı ideyalar yaranana qədər din ideyası milli ideya rolunda çıxış etmişdir. Təsadüfi deyil ki, orta əsrlərdə bir çox Avropa millətlərinin əsas milli ideyası Xristian dini olmuşdur. Avropa millətləri (fransızlar, ingilislər və b.) yalnız XVII-XVIII əsrlərdən başlayaraq millət və din ideyalarını bir-birindən fərqləndirməyə başladılar. Bununla da, həmin dövrdən etibarən Avropanın xristian toplumları millətləşmə prosesinə üz tutdular. Bu prosesdə N.Makiavelli, T.Hobbs, C.Lokk, Ş.L.Mönteskye və başqaları mühüm rol oynadılar.

Maraqlıdır ki, Xristian Avropasında millətləşəmə prosesi getdiyi bir dövrdə İslam Şərqində dinləşmə daha da gücləndi. Məsələn, Osmanlı, Səfəvilər kimi böyük müsəlman dövlətlərində milli kimlik tamamilə aradan qalxır, onun yerini sünni osmanlılığı, şiə iranlılığı tuturdu. Bu baxımdan həmin əsrlərdə Avropa mütəfəkkirləri milləti xristianlıqdan fərqləndirməyə çalışdıqları halda, müsəlman Şərqi mütəfəkkirləri tərsinə ümmətçiliyi gücləndirməyə çalışırdılar. Bu mənada, müsəlman xalqlarının (ərəb, türk, fars və b.) mütəfəkkirlərinin bir qismi islamçılığı həmişə milli ideya kimi qəbul etmişlər. Onlar bu fikirlərini isə daha çox "müsəlmanlar qarşadırlar" prinsipi ilə əsaslandırmağa çalışıblar. Sadəcə, bu zaman hər bir müsəlman mütəfəkkiri İslam dininə təmsil olunduğu millətin (ərəb, fars,

türk və s.) milli-mənəvi dəyərləri çərçivəsində yanaşıblar. Başqa sözlə, milli mədəniyyətləri ilə dini mədəniyyətlərini müxtəlif yollarla bir-birinə uyğunlaşdırmağa cəhd göstəriblər. Hətta, bəzi millətlər (farslar və b.) bir qədər də qabağa gedərək milli mədəniyyətlərini müsəlman mədəniyyəti adı altında təqdim edərək, digər millətlər üzərində milli üstünlükləri bu formada həyata keçirməyə çalışmışlar.

Ümumiyyətlə, XIX əsrin sonu – XIX əsrin əvvəllərinə qədər istər müsəlman ölkələrində, istərsə qeyri-müsəlman imperiyalarda müstəmləkəçiliyə qarşı mübarizə aparan müsəlman xalqları İslam amilini aparıcı ideya kimi görmüşlər. Yalnız bu dövrdən etibarən din ideyasına münasibətdə iki əsas məsələ özünü qabarıq surətdə büruzə vermişdir. Bunlardan **birincisi,** "İslam biriliyi" ideyasını əxlaqi-mənəvi dəyər kimi qəbul edib, onu millilikl paralel şəkildə aparmaqdır (C.Əfqani, M.İqbal, Ə.Ağaoğlu, Ə.Hüseynzadə və b.). Yəni millilik və islamlığı bir-birindən fərqləndirərək onlar arasındakı oxşar və fərqli cəhətləri görməyi bacarmaqla yanaşı, istənilən halda onların sintezindən çıxış etməkdir. Türklüklə islamlıq arasındakı oxşar və fərqliliklər heç də bir-birini tamamilə ya təsdiq və ya da tamamilə inkar etməsi anlamında başa düşülməməlidir. Başqa sözlə, heç bir halda bunların arasında mütləq bərabərlik və qeyri-bərabərlik işarəsi qoyulmamalıdır. Əgər kimlərsə məsələyə əvvəlcədən bu cür yanaşacaqlarsa, bu zaman müsbət nəticə əldə etmək də çətin olacaqdır. Eyni sözləri, türklük və müasirlik, islamçılıq və müasirlik anlayışlarına da aid edə bilərik.

Ola bilər ki, milliliyə, yaxud da müasirliyə aid hər hansı bir əməl dinlə səsləşməsin. Bu zaman millətin üzvlərinin istənilən məsələyə nə qatı millilik (bəzilərinə görə müasirliyin ziddinə olaraq) baxımından yanaşması, nə də islamlıqdan çıxış etməsinin vacibliyini irəli sürmək doğru deyildir. Ümumiyyətlə, millətin üzvləri istənilən məsələyə münasibətdə millillik və

islamlıq nəzər nöqtəsindən fərqli yanaşsalar da, son nəticədə həm millətin, həm də dinin ortaq çıxarılarına uyğun hərəkət etməlidirlər. Ən azı ona görə ki, dini əxlaqi-mənəvi dəyər kimi qəbul edən millət dövlət siyasətində prioritet olaraq milli maraqlardan çıxış edir. Din isə bu milli maraqların tərkib hissəsi kimi dövlətin işinə qarışmır, əksinə lazım gələn anlarda millilik ideyasına dəstək olur. Fikrimizcə, bu halda millilik müəyyən mənada, şərti olaraq din ideyasından üstün mövqe tutur. Əlbəttə, bu çox nisbi bir məsələdir. Ancaq bütün hallarda, milli maraqlar baxımından milliliyin dinə münasibətdə nisbi də olsa, üstünlüyü vacib məsələdir. Çünki əksər millətlərin (fransızlar, ingilislər, türklər, almanlar, ruslar və b.) müstəqil varlığında millilik amili əsas götürülür, nəinki din faktoru.

Din ideyasına münasibətdə **ikinci** önəmli məsələ, ondan siyasi ideologiya kimi istifadə olunmasıdır. Yəni bəzi millətlər, xüsusilə İslam Şərqinə aid bir çox xalqlar (ərəblər, farslar və b.) var ki, müstəqil varlıqlarına görə, ilk növbədə din faktoruna borcludurlar. Ancaq bu o demək deyil ki, bu ölkələrdə millilik faktoru nəzərə alınmır. Sadəcə, müsəlman inanclı bəzi millətlər, o cümlədən ərəblər, farslar və başqaları bir çox səbəblərə görə "İslam birliyi" ideyasını dövlətin rəsmi ideyası kimi qəbul etsələr də, faktiki olaraq millilikdən – panərəbizmdən, pan-farsizmdən çıxış edirlər. Ona görə də bu ölkələrdə isə din ideyasının millilikdən üstünlüyü nisbi xarakter daşıyır.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda milli ideya kimi dinə münasibətdə hər iki hal özünü büruzə vermişdir. Əgər nəzərə alsaq ki, islamçılıq bir ideoloji təlim kimi XIX əsrin sonlarında bütün İslam-Türk dünyasında geniş yayılmışdı, artıq bütün əksər türklər kimi VII-VIII əsrlərdən etibarən İslam dininə tapınan Azərbaycan türklərinin də həyatında onun əhəmiyyəti başa düşüləndir. Başqa sözlə, islamçılıq həm Azərbaycan xalqının VII əsrdən bəri tapındığı bir dinin əxlaqi-mənəvi təzahürü kimi, həm də yeni dövrlə çulğalaş-

maq istəyən bir fikir cərəyanı olaraq Azərbaycan türk mütəfəkkirləri üçün doğma olmuşdur. Xüsusilə, İslam dininə tapınan bütün türklər kimi Azərbaycan türklərinin zaman-zaman milli kimliklərini "müsəlman" olaraq görmələri, milli və dini keyfiyyətlərini son dərəcədə bir-biri ilə çulğalaşdırmaları islamçılığın Azərbaycanda yer tapmasında mühüm rol oynamışdır. Bu baxımdan Milli Azadlıq Hərəkatının inkişafında yeni bir dönəmə daxil olan Azərbaycan türklərinin, onların aydınlarının əksəriyyətinin də, ilk olaraq "İslam birliyi" ideyasına müraciət etmələri təbii idi. Bu mənada M.Ə.Rəsulzadə doğru yazırdı ki, Azərbaycan türkləri arasında başlanğıcda milli oyanış dini çərçivədə olmuş, dinin elmə zidd olmaması kimi mülahizələr irəli sürülmüş, bu mənada, XIX əsrdə Qafqaz türkləri milli varlıq kimi özünü hələ göstərə bilməmiş, daha çox ümmətçilik mənasında din və məzhəbçiliyə meyil etmişdir [189, 42].

XX əsrin əvvəllərində islamçılığı ("İttihadi-islam"ı) təbliğ edən bütün qüvvələrin hamısı Qərb və Sovet ədəbiyyatında "panislamistlər" adlandırılmış və bu dini-siyasi təlim "panislamizm" kimi qələmə verilmişdir. Xüsusilə, Sovet ədəbiyyatında Azərbaycan milli burjuaziyasının ideologiyasına mürtəce dini-siyasi təlim olan "panislamizm"in təsirindən bəhs olunmuşdu. Sovet müəllifləri iddia edirdilər ki, panislamistlər "İttihadi-islam" proqramını həyata keçirmək üçün feodal keçmişi, köhnəliyi və patriarxal həyat tərzini ideallaşdırmış, müsəlmanları keçmiş birliyə qayıtmağa çağırmış, bu yolda İslamı müsəlman xalqının dirçəlməsi və yeniləşməsi üçün yeganə vasitə hesab etmişlər. Guya, sultan Türkiyəsində yaranmış "panislamizm" İslam dininə itaət edən bütün xalqları vahid müsəlman dövləti halında birləşdirməyi təbliğ etmişdir [27, 40; 157, 112; 125, 61].

Fikrimizcə, SSRİ ədəbiyyatında "İttihadi-İslam" və "panislamizm" anlayışlarına yalnız mürtəce məna verilərək, onun mütərəqqi mahiyyətinin gizlədilməsi Qədim Mustafayevin

"XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi" əsərində qismən etiraf edilmişdi. O qeyd edirdi ki, "İttihadi-İslam" ideyasının yalnız "panislamizm" adı altında qələmə verilərək, burada əsas məqsədin "ümumdünya müsəlman siyasi birliyi"nin, "xilafət"in yaradılmasının olması ilə bağlı müddəalar heç də həqiqətə uyğun deyil: "Cəmaləddin Əfqaninin "İttihadi-İslam"ı daha geniş mənaya malik olub, dini-əxlaqi və ictimai-siyasi məzmun kəsb edən bir təlim olmuşdur. Buna görə də panislamizmi iki mənada sözün geniş mənasında – əfqanilərin irəli sürdükləri dini-əxlaqi, ictimai-siyasi təlim və hərəkat mənasında və dar mənada – yalnız siyasi məqsədlər güdmək, "xristian dünyasına qarşı qüdrətli vahid "ümumdünya müsəlman dövləti" yaratmaq, ümumdünya müsəlmanlarını vahid siyasi mərkəzdə (xilafətdə) birləşdirmək mənasında, yəni dini-siyasi ideologiya və hərəkat mənasında anlamaq olar" [159, 143]. Doğrudan da, islamçılığın dini-əxlaqi təlim kimi konsepsiyasını yaradan C.Əfqani öz xələflərinə demişdir ki, nəhəng bir vücud olan İslam dini ağır "xəstə"dir [30, 332], belə bir vəziyyətdə olan müsəlman dünyasının xilası ilkin İslamı mənimsəmək və əməl etməklə yanaşı, milli mədəniyyətlərinə sahib çıxmaları, həmçinin milli varlıqlarını qoruyub saxlamalarıdır. Çünki milliyyət din üzərində deyil, dil və mədəniyyət birliyi üzərində qurulur. Bu mənada, milli diriliyin təməlini milli mədəniyyətin ünsürləri təşkil edir [154, 51-52].

Əfqani və onun ardıcıllarının – müsəlman burjua ziyalılarının, İslamın müasirləşdirilməsi tərəfdarlarının "İttihadi-İslam"ı daha çox antiimperialist, ümumdemokratik məzmun ifadə etmişdir deyən Q.Mustafayev bununla yanaşı yazırdı ki, sovet müəlliflərinin əsərlərində "İttihadi-İslam" və "panislamizm" anlayışları ikinci – dini-siyasi ideologiya mənasında işlənmişdir və işlənməkdədir. Buna əsas səbəb də "İttihadi-İslam"ın milli-dini birlik mahiyyətinin sosial-demokrat, sosializm əqidəsi ilə ziddiyyət təşkil etməsi olub [159, 144]. Deməli, SSRİ

dövrünün müəllifləri "İttihadi-İslam" məsələsində mütərəqqi ruhlu islamçılarla mühafizəkarları qəsdən bir-birindən ayırmamış və bununla da, bütövlükdə islamçılığı mürtəce bir dini-siyasi ideologiya kimi qələmə vermişlər.

Maraqlıdır ki, hazırda da əksər ədəbiyyatda "panislamizm" kimi qələmə verilən islamçılığın ideya istiqamətləri doğru şərh olunmur və vahid cərəyan kimi qələm verilir. Çağdaş tədqiqatçılardan Sevda Süleymanova, Altay Göyüşov, Arzu Hacıyeva hesab edirlər ki, "İslam birliyi"ndən çıxış edənlər panislamistlər, ittihadçılar, "İttihadi-İslam"çılar olublar [201[a], 49; 89, 16; 94, 16-17]. Bu baxımdan islamçılıq ideyasına münasibətdə bəzi müəlliflərlə (N.Mikayılov, S.Süleymanova, A.Göyüşov və b.) razılaşmadığımız əsas məsələ ondan ibarətdir ki, hər iki tərəf obyektiv elmi araşdırmalar aparmaq əvəzinə, subyektiv mövqedən çıxış edərək bəziləri şişirdilmiş, həqiqətəuyğun olmayan tənqidə, digərləri isə bu mənada tərifə yol vermişlər. Bununla da, islamçılığın mütərəqqi mahiyyəti "panislamizm" adı altında əsasən qeyri-müəyyən qalmışdır.

Fikrimizcə, "panislamistlər" kimi ümumi bir ad altında verilən milli və mütərəqqi ziyalıları, əsasən keçmişi ideallaşdıran, hər cür yeniliyə qarşı olan mühafizəkarlardan, o cümlədən onların siyasi qanadı olan "ittihadçılar"dan hökmən fərqləndirmək lazımdır. Bu baxımdan M.Ə.Rəsulzadənin vaxtilə islamçılıq daxilindəki həmin ikiləşməni görməsi və qeyd etməsi çox zəruridir: "İslam bilginlərinin çoxu müsəlman dünyasını son çöküşdən bir yandan dinin köklü doqmalarına qayıtmaqla, o biri yandan da müsəlmanların siyasi birləşməsilə qorumağı düşünürdülər. Ancaq islamçılıq ideologiyasının bu dini-siyasi ikiüzlülüyü sonralar panislamizmdə iki axının ayrılmasının başlanğıcı oldu. Bir axın, xarici güclərlə savaşan, ancaq o gücləri andıran hər bir yeniləşməyə də qarşı çıxıb, hər hansı avropaçılığa savaş deyən ortodoksal – tutucu axındır. Yenidənqurucu, ikinci axın isə Avropa saldırısı ilə siyasi savaşmaqla

ideologiya alanında çağın liberalizmini şəriətə uyğun uyğulamaq istəyirdi" [179, 44]. Bunu, Ə.Ağaoğlu və Ə.Hüseynzadənin XX əsrin ilk illərində siyasi-ideoloji ideyalarla bağlı apardığı bölgü də sübut edir. Onlar da Türk-İslam dünyasının nicatı uğrunda mübarizə aparanları siyasi-ideoloji baxışlarına görə üç qrupa: 1) mühafizəkarlara; 2) ifrat tərəqqipərvərlərə; və 3) həmin iki xətt arasında orta mövqe tutan mötədil tərəqqipərvərlərə, yaxud da "panislamist"lərə bölmüşlər [5, 332; 109, 34].

Mühafizəkar islamçılar və "ittihadçılıq". 1900-1920-ci illərdə "İslam birliyi"ni önə çəkərək milli mənsubiyyəti dini kimliyin içində əridən mühafizəkar islamçılar (Əbuturab Axundoğlu, Əbdüssalam Axundzadə, Yusif Ziya Talıbzadə və b.) hesab edirdilər ki, xalqın keçmişdən uzaqlaşması, köhnə ehkamların zəifləməsi, ifrat sərbəstlik müsəlmanlara üz verən bütün bəlaların yeganə mənbəyidir. Onlar müsəlmanların nicatını yalnız ilkin İslam və şəriət qanunlarına əməl etməkdə görürdülər. Onların fikrincə, müsəlmanların birliyə nail olmasının yalnız iki başlıca şərti var ki, onlardan biri Peyğəmbərin (s) Əhli-beytini tanımaq, digəri Quranın mahiyyətini dərk etməkdir [19, 7; 87, 37].

Məsələn, **Əbuturab Axundoğlu** yazırdı ki, bütün müsəlman millətlərinin niyyəti və amalı "ittihad" olsa da, həqiqətdə bunun əksinə onların arasında ixtilafın olduğunu görürük. Mömin-lər arasında ixtilaf və nifaqa səbəb isə, bu dinə zahirən tapınanlardır. Məhəmməd peyğəmbərin (s) günbəgün tərəqqi və inkişaf edən "diyyanəti-İslamı"nı görən münafiqlər "bu xəyalə düşdülər ki, kəlməyi-həqqi nüfuz və cərəyanından mane olsunlar və diyanəti-islamiyyənin möhkəm əsasına xələl yetirib xərab etsinlər" [18, 17]. Ümumilikdə, Ə.Axundoğlu "İslam birliyi"nə nail olmaq üçün birincisi, müsəlman xalqları arasında məzhəb ayrılığına son qoyulmasını və bütün müsəlmanların sidq ürəkdən Qurana və Məhəmməd peyğəmbərin (s) əhli-beytinə tapınmasını, tovhidi əsas kimi götürmüşdür [18, 32]. İkincisi, o, Avropa

mədəniyyətinin müsəlman mədəniyyətinə təsirinin qarşısının alınmasını vacib hesab etmişdir [17]. Fikrimizcə, burada xüsusilə, Axundoğlunun İslam mədəniyyəti xaricində, bütün mədəniyyətlərə, o cümlədən Avropa elminə qarşı olması düzgün hesab oluna bilməz. Hər halda, İslam mədəniyyəti kimi, Avropa xalqlarının, o cümlədən başqa dinə sitayiş edən millətlərin də bəşər mədəniyyətinə və insaniyyətə xidmətləri olmuşdur. İslam xalqları arasındakı məzhəb və digər ayrılıqların, fərqlərin onların ən azı mənəvi birliyinə əngəl olması məsələsində isə Axundoğluyla razılaşmamaq mümkün deyildir. Ancaq bu məsələdə o, özü də İslam dininin müəyyən bir hissəsinin müdafiəçisi kimi çıxış etmişdir ki, bu da, birmənalı qəbul edilə bilməz.

XX əsrin əvvəllərində "İslam birliyi" ideyasının siyasi qanadı isə "İttihad" partiyası olmuşdur. "İttihadçı"lar (S.M.Qənizadə, Q.Qarabəyli və b.) "İslam birliyi" ilə yanaşı, müəyyən dərəcədə türkçülüyə rəğbət göstərsələr də, bu, milli kimliklərinin türk olması hissindən uzağa getməmişdir. Ümumilikdə, onlar Azərbaycan türklərinin xilasını "İslam birliyi"ndə axtarmış, bu mənada gah Osmanlı müsəlmanları, gah da Rusiya müsəlmanları ilə birləşməyin tərəfdarı olmuş [136, 83-84], qərbçiliyə qarşı mübarizə aparmışlar. Məsələn, "ittihadçı"ların lideri **Qarabəy Qarabəyli** milli-demokratları ilk növbədə Avropa demokratiyasını və mədəniyyətini təbliğ etdiklərinə görə daim tənqid etmişdir. Belə ki, demokratiyanın mərkəzi sayılan Avropa həmişə İslam dininə qarşı olmuş və müsəlman dövlətlərini məhv etmək niyyəti güdmüşdür. Ona görə də, Avropanın gözqamaşdıran demokratiyası aldadıcıdır [106, 58]. Eyni zamanda etnik türkçülüyü də "İslam birliyi"ni parçalamaq kimi başa düşən Qarabəyli Azərbaycan Milli hökumətinin yalnız son kabinetdə təmsil olunmalarını isə indiyə qədər öz dost və düşmənlərini yaxşı tanımamaları ilə izah etmişdi [35, 651]. Ancaq "ittihadçı"ların Milli hökumətin sonuncu kabinetində təmsil olunmaları ona xeyirdən çox zərər vermişdir. Belə ki, Rusiya müsəlmanlarının birliyini Azərbaycanın müstəqilliyindən

üstün tutan "ittihadçı"lar bolşevikləri Avropa kapitalizminə və imperializmə qarşı mübarizə apardıqları üçün müdafiə etmələrilə ciddi yanlışlığa yol vermiş oldular [44, 552].

Bu baxımdan sonralar M.Ə.Rəsulzadə və M.B.Məmmədzadə yazırdılar ki, "İttihad" partiyası öz varlığını Rusiya münasibətləri içində təsəvvür etmiş, düşüncəsi əsasən "İttihadi-İslam" sisteminə bağlı olmuşdur. Ən əsası "İttihad" milliyyət, istiqlal və demokratiya anlayışlarına əks olaraq, müsəlmanların parçalanmaması üçün Rusiyanın bütövlüyünü müdafiə etmişdir [189, 75; 154, 144]. Bizcə, bütün bunlar bizə deməyə əsas verir ki, "İttihad"ın siyasi-ideoloji fəaliyyəti Azərbaycan milli ideyasının formalaşması prosesində əsasən, mənfi rol oynamışdır. Belə ki, "ittihadçı"lar türkçülük, azərbaycançılıq ideyasını və onun bariz nümunəsi olan Azərbaycan Cümhuriyyətini müdafiə etmək əvəzinə, gah "ilhaqçı"lara (Osmanlı ilə birləşmək tərəfdarlarına), gah da bolşeviklərə (Rusiya ilə birləşmək istəyənlərə) qoşularaq Milli hökumətin süqutunda müəyyən pay sahibi olmuşlar.

Mütərəqqi islamçılar və "İslam millətçiliy"i nəzəriyyəsi. Bəs, XX əsrin əvvəllərində Ə.Ağaoğlu, Ə.Hüseynzadə və başqa milli aydınlarımızı mühafizəkarlardan və "ittihadçı"lardan fərqləndirən nə idi? Xüsusilə, "Panislamizm" kəlməsini ortaya atanlar şərqlilər deyil, qərblilərdir – deyən, Əli bəy Hüseynzadə hansı yolu seçmişdi? Ə.Hüseynzadə özü bu suala təxminən belə cavab vermişdir ki, Rusiya müsəlmanlarının və türklərinin guya, "panislamizm" ideyası ətrafında ittifaq və itttihad edərək Rusiya və Avropa üçün böyük təhlükə olduğu haqqında yazdıqları böhtandan başqa bir şey deyildir. Hüseynzadəyə görə, İslam dünyası o qədər müttəhid, müttəfiqdir ki, "panislamizm" kimi bir əcnəbi kəlməsi icad edib yenidən ittihad və ittifaq etməyə əsla ehtiyacları yoxdur. Əslində müsəlmanların düşmənlərini qorxudan "İslam birliyi" deyil, onların qəflət yuxusundan oyanıb tərəqqiyə və maarifə üz tutmalarıdır [109, 73-74]. Deməli, Ə.Hüseynzadəyə görə, əsas məqsəd müsəlmanların tərəqqisi və maariflənməsi idi. Bu yolda

isə, yalnız şəriət qanunlarından deyil, eyni zamanda Qərbin mütərəqqi dəyərlərindən də istifadə etmək lazımdır. Halbuki mühafizəkarlar və "ittihadçı"lar bunu, yalnız İslam dini əsasında görürdülər.

Ona görə də Ə.Hüseynzadə yazırdı ki, mühafizəkarlar hər növ təzə və yeni şeylərdən və işlərdən həzər edib insanları davamlı şəkildə bir nöqtədə saxlamaq xəyalındadırlar [109, 34]. Bu baxımdan, avropalılar gözlərini gələcəyə doğru dikdiyi halda, İslam-Türk dünyası hələ də keçmişdən ayrıla bilmir. Halbuki keçmişi görmək, bilmək, yalnız istiqbalı, tərəqqini təyin üçün lazımdır. Hüseynzadənin fikrincə, bu keçmişpərəstliyin mötədil şəkli köhnəpərvərlik, ifrat forması geriyəpərəstlikdir; bunların üzündən müsəlmanlar 4-5 yüz il ərzində dünyada baş verən, cərəyan edən yeniliklərdən, inqilablardan, dünyəvi elmlərdən xəbərsiz, nəsibsiz qalıblar [111, 141]. Bu baxımdan yenipərəstlik və köhnəpərəstlik məsələsini "Həyat" qəzetində müzakirə obyektinə çevirən Ə.Hüseynzadə, yalnız dini elmlərin öyrənilməsi ilə bağlı Ə.Axundoğlunun fikirlərinə qatılmayaraq tərəqqi etməyin, bu mənada dünyəvi elmlərinin öyrənilməsini zərurətindən bəhs etmişdir [109, 124]. Beləliklə, Ə.Hüseynzadə bir tərəfdən müasirləşməyə həmişə hazır islamlıq və türklük ideyasını irəli sürür, digər tərəfdən onun "panislamizm" və "pantürkizm" kimi qələmə verilməsinə qarşı çıxırdı. Başqa sözlə, Ə.Hüseynzadənin yaradıcılığında mütərəqqi ruhlu islamçılıq və ya türkçülük deyil, bəzi Avropa mütəfəkkirləri tərəfindən ortaya atılan və mürtəce mahiyyət daşıyan "panislamizm" və "pantürkizm" tənqid olunmuşdu [78, 207].

Xüsusilə, Ə.Hüseynzadə ilk dövrlərdə islamiyyəti müsəlman-türk xalqlarının nicatı kimi görmüş, bir növ onu "İslam birliyi"nə zərər verə biləcək ayrıca götürülmüş istənilən millətçiliyə, kapitalizmə və marksizm-leninizmə (rus bolşevizminə) qarşı qoymuşdu. Onun fikrincə, inqilabların baş verməsi üçün zəruri şərait olmalı, bütün inqilablar təkamül yolu ilə baş verməli

və hər bir xalqın milli ruhuna, dininə, mədəniyyətinə uyğun olmalıdır. Bunu nəzərə alaraq Ə.Hüseynzadə yazırdı ki, marksist-leinçilər birdən-birə sıçramaq, özlərini qorxulu girdablara, uçurumlara atmaq istəyirlər: "İkincilər (marksist-leninçilər – F.Ə.) isə zənn edirlər ki, İslamda mədəniyyətə, tərəqqi və təkamülə xidmət edəcək bir şey yoxdur. Avropa cəhətindən əsən bütün yellər, hətta zəhərli yellər belə şəfabəxşdir. Bunlar bütün bu maddiyunluğun (materializmin), dəhriyunluğun (ateizmin), iştirakiyunluğun (sosializmin) mahiyyətlərinə özləri belə agah olmadan bu təriqəti-fəlsəfiyyələrin nəşrə çalışıyorlar" [109, 34].

Deməli, Ə.Hüseynzadə bolşeviklərin radikal qırmızı-inqilab ideyalarını rədd edir, marksizm-leninizmi zərərli bir təlim adlandırır və ona qarşı müasir ruhlu milli-dini birliyi – "yaşıl inqilab" ideyasını irəli sürürdü. O, "yaşıl inqilab" dedikdə, müsəlman xalqlarının, o cümlədən türklərin oyanmasını, inkişafını və birliyini nəzərdə tuturdu: "Yaşıl deyiriz, çünki öz müsəlmanlarımızdır. Zümrüd-yaşıl işıqlı islamiyyə qəndillərini yandırmaq qeyrətində bulunanlarımızdırlar" [109, 185]. Hüseynzadəyə görə, məhz müsəlmanların İslam qanunlarına əməl etməmələrinin nəticəsidir ki, Şərqin müsəlman məmləkətləri dərin bir ətalət, zülmət və cəhalət içindədir: "O ətalətin, o zülmətin müdhiş və mühib girdabları, tələtümləri vardır. Cismaniyyat və maddiyyata möhtac olmayan girdab və tələtümləri vardır" [28, 109]. Onun fikrincə, islamiyyət daxilində nifaqa və təfriqəyə səbəb müsəlman məmləkətlərindəki monarxiya, Şərq bürokratiyası, sünni-şiə qarşıdurması və bundan istifadə edən Avropa dövlətləri, oradan əsən zəhərli yellərdir [109, 270].

Ancaq artıq sünni və şiə məsələsinin müsəlmanlar arasında əhəmiyyətinin qalmadığını deyən Hüseynzadə yazırdı ki, İslam dini xristianlığa bənzəmədiyi üçün bu dinə tapınan xalqları vahid kütlə kimi birləşdirməyə qabildir [109, 270]. Bu mənada, yalnız İslam və Qurana əsaslanan ideya müsəlman xalqlarını tərəqqiyə apara bilər, bunlardan kənarda hər hansı bir təlim, o cümlədən

millətçilik-nasiyonalizm müsəlman millətləri üçün çıxış yolu ola bilməz. Beləliklə, mütərəqqi islamçılıq xəttini seçməsinin nəticəsi idi ki, Ə.Hüseynzadə bir tərəfdən "panislamizm" və "pantürkizm" devizini əldə bayraq edərək guya, xristian dünyasını (Rusiya və Avropanı) təhlükə gözlədiyini iddia edən rus, erməni milətçilərinə, digər tərəfdən milli-dini ideyaların sinfi mübarizənin, beynəlmiləl inqilabın əleyhinə olduğunu irəli sürən marksist-leninçilərə qarşı mübarizə aparmışdır.

20-ci əsrin əvvələrində, xüsusilə 1900-1910-cu illərdə Azərbaycan türkləri arasında mütərəqqi islamçılığın, "İslam millətçiliyi"nin tanınmış ideoloqu **Əhməd bəy Ağaoğlu** da Ə.Hüseynzadə kimi, mühafizəkar islamçıları həddən artıq yeniləşməyə qarşı çıxmaqda ittiham etmişdir. Çünki onlar belə fikirləşməyə başlamışdılar ki, müsəlmanların bütün fəlakətləri onların köhnə adət-ənənələrdən üz çevirmələri ilə bağlıdır. Ağaoğlu yazırdı: "Əxlaq pozğunluğu, özbaşınalıq, keçmişə sayğısızlıq və sərbəst düşüncə də məhz bunun sayəsində meydana çıxmışdır. Buradan da onlar (mühafizəkarlar – F.Ə.) belə nəticəyə gəlirlər ki, xilas yolu nə Avropada, nə də həyatın məntiqinin axtarılmasındadır. Sadəcə, şəfaverici keçmişə qayıtmaq lazımdır. Bu keçmiş öz ecazkar qüvvəsi ilə müsəlman aləmini xilas edəcəkdir" [5, 333]. Bu baxımdan, o, müsəlmanların mövhumat, cəhalət içində qalaraq yeniləşməkdən tamamilə imtina etmələrinin də doğru olmadığı qənaətində idi.

Ancaq Ə.Ağaoğlu Ə.Hüseynzadədən fərqli olaraq, əcnəbilər tərəfindən ortaya atılmasına baxmayaraq, bir müddət "panislamizm"i ("pan" yunanca hamısı, bütövlük mənasını verir) İslam-Türk-Şərq dünyasının oyanışı və inkişafı uğrunda mübarizə aparan qüvvələrə verilmiş müsbət bir məfhum kimi qəbul etmişdi: "Ağıllı ünsürlər hər iki ifrat cərəyanı birləşdirəcək və hər iki tərəfi razı sala biləcək elə bir yol-ideya yaratmaq istəyirlər ki, ifrat mütərəqqiçilərin xəyal etdikləri kimi, nə mücərrəd-zəminsiz, nə də köhnəpərəstlik kimi zəmanənin ruhuna və dövrün tələbinə zidd

olsun… Bu panislamizmdir" [250; 5, 332]. Onun fikrincə, "panislamizm" isə özünün daxili məzmununa görə geriyə dönməkdir. Köhnəliyə qayıtmaq yox, daha inamla, daha qüvvətlə irəliyə getmək üçün geriyə dönməkdir [251]. Ancaq bütün hallarda Ə.Ağaoğlu "panislamizm" dedikdə, bütün "İttihadi-İslam" tərəfdarlarını deyil, yalnız onun mötədil-orta mövqedən çıxış edən "ağıllı ünsürlər"ini nəzərdə tutmuşdu. Bunu sonralar Ə.Ağaoğlunun "panislamizm" anlayışına dəyişən münasibəti də göstərir. O, sonralar bu anlayış ətrafında Avropa, o cümlədən Rusiya millətçilərinin yaratdığı mənfi obrazı aradan qaldırmaq üçün qeyd edirdi ki, "müsəlmanlar qardaşdırlar" prinsipini irəli sürən İslam dini müsəlmanlar arasında qardaşlığa, ittifaqa və ittihada əsaslanır: "Fəqət bu ittihad və ittifaqımız avropalıların ixtirası və onları təqlid yolu ilə Rusiya ermənilərinin də istilah etdikləri "panislamizm" deyildir. Yəni bizim "ittihadımız" slavyan milləti arasında mövcud olan "panslavizm" fikri kimi ümumislamları da bir dövlətə ilhaq etmək və yaxud bir nöqtəyə ictima edərək, aləmi-xristianiyyəyə qarşı qiyam etmək fikri deyildir" [7]. Hətta, Ağaoğlu qeyd edirdi ki, müsəlmanlar arasında belə bir əsaslı fikir və ictimai mərkəz olardısa da, bu məsləkə xidmət etməklə iftixar edərdi. Bu baxımdan, o, müsəlmanların bir xəyaldan ibarət bulunan "panislamizm" fikrini bir kənara qoyub, heç olmazsa İslam dininin qanunlarına əməl etməyə çağırırdı.

M.B.Məmmədzadə, M.Ə.Rəsulzadə, və H.Baykaranın mülahizələrinə görə, Azərbaycan türkləri arasında ilk dəfə Ə.Ağaoğlu islamçılığa daha çox üstünlük vermiş, geniş və dərin, nəzəri şəkildə "İslam millətçiliyi"ni təbliğ etmişdir. Onların fikrincə, 1900-1910-cu illərdə Ağaoğlu bir müsəlman ziyalısı kimi əsasən, İslamda islahatlar aparmaqla müsəlman millətlərinin tənəzzüldən qurtarıb tərəqqisinə və yüksəlişinə çalışmışdır [52, 112; 154, 40-41]. Bu isə o anlama gəlir ki, M.Ə.Rəsulzadənin təbrincə desək, həmin dövrdə "milliyyətpərvərliyin ən adlı-sanlı mürşidləri, başda Ağaoğlu Əhməd bəy olmaqla, islamçılıqla

türkçülüyü çox da ayırmır, türklük namına deyil, müsəlmanlıq namına mübarizə aparırdılar. Milli hərəkatımızın adı "panislamizm" idi. Bu yalnız rusların xətası deyildi. Özümüz də islamiyyəti milliyyət məfhumu yerində işlədirdik" [184].

Fikrimizcə, bütün hallarda "panislamizm"in siyasiləşməsi, yəni "İslam millətçiliyi" nəzəriyyəsinin yaranması milli məsələnin gündəmə gəlməsi üçün təkanverici rol oynamış, həmin ideyanın əsasında siyasi türkçülük (türk birliyi) və daha sonra etnik-milli türkçülük (Azərbaycan türkçülüyü) təşəkkül tapmışdır. Şübhəsiz, islamçılıqdan türkçülüyə, türkçülükdən Azərbaycan türkçülüyünə-azərbaycançılığa gedən yol təkamül nəticəsində baş vermişdir. Bu baxımdan, Ağaoğlu həmin dövrdə "İslam millətçiliyi" uğrunda mübarizə aparsa da, türkçülüyə də meyil etmiş və bununla da, Azərbaycan milli ideyasının - azərbaycançılığın meydana gəlməsinə zəmin hazırlayanlardan biri olmuşdur. Ə.Ağaoğlunun elmi-rasional islamçılıqdan kənara çıxıb siyasi islamçılığa – "İslam millətçiliyi"nə meyil etməsində ən başlıca amillər Qafqazda ruslaşdırma, farslaşdırma siyasəti, o cümlədən 1905-1906-cı illərdə çar Rusyasının təhriki ilə planlı şəkildə baş verən erməni-türk münaqişəsi olmuşdur. Bütün bunlar bir daha göstərir ki, Ağaoğlu islamçılığın elmi-nəzəri əsaslarının yaranmasından sonra bu hərəkatın siyasiləşməsinin tərəfdarı olsa da, dövründə baş verən hadisələr onun özünü də Türkiyədəki "Gənc türklər" kimi, daha tez siyasi islamçılığa – "İslam millətçiliyi"nə üz tutmağa sövq etmişdir.

Bütövlükdə, Ağaoğlu 1900-1910-cu illərdə siyasi-ideoloji ruhlu **"İslam millətçiliyi"** nəzəriyyəsi ilə bağlı iki məsələyə diqqət yetirilməsini zəruri sayırdı: 1) İslam dünyasının fəlakətlərinin səbəbləri obeyktiv təhlil edilməli və islam millətlərinin qurtuluş yolu ruhanilərin təbliğ etdiyi İslamda deyil, mütərəqqi ruhlu İslamda axtarılmalı; 2) dini kimliklə (İslamla) milli kimlik (Türklük) isə bir-birinə nəinki ziddir, hətta bir-birini tamamlayır.

Ağaoğlunda "İslam milətçiliyi" nəzəriyyəsinin yaranmasında "İttihadi-İslam" konsepsiyasını irəli sürən Cəmaləddin Əfqaninin mühüm təsiri olmuşdur. Əvvəlcədən qeyd edək ki, Əfqaninin milliyyətə, millətə baxışı Rəsulzadə üzərində hansı təsiri buraxmışdırsa da, Ağaoğlu üzərində də İslama münasibəti eyni məna kəsb etmişdir. Ə.Ağaoğlu yazırdı ki, Əfqani "müsəlman xalqlarını ilkin İslama qayıtmağa, ləyaqətsiz hökmdarlara qarşı açıq mübarizəyə qoşulmağa çağırırdı. Eyni zamanda o, ruhaniləri amansızcasına tənqid edir, onların "boş dialektika və sxolastikasını" məsxərəyə qoyur, onların riyakarlığına və həyasızlığına gülürdü… Bütün ölkələrin müsəlmanları onun səsində nə isə tanış, eyni zamanda yeni çalarlar hiss edirdilər" [28, 136]. Əfqaninin bu ideyalarını müsbət dəyərləndirən Ağaoğlunun fikrincə, Şərqdə nümunəvi ictimai xadim olan bu şəxs, eyni zamanda özünün gələcək davamçılarının fəaliyyəti üçün proqram tərtib etmiş və bu davamçıların inkişaf etdirməli olduqları ideyaları göstərmişdir.

Q.Mustafayevə görə, Ağaoğlu "İslam birliyi"nə həsr etdiyi yazılarında Əfqaninin fikirləri ilə razılaşdığını bildirmiş, eyni zamanda "İslam şərqinin böhrandan çıxmasının yolunu "islamın bərpasında", islam millətçiliyində görmüşdü" [159, 93]. Doğrudan da, "Müsəlman xalqlarının vəziyyəti" (1903-1904) silsilə məqalələrində İslam dünyasının yarımcan vəziyyətdə olması fikrini qəbul edən Ağaoğlu yazırdı ki, taleyin zərbələrindən sarsılıb məyus olmuş müsəlmanlar indi gəzib bu fəlakətin onların üzərinə haradan gəldiyini axtarır və vəziyyəti düzəltmək haqqında fikirləşirlər. Halbuki müsəlmanların islahat dövrünü keçmələrinin vaxtı çoxdan çatmışdır [250]. Müsəlmanların qəflət yuxusundan oyadacaq müsəlman islahatçısının yolunu gözləyən Ağaoğlunun fikrincə, hər bir müsəlman milləti ilkin İslama əməl etməklə yanaşı, Qərb mədəniyyətinin müsbət dəyərlərini də mənimsəməli və Avropa millətləri kimi inkişaf etməlidirlər. Çünki İslam dini bədbinlik deyil, nikbinlik və tərəqqipərvərlik dinidir. O yazırdı: "Nə Quran,

nə də şəriət özlüyündə tərəqqinin düşməni deyildir; özlərini İslam ideyasının daşıyıcıları hesab edən şeyxlər və üləmalar bəd məqsədlərlə oradakı fikirləri təhrif edib, onları mədəniyyətin barışmaz düşmənlərinə çevirmişlər" [6, 50].

Bizcə, Ağaoğlu "İslam millətçiliyi"nin elmi-nəzri əsaslarını "Panislamizm və onun xarakteri" məqaləsində vermişdi: "İslam ayrı-ayrı xalqların: ərəb, türk, fars, zənci, tacik və sairələrin özünəməxsus fərdi etiqadlarındakı, adət-ənənələrindəki, hətta dil və geyimlərindəki fərqi aradan qaldırmış – niverləmiş, sözün tam mənasında onları fatehlərin assimilyasiyasına məruz qoymuşdur. Hal-hazırda müsəlman xalqlarının lüğətində millət məfhumuna uyğun olan bir istilah axtarmaq yersiz olar. Çünki onların hamısı bu mənanı ifadə edən ümumi bir istilahı – ərəbcə "millət" sözünü işlədirlər. Bu istilah isə irqi, qövmi, etnik, hətta əxlaqi birliyi deyil, hər şeydən əvvəl dini birliyi ifadə edir" [251]. Bu mənada, onun fikrincə, "panislamizm" ideyası İslam dininin özündə, onun nəzəriyyə və tarixində ehtiva edilmişdir: "Quran, hər cür millətçiliyə düşməndir. Ümumbəşərilik demək olan İslam milli əlahiddəliyi, irqi ayrı-seçkiliyi, silki xurafat və ənənələri zəiflətməyə çalışır. İslama görə, ona iman gətirən bütün insanlar qardaşdırlar, hamı Allah və Quran qarşısında bərabərdir. Nə türk, nə ərəb, nə fars, nə hindu, nə zənci, nə ağ var: hamı müsəlmandır, bərabər və birdir, hamı eyni bir Atanın (Allahın – F.Ə.), sevən bir Atanın övladlarıdır, fərq yalnız Ona itaət edənin dərəcəsindədir. Bu ideya Quranda ümumi müddəa şəklində deyil, aydın və rəsmi şəkildə ifadə edilmişdir: "müsəlmanlar qardaşdırlar"" [251].

Q.Mustafayev yazırdı ki, "İslam millətçiliyi"ni irəli sürməklə Ə.Ağaoğlu və digər milli-burjua ziyalılar açıq şəkildə olmasa da, üstüörtülü olaraq dini-millətçilik yolunu birinci plana çəkir və müsəlmanları-türkləri dini millətçiliyin bayrağı altında toplamağa çalışmışlar: "Burjua millətçiləri Azərbaycan xalqının maarif və mədəniyyəti yolunda maarifçilərin mübarizəsini islam maarifi və mədəniyyəti uğrunda mübarizə istiqamətinə yönəltməyə

çalışır, onların köməyi ilə islam dini ilə elmi barışdırmaq, "islam mədəniyyətini" "qərb mədəniyyətinə" qarşı qoymaq, islamı müasirləşdirmək, islam ruhaniliyini çarizmin təsirindən xilas edib, islam millətçiliyi axınına cəlb etmək istəyirdilər" [159, 97]. Bizcə, sosial-demokratların, o cümlədən bolşeviklərin kommunizm utopiyası kimi, mütərəqqi islamçıların da bəzən "İslam birliyi" ideyasını siyasiləşdirmələrində qeyri-adi heç nə yoxdur. Başqa sözlə, sosial-demokrtalar kommunizm ideyasına hansı şəkildə yanaşırdılarsa, bir qədər fərqli şəkildə islamçılar da "İslam birliyi" ideyasının gerçəkləşməsinə bir o qədər ümid bəsləyirdilər.

Digər tərəfdən o fikirlə də razılaşmaq olmaz ki, Ə.Ağaoğlu və digər milli aydınlarımız İslam mədəniyyətini Qərb mədəniyyətinə qarşı qoymuşdular. Doğrudur, yuxarıda da qeyd etdiyimiz kimi, bu cür mühafizəkar ziyalılarımız olmuşdur, ancaq hər iki mədəniyyətin ortaq nöqtələrindən çıxış edən mütəfəkkirlərmiz də var idi. Ə.Ağaoğlu da məhz belə bir mövqe tutaraq İslam mədəniyyəti ilə Qərb mədəniyyətinin bir-birini inkar etmədiyini vurğulamışdır: "Birləşmə mənasında keçmişə qayıtmağı təbliğ edən panislamizm, eyni zamanda müsəlmanlar arasında müasir həyatın köklü və biryolluq dəyişdirilməsində təkid edir… Bu, vaxtilə yalnız müsəlmanların malı olan iqtisadi, siyasi və mədəni fütuhatlar sahəsindəki təkiddir… Bir sözlə, Avropa ağıl tərzi və yeni müsəlman meyli möcübincə islamçılıq ideyalarında panislamizm və yevropeizm anlayışı sinonimi xarakteri kəsb etmişdir" [251]. O, bununla da Avropada mövcud olan demokratik dəyərlərin – siyasi, vicdani, mənəvi və s. azadlıqların islama zidd olmadığını əksinə, bu amillərin Quranda öz əksini tapdığını göstərmişdir. Q.Mustafayevə görə, bununla da "ictimai-tarixi hadisələrə idealist-dini mövqedən yanaşan Ə.Ağayev özü-özünü inkar edir. O, bir əli ilə dində yeniliyin zəruriliyini yazır, digər əli ilə onu pozur" [159, 89]. Bizcə, Ağaoğlu bir çoxlarından fərqli olaraq İslam dininin demokratik dəyərlərə zidd olmadığını, bu

dəyərlərin həmişə İslamda olduğunu və bu gün də olmasını önə çəkməklə öz-özünü inkar deyil, əksinə təsdiq yolunu tutmuşdur.

Gördüyümüz kimi, Azərbaycanda milli ideyalardan biri olan islamçılığa münasibət 100 il bundan əvvəl olduğu kimi bu gün də öz aktuallığını qoruyub saxlayır. Doğrudur, dinə münasibət Konstitusiyada açıq şəkildə öz əksini tapmışdır. Ancaq bununla yanaşı, dinə münasibətdə cəmiyyət daxilində müəyyən problemlər hələ qalmaqdadır. Bu xüsusilə, özünü müxtəlif təbəqələrin dinə-İslama fərqli münasibətlərində büruzə verirr. Məsələn, bəziləri hesab edirlər ki, milli ideyalardan biri kimi İslama daha çox önəm verilməlidir. Çünki İslam millətlər və etnoslar arasında heç bir fərq qoymur. Başqa sözlə, "müsəlmanlar qardaşdırlar" prinsipi irəli çəkilərək milli ideologiyanın aparıcı ideya xəttinə çevrilməlidir. İlk baxışda, bunun doğru olduğu qənaətinə gəlinə bilər. Ancaq məsələnin mahiyyətinə dərindən nüfuz etsək görərik ki, İslam dini bir ölkədə yaşayan müxtəlif etnosları birləşdirən amil təsiri bağışlasa da, o son nəticə olaraq dövlətin işlərinə qarışanda vəziyyət tamamilə başqa rəng ala bilər. Necə ki, əsrlər boyu dinin dövlət üzərində nüfuz etdiyi dövrlərdə həmişə ciddi problemlər yaşanmışdı. Yəni bu zaman istər-istəməz din xadimləri İslam dininin nüfuzundan istifadə edərək dövlətin siyasi-ideoloji həyatında aparıcı mövqeyə sahib olmuşlar. Hətta, orta əsr bir sıra müsəlman və xristian dövlətlərində hakimiyyət başçıları istəmədikləri halda, din xadimlərinin təzyiqi ilə bir sıra ağılasığmaz qərarlar qəbul etməyə məcbur olmuşlar. Özəlliklə də, bu, dünyəvi elmləri təbliğ və müdafiə edən alimlər üçün faciəli aqibətlə nəticələnmişdir.

Ona görə də əvvəlcə xristian, daha sonra bir çox müsəlman ölkələri dini dövlət siyasətindən ayırmaq qərarı vermişlər. Bu mərhələ Avropa da daha uğurla və sürətlə həyata keçdiyi halda, müsəlman dünyasında bu proses həm uğursuz, həm də ləng şəkildə getmişdir. Çox təəssüf ki, bu gün də müsəlman dünyası həmin məsələlərdə böhran yaşamaqdadır. Hətta, işin maraqlı tərəfi odur

ki, dini dövlətdən ayırmış bəzi müsəlman ölkələrində əks proses getməkdədir. Yəni bəzi müsəlman ölkələrində dinlə dövlətin bir araya gəlməsi istisna olunmur.

Hər halda, bu bir faktdır ki, müsəlman-türk dünyasında ilk dəfə dini dövlətdən ayıran Azərbaycan Cümhuriyyəti (1918-1920) olmuşdur. Özü də həmin dövrdə Azərbaycan Cümhuriyyətinin başçıları bu siyasəti çox uğurla həyata keçirmişlər. Yəni onlar milli ideya kimi bir tərəfdən türkçülüyə öncüllük vermiş, digər tərəfdən islamçılığı dini-əxlaqi dəyər kimi gənc dövlətin əsas sütunlarından biri olaraq qəbul etmişlər. Bununla da, Azərbaycan milli ideyasının aparıcılığı türkçülüyə verilsə də, islamçılıq dini etiqad və inancı kimi onunla bir bütöv halına gətirilmişdir. Beləliklə, bir növ din ideyası ilə millilik ideyası Azərbaycan milli ideologiyasının ayrılmaz tərkib hissələrinə çevrilmişlər. Burada isə islamçılığın milli ideologiyanını sütunlarından biri kimi toxnulmazlığı qalmaqla dövlətin varlığında millilik ideyasının (türkçülüyün) şəksiz liderliyi qəbul edilmişdir.

Fikrimizcə, bu gün İslama-islamçılığa münasibət məhz bu prinsiplər əsasında olmalıdır. Çünki milli dövlətin müstəqilliyi üçün bundan doğru bir xətt ola bilməz. Hər halda, Birləşmiş Millətlər Təşkilatına adından da göründüyü kimi, bu beynəlxalq quruma üzv olanlar dini inanclarına görə deyil, ilk növbədə milli kimlik baxımından təmsil olunurlar. Yəni, burada əsas meyar "millət"lə bağlıdır. Deməli, Azərbaycan Respublikasında da milli ideyalar arasında millilik (türklük) ideyasının öncüllüyü əsas şərtdir. Bu həm millətin varlığının təsdiqi, həm də demokratik dövlət quruculuğu ilə birbaşa bağlıdır.

Türkçülük, onun mahiyyəti və əsas istiqamətləri. Milli fəlsəfi fikir tariximizdə milli ideyalardan biri və birincisi turklükdür – milli kimlikdir, milli özünüdərkdir, milli özünütəyindir. Bu mənada, Azərbaycan milli ideologiyasının əsas milli ideyası türklükdür, Azərbaycan türk milliyyətçiliyidir, Azərbaycan türk millətidir. Türkçülük olmadan Azərbaycan milləti, Azərbaycan

dövləti, azərbaycanlılıq heç bir məna kəsb etməz. Çünki müəyyən bir coğrafiyada çoxluq təşkil edən etnosların vahid dildə danışmaları, adət-ənənələrə sahib olmaları, mədəniyyətə və tarixi keçmişə sahib olmaları, iqtisadi çıxarları olmalıdır ki, bununla da özlərini milliyyət və millət kimi tanısınlar. Özəlliklə, müstəmləkə halına gətirilmiş, zaman-zaman milli-mənəvi dəyərlərinə qəsd edilmiş bir millət üçün yenidən milli özünüdərk, milli özünütəyin əsas və vacib ideyalardan biridir. Fikrimizcə, istisna hal olaraq, yalnız bu cür milli ideya – milli özünəməxsusluq, milli özünütəyin yetərli ola bilər ki, digər ideyaların yardımı olmadan belə milli ideologiyaya çevrilsin. Ancaq bunun çox zor olmasını da söyləmədən keçmək mümkün deyildir. Buna başlıca səbəb də milli özünəməxsusluğun, milliliyin əksər hallarda mürtəce millətçilik-şovinizm kimi yozulmasıdır. Bu mənada, müstəmləkə halında olan bir millətin milli özünəməxsusluqdan çıxış edərək milli azadlıq uğrunda mübarizə aparması nə qədər müsbət sayılırsa, artıq müstəqillik əldə etmiş millətin həmin ideyanı eynilə uyğulamağa davam etməsi bir o qədər də mənfi qəbul edilir.

Ona görə də XX yüzilin əvvəllərində milli azadlıq hərəkatı uğrunda mübarizə aparan Azərbaycan xalqının əsas milli ideyasının türkçülük olması nə qədər təbiidirsə, 1930-cu illərin sonlarından etibarən Sovetlər Birliyi dövründə, eləcə də hazırda müstəqil Azərbaycan Respublikasında məsələnin bu cür qoyuluşuna birmənalı baxışın olmaması da anlaşılandır. Bu baxımdan biz, araşdırıdığımız dövrdə Azərbaycan Cümhuriyyətinin yaranmasında və inkişafında türkçülüyün oynadığı əvəzsiz rolu indiki zamanın baxışından deyil, dövrünün tələblərinə və şəraitinə görə dəyərləndirmişik. Həmin dövrün əsas tələbi də ondan ibarət idi ki, müstəmləkədən azad olmaq istəyən bütün millətlər kimi Azərbaycan türklərinin də məhz milli özünütəyindən – türkçülükdən çıxış etməkdən başqa bir yolu yox idi. Çünki türkçülük çar Rusiyasının müstəmləkəsi halına gətirilmiş Qafqaz-Azərbaycan müsəlmanlarının yeni bir dövlət qurmağın əsas xətti

idi. Ən azı ona görə ki, Qafqaz müsəlmanlarının, o cümlədən Azərbaycan müsəlmanlarının böyük əksəriyyəti nə qədər İslama-müsəlmanlığa bağlı olursa-olsunlar, nə qədər marksizm-leninzmə rəğbət göstərirlər göstərsinlər ilk növbədə, özlərini türk kimi tanıyır və türk mədəniyyətinə aid edirdilər. Eyni zamanda, yalnız Qafqaz deyil, çar Rusiyasının müsəlman əhalisinin böyük əksəriyyəti də türk-tatar xalqları adlanan bir türk millətinə, yaxud da türk irqinə aid edilirdi. Bu baxımdan çar Rusiyasında, o cümlədən Qafqazda yaşayan müsəlmanların milli azadlıq hərəkatı uğrunda mübarizədə əsas milli ideya olaraq türkçülüyü qəbul etmələri çox təbii idi.

Xüsusilə də, din ideyasının heç cürə özünü doğrulda, yəni qeyri-müəyyən "İslam birliyi" ideyasının gerçəkləşə bilməyəcəyi bir dövrdə Azərbaycan milli ideyası kimi türkçülüyün aparıcı yer tutması başa düşüləndir. Doğrudur, ilk dövrlərdə türkçülük də islamçılıq, "İslam birliyi" ideyası kimi ümumi xarakter daşımış, bəzi türk ideoloqlar bunun əsasında Turan imperiyasını dirçəltmək haqqında mülahizələr belə yürütmüş, hətta Ənvər paşa kimi hərbi sərkərdələr silah gücünə bunu reallaşdırmağa çalışmışlar. Bütün bunlara baxmayaraq, fikrimizcə, türkçülük din ideyasından - "İslam birliyi"ndən fərqli olaraq milli ideologiyanın formalaş-masında əsas rol oynayaraq Azərbaycan Cümhuriyyətinin yaranmasında həlledici rola malik olmuşdur.

Əslində burada heç bir fikir ixtilafından, ziddiyyətdən söhbət gedə bilməz. Milli aydınların əsas məqsədi birdir: müsəlman-türk aləminin qurtuluşu. Bu qurtuluş yolunda isə bir qədər fərqli taktikaların seçilməsi, fərqli mülahizələrin səslənməsi təbiidir. Digər tərəfdən bütün türklər, o cümlədən müsəlman türkləri üçün bir neçə minilliklər din və millət (şamanlıq və türklük, Göy Tanrıçılıq və türklük, islamlıq və türklük və b.) demək olar ki, eyni mahiyyət daşımışdır. Bu baxımdan, həmin dövrdə milli-demokratik cəbhəni təmsil edən ziyalılarımızdan bir qisminin, müsəlman-türk dünyasının nicatı üçün İslamla çulğalaşmış

Türklüyə (Ə.Hüseynzadə və b.), digərlərinin Türklüklə çulğalaşmış İslama (Ə.Ağaoğlu və b.) üstünlük verməsi təbiidir.

Türkçülüyün yaranması məsələsinə ümumi şəkildə nəzər yetirsək görərik ki, bütövlükdə türkçülük üç mərhələdən: **1) mədəni türkçülük** (dil, ədəbiyyat, tarix və s. sahələrdə türkçülük); **2) siyasi-ideoloji türkçülük** (Türk xalqlarının birliyi, Turan birliyi və s.); **3) etnik türkçülük** (Türkiyə türkçülüyü, Azərbaycan türkçülüyü, Türküstan türkçülüyü və s.) keçmişdir.

Mədəni türkçülük. Türkçülüyün ilk mərhələsi olan mədəni türkçülüyün yaranmasına başlıca səbəb XVIII əsrdən başlayaraq müsəlman dövlətlərinin, o cümlədən Osmanlı və Səfəvilər kimi türk imperiyalarının Avropa dövlətləri ilə müqayisədə elm, təhsil, texnoloji və başqa sahələrdə geri qalması, get-gedə tənəzzülə uğraması idi. XIX əsrdən etibarən türk aydınları bundan çıxış yolu axtarmağa başlamış və belə nəticəyə gəlmişlər ki, tənəzzüldən qurtulmaq üçün yalnız Avropa mədəniyyətini, texnologiyasını təqlid yetərli ola bilməz. Bu baxımdan, onlar bir millət üçün vacib olan soykök, dil, mədəniyyət və tarix sahələrini tədqiq etməyə başlamış, bununla da türkçülüyün ibtidasının, yəni mədəni türkçülüyün əsasını qoymuşlar. Əslində ilk türk aydınları sistemli şəkildə deyil, daha çox parakəndə halda türk dili, türk ədəbiyyatı, türk mədəniyyəti sahəsində müəyyən işlər görüblər. Ancaq bütün türk coğrafiyasında bir-birindən xəbərsiz, sistemsiz şəkildə yaranan mədəni türkçülük çox keçmədən ümumtürk mədəniyyətini, ədəbiyyatını, dilini hədəfləmişdir. Bununla da, türk coğrafiyasını özündə əhatə edən mədəni "Türk birliyi" və yaxud da "Turan birliyi" ideyaları yaranmışdı. Fikrimizcə, ümumiyyətlə türklüyü və türkçülüyü də bir-birindən fərqləndirmək lazımdır. Türklük daha çox sadəcə şəxsi kimliyini, danışdığı dili, tapındığı adət-ənənələri türk olaraq qəbul edib bununla kifayətlənməkdirsə, türkçülük millətdə milli ruh, mili düşüncə, milli özünüdərk uğrunda mübarizə aparmaq, bir sözlə onu məfkurə halına gətirməkdir. Bunu, M.Ə.Rəsulzadə belə ifadə etmişdi: "Türklüklə türkçülük

arasında böyük fərq vardır. O fərq nədir? …Millətdə milli ruh, milli düşüncə, milli özünütanıma, milli şəxsiyyət lazımdır. Biz millətə bunu verməyə çalışırız" [34, 260].

Qeyd edək ki, mədəni türkçülük XIX əsrin ikinci yarısından başlayaraq, eyni vaxtda Türkiyə, Azərbaycan, Krım, Türküstan, Uyğurustan və başqa türk ellərində yaşayan aydınlarımızın – İ.Şinasi, Əhməd Vefik Paşa, M.Cəlalləddin Paşa, Süleyman Paşa, Şeyx Süleyman Əfəndi, Ə.Cevdət, Ə.Mithəd, A.A.Bakıxanov, M.F.Axundzadə, N.Kamal, H.Zərdabi, Ş.Mərcani, İ.Qaspıralı və başqalarının mədəni-fəlsəfi irsində özünü büruzə vermişdi. Fikrimizcə, ilk dövrlərdə türkçülüyün siyasiləşə bilməməsinə əsas səbəb dini-ideoloji amillər, yəni sufilik, mövlanəlik, şiəlik, osmançılıq, islamçılıq və b. təlimlərin təsiri altında olması olmuşdur. Bu mənada ilk siyasi türkçülərdən Y.Akçuraoğlu düzgün qeyd edirdi ki, XIX əsrin ikinci yarısında türkçülükləri aydın və şüurlu olan Osmanlı türk ziyalıları (Ə.Vefik, M.Cəlaləddin, Süleyman Paşa və b.) belə siyasətdə türkçülüyə deyil, "islam birliyi" və "osmanlı milliyyəti"nə önəm vermişlər. Ən yaxşı halda bu dövrdə türkçülük həmin anlayışlarla qarışmış şəkildə olmuşdur [22, 80].

Azərbaycanda da mədəni türkçülüyün meydana çıxması yeniləşmənin, maarifçiliyin və ilkin İslama qayıtmanın təsiri altında XIX əsrin ikinci yarısında başlamışdır. Fikrimizcə, XIX əsrdə A.A.Bakıxanov, M.F.Axundzadə, S.Ə.Şirvani, H.Zərdabi və başqaları mədəni türkçülüyün (siyasi-ideoloji mənada) Azərbaycanda ilk nümayəndələri olmuşlar. Mədəni türkçülük A.A.Bakıxanovun milli "Tarix"indən başlamış, Axundzadənin türkcə yazdığı komediyaları ilə davam etdirilmiş və Zərdabinin milli ruhlu "Əkinçi"si ilə milli status almağa qədəm qoymuşdur (kitabın 1-ci hissəsinə baxmalı).

Qeyd edək ki, Ziya Gökalp da M.F.Axundzadəni və İ.Qaspıralını Rusiyada yetişən iki böyük türkçü kimi qələmə vermişdir [88, 27]. Ancaq biz daha çox Y.Akçuraoğlunun bu

məsələ ilə bağlı fikri ilə razılaşaraq hesab edirik ki, Krım türklərindən **İsmayıl bəy Qaspıralı** M.F.Axundzadə ilə müqayisədə həm nəzəriyyədə, həm də əməldə türkçülüyə daha çox xidmət etmişdir. Qaspıralı "Türküstan üləməsı" əsərində yazırdı ki, İslam fəlsəfəsinin və elminin tarixi araşdırlarsa, bir çox alimlərin türk və türküstanlı olduqları görülər. Onun fikrincə, vaxtilə Türk alimləri müsəlmanların-türklərin indi-indi alışdığı dünyəvi elm və təhsili tədris etmişlər: "Avropada dünyəvi elmlər az olan bir zamanda Türküstanda müstəqil əqli və nəqli elmlər olmuşdur" [128, 5]. Bununla da, o, bir tərəfdən İslam dininin həyatında türklərin mühüm mövqe tutmasını, digər tərəfdən isə onların həmişə dünyəvi bir millət olmasını göstərmək istəmişdi. Başqa sözlə, Qaspıralının bu fikirləri türkçülük adına yeni bir dönəmin əsasını qoymuşdur.

Türkçülük şüarı "dildə, fikirdə və əməldə birlik" olan Qaspıralı bu ideyalarını bütün türklərin ortaq qəzeti olan "Tərcüman"da ifadə etmişdi [71, 19-21]. Onun mədəni türkçülüyü "Üsuli-cədid" adlı yeni tipli məktəblərin açılması ilə davam etdirilmişdi. Əslində bu məktəblər dünyəvi elmləri tədris edən ilk türk məktəbləri idi [71, 22-24]. Ancaq siyasi-ideoloji baxışlarına görə Qaspıralı daha çox liberalist idi. O, yalnız Rusiya birliyi çərçivəsində türklərin milli-mədəni muxtariyyətinə və birliyinə çalışmışdı. Hətta, o bu baxışlarına görə digər türkçü ideoloqlar tərəfindən dəfələrlə tənqid də olunmuşdur.

Azərbaycanda A.A.Bakıxanovla M.F.Axundzadədən (müəyyən ziddiyyyətlərə baxmayaraq) sonra türkçülüyün yaranmasında **Həsən bəy Zərdabi (1842-1907)** və onun "Əkinçi" qəzeti mühüm rol oynamışdır. Y.Akçuraoğlu yazır: "Həsən bəyin millət tarlasına əkmək istədiyi toxumlar irəliləmə və yenilik toxumlarıdır" [22, 87]. Ən əsası "Əkinçi"də türk millətçiliyinin ünsürləri görsənmiş, ayrı-ayrı türk şivələrinin birləşə bilməsi məsələsinə toxunulmuşdur. Ancaq burada özəlliklə, H.Zərdabinin ideyalarından bəhs etməyimizə səbəb,

onun qısa bir zaman da olsa XX əsrin əvvəllərində yaşamasıdır. Belə ki, XIX əsrin ikinci yarısında yeniləşmə uğrunda mübarizə apararaq mədəni türkçülüyü və mədəni islamçılığı canlı bir timsal kimi XX əsrin əvvəllərinə daşıyan H.Zərdabi, bu dövrdə də dil birliyi, din birliyi, milli təşkilatların yaranması məsələlərlə bağlı konkret təkliflərlə çıxış etmişdir. Zərdabi qeyd edirdi ki, hər bir millətin əsas dirəkləri, millət olmağına səbəb dil və din-məzhəbdir. Bunlardan birisi əldən getsə millətin beli sınar, ikisi də getsə millət başqa millətlərə qarışar və yox olar. O yazır: "Çünki dil və məzhəb tayfanın (millətin-F.Ə.) ruhu olan kimidir. Necə ki, ruh çıxanda bədəndən bircə nəş, yəni cəmdək mürür (yavaş-yavaş – F.Ə.) ilə çürüyüb yox olur, habelə dilsiz və məzhəbsiz tayfa da gərək mürür ilə yox olsun" [30, 22]. O, "Dil birliyi" məqaləsində isə yazırdı ki, Rusiya dövlətinə tabe olan müsəlmanların hamısının etnik mənşəyi türk, dilləri türk dilidir. Amma bu dil ayrı-ayrı yerlərdə müxtəlif şivələrə bölünüb ki, ilk növbədə Rusiya türklərinin dil birliyinə nail olmaq lazımıdır. Zərdabi yazırdı: "Ona görə də bizlərə vacibdir ki, indi vaxt keçməmişdən dil birliyi dalıncan olub bir ümumi dil bina edib, bu ümumi dildə yazıb-oxuyaq ki, gələcəkdə o dil hamının yazıb-oxumaq dili olsun. Belə də Rusiyada olan türk tayfaları getdikcən bir-birilərinə artıq yaxınlaşıb, birləşməkdən artıq da güclənib tərəqqi etməyə qadir olurlar və qardaşlıqları dəxi möhkəm olur" [30, 14]. Deməli, XIX əsrin ikinci yarısında Qafqaz müsəlmanlarının milli oyanışına, yəni mədəni türkçülüyə və mədəni islamçılığa təkan verən H.Zərdabi bu işinin davamı olaraq 1900-cu illərdə Rusiya, o cümlədən Qafqaz türklərinin dil-millət və din-islam birliyi ətrafında birləşməsini vacib saymışdır. Onun bu dövrdə, milli ideoloq kimi Azərbaycan türklərini maarifləndirmək yolu ilə ayrıca bir millət kimi varlığını isbat etməyə və milli birliyinə çalışması, xüsusilə diqqətəlayiqdir. Bu baxımdan H.Zərdabi XX əsrdə yetişən Azərbaycan türklərinin - Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rə-

sulzadə və başqalarının birmənalı şəkildə ideoloqu, müəllimidir [185, 151; 28, 119; 237, 40; 196, 169]. H.Zərdabinin tədqiqatçılarından fəlsəfə elmləri doktoru, prof. İzzət Rüstəmovun o fikrilə də tamamilə razılaşırıq ki, "Zərdabi Azərbaycanda, o cümlədən bütöv Rusiyada, Şərqdə XIX əsr reallıqlarının doğurduğu titanlardan-nəhənglərdən biridir" [190, 186].

Siyasi-ideoloji türkçülük. XX əsrin əvvəllərində, xüsusilə 1900-1910-cu illərdə bütün türk dünyasında, o cümlədən Azərbaycanda türkçülük ikinci mərhələyə – siyasi-ideoloji türkçülüyə qədəm qoymuşdu. Artıq XIX əsrin ikinci yarısından fərqli olaraq, XX əsrin əvvəllərində türkçülüyün davamçıları bu ideya uğrunda Türkiyədə, Azərbaycanda, Krımda, Tatarıstanda, Türküstanda və b. türk ellərində, eləcə də türk coğrafiyasından kənarda – Misir, Əfqanıstan, Fransa və başqa ölkələrdə mübarizə aparır, onu bütün türklərin vahid ideya xətti kimi qəbul edirdilər. Məsələn, Hilmi Tunalı, Ə.Hüseynzadə, Y.Akçuraoğlu, H.S.Ayvazov, Ə.Ağaoğlu, Ziya Gökalp və başqaları türkçülüyü İstanbulda, Bakıda, Kazanda, Baxçasarayda, Buxarada, Səmərqənddə, Təbrizdə, Tehranda, Qahirədə, Moskvada, Budapeştdə, Vyanada, Parisdə və başqa şəhərlərdə eyni istək və prinspiallıqla müdafiə etmişlər. Bu mənada siyasi-ideoloji türkçülük ən azı bütün türk xalqlarının mənəvi-ideoloji birliyini hədəfləmişdi. Ancaq burada onu da qeyd etmək istərdik ki, siyasi-ideoloji türkçülük iki istiqamətdə: 1) vahid Turan-Türk dövlətini arzulayan siyasi romantiklərlə; 2) ayrı-ayrı müstəqil türk dövlətlərinin yaranmasını müdafiə edən gerçəkçi, yaxud da federalist türkçülər şəklində meydana çıxmışdır. Siyasi romantiklər daha çox qan qohumluğunu, dil və din birliyini önə çəkdikləri halda, gerçəkçilər öncə ayrı-ayrı türk dövlətlərinin yaranmasını və gələcəkdə onların federasiya şəklində birləşməsinə ümid edirdilər.

XX əsrin əvvəllərində nəzəri şəkildə İslamla çulğalaşmış türkçülüyün, bir qədər də dəqiqləşdirsək siyasi-ideoloji

türkçülüyün ilk ideoloqu Quzey türklərindən **Yusif Akçuraoğlu** olmuşdur. "Üç tərzi-siyasət" (1904) əsərində, siyasi-ideoloji türkçülüyün nəzəri əsaslarını işləyib hazırlayan Y.Akçuraoğlu qeyd edirdi ki, irq üzərinə dayalı bir türk siyasi milliyyəti meydana gətirmək fikri çox yenidir; indiyə qədər, başda Osmanlı olmaqla heç bir türk dövlətlərində bu fikir olmamış, son zamanlarda İstanbulda meydana çıxan türk milliyyəti arzu edən kadrlar isə siyasi olmaqdan daha çox elmi mütəxəssislər (Ş.Sami, N.Asim, V.Çələbi və b.) olmuşdur [22, 189]. "Nə olursa olsun, irqə dayalı bir siyasi milliyyət icadı fikri meyvələrini verir" deyən Yusif bəy açıq şəkildə "Osmanlı milləti" ideyasını rədd edir və əsas diqqəti türkçülüyə (Türk birliyinə) və islamçılığa (İslam birliyinə) yönəldirdi. Bunlar arasında hansına üstünlük verilməsi məsələsində müəyyən qədər tərəddüdlərinə baxmayaraq, Yusif bəy sonda belə qənaətə gəlir ki, bir çox səbəblərdən türk dünyası, o cümlədən Osmanlı Türkiyəsi üçün də (xristian dövlətlərinin İslam birliyini istəməməsi və s.) İslam birliyi ilə müqayisədə Türk birliyi daha realdır [22, 192]. Ancaq o, bu zaman "türklük siyasəti" ilə "Türk birliyi"ni, "İslam siyasəti" ilə "İslam birliyi"ni birbirilə qarışdırmışdır. Akçuraoğlu sonralar özü də etiraf edirdi ki, həmin anayışlar fərqli mənalar daşıyır. Belə ki, Osmanlı dövlətinin öz daxilində Türklük və İslam siyasəti yürütməsi, onun xaricdə "panturanizm" və "panislamizm" tərəfdarı olması demək deyildir [22, 193].

Qeyd edək ki, Krım türklərindən **Həsən Səbri Ayvazov** da Y.Akçuraoğlu və Ə.Hüseynzadə kimi, siyasi-ideoloji türkçülükdən çıxış edərək türklərin birliyini və ortaq türk dilinin yaranmasını müdafiə etmişdir. Bu fikirlərini Bakıda nəşr olunan milli mətbuatda ("Həyat", "Füyuzat" və b.) irəli sürən Ayvazov yazırdı ki, türklər ilk növbədə, millət və din əsasında birləşməlidir. "Nədən bu hala qaldıq?" əsərində Ayvazov açıq şəkildə bəyan edirdi ki, türklərin nicatı nə sosializmdə, nə də ona oxşar yad bir

cərəyanda deyil, mütərəqqi ruhlu İslam-Türk birliyindədir [31; 87[a], 188]. Bu baxımdan Ayvazov da Ə.Hüseynzadə kimi, ortaq türk dilinin yaradılması fikrini müdafiə etmişdir. Məsələn, o yazırdı ki, İslam-Türk birliyindən çıxış edən "Rusiya Müsəlmanları İttifaqı"nda bir araya gələnlərin türkcədən daha çox rus dilində danışmaları doğru deyildir: "Qafqaslı bir türk krımlı bir türk ilə, kazanlı bir bir müsəlman, türküstanlı bir müsəlman ilə görüşdükcə yekdigərini anlayacaq qədər ana lisanlarını bilməmək doğrusu, böyük bir eyb və şeyndir… Halbuki hər şeyimizin əsli, əsası, təməli lisandır, lisan birləşməyincə, qəlblər heç birləşməz, qəlbələr birləşməyincə də meydana bir şey gətiriləməz!" [31; 87[a], 190]. Beləliklə, Ayvazovun fikrincə, milliyyət çox müqəddəs olduğundan səadəti də milliyyət ilə birlikdə arzu etmək lazımdır; ancaq bununla yanaşı milliyyəti islamiyyət ilə, islamiyyəti insaniyyət ilə sevmək gərəkdir. Bu baxımdan avropalaşmağa, sosial-demokratlara qoşulmağa meyil etməyən Ayvazov türk-müsəlman dünyasının nicatını İslam-Türk-Şərq məfkurəsinin sintezində axtarmışdı: "İctimaiyyəti milliyyətdə, milliyyəti insaniyyətdə, ədalətdə, insaniyyəti mədəniyyətdə, mədəniyyət və səadəti də vətəndə, islamiyyətdə arayınız" [87[a], 352].

Azərbaycan türkləri arasında islamçılıqla yanaşı, siyasi-ideoloji türkçülüyə meyil edən ilk ziyalılardan biri **Əhməd bəy Ağaoğlu** olmuşdu. Bir qədər də dəqiqlşədirsək, Ağaoğlu "İslam millətçiliyi" uğrunda mübarizədə türklüyü onun əsas silahlarından biri kimi görmüşdür. Bu baxımdan "Kaspi", "Həyat" və "İrşad" qəzetlərində dərc olunan məqalələrində o, ruslaşdırmaya, farslaşdırmaya, o cümlədən erməni millətçiliyinə qarşı çıxaraq milli mənsubiyyət məsələsinə geniş yer vermiş, türk adət-ənənələri və mədəniyyətini təbliğ etmiş, sünni-şiə ayrılıqlarına qarşı olmuş, milli hüquq və azadlıqlarından bəhs etmişdir. Ağaoğlu özü ruslaşdırma siyasətinə qarşı "İrşad" qəzetinin tutduğu məsləki belə izah edirdi: birincisi rus hökumətinə qarşı mücadilə edərək türk

ünsürünün siyasi hüquqlarını təmin etmək, ikincisi türk ünsüründə birlik fikrini yaratmaq [22, 228].

Çünki Ə.Ağaoğlu hesab etmişdir ki, çar Rusiyasının hakimiyyəti altında ən çox əzilən müsəlmanlar, o cümlədən onların böyük əksəriyyətini təşkil edən türk-tatar xalqlarıdır. Ona görə də ilk növbədə, türklər bir araya gəlməli və haqsızlığa, ədalətsizliyə qarşı öz etiraz səslərini ucaltmalıdırlar. Bu baxımdan, Ə.Ağaoğlu hesab edirdi ki, artıq özümüzü cansız, ölü portretlərin yerinə qoymaqdan əl çəkməli, işləməli, özümüz özümüzün qeydinə qalmalı, ehtiyaclarımız barədə düşünməli və onun təmin edilməsi üsullarını öyrənməliyik. Başqa sözlə, Rusiyada həyata keçirilən islahatlardan maksimum yararlanmaq, yeni həyat formaları arasında başımızı itirməmək, həmin formalara ağlabatan tərzdə uyğunlaşmaq, ətrafımızdakı xalqların səviyyəsinə çatmaq və özümüzə layiqli yer tumaq lazımdır [106, 44].

Ə.Ağaoğlunun bu tezislərində açıq aşkar milli əlamətlər öz əksini tapmışdır. Çünki o, Rusiyadakı müsəlman türklərini dini və etnik kimliyi nəzərə almaqla, birləşməyə çağırır və əsas yükü ziyalıların çiyninə qoyurdu. İlk növbədə ziyalılar bütün qüvvələrini cəmləşdirməli, gecə-gündüz yorulmaq bilmədən işləməli və ölkə yeni həyata qədəm qoyduğu andan etibarən buna hazır olmalı idilər. Çünki ziyalılar "öz xalqlarının taleyini müəyyənləşdirən məsələləri həll etməli olacaqlar. Məhz buna görə də ziyalılar təxirəsalmadan bu məsələlər üzərində düşünməli, onları hərtərəfli, ağılla götür-qoy etməli, heç bir sentimental və ya nəzəri ideologiyaya uymamalıdırlar" [106, 45]. Ağaoğlunun fikrincə, türk ziyalıları Qafqazda çoxluq təşkil edən bir millətin üzvləri olduqlarına görə, mövcud olan rəsmi dövlət orqanları və başqa təşkilatları, eyni zamanda diyarın özünü hərtərəfli öyrənməlidirlər. Əgər bu baş verərsə, onda türklər Qafqazın ən sanballı milləti kimi diyarın həyatında onun sayına və mövqeyinə uyğun yer tuta biləcək və indiyə qədər olduğu kimi kənarda qalmayacaqlar [106, 45].

Eyni zamanda, Ağaoğlu hesab edirdi ki, türkçülük hissinin güclənməsi farslaşdırma və ruslaşdırma siyasəti qarşısında mühüm siyasi faktordur. Bu baxımdan Y.Akçuraoğlunun təbrincə desək, ruslaşdırmaya, farslaşdırmaya qarşı dayanmaq, məzhəb ayrılığına son qoyaraq düşmənlərinə fürsət verməmək baxımından Ə.Ağaoğlu, Ə.Hüseynzadə və Ə.Topçubaşı Qafqaz türklüyündə birliyin yaranmasına çalışmışlar [22, 228]. Ona görə də Ə.Ağaoğlu nə qədər "İslam milləçiliyi"ndən çıxış etsə də, Azərbaycan türklərinin oyanması baxımından gördüyü milli işləri, xüsusilə "Difai"nin lideri kimi apardığı mübarizə onu islamçılığın ideoloqu ilə yanaşı, türkçü adlandırmağa layiq edir. Tanınmış alim T.Svyatoçovski yazır: "Tatar-erməni mübaribəsi nəticəsində meydana gələn "Difai" özünün əsasən antirus fəaliyyəti ilə Şamil dövründən bu yana təşkilatlanmış heç bir müqavimətlə üzləşməyən çar rejiminə uzun illər boyu mütilik tabeçilyə zərbə endirmiş oldu" [260, 101].

Ə.Ağaoğlunun millət və millətçilklə bağlı mülahizələri "Bizim millətçilər" ("Kaspi"), "Millət və millətçilik" ("Tərəqqi") məqalələrində də öz əksini tapmışdır. "Millət və millətçilik" silsilə məqalələrində o, yazırdı: "Kamali əminiyyət və iftixar ilə deyə bilərik: Rusiya müsəlmanları arasında milliyyət və ittihadi-islam məsələlərini qalxızanların birisi də biz özümüzük" [10]. O qeyd edirdi ki, artıq türk xalqlarını millətlərin inkişafının ən parlaq mərhələsini təşkil edən millətçilik deyilən dövrə çatdırmaq uğrunda mübarizə aparmaq lazımdır [10]. Bəşərin tarixi təkamülündə dindən sonra millətçiliyi insan ruhunun ikinci növü adlandıran Ağaoğluna görə, birincisi cəmiyyətin, millətin ilkin, əbədi halı, ikincisi isə bəşəri təkamülün vacib əlaməti, xassəsi, hətta onun inkişafının "sehrkar halı"dır: "Nasionalizm dövrəsi bir millətin əmrində həmin mayənin xəmiriyyəyə təsir edib, onun qıcqırması kimidir. Nasionalizm dövründə millət özünə gəlir, özünü tanıyır, onun cümlə üzvləri cabəca olub, millətin

vücudu, bədəni qəribə bir mətanət, bir mükəmməlliyət kəsb ediyor" [10].

Qeyd edək ki, 1910-1918-ci illərdə Ə.Ağaoğlu Türkiyədə olarkən, xüsusilə "Türk Yurd"unda "Türk aləmi" sislsilə yazıları ilə islamçılıqla türkçülüyün bütövlüyü məsələsinə daha çox diqqət ayırmışdır. Onun fikrincə, islamiyyət cərəyanının tərəfdarları bilməlidirlər ki, qövmiyyət (milliyyət) cərəyanı da ictimaiyyət arasında nüfuza malikdir: "İslamiyyət faili müxtəlif millətlərdən təşəkkül etdiyi üçün pək təbiidir ki, vahid külli qüvvət, səlahiyyət və mədəniyyət, onu təşkil etməkdə olan əza və əqvamın qüvvət və mətanəti ilə mütənasibdir. İslam millətləri nə qədər güclü və mətin olursa, islamiyyətin heyəti-ümumiyyəsi də eyni nisbətdə qüvvət və mətanət kəsb edir. Milliyyətə xidmət etmək filhəqiqə islamiyyətə də xidmət etmək deməkdir" [234, 198-199].

Bununla da, Ağaoğlu türkçülüyü islamçılığa, islamçılığı isə türkçülüyə qarşı qoyanlara öz etirazını bildirmişdir. O hesab edirdi ki, islamçılığı gücləndirən ən önəmli amil milliyyət, yəni türklükdür. Əgər onlar bir-birinə qarşı qoyularsa hər ikisi süquta uğrayacaqdır. Bu mənada Ağaoğlu islamçılığın güclü olması üçün, milliyyətin də güclü olması fikrini müdafiə etmişdir. Ancaq burada önəmli bir məqam vardır ki, Ağaoğlu daima islam-türk birliyinin tərəfdarı olmuşdur. Yaxud da, o, ən azı mənəvi-ideoloji baxımdan belə bir birliyin olmasının zəruriliyinə inanmışdır. Görünür, bu səbəbdəndir ki, Ağaoğlu İslam-Türk birliyindən çıxış edərək etnik türkçülüyü, yəni ayrı-ayrı türk dövlətlərinin yaranması ideyasına bir o qədər də rəğbət göstərməmişdir.

Bu baxımdan bəzi tədqiqaçılar (A.Balayev və b.) hesab edirlər ki, 1918-ci ildə Qafqaz İslam ordusunun tərkibində Azərbaycana gələn Ə.Ağaoğlu Nuru paşanın "siyasi müşaviri" kimi İslam-Türk birliyi ideyasına uyğun olaraq, müstəqil Türk dövlətlərinin yaranmasının əleyhinə çıxmış, hətta, Azərbaycanın

Türkiyəyə birləşməsini tələb edən "ilahaqçılar"ın əsas ideoloqlarından biri olmuşdur [51, 117-118]. Vaxtilə M.B.Məmmədzadə də yazırdı ki, Nuru paşanın səlahiyyətli "siyasi müşaviri" Ağaoğlu onunla danışıqlar aparmağa gələn Milli Şuranın nümayəndələrinə (M.Ə.Rəsulzadə, F.Xoyski və M.H.Hacınski) xalqın onları istəmədiyini, bu səbədən onların hökumətinə qarşı xalq üsyan edəcəyi təqdirdə tərəfsiz qalacaqlarını bildirmişdi. Ə.Ağaoğlu siyasi böhrandan çıxış yolu kimi təklif etmişdir ki, Milli Şura ləğv olunsun və Nuru paşanın özü bir hökumət qursun. Ancaq Milli Şura nümayəndələrinin onun bu fikirlərinə etiraz etməsindən sonra Ə.Ağaoğlu razılaşmışdır ki, Milli Şura yeni hökuməti təşkil etsin və bütün hüquqlarına ona verməklə, özünü ləğv etsin [154, 99-101]. Fikrimizcə, Ə.Ağaoğlunun Milli Şuraya qarşı tutduğu kəskin mövqe həm o zaman, həm də sonralar onun ayrı-ayrı müstəqil türk dövlətlərinin deyil, vahid islam-türk dövləti ideyasının tərəfdarı olması mülahizəsinin yaranmasına səbəb olmuşdur.

Ümimiyyətlə, etiraf etmək lazımdır ki, Azərbaycanın milli istiqlalı məsələsində Ə.Ağaoğlu bir qədər ziddiyyətli mövqe tutmuşdur. Belə ki, istər Nuru paşanın "siyasi müşaviri" və ilk Parlamentin millət vəkili olduğu dönəmlərdə Azərbaycanın Milli İstiqlalı bağlı fərqli mülahizələrdən çıxış etmişdir. "Siyasi müşavir" kimi Milli Şuranın ləğvinə və Türkiyə ilə birləşmək istəyən "ilhaqçılar"a meyilli yeni hökumətin təşkilinə nail olan Ə.Ağaoğlu, Türkiyədən gələn türk əskəri Azərbaycanı tərk etməyə məcbur olduqdan sonra, Bakıda çıxan rusdilli qəzetlərdən birinə verdiyi müsahibəsində Azərbaycanın yenidən Rusiyanın tərkibinə qayıtmasını ən məqbul variant kimi göstərmişdi: "Azərbaycan türklərinin indiyə qədər arxalandıqları Türkiyə, Dünya müharibəsi nəticəsində məğlub olmuşdur. Azərbaycan müstəqil yaşaya bilmədiyi üçün Rusiya ilə Türkiyədən birinə arxalanmalıdır. Türkiyə məğlub olduqdan sonra Azərbaycanın öz taleyini Rusiyaya bağlamaqdan başqa

çarəsi qalmır. Özü də mədəni cəhətdən Rusiya Türkiyə ilə müqayisədə daha yüksək pillədə durur. Bütün bu mülahizələri nəzərə alaraq, eləcə də Azərbaycan məsələsinin Avropadakı sülh konfransında qəti həllini tapmayacağı təqdirdə, Azərbaycan xalqı ÜmumRusiya Federasiyasının tərkibinə daxil olmağa razılaşmalıdır" [51, 148].

Ancaq Azərbaycan Parlamentinin yaranması və mövcud siyasi böhranın aradan qalxmasından sonra, artıq millət vəkili kimi Ağaoğlu Azərbaycan Cümhuriyyətinin istiqlalını dəstəkləmişdir. Bunu, Ə.Ağaoğlunun parlamentin iclaslarındakı çıxışları da təsdiq edir: "Hökumətin bəyannaməsində söylədiyi Azərbaycan istiqlalı bizim hamımızın əfzəl (birinci) amalımızdır! Hər bir öz şərəfini, öz amalını bilən azərbaycanlı bunu duymalı və bu yolda olmalıdır!" [34, 129]. Onun fikrincə, Azərbaycanın bir coğrafi isim deyil, yer üzündə yaşayan bir millətin yurdu, dövləti olmasını artıq bütün dünyaya, o cumlədən Avropaya da tanıtdırmaq lazımdır [34, 130]. Bütün bunlarla yanaşı, qeyd edək ki, Ağaoğlunun siyasi-ideoloji görüşlərindəki bu kimi ziddiyyətlər sonralar da davam etmişdir.

Ə.Ağaoğlu, Y.Akçuraoğlu və başqaları ilə yanaşı, 1900-1910-cu illərdə islamçılığın və türkçülüyün, xüsusilə İslam-Türk birlyinə əsaslanan "Osmanlı türkçülüyü" ideyasının böyük davamçılarından biri də Azərbaycan türk ideoloqu **Əli bəy Hüseynzadə** olmuşdur. O, hələ 1-ci Rusiya inqilabına (1905) qədər, əsasən mədəni türkçülüyü və mədəni turançılığı təbliğ etmişdir [109, 32]. Bu baxımdan ilk turançı hesab olunan Ə.Hüseynzadə, ancaq turançılığı şiddət və qətiyyətlə müdafiə etməmişdir; yəni o, daha çox mədəni, şairanə turançı olmuşdur. Fikrimizcə, bir çox müəlliflərin (Y.Akçuraoğlu və b.) də təsdiqlədiyi kimi Ə.Hüseynzadədə əsil milliyyətçilik, türkçülük fəaliyyəti Rusiya-Yaponiya müharibəsi ərəfəsində meydana çıxmışdır [22, 208].

Ümumiyyətlə, Ə.Hüseynzadənin nəzəri-fəlsəfi yaradıcılığının Azərbaycan dövründəki (1905-1910) iki istiqaməti: 1) "islamlaşmaq, türkləşmək və avropalaşmaq" kimi formulə edilən "üçlük" düsturu; 2) və "Osmanlı türkçülüyü" ideyalarını fərqləndirmək lazım gəlir.

Ə.Hüseynzadə ilk olaraq 1904-cü ilin noyabrında Misirdə nəşr olunan "Türk" qəzetinə göndərdiyi "Məktubi-məxsus" məqaləsində, bəzi istisnaları nəzərə almasaq, bütövlükdə Y.Akçuraoğlunun "Üç tərzi-siyasət" əsərindəki **"osmançılıq, islamçılıq və tükçülük"** ideolojisi ilə razılaşdığına işarə etmişdir. Belə ki, Ə.Hüseynzadə də Y.Akçuraoğlu kimi "osmanlı milləti" ideyasını rədd edərək, diqqətini müasir ruhlu islamçılıq və türkçülük üzərində cəmləşdirmiş, yeni ideyanın islam-türk anlayışlarının bütövlüyü ətrafında yaranmasını vacib saymışdır. Bununla bərabər, Ə.Hüseynzadə Yusif bəyin "üçlük" proqramında islamçılıq və türkçülüyün vəhdəti halından kənara çıxarılaraq, ayrı-ayrılıqda götürülüb siyasiləşdirilməsinə etiraz etmişdir. Ə.Hüseynzadə hesab edirdi ki, hələlik bu məsələnin siyasiləşdirilməsi, xüsusilə də islamçılıq və türkçülüyə bölünməsi doğru deyildir. Bu mənada, o, ayrı-ayrılıqda "islamçılıq" və türkçülük" ideyalarının yaranmasının əleyhdarı kimi çıxış edir: "Süni olaraq ayrıca pantürkizm, panislamizm adları ilə məsləkicadına nə lüzum vardır?" [109, 30]. Sadəcə, Ə.Hüseynzadə hələlik mədəni türkçülük və mədəni islamçılıqdan çıxış edərək, hər iki ideyanın bütövlüyünü, birliyini irəli sürür, bu mənada bütün türk millətlərinin milli-dini birliyini zəruri hesab edirdi. Əsilində o da yaxşı anlayırdı ki, türklərin həyatında vəhdət təşkil etməklə yanaşı, islamçılıq və türkçülüyun ayrı-ayrılıqda özünəməxsus yeri və rolu vardır.

Bu baxımdan Hüseynzadə mədəni birlik kimi islamı və türklüyü bütöv şəkildə gördüyünü ifadə etsə də, siyasi cəhətdən türk millətinin milli kimliklərini (türklüklərini) və dinlərini (müsəlmanlıqlarını) tanımalarını vacib hesab edirdi: "Müsəl-

manlar və özəlliklə türklər, harada olursa olsun, istər Osmanlıda, istər Türküstanda, istər Baykal gölü ətrafında, ya Qaraqorum civarında olsun, bir-birlərini (yəni eyni türk soyundan olduqlarını – F.Ə.) tanıyacaq, sünnilik, şiəlik və daha bilməm nəlik adları ilə məzhəb təəssübünü azaldıb "Qurani-Kərimi" anlatmaya qeyrət edəcək, dinin əsasının Quran olduğunu (yəni həqiqi islamlıqlarını – F.Ə.) biləcək olurlarsa, əl verməzmi?" [109, 30]. O, daha sonra yazırdı ki, əsil məsələ nə surətlə çalışmaq, nəyə çalışmaq və öyrənməkdir. Yəni bir millət üçün hər şeydən əvvəl arzu ediləcək qüvvətdir, bir millətin qüvvət qazanması eyni cinsli ünsürlər arasında mənəvi bağın artmasına bağlıdır, xüsusilə qarşılıqlı sevginin artmasına çalışılmalıdır. Eyni zamanda, o, Rusiyada "tatar" adlı millətin olmadığını, krımlıların, orenburqluların, kazanlıların və s. türk oğlu türk olduğunu vurğulamaqla da [109, 30-31], türkçülüyü müəyyən qədər islamçılıqdan fərqləndirmişdir.

Bu baxımdan bir daha qeyd edirik ki, bu məqaləsində Ə.Hüseynzadə mədəni baxımdan milli-dini bütövlük ideyasından çıxış etməklə yanaşı, müsəlmanlığın və türklüyün ayrı-ayrılıqda dərkini də vacib hesab etmişdir: "Müsəlmanız, onun üçün dünyanın hər nərəsində xeyirxahı bulunduğumuz din qardaşlarımız tərəqqi etsə biz o tərəqqiyi əz canü dil alqışlarız! Türküz, ona görə də türküz. Türkün hər yerdə tərəqqi və təkamül ilə məsud olmasını arzu ediriz" [109, 35]. Bununla da, Hüseynzadə müəyən mənada "ümmət" və "millət" anlayışlarını bir-birindən fərqləndirmiş, sonuncu məfhuma elmi dəqiqlik və konkretlik gətirməyə çalışmışdır [51, 37].

Ə.Hüseynzadənin islamçı qədər türkçü olmasını, Azərbaycanda olduğu dönəmdə türklərin etnoqrafiyasına, dilinə, mədəniyyətinə, qədim dini-fəlsəfi təlimlərinə, ümumilikdə türk tarixinə həsr etdiyi yazılar da bir daha sübut edir. Çünki Ə.Hüseynzadə türklərin dünya tarixi və mədəniyyətinin inkişafında oynadıqları fövqəladə mühüm rolu yaxşı bilir və

həmin ənənələrin bir zamanlar yenidən dirçələcəyinə inanırdı: "Çəkilin ortadan! Mədəniyyət gəlir. Təbriz mücahidlərinin, Səttarxanların qalibiyyəti ilə gəlir" [110, 114]. Deməli, Ə.Hüseynzadə nə qədər milli-dini bütövlükdən çıxış etsə də, türk xalqlarının o cümlədən, Azərbaycan türklərinin milli və dini kimliklərini müəyyən mənada bir-birindən ayrıb siyasi iradə nümayiş etdirmələrini də zəruri hesab etmişdir. Hər halda, "Məktubi-məxsus" məqaləsindən də göründüyü kimi, 1-ci Rusiya inqilabına (1905) qədər Ə.Hüseynzadə əsasən, çağdaş ruhlu islamçılıq və türkçülüyün vəhdətindən çıxış etmişdir. Bu mənada, o, türk-müsəlman xalqlarının nicatı uğrunda doğru yolun nə bolşevizmlə, nə də nasionalizmlə deyil, milli və müasir ruhlu islamiyyət və türklüklə bağlı olduğuna inanmışdır.

Bizcə, Ə.Hüseynzadə çağdaş ruhlu türkləşmək və islamlaşmaq ideyalarını "Həyat"ın ilk sayında qələmə aldığı "Qəzetimizin məsləki" məqaləsində açıq şəkildə ifadə etmişdir. Bu məqaləsində o, M.F.Axundzadə, H.Zərdabi və başqa sələflərindən fərqli olaraq milli-dini ideyaları sistemləşdirməyə çalışaraq, onun başlıca prinsiplərini müəyyənləşdirmişdir. M.Ə.Rəsulzadə, Y.Akçuraoğlu, Z.Gökalp, M.B.Məmmədzadə və başqaları etiraf edirlər ki, Ə.Hüseynzadə 1906-1907-ci illərdə nəşr olunan "Füyuzat" jurnalında "İslam əqidəli, Türk qanlı və Avropa qiyafəli bir insan olalım" - deməklə, bütün türk xalqlarının ortaq məfkurəsinə çevrilən "türkləşmək, islamlaşmaq və müasirləşmək" ideyasının təməlini qoymuşdur [109, 255]. Ə.Hüseynzadənin bu "üçlü" düsturuna görə, hər müsəlman-türk müasir ruhlu milli və dini birlikdən çıxış etməlidir. Çünki Ə.Hüseynzadənin ideoloji-fəlsəfi baxışlarında milli və dini kimlik bir yerdə götürülürdü. Bunu, Ə.Hüseynzadə belə izah edirdi ki, İslam dini istisna olmaqla türklərin əksəriyyəti başqa dinlərə ciddi şəkildə meyil və istedad göstərməmiş, göstərənlər isə öz etnik mənşələrini belə unutmuşlar. Ancaq müsəlman türklər həm İslam aləminin mühüm bir istinadgahına çevrilmiş, həm də öz tayfa və milliyyətlərini

qoruyub-saxlamışlar [109, 57]. Bu baxımdan Ə.Hüseynzadə 1906-cı ildə "Türklər kimdir və kimlərdən ibarətdir?" əsərində yazırdı: "Türk qəvaidi o qədər sadə, o qədər gözəl və məntiqə müvafiqdir ki, onunla ülfət edən türk heç bir vaxt anı tərk eləyib, ərəbin qəvaidini qəbul edəməyəcəyi aşkar idi. İştə bu növ səbəblərdəndir ki, türklər dini-mübini-islamı öz ruh və mənəviyyatlarından nəban etmiş kimi bir şövqi-əzim ilə dərağuş edib onun qəvi bir nigəhbanı olmuş olduqları halda, əsla ərəbləşmədilər və qövmiyəti-nəcibəyi-əsliyyələri mühafizə edə bilib, ancaq o yolda tərəqqiyyata məzhər olmağa başladılar" [108, 226].

Ancaq Y.Akçuraoğluna görə, Ə.Hüseynzadə "Qəzetimizin məsləki" məqaləsində deyil, "Bizə hansı elmlər lazımdır?" mövzusu ətrafında gedən mübahisələr əsasında ilk dəfə, islamçılığın və türkçülüyün əsasını təşkil edən "üçlü" (islamlaşmaq, türkləşmək və avropalaşmaq) düstura üz tutmuşdur; bu "üçlü" düstur da çox keçmədən Türk-İslam aləminin hər tərəfinə yayılmış, xüsusilə Osmanlı Türkiyəsində Z.Gökalp tərəfindən dəstəklənmişdir [22, 209]. Bizə elə gəlir ki, birincisi bu "üçlü" düstur yuxarıda da qeyd etdiyimiz kimi, Ə.Hüseynzadə tərəfindən daha öncə irəli sürülmüş, yəni "Həyat"ın ilk məqaləsindəcə prinsip etibarilə müəyyənləşdirilmişdir. İkincisi isə, bu "üçlü" düstur sonralar yalnız Türkiyə türkçülüyü deyil, Azərbaycan türkçülüyü ideyasının da yaranmasında mühüm rol oynamışdır. Hər halda Hüseynzadə 1900-1910-cu illərdə bu "üçlü" düsturu irəli sürərkən konkret nə Azərbaycan və Azərbaycan türkçülüyünü, nə də Türkiyə və Türkiyə türkçülüyünü nəzərdə tutmuşdur. Fikrimizcə, o, həmin dövrdə nəzəri-fəlsəfi yönlü "üçlü" düsturunu bütün Türk-İslam dünyası üçün irəli sürmüş, ondan sonralar bütün Türk millətləri, o cümlədən Azərbaycan türkləri (M.Ə.Rəsulzadə və b.) və Türkiyə türkləri (Z.Gökalp və b.) eyni dərəcədə yararlanmışlardır. Deməli, Ə.Hüseynzadə nəzəri-fəlsəfi şəkilə salmağa çalışdığı "üçlü" düsturunun reallaşmasını Türkiyə, Rusiya, o

cümlədən Azərbaycan çərçivəsində məhdudlaşdırmayaraq bütün türk və müsəlman dünyası bütövlüyündə görmüşdür.

Fikrimizcə, 1900-1910-cu illərdə Ə.Hüseynzadə nə qədər müasir ruhlu Türk-İslam birliyindən çıxış etsə də, bunun hədəflərinin qeyri-müəyyənliyini dərk etmiş və onunla müqayisədə konkretliyə daha yaxın olan **"osmanlı türkçülüyü"** ideyasını müdafiə etmişdir. Bu isə, müəyyən qədər bütün türklərin Turan dövlətində (turançılıq-"panturanizm") birləşməsi ideyası ilə səsləşirdi. Bu baxımdan onun "Osmanlı türkçülüyü" ideyasını müdafiə etməsində iki əsas faktor: 1) siyasi-ideoloji; 2) mənəvi-mədəni amillər mühüm rol oynamışdır. Y.Akçuraoğlunu təbrincə desək, İstanbulu türk-islam dünyasının siyasi-ideoloji mərkəzi kimi görən Hüseynzadə siyasətdə olduğu kimi, dil və ədəbiyyatda da, mərkəzi Osmanlı olmaq üzrə türkçülüyə, yəni osmanlı türkçülüyünə, hətta panturançılığa təkan verən ilk ziyalıdır [22, 212].

Bununla bağlı, bir məsələni xüsusilə qeyd etmək istərdik ki, Ə.Hüseynzadə siyasi-ideoloji mənada "osmanlı milləti", "osmanlı millətçiliyi"nin deyil, mərkəzi İstanbul olan "osmanlı türkçülüyü"nü müdafiə etmişdir. Çünki "osmanlı milləti" türk olmayanları da özündə əks etdirdiyi halda, "osmanlı türkçülüyü" Türk imperiyası olan Osmanlının digər türk toplumları üzərində təsirini ifadə etmiş olurdu. Y.Akçuraoğlu yazır: "Xüsusən "Füyuzat"da nəşr olunan məqalələrinin məzmun və biçimindən Hüseynzadə Əli bəyin türk, türkçü, hətta Osmanlıçı olduğuna dərhal qərar verilir. Bütün türklər arasında Osmanlı türkcəsinin yayılmasını, bütün türklərin ədəbi dilinin Osmanlı türkcəsi olmasını istəyir və özü yazılarını olduqca təmiz Osmanlı ədəbi türkcəsi ilə, o zamanlar İstanbulda mötəbər yeni ədəbiyyat cədidə üslubu ilə yazır. Siyasi cəhətdən Osmanlı dövlətini, Osmanlı türklüyünü bağımsız türklüyün nüvəsi sayır. Bu baxımdan, bütün türklük məsələsində görüşü, "Üç tərzi-siyasət"in türkçülük fikrinə yaxın deməkdir" [22, 210].

Ancaq Akçuraoğlundan fərqli olaraq, Ə.Hüseynzadə türkçülüyün siyasi-ideoloji nüvəsinin Rusiya deyil, Osmanlı Türkiyəsinin olduğunu irəl sürmüşdür. Buna səbəb kimi Rusiyadakı türk məmləkətlərinin və türklərin siyasi baxımdan əsarətdə olmasını göstərən Ə.Hüseynzadə hesab edirdi ki, yalnız siyasi və hüquqi cəhətdən müstəqil türk dövlətində türkçülük inkişaf edərək başqa türk ellərini öz ətrafında birləşdirə bilər. Onun fikrincə, yaxın zamanda isə Türk-İslam dünyasının oyanışı, inkişafı və yüksəlməsi Osmanlı dövləti, Osmanlı türklüyü ilə bağlıdır. Məhz Türkiyə türkçülüyü bütün türklər üçün siyasi güc və ideoloji mərkəzə çevrilərsə bundan Rusiya türkləri, o cümlədən Azərbaycan türkləri və başqa türk xalqları da qazanacaqlar. Bu baxımdan müstəqil və ideoloji baxımdan daha çox təşkilatlanmış "Osmanlı türkçülüyü" bütün türk dünyasının mərkəzi rolunu oynaya bilər. Eyni zamanda, o, "Osmanlı türkçülüyü"nü və turançılığı Rusiya türkləri, o cümlədən Azərbaycan türkləri arasında aparılan ruslaşdırma siyasətinə qarşı qoymuşdur. Başqa sözlə, o, bu ideyaları ötən 60-70 il ərzində Qafqazda çar Rusiyasının ruslaşdırma, xristianlaşıdrma o cümlədən, Güney Azərbaycanda son dövrlərdə güclənən iranlılığa, yaxud da farslaşdırma ideolojisinə qarşı irəli sürmüşdür [22, 236-237].

Bu da bir daha göstərir ki, müsəlman və türk dünyasının qurtuluşu üçün irəli sürülən milli-dini birlik ideolojisi baxımından Ə.Ağaoğlu üstünlüyü siyasi islamçılığa, Y.Akçuraoğlu isə siyasi türkçülüyə verdiyi halda, Ə.Hüseynzadə ilk baxışdan, onlardan fərqli olaraq türk-islam birliyinin vəhdəti mövqeyindən, yəni "ikili" düsturdan çıxış etmişdir. Ancaq bunun zahirən belə olduğunu, hələ o vaxt dərk edən Akçuraoğlu qeyd etmişdir ki, əslində Ə.Hüsenyzadə də, onun kimi daha çox türkçülük ideyasının tərəfdarı olmuş, hətta Azərbaycan türkləri arasında "mədəni və siyasi türkçülük hərəkatı"nın ilk yaradıcısı olmuşdur [22, 203-204]. Fikrimizcə, burada Y.Akçuraoğlunun Ə.Hüseynzadəni siyasi türkçülük hərəkatının deyil, "mədəni və siyasi türkçülük

hərəkatı"nın ilk yayıcısı kimi qələmə alması da təsadüfi deyildir. Bu bir daha göstərir ki, 1900-1910-cu illərdə Azərbaycanda etnik türkçülük hərəkatı rüşeym şəklində olmuş, hələlik konkretlikdən (Azərbaycan türkçülüyü-azərbaycançılıq) uzaq olaraq daha çox ümumi türkçülük (bütün türklərin mənəvi-ideoloji birliyi) xarakter daşımış, bu hərəkat Vətənimizdə yalnız 1910-1920-ci illərdə milli formaya salınaraq siyasi-ideoloji mənada Azərbaycan türkçülüyü ideyası – azərbaycançılıq kimi meydana çıxmışdır.

Bu baxımdan, 1900-1910-cu illərdə Ə.Hüseynzadənin "Osmanlı türkçülüyü"nü bütün Türk-İslam dünyasının oyanışı və birliyi kimi görməsinə başlıca amil, başqa türk millətlərindən (Azərbaycan türkləri, Krım türkləri, Türküstan türkləri, İran türkləri və b.) fərqli olaraq onların siyasi müstəqilliyə və gücə sahib olmaları ilə bağlı olmuşdur. O hesab etmişdir ki, məhz Türkiyə türkçülüyü bütün türk millətləri üçün bir güc və ideoloji mərkəzə çevirildiyi təqdirdə başqa türk elləri, o cümlədən Azərbaycan türkləri də uğur qazana bilərlər. Bu mənada bəzi müəlliflərin (A.Balayev və b.) o fikiri ilə razılaşmırıq ki, Hüseynzadə türk birliyinə əsaslanan "osmanlı türkçülüyü" ideyası ilə digər türk millətlərini osmanlı millətinin içərisində əritməyə çalışmışdır [51, 27]. Bizcə, Ə.Hüseynzadənin "Osmanlı türkçülüyü"nü bütün türklüyün nüvəsi kimi götürməsi Azərbaycan türkçülüyünün ziddiyyəti kimi deyil, əksinə təkanverici amili kimi baxmaq lazımdır. M.Ə.Rəsulzadə doğru qeyd edirdi ki, həmin dövrdə Ə.Hüseynzadə, Ə.Ağaoğlu və onların həmfikirlərinin irəli sürdükləri ümumi türkçülük ideyası ayrı-ayrı türk etnoslarında (azərbaycanlıları, krımlıları, tatarları, türkmənləri və b.) müstəqillik eşqi yaradaraq onları inqilabiləşdirmişdi: "Ancaq onlar ayrı-ayrılıqda qarşılarındakı yağıların çox böyük güclərinin qorxusundan özgürlükdən, müstəqillikdən söz belə açamazdılar. Bununla belə, onların kiçik ellər yox, ünlü tarixi, eləcə də gələcəyi olan çoxmilyonlu ulusun üzvləri olmalarını anlamaları, doğal

olaraq ümidlərini artırıb, yüzilin yağısı ilə dönmədən çatışmaya çağırırdı" [179, 52].

Bu o deməkdir ki, Ə.Hüseynzadə həmin dövrdə ayrı-ayrı türk dövlətlərinin yaranması ideyasını müdafiə etməsə də, birmənalı şəkildə ona qarşı da olmamışdır. Sadəcə, Ə.Hüseynzadə dövrün reallıqlarından çıxış edərək yeganə müstəqil olan Türkiyə türkçülüyünü gücləndirməyə və möhkəmləndirməyə çalışmış, bu yolda digər türk millətlərinin ona dəstək verməsinin vacibliyini vurğulamışdı. Bu baxımdan o hesab etmişdir ki, çar Rusiyasının əsarəti altında olan türk-tatar xalqları da, ilk növbədə Türkiyə türkçülüyünü müdafiə etməlidirlər. Fikrimizcə, türkçülük nəzəriyyəsi açısından bu mülahizə həmin dövr üçün gerçəkçi baxış idi. Çünki yenicə "İslam birliyi" ideyası ilə türkçülüyü bir-birindən ayırmağa başlayan və bunu bəzən istəməyərəkdən edən milli mütəfəkkirlər, o cümlədən Ə.Hüseynzadə üçün türkçülük ruhunun parçalanması, yəni ayrı-ayrı etnik-milli türkçülüyə bölünməsi çox yad və uzaq bir hiss idi. Bu məsələləri çox doğru dəyərləndirən milli ideoloq Rəsulzadə yazırdı: "Panislamizdən qurtulan Türk ictimai-siyasi düşüncəsi birdən-birə indi çatdığı gerçək milli ideyaya o anda çata bilməzdi. Bu psixoloji baxımdan aydındır. Müharibə və ümumi təhlükə şəraitində "İslam birliyi" kimi böyük və əhatəli şüardan imtina edən millətçilər onun əvəzinə eyni təsir gücünə malik bir şüar irəli sürməli idilər. Bu, ancaq milli birlik ola bilərdi: "Din birliyi çağı keçdi, indi tarixi uluslar-millətlər irəli aparır. Yaşasın, Dunaydan Altayadək türk uluslarının birliyi!"" [179, 51-52].

Siyasi-ideoloji türkçülükdən etnik türkçülüyə keçid isə yalnız o zaman baş verdi ki, 1911-1913-cü illərdə Türkiyə Balkanlarda məğlub duruma düşdü və bununla da, türkçülüyün nüvəsi olmaqdan kənara çıxdı. Məhz bu hal türkçülükdə yeni bir dönəmin başlanğıcı oldu və bir çox türkçülər romantik-özəkçilik türkçülükdən (Türk birliyi-Turan birliyi) müəyyən qədər uzaqlaşaraq, etnik-milli türkçülüyə meyil göstərdilər. Doğrudur,

Ə.Hüseynzadə bu halda da, daha çox Türk birliyi ideyasına sadiq qalmışdır. Ancaq bu, Hüeynzadənin ümumi türkçülükdən yaranmış Azərbaycan türkçülüyünü və onun nəticəsi olan Azərbaycan Cümhuriyyətini qəbul etməsinə heç də əngəl olmamışdır.

Hər halda onun Azərbaycan Cümhuriyyəti dövründə qələmə aldığı "Azərbaycanda düşündüklərim" adlı məqaləsi bunun bariz nümunəsidir. Belə ki, 1918-ci ildə Türkiyə hökuməti tərəfindən Ə.Ağaoğlu ilə birlikdə milli dövlət qurulması məsələsində Cümhuriyyətin ideoloqları ilə fikir mübadiləsi aparmaq üçün Azərbaycana gələn Ə.Hüseynzadə yazırdı: "Hilali-Əhməriyyənin bayrağı bizimkinin eyni olan fəqət al rəngli milli bayrağında bəyaz hilal qarşısında beş şualı yerinə səkkiz şüualı bir yıldız bulunan məmləkətdən, Qafqasiya Azərbaycanından, Azərbaycan Cümhuriyyətindən, daha doğrusu Qafqasiya Türk dövlətindən bir az bəhs etmək istərəm" [111, 366]. O qeyd edirdi ki, Azərbaycan türk dövlətini çiyin-çiyinə qoruyan Türkiyə və Azərbaycan türkləri bir-birlərini mükəmməl anlayırlar: "…Çünki Azərbaycan avam xalqı ilə Anadolu köylüsünün dili lap bir-birinin eynidir! Bir-birini anlamayanlarsa rus məktəblərində yetişib lisanları ruslaşmış olan Azərbaycan oxumuşları və İstanbulun seçilmişlər ailəsinə məxsus istilahlar işlədən şəxslərdir" [111, 367]. Azərbaycan və Türkiyə türklərinin bir-birinə qovuşmasını tarixi hadisə, təbii bir cərəyan kimi qəbul edən Hüseynzadənin fikrincə, hər iki türk millətinin bir-birinə qarışması ilə bütün türk milləti müasirləşmiş, güclənmiş və bütövləşmiş olacaqdır. Belə ki, imperializm, nasiyonalizm və sosializm cərəyanlarının faciəli fəaliyyət mərkəzinə çevrilən Azərbaycan, Azərbaycan türkləri bu müxtəlif yaxıcı, yıxıcı və əzici cərəyanların altında nə edəcəyini bilmədi, mühakiməsini itirdi. Ancaq Türkiyə türklərinin onların imdadına çatması ilə yalnız Azərbaycan deyil, həm də Türkiyə türkləri də xilas oldu [111, 367].

Deməli, Ə.Hüseynzadə Azərbaycan milli məfkurəsinin gerçəkliyə çevrilərək onun əsasında siyasi və hüquqi cəhətdən müstəqil Azərbaycan Cümhuriyyətinin yarandığını görərək, iki

müstəqil türk dövlətindən (Azərbaycan və Türkiyədən) və onların bir-birinə dayaq olmasından bəhs etmişdir. Doğrudur, T.Svyatoçovski yazır ki, həmin dövrdə Ə.Hüseynzadə Cənubi Qafqaz bölgəsi üçün üç seçənəkdən: 1) Qafqaz Federasiyasından; 2) müstəqil türk, gürcü və erməni dövlətlərindən; və 3) Qafqaz türklərinin Türkiyəyə birləşməsindən bəhs etmişdir [260]. Fikrimizcə, bu seçənəklər arasında Ə.Hüseynzadə Azərbaycan Cümhuriyyətinin müstəqil bir türk dövləti kimi var olmasını daha vacib hesab etmişdir.

"Osmanlı türkçülüyü"nün ikinci amilini təşkil edən **mədəni-mənəvi türkçülüyə** gəlincə, öncə qeyd edək ki, 1900-1920-ci illərdə Azərbaycanda dil və ədəbiyyat məsələsi ilə bağlı iki istiqamət mövcud idi. "Həyat", "Füyuzat" və s. qəzet-jurnallarda Ə.Hüseynzadə başda olmaqla Məhəmməd Hadi, Əhməd Kamal, İskəndər bəy Məlikov və başqaları bütün türklərin bir araya gəlməsi və vahid ideya ətrafında birləşməsi üçün ortaq dilin vacibliyini irəli sürür, və bütün türklərin ortaq ədəbi dili kimi Türkiyə türkcəsini görürdülər [30, 155; 80[a], 263]. Onların fikrincə, ədəbi dil kütləvi ola bilməz, o ancaq oxumuşlar, yaxşı təhsilli alanlar üçündür; buna görə də ədəbi dilin sadələşməsinə çalışmaq lazım deyildir; ədəbi dil nə qədər çətin və ağır olsa, bir o qədər də mötəbər olar. Məsələn, Ə.Hüseynzadə qeyd edirdi ki, ədəbi dildə yazmağa nə Qafqazdakı türk şivələri, nə də qədim türkcə yaramır. Bu baxımdan o, dilimizi əcnəbi lüğətlərlə doldurmaq əvəzinə Türkiyənin İstanbul şivəsinin ədəbi dil kimi işlədilməsini məqsədəuyğun hesab etmişdir [28, 71-74].

Ə.Hüseynzadə "Yazımız, dilimiz və "ikinci il"imiz" (1909) məqaləsində də Türkiyənin İstanbul şivəsinin ortaq türkcə olmasını əsaslandırmaq üçün yazırdı ki, ayrı-ayrı türk ləhcələrini inkişaf etdirməkdənsə, vahid türkcə üzərində düşünmək lazımdır. Ancaq Hüseynzadənin "Osmanlı türkçülüyü" istər 1900-1920-cu illərdə, istərsə də sonralar bəzi Azərbaycan ziyalıları tərəfindən tənqid olunmuşdur. Bu məsələdə onu tənqid edənlər buna əsas səbəb

kimi, Hüseynzadənin "Osmanlı türkçülüyü"nü həddən artıq ideallaşdırmasını, xüsusilə dil və ədəbiyyat məsələsində ifrata varmasını göstərirlər. Bu baxımdan bəzi Azərbaycan ziyalıları Ə.Hüseynzadəni milli bir ideoloq kimi "türkləşmək, islamlaşmaq və avropalaşmaq" üçlü düsturunu qəbul etməklə yanaşı, ancaq siyasi-ideoloji mənada Türk birliyi, dil və ədəbiyyat da "osmanlı şivəsi"nin ortaq türkcə kimi qəbulu məsələsində onunla həmrəy olmamışlar.

"Osmanlı türkçülüyü"ndən çıxış etdiklərinə görə Ə.Hüseynzadə, M.Hadi və başqalarını tənqid edən çağdaşlarından C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, F.B.Köçərli, Ə.Haqverdiyev hesab edirdilər ki, türk (Azərbaycan) ədəbi dilini osmanlılaşdırmaq əvəzinə xalqa yaxınlaşmaq yolunu tutmaq lazımdır. Onların fikrincə, bu dili mürəkkəbləşdirmək deyil sadələşdirmək, yəni geniş xalq kütlələrinin anlaya biləşcəyi bir şəklə salmaq lazımdır. Çünki ədəbi dil xalqın öz dilidir, bu dil hamı üçündür; hamı yazıb oxumalı, cəmiyyətin inkişafında yaxından iştirak etməlidir. Xüsusilə, "mollanəsrəddinçi"lər, o cümlədən C.Məmmədquluzadə osmanlı türkcəsinin bütün türklərin ortaq ədəbi dil olması ideyasına qarşı çıxmışlar [147, 519].

Bütün bunlara baxmayaraq, yalnız türk dünyasının aydınları deyil, sovet müəllifləri də Ə.Hüseynzadəni islamçılıq və türkçülüyün tanınmış fikir adamı, ideoloq kimi böyüklüyünü etiraf etmək məcburiyyətində qalmışlar [171, 448; 162, 111]. Türk dünyasının tanımış simalarından Z.Gökalp, Y.Akçuraoğlu və başqaları da qeyd edirdilər ki, islamçılığın və türkçülüyün, o cümlədən ilk siyasi türkçülüyün yaranmasında və formalaşmasında H.Tunalı, Y.Akçuraoğlu ilə yanaşı, Azərbaycan türklərindən Ə.Hüseynzadə də mühüm rol oynamışdır [22, 174]. Fikrimizcə, bu mənada XX əsrin ilk on ilində islamçılığın və türkçülüyün Azərbaycanda ən böyük dava adamlarından biri olmuş Ə.Hüseynzadənin dəyərini anlatmaq üçün yeni "kəşflər" etmək deyil, sadəcə onun elmi-fəlsəfi irsini cəmiyyətə doğru-dürüst çatdırmaq lazımdır.

Xüsusilə, qeyd olunmalıdır ki, Ə.Hüseynzadənin "üçlük" düsturu və "Osmanlı türkçülüyü" ideyası türkçülüyün üçüncü mərhələsini təşkil edən və onun nəticəsində meydana çıxan Azərbaycan türkçülüyü ideyasının-azərbaycançılığın formalaşmasında mühüm rol oynamışdır.

Müasirlik, onun mahiyyəti və əsas istiqamətləri. Müasirləşmək, yeniləşmək anlayışları ayrı-ayrı millətlərin həyatında müxtəlif şəkildə başa düşülmüş və izah olunmuşdur. Belə ki, müasirləşməyi milliliyə və dinə qarşı qoyanlar da, onlar arasında ortaq nöqtələr tapmaq istəyənlər də, ondan imtina edənlər də olmuşdur. Əslində müasirləşmək, yeniləşmək həmişə milliliyə və dinə münasibətdə özünü büruzə vermişdir. Başqa sözlə, milli və dini şüurda dəyişikliyə, yeniləşməyə, islahatlara cəhd yenlişəmək və müasirləşmək kimi yozulmuşdur. XIX-XX əsrlərdə milli-dini ideyalara əsas rəqib ideyalar kimi daha çox liberalizm, liberal-demokratizm, sosial-demokratizm (marksizm) olmuşdursa, indi daha çox modernəlşmə, vətəndaş cəmiyyəti göstərilir.

Fikrimizcə, "müasirləşmək" anlayışına bağlı qeyri-müəyyənliyə son qoymaq üçün, iki vacib məsələyə aydınlıq gətirilməlidir. **Birincisi,** adətən "müasirlik" dedikdə, ona sinonim kimi avropalaşmaq, qərbləşmək anlayışlarından da istifadə olunur. Buradan belə nəticə çıxır ki, "müasirlik" ideyası yalnız avropalaşmaq, qərbləşmək, yəni Avropa və yaxud da Qərb mədəniyyətinə yiyələnmək anlayışı ilə bağlı olmuşdur. Bu zaman tədqiqatçılar fikirlərini əsaslandırmaq üçün Ə.Hüseynzadə, Z.Gökalp tərəfindən irəli sürülən "avropalaşmaq", "qərb mədəniyyətindənəm" istilahlarını nümunə gətirirlər. Halbuki onlar "avropalaşmaq", "qərb mədəniyyətindənəm" dedikdə, Qərbin-Avropanın bütün dəyərlərini olduğu kimi qəbul etməyi, yaxud da avropalıların hər hansı bir cərəyanını müsəlman-türk dünyasına tətbiq etmək niyyəti güdməmişlər. Sadəcə, burada söhbət milli və dini dəyərlərə zidd olmayan, Qərbin-Avropanın qabaqcıl mədəniyyətinə yiyələnməkdən gedir. Bu mənada, Ə.Hüseynzadənin türk xalqları-

na çatdırmaq istədiyi başlıca fikir ondan ibarət idi ki, Qərb mədəniyyətini mənimsəmək heç də müsəlmanların, türklərin avropalaşması, avropalıları təqlid etməsi anlamına gəlməməlidir: "Türkün irtidad edib firəngləşməsi, firənglərin ya mürtədlərin tərəqqisi deməkdir, yoxsa türk, ya müsəlman tərəqqisi demək deyildir!" [109, 35].

İkincisi, "müasirlik" dedikdə, adətən Azərbaycan Cümhuriyyətinin bayrağının rənglərindən birini, yəni qırmızı boyanın mövcudluğunu göstərirlər. Fikrimizcə, bayrağımızdakı qırmızı boyanın sırf "avropalaşmaq" yozulması da mübahisəlidir. Bəzilərinə görə, əgər Ə.Hüseynzadənin ideya xətlərindən biri "avropalaşmaq" olub, sonralar avropalaşmaq müasirlik kimi yozulmuşdursa, belə çıxır ki, qırımızı boya ancaq avropalaşmağa, qərbləşməyə işarədir. Xüsusilə, bu gün Azərbaycan Respublikasının bayrağının rənglərindən birinin "müasirlik" kimi yozulması, "müasirlik" dedikdə isə, yalnız avropalaşmanın və qərb mədəniyyətinin mənimsənilməsinin başa düşülməsi, bu məsələnin daha da mürəkkəbləşməsinə səbəb olmuşdur.

Şübhəsiz, müasirləşməyin Azərbaycan xalqının milli ideya xətlərindən birinə çevrilməsində Qərb liberalizmi və demokratiyası ilə tanışlıq mühüm rol oynamışdır. Belə ki, 19-cu əsrin əvvəllərində çar Rusiyasının müstəmləkəsi altında yaşamağa məcbur edilən şimali Azərbaycan türkləri Türk-İslam mədəniyyəti ilə yanaşı, ilk növbədə Rusiya mədəniyyəti, onun vasitəsilə Avropa-Qərb mədəniyyətinin də təsirinə məruz qalmağa başlamışdı. 7-ci əsrdən etibarən İslam-Türk mədəniyyətinin tərkib hissəsi kimi onun tərəqqisi ilə tərəqqi, tənəzzülü ilə tənəzzül edən şimali Azərbaycan xalqı bu dövrdən etibarən istər-istəməz ikili mədəniyyətin: Türk-İslam və Rus-Qərb-Xristian mədəniyyətinin təsiri altına düşdü. Beləliklə, Qərb dünyasında baş verən siyasi, iqtisadi, fəlsəfi, mədəni yeniliklərlə yaxından tanış olan Azərbaycan mütəfəkkirləri bununla da, Türk-İslam mədəniyyətinə yenidən baxıb onu təftiş etməklə üzləşdilər. Bu isə, istər-istəməz

Azərbaycan türk mütəfəkkirlərinin dünyagörüşündə bir tərəfdən ziddiyyətlərə yol açsa da, digər tərəfdən milli ideyanın əsas xətlərindən birinin – yeniləşməyin, müasirləşməyin yaranmasına səbəb oldu.

Müasirləşmək xəttinin meydana çıxmasında isə ilk növbədə, Rus-Qərb-Xristian mədəniyyəti ilə İslam-Türk-Şərq mədəniyyəti, xüsusilə İslam dini arasında aparılan müqayisələr mühüm rol oynamışdır. Belə ki, hələ XIX əsrdən etibarən Azərbaycan mütəfəkkirlərinin bəziləri radikal şəkildə (M.F.Axundzadə və b.), digərləri (A.A.Bakıxanov, H.Zərdabi və b.) isə yumşaq formada müsəlman xalqlarının geridə qalmasının əsas səbəbini mühafizəkar milli adət-ənənələrdə və dini mahiyyətdən irəli gəldiyi iddia olunan xurafat və mövhumatda axtarmağa başladılar. Bununla da, Azərbaycanda müasirləşməyə-yeniləşməyə münasibətdə iki xətt özünü büruzə vermişdir:

1) Rus-Avropa-Qərb mədəniyyəti ilə Türk-İslam-Şərq mədəniyyəti arasında sonuncunun üstünlüyünün saxlanılması şərti ilə, oxşar nöqtələrin tapılması;
2) Rus-Avropa-Qərb mədəniyyətinin ideallaşdırılması və Türk-İslam-Şərq mədəniyyətinin onun içində əridilməsi.

Azərbaycanda müasirləşməyə münasibətdə **birinci xəttin** ilk nümayəndəsi A.A.Bakıxanov olmuşdur. Daha sonra H.Zərdabi, müəyyən qədər S.Ə.Şirvani onun yolunu davam etdirmişdir. Məsələn, Zərdabi dini dəyərlərə toxunmadan zəmanə ilə ayaqlaşmağı, əks təqdirdə gerilik və inkişaf arasında qalan bir millətin bu savaşdan məğlub çıxacağını az qala hər bir məqaləsində anlatmışdır. Zərdabi və onun banisi olduğu "Əkinçi" qəzeti dini və dünyəvi elmlərdən hansının vacib olmasını gündəmə gətirməkldə müasirləşmək adına yeni bir yol cızmışlar. Zərdabi və onun tərəfdarları M.F.Axundzadədən fərqli olaraq müasirləşməyi İslam dininin tamamilə aradan qaldırılması kimi deyil, dini-əxlaqi dəyərləri inkar etmədən dünyada var olmağın əsas ideyalarından biri kimi görmüşlər.

XX əsrin əvvəllərində müasirləşməyə münasibətdə türk-isdam mövqeyindən çıxış edənlər Hüseynzadə, Ağaoğlu, Rəsulzadə və başqaları olmuşdur. Onlar hər hansı millətin həyatında dinin mühüm və vacib rolunu qeyd etməklə yanaşı, Qərb mədəniyyətinə çatmaq kimi başa düşülən müasirləşməyin əhəmiyyətini doğru anlamışlar. Beləliklə, "müasirlik" ideya xəttinin bu yöndə formalaşmasında A.A.Bakıxanov, H.Zərdabi və başqaları müəyyən rol oynamış, XX əsrin əvvəllərində Ə.Ağaoğlu, Ə.Hüseynzadə, Ə.Topçubaşı, N.Yusifbəyli, M.Ə.Rəsulzadə və başqaları isə onu inkişaf etdirməyə çalışmışlar.

Fikrimizcə, Ə.Ağaoğlu, Ə.Hüseynzadə və başqaları qərbçilik, avropalaşmaq ideyaları milli-dini ideyaların müqayisəsi zamanı, üstünlüyü türkçülüyə və islamçılığa verirdilərsə, ancaq onlardan fərqli olaraq Əlimərdan bəy Topçubaşı (1865-1934) nisbətən liberal-demokratik dəyərlərə, habelə Rusiya türklərinin birliyinə və onların milli-mədəni muxtariyyətinə yönlətmişdir. Bu baxımdan "Kaspi", "Həyat" və başqa qəzetlərdə Rusiya müsəlmanlarının hüquqlarını müdafiə edən Topçubaşının "Ümummilli haqq istəyi" layihəsində (1905) iştirakı da diqqəti cəlb edir. Bu layihəyə görə, türklərə-müsəlmanlara da ruslarla eyni siyasi, mədəni, dini hüquq verilməli, onlara aid bütün məhdudiyyətlər aradan qaldırılmalıdır. Bir sözlə, layihədə Qafqazda yerli idarələrin yaradılması və onların müstəqil olması, Qafqaz müsəlmanlarının şəxsiyyət və ərazi toxunulmazlığı, türk dilində məktəblərin olması, fikir, mətbuat azadlığı verilməsi tələb olunurdu [52, 113].

Dövlət Dumasında "Müsəlman fraksiyası"nın rəhbəri olan Ə.Topçubaşı 1905-1907-ci illərdə mövcud olmuş "Rusiya Müsəlmanları İttifaqı" Partiyasının yaranmasında fəal iştirak etməklə yanaşı, onun nizamnaməsini, proqramını şəxsən hazırlamışdır. Topçubaşı tərəfindən hazırlanan proqramda məhkəmə, siyasi məqsədlər, fəhlə məsələləri, məhəlli muxtariyyət, dini qaydalar, maliyyə işləri, dövlət quruluşu haqqında fikirlər öz

əksini tapmışdır. Bu proqramda açıq şəkildə qeyd olunurdu ki, "İttifaq"ın siyasi məqsədi Rusiya müsəlmanlarını əməli işdə birləşdirməkdir. Rusiyanın dövlət quruluşunu Konstitusiyalı monarxiya kimi görmək istəyən Topçubaşı yazırdı ki, bu idarə üsulunda vəkillər monarxa nəzarət edərlər. Xalq vəkilləri isə, bir məclis – Dövlət Duması olmaqla, ümumi, gizli, bərabərlik prinsipi ilə seçiləcək, müsəlmanların vəkilləri əhalinin ümumi sayına mütənasib olacaqdır [52, 150].

Əhalinin sayına və ərazinin böyüklüyünə görə fərqlənən millətlərə milli-mədəni muxtariyyət verilməsi müəddəasını irəli sürən Ə.Topçubaşı proqramın 34-35-ci maddələrində qeyd edirdi ki, vilayətə aid məsələlərin hamısı muxtariyyət idarələrinin səlahiyyətlərinə görə, vilayət məclislərində müzakirə edildikdən sonra dövlətin icraiyyə orqanları tərəfindən həyata keçirilməlidir. Vilayətdə hər hansı bir millət çoxluq təşkil edərsə bu vilayətin idarələrində həmin millətin dili ümumi dil olmalıdır. Rus dili isə ümumdövlət dili olmaq şərtilə mərkəzi idarələrdə, dəniz və quru qoşunlarında işlədilməlidir. Proqramın 36-cı maddəsində isə Topçubaşı yazırdı: "Bütün xalqlar mədəni, siyasi hüquq baxımından bərabər olmaqla yanaşı, dövlətin əsas qanunları xalqların hamısını mədəni hüquqlarla təmin etməlidir, yəni hər dildə və hər məhəlli dialektdə danışmaq, məktəb, mədrəsələr inşa etmək, uşaqları tərbiyə etmək, dil və ədəbiyyat cəmiyyətləri, müəssisələri yaratmaq xüsuslarında millətlərin hər birinə tam azadlıq verilir" [52, 152]. Topçubaşı tərəfindən hazırlanan bu proqram daha çox Rusiya türklərinin maraqlarına uyğun liberal-demokratik səciyyə daşımış, demək olar ki, burada islamçılıq və türkçülük ideyaları çox az yer tapmışdır. H.Baykaranın fikrincə, buna səbəb onun Ə.Ağaoğlu ilə müqayisədə islamçılıq ideyasına son dərəcədə bağlı olmaması idi: "Ə.Topçubaşıda Ə.Ağayevin geniş və dərin teosentrik panislamizmi yox idi. Sanki o, belə bir ideyanın müvəffəqiyyətlə başa çatmayacağını qabaqcadan hiss etmiş və anlamışdı. Bu məqsədlə o, 1905-ci il inqilabının gətirdiyi

azadlıq nemətlərindən Azərbaycan xalqı üçün əlindən gələn qədər daha çox pay qoparmaq istəyirdi" [52, 112].

Ümumiyyətlə, H.Baykara hesab edirdi ki, Ə.Topçubaşı Ə.Ağaoğlu və Ə.Hüseynzadədən fərqli olaraq, islamçılıq və türkçülük kimi "utopik axınların heç birində iştirak etməmişdir. Dərin bilikli hüquqşünas və siyasətçi olan Əlimərdan bəy, həyatı boyu realist və uzaqgörən bir şəxs kimi tanınmışdır. "Rusiya Müsəlmanları İttifaqı" türklərin tarixində ilk dəfə birlik fikrini irəli sürmüşdür" [52, 160]. Ancaq H.Baykaranın qeyd etməsi ki, Ə.Topçubaşı ümumiyyətlə, islamçılıq və türkçülük axınlarında iştirak etməmişdir, doğru deyildir. Sadəcə, Topçubaşı Ağaoğlu və Hüseynzadə ilə müqayisədə milli ideyanı mücərrəd və ümumi mahiyyət daşıyan nə "İslam birliyi", nə də "Osmanlı türkçülüyü" olaraq qəbul etməmiş, onu daha çox Rusiyanın əsarəti altında olan türk etnoslarının azadlıq hərəkatında və bu hərəkatın əldə edəcəyi milli-mədəni muxtariyyətlər çərçivəsində görmüşdür. Bu isə daha çox, liberal-demokratizmə əsaslanan milli baxış idi.

Bu baxımdan M.Ə.Rəsulzadə və M.B.Məmmədzadə də hesab edirlər ki, Rusiya türkləri arasında ilk dəfə milli-mədəni muxtariyyətdən və başqa hüquqlardan çıxış edən, dini-ruhani idarə birliyi bayrağı altında millətçi bir proqramın tətbiqinə girişən başda Ə.Topçubaşı olmaqla milli liberal-demokratlar olmuşdur [180, 25; 154, 27]. Y.Akçuraoğlunun fikrincə də, 1905-1907-ci illərdən etibarən Krım-Tatar və Qafqaz türkləri arasında qəbiləvi fərqlər azalaraq milli birlik fikrinə dayanan ciddi bir "milli şüur" formalaşmağa başlamış və bu məsələdə ən mühüm rollardan birini Topçubaşı oynamışdır: "1905-1907-ci il hərəkatları, zahirən Rusiya müsəlmanları birliyi adı altında yürüdülmüşdürsə də, həqiqətdə bu milli bir hərəkat idi. Rusiyada türkləri, məzhəb baxımından ikiyə, sünni və şiə qisimlərinə ayıran ixtilafın qaldırılmasına da bu zaman ciddi surətdə çalışılmışdır. Bütün Rusiya müsəlmanlarının III konqresində, qəbul olunan qərarlardan biri də bu idi: "Müxtəlif məzhəblər arasındakı fərqlər önəmli deyildir. Bu fərqlər Rusiya

müsəlmanlarının ruhani işləri üçün ümumi bir müəssisənin vücuduna dini baxımdan bir maneə törədə bilməz". Bu qərarı şiə məzhəbindən olan azərbaycanlı Əli Mərdan bəy Topçubaşoğlu təklif etmiş, üzvləri arasında bir çox sünni və şiə ruhanilər olan konqres isə bu təklifi "sünnilik, şiəlik yoxdur, Yetsin ixtilaf!" sədaları ilə və dəqiqələrcə sürən alqışlarla, səs birliyi ilə qəbul etmişdir" [22, 200].

M.Ə.Rəsulzadə, H.Baykara, Y.Akçuraoğlu və M.B.Məmmədzadənin mülahizələri bir daha təsdiq edir ki, Topçubaşı "İttifaq"ın timsalında Rusiya türklərinin milli-mədəni birliyinin yaranmasına inanmış və türk-müsəlman "ittifaqçı"ların bir araya gəlməsini də milli bayram kimi qəbul etmişdir. Bunu, Topçubaşının "İttifaq"ın Nijni-Novqorodda Oka çayı üzərində keçirilən üçüncü qurultayının sonundakı çıxışı da göstərir: "Biz türk balaları, əslimiz bir, nəslimiz bir, dinimiz birdir. Günbatandan gündoğana qədər bizim babalarımızın mülki idi. Babalarımız qəhrəman millət olduqları halda, Qafqaz dağlarında, Krım bağlarında, Kazanın çöllərində – ata və babalarımızın mülki olan öz vətənimizdə, öz torpağımızda, öz ehtiyaclarımız barədə danışmağa ixtiyarımız qalmadı. Şükürlər olsun Allaha ki, bu qədər çətinliklərə, zəhmətlərə baxmayaraq, bu gün sular üzərində ürəklərimizi açıb, bir-birimizi üz-üzə görüb, qucaqlaşıb, hal-əhval tutmağa müvəffəq olduq" [52, 162-163].

Fikrimizcə, bütün bunlar bir daha təsdiq edir ki, Topçubaşı ümumi və utopik xarakter daşıyan türkçülüyü (türk birliyini) və islamçılığı (islam birliyini) ideallaşdırmaqdansa, ilk növbədə konkret olaraq Rusiya ərazisində məhkum həyat yaşayan müsəlman türklərinin milli birliyini vacib saymışdır. O, bu zaman liberal-demokratik prinsiplərdən çıxış edərək Rusiya türklərinin milli-mədəni muxtariyyət və başqa azadlıqlara sahib olmasına çalışmışdır. Bu baxımdan H.Baykara doğru qeyd edir ki, Ə.Topçubaşının rəhbəri olduğu "Rusiya Müsəlmanları İttifaqı"

partiyası əsarətdə yaşayan türklərin liberal-demokratik burjua hərəkatıdır [52, 112].

Fikrimizcə, Hüseynzadə, Ağaoğlu və Topçubaşının müasirləşmək-qərbləşmək-avropalaşmaqla bağlı bir-birinə yaxın və ziddiyyətli mülahizələrini **Məhəmməd Əmin Rəsulzadə** bir ideoloq kimi ümumiləşdirə bilmişdir. O, "Azərbaycan Cümhuriyyəti" kitabında yazırdı: "Bayrağındakı məzmun, fikir surətilə müasir bir türk və islam siyasi mövcudluğuna qovuşmaq ümidilə…" [183, 97]. Fikrimizcə, burada qeyd edilən "müasir bir türk və islam" kəlməsi göstərir ki, müasirlik dedikdə, ilk növbədə milli və dini sahədə, yəni islamda və türklükdə yeniləşmə, milli və bəşəri mədəniyyətin bütövlüyü – dünyəvilik (layiqlik) nəzərdə tutulur. Bunu, Rəsulzadənin bayrağın mənası ilə bağlı kitabda öz əksini tapmış xüsusi qeydi, açıqlaması da bir daha təsdiq edir: "Azərbaycan bayrağındakı mavi rəng – türklüyü, yaşıl rəng – müsəlmanlığı, al rəng də – təcəddüd (yeniləşmə – F.Ə.) və inqilab rəmzi olmaq həsbilə əsrliyi tərmiz edər ki, möhtərəm Ziya Gökalp bəyin "türk millətindənəm, islam ümmətindənəm, qərb mədəniyyətindənəm" – düsturunu ifadə etmiş olur" [183, 97].

Rəsulzadə "qərb mədəniyyətindənəm" anlayışını yeniləşmə və inqilab kimi başa düşmüşdür. Bu anlayışlar da dünyəviliklə (layiqliklə), mədəniyyətlə bağlıdır. Bunu, tanınmış mütəfəkkir, milli operanın banisi Üzeyir Hacıbəyli də bu mənada başa düşmüşdür. Onun fikrincə, bayrağımızın mənəvi mənası olaraq al (qırmızı) boya türkçülüyə, yaşıl boya islamlığa, mavi boya isə mədəniyyətə işarədir [91]. Deməli, Ü.Hacıbəyli qırmızı boyanı türkçülüyə aid edərək mavi rəngi mədəniyyət mənasında qəbul etmişdir. Biz, Ü.Hacıbəylinin nədən bayrağımızın boyalarına fərqli şəkildə yozmasını geniş izah etmədən, burada mavi rəngin mədəniyyət kimi yozulmasına diqqəti cəlb etmək istərdik. Fikrimizcə, mədəniyyət və müasirlik anlayışları bir-birini tamamlayırlar. Çünki yalnız müasirləşməyə meyilli millətlər mədəniyyət yarada bilirlər. Bu mənada, "müasirlik" ilk baxışda zəmanənin

dəyərlərini və tələblərini əks etdirirsə, "mədəniyyət" anlayışı daha geniş məna kəsb edərək nəinki bu günün, həm də keçmişin və gələcəyin nişanəsidir. Eyni zamanda "mədəniyyət" anlayışında milli və dini dəyərlərlə yanaşı, Qərb-Avropa mədəniyyətinin mütərəqqi cəhətlərinin də öz əksini tapması mümkündür.

Fikrimizcə, bu mənada bayrağımızın "müasirlik" adı altında avropalaşmaq, qərbləşmək kimi deyil, milli və dini dəyərlərə zidd olmadan yeniləşmə və inqilab (islahatlar həyata keçirilməsi), yaxud da dünyəvilik (layiqlik) olaraq yozulması daha məqsədəuyğundur. Atatürkün bərincə desək, dövlət daima güclü olmalıdır ki, din birliyi tərəfdarları "ümmətçilik" adı altında qəza-cihad" ideyasına qapılmasınlar. Atatürkün fikrincə, bunu əvəzində toplumda və dövlətdə qəti şəkildə ağlın hakimiyyəti üstün olmalıdır [236, 69]. Bu isə o deməkdir ki, milli və dini dəyərlər yaşatmaq üçün həmişə müasir ruhlu olmaq hər hansı millətin başlıca qayəsi olmalıdır. Yalnız müasir ruhlu milli və dini dəyərlərə sahib millət ayaq üstə durar və dünya durduqca var olar.

1.3. Rus-Avropa-Qərb mədəniyyəti və ideologiyası: qərbpərəstlik, "molla nəsrəddinçilik", milli sosial-demokratiya, marksist-leninçi sosial-demokratiya

Quzey Azərbaycanda milli ideyanın axtarışında **ikinci xəttə** meyil göstərənlər və onun fəal təbliğatçıları sırasında M.F.Axundzadə, M.Kazım bəy, M.A.Şahtaxtlı, C.Məmməd-quluzadə, Ə.Haqverdiyev, M.S.Ordubadi, S.M.Əfəndiyev, N.Nərimanov və başqalarını göstərə bilərik. Bu mənada, çar Rusiyası və Sovet Rusiyası dövründə bu və ya digər formada "isti" münasibətlər görən bu Azərbaycan mütəfəkkirlərini birləşdirən ümumi cəhətləri aşağıdakı kimi qurplaşdırmaq olar:

1. İslam dini əleyhdarlığı və ateizmə meyillilik;
2. Rus-Avropa-Qərb mədəniyyətinə ifrat aludəçilik;
3. Türk-İslam mədəniyyətini ifrat dərəcədə tənqid;

4. Milli mənsubiyyət məsələsinə türkçülük deyil, türklük səviyyəsində yanaşma (yəni türk kimliyini qəbul etməklə yanaşı, türk adət-ənənələrinə köhnəlmiş törələr kimi baxmaq və s.).

Fikrimizcə, yeniləşməkdə qərbləşmək yolu tutmuş bu mütəfəkkirlər xüsusilə İslam dininə münasibətdə əsasən mənfi rəydə olmuş, müsəlman şərqi ölkələrində hökm sürən cəhalət və nadanlığın baiskarı kimi İslam dinini və mühafizəkar milli adət-ənənələri görmüşlər.

Yenilikçi və qərbçi M.F.Axundzadə. Yuxarıdakı tezisləri Azərbaycan türkləri arasında ilk dəfə Mirzə Fətəli Axundzadə müdafiə etmiş və kosmopolitizmə yuvarlanmışdır. İslam dinini xurafat və mövhumat kimi dəyərləndirən, Türk mədəniyyətinə və Türk tarixinə əsasən aşağılayıcı gözlə baxan Axundzadə nicat yolunu faktiki ümümbəşəri ideya hesab etdiyi Avropa demokratiyasında və Hind-Avropa nəzəriyyəsində görmüşdü. Bu mənada, Avropa fəlsəfəsindən, demokratiyasından hərarətlə bəhs edən, Sasanilər dövrünü qızıl dövr adlandıran Axundzadənin Türk-İslam mədəniyyətinə və tarixinə isə əsasən, daha çox gerilik və barbarlıq kimi yanaşmasını təsadüfi saymaq yanlışlıq olardı.

Çünki Axundzadənin Rus-Avropa-Qərb-Sasani-Fars-Zərdüştizm sevgisi genetik-qan yaddaşının oyanmasından çox şüurunda baş verən dəyişikliklərin nəticəsi idi. Mütərəqqi hadisə kimi görünən "əlifba islahatı" (ilk baxışda mütərəqqi mahiyyət daşıyan ərəb əlifbasında ya dəyişikliklərin edilməsi, ya da latın əlifbasına keçilməsi ideyası müsəlman-türk birliyini parçalamağa yönəlmişdir), "din islahatı" ideyaları altında əslində əsasən "İslam birliyi"nin, müəyyən qədər isə türk ruhunun zədələnməsinə yönəlmişdir. Hər iki məsələdə əsas məqsəd ortaq əlifbanı və ortaq İslam-Türk mədəniyyətini parçalamaq idi. Bu səbəbdəndir ki, M.F.Axundzadənin, M.A.Şahtaxtlının "əlifba və din islahatları", Mizə Kazım bəyin "dil islahatı" Rus-Avropa alimləri tərəfindən rəğbətlə qarşılanmış və onlara lazımı dəstəklər verilmişdir. Vaxtilə

Əli bəy Hüseynzadə bu "islahatlar"ın antislam, antitürk mahiyyətini görərək bildirmişdir ki, "əlifba islahatı"nın (Buna "din islahatı"nı da əlavə etmək lazımdır. Sadəcə, o dövrdə Axundzadənin antislam ruhlu "Kəmalüdövlə məktubları" hamı kimi ona da məlum deyildi) tərəfdarlarının (Axundzadə, Şahtaxtlı) Tiflisdən bunu bəyan etmələri çox düşündürücüdür: "Üç yüz milyon İslamın əlifbasının altmış-yetmiş milyon türkün imlasını bir hökmi-qaraquşilə türkün, İslamın mərkəzindən uzaq olan yuvalarından birdən dəyişmək istəyirlər! Halbuki, böylə mühüm bir əmr üçün kəndilərində lazım gələn məlumatdan əsər belə yox! Türkün imlasını islahı üçün deyil, sərf və nəhvi mükəmməl bilmək, bəlkə bütün türklərin tarixinə, ədəbiyyatına, etnoqrafiyasına, fonologiyasına haqqı ilə aşina bulunmaq tələb edər" [111, 360].

Fikrimizcə, Ə.Hüseynzadə xeyli dərəcədə haqlı idi ki, ortaq türkcədən ayrı Azərbaycan türkcəsinin inkişafında, eləcə də əlifba islahatı məsələsində əvvəlcə çar Rusiyası, sonralar Sovet Rusiyasının maraqlı və icraçı olmaları təsadüfi olmamışdır. Hər iki halda məqsəd Azərbaycanı Türk dünyasından, xüsusilə Güney Azərbaycan və Türkiyə türklərindən ayırmaq idi. Ona görə də Ə.Hüseynzadənin vaxtında ruslaşdırmaq siyasətinə qarşı irəli sürdüyü "Osmanlı türkçülüyü" ideyasına haqq qazandırmamaq mümkün deyil.

Bu ona işarə idi ki, "islahatlar" məsələsində Axundzadə və Şahtaxtlı hansısa sifarişləri bilərəkdən və ya bilməyərəkdən gündəmə gətirirdilər. Çünki əlifba və dil "islahatı"nın əsas müəllifləri çar Rusiyası və Avropa ideoloqları idilər. Onlar müsəlman xalqlarının sözdə "oyanışına", "maarfilənməsinə" xidmət adı altında müsəlmanların ortaq ərəb əlifbasını, türklərin ortaq türk dilinin aradan qaldırmaq xətti götürmüşdülər. Ancaq bunu inandırıcı etmək üçün elə bir şərait yaratmışdılar ki, həmin ideyaları məhz müsəlman-türk mütəfəkkirləri irəli sürürdülər.

Eyni xətt "din islahatı" adı altında da aparılır, "İslam birliyi"ni parçalamaq üçün ayrı-ayrı təriqətlərin inkişafına geniş şərait yaradılırdı (biz bu gün də həmin xəttin davam etdirilməsinin

şahidləriyik). Belə ki, çar Rusiyasının şərqşünasları İslam dininin əsasını təşkil edən Quranı və Sünnəni bir kənara qoyaraq, ayrı-ayrı təriqətlərlə bağlı tədqiqatlar aparır və əsərlər, jurnallar nəşr edirdilər. Onlar bu işə Mirzə Kazım bəy kimi Azərbaycan türk mütəfəkkirini də cəlb etməklə məsələnin əsil mahiyyətini gizlətməyə çalışırdılar. Məsələn, Axundzadə "əlifba və din islahatları" uğrunda çalışdığı bir zamanda, M.Kazım bəy türk dilinin ayrı-ayrı ləhcələri və ənənəvi İslam dininə aidiyyəti olmayan ayrı-ayrı təriqətlərlə bağlı əsərlər yazmışdır. Çar Rusiyası maraqlı idi ki, burada yaşayan türk-tatarların vahid millət (türk-tatar: azərbaycanlı, başqırt, özbək, qazax və b.), vahid dil (türk dili: Azərbaycan, tatar, qazax və s.), vahid din inancları (İslam dini: sünni, şiə, bəhai, vahabi, şeyxilik və b.) aradan qaldırılsın və parçalansın. Bu mənada, çar Rusiyasında sünni və şiə ayrımçılığı açıq şəkildə təbliğ olunurdu. Çar ideoloqları bu işə Axundzadə, Mirzə Kazım bəy kimi yerli aydınları da cəlb etməyə çalışırdı.

Məsələn, Axundzadə XVIII əsr fransız maarifçilərinin (J.J.Russo, F.Volter və b.), təsiri altında hesab edirdi ki, müsəlman dünyasının geriliyinin yeganə səbəbkarı İslam dinidir. Bu mənada, xristian dinində olduğu kimi (protestantizm, lüterançılıq və b.), hökmən İslam dinində də islahatlar aparmaq lazımdır. Eyni zamanda, o, Qərb mədəniyyətinin təsiri altında konstitusiyalı dövlətin yaranmasının, dinin dövlətdən ayrı olmasının zəruriliyni yazmışdır [21, 268].

Fikrimizcə, Axundzadə dini dünyagörüşdə, dini şüurda yeniləşmələr edilərək yalançı ruhaniləri və din xadimlərini ifşa etməkdə haqlı olsa da, ancaq dövrünün antiislam, antitürk ruhlu rus, fars, erməni ideoloqlarının təsiri altında İslam dini ilə bağlı həqiqətəuyğun olmayan mülahizələr irəli sürməklə doğru etməmişdir. Bu isə Axundzadənin dini şüurda etmək istədiyi yeniləşmələri yarımçıq qoymuşdu. Başqa sözlə, o, dini dünyagörüşdə yeniləşmənin aparılmasının vacibliyini doğru müəyyənləşdirsə də (din dövlətdən ayrı olmalıdır və s.), ancaq ümumilikdə

müsəlman dünyasının bütün problemlərini yalnız İslam dini ilə bağlamaqla ciddi yanlışlıqlara yol vermişdi. Özəlliklə, onun dövrünün antiislam, antitürk ruhlu rus, fars, erməni ideoloqlarının təsiri altında olması Axundzadəni sözün həqiqi mənasında Şərqin Lüteri, Russosu olmağa imkan vermədi.

Doğrudur, Axundzadənin özündən əvvəlki mütəfəkkirlərdən fərqli olaraq İslam-Türk mədəniyyətindən çox Rus-Avropa-Qərb mədəniyyətini önə çəkməsi o dövr üçün bütövlükdə yenilik idi. Çünki Axundzadəyə qədər Şərq-İslam, o cümlədən, Azərbaycan türk mütəfəkkirlərinin (Füzuli, Nəsimi və b.) dünyagörüşlərində əsasən İslam-Türk və bunların əsasında Şərq mədəniyyəti üstünlük təşkil edirdi. Onlar həmişə klassik Şərq-İslam-Türk mədəniyyətinə əsaslanmış, ancaq yeri gəldikcə Qərb mədəniyyətinə də müraciət etmişlər. Sadəcə, onların dünyagörüşündə Qərb mədəniyyətinin ideallaşdırılmasına və İslam-Türk mədəniyyətinin inkarına demək olar ki, rast gəlinmir.

Qeyd edək ki, İslam-Türk-Şərq mədəniyyətinin tənəzzülü, Rus-Qərb-Avropa-Xristian mədəniyyətinin tərəqqi dövründə olmasını M.F.Axundzadədən öncə A.A.Bakıxanov və M.Ş.Vazeh də görmüşdür. Xüsusilə, Mirzə Şəfi Vazehdə dinə radikal münasibətin bəzi cizgiləri özünü büruzə vermişdir [223[a], 46]. Maraqlıdır ki, Vazehin belə bir mövqe tutması məsələsinin başında da Axundzadə gəlir. Azundzadə iddia edirdi ki, müəllimi olmuş Vazeh söhbətlər əsnasında onu dini elmləri öyrənməkdən imtina etməyi, başqa elmləri öyrənməyi tövsiyə etmişdir [21[a], 217]. Vaxtilə sovet ədəbiyyatında həm bu faktordan, həm də Vazehin yalançı din xadimlərini tənqid etdiyi şeirlərindən çıxış edilərək o, din əleyhdarı kimi təqdim olunmuşdur. Halbuki birincisi, onun yaradıcılığında bütövlükdə konkret İslam dini əleyhinə hər hansı bir fikir yoxdur. İkincisi, Vazeh heç vaxt Axundzadə kimi Avropa-Qərb-Xristian mədəniyyətini idellaşdırmamışdır.

Vazehlə müqayisə də Bakıxanov Şərqin tənəzzülü Qərbin tərəqqisi məsələsində Axundzadədən tamamilə fərqli xətt

seçmişdir. Halbuki bu məsələ Bakıxanovu Axundzadədən heç də az rahatsız etməmişdir. Məhz bu narahatçılığın və bundan çıxış yolunun axtarılmasının nəticəsi idi ki. Bakıxanov Rusiya və Avropaya səyahət etmiş Şərqin nədən "geri", Qərbin nədən "irəli" getməsini gözləri ilə görmək istəmişdir və görmüşdür də. Bu zaman Bakıxanov müsəlman ölkələrindəki problemlərdən çıxış yolu kimi Rus-Avropa-Qərb mədəniyyətini seçməkdənsə, Türk-İslam-Şərq mədəniyyətinin klassik ənənələrini dirçəltməkdə görmüşdür [50[a], 200]. Bu mənada, o, Şərq mədəniyyətinin tənəzzülünə səbəb olan yalançı ruhaniləri, aşiq və məşuqdan yazan şairləri kəskin şəkildə tənqid etmişdir. Ancaq bütün hallarda İslam-Türk-Şərq mədəniyyətinə qarşı çıxmamış, tərsinə İslama və Türklüyə aid əsərlər yazmışdır.

Ancaq Axundzadə bütün sələflərindən, o cümlədən Bakıxanovdan fərqli olaraq müsəlman xalqlarının geriliyinin və tənəzüllünün əsas səbəbkarı kimi İslam dinini görmüşdür. Bununla da, onun İslam-Türk mədəniyyətinin mahiyyyətindən uzaqlaşması məsələsində mövqeyi doğru olsa da, bütövlükdə islamiyyəti və milli adət-ənənələri ifrat şəkildə tənqid etməsi səhv idi. Üstəlik, Axundzadənin islamiyyəti tənqid edərkən onun ilk yayıcıları ərəbləri, inkişaf etdirənləri türkləri və türk dövlətlərini hədəf seçməsi bunun əvəzində farsları-zərdüştləri-sasaniləri müdafiə etməsi birmənalı deyildir.

Deməli, təqribən eyni əsrdə yaşamış bu aydınların hər ikisi başa düşürdülər ki, cəmiyyətdə yeniləşmə lazımdır. Sadəcə, Bakıxanov bu yeniləşməni klassik Türk-İslam-Şərq mədəniyyətinə üz tutmaqda, yalançı ruhaniləri ifşa etməkdə gördüyü halda, Axundzadə Rus-Avropa-Qərb mədəniyyətində və birbaşa İslam dininin özündə görmüşdü. Bir növ Axundzadə həm Qərb mədəniyyətindən və filosoflarından təsirlənərək, həm də çar Rusiyasının ideoloqlarının və masonların təsiri altında "inqilabçı" olmaq qərarına gəlmişdi. Məhz bu "inqilabçılığ"ın nəticəsi idi ki, Axundzadə "Kəmalüdövlə məktubları"nı yazdı və orada əsasən İslam

dinini, müəyyən qədər də Türk adət-ənənələrini tənqid etmişdir. Onun yaratdığı obrazlar (Hacı Qara, Dəvriş Məstəli şah, Xırs Quldurbasan və b.) cəmiyyətin şüurunda özünüaşağılama kompleksinin yaranmasına səbəb oldu. Məlum oldu ki, Azərbaycan cəmiyyətində demək olar ki, insanların əksəriyyəti avam, nadan, hiyləgər, boşboğaz, yalançı, xəsis və sair kimi xüsusiyyətlərə malikdir. Guya, bunun da əsas günahkarı İslam dini və milli adət-ənənələrdir. Həmin aşağılayıcı tiplərin və obrazların şüurlarımıza yeridilməsi mənfiliyə də yol açmışdı. Bu mənada, Axundzadə ilə başlayan qərbyönlü yeniləşmə hərəkatı ikili xarakter daşımış, onun müsbət cəhətlərlə yanaşı, mənfi tendensiylar da kifayət qədər olmuşdur.

Axundzadəsayağı yeniləşmənin müsbət cəhəti isə odur ki, İslam-Türk-Şərq mədəniyyətinin lazımsız yerə ideallaşdırılması tənqid hədəfinə çevrildi. Hər halda, dini və mili adət-ənənələrdən uzaqlaşaraq ideallaşdırma xəstəliyi müsəlman ölkələrinin tənəzzülünə gətirib çıxartmışdır. Artıq XIX əsrdə İslam dini xurafat və mövhumat kimi başa düşülür, milli adət-ənənələr gerilik və vəhşilik kimi qələmə verilirdi. Həmin dövrdə millətin qabaqcıl şəxslərindən hesab edilən din xadimlərinin əksəriyyəti xurafat və mövhumatla məşğul olur, şairlər isə şeirlərini əsasən aşiq və məşuqa, yar və şəraba həsr edirdilər. Belə bir dövrdə tənəzzülə uğramaqda olan İslam-Türk-Şərq mədəniyyətinin mənəvi zəlzələsinə (bunu Ağaoğlu XX əsrin əvvəllərində elə bu cür də ifadə etmişdir) və tənqidinə doğrudan da ciddi ehtiyac var idi. Bu mənada, dini və milli dəyərlərə münasibətdə Axundzadənin həddən artıq radikallığı cəmiyyətin şüuruna mənfi təsir göstərməklə yanaşı, digər tərəfdən bir silkələnməyə (mənəvi zəlzələyə) də səbəb oldu. Bu mənada, Axundzadəsayağı yeniləşmənin doğurduğu mənəvi zəlzələni də qiymətləndirməmək mümkün deyildir. Beləliklə, Axundzadə milli-dini məsələlərin tənqidində təhrifə və ifratçılığa yol versə də, ümumilikdə cəmiyyyətdə yeniləşmə hərəkatına təkan vermiş, yeni nəslin qarşısında qərbyönlü də olsa, bir üfüq açmışdır.

Axundzadənin müəllif olduğu yeniləşmə hərəkatının əsas mənfi cəhəti bunu tamamilə qərbləşməklə bağlaması, bunun əvəzində İslam-Türk mədəniyyətini ifrat şəkildə tənqid etməsi idi. Bu mənada, XIX əsrin sonu – XX əsrin əvvəllərində Axundzadənin əsasən islamiyyət, müəyyən qədər də türkçülük ruhuna zidd olan "Kəmalüdövlə məktubları" ictimaiyyətə məlum olmasa da, ümumilikdə onun İslam dininə fərqli yanaşması hamıya məlum idi. Çünki Axundzadənin əlifba və din islahatları istiqamətində başladığı qərbləşmə ideyası mahiyyət etibarilə islamiyyət və türkçülüyə zidd idi. Bu mənada, Axundzadənin Rus-Avropa-Qərb mədəniyyətini ideallaşdırması, bunun əvəzində İslam-Türk mədəniyyətini ifrat şəkildə tənqid etməsi ondan sonra gələn aydınlarımızın dünyagörüşlərində ciddi ziddiyyətlərə yol açıdı. Hər halda, bunun mənfi cəhətləri müsbət amillərdən heç də az təsirli olmadı. Yazıqlar olsun ki, sovet dövründə mütərəqqi hadisə kimi qələmə verilən bu məqsədli "islahatlar"a münasibət hazırda da əsasən dəyişməmişdir.

Özəlliklə, Axundzadənin yaradıcılığının ruhunu təşkil edən cəmiyyəti dinsizləşdirmə yolu idi ki, sonralar onun bu xəttini "şərqi-rus"çular, "mollanəsrəddinçi"lər, "hümmətçi"lər (1917) davam etdirdilər. Ümumilikdə Axundzadə kimi, onların tutduqları xətt də Rus-Avropa-Qərb xəttinə bağlı olduğuna görə çar Rusiyasının maraqlarına uyğun gəlirdi. "Şərqi-Rus"un və "Molla Nəsrəddin"nin əsas simaları uyğun olaraq M.A.Şahtaxtlı və C.Məmmədquluzadə idi ki, onların hər ikisi xüsusilə İslam dininə münasibətdə radikallığı ilə seçilmişlər.

"Şərqi-Rus" və M.A.Şahtaxtlı. Maraqlıdır ki, XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda İslam dini və Türk birliyinin əleyhinə çıxanlar SSRİ ədəbiyyatında ya "molla-nəsrəddinçi"lər kimi "inqilabi-demokratizm"in, yaxud da M.A.Şahtaxtlı kimi, xırda burjua demokratizmin nümayəndəsi kimi qələmə verilmişdi [29, 83]. Məhəmməd Ağa Şahtaxtlı hələ, "Şərqi-Rus" nəşr olunmamışdan illər öncə bir neçə məsələdə Rus-Avropa-

Qərb mədəniyyətinə bağlılığını büruzə vermişdir. Onun qərbpərəstliyi-ruspərəstliyi aşağıdakı məsələlərdə öz əksini tapmışdır:

1) Əlifba islahatı;
2) Azərbaycan türklərinin adının azərbaycanlı və dilinin Azərbaycan dili adlanması;
3) İslam dininin ruhuna zidd yazıları.

Əlifba məsələsində Axundzadənin yolunu davam etdirən Şahtaxtlı yeni əlifba layihəsi hazırlamış və bir müddət bununla uğraşmışdır. Ancaq çar Rusiyasının ideoloqları həmin dövrdə bunu həyata keçirməyin mümkünsüzlüyünü görərək, Şahtaxtlıya ciddi dəstək verə bilməmişlər.

Şahtaxtlının Rus-Avropa-Qərb ideologiyasına xidmət edən əməllərindən biri də Azərbaycan tükrlərinin adının azərbaycanlı, türk dilinin Azərbaycan dili adlandırılması ilə bağlı olmuşdur [204, 28-29]. Şübhəsiz, çar Rusiyası ideoloqu tatar dili və tatar kimliyinin Azərbaycanda özünü doğrultmadığını görür, bu baxımdan başqa variantları dənəyirdi. Şübhəsiz, digər ideyalar kimi bu ideyanı da bir rusun deyil, bir türkün irəli sürməsi lazım idi. Bu mənada, çar Rusiyasının ideoloqları Şahtaxtlı faktorundan istifadə edərək azərbaycanlı kimliyini və Azərbaycan dilini gündəmə gətirməyə çalışmışlar. Ancaq bunun da həmin dövrdə gerçəkləşməsinin mümkünsüzlüyü ortaya çıxdıqdan sonra, bir müddət həmin məsələyə qayıdılmamışdır.

Şahtaxtlının İslam dini ilə bağlı bir çox yazılarında bütövlükdə, dinə münasibətinin Axundzadədən fərqlənmədiyini ifadə etmişdir. O, "Türkiyəni necə xilas etməli" (1901) əsərində Osmanlı İmperiyasının düşdüyü acınacaqlı vəziyyətdən xilas olması üçün, türklərin Qərb siyasi doktrinalarına müraciət etmələrinin, o cümlədən konstitusiyalı dövlət olmasının, parlamentli ölkəyə çevrilməsinin vacibliyindən bəhs etmişdi. Onun fikrinə görə, əgər Türkiyə öz mövcudluğunu qoruyub saxlamaq istəyirsə avropalaşmalı, Avropa mədəniyyətini qəbul etməlidir [204, 43-44].

Şahtaxtlı yazırdı ki, türk millətinin inkişafına isə iki amil əngəl olur: despotizm və ruhanilərin hakimiyyəti: "Savadlı idarə üsulunun meydana gəlməsi ilə despotizmin yox olması kimi, onlar, ümid var ki, öz cürətli hərəkətləri ilə ruhaniliyə də qələbə çalacaqlar" [204, 45]. Ruhanilərin dövlətdə tutduğu mühüm mövqeyi tənqid edən M.Şahtaxtlı yazırdı ki, ruhanilik insanın qanunları və biliyi ilahi qüvvədən hazır şəkildə aldığını öyrədir. Bu baxımdan İslam dini adından bütün fəlsəfi təlim və mübahisələr, fikir və şüur azadlıqları ləğv edilmişdir. Eyni zamanda, dünyanın adət və tələbləri dəyişildiyi halda, dəyişilməyən İslam qanunları cəmiyyəti əzir və təbii ədalət hissini məhv edir. Bütün bunları aradan qaldırıb Osmanlı cəmiyyətini dinsizləşdirmək üçün, ilk növbədə islam xəlifəliyi, dövləti İslam qanunları ilə idarə etmək ləğv edilməlidir [204, 46-48].

Bu məsələlərdə M.A.Şahtaxtlı müəyyən qədər haqlı görünsə də, İslam dininə münasibətdə aşırı radikallıq etməsi və birmənalı şəkildə Avropa-Qərb dəyərlərinin müsəlman-türk ölkələrində tətbiq olunmasını iddia etməklə səhvlərə yol vermişdi. Bizcə, M.A.Şahtaxtlı bu cür radikal qərbpərəst və ruspərəst mövqeyini isə "Şərqi-Rus" qəzetində dərc olunan məqalələrində daha açıq şəkildə ifadə etmişdir. Belə ki, o, bu qəzetdə yazdığı məqalələrdə Ə.Ağaoğlu, Ə.Hüseynzadə və Ə.Topçubaşıdan fərqli olaraq, müsəlman-türk dünyasının problemlərdən çıxış yolunu islamçılıq və türkçülükdə yaranmasında deyil, ümumiyyətlə, İslam dəyərlərindən imtina edilərək qərbləşməkdə, avropalaşmaqda, hətta ruslaşmaqda görürdü. Onun fikrincə, çünki İslam dininə əsaslanan qanunlara qarşı mübarizə aparmaq, islahatlar həyata keçirmək çox gecdir. Bunun üçün istər islam, xaçpərəst, istərsə də məcusi, saibi üçün olsun çıxış yolu, indiki avropalıların vaxtilə keçdikləri körpü ilə keçməkdir: "Daha bu körpünü buraxıb boğula-boğula sudan keçmənin nə ləzzəti var? Bu gün aləmi-islamiyyətin işıqlı yerlərində Avropada vücuda gətirilən açıq, asan, faydalı kitablar,

əsərlər, alətlər gündən-günə çoxalmaqda, alimlər onlardan istifadə etməkdədir" [204, 70].

Beləliklə, türk-müsəlman xalqlarının mövcud problemlərdən xilas olması və inkişafı üçün radikal qərbçiliyi əsas prinsip kimi götürən M.A.Şahtaxtlı bu yolda İslam və ona əsaslanan "İttihadi-islam"ı əngəl kimi görür, mütərəqqi islamçılıqdan çıxış edənləri, xüsusilə Ə.Ağaoğlu, Ə.Topçubaşı və başqalarını "panislamizm"ə, yəni "İslam birliyi"nə çalışmaqda ittiham edirdi [29, 232]. Şahtaxtlının fikrincə, "panislamizm"in mənəvi zərəri isə xristian dövlətlərini, Avropa mədəniyyətini müsəlmanlara düşmən göstərməsi, bu mədəniyyətə yiyələnmələrinə əngəl olmalarıdır [204, 107]. Bununla da Şahtaxtlı Ə.Ağaoğlu, Ə.M.Topçubaşı başda olmaqla islamçı-türkçü ideoloqları qeyri-səmimilikdə ittiham edir, onları islamçılığın və türkçülüyün qabaqcılları kimi görmədiyini qeyd edirdi [204, 105-106]. Ə.Ağaoğlu isə M.Şahtaxtlını daha çox "Şərqi-Rus" qəzetində müasir və milli ruhlu islamçılığa qarşı yönəlmiş mülahizələrinə görə tənqid etmişdi. Ağaoğlunun fikrinə görə, "Şərqi-Rus" bundan xilas olmaq üçün, cəmiyyəti Qərb dəyərləri ilə tanış etməklə yanaşı, Şərqin tarixi-fəlsəfi cəhətdən öyrənilməsinə, həmvətənlərinin dünyaya baxışının və mənəvi həyatının yeniləşməsinə də öz töhfələrini verməlidir [29, 230]. Xüsusilə, M.A.Şahtaxtlının "hər bir şəriət zaman və məkanilə məhdudur, heç bir şəriət tabeləri tərəfindən səmavi də hesab olunsa, əbədi və küll ola bilməz" fikrini tənqid edən Haşım bəy Vəzirov bütün bunları küfr və ruspərəstlik kimi qiymətləndirirdi [28, 238]. M.T.Sidqi, F.B.Köçərli və başqa aydınlar isə bu qarşıdurmaya qarşı çıxaraq bunu, millətin birliyinə və inkişafına zərər hesab edirdilər [201, 178].

"Molla Nəsrəddinçilər" və ruspərəstlik. Axundzadə, Şahtaxtlıdan sonra Rus-Avropa-Qərb mədəniyyətinə və ideologiyasına xidmət edən qərbpərəstliyi və beynəlmiləlçiliyi "mollanəsrəddinçilər" davam etdirmişlər. Ancaq bütün "molla-

nəsrəddinçiləri" bu sıraya aid etmək haqsızlıq olardı. Çünki C.Məmmədquluzadə, Ə.Qəmküsar, M.Ə.Sabir, M.S.Ordubadi "Molla Nəsrəddin" jurnalında, eləcə də başqa qəzet-jurnallarda yazdıqları bir çox məqalələrdə milli, xüsusilə dini adət-ənənələri daha kəskin şəkildə tənqid etdikləri halda, ancaq "mollanəsrəddinçi"lərdən digərləri Ö.F.Nemanzadə, Ü.Hacıbəyli, M.Ə.Sabir isə yaradıcılıqlarında milli və dini məsələyə daha ehtiyatla yanaşmış, marksizm-leninzmə bir o qədər də meyil etməmişlər. SSRİ dövründə Ə.Mirəhmədov yazırdı ki, "Molla Nəsrəddin" jurnalının tutduğu cəbhə əsas etibarilə bolşeviklərin minimum proqramına yaxın olsa da [29, 88], jurnalın əməkdaşlarından bəziləri (Ö.F.Nemanzadə, Ü.Hacıbəyli və b.) milli burjuaziyaya da meyil göstərmişlərdir: "Söz yox ki, bəzi mollanəsrəddinçilərin görüşlərindəki xırda burjua mütərəddüdlüyü, onların ictimai hadisələri anlamaqdakı məhdudluğu jurnalın səhifələrində əks olunmaya bilməzdi" [29, 90]. Deməli, SSRİ dövrünün Azərbaycan müəllifləri bir çox hallarda qəsdən "mollanəsrəddinçi"lərin hamısını bolşevikləşdirməyə, yəni marksizm-leninzmə bağlamağa çalışmış [122, 69], ancaq bəzən də məcburiyyətdən onların arasından milli ruhda çıxış edənləri xırda burjualılqda ittiham etmişlər.

Fikrimizcə, o zaman "mollanəsrəddinçi"lərin hamısını rus bolşevizminə bağlamaq səhv olduğu kimi, indi də zorla milli-demokratik məfkurənin nümayəndələridək qələmə vermək də yanlışdır. Yəni bu məsələlərə obyektiv yanaşaraq ayrı-ayrı "mollanəsrəddinçi"lərin görüşlərində marksizmə və millətçiliyə meyilliliklərini doğru təhlil etmək lazımdır. Bu mənada, "mollanəsrəddinçilər"i milli-dini dəyərlərə və qərbləşməyə münasibətdə iki qrupa: 1) radikallara (C.Məmmədquluzadə, Ə.Qəmküsar və b.); 2) mötədillərə (Ö.F.Nemanzadə, Ü.Hacıbəyli, M.Ə.Sabir və b.) bölmək olar.

Radikal "mollanəsrəddinçi"lərin başında duran **Cəlil Məmmədquluzadə**nin ilk dövrlərdə Rus-Avropa-Qərb mədə-

niyyətinə və ideologiyasına üz tutmasında M.F.Axundzadə və M.A.Şahtaxtlı mühüm rol oynamışdır. Xüsusilə, Şahtaxtlının onun üzərində mühüm təsiri olmuşdur. Hər halda, C.Məmmədquluzadənun mətbuata gəlişində və qərbyönlü yol tutmasında Şahtaxtlının rolu heç kəsə sirr deyil. Bu mənada, "Şərqi-Rus"un bağlanmasından sonra, onun maddi-texniki bazasında C.Məmmədquluzadənin "Molla Nəsrəddin" jurnalını nəşr etdirməyə başlaması diqqəti çəkir. Belə ki, cəmiyyət daxilindəki bir çox həqiqətləri ifadə edən "Molla Nəsrəddin" jurnalının bütün bunlarla yanaşı, əsas günahkar rolunda İslam dinini görməsi təsadüfi sayıla bilməzdi. "Molla Nəsrəddin" jurnalı C.Məmmədquluzadə demək olduğu üçün burada əsas və həlledici söz sahibi də o, idi.

Xüsusilə, 1900-1917-ci illərdə İslam dini əsaslı istənilən birliyə qarşı çıxan C.Məmmədquluzadə açıq şəkildə olmasa da, dolaysıyla müsəlman xalqlarının inkişafına əsas əngəl kimi İslamı göstərmiş, "İslam birliyi"ndən çıxış edən mühafizəkar (Ə.Axundoğlu və b.) və mütərəqqi islamçıları (Ə.Ağaoğlu, Ə.Hüseynzadə və b.) birmənalı şəkildə tənqid etmişdir. Özəllikləə, bu dövrdə "panislamizm"in ideoloqu sayılan Ə.Ağaoğlunun "İslam millətçiliyi" nəzəriyyəsini qəbul etməyən C.Məmmədquluzadə hesab edirdi ki, bu təlim fəhlə və kəndlilərin mənafeyinə ziddir. Onun fikrincə, Ə.Ağaoğlu əsassız olaraq bəylə kəndli, varlı ilə yoxsul arasında fərq qoymur və onları eyni zümrənin nümayəndəsi kimi qələmə verir [147, 76]. Bu baxımdan o, 1911-ci ildə yazsa da ki, ""Molla Nəsrəddin"in məqsədi nə dinə sataşmaqdır, nə də təzə bir məzhəb icad eləməkdir" [147, 512], ancaq SSRİ dövründə məhz istəyinin bu yönlü olmasını etiraf etmişdir [148, 288]. Cəlil bəy onu da etiraf etmişdir ki, Ə.Ağaoğlu və Ə.Hüseynzadəni də məhz İslamı və müsəlmançılığı müdafiə etdiklərinə görə qəbul etməmişdir. Çünki o, milli ideoloqların əksinə olaraq hesab etmişdir ki, müsəlman xalqların

uzun əsrlər fəlakət və cəhalətdən qurtara bilməmələrinin yeganə baiskarı İslamdır [148, 63].

Fikimizcə, bütövlükdə İslam-Türk-Şərq mədəniyyətinə inamsızlığın, bunun əvəzində Rus-Avropa-Qərb mədəniyyətinə bağlılığın nəticəsi idi ki, C.Məmmədquluzadə yalnız islamçılıqdan çıxış edən Ə.Ağaoğlunu deyil, "osmanlı türkçülüyü" əsasında ortaq türk ədəbiyyatı, türk dili yaratmağa çalışan Ə.Hüseynzadəni də tənqid etmişdir [147, 396-397, 519]. Buna görə də, Cəlil bəyin çağdaşlarından Haşım bəy Vəzirov "mollanəsrəddinçi"ləri yerli-yersiz müsəlman millətçilərinə (Ə.Ağaoğlu və b.), müsəlman mülkədarlarına (H.Tağıyev və b.) sataşmaqda ittiham etməkdə haqlı idi [28, 231].

C.Məmmədquluzalənin "İslam birliyi" və "Osmanlı türkçülüyü"nü tənqidi SSRİ ədəbiyyatında onun "inqilabçı-demokrat" olması və marksizmə yaxınlığı kimi izah olunmuşdur. Sovet dövründə Mehbalı Qasımov yazırdı ki, "mollanəsrəddinçi"lər başda C.Məmmədquluzadə olmaqla "mülkədar istismarını ifşa edir, ruhaniləri ələ salır və burjua millətçilərinə – panislamistlərə və pantürkistlərə qarşı kəskin mübarizə aparırdı" [129, 44]. M.Qasımov və digər tədqiqatçıların bu məsələdə haqlı olmaları şübhəsizdir. Onların bu cür mülahizələr səsləndirməsinə səbəb o idi ki, Məmmədquluzadə islamçıları və türkçüləri tənqid etməklə kifayətlənməmiş, eyni zamanda bəzi məsələlərdə bolşeviklərin ideyalarını müdafiə etmişdir. 1905-ci ildə bolşeviklərə aid bir qəzetdə "Binəsiblər" və "Xeyir-dua" kimi məqalələrində Məmmədquluzadə İran fəhlələrinə tövsiyə edirdi ki, onlar da rus fəhlələr kimi, dini və etnik mənsubiyyyəti bir kənara qoyaraq istismarçılara qarşı birləşməlidirlər: "Qoy məzlum, bədbəxt İran zəhmətkeş xalqı bu şüarı oxusun: "Bütün ölkələrin proletarları birləşin!" Qoy oxusunlar və birləşsinlər" [148, 128]. Bu məqalələrdəki marksist ruhlu fikirləri əldə əsas tutan akademik F.Q.Köçərliyə görə, C.Məmmədquluzadə "Molla Nəsrəddini sosial-demokratiya səviyyəsinə yüksəldə

bilməsə də, onun şüarlarını, ideyalarını təbliğ etmişdi [122, 46, 72].

Bizcə, həmin dövrdə İslamlıq və Türklük əsaslı birliyin tərəfdarı olmamasına baxmayaraq, C.Məmmədquluzadə marksizm-leninizmə də dərindən bağlana bilməmişdir. Hətta, 1917-ci il fevral burjua inqilabından sonra o, marksizm-leninzmlə milli-demokratizm arasında tərəddüd göstərmişdir. Belə ki, 1917-ci ildə yazdığı "Cümhuriyyət" məqaləsindəndə o, xalq hakimiyyətinin, yəni demokratik respublikanın prinsiplərindən və azadlıqlarından (etiqad, yığıncaq, birləşmək, danışmaq, siyasi partiyalar yaratmaq və s.) bəhs etmişdir [148, 190-191].

Hətta, o, bu dövrdə Azərbaycan xalqının milli birliyi və istiqlaliyyəti uğrunda mübarizə aparan M.Ə.Rəsulzadəyə üzünü tutaraq yazırdı: "İndi də Bakıda seçki məcəlləsi düşüb ortalığa və Məhəmməd Əmin Rəsulzadə həmişəki kimi çalış-vuruş, çalış-vuruş nə var, nə var, mən millətin əlindən yapışacağam. Çox əcəb, yapış, vuruş qəzet yaz, nitq söylə, o şəhərə get, yenə yaz, yenə yaz, yenə danış, amma, - bu işlərin iki nəticəsi var: biri budur ki, atalar demişkən "el üçün ağlayanın gözü kor olar", nə qədər çalışırsan çalış, yenə axırda sənə qalacaq haman yazmaq, yazmaq və hələ çox danışsan və ata və analarından xəbəri olmayan müsəlman qardaşların arzusu yerinə yetsə – bəlkə dustaqxanalarda millət yolunda çəkdiyin günləri yenə ziyarət etmək" [106, 215]. C.Məmmədquluzadə daha sonra sözlərinə belə davam edir: "İkinci nəticəsi budur ki, indi sən, əzizim doğrudur ki, çalışırsan və bu çalışmaqdan da söz yox millətə də az-çox mənfəət gətirirsən və özünə də şöhrət qazanırsan, buna sözüm yox – amma burası var ki, sənin bu çalışmağın mənə xoş gəlmir, səbəb budur ki, əvvəlla mənim məsləkimə ziddir (çünki həqiqi millətçilik, həqiqi vətənpərvərlik, həqiqi islamçılıq olan yerdə yalançı islamçılığa, yalançı vətənpərvərliyə və millətçiliyə yer qalmır – F.Ə.) və ikincisi mənim fitrətim ilə düz gəlmir ki,

sən millətçi olub şan və şöhrət qazanasan, mən də kənardan durub baxım" [106, 216].

C.Məmmədquluzadə doğru olaraq qeyd edirdi ki, sözün həqiqi mənasında millətin arasından M.Ə.Rəsulzadə kimi bir şəxsiyyət tapılıb milli ideoloqa çevrilirsə, gözü götürməyənlər müxtəlif yollarla onu ləkələməyə çalışacaqlar. C.Məmmədquluzadənin dili ilə desək: "Yox belə ola bilməz, mən səni qoymaram məqsədinə çatasan, mən səni peşman elərəm, mən səni sındıraram, mən səni yox elərəm və bundan da asan iş mənim üçün yoxdur, bir istəkan su içməkdən asandır. Məhz lazımdır saqqalımı qaraldıb daxil olum mollalar məclisinə və bir ovqat yalandan məsciddə görsənim və sonra orada-burada səs buraxım ki, Məhəmməd Əmin Rəsulzadə istəyir yeddi cüzini çıxardıb atsın" [106, 216]. Deməli, C.Məmmədquluzadə bu dövrdə anlamışdır ki, millətin nicatı onun öz əlindədir və bunu həyata keçirmək üçün millətin həqiqi rəhbərə ehtiyacı var. Dövründə belə bir rəhbərin Rəsulzadənin olmasına şübhə etməyən C.Məmmədquluzadə müsəlmanları-türkləri onu ləkələməyə deyil, əksinə müdafiə etməyə çağırmışdı.

C.Məmmədquluzadə 1917-ci ildə qələmə aldığı "Azərbaycan" məqaləsində də açıq şəkildə Azərbaycan türkçülüyü ideyasını müdafiə etmişdir. O artıq yazırdı ki, vətəninin adı Azərbaycan, millətinin və dilinin adı isə türkdür [149, 4]. Bizə elə gəlir ki, milli-demokratik ideyaya rəğbətin davamı olaraq o, "Anamın kitabı" (1920) pyesində həmvətənlərinə milli qürur, vətənpərvərlik hissi oyatmağa çalışmışdır. Bu əsərində C.Məmmədquluzadə Azərbaycan türk ailəsində böyümüş üç qardaşın Rusiya, İran və Osmanlı Türkiyəsi tərbiyəsi altında milli köklərindən, milli adət-ənənələrindən, milli dilindən uzaq düşməsinin, yəni ruspərəst, iranpərəst və osmanlıpərəst olmalarının səbəblərini göstərmişdir. Maraqlıdır ki, qardaşlar milli köklərindən uzaq düşsələr də, çar senzoru onları min il yuxuda olan camaatı hökumət əleyhinə birləşidirb, müstəqil

Azərbaycan hökuməti əmələ gətirməkdə şübhəli bilir [146, 462]. Əsərin sonunda Gülbaharın qardaşlarının Rusiya, İran və Osmanlıya aid kitablarını yandıraraq, "anamın kitabı" - "milli kitabı" saxlamasında milli özünüdərkə, müstəqil və milli Azərbaycan dövlətinin qorunmasına bir çağrış var [146, 475].

Bizcə, 1917-1920-ci illərdə Məmmədquluzadənin əsərlərində milli ruh nisbətən öncə çıxmış, türklükdən türkçülüyə doğru müəyyən bir istək olmuşdur. Ancaq türkçülüyə meyil əsaslı şəkildə olmadığı üçün o, milli aydın mövqeyini inkişaf etdirə bilməmiş, beynəlmiləlçiliyin təsiri altında qalmışdır. Eyni zamanda, o, bu dövrdə də İslama münasibətdə mövqeyini əsasən dəyişməmişdir.

Ümumilikdə, Məmmədquluzadənin Rus-Avropa-Qərb mədəniyyətinə uyğun xətti jurnalın əməkdaşları arasında fikir ayrılıqlarına səbəb olmuş və onlardan bəziləri (Nemanzadə və b.) buradan uzaqlaşmış, digərləri (Qəmkusar, Ordubadi) bu yolda onunla sona qədər həmfikir olmuşlar. Məsələn, Məmmədquluzadədən fərqli olaraq **Ömər Faiq Nemanzadə** yerli-yersiz yalnız müsəlman din xadimlərinin, eyni zamanda Ağaoğlu, Hüseynzadə kimi mütərrəqqi ruhlu aydınlarımızın tənqidi ilə razılaşmamışdır. Bunu gizlətməyən Nemanzadə açıq şəkildə yazırdı ki, İslam dinini ruhanilərin dilindən deyil, indiyə qədər pərdə arxasında qalan dini adət-ənənələrimizi, milli mədəniyyətimizi, eləcə də xilas yolumuzu göstərən Ə.Ağaoğlu kimi aydınlardan öyrənməliyik [165, 36-37].

Nemanzadə də Ağaoğlu kimi hesab edirdi ki, müsəlmanlar artıq keçmiş İslam mədəniyyəti ilə öyünüb yerində saymaq-dansa, zəmanə ilə ayaqlaşmalıdır. Zəmanəyə görə dəyişmək hər zaman vacib olmuşdur ki, bu isə islamiyyətin ilkin mahiyyətinin dəyişməsi demək deyildir. Ö.Faiqin fikrincə, indi İslamın əsil mahiyyətini dərk etmək, onun dünyəvi elmlərlə bağlı cəhətlərini mənimsəmək vaxtıdır. Çünki Quranın özünün də böyük qismi dünyəvi elmlərə aiddir: "Bu qəziyyələrdən şu nəticəyi çıxarmaq

istəyirəm ki, Quranı, İslamı bilmək, Allahı tanımaq, kamil insan olmaq üçün şəriət elmini bilmək on dərəcə lazımsa, dünyəvi elmləri bilmək üçün doxsan dərəcə lazımdır" [165, 147-148].

"Millətpərəstlik zamanıdır" məqaləsində o, göstərirdi ki, Türk milləti arasında oyanışa nail olmaq üçün onun aparıcı ziyalıları tək vücud, tək rəy, tək cəhət-yol altında birləşməli [165, 75], yəni türklüyünü dərindən dərk edib millətə təmənnasız yardım etməli, irəli aparmalıdırlar [165, 134]. Bu baxımdan, Qafqaz müsəlmanlarının etnik kimliyinin və milli dilinin türk olduğunu bəyan edən Nemanzadə yazırdı ki, min illərdən bəri təqlid etdiyimiz ərəb və fars imlasından da imtina edib, türk sözlərimizi və türk adlarımızı bərpa etməliyik [165, 169].

Gördüyümüz kimi, Nemanzadənin ruhu Ağaoğlu, Hüseynzadə yaxın idi, buna görə də çox keçmədi ki, o, 1910-cu illərin əvvəllərindən "Molla Nəsrəddin"lə yolarını ayırmalı oldu. Bizcə, Nemanzadənin "Molla Nəsrəddin"dən ayrılmasında Məmmədquluzadənin get-gedə İslam dininə munasibətdə daha kəskin və bəzən qərəzli mövqe tutması bunun əvəzində avropalaşmağa və rus bolşevizminə meyil etməsi mühüm rol oynamışdır. "Molla Nəsrəddin"dən ayrıldıqdan sonra Nemanzadənin islama və türklüyə əvvəlcədən olan münasibəti daha da inkişaf etmişdir.

Bizcə, C.Məmmədquluzadənin antislam və ifrat qərbləşmək xətti müəyyən qədər **Mirzə Ələkbər Sabirə** münasibətdə də ziddiyyətlərə yol açmışdır. 1905-ci ilə qədər daha çox dini, müəyyən qədər milli şeirlər yazan Sabirin birdən-birə "beynəlmiləlçi" şairə çevrilməsi təsadüfi ola bilməzdi. Şübhəsiz, Sabirin "beynəlmiləlçi" şairə çevrilməsində Məmmədquluzadə və onun jurnalının az əməyi olmamışdır. Bizcə, C.Məmmədquluzadə və onun "Molla Nəsrəddin" jurnalı Sabirin milli ruhlu üsyankarlığının müəyyən qədər "beynəlmiləl" ruha çevrilməsində pay sahibi olmuşdur.

Bu mənada Sabir "yırtıcı heyvan", "xortdan", "cin "xarici mülkündə də hətta gəzib, çox tühaf insan" görürəm qoruxmuram, "harda müsəlman görürəm qorxuram" [197, 125-126] dedikdə, İslam dinini deyil, onun adından çıxış edən yalançı ruhaniləri və avam müsəlmanları tənqid hədəfi götürsə də, ümumilikdə bu mülahizə toplumda birmənalı qarşılanmamışdır. Çünki bu sözlərdə ifrat dərəcədə müsəlmanları aşağılama var. Xüsusilə, bu aşağılamanın ümumiləşdirmə (müsəlman) formasında öz əksini tapması çox düşündürücüdür. Hər halda, müsəlmanın yırtıcı heyvanla, xotdanla müqayisəsi və birincinin sonunucudan daha qorxulu olması şüurlarda müsbət reaksiya yarada bilməzdi.

Örnək üçün deyək ki, şairin şeirlərində fəhlənin və əkinçinin insanla, müsəlmanın yırtıcı heyvanla, xotdanla müqayisəsi arasında incə bir məqam var. Birinci halda, şair fəhləyə, əkinçiyə başa çalmağa çalışır ki, insan olması üçün onu istismara edənlərə qarşı mübarizə aparmalıdır. Bir sözlə, insan olmaq üçün fəhləyə bir yol göstərməyə çalışır və onu da ("axmaq kişi" və s.) xeyli dərəcədə tənqid edir [197, 100, 113]. Deyilə bilər ki, müsəlmanın əsil müsəlman olması üçün Sabir onu bu şəkildə tənqid etmişdir. Ancaq burada incə bir məqam var: "fəhlə", "əkinçi" və "müsəlman" fərqli anlayışlardır. Belə ki, fəhlə bir işçi kimi istismara məruz qalmış, istismarçılar tərəfindən haqqları əlindən alınmış və insani keyfiyyətlərdən məhrum olmuşdur. Sabir də fəhləyə demək istəyir ki, sən bir insansan və insanlıq haqqlarına sahib çıxmalısan. Digər tərəfdən, Sabirin tənqid etdiyi fəhlə ümumi bir anlayışdır. Yəni dini, milli kimliyindən asılı olmayaraq işləyən və istismara məruz qalanların hamısı fəhlədir. Burada milli və dini inanclara toxunulmur. Burada əsas məsələ fəhlənin insanlıq qürurunun tapdalanmasıdır ki, Sabir onları buna qarşı çıxmağı və haqlarına nail olmaq üçün mübarizəyə səsləyir.

Ancaq "müsəlman" anlayışında yalnız insanlıq deyil, həm dini, həm də həmin coğrafiyada yaşayan türk millətinin milli

kimlik qürüru var. Özü də bu müsəlman 19-cu əsrdə meydana çıxan fəhlə sinfi deyil, onun böyük bir tarixi və mədəniyyəti var. Bu mənada, "müsəlman" və "fəhlə"nin tənqidi eyni formada ola bilməz. Başqa sözlə, fəhlədə və müsəlmanda oyadılacaq qürur hissinin insanlıq və yırtıcı heyvanla, xortdanla müqayisəsi çox düşündürücüdür. 100 il əvvəl olduğu kimi bu günün özündə və gələcəkdə də də haqları əlindən alınmış fəhləyə eyni sözləri demək, bu cür formada mübarizəyə səsləmək olar. Ancaq müsəlmanlarla bağlı ümumiləşdirilərək bu cür sözlər demək 100 il bundan əvvəl olduğu kimi, indi də yanlış olardı. Çünki "müsəlman" demək yalnız müsəlmanlığı qəbul etmiş insanlar anlamını ifadə etmir, "müsəlman" həm də bir dinin adıdır. Yəni İslam dinini qəbul etmiş müsəlman, eyni zamanda onun rəmzidir. Bəlkə də, hardasa fəhləni "axmaq kişi" adlandırmağa haqq qazanırmaq olar, ancaq yırtıcı heyvanın, xotdanın, cinin, "xarici mülkündə də hətta gəzib, çox tühaf insan"ın müsəlmandan üstün olmasına yox.

Sabirin "müsəlman" kimliyi ilə yanaşı, türklüyü ifadə edən "qafqazlı" kimliyinə münasibətdə də radikallığa yol vermişdi: "Əqrəb kimi neştər gücü var dırnağımızda, İslam sussuz olsa, su yox bardağımızda, Hər küncdə min tülkü yatıb çardağımızda, Min hiylə qurub, rütbəvi ikram alarız biz, Qafqazlılarız, yol kəsiriz, nam alarız biz!" [197, 113]. Fikrimizcə, şair həmin dövrdə müsəlmanların-qafqazlıların (türklərin) əksəriyyətinin Avropa millətləri ilə müqayisədə geridə qalması və cahilpərəst olması məsələsində xeyli dərəcə də haqlı olsa da, ancaq onları yalnız başkəsən, yolkəsən, hiyləgər kimi qələmə verməklə onların bir qismində oyanışa səbəb olmaqla yanaşı, digər qisminin də özünə haqq qazandırmasına rəvac vermişdir.

Hazırda da Sabirin şeirlərində müsəlmanlara, azərbaycanlılara verdiyi radikal "tərif"lərin bu gün əhəmiyyətini itirmədiyindən ağızdolusu danışanlar məsələyə birtərəfli yanaşırlar. Yəni bu cür düşünənlər deyirlər ki, Sabir 100 il öncə necə demişdirsə, demək olar ki, heç nə dəyişməyib. Deməli, Sabir çox uzaqgörən və dahi

bir şair-insan olmuşdur. Fikrimizcə, burada incə bir məqam var ki, Sabirin "tərif" verdiyi müsəlmanların 100 il sonra da əsasən dəyişməməsində, onun da müəyyən payı var. Çünki Sabirin bu ruhlu şeirlərini oxuyanların xeyli bir qismi özlərini inkişaf etdirməkdən çox, tərsinə özlərinə haqq qazandırmış olmuşlar. Bu isə o deməkdir ki, şairin satirik şeirlərində müsəlmanları və milləti aşağılayıcı məqamlar həm yaşadığı cəmiyyətin, həm də ondan sonra gələn nəsillərin şüurunda mənfi iz buraxmışdır. Yəni biz dünən də belə olmuşuq, bu gün də beləyik, sabah da belə olacağıq. Təsadüfi deyil ki, SSRİ dövründə Sabirin bu cür şeirləri geniş şəkildə orta və ali məktəblərdə geniş şəkildə təbliğ olunmuş, bütün kitablarında öz əksini tapmışdır. Bunu əvəzində Sabirin milli-dini ruhlu şeirləri ali və orta məktəb dərsliklərindən və əsərlərindən kənarda qalmışdır.

Bütün bunlarla yanaşı onu da qeyd etməliyik ki, "Molla Nəsrəddin" jurnalının qurucusu C.Məmmədquluzadənin "beynəlmiləlçilik" təsiri altında olduğu dövrdə də Sabir milli ruhlu şeirlər yazmağa davam etmişdir. Ancaq həmin şeirlər çar Rusiyası və SSRİ dövründə gölgədə qalmışdır. Məsələn, bir şeirində milli şair yazırdı ki, hazırda türk millətinin daxilindəki nifaqlar bu günün işi deyil, ötən zamanlarda da bu cür hallar baş vermişdir. Belə ki, Çingizlərlə Xarəzmşahların, Teymurlarla İldırımların, Teymurlarla Toxtamışların, Şah İsmayılılarla Sultan Səlimlərin və başqalarının bir-birilə mübarizə nəticəsində itirən turanlılar – Türk milləti və İslam dini, qazanan isə farslar, ruslar və başqa millətlər olmuşlar. Xüsusilə, Teymurun Toxtamışı məğlub etməsi rusların işinə yaramış, bununla da ruslaşmağa və dinimizdən uzaqlaşmağa başlamışıq: "Teymuri şəhi-ləngə olub tabeyi-fərman, Xan Toxtamışı eylədik al qanına qəltan, Ta oldu Qızıl Ordaların dövləti talan, Məsko şəhinə faidəbəxş oldu bu meydan… Əlyövm uruslaşmaq ilə zişərəfiz biz! Öz dinimizin başına əngəlkələfiz biz!" [197, 124]. Şair bu şeirində açıq şəkildə yazırdı ki, bir tərəfdə ruslaşdırmaq, o bir tərəfdə iranlılaşdırmaq və osmanlılaşdırmaq siyasəti aparılır ki,

bununla da, türklük ruhu arxa plana çəkilir: "İndi yenə var tazə xəbər, yaxşı təmaşa, İranlılıq, osmanlılıq ismi olub ehya" [197, 124].

Sabirin şeirlərindən hiss etmək olur ki, o, "beynəlmiləlçi"liyin təsiri altında olduğu dövrdə də, şiəlik və sünilik, osmanlılıq və iranlılıq adları altında türk millətinin parçalanmasının əleyhinə olmuş, türk-müsəlman xalqları arasında ən azı mənəvi birliyin olmasına çalışmışdı. Buna ən bariz nümunələrdən biri də Sabirin vahid türk dili ideyasını müdafiə etməsidir. Belə ki, Sabir Türkiyə türkcəsindən Azərbaycan türkcəsinə bir şeir tərcümə etdiyini iddia edən Ə.Qəmküsarı bu sözlərinə görə tənqid etmişdir: ""Omanlıcadan türkə tərcümə" - bunu bilməm, Gerçək yazıyor gəncəli, yainki hənəkdir; Mümkün iki dil bir-birinə tərcümə, amma, "Omanlıcadan türkə tərcümə" nə deməkdir?!" [197, 313].

"Beynəlmiləlçi"liyin təsiri altında olduğu dövrdə də Saibirin milli ruhlu ruhlu şeirlər yazmasının, Axundzadəni deyil H.Zərdabini "mənəvi atamız" [196, 169] adlandırmasının nəticəsidir ki, onun "beynəlmiləlişməsi" prosesi tam olaraq rus-avropa ideoloqlarını qane etməmişdir. Hətta, bunu Məmmədquluzadə də etiraf etmişdir ki, Sabir müəyyən mənada onların istəklərinə uyğun şeirlər yazsa da, bütövlükdə beynəlmiləlçi, inqilabçı şair ola bilməmişdir. Görünür, bunu nəzərə alaraq sovet dövründə C.Məmmədquluzadə yazırdı ki, Qəmküsar "fikir açıqlığı və dini mövhumata qarşı şiddətli tənqid və çıxışları ilə hətta Sabiri də qabaqlamışdı" [148, 287]. Çünki 1917-ci il fevral inqilabı nəticəsində çar rejiminin məhv olmasından sevinənlərə üzünü tutub Qəmküsar yazırdı ki, istibdadi-cismaninin yıxılmasından sonra siyasi, söz, mətbuat və b. azadlıqların yaranması ilə iş bitmir. Onun fikrinə görə, vaxt varkən istibdadi-ruhanini də yıxıb, yaxanı qurtarmaq lazımdır: "Yoxsa, istibdad istibdaddır. O olmasın, bu olsun" [135, 147]. Halbuki Sabir heç vaxt Şahtaxtlı, Məmmədquluzadə və Qəmküsar kimi İslam dininə

bu cür yanşamamışdır. Bu mənada, Sabirin ümumi ruhu "beynəlmiləlçilik"dən çox milli-dini ideyalarla bağlı olmuşdur. Ancaq bəzi şeirlərində ifrata varması, üstəlik sovet ideoloqlarının onunla bağlı bu istiqamətdə təbliğat aparması Sabirin milli-dini ruhunu kölgədə qoymuşdur.

Fikrimizcə, həmin dövrdə "Molla Nəsrəddin"in mövqeyini dəstəkləyənlər arasında Ə. Haqverdiyev, M.S.Ordubadi də olmuşdur. "Xortdanın cəhənnəm məktubları" əsərində dolayısıyla da olsa, dini tənqid edən **Əbdürrəhim Haqverdiyev** İslam dinində qeyd olunan cəhənnəmin əslində bu dünyada olduğunu göstərməyə çalışmış [98, 26], bütövlükdə Rus-Avropa-Qərb mədəniyyətinin təsiri altında olmuşdur. Bunu, müəyyən mənada Ə.Haqverdiyev də sovet dövründə etiraf edərək yazmışdır ki, Azərbaycan türk ədəbi dilinin formalaşmasında rus dilinin mühüm təsiri olmuşdur: "1890-cı illərdə ortalığa atılıb ədəbiyyatla məşğul olmaq istəyən ziyalılarımız, özümü də o cümlədən hesab edirəm, iki tərəfdən də avara olub məcburən rus ədəbiyyatı təsiri altına düşüb, türk dilində rus cümlələri işlətməyə üz qoydular" [98, 377].

"Mollanəsrəddinçi"lərin mövqeyini dəstəkləyən **Məmməd Səid Ordubadi** də bu dövrdə milli və dini məsələyə münasibətdə, daha çox İslamı və İslam birliyini tənqid etmiş, türklüyə isə müəyyən qədər meyil göstərmişdir [173, 5]. Ancaq 1910-1920-ci illərdə o, millilikdən də tamamilə uzaqlaşaraq "Molla Nəsrəddin" və başqa qəzet-jurnallara göndərdiyi məqalələrdə İslamla yanaşı, milli birliyi də sərt şəkildə tənqid etməyə başlamışdır [173, 45].

Çar Rusiyası və Sovet Rusiyası dövründə M.A.Şahtaxtlı, Ə.Qəmküsar, C.Məmmədquluzadəni, ümumiyyətlə əksər "molla-nəsrəddinçi"ləri ona görə qəbul edirdilər ki, onlar bir tərəfdən İslama, digər tərəfdən "Osmanlı ləhscəsi" əsasında ortaq türk dilinin hədəflənməsinə yönəlmiş ideyaya qarşı çıxmışlar. Hər halda rus ideoloqları nə olursa- olsun "İslam birliyi"ni parçalamaq, ortaq

türk dilinin və mədəniyyətinin yaranmamasına çalışırdılar. Bu işdə "şərqi-rus"çular və "mollanəsrəddin"çilər (burada həmin mətbu orqanlarının əsas ideya müəllifləri nəzərdə tutulur) heç də onların xeyrinə olan az iş görmürdülər. Başqa sözlə, Hüseynzadə və Ağaoğludan fərqli olaraq üzünü Türk-İslam-Şərq mədəniyyətinə deyil, Rus-Avropa-Qərb mədəniyyətinə tutan "şərqi-rus"çular və "mollanəsrəddin"çilər rus ideoloqlarına lazım idilər. Fikrimizcə, məhz bunun nəticəsidir ki, çar Rusiyası hakimiyyəti milli ideoloqları (Hüseynzadə, Ağaoğlu və b.) Vətəni tərk etməyə məcbur etdikləri halda, M.Şahtaxtlıya, C.Məmmədquluzadəyə və onlarla həmfikir olanlara toxunmamışdır. Çünki milli ideoloqlardan fərqli olaraq şahtaxtlıların, məmmədquluzadələrin bir çox məsələlərə baxışları çar Rusiyasının maraqları ilə üst-üstə düşürdü.

Maraqlıdır ki, müstəqillik dönəmində bir çox tədqiqatçılar, əsasən də sovet dövrünün yetişdirməsi olanlar hazırda Şahtaxtlını, Məmmədquluzadəni böyük azərbaycançı ideoloqlar kimi qələmə verirlər. Bu cür tədqiqatçılar (Y.Qarayev, S.Vəliyeva və b.) hesab edirlər ki, M.Şahtaxtlı, C.Məmmədquluzadə azərbaycançılığın əsas ideoloqlarından olmuşlar. Özəlliklə, buna ən bariz nümunə kimi Məmmədquluzadənin bir tərəfdən xurafat və mövhumat (İslam dini deyil) əleyhinə mübarizəsi, digər tərəfdən "Osmanlı dili"ni deyil Azərbaycan türkcəsini müdafiə etməsini göstərirlər. Məsələn, Y.Qarayev onu "islam və şərq siyasi mənliyinin ideoloqu" [127, 242], S.Vəliyeva isə azərbaycançılıq ideyasını bütün çılpaqlığı ilə ilk dəfə irəli sürən mütəfəkkir, onun banisi kimi qələmə verib [221, 31, 41].

Fikrimizcə, bu məsələdə çox şişirtməyə, mübaliğəyə yol verilir. Doğrudur, M.Şahtaxtlı, C.Məmmədquluzadə və onlarla həmfikir olanlar Azərbaycan xalqının, Azərbaycan türklərinin maariflənməsi və azadlığı uğrunda müəyyən işlər görmüşdür. Ancaq ümumilikdə, istər M.Şahtaxtlının, istərsə də C.Məmməd-quluzadənin tutduğu yol türkçülük və islamçılıqdan yox, Rus-Avropa-Qərb mədəniyyəti ilə səsləşmişdir. Onlar hesab edirdilər

ki, müsəlman ölkələrindəki bütün bəlaların əsas səbəbkarı İslam dinidir, bundan çıxış yolu isə İslam mədəniyyətindən imtina edib Rus-Avropa-Qərb mədəniyyətinə üz tutmaqla bağlıdır. Onların bu xətti vaxtilə eyni fikirlərdən çıxış etmiş Axundzadənin yolundan çox da fərqlənmirdi. Bu yolu tutan Axundzadə əvvəlcə İslam mədəniyyətindən, daha sonra Türk mədəniyyətindən imtina etmişdir. Şahtaxtlı, Məmmədquluzadə, Qəmküsar və onlarla həmfikir olanlar İslama münasibətdə birmənalı şəkildə Axundzadənin yolunu davam etdirdiyi halda, milli mədəniyyət məsələsində bir qədər ehtiyatlı mövqe tutmuşlar. Ancaq o da maraqlıdır ki, bu mütəfəkkirlər milli mədəniyyət məsələsində ümumtürk ruhunu deyil, daha çox Rus-Avropa-Qərb ideoloqlarına sərf edən xüsusiliyi qəbul etmişlər. Belə ki, milli mədəniyyət məsələsində ümumtürk ruhlu türk ədəbiyyatını, türk tarixini, türk dilini müdafiə etməmiş, daha çox lokanik tarix və dildən çıxış etmişlər. Hər halda, onların ortaq türk dili əvəzinə, məhəlli türk dilini müdafiə etmələri, eyni zamanda ortaq əlifbanın aradan qaldırılması prosesində müəyyən əməkləri danılmazdır.

Yeri gəlmişkən, çar Rusiyası dövründə "İslam birliyi" məsələsində müsəlmanlar arasında təfriqə salan Rus-Avropa-Qərb ideoloqları ilk dövrlərdə yerli türkçülüyə (Rusiyada baş qaldıran türkçülüyə) bir o qədər toxunmurdular. Çünki ilk mərhələdə onlar türkçülüyü "İslam birliyi"nin parçalanması baxımından mühüm hesab edirdilər. Hətta, bu meyil SSRİ-nin mövcudluğunun ilk dövrlərində də özünü büruzə verirdi. Bu mənada, "Molla Nəsrəddin" jurnalı, Allahsızlar İttifaqı, "Yeni türk əlifbası" və s. məsələlər "İslam birliyi"ni parçalamağa xidmət etmişdir.

Beləliklə, çar Rusiyası və Avropa ideoloqlarının maraqlı olduğu əlifba və din islahtlarını SSRİ həyata keçirmiş oldu. Çox yazıqlar olsun ki, rus-mason-bolşefaşistlərinin əvvəlcədən planlaşdırılmış "islahatlar" oynunda M.A.Şahtaxtlı, N.Nərimanov, C.Məmmədquluzadə, S.Ağamalıoğlu və başqaları yaxından iştirak etmişlər. Türk-müsəlman xalqlarının həyatında reallaşdırılan "isla-

hatlar"ın nəticəsində ilk növbədə, əlifba ayrılığı baş verdi. Bununla yanaşı, çar Rusiyası dövründə təməli qoyulan ortaq türk dilinə qarşı yönəlmiş ləhcə fərqlilikləri SSRİ dövründə daha da sürətləndirildi. Əgər XX əsrin əvvəllərində türksoylu xalqlar az-çox bir-birlərinin ləhcələrini başa düşür və ortaq türkcədə danışa bilirdilərsə, SSRİ dövründə aparılan ruslaşdırma-avropalaşdırma siyasəti nəticəsində bir-birlərini anlamayacaq vəziyyətdə gətirildilər. Xüsusilə, türklərin böyük əksəriyyətinin yaşadığı Rusiyada ortaq türk dilinin Leninin dili olan rus dili ilə əvəzlənməsi və rus-kiril əlifbasına keçid bu məsələdə mühüm rol oynadı. Leninin dili olan rus dili bir tərəfdən ortaq türk dilinin ayrı-ayrı ləhcələr şəklində formalaşmasına, digər tərəfdən həmin ləhcələrin də ruslaşdırılmasına-avropalaşdırılmasına səbəb oldu.

Bütün bunların nəticəsidir ki, hazırda türksoylu dövlətlərin liderlərindən tutmuş alimlərinədək hamısı bir-birləri ilə rus dilində təmas yaradırlar. Hələ də, kiril əlifbasından dövlət səviyyəsində istifadə edən türksoylu xalqlar (qırğızlar, qazaxlar və b.) var. Bu fərqliliklər İslam dininə münasibətdə də bu və ya digər formada özünü büruzə verir.

Yeri gəlmişkən, "Molla Nəsrəddin" jurnalında çar Rusiyasında və Sovet Rusiyasında dərc olunmuş məqalələri toplanaraq ensiklopedik şəkildə yenidən nəşr edilmişdir. Maraqlıdır, "Molla Nəsrəddin" jurnalının ifrat islamçılığını və türk mədəniyyətinə də bir qədər aşağılayıcı mövqeyini yeni nəsilə çatdırmaq nə qədər vacibdir?! Xüsusilə, çar Rusiyasından fərqli olaraq SSRİ dövründə "Molla Nəsrəddin" jurnalı açıq-aşkar dinsizliyi, allahsızlığı, antisilamçılığı təbliğ etmişdir ki, bütün bunları yenidən Azərbaycan xalqının şüuruna yeridilməsi başa düşülən deyildir.

Milli-dini və ruspərəst-qərbpərəst-beynəlmiləlçi sosial-demokratlar. XX əsrin əvvəllərində Rus-Avropa-Qərb mədəniyyəti və ideologiyasından çıxış edən cərəyanlardan biri sosial-demokratiya olmuşdur. Çünki bu cərəyanda liberalizm, liberal-

demokratizm kimi Azərbaycan türk toplumuna Avropadan-Rusiyadan daxil olmuşdu. Ancaq bir çox müddəalarına görə, sosial-demokratiya Azərbaycan türk mütəfəkkirlərinin də diqqətini cəlb etmiş, onlardan bir qismi ya müəyyən bir dövrdə, ya da sona qədər milli ideya kimi ona tapınmışlar. Çünki sosial-demokratlar sinfi mübarizə adı altında bütün millətlərin azadlığı, sosial bərabərlik, mütləqiyyət rejimlərinin devrilməsi, bütün dinlərə eyni prizmadan yanaşılması ideyalarından çıxış edirdilər. Marksistlərə görə, milli və dini məsələ yoxdur, yalnız sinfi məsələ var, kapitalizmlə mübarizələri də milli deyil, sinfi xarakter daşıyır və imperalizmdən əziyyət çəkən bütün millətlərin azadlığı uğrunda çalışırlar. Sinfi mübarizədə əsas hədəfləri isə ayrıca bir millətin deyil, bütün dünya millətlərinin, heç bir ayrı-seçkilik qoymadan sosializm quruluşuna keçməsinə nail olmaqdır.

Bu kimi müddəalar çar Rusiyasının tərkibində yaşayan bir çox millətlər kimi Azərbaycan türkləri üçün də yeni və cəlbedici idi. Bu baxımdan marksizmin Azərbaycanda yayıldığı ilk dövrlərdə bir çox milli-dini məfkurəyə əsaslanan mütəfəkkirlərimiz (Ə.Hüseynzadə, Ə.Ağaoğlu və b.) ona rəğbət bəslədiyi, hətta bəziləri (M.Ə.Rəsulzadə, A.Kazımzadə, M.Ə.Rəsuloğlu və b.) sosial-demokratizmin sıralarında Azərbaycan türklərinin mənafeyi naminə mübarizə apardığı halda, digər bir qismi ziyalılarımız (S.M.Əfəndiyev, M.Əzizbəyov, N.Nərimanov və b.) birmənalı şəkildə ruspərəst-qərbpərəst-beynəlmiləçi məfkurəyə əsaslanmış və Azərbaycanın gələcəyini Rusiyadan və ruslardan ayrı təsəvvür etməmişlər. Bu mənada, milli-dini məfkurəyə əsaslananlarla ruspərəst-qərbpərəst-beynəlmiləlçi məfkurəsinə söykənənlərin sosial-demokratiyaya baxışlarında kəskin fərqlər olmuşdur.

Milli sosial-demokratiya. Məsələn, milli-dini məfkurəyə əsaslananlardan bir qrupunun sosial-demokratiyaya münasibəti yalnız rəğbət xarakter daşımışdır. Bu ruhda olan aydınlarımızdan **Əhməd bəy Ağaoğlu** ilk dövrlərdə marksizmi İslam dininə zidd saymamış, hətta 1905-1906-cı illərdə yazdığı bəzi məqalələrində

sosializmi təqdir etmiş, onun əsas qayəsinin bəşər övladının mənəvi və maddi səadəti olduğunu bəyan etmişdi [159, 172]. Ancaq sonralar bir neçə məqaləsində Ağaoğlu marksizmi, xüsusilə rus bolşevizmini kəskin şəkildə tənqid etmiş, onun sosializmlə bağlı yazılarına istinad edilərək "sosialist" adlandırılmasını isə səhv hesab etmişdi [10]. Hətta, "Materializmin təntənəsi və əsassızlığı" məqaləsində fəlsəfədə materializm cərəyanının əsassızlığını sübut etməyə çalışan Ağaoğlunun fikrincə, müəyyən bir dövrdə "qalib" durumda olan Marksın materialist təlimi hazırda öz əhəmiyyətini itirmişdir [9]. Ancaq sonrakı dönəmlərdə bu fikrinin ziddinə olaraq Ağaoğlunun yenidən marksist-leninçiləri təqdir etməsi ilə qarşılaşırıq.

Fikrimizcə, müasirləşməyin yalnız dini sahədə deyil, eyni zamanda milli məsələdə (türkçülüklə) də uzlaşdırılmasının vacibliyi XX əsrin əvvəllərində müəyyənləşmişdir. Bu sahədə isə ilk uğurlu addım **Əli bəy Hüseynzadə** tərəfindən atılmışdır. O hesab edirdi ki, yalnız islamlıq və müasirlik deyil, türklükdə müasir ruhlu olmalıdır. Bir sözlə, müsəlman-türk dünyasının əsas hədəfi türkçülük (Türk qanlı), müasirlik (Avropa qiyafəli) və islamçılıq (İslam imanlı) olmalıdır. Ancaq müasir ruhlu türklük və islamlıq Avropanı təqlid olmamalıdır. Əgər bu təqlid xarakter daşıyarsa o zaman qarşımızda müasir ruhlu islam və türk deyil, Avropa ruhlu Türk və İslam dayanmış olar. Bununla da, Hüseynzadə avropalaşmaq dedikdə, onun təzahürünü qəbulu etsə də, mahiyyətini qəbul etməmişdir. Başqa sözlə, o, yeniləşməyi zahirən Qərb mədəniyyəti, mahiyyət baxımdan İslam-Türk dəyərləri çərçivəsində görmüşdür.

İslamla sosial-demokrat təlimi arasında oxşarlıqların olması iddiasını irəli sürən milli ideoloq Ə.Hüseynzadə "Milliyyət və insaniyyət" məqaləsində yazırdı ki, sosial-demokratlar bütün xalqların çıxış yolunu nasiyonalizmdə-millətçilikdə, milli müxtariyyətlərdə deyil, sosializmdə, internasiyonalizmdə, bir sözlə beynəlmiləliyyətdə gördüyü kimi, müsəlmanlar isə bunu,

islamiyyət daxilində ittihad və ittifaq etməkdə görürlər. Deməli, islamiyyət sosializmə, beynəlmiləlçiliyə nəinki ziddir, əksinə bir çox cəhətlərinə görə üst-üstə düşür. Ə.Hüseynzadə yazırdı ki, bu mənada sosializmin, beynəlmiləliyyətin mahiyyəti milliyyətdə deyil, insanlığın istiqlalına müsaid olduğu kimi, islamiyyətin də məqsədi insanlığın istiqlalıdır: "Çünki islamiyyət bir dindir ki, millət və milliyyət tanımaz, kəlmeyi-şəhadət gətirib onunla mütədəyyin olanlara rəsmsiz, şəklsiz, yoldaşsız bir Allaha iman gətirənlərə bir nəzərlə, bir ümmət nəzərilə baxar!.. Zəkat qanununu əvəz edən "Əlkasibü həbibüllah", "Külli müslümün üxüvvətin" deyən və "vələdi-qeyri-məşru" namilə Avropa şəhərlərini dolduran hüquqi-mədəniyyədən, hüquqi-vərasətdən məhrum bir firqənin törəməsinə mane olan faizi, mürabihəçiliyi, hər növ monopolya və inhisarlığı haram bilən islamiyyətin nasiyonalizmə ilə deyil, sosializmə ilə əlaqəsi vardır" [109, 113-114]. Bununla da, Ə.Hüseynzadə belə bir qənaətə gəlirdi ki, zamanın mədəni cərəyanları islamiyyətin və sosializmin deyil, kapitalizm və nasiyonalizmin ziddinədirlər: "Kor qalıb bunu görməyən, fəhm və idrak etməyən camaatlar bu cərəyanlara müqabilə etdikcə içdən çıxılmaz girdablara düşəcəkləri gün kimi aşikardır" [109, 114]. Deməli, Hüseynzadə bu məqaləsində nəinki sosializmi birmənalı şəkildə rədd etmiş, hətta nasiyonalizmlə müqayisədə beynəlmiləl mahiyyət daşıdığı üçün, onun islamçılıqla oxşarlığından belə bəhs etmişdi. Bu baxımdan, Ə.Hüseynzadə Marksın sosializm ideyasına deyil [109, 127], onun törəməsi olan marksizm-leninzmə, yəni rus bolşevizminə qarşı olmuşdur.

XX əsrin əvvəllərində, xüsusilə 1900-1910-cu illərdə Azərbaycan türk ziyalıları arasında islamçılar və milli liberallarla yanaşı, rus bolşeviklərinə yaxın olan milli sosial-demokratlar – milli inqilabçılar (M.Ə.Rəsulzadə və b.) da olmuşdur. M.B.Məmmədzadəyə görə, milli ilberallar və milli inqilabçılar taktiki gediş baxımından fərqli yollar tutsalar da, XIX əsrin ziyalıları tərəfindən elan edilmiş millətçilik prinsiplərinə sədaqətdə ortaq olublar [154,

19]. Ancaq ümumilikdə, Mirzə Bala milli inqilabçıların və milli liberalların prinsip etibarilə müstəqil olmadıqlarını, rus bolşevikləri və rus liberalları ilə bağlı olduqlarını vurğulamışdı. Onun fikrincə, yalnız 1910-cu illərdə onların əksəriyyəti bir araya gələrək Azərbaycan türklərinin müstəqil ideya cərəyanı olan müsavatçılığın – Azərbaycan milli ideyasının təməlini qoymuşlar [154, 36]. M.Ə.Rəsulzadənin öz sözləri ilə desək, bu dövrdə milli inqilabçılar vətənlərini işğal edən çar Rusiyasına qarşı mübarizədə rus sosial-demokratlarla bir yerdə olmağı, digər cərəyanlarla (liberallar, islamçılar və b.) olmaqdan daha üstün tutmuşlar: "Çarizmlə mübarizədə onlar (milli inqilabçılar – F.Ə.) inqilabi sosializmə tam sadiq olmasa da, ən münasib müttəfiq kimi baxırdılar" [180, 26].

XX əsrin əvvəllərində, daha konkret desək 1900-1910-cu illərdə müsəlman, indiki anlamda Azərbaycan sosial-demokrat təşkilatının – "Hümmət"in yaranmasında və sosial-demokrat prinsiplərinin təbliğində ən mühüm rolu milli inqilabçılardan **M.Ə.Rəsulzadə** oynamışdı. Əgər Ə.Ağaoğlu, Ə.Hüseynzadə və başqaları sosial-demokratizmə müəyyən qədər rəğbət bəsləməklə kifayətlənirdilərsə, Rəsulzadə ilk dövrlərdə birmənalı şəkildə marksizm cəbhəsində fəaliyyət göstərmişdi. Millətin mənafeyi, rifahı, xoşbəxt gələcəyi naminə istənilən bir ideya ətrafında birləşməyin zəruri olduğunu iddia edən M.Əminin fikrincə, hazırkı şəraitdə bu sosial-demokrat ideyası əsasında da mümkündür. Bu baxımdan Rəsulzadə materializmin bəzi müddəalarının İslamla üst-üstə düşdüyünü, İslami prinsiplərlə materializm arasında oxşarlıqlar olduğunu sübut etməyə çalışırdı. Onun məqsədi müxtəlif əqidələrə – demokratiyaya, millətçiliyə və İslama tapınanları islami sosializmdə birləşdirməyə nail olmaq idi: "İslam bizə rahinicatdır - desəm eyni savabdayam. Nə sosializmin, nə də demokratizmin ümdə əqidələri İslam ilə müxalif deyil. Bəlkə şəryei-müqəddəsi-İslam qoyduğu qəvaidlə eyni mütabiqətdə və müvafiqətdədir. Zəkat, fitrə və qeyrə sədəqələr vacibi-sünnəti

materializm deyil də nədir? Bərəkət cəmaətlikdədir. Ümur cümhuri-şura ilə görülməlidir - kəlamları demokratizmi icab etməzmi? Xülasə, yenə də təkrar edirəm, hər nə olmalıyız, olaq. Fəqət islamiyyət üzrə olaq ki, bu eyni insaniyyətdir" [185, 18-19]. Deməli, Rəsulzadə marksistlərlə eyni cəbhədə olduğu zaman sübut etməyə çalışmışdır ki, İslam dini nəinki sosial-demokratizmə ziddir, əksinə bir çox müddəaları üst-üstə düşür. Bu mənada o, sosial-demokratizmlə yanaşı, islamiyyət üzrə birləşməyin də vacib olduğunu qeyd etmişdi. Çünki İslamda da, sosial-demokratizmdə də əsas məsələ insaniyyətdir. M.Ə.Rəsulzadə sonralar yazırdı: "Hümmət bayrağına o zaman, xəlifə Həzrət Əlinin bir kəlamını almışdı və içərisində üləmayı dinindən, burjuva və fabrikatördən başlamış orta əsnaf, orta münəvvər sinfinə və əmələsinə qədər hərkəs vardı" [245, 193].

Maraqlıdır ki, M.Ə.Rəsulzadə həmin dövrdə sosial-demokratizmi və islamiyyəti beynəlmiləlçiliyi təbliğ edən cərəyanlar kimi qəbul etdiyi halda, milliyyətçiliyi isə tənqid etmişdi. Rəsulzadə göstərirdi ki, milli ədavət toxumunu, milliyyət məsələsini ortaya atan ilk növbədə, çar Rusiyasıdır. Belə ki, çarizm milliyyət məsələsindən istifadə etməklə millətlər arasında ziddiyyət və düşmənçilik salır, sonra da guya, bunun qarşısına almaq bəhanəsilə bəzi xüsusi qanunlar verməklə, eləcə də yerlərdəki nökərləri-qulluqçuları vasitəsilə Rusiya təbəəsi millətləri: müsəlmanları, ermənilərı, gürcüləri, polyakları və qeyrilərini təqib edib sıxışdırır [185, 74]. Onun fikrincə, çar Rusiyasının bu əməlləri sayəsində bəzi millətlərin nümayəndələri də milliyyətçilik fikrinə düşərək sinfi mübarizəyə qarşı çıxırlar. Bu baxımdan Daşnaksütyun, Kadetlərin bloku, Müsəlmanların bloku və başqaları təmsil olunduqları millətlərin adından danışsalar da, əslində açıq və gizli şəkildə onların düşmənləridirlər: ""Yer və ixtiyar" ilə Müsəlman blokunun arasında heç bir təfavüt yoxdur! Təfavüt yoxdur, deyiriz. Zira, həqiqətən millətçi olub üzünü dürlü-dürlü maskalar ilə örtən bir

millətçinin, aşkara millətçilik edən ilə heç bir təfavütü olmasın gərək" [185, 97].

Rəsulzadəyə görə, milliyyət məsələsinə ən obyektiv yanaşan sosial-demokratizmdir. Belə ki, sosial-demokratlar milli mübarizəni qəbul etməyib, sinfi mübarizə uğrunda çalışsa da, ancaq hər bir millətin idarələrdə, məhkəmələrdə, divanxanalarda öz ana dilini işlətmək imkanından və həmçinin öz uşaqlarını ana dilində oxutdurmaqdan və cümlə vətəndaşlara milli mənsubiyyəti fərqi qoyulmadan hər bir qulluq xidmətlərə işə götürülməsindən yanadır: "Budur, o əsaslar ki, onun üstündə sosial-demokratiya milliyyəti gözləyir. İctimaiyyun-amiyyun düşmənləri bu firqəni ləkələyərək deyirlər ki, guya ictimaiyyət əfkarı milliyyəti bilmərrə götürüb millətlərin mədəniyyət, ədəbiyyat və dillərinə əsla qədr vermiyor" [185, 75]. İlk dövrlərdə Rəsulzadə belə nəticəyə gəlirdi ki, sosial-demokratlar həqiqi milliyyətə deyil, cibpərəstlikdən ibarət "milliyyət"ə əksdir: "Sosial-demokrat külli millətlərin özü üçün tərəqqi edib mədəniyyətləşməsinə zidd deyildir. Onların zidd olduğu o "millət"dir ki, özgə millətləri məhv və müzməhlil (assimilyasiya – F.Ə.) etmək istiyor" [185, 75]. Beləliklə, o, belə bir nəticə çıxarırdı ki, yalnız "... ictimaiyyun-ammiyyun üçün milliyyət - filan yoxdur. Fəqət məzlumların haqqını himayə etmək, həqiqəti açıb, aləmə bildirmək vardır" [185, 108].

Rəsulzadə 1908-ci ildə Türkiyədə hakimiyyətə gələn "Gənc Türklər"ə də tövsiyə edirdi ki, milliyyət məsələsini bir kənara qoyub beynəlmiləlçiliyə söykənsinlər. Onun fikrincə, Türkiyə camaatı bunu başa düşməlidir ki, hürriyyət, səadət ayrılıqla deyil, ittihadi-ittifaq ilə başa gəlib beynəlmiləllik zühuru ilə qələbə edəcəkdir. Ancaq "Gənc türklər" bu məsələdə səhv edərək sinfi məsələni nəzərə almırlar. Rəsulzadə yazırdı: "Bizi düşündürəcək bir məsələ varsa, o da cəmiyyətçilərin ("Gənc türklər"in) nöqteyi-nəzərlərinin burada dayanıb bir az da o yanı görməmələridir ki, bu da əsl hürriyyət almağa qabil olan

füqərayi-camaata istinad etməyib, sinfiyyət ayırmayaraq "hamı camaata" söykənmələridir" [185, 121]. Rəsulzadə "Gənc türklər"ə tövsiyə edirdi ki, Türkiyənin hürriyyəti və səadəti naminə millət və məzhəb məsələsində fərq qoymasınlar: "Qoy beynəlmiləllik nuru işıqlanıb "millətçilik" və dargözlülük cəhlini yer üzündən məhv edərək səadəti-ümuminin vücudunu təmin eləsin!" [185, 123].

Deməli, həmin dövrdə Rəsulzadə milli məsələni bir kənara qoyaraq, bütün millətlərin o cümlədən, türklərin-müsəlmanların hüquq və azadlıqları uğrunda mübarizə aparan yeganə cərəyan və siyasi partiya kimi beynəlmiləlçi sosial-demokratları qəbul etmişdı: "Bu firqənin amalı və əfkarı fəqət füqərayi-kasibənin əmniyyətini təmin edib, ümum insanları nəzərində bir tutub, bilafərq millət, məzhəb, arvad və kişilərin hər bir hüquq və ixtiyaratda müsavi (bərabər – F.Ə.) olmalarıdır. Bu firqə beynəlmiləldir. Bunun üçün milliyyət filan yoxdur. Bunun nəzərində əhəmiyyət qazanan fəqət sinifdir. Bir-biri ilə zidd olan iki sinfin ki, onları heç bir rabitə müttəhid edə bilməz…. Kəmali-cürətlə demək olar ki, ictimaiyyun-ammiyyun müsəlman firqəsidir. Bəli, müsəlmanlara, müsəlman füqəra və məzlumlarına, o ixtiyarsız və hüquqsuz füqəralara bir firqəyə mülhəq olmaq, bir heyətə mənsub olmaq münasibət və məravə yavuq isə o da ictimaiyyun-ammiyyun firqəsidir" [185, 93].

Fikrimizcə, Rəsulzadə türkçülük və islamçılıq məfkurəsinə tapınına qədər (1911-1913) siyasi-ideoloji dünyagörüşündə sosial-demokratizmə, bu mənada beynəlmiləlçiliyə daha çox önə vermiş, lakin sonrakı dönəmlərdə bu cərəyan onun fəlsəfəsində arxa plana keçmişdir. Məhəmməd Əminin və onun silahdaşlarının (A.Kazımzadə və b.) siyasi-ideoloji dünyagörüşündə baş verən dəyişiklikdə sosial-demokratizmin rus bolşeviklərin əlində "yeni imperiya" silahına çevrilərək müsəlman-türk xalqlarına qarşı yönəlməsi mühüm rol oynamışdır. Başqa sözlə, rus bolşeviklərinin marksizmdən xeyli dərəcədə uzaqlaşaraq, milli

və dini məsələdən daha çox taktiki mənada istifadə etmələrinin aşkarlanması ilə Azərbaycan türk aydınlarının böyük əksəriyyəti, artıq 1910-1920-ci illərdə onlarla bütün mənalarda yollarını ayırmışlar. Tədqiqatçı alim, fəlsəfə üzrə fəlsəfə doktoru Müstəqil Ağayev də hesab edir ki, əvvəllər bir yerdə olmuş rus və milli inqilabçıların sonralar ayrılmasına səbəb məfkurə fərqləri olmuşdur: "Azərbaycan inqilabçıları siyasi fəaliyyətlərində milliliyi, milli istiqlalı ön plana çəkir, rus inqilabçıları isə milliliyə əhəmiyyət verməyib, sinifliyi, sinfi mübarizəni qabağı çəkirdilər. Bu cür mühüm fərqlər onların ayrılmasına, həm də ümumi düşmənə qarşı mübarizənin zəifləməsinə gətirib çıxardı" [12, 25].

Bütün bunlarla yanaşı, qeyd etməliyik ki, "Hümmət"in mövcudluğu dövründə rus bolşeviklərlə birgə fəaliyyət göstərən milli sosial-demokratlar – milli inqilabçılar marksizm mövqeyində dayansalar da, Azərbaycanda milli ideyanın təşəkkülündə müəyyən rol oynamışlar. Bu baxımdan həmin dövrü təhlil edən professor Yusif Rüstəmov haqlı olaraq yazır: ""Hümmət" təşkilatında iş aparan M.Ə.Rəsulzadə qrupunun üzvləri – gələcək "Müsavat" partiyasının üzvləri xalqın milli mübarizə yolunu müəyyən etməyə çalışırdılar. Bu yol Azərbaycanın gələcək milli istiqlaliyyət yolu idi. Milli ruhlu gənclər öz mövqelərini sərbəst surətdə müəyyənləşdirmək üçün "Hümmət" təşkilatından ayrıldılar" [193, 295].

Bu o deməkdir ki, Rəsulzadə, Kazımzadə, Aşurbəyov və başqa milli ruhlu insanlar marksizm adı altında Rus-Xristian-Qərb-Avropa ideologiyasına xidmət edən rus bolşevizmini vaxtında görmüş və onlarla yollarını ayırmışlar. Milli ruhlu insanlar başa düşürdülər ki, Turk-İslam-Şərq mədəniyyətinə bağlı olan Azərbaycan xalqının gələcəyi rus bolşevizmi bağlı ola bilməz. Bu yolu tutmaq yalnız köləllik və milli-mənəvi dəyərlərə dönüklükdür. Beləliklə, milli sosial-demokratlar da Hüseynzadə, Ağaoğlu kimi əsas ideya xətti olaraq türk-islam-

şərq mədəniyyətini seçdilər. Ancaq milli sosial-demokratların Türk-İslam-Şərq mədəniyyətinə əsaslanan türkçülük-islamçılıq-müasirlik "üçlüy"ünə olan münasibətləri bir qədər fərqli oldu.

Marksist-leninçi sosial-demokratiya. İlk gündən rus bolşeviklərlə çiyin-çiyinə addımlayan S.M.Əfəndiyev, M.Əzizbəyov, R.Axundov D.Bünyadzadə, H.Sultanov, Ə.Qarayev və başqaları marksist-leninçilərin tanınmış nümayəndələridir. Məsələn, milli sosial-demokrat təşkilatı olan "Hümmət"lə yanaşı, RSDFP-nin Bakı Komitəsinin üzvü **S.M.Əfəndiyev** birmənalı şəkildə ruspərəstliyi, qərbçiliyi ilə seçilmişdir. Azərbaycanın gələcəyini yalnız Rusiya və Rusiyadakı bolşevik hərəkatı ilə bağlayan Əfəndiyev "Müsəlman kadetləri" məqaləsində islamçılıq və türkçülük tərəfdarlarını ikiüzlülükdə ittiham edərək yazırdı ki, onlar sözdə fəhlə-kəndlilərin yanındadırlar, əməldə isə onların mənafeyi ilə hesablaşmırlar [75, 172-173]. S.M.Əfəndiyev Azərbaycan Cümhuriyyəti dövründə (1918-1920) də Milli hökumətə qarşı olmuş, onu islamçılıq və millətçilikdə ittiham etmişdir. Milli hökumətə qarşı çıxışlarında "şovinizm məstliyini hər yerdə yayan və demokratizm bayrağı ilə pərdələnən "Müsavat"ın siyasətini" ifşa etmək olan Əfəndiyev əsas məqsədini də gizlətmirdi: "Azərbaycan zəhmətkeş kütlələri aydın başa düşməlidirlər ki, onların xilası və səadəti yalnız Rusiyanın inqilabçı proletariatı və kəndliləri ilə sıx birləşməkdədir. Rusiyanın inqilabçı proletariatının və kəndlilərinin yaxınlaşan qələbəsi hər hansı müsavatçılardan, xoyskilərdən və parlamentdən daha tez bir zamanda kəndlilərə torpaq, fəhlələrə isə çörək və təminat verəcəkdir" [75, 191]. Bu sözlər əfəndiyevlər kimi rusçuların-qərbpərəstlərin əsil simalarının göstəricisidir. Onlar üçün Azərbaycanın milli azadlığı fəlsəfəsindən çox rus bolşevizminin hökmranlığı önəmli idi.

Sovet ədəbiyyatında "ilk Azərbaycan marksistlərdən biri" hesab olunan [133, 14] **Məşədi Əzizbəyov** da S.M.Əfəndiyev kimi, milli və dini məsələyə münasibətdə rus bolşeviklərinin

mülahizələrini təkrarlamaqla kifayətlənmiş, Azərbaycanın "xoşbəxt gələcəyi"ni yalnız bolşefaşist Rusiyasında və beynəlmiləl kommunizmdə görmüşdür: "Biz sosialistlər deyirik ki, siz fəhlələri seçməlisiniz. Bu barədə bizim proqramımızda cənab Rəsulzadənin elan etdiyi proqramından daha aydın və daha çox deyilmişdir. Bizim fəaliyyətimizin əsası öz proqramımızdır" [202, 40]. Əzizbəyovun "öz proqramımız" dediyi rus bolşeviklərinin müstşmləkəçilik konsepsiyasından başqa bir şey deyildir. Çünki M.Ə.Rəsulzadə və başqa milli-demokratlar onu seçkilərdə müsəlmanların səsini və birliyini parçalamaqda, eyni zamanda şəhər Dumasına sinfi mübarizə məsələsini gətirməkdə ittiham edirdilər. Bütövlükdə, M.Əzizbəyov milli istiqlal məsələsində S.M.Əfəndiyev, D.Bünyadzadə, H.Sultanov və başqa məsləkdaşları kimi, milli-demokratik qüvvələrə qarşı çıxmış, onların Azərbaycan muxtariyyəti, Azərbaycan istiqlalı ideyasını pisləmiş, birmənalı şəkildə Rusiya Federativ Sovet Respublikası ideyasının tərəfdarı kimi çıxış etmişdi [202, 91].

Belə yandaşlardan olan Əliheydər Qarayev də Azərbaycan Parlamentindəki əksər çıxışlarında özünü Sovet Rusiyasının nümayəndəsi kimi apararaq açıq-aşkar əhalini Sovet Rusiyası ilə birləşməyə, yaxud da ondan asılı olan "müstəqil sovet Azərbaycanı" yaratmağa çağırmışdı [35, 535]. Ondan geri qalmayan başqa bir bolşevik Ruhulla Axundov isə iddia edirdi ki, Azərbaycanın istiqlalında Sovet Rusiyasının bəyan etdiyi "təyini-müqəddərat" mühüm rol oynasa da, guya, bu istiqlal işçi və kəndlilərə azadlıq verməmişdir [20, 23]. Onun fikrincə, həqiqi istiqlalı onlara yalnız Sovet Rusiyası verə bilər. Əslində Ə.Qarayevin, R.Axundovun müstəqil Azərbaycan dövründə demokratiyanın verdiyi azadlıqlardan istifadə edərək yazdıqları və dedikləri, Cümhuriyyət dövrünü deyil, bütövlükdə Sovet Rusiyasının işğalından sonra Azərbaycanda baş verənləri dəqiqliyi ilə ifadə edirdi.

Sovet ədəbiyyatında Azərbaycanın məşhur proletar inqilabçısı, marksist-leninçi lideri sayılan **Nəriman Nərimanov** 1917-ci

ilə qədər ideya cəhətdən yolunu müəyyənləşdirə bilməmişdir. Bu mənada, onun həmin dövrə qədər marksizmə münasibəti M.Ə.Rəsulzadə, A.Kazımzadə, M.H.Hacınski, Ü.Hacıbəyli və başqaları ilə müqayisədə elə də ciddi şəkildə fərqlənməmişdir. Hətta deyə bilərik ki, N.Nərimanov marksizmə daha ehtiyatla yanaşmış, bir çox hallarda İslamın əsaslarını sosializmdən, eyni zamanda əsrin elm və fənlərindən üstün hesab etmişdir. Görünür, bunu nəzərə alaraq Rəsulzadə xatirələrində yazırdı ki, Nərimanov 1906-cı ildə nəşr olunan "Qara qartallar" adlı məqaləsində marksizmi və sosializmi rədd etmiş, bir çox əsərlərində isə İslamın əsaslarını əsrin elm və fənlərinə qarşı qoymuşdur [245, 193]. SSRİ dövründə bolşeviklərdən Ə.Qarayev, M.D.Hüseynov və H.Cəbiyev də Nərimanov haqqında yazırdılar ki, o, 1917-ci ilə qədər bolşevik hərəkatından uzaq olmuşdur [100, 59].

Fikrimizcə, bu cür mülahizələr heç də əsassız deyil. Çünki Nərimanov ilk əsərlərindən biri olan "Bahadır və Sona" romanında (1890-cı illər) millətin cahil və avam olmasının səbəbi kimi azılan əsərlərin milli tərbiyədən, milli ruhdan uzaq olması və onlara bunu verəcək milli məktəblərin olmamasını göstərmişdir. Onun fikrincə, milli ruhda əsərlər yazıb millətin ruhunu təmizləmədən, naxoş və kor millətdən nə isə gözləmək faydasızdır [168, 178-179]. Hətta, Nərimanov bu yolda İslam dininin də mühüm rol oynadığını ifadə etmişdir [168, 165].

Maraqlıdır ki, o, sovet dövründə isə bu əsərində beynəlmiləl ideyaları təbliğ edərək, müsəlmanlar arasında hər cür dini inkar etdiyini yazmışdır. Buna nümunə kimi də erməni Sona ilə türk Bahadırın sevgisini göstərmişdir [168, 438]. Ancaq həmin əsər mahiyyət etibarilə dinlərin inkar deyil, azad sevgiyə dözümlü yanaşmağı təbliğ edir. Sadəcə, o, sovet dövründə rus bolşevizmi xəttini seçdiyi üçün vaxtilə islamlıq və türklüyü deyil, beynəlmiləlçiliyi müdafiə etdiyini iddia etmək zorunda qalıbdır. Çünki onun həmin dövrdə millət və islama münasibəti heç də inkarçılıq xarakter daşımamış, tərsinə İslama çox ehtiyatla yanaşmış, bu

dində bütün elmlərin öyrənilməsinə önəm verildiyini xüsusilə vurğulamışdı [168, 263]. O, sonralar yazıdığı "Tibb və İslam" əsərində də İslamın əsil mahiyyətinin ruhanilərin əməllərinin üst-üstə düşmədiyini və bu dində faydalı cəhətlərin olmasından bəhs etmişdir [79, 191].

Ümumiyyətlə, Nərimanov SSRİ dövründə bir neçə dəfə əvvəllər özünün antislamçılıq və antitürkçülük mövqeyində olması barədə fikirlər səsləndirmişdi. Ancaq Nərimanov beynəlmiləlçiliyini və antislamçılığını elə bir formada təqdim edir ki, ziddiyyət açıq-aşkar hiss olunur. Məsələn, o yazırdı ki, Nikolayın süqutundan əvvəl panislamistlərlə bir yerdə işləsə də (!), onların ideyalarına ciddi yanaşmamışdır: ".. hələ Nikolayın süqutundan əvvəl mən panislamistlərlə işləmişəm, bizim bir məqsədimiz vardı – Nikolayı yıxmaq, onlar da Nikolayı yıxmaq istəyirdilər, biz də. Lakin onlar panislamizmdən danışmağa başlayanda, mən həmişə gülüb deyirdim: Heç vaxt siz millətəri islam bayrağı altında toplaya bilməyəcəksiniz, heç vaxt fars Türkiyənin bayrağının altında yaşamağa razı olmayacaq, heç vaxt türk razı olmaz ki, başı üstündə İran tayfası ağalıq etsin" [259, 495].

Bununla da, Nərimanov 1917-ci il Rusiya burjua inqilabından sonra deyil, əvvəllər də beynəlmiləlçi və marksist olmasını sübut etməyə çalışmışdır ki, bu məsələ də, onu başa düşmək çətin deyildir. O, sosial-demokratizmə təsadüfən üz tutmadığını əsaslandırmaq üçün özünü beynəlmiləlçi kimi qələm verirdi. Əgər Nərimanov 1917-ci il fearal burjua inqilabından sonra sosial-demokratizmə deyil, milli-demokratizmə üz tutsaydı o zaman da, vaxtilə türklük və islamla bağlı yazılarını nümunə göstərəcəkdi. Hətta, bizcə, Nərimanov milli-demokratizm xəttini seçib, bu zaman mövqeyini əsaslandırmaq üçün vaxtilə islama və türklüyə bağlı olduğunu iddia etmiş olsaydı daha inandırıcı və gerçək görünərdi. Deməli, sovet dövründə bu fikri ifadə edən Nərimanov siyasi-ideoloji mühitə uyğun olaraq çıxış etmiş, bununla da 1917-ci

ilə qədərki tərəddüdlü mövqeyinə bolşevik don geyindirməyə çalışmışdır.

Ancaq hazırda bəzi tədqiqatçılar (A.Hacıyeva və b.) iddia edirlər ki, Nərimanovun bu cür fikirləri onun vaxtilə dinə münasibətdə "ittihadi-islamçılar"a (Hüseynzadə, Ağaoğlu və b.) nisbətən daha rasional mövqe tutması ilə bağlı olmuşdur [94, 17]. Çünki A.Hacıyevaya görə, "ittihadi-islamçılar"ın (Ə.Hüseynzadə, Ə.Ağaoğlu və b.) baxışları xülya olduğu halda, N.Nərimanov gerçəkçi olmuşdur. Bu mənada, o yazır ki, "dini xülyaların sosializmlə qarışıq salınması N.Nərimanovun baxışlarına yad idi" [94, 61]. Hacıyevanın "dini xülya" dediyi Ağaoğlu, Hüseynzadə tərəfindən irəli sürülən müsəlman xalqlarının oyanışı, azadlığı və birliyi idi. Vaxtilə sovet ideoloqları onların bu ideyalarını tamam başqa mənaya yozmuş və təhrif etmişlər. Görünən odur ki, indi də sovet təfəkküründən bu düşüncəsindən bir çoxları qurtulmamışdır. Ona görə də, günümüzdə də Ağaoğlu, Hüseynzadə "ittihadli-islamçılar" adlandırılır, onların islamçılıq və türkçülüklə bağlı fikirləri "dini xülya" kimi qələmə verilir. Bunu, A.Hacıyevanın "ittihadi-islamçılar"ın baxışlarını ifadə edərkən yazdığı sözlər də təsdiq edir: "Müxtəlif ərazilərdə yaşayan, müxtəlif iqtisadi, siyasi-ictimai inkişaf yolu keçmiş xalqların islam bayrağı altında vahid millət halında birləşə biləcəyi utopik bir xülya təsiri bağışlayır" [94, 16-17]. Əslində Ağaoğlu, Hüseynzadənin nəzərdə tutduğu "vahid islam milləti"nin yaranması deyil, müsəlmanlar arasında mənəvi birlik və mənəvi oyanışın yaranması idi. Bütün bunlar SSRİ dövründə təhrif edilmiş və sovet ideologiyasına uyğunlaşdırılmışdır. Bir sözlə, SSRİ dövründə milli ideoloqların fikirləri bir, rus bolşevizminə xidmət edənlərin düşüncələri isə digər istiqamətdə təhrif edilmişdir.

Bu mənada, rus bolşevizminin yolunu tutan Nərimanov və onun məsləkdaşlarının SSRİ dövründə mifləşdirilməsi təsadüfi olmamışdır. Bu o dövrün mühiti və ideologiyası ilə birbaşa bağlı olmuşdur. Bunda yalnız sovet ideoloqları deyil, eyni zamanda rus

bolşevizminə üz tutanların özləri də maraqlı olmuşlar. Əgər problemə oybektiv yanaşsaq görərik ki, Nərimanov da 1917-ci il fevral burjua inqilabına qədər islam və türklüyə bir ideya xətti kimi baxmasa da, ümumilikdə onları birmənalı şəkildə inkarçılıq yolu da tutmamışdır. Bu dövrdə bir çox Azərbaycan türk aydınları kimi, Nərimanov da milli ideya axtarışında olmuşdur. Məhz bu səbədəndir ki, Nərimanov bir tərəfdən Türk-İslam mədəniyyəti və ideologiyası xəttinə qulluq edən qəzetlərlə əməkdaşlıq etmiş, digər tərəfdən milli sosial-demokrat təşkilatı "Hümmət"in üzvü kimi marksizmlə də maraqlanmışdır. Bu baxımdan, həmin dövrdə Nərimanovun yazıları ümumi xarakterlidir və ideya baxımdan konkretlikdən çox uzaqdır. O, islamın və türklüyün də, sosial-demokratiyanın da müsbət cəhətlərini göstərmiş, ancaq onlara qarşı hər hansı ciddi tənqidlərdən yan qaçmışdır. Bütün bunları nəzərə alsar, hazırda Nərimanovun tədqiqatçılarından A.Hacıyevanın yazması ki, onu düşündürən hansısa bir zümrənin, sinfin deyil, millətin taleyi olmuşdur, bunun özü konkretlikdən çox uzaqdır: "Onun mövzusu əsasən ümumcamaat, ümummillət dərdləridir, istər Rusiyaada, istərsə dünyada siyasi və iqtisadi əsarətə məruz qalan müsəlmanlardır" [94, 57].

Halbuki millətin dərdi hər bir mütəfəkkiri düşündürə bilər, ancaq o çıxış yolu göstərməlidir. N.Nərimanov isə həmin dövrdə konkret bir deya seçə bilmədiyi üçün ümumi tezislərlə çıxış edirdi. Hər halda, ümummillətin, müsəlmanların dərdlərini düşünmək bir şeydir, bundan çıxış yolu kimi hər hansısa bir ideyanı qəbul edib onu inkişaf etdirmək başqa bir şeydir. Məsələn, N.Nərimanov "Dərdlərimizin əlacı" (1916-cı il) məqaləsində yazırdı ki, ümum müsəlmanlar üçün müqəddəs bir məslək İslam həqiqətinin nə olmağını bilməkdir. Onun fikrincə, müsəlman xalqların islam həqiqətini öyrənməklə yanaşı, özlərinə məxsus məsləkləri də ola bilər: "Ümum ideala çatmaq üçün, yəni insaniyyətə xidmət etmək üçün millətə lazımdır özünü tanısın. Bir millət özünü tanımaz isə özü ilə qeyrisinin fərqini düşünməyə qadir olmaz isə xüsusi

məsləki dalınca yeriş edə bilməz. Bu yolda yeriş edə etməz isə ümumi müqəddəs məslək nə olmağını da düşünməz. İndi biz islama qulluq edən bir çox tayfalardan biriyik: məlum bir qanun altında yaşayıb, özümüzə türk deyib də xüsusi bir məslək dalınca getməliyikmi? Getməliyik desəniz, özümüzü gərəkdir tanıyaq. Fəqət tanımaq üçün nə lazımdır? Milli dil, millli məktəb, milli mətbuat və qeyri-qeyri şeylər deyilmi?" [170, 377].

Deməli, N.Nərimanov ümummillətin, müsəlmanların taleyini düşünür, ancaq onların mövcud durumdan çıxış yolu kimi islamçılıq-türkçülüyü, yoxsa sosial-demokratiyanı seçməsi məsələsində tərəddüd edirdi. Xüsusilə, də sonuncuya münasibətdə daha çox inamsızlıq nümayiş etdirirdi. Sadəcə, bəzi məqalələrində sosial-demokratiyaya aid edilən sosial bərabərlik, insanların azadlığı və rifahı məsələlərinə də toxunurdu [167, 66]. Bu dövrdə Nərimanovun sosial-demokrat firqəsinə rəğbəti mərkəzçi marksistlərdən daha çox milli sosial-demokratlara yaxın olmuş, buna görə də o, "Hümmət"də fəaliyyət göstərmiş və RSDFP-nin Bakı Komitəsinə üzv olmamışdır. Görünür, bu kimi məsələləri gözə alaraq, SSRİ ədəbiyyatında qeyd edilirdi ki, "Nərimanov 1917-ci il fevral inqilabına qədər marksizm nəzəriyyəsini bütün dərinliyi ilə mənimsəyə bilməmiş, marksizmin başlıca müddəaları haqqında səthi təsəvvürə malik idi" [121, 74]. Ancaq burada akademik F.Q.Köçərli tərəfindən qeyd edilən o fikirlə razılaşmaq mümkün deyil ki, Nərimanov marksizmin başlıca müddəaları haqqında səthi təsəvvürə malik olduğu üçün, "sinfi mübarizənin elmi marksist anlayışı səviyyəsinə qədər yüksəlməmiş, sinfi mübarizənin antaqonist cəmiyyətlərin əsil hərəkətverici qüvvəsi olduğunu, proletariatın azadlıq rolunu və onun mübarizəsinin proletar diktaturası ilə nəticələnəcəyini tam aydınlığı ilə dərk edə bilməmişdi" [121, 74]. Tərsinə, 1917-ci il fevral burjua demokratik inqilabına qədər Nərimanov marksizm-leninizm haqqında kifayət təsəvvürə malik olduğu üçün ondan uzaq durmuş, bir növ özünün də etiraf etdiyi kimi, kommunizmin qurulmasına utopiya kimi

baxmışdır. Bu baxımdan, o hesab etmişdir ki, yaxın zamanlarda yalnız burjua demokratik inqilabının gerçəkləşməsi mümkündür və kütləni də yalnız onun mənəvi-ruhani həyatındakı çevrilişə hazırlamaq lazımdır [167, 210].

Fikrimizcə, uzun müddət Türk-İslam-Şərq və Rus-Qərb-Avropa ikiliyi arasında tərəddüd edən Nərimanovun sonuncunu seçməsində 1917-ci il Rusiya fevral burjua inqilabı və sosial-demokratizmə bəslədiyi ümidlər mühüm rol oynamışdır. Bu mənada, o, həmin inqilabın təsiri altında yalnız sosializm quruluşunda milliyyətindən və dinindən asılı olmayaraq insanların bir-birilə yoldaş olacaqlarını inanmışdır: "Bolşevkilər mənim arzuladığım dünyanın qapısını açа biləcək yeganə hakimiyyəti – xalq hakimiyyətini yenidən yaratmaq ümidi ilə sinfi mübarizədə qan tökürlər" [167, 190].

Məhz o, sosial-demokratizmi seçdiyi üçün, sovet dövründə vaxtilə daha çox meyil etdiyi islamlıq və türklüyü deyil, beynəmiləlçiliyi müdafiə etmək zorunda qalıb. Eyni zamanda, Nərimanov yalnız rus bolşeviklərinə qoşulduqdan, hətta onlarla birləşmək fikrinə düşdükdən sonra birmənalı şəkildə türkçülük və islamçılığın əleyhdarına çevrilmişdir. Bu baxımdan Nərimanov Azərbaycan türklərinin Osmanlı türklərinə güvənərək türkçülüyü yaymasını doğru hesab etmirdi [38, 32]. Xüsusilə, Nərimanovun M.Əzizbəyov, S.M.Əfəndiyev kimi Azərbaycanın gələcəyini Rusiyada görməsi və müstəqil Azərbaycana qarşı olması sirr deyildi. Rəsulzadənin təbrincə desək, Nərimanov üçün artıq ümid yeri, çıxış yolu yalnız bolşevik Rusiyası və onun lideri Lenin idi: "O zaman müsəlman sosialistlərin ələmdarı bulunan "Hümmət" firqəsi başda doktor Nəriman olmaq üzrə Azərbaycan muxtariyyətinin ədəvv-canı idi. "Hümmət"ə görə biz milləti fəlakətə çəkir və mən qeyri həqq millət naminə söz söyləyirmişik. Azərbaycan fikri, türklük iddiaları xalqın deyil, bir sıra burjuapərəst "boşboğazlar"ın imiş. Müsəlmanların mənfəəti

"qırmızı əmələ bayrağı"nın altına toplanmaq və "Rusiya demokratiyası"ndan ayrılmamaqda imiş" [186b, 10].

1917-ci il oktyabr rus inqilabından sonra bolşevizmə bəslədiyi ümidin artmasının nəticəsi idi ki, Nərimanov 1918-ci ilin əvvəllərində "Hümmət" qəzetində dərc olunan bir məqaləsində üzünü müsəlmanlara tutaraq yazırdı: "Bir ümid yeriniz varsa, o da tazə hökumətdir (Şura hökumətidir – F.Ə.) və var qüvvənizlə ona kömək etməlisiniz. Sizin hər cəhətdən nicat yolunuz Leninin məramnaməsindədir" [169, 7].

Fikrimizcə, marksizm-leninizmin Azərbaycanda iflasa uğradığı bir zamanda N.Nərimanovun Rusiya bolşeviklərinin, xüsusilə onların rəhbərləri Leninin və Stalinin taktikasına uyğun olaraq "Azərbaycan bolşevikləri"nin lideri kimi önə çəkilməsi təsadüfi olmamışdır. Bu, Azərbaycanı yenidən müstəmləkəsi halına gətirmək istəyən rus imperiyasının yeni bir taktikası idi. Lenin başda olmaqla bolşeviklərin fikir dəyişdirməsinə əsas səbəb daşnak Şaumyanın əli ilə nəzərdə tutduqları Azərbaycan türklərinin soyqırımını tamamilə reallaşdıra bilməmələri olmuşdu. Bu baxımdan bolşeviklər taktika dəyişdirərək bu dəfə türk-müsəlman bolşevik liderinin əli ilə Azərbaycana sahib çıxmağa qərar vermişdilər. Bu taktikaya görə, xalq arasında müəyyən qədər tanınan, eyni zamanda sosial-demokrat əqidəsinə səmimi şəkildə tapınan Nərimanov milli-demokratik qüvvələrə və onun bariz təzahürü olan milli hökumətə qarşı bir "proletar" sima kimi önə çıxarılmalı, həmin "müsəlman-türk sosialist" simasının da razılığı ilə Milli hökumət devrilməli və son olaraq Nərimanovun "müstəqil Sovet Azərbaycanı"nın başçısı olduğunu bəyan etməklə Azərbaycanın işğalına hərtərəfli haqq qazandırılmalı idi. Maraqlıdır ki, Stalin Rəsulzadə ilə söhbətində Nərimanovla onların arasında belə bir anlaşmanın olduğunu gizlətməmişdir [245, 42].

Doğrudur, hazırda bəzi tədqiqatçılar (Ş.Qurbanov, F.Əhmədova, H.Həsənov və b.) hesab edirlər ki, Nərimanov

Sovet Rusiyasının başçıları ilə deyil, onlar onunla anlaşıblar [80, 11]. Hətta, bunu müsbət faktor kimi dəyərləndirən H.Həsənov yazır ki, Leninlə danışıqlarda Nərimanov Azərbaycanın müstəqilliyi, Bakının paytaxt olması və milli adət-ənənələrin nəzərə alınması kimi şərtlər irəli sürmüşdür [100, 53]. Bu prizmadan çıxış edən Şamil Qurbanov da yazırdı ki, ona qarşı irəli sürülən ittihamların heç bir əsası yoxdur: "İndi bəzi alimlər və təsadüfi jurnalistlər nahaqq yerə onu tənqid atəşinə tuturlar, yeri gəldi-gəlmədi tənqid etmədən keçinmirlər" [138, 14]. Bizcə, N.Nərimanovla bağlı irəli sürülən bəzi tənqidi fikirlər heç də əsassız deyildir. Belə ki, Azərbaycan Cümhuriyyətinin timsalında Azərbaycan xalqı bir millətin taleyində önəmli rol oynayan ideyaları (istiqlal, müstəqil parlament, müstəqil ordu, bayraq və s.) əldə etdikdən sonra, onu Sovet Rusiyasının əli ilə yıxıb yerində "müstəqil Sovet Azərbaycanı" qurmağın da, bu mənada Nərimanovun Sovet Rusiyasının başçıları ilə əslində tabeçilik anlaşması əsasında, onların qarşısında hansısa şərtlərlə çıxış etməsinin də heç bir anlamı yox idi. Burada qazanan yalnız bir tərəf var idi: Sovet Rusiyası və onun əlaltıları. Fikrimizcə, bu baxımdan Nərimanov Sovet Rusiyasından deyil, Sovet Rusiyası Azərbaycan Cümhuriyyətini işğalı planı çərçivəsində "Nərimanov faktoru"ndan maksimum faydalanmışdır. Bunu, həmin dövrdə Moskvada yaşayan Nərimanovun Azərbaycanda baş verənlərlə bağlı Lenini daima məlumatlandırması, "Qafqazın işğalına baxış" məruzəsi və xüsusilə, Azərbaycanın baş naziri N.Yusifbəyliyə yazdığı məktubundan açıq şəkildə görmək mümkündür.

Nərimanov sonralar özü də etiraf edirdi ki, Moskvada olduğu dövrdə "Azərbaycanda hakimiyyətin bolşeviklərin əlinə keçməsi üçün (əslində müstəqil bir dövləti - Azərbaycan Cümhuriyyətini işğal etmək üçün) hazırlıq işi görülmüş" [169, 13], o, isə bu planın həyata keçirilməsi üçün Leninə xidmət etmişdir. Nərimanov Yusifbəyliyə yazdığı məktubunda bolşev-

iklərlə bir yerdə olmasını siyasi-ideoloji baxışlarındakı fərqlərlə izah etməyə çalışmışdır: "Siz pantürkizm və panislamizm ideyalarını yayarkən, mən bir kommunist kimi sizin qəti əleyhinizə çıxmışdım, lakin sizin Türkiyə qanadı altına girmək cəhdinizə, bir psixoloq kimi, lütfkaranə baxırdım. Türkiyə "zəfərlə" gəlib rüsvayçılıqla getdi" [167, 216]. Çox keçmədi ki, Nərimanovu qanadının altına alan Sovet Rusiyası da Azərbaycana "zəfərlə" gəldi, ancaq şimal ölkəsi Türkiyədən fərqli olaraq ləyaqətlə getmədi, sözün həqiqi mənasında bü ölkəni 70 il müstəmləkəsi kimi idarə etdi. Bunu, yalnız 27 aprel işğalınının üstündən bir qədər keçdikdən sonra dərk edəcək Nərimanov hələ, buna qədər müstəqil Azərbaycanın baş nazirinə yazırdı ki, "qızıl əsgərləri xarüqələr yaradan bütöv bir dövlətin (yəni Rusiyanın – F.Ə.) həyatı ilə oynamaq olmaz, amma siz cinayətkarcasına bu cür oynadınız…" [167, 218]. Halbuki çox keçmədi ki, Sovet Rusiyası "Nərimanov faktoru"ndan da istifadə edərək, Azərbaycanı müstəmləkə halına gətirdi.

Göründüyü kimi, Azərbaycan milli ideologiyası formalaşıb onun məhsulu olan azərbaycançılıq yaranana qədər, Azərbaycan türklərinin milli ideya yönündəki axtarışları çoxistiqamətli olmuşdur: islamçılıq, türkçülük, müasirlik, marksizm, liberal-demokratizm və b. Hər halda, milli ideyaların rüşeymlərini irəli sürmüş ilk nümayəndələrindən (A.A.Bakıxanov, M.F.Axundzadə, H.Zərdabi və b.) tutmuş ardıcıllarınadək (Ə.Ağaoğlu, Ə.Hüseynzadə, Ə.Topçubaşı, N.Yüsifbəyli, M.Ə.Rəsulzadə və b.) hər biri türkçülük, islamçılıq və müasirlik ideya xətlərinə, az-çox dərəcədə maraq göstərmişlər. Millət, din və müasirlik anlayışları arasından A.A.Bakıxanov üstünlüyü dini birliyə-İslama, M.F.Axundzadə müasirləşməyə-Qərbçiliyə, H.Zərdabi nisbətən milli birliyə-Türkçülüyə verdiyi halda, Ə.Ağaoğlu "ikili" (İslam-Türk birliyi), Ə.Hüseynzadə "üçlü" (islamlaşmaq, türkləşmək və avropalaşmaq), M.Ə.Rəsulzadə isə "üçlü"+azərbaycançılıq məfkurəsindən çıxış etmişdir. Bu

mənada, Azərbaycanda bu iki xəttin vəhdətindən çıxış edərək yeni bir məfkurədən çıxış edən əsas siyasi qüvvə milli demokratlar olmuşdur. Həmin dövrün özündə M.Ə.Rəsulzadə "millətçi demokratlar"ın digər cərəyanlardan, xüsusilə "sosialistlər"dən fərqini belə izah etmişdi: ""Sosialistlər"lə bizim fərqimiz bundadır ki, onlar beynəlmiləlçidirlər, biz isə demokratik millətçi. Millətçi demokratlığın nə qədər camaata faydalı, zamanın tələbinə müvafiq olduğunu Qafqaz təcrübəsilə göstərərək, isbat edərək göstərə bilərəm ki, məsələn, gürcü sosial-demokratiyası camaata nicat vermək üçün nasional-demokratlıq üsulundan başqa bir çarə tapmadı" [34, 260].

Beləliklə, 20-ci əsrin əvvəllərində Milli məfkurənin formalaşması istiqamətində irəli sürülən ideyaları və onların tanınmış nümayəndələrinin mülahizələrini ümumiləşdirərək hesab edirik ki, bu üç böyük şəxsiyyətin – Ə.Ağaoğlu, Ə.Hüseynzadə və Ə.Topçubaşının timsalında və onların irəli sürdükləri ideyalar ümumi, hətta bəzən qeyri-müəyyən mahiyyət daşısa da milli ideyanın müəyyənləşməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Belə ki, Ə.Ağaoğlu "islam millətçiliyi" adı altında bütün müsəlman xalqlarının ən azı mənəvi-ideoloji birliyinə, Ə.Hüseynzadə islam-türk birliyinin vəhdəti şəklində "osmanlı türkçülüyü"nə, Ə.Topçubaşı isə eyni ideyalarla, ancaq daha çox liberal-demokratik dəyərlərlə bütün Rusiya müsəlmanlarının-türklərinin, o cümlədən müəyyən qədər də Azərbaycan türklərinin birliyinə çalışmaqla Azərbaycan türkçülüyü ideyasının – azərbayançılığın yaranmasında mühüm rol oynamışlar.

Ə.Cəfəroğlu da qeyd edir ki, 1-ci rus inqilabı (1905) Azərbaycan türklərinin milli özünüdərk prosesində mühüm rol oynamış və millətin həyatında əsas mərhələyə daxil olunmuşdur. Milli oyanışın inkişafında isə milli mətbuatın aparıcı qüvvəsi olan "Həyat", "İrşad" və "Füyuzat" kimi qəzet-jurnallarda milli, islami və bəşəri yazılarla çıxış edən Ə.Ağaoğlu və

Ə.Hüseynzadə olmuşdur [87[a], XIII]. Ə.Cəfəroğlunun fikrinə görə, onlar mətbuatda milli fikirin inkişafına xidmət etməklə yanaşı, işini ehtiyatlı tutaraq tədrici təkamül yolu ilə getməyə daha çox üstünlük vermişlər. Belə ki, milli ideya onlar tərəfindən mətbuatda müəyyən üsul və sistemə tabe tutulmadan daha çox rəmz və işarələrlə ifadə olunmuşdur: "Bu iki azəri-türk ziyalısı dövrün münəvvər və milliyyətpəvər zümrəsinin fikirlərini öz mətbuatları vasitəsilə yayarkən, cəhalət və təəssübkeşliyin milli inkişaf və istiqlal ideyası önündə böyük maneə olacağını açıq şəkildə görürdülər. Onlar milli varlığın təsdiqi yolundakı mübarizədə yeni bir cığır açdılar və milli mədəniyyət üçün yorulmadan çalışdılar" [63, 235]. Ə.Cəfəroğlu daha sonra qeyd edir ki, ümumilikdə 1-ci rus inqilabı Azərbaycanın həm mədəni tərəqqisi və milli ədəbiyyatının inkişafı, həm də milli məfkurənin formalaşması baxımından böyük bir mərhələnin başlanğıcı olmuşdur: "Bu tarixdən etibarən nisbətən daha geniş nəfəs almaq imkanı qazanan Azərbaycan türkləri siyasi və məfkurəvi təşkilatlanma istiqamətində olduğu kimi, milli ədəbiyyat, teatr, musiqi, mətbuat və maarif sahələrində də böyük addımlar atmaq imkanı əldə etmişdilər" [63, 149].

Milli ideologiyanın formalaşması məsələsinə kompleks şəkildə yanaşaraq hesab edirik ki, 1900-1910-cu ilərdə Ə.Ağaoğlu ("islam millətçiliyi"), Ə.Hüseynzadə ("osmanlı türkçülüyü"), Ə.Topçubaşı (Rusiya türklərinin milli-mədəni birliyi) və M.Ə.Rəsulzadə (milli inqilabçılıq) kimi milli ideoloqların siyasi-ideoloji və milli-fəlsəfi fikirlərinədki oxşarlıqlarla yanaşı, ziddiyyətlərin də tədqiq olunmasına zərurət var. Ümumilikdə, bu milli ideoloqların Azərbaycan türk millətinin taleyi ilə bağlı irəli sürdükləri ideyalar bəzi ziddiyyətləri nəzərə almasaq, milli ideologiyanın formalaşması nəzər nöqtəsindən müsbət rol oynamışdır. Ə.Hüseynzadənin təbrincə desək, eyni ideya uğrunda mübarizə aparan insanlar

arasındakı fikir ixtilafları, ziddiyyətlərin olması milli birliyin pozulmasına dəlalət edə bilməz. Əksinə fikir ixtilafları nəticəsində həqiqət meydana çıxar və millət də əsil həqiqətin arxasınca gedər [28, 83].

Məsələyə bu prizmadan yanaşsaq görərik ki, 1900-1910-cu illərdə Ə.Ağaoğlu və Ə.Hüseynzadə Azərbaycan türklərinin milli ideyasını bir-birinə təxminən yaxın olan müasir ruhlu islamçılıqda və türkçülükdə, başqa sözlə ümumi və mücərrəd xarakterli türk-islam dünyasının birliyində gördükləri halda, milli inqilabçılar (M.Ə.Rəsulzadə, A.Kazımzadə və b.) və milli liberal-demokratlar (Ə.Topçubaşı) daha çox çar Rusiyası daxilində baş verən inqilabi, liberal-demokratik dəyişikliklərə ümid edərək Rusiya türklərinin, o cümlədən, konkret olaraq şimali Azərbaycan türklərinin bundan müəyyən mənfəətlər əldə etməsinə çalışmışlar. Bizə elə gəlir ki, çarizmə münasibətdə loyal mövqe tutmalarına baxmayaraq, çar Rusiyasının marksisitlər və liberallarla müqayisədə islamçılar və türkçülərlə amansız davranışının kökünü də məhz bu məsələdə, yəni onların türk-islam birliyinə çalışmalarında axtarmaq lazımdır. Hər halda milli inqilabçılar və milli liberallar quruluşu dəyişməyə çalışsalar da, ilk dövrlərdə, son nəticə olaraq Rusiyanın bütövlüyü (Sovet Rusiyası, Rusiya Federasiyası və s. kimi) ideyasından çıxış edirdilər. Halbuki, həmin dövrdə türkçülər və islamçılar milli inqilabçılar və milli ilberallardan fərqli olaraq, Rusiya türklərinin, o cümlədən Azərbaycan türklərinin gələcəyini türk-islam dünyasının birliyində, xüsusilə Osmanlı Türkiyəsində görür, bəzən də Azərbaycanın yalnız mədəni deyil, siyasi baxımıdan da bu türk-müsəlman dövləti ilə birləşməsinə işarə edirdilər.

Bu baxımdan 1900-1910-cu illərdə Azərbaycan milli ideyasının hansı istiqamətdə yarana biləcəyi ilə bağlı iki başlıca baxışın olması danılmazdır:

1. Tərəqqipərvər, yəni mütərəqqi ruhlu islamçılar və türkçülər Azərbaycan türklərinin nicatını və gələcəyini başda Osmanlı Türkiyəsi olmaqla minimum mənəvi-ideoloji xarakterli "İslam birliyi", yaxud da "Türk birliyi"ndə görmüşlər. Bu baxımdan onlar Azərbaycan türklərində milliyyət (türkçülük-türk birliyi) və dini birlik (islamçılıq-islam birliyi) hisslərini oyatmağa çalışmışlar. Onlar hesab etmişlər ki, islam-türk dünyası, xüsusilə Osmanlı dövləti yeniləşərsə, güclənərsə bundan Rusiya türkləri, o cümlədən Azərbaycan türkləri də qazanmış olacaqlar. Başqa sözlə, Azərbaycan türklərinin gələcəkləri Rusiya liberal-demokratlarının, sosial-demokratlarının proqramları ilə deyil, türk-islam dünyasında, xüsusilə Osmanlıda baş verən milli ruhlu hərəkatlarla bağlıdır;

2. Milli inqilabçılar, marksist-leninçilər, o cümlədən onlara meyil edən "mollanəsrəddinçilər" isə Azərbaycan türklərinin nicatını və gələcəyini daha çox Rusiya daxilində mövcud olan liberal-demokratik, yaxud da sosial-demokratik cərəyanlarda görmüşlər. Siyasi quruluş, siyasi idarəetmə və başqa məsələlərdə fikir ayrılıqlarını nəzərə almasaq, onlar ümumilikdə hesab etmişlər ki, Azərbaycan türkləri türk-islam dünyasında, o cümlədən Osmanlıda baş qaldıran milli-demokratik hərəkatlarda deyil, Rusiyada baş verən burjua-demokratik, sosializm hərəkatlarında fəal şəkildə iştirak etməklə, gələcəkdə bundan müəyyən pay (mədəni muxtariyyət, milli-məhəlli muxtariyyət və s.) əldə edə bilərlər.

Bu günün prizmasından, o dövrdə milli ideya uğrunda gedən mübarizəyə baxdıqda, ilk baxışda Azərbaycan xalqının nicatını müsəlman-türk dünyasında, o cümlədən Osmanlıda baş qaldıran milli ruhlu hərəkatda görən islamçılarla türkçülərin deyil, Rusiya daxilində baş verən burjua-demokratik, yaxud da inqilabi hərəkatlarda axtaran liberal-demokratlarla ruspərəst bolşeviklərin haqlı olduğu görünə bilər. Bu iddianı haqlı sayanlar buna ən bariz nümunə kimi "osmanlıçı"ların osmanlı

ədəbi dili, osmanlı ədəbiyyatı və s. ideyalarına qarşı milli inqilabçıların, o cümlədən onlara meyil edən bəzi "molla-nəsrəddin"çilərin Azərbycan Türk ədəbi dilini, Azərbaycan Türk ədəbiyyatını təbliğ etməsini göstərilər. Ancaq məsələyə daha diqqətlə yanaşdıqda görərik ki, əslində 1900-1910-cu illərdə milli özünüdərk, milli azadlıq hərəkatı, bir sözlə milli ideyanın və onun nəticəsi olaraq milli istiqlalın yaranması yolunda türk-islam mədəniyyəti və ideologiyasının daşıyıcıları katalizator rolunu oynamış, ancaq bu yolda digər xəttin nümayəndələrinin bəzi xidmətləri olmuşdur.

Belə ki, türkçülər və islamçılar milli-dini özünəməxsusluğa daha çox diqqət yetirərək, Azərbaycan türklərinin siyasi millət kimi formalaşmasına, milli kimliyini və mədəniyyətini dərk etməsinə çalışdıqları halda, marksist-leninçilər beynəlmiləlçilik adı altında, əksər hallarda sinfi mübarizənin içərisində əritməyə cəhd göstərmişlər. Məhz marksizmin milli konkretlikdən çox uzaq olmasının nəticəsi idi ki, sonralar (1910-1920-ci illərdə) milli sosial-demokrtaların (M.Ə.Rəsulzadə, A.Kazımzadə və b.) xeyli bir qismi həmin ideyalardan üz döndərərək Azərbaycan türkçülüyü ideyasının əsasını qoydular.

Hər halda, türkçülərdən Ə.Hüseynzadə "Osmanlı türkçülüyü"nü (yəni ortaq Türk ədəbi dilini, Türk ədəbiyyatını, Osmanlı Türkiyəsinin timsalında Türk birliyini və s.) təbliğ etməsinə baxmayaraq, yeri gələndə Azərbaycan türkcəsini də öymüş, Azərbaycan türklərinin türk dünyasında özünəməxsus yer tutmasını bəyan etmişdir. Ə.Topçubaşı isə çar Rusiyasının əsarəti altında olan türklərin, o cümlədən Azərbaycan türklərinin milli-mədəni muxtariyyət, hüquq və azadlıqlar əldə etməsinə səy göstərmişdir. Şübhəsiz, bütün bunlar milli və müstəqil Azərbaycan ideyasına doğru gedən yolda ilk addımlar idi. Məhz 1900-1910-cu illərdə atılan kövrək addımların nəticəsi idi ki, 1910-1920-ci illərdə, sözün həqiqi mənasında, Azərbaycanın milli istiqlalını hədəfləyən Azərbaycan türkçülüyü ideyası –

azərbaycançılıq yarandı. M.Ə.Rəsulzadənin təbrincə desək, ictimai ideologiyanın bütün sisteminin öncə dini islamçılıq sistemindən ümumi türkçülüyə-turançılığa, daha sonra türkçülükdən milli türkçülüyə keçidi başlandı [179, 51].

1.3. Azərbaycan milli ideyasının – azərbaycançılığın yaranması

Azərbaycan türkçülüyü ideyasının, indiki anlamda azərbaycançılığın yaranmasında 1910-cu illərdə dünyada və Qafqazda baş verən mühüm hadisələr (Balkan müharibəsi, 1-ci Dünya müharibəsi, 2-ci Rusiya burjua inqilabı və s.) və bir sıra digər amillər (milli özünüdərk, inqilabi ideyaların güclənməsi, çar Rusiyasının əsarəti altında olan müxtəlif xalqların azadlıq hərəkatı və s.) mühüm rol oynadı. Məhz bu tarixi olayların və milli azadlıq hərəkatlarının təsiri altında Azərbaycandakı milli ruhlu islamçılar-türkçülər, liberallar, inqilabçılar vahid əqidə ətrafında birləşərək milli və müstəqil taktika yürütməyə başladılar. Bu dövrdəki hadisələrin gedişi isə ideya baxımdan milli liberalların və türkçülərin, taktika baxımından isə milli inqilabçıların düzgün yol tutduğunu təsdiq etmişdi. M.B.Məmmədzadə yazırdı: ““İttiifaqçılar”ın liberal millətçilik taktikası məğlubiyyətə uğramışdı. Hadisələr inqilabçı millətçilərə haqq verirdi. Türklər milli haqlarını, milli varlıqlarını savaşda qazana biləcəklərdi. İnqilabi taktikanı seçən millətçilər ideoloji baxımdan ittifaqçıların milli məsələdəki ideologiyasından fərqli bir ideologiya izləmirdilər. Onlar inanırdılar ki, çarizm yıxılmadıqca, türklər digər əsir millətlərlə birlikdə siyasi haqq və hürriyyətə malik olmadıqca bu proqramın tətbiqi qeyri-mümkündür” [154, 36].

M.Ə.Rəsulzadə də bu məsələ ilə bağlı qeyd edirdi ki, əvvəllər türk ziyalıları rus inqilabçıları və rus liberalistləri arasında gedən mübarizədə dolayısıyla iştirak etsələr də,

sonralar milli ideyasını irəli sürdülər: "1910-cu ilə kimi rus liberalizmi ilə rus sosializmi arasında seçim qovğası ilə keçən siyasi yaşam bu çağdan etibarən Qafqaz türklərində yeni bir səhifəyə girir, üçüncü müstəqil bir siyasi düşüncə axını ilə yeni qurum çalışmaları başlayır, bu da milli demokratizm və milli devrim ideologiyasıdır. …Bu ideologiya birinci olaraq Qafqaz türklərinin siyasi gələcəyini Rusiyadan ayrı düşünmüşdür. Bu ün (şərəf – F.Ə.) isə türkçülüyündür" [189, 55].

Qeyd edək ki, milli ruhlu ziyalıların 1911-ci ildə milli-ideoloji partiyalarını ("Müsavat"ı) yaratmaları və etnik türkçülüyü – azərbaycançılığı bir doktrina halına gətirmələri milli-demokratik məfkurənin formalaşmasında həlledici rol oynamışdı. Onu da qeyd etməliyik ki, "Müsavat" ilk dövrlərdə (1911-1913), zamanın hakim zehniyyəti, yəni "islam millətçiliyi" şüarı altında fəaliyyət göstərmiş və ilk proqramında da İslam və sosial bərbarəlik ruhu əsas yer tutmuşdur [226, 29]. Ancaq M.B.Məmmədzadənin də qeyd etdiyi kimi, "Müsavat" "islam millətçiliyi" ideologiyasına qapanıb qalmamış, "Azərbaycan cəmiyyəti ilə birgə dinamik təkamül yolu keçmiş və Azərbaycan cəmiyyətinin milli şüurunu tənzim və idarə etməklə onu özü ilə birlikdə millətçiliyə, türk millətçiliyinə və Azərbaycan istiqlalçılığına qovuşdurmuşdur" [154, 42]. "Müsavat"ın yalnız islamçı deyil, həm də türkçü, yenilikçi və istiqlalçı bir partiya olması M.Ə.Rəsulzadənin 1913-cü ildə İstanbuldan Bakıya dönüşündən sonra baş vermişdi.

1910-cu illərdə millətə verilən yeni tərifdə etnik mənsubiyyət, dil və mədəniyyətə üstünlük verilməsi İslam ümmətçiliyindən etnik-milli türkçülüyə keçiddə mühüm rol oynamışdı. Bu yöndə Ə.Hüseynzadənin "Füyuzat"ından sonra, "Türk Yurdu"nda Y.Akçuraoğlu və Z.Gökalpın milliyyətçi və türkçülük baxışları Azərbaycan türk aydınlarına mühüm təsir göstərmişdi. 1912-1913-cü illərdə "Türk yurdu" jurnalında dərc etdirdiyi "Türkləşmək, islamlaşmaq və müasirləşmək" başlıqlı

silsilə məqalələrində Z.Gökalp yazırdı ki, Türkiyədə üç fikir cərəyanı var: müasirləşmək, islamlaşmaq və türkləşmək: "Türkləşmək və islamlaşmaq ülküləri arasında bir çatışma olmadığı kimi, bunlarla çağdaşlaşmaq ehtiyacı arasında da çatışma mövcud deyildir… Sonucda, hər birinin təsir çərçivələrini bəlirləyərək bu üç amacın üçünü də qəbul etməliyiz; yaxud, daha doğrusu, bunların bir ehtiyacın üç müxtəlif nöqtədən görülmüş çevrələr olduğunu anlayaraq "çağdaş bir İslam Türklüyü" yaratmalıyız" [239, 19-20]. Türkiyə tədqiqatçısı A.Gökdəmir hesab edir ki, Gökalpın bu üç kəlməsi türk sosial fəlsəfəsinin ən geniş çevrəsini vermişdir: "Türk və müsəlman oluş, tarix içində təkəvvün edən milli realitəmizdir: yəni bir həyat içində şəkillənməsinə, qalxınmasına, güclənməsinə, yücəltilməsinə çalışılan topluluq Türk millətidir və bu millət müsəlmandır. Qərb mədəniyyəti isə, yeryüzündə heç bir topluluğun ilgisiz və dışında qalmayacağı bir böyük dünya gerçəkliyidir" [249, 218].

Şübhəsiz, Azərbaycan türkçülüyü ideyasının – azərbaycançılığın yaranmasında və inkişafında da əsas təkanverici, katalizator rolunu türkçülük, islamçılıq və müasirlik prinsipləri oynamışdır. Ancaq onların arasında ilk yeri türkçülük tutur. Rəsulzadə də qeyd edir ki, 1910-cu illərdə Azərbaycan türk mətbuatında milli motivlərin, o cümlədən türkçülüyün, türk birliyinin önə keçməsində Balkan savaşından sonra Türkiyədə güclənməyə başlayan türkçülük cərəyanının güclü təsiri olmuşdu [189, 48]. Xüsusilə, "Türk Yurdu" müəlliflərinin timsalında (Y.Akçuraoğlu, Z.Gökalp və b.) Türkiyədə başlayan türkçülük hərəkatı Qafqazda da çox atəşli ardıcıllar bulmuşdur. Rəsulzadə yazır: "Müsəlman anlayışı yalnız dini qurumlara deyilərək, başqa yöndə türk sözü doğal olaraq işlənmək haqqını qazanmış olur, siyasət, dini düşünüş sistemindən qurtularaq milli kültür sisteminə doğru böyük bir devrim yapır. Milliyyət, türklük davası istəyilə yaradılan qəzetlərdən ("Açıq söz") başqa

milliyyət prinsipi, türk birliyi ideyası ilə qurulan siyasi bir partiya yaranır: Türk Federalist Müsavat Xalq Partiyası. "Açıq söz"lə "Müsavat Partiyası"nın siyasi bir ideologiya kimi düşüncələrə yeritdiyi türkçülük 1917-ci il devrimindən sonra gələn illərin ürünüdür" [189, 54].

Əlbəttə, bu o demək deyildir ki, türkçülük ideyası Türkiyədən Azərbaycana ixrac olunmuşdur. Yuxarıda da dəfələrlə qeyd etdiyimiz kimi, türkçülük bütün türk ölkələrində, o cümlədən Azərbaycan və Türkiyədə eyni zamanda yaranmış və inkişaf etmişdir. Hətta, yeni dövr tədqiqatçılarından Yaşar Qarayev, Aydın Balayev, Rasim Mirzə və başqaları qeyd edirlər ki, türkçülük şüuru öncə çar Rusiyasının türk xalqları arasında yaranmış, siyasi türkçülüyün əsasların isə "Həyat" və "Füyuzat"da Azərbaycan türklərindən Ə.Hüseynzadə işləyib hazırlamışdır [127, 363-364; 51, 17-18; 158, 33]. Y.Qarayev yazır: "Azərbaycanda milli bir ideologiya səviyyəsində türkçülüyün ilk dəfə hərəkətə gəldiyi qatarın sükanı arxasında hamıdan əvvəl Əli bəyi görürük" [127, 276]. Türkiyə tədqiqatçılarından M.Ertuğrul Düzdağ da hesab edir ki, Osmanlı dönəmində türkçülük cərəyanının yaranmasında "çar Rusiyası idarəsindəki Türk diyarlarından gəlmiş fikir və hərəkat adamlarının təsiri olmuşdu" [237, 18].

1910-cu illərdə Türkiyədə mövcud olan milli cərəyanların kökünün eyni zamanda, çar Rusiyası, o cümlədən Azərbaycanla bağlı olmasını vaxtilə M.Ə.Rəsulzadə, Z.Gökalp, Y.Akçuraoğlu, M.B.Məmmədzadə, Ə.Cəfəroğlu və başqaları da dəfələrlə qeyd etmişlər. Məsələn, Y.Akçuraoğluna görə, Ə.Hüseynzadə müsəlman türkləri arasında ilk turançı, ilk panturançı hesab olunurdu [22, 174, 205]. Eyni müddəanı Ə.Cəfəroğlu da irəli sürərək yazırdı ki, Hüseynzadə türkləşmək, avropalaşmaq və islamlaşmaq üçlü məramı ilə milli istiqlalın fikri mücadiləsinin "Ana Yasası"nı meydana qoymuşdur [87[a], XIII]. M.Ə.Rəsulzadə isə bu məsələni bir qədər də

dəqiqləşdirərək yazırdı: ““Füyuzat” jurnalı “Türk Yurdu”nda olduğu kimi aydın, ardıcıllıqla olmasa da türkçülük konusunu daha öncə işə salmış, hətta mərhum Ziya bəyin son çağlarda “Türk millətindənəm, islam ümmətindənəm, qərb mədəniyyətindənəm” çağırışı ilə göstərdiyi anlamı Əli bəy Hüseynzadə Türk qanlı, islam imanlı və firəng geyimli olaq” formulu ilə açıqlamışdı. Azərbaycan mətbuatının, eləcə sonrakı ədəbiyyatının şüurlu metodik bir biçimdə milli türk ideologiyasını işə salmaq düşüncəsi isə I Dünya savaşı öncəsində, illərində daha çox gəlişmişdir” [189, 48]. Onun fikrincə, beləliklə, balkan və dünya müharibələri dövrü türk milli ideyasının inkişafında dönüş nöqtəsi olmuşdu [179, 49].

M.B.Məmmədzadə də qeyd edir ki, Azərbaycan milli hərəkatının kamilləşməsində, Azərbaycan ictimaiyyətinin şüurlanmasında “Füyuzat” jurnalı və onun əsas yazarı Ə.Hüseynzadə müstəsna rol oynamışdı [154, 47]. Belə ki, mədəni millətçiliyin sonrakı forması Hüseynzadə tərəfindən “türkləşmək, islamlaşmaq və avropalaşmaq” kimi bir prinsip halına gətirilmiş, daha sonra “Müsavat”ın başlıca şüarı və milli Azərbaycan bayrağının əsasını təşkil etmişdir: “Beləliklə, türk milli hərəkatı gərək geniş mənası ilə, gərəksə də Azərbaycan ölçüsündə XX əsrin əvvəllərinə doğru şəkillənməyə başlamışdır. XX əsrin əvvəlləri türklüyün milliyyət dövründən millət dövrünə keçdiyi bir dövrdür” [154, 22].

Göründüyü kimi, 1910-1920-ci illərin özünəməxsus xüsusiyyətlərdən biri, bəlkə də birincisi milli sosial-demokratların, milli liberalların, milli islamçıların və başqa milli ziyalıların öncə “türkçülük”, daha sonra onun konkret ifadəsi olan “Azərbaycan milli-türk ideyası” ətrafında toplanmaları, ən azı bu ideyaya rəğbət bəsləmələri olmuşdu. Bu dövrdə siyasi-ideoloji mübarizə isə əsasən, milli-demokratik cərəyanla (Azərbaycan türkçülüyü tərəfdarları ilə) mühafizəkar

“ittihadçılıq” və marksizm (bolşevizm, menşevizm və b.) təlimləri arasında getmişdi.

Bu dövrdə Azərbaycan milli ideyasının yaranmasında M.Ə.Rəsulzadə, N.Yusifbəyli, M.Hadi, Y.V.Çəmənzəminli, A.K.Kazımzadə, Ü.Hacıbəyli və başqaları mühüm rol oynamışlar. Ən önəmlisi odur ki, onlar özlərindən əvvəlki islamçılar, türkçülər və milli liberallardan fərqli olaraq, daha konkret və milli xətt seçərək Azərbaycan türkçülüyünü və istiqlalçılığını hədəfləmişdilər.

Milli İstiqlal ideyasının formalaşması iki istiqamətdə: 1) romantik ədəbiyyatda; 2) siyasi-ideoloji ədəbiyyatda öz əksini tapmışdır.

Bizcə, ilk dövrlərdə Azərbaycanın milli istiqlalı ideyası **romantik ədəbiyyatda -** Azərbaycan romantizmində öz əksini tapmışdır. Bu mənada, Məhəmməd Hadi ilk dəfə şeirdə Azərbaycan türk millətinin istiqlalından bəhs etmişdir: “Həqiqi arzumuz intizami-hali-millətdir, Məsaimiz bütün məsrufi-istikmali-millətdir, Əsasi-fikrimiz təmini-istiqbali-millətdir, Ürəkdə bəslənən amalımız iqbali-millətdir, Yeganə nöqteyi-mətlub istiqlali-millətdir” [97, 29]. Bununla da, o, Azərbaycan türklərinin istiqlalı ideyasını irəli sürmüş və bunu əldə etməyin gərəkli olmasını bildirmişdi [52, 167]. Çünki Hadi bir tərəfdən dünya millətlərini göz önünə gətirərək “yox millətimin xətti bu imzalar içində” [97,130] yazmış, başqa tərəfdən isə gələcəkdə millətinin xəttinin bu imzalar arasında olacağına ümid etmişdi. Milli istiqlal gerçəkləşəndə isə, “Türkün nəğməsi” şeirində o yazırdı ki, türkün tökülən qanları, məfkurə yolunda gördüyü işlər hədər getməmişdir [53, 105]. Hadi birmənalı şəkildə Azərbaycan Cümhuriyyətini Türk dövləti adlandırmışdı: “Ey Türk dövləti, və ya bəxti-növcavan” [175[a], 164].

Romantik ədəbiyyatın başqa bir nümayəndəsi **Abbas Səhhət də** hesab edirdi ki, İslam dini və Türklük Milli ideyanın əsas təməlləridir. Bu baxımdan türklüyü və islamlığı vəhdətdə götürən

Səhhət müsəlmanları-türkləri oyanmağa və birləşməyə çağırırdı: "Millət, ey banisi-həyati-vətən! Oyan, ey milləti-əziz, oyan! Sənə vabəstədir nicati-vətən" [199, 41]. Səhhətin fikrincə millətin oyanışında Avropa dəyərlərini inkar etmək də [28, 327], onu ideallaşdırmaq da doğru deyildir. Çünki avropalıları təqlidən bütün varlığımızı, dini imanımızı və milli hürriyyətimizi məhv edə bilərik. Qərbpərəstlərin evlərində yüz cildlərlə Avropa ədiblərinin əsərləri olduğu halda, bir vərəq türkcə yoxdur deyən A.Səhhət qeyd edirdi ki, "ruspərəstlər" yalnış-doğru rusca danışır, türk yox, rus qəzetləri alırlar: "Biz bununla mədəniləşmirik, fəqət, avropalılara bir nəfər də avropalı qazandırırq, "biz" isə yox oluruq! Canım! Bu qədər laqeydlik olarmı? Kim ki, iki kəlmə "net" ilə "yes"i bildi, dırnaqlarını uzadıb, başına altı şahılıq şapka keçirdib daha islamiyyəti, milliyyəti tanımır. Əsla türkcə danışmağa, oxumağa rəğbət etmir" [150, 246-247].

Fikrimizcə, Səhətin bu fikirləri günümüzdə nəinki aktuallığını itirmiş, əksinə bəlkə də ondan da kəskin şəkildə qarşımızda dayanmaqdadır. Əgər dünənə qədər uşaqların ruhunu daha çox "rus dili", "rus mədəniyyəti"nin öyrənilməsinin vacibliyi anlamında zəhərləyirdiksə, bu gün buna "ingilis dili", ingilis mədəniyyəti" və başqaları da əlavə olunmuşdur. Şübhəsiz, o dövrdə olduğu kimi, indi də bu amillər milli şüurun formalaşması prosesinə ciddi əngəllərdən biri olaraq qalmaqdadır.

Romantik ədəbiyyatda Milli İstiqlalın aparıcı nümayəndəsi **Hüseyn Cavid** üçün Çingiz xan, Əmir Teymur və başqa türk hökmdarları türk tarixinin ən şanlı qəhrəmanlarıdır. Onun fikrincə avropalılar İskəndərləri, Napoleonları və başqa həmyerlilərini böyük sərkərdə adlandırıb heykəllər ucaltdıqları halda, türklərin öz qəhrəmanlarına qan içən, zalım, canavar kimi isimlər verib ləkələmələri haqsızlıqdır [60, 70]. Eyni zamanda, o, türklərin həmişə törələrinə sahib çıxmalarını və milli şərəflərini uca tutmalarını, xüsusilə qeyd etmişdir: "Bir zamanlar şərəfli Turanın, O cihani ğəyuri qavğanın, Qəhrəman, bərguzidə evladı, Türklərin

adlı-şanlı əcdadı, Saldırıb titrədirdi yer yüzünü, Hökm edər, dinlətirdi hər sözünü" [59, 52]. Vaxtilə türklərin mərhəməti sayəsində canını qurtaran millətlərin indi türkə qənim kəsilməsini tarixin acı istehzası adlandıran Cavidin fikrincə, artıq türklər zamanın dəyişməsini görməli, oyanmalı, özünü tanımalı və yüksəlməlidir [59, 54]. "Qoca bir türkün vəsiyyəti" şeirində də Cavid qeyd edirdi ki, ilk vəzifəmiz Türk millətinin şanlı tarixini, mədəniyyətini və mənəviyyatını öyrənmək olmalıdır. Yəni ilk növbədə, milli mənsubiyyətimizi tanımalı və türk olmağımızla fəxr etməliyik: "Bir millətin tarixidir kökü, yurdu, yuvası, Tarixiniz baş ucundan hərgiz əksik olmasın. "Altay" dağı, "Makan" çölü, "Yasın" ovası, Birər aydın səhifədir, hər türk gərək anlasın" [59, 128]. Bu baxımdan Cavidin fikrincə, artıq yatmaq vaxtı deyil, bütün qonşu millətlər kimi 20-ci əsrə üzüağ çıxmaq lazımdır. Bunun üçün isə, türkün keçmiş şanlı və şərəfli tarixini öyrənib fəxr etməklə iş bitməz, türkün şərəfini və şanını 20-ci əsrdə də qorumaq və yaşatmaq lazımdır. Milli duyğuların təsiri altında H.Cavid yazırdı ki, millətin milli azadlığı, onun birliyində, oyanışında, bütövlüyündə və mübarizliyindədir. Millət öz haqqını almalı və geri verməməlidir [60, 255]. Azərbaycan fəlsəfəsi tarixi tədqiqatçısı M.Ağayevin fikrincə, H.Cavid bu çağrışları edərkən moizə və nəsihət yolunu tutmur, öz sözünü qəti və birbaşa söyləyir [14, 56].

Bu dövrdə romantik ədəbiyyatda milli istiqlalın tərənnümçüləri arasında **Abdulla Şaiq, Əhməd Cavad, Cəfər Cabbarlı və başqaları da mühüm rol oynamışlar.** "Arazdan Turana" şeirində turançılıq məfkurəsini ifadə edən A.Şaiqin fikrincə, Turan ellərinin arasına xainlər soxulmuş və onlar bu eli parçalamaq istəyirmişlər. Yüz milyonluq türk övladları xainlərə qarşı birləşməli və bütün Turanı xainlərədn azad etməlidirlər [205, 61]. O, "Marş" şeirində də turançılıq məfkurəsindən çıxış edərək yazırdı ki, türklər Turan yolunda birləşməli, ünlə, zəfərlə, şanla tarixini doldurmalı və düşmənlərinə yerini göstərməlidirlər: "Dalğalanır üstümdə şanlı

Turan bayrağı, Alovlanır qəlbimdə "Ərgənəkon" ocağı. Haydı, yola çıxalım, haqsızlığı yıxalım, Turanda gün doğunca zülmətlə çarpışalım!" [205, 52]. **Əhməd Cavad** isə şeirlərində həm turançılığı, həm də onun müstəqil bir qolu olan Azərbaycan türkçülyünü təbliğ etmişdi. Fikrimizcə, onun turançılığı "Çırpınırdın Qara dəniz" şeirində daha aydın şəkildə ifadə olunmuşdu [58, 140]. Cümhuriyət dövründə isə Ə.Cavad ümumi türkçülüklə, türk birliyi (turançılıqla) ilə yanaşı, konkret Azərbaycan türkçlüyünü də təbliğ etmişdir. O, "Azərbaycan bayrağına" şeirində Türküstandan, Turandan, üç boyalı türk bayrağından, türklərin soykökündən, türk ellərinin birliyindən söz açmışdır: "Qayi xan soyundan aldığın rəngi, Qocalmış Elxanla müsəlman bəgi. Elxanın övladı, dinin dirəgi, Gətirdin könlümə səfa, bayrağım!" [58, 127]. Milli istiqlala və türkçülüyə bağlı olan **Cəfər Cabbarlı** "Azərbaycan bayrağına" adlı şeirində üç boyalı-üç mənalı Azərbaycan türk bayrağının fəlsəfi-ideoloji izahını belə vermişdir: "Bu göy boya Göy Moğoldan qalmış bir türk nişanı, Bir türk oğlu olmalı! Yaşıl boya islamlığın sarsılmyan imanı, Ürəklərə dolmalı! Şu al boya azadlığın, təcəddüdün fərmanı, Mədəniyyət bulmalı. Səkkiz uclu şu yulduz da səkkiz hərli OD YURDU!" [55, 63]. Eyni zamanda Cabbarlı Azərbaycan türkçülüyünün Turanın bir hissəsi olmasını da heç vaxt yaddan çıxarmır: "Yürəyində bir dilək var, o da doğru kəsilsin, O gün olsun bir göy bayraq Turan üstə açılsın" [55, 63-64].

Siyasi-ideoloji ədəbiyyatda Milli İstiqlal ideyasının formalaşmasında Üzeyir Hacıbəyli, Ömər Faiq Nemanzadə, Əlabas Müznib və başqaları mühüm rol oynamışlar. Məsələn, Üzeyir Hacıbəylinin fikrincə, Qafqaz müsəlmanlarının etnik mənşələri türk, dilləri türk dili olduğu halda, özlərini və dillərini "müsəlman" kimi qələmə vermələri doğru deyildir. Çünki "müsəlman" adında nə millət, nə də dil var; müsəlman İslam dinini qəbul etmiş bir adam deməkdir [30, 567]. Beləliklə, ərəb və fars təəssübündə olmayan Azərbaycan türklərinin etnik mənşəcə

türklüklərində qaldıqlarını bildirən Hacıbəylinin sözlərinə görə, Azərbaycan türkləri ilk növbədə türk dilini qorumalı, onun tərəqqisinə və islahına çalışmalıdırlar: "...bir millətin də ki dili batdı, onda o millət özü də batar, çünki bir millətin varlığına, isbati vücud etməsinə səbəb onun dilidir" [30, 568]. Ü.Hacıbəylinin ana dili məsələsi ilə bağlı mülahizələri isə nə Osmanlı Türkiyəsinə, nə də Osmanlı türkcəsini müdafiə edən Ə.Hüseynzadə və başaqlarına qarşı yönəlmişdir. Sadəcə, Ü.Hacıbyəli bu məsələ ilə bağlı hesab edirdi ki, bəzilərinin ana dilini inkişaf etdirmək əvəzinə, osmanlı şivəsini bəyənməyib onlarla mübahisə açması doğru deyildir: "Biz türk dili üzrə böyük bir padşahlıq təsis etmiş olan osmanlılardan, fars və rus tərcümələri altında bilkülliyyə xarab olub türklük ruhunu itirmiş olan dilimizi təzədən öyrənmək əvəzinə hələ osmanlıları bəyənməyib sırf cahil olduğumuz bu məsələ üstə onlar ilə mübahisəyə də cəsarət edirik" [93, 209].

Beləliklə, Rusiya müsəlmanları arasında ayrıca milli kimliyə və milli dilə sahib Azərbaycan türklərinin müstəqil millət olduğunu müdafiə edən Ü.Hacıybəli, bu mənada Qafqaz türklərinin milli bir ictimai təşkilatın yaranmasını zəruriliyindən də bəhs etmişdi. Üzeyir bəy hesab edirdi ki, artıq millət yolunda ümumi və təkrarçı sözlərdən işə keçməyin vaxtıdır [93, 73-74]. Hacıbəyliyə görə, Rusiya millətləri arasında sayına görə ikinci olan türklər arasında milli birliyin olmaması doğru deyildir. Onun fikrincə, türklər arasında milli birliyin olmamasının nəticəsidir ki, Dövlət Dumasında Rusiya türklərini, o cümlədən Azərbaycan türklərini siyasi sima kimi tanımırlar. O, bundan çıxış yolu kimi, Rusiya türklərinin bir millət kimi meydana çıxmasının vaxtının çatdığını yazırdı: "Hal-hazırda əsil bunun vaxtıdır ki, biz öz-özümüzə məhəl qoyaq, millətimizin qədrini bilək, müsəlman millətinin içini və çölünü o cürə düzəldək ki, biz də bir millət olub millətlər arasına girməyə laiyq olaq" [93, 85-86]. Azərbaycan türkçülüyü ideyasının nəticəsi olaraq milli

istiqlalın əldə edilməsini təbii qarşılayan Hacıbəyli "Bir yaş" məqaləsində yazırdı ki, Azərbaycan Türk dövlətinin istiqlalı "Türk irqində sağlam bir milliyyət hissi oyatdı, millət nə olduğunu milliyyətini unutmuş türklərə bildirdi: Onlara – sən əvvəl-əvvəl bir türksən dedi və "türkəm" dedirtdi" [91]. Ü.Hacıbəylidə olan bu milli ruhu inkar edə bilməyən sovet müəllifləri SSRİ dövründə yazırdılar ki, 1920-ci ilin aprel işğalına qədər Ü.Hacıbəyli marksizmə yiyələnə bilməmiş, "bəzi digər demokratik ziyalılar kimi, müsavatçıların "milli istiqlaliyyət" pərdəsi altında apardıqları hiyləgər millətçilik siyasətinin həqiqi mənasını düzgün başa düşməmişdi. Müsavatçıların hakimiyyəti illərində o, dərin mənəvi böhran keçirir, millətçilik təsiri altında ciddi ideya-siyasi səhvlərə yol verirdi" [120, 7]. Sovet müəlliflərinin Ü.Hacıbəylidə "ciddi ideya-siyasi səhvlər" kimi qələmə aldığı məsələlər, əslində onun vətəninə, millətinə, dininə və istiqlalçılığa bağlılığı idi.

Azərbaycan türkçülüyünün formalaşmasında müəyyən rol oynayan **Ömər Faiq Nemanzadə** "Mən kiməm?!" (1917) məqaləsində günümüz üçün də aktual olan bir çox maraqlı məsələlərə toxunmuşdur. O yazırdı ki, hər kəs öz millətini tanıyıb onun uğrunda mübarizə apardığı bir zamanda biz öz millətimizi sevmək belə deyil, onun quru adını da bilməyib ortada çaşıb qalmışıq: "Kim olursa olsun, insan bir nəfər, bir millət və ya fikri-əməl uğrunda vaxt can yandırır ki, ona o zaman aşiq olur ki, onu yaxından tanıyıb ürəkdən sevsin, yoxsa quru və yalançı göstərişlərlə arada məhəbbət, eşq deyil, bayağı dostluq belə olmaz. Mən iddia etmək deyil, uca səslə bağırıram ki, biz özümüzü tanımırız, biz öz millətimizin boş adını belə bilməyiriz" [165, 233-234].

Hələ, Ömər Faiqdən öncə Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ü.Hacıbəyli, M.Ə.Rəsulzadə və başqa aydınlarımız bu məsələyə toxunaraq türklərin milli kimliklərini dini kimliklə eyniləşdir-diklərini, bunun yanlış olduğunu dəfələrlə yazmışdılar. Ancaq çar

Rusiyasının Azərbaycanı işğal altında tutduğu bir əsrə yaxın müddətdə apardığı antitürk siyasətinin nəticəsi olmalı idi ki, millətin özünüdərki prosesi kifayət qədər ağrılı keçirdi. Milli şüuru çar Rusiyasının ideoloqları tərəfindən zədələnən Azərbaycan türklərinin əksəriyyəti özlərini "müsəlman" olaraq qəbul edirdilər. Ancaq bununla kifayətlənməyib milli kimliklərini "persiyan", "sünni", "şiə", "tatar" kimi göstərənlər də tapılırdı. Ö.Faiq doğru yazırdı ki, halbuki Təbrizin şiəsi, Osmanlının sünnisi, Qafqazın müsəlmanı hamısı türk oğlu türkdürlər. Ancaq Qafqaz türkü İran türkünə "ac tat", Tiflis türkü isə "persiyan" gözü ilə baxır. Nəticədə də İran türkləri uşaqlarını fars məktəbində oxudub özlərinə "şiə-fars" rəngi verirlər [165, 235-236]. Mütəfəkkirə görə, türklər İslam qeyrətini o qədər çəkmişlər ki, artıq bu qeyrətlə öz varlığını və adını da itirmişlər: "Hə, ey türk! İstər darıx, istər qarıx, yaxandan əl çəkəcək deyiləm. Sən hər şeyi öyrənmək istədiyin halda niyə bircə zadı – yəni özünü bilmək istəmirsən, niyə öz varlığından, öz vücudundan, öz soy və nəslindən xəbərin yox? Niyə sənə "Kimsən?" dedikləri vaxt həqiqi cavabında aciz qalırsan? Niyə sadəcə deyə bilmirsən ki, mən türkəm? Niyə deyə bilmirsən ki, şiəlikdən, sünnilikdən, babılıqdan əvvəl sən türk idin. İndi də türksən və bundan sonra türk qalacaqsan" [165, 238].

Çünki türklük nə dinlə, nə də dinsizliklə bağlı deyildir. Bu, bir milli kimlik, öz soyunu və kökünü tanımaqdır. Türklər isə, hələ İslamdan öncə həm milli kimlkilərini - türklüklərini, həm də dini kimliklərini - Tanrıçılığı yaxşı anlamışlar. Bu mənada, türklər dünyanın köklü və inanclı millətlərindən biridir. Ancaq ötən min illiklər ərzində başqa millətlərə yurdumuzda və ürəyimizdə yer verərək türklüyümüzdən uzaqlaşdığımız zamanlar da az olmamışdır. Nemanzadənin təbrincə desək: "Ey özünü itirir, unudur dərəcədə müsafirpərvərlik, özgələrə hörmət göstərən türk, yaxşı yadına sal ki, sənin ruhun, sənin qanın, sənin düşüncən, sənin varlığın hənuz sənin özündə ikən sən bugünkü kimi dilsiz, yazısız yəni milli nişanəsiz deyildin. Ey sadə ürəkli türk, dünən, bu gün öz

varlığını, öz mədəniyyətini göstər bilib, indi sənə "köhnə barbar" gözü ilə baxıb bugünkü mədəniyyətlərin haqsızlıqlarına görə incimə" [165, 239].

100 il bundan əvvəl digər Azərbaycan mütəfəkkirləri kimi, Nemanzadə də türkləri ayılmağa, tərpənməyə və milli qüruru uğrunda mübarizəyə səsləyirdi: "Ey Türk, zamanımız özgə zamandır. Əgər bundan sonra özümüzü tanımayıb qalsaq, qorxuram ki, gec ayıldığımız vaxt sağalıb yigitcə yaşamaya vücudumuzda qüvvət və taqət qalmamış ola. Ey türk, keçmişlərdən ibrət al, hələ vücudun sağlam ikən, yaşamağa istedadın var ikən, fürsət əldə ikən əsil vücudunu tanı, qədrini anla. Ey türk, yaxşı bil ki, bugünkü məhşərin suri-israfili elmə, milli ittihada dəvət ediyor" [165, 239-240]. Onun fikrincə, indinin siyasi fəlsəfəsi tərəqqiyi millətçilikdə görür. Bu mənada, Nemanzadə açıq şəkildə yazırdı ki, insanda dini əqidədən sonra ikinci yeri millətəpərvərlik tutur. Çünki millətpərvərlik ictimai fəlsəfənin baş, özünü tanımaq fəlsəfəsi millətini bilmək elmidir.

Göründüyü kimi, sovet dövründə "mollanəsrəddinçi", hətta marksist-leninçi kimi qələmə verilən Ö.F.Nemanzadə heç vaxt milli-dini dəyərlərdən kənara çıxmamış, hətta 1918-1920-ci illərdə Azərbaycan Cümhuriyyətinin varlığını müdafiə etmişdi. Bu dövrdə qələmə aldığı "Milliləşmək" və digər məqalələrində Azərbaycan türklərinin dövlətinə, dilinə, mədəniyyətinə sahib çıxmasının vacibliyindən söz açan Nemanzadə hesab edirdi ki, ilk növbədə milli dilin-türk dilinin qorunub-saxlanması lazımdır: "Tarix bizə göstərir ki, bir millətin cahangirliyi, hökuməti hətta yeri-yurdu da əlindən alınsın, madam ki, milli ədəbiyyatı var, o millət məhv edilməz. Dili kəsilməyən millətin vücudu kəsilməz, ədəbiyyatı yaşayan millət heç vaxt ölməz" [165, 246]. Nemanzadə hesab edir ki, Qərbdə fransız dili hansı əhəmiyyətə malikdirsə, türk dili də Yaxın Şərqdə bir o qədər böyük əhəmiyyət daşıyır: "Türk dilinin Yaxın Şərqdəki hakimiyyətinə şahidlər axtarmaq lazım deyil,

onunla danışan 60-70 milyonluq böyük bir kütlənin şahidliyindən daha möhkəm nə ola bilər?" [165, 247].

Azərbaycan türkçülüyü ideyasını müdafiə edən **Yusif Vəzir Çəmənzəminli** ilk növbədə, diqqətini Azərbaycan türklərinin millət kimi özünü dərk etməsi, müstəqil ədəbi dilinin formalaşması və milli istiqlal məsələsinə diqqəti yönəltmişdir. Milli özünüdərklə bağlı Çəmənzəminli yazırdı ki, türklərin təbiətində heç vaxt kölələlik, yazıqlıq, qorxaqlıq kimi mənfi cəhətlər olmayıb. Türklük həmişə dağ kimi qüvvətli və qaya kimi möhkəm, fikirləri gün kimi parlaq, niyyətləri ulduzlar kimi yüksək olmuşdur [30, 652]. Bununla yanaşı, Çəmənzəminli etiraf edirdi ki, Azərbaycan türkləri başqa türk tayfaları, yəni türkmənlər, qırğızlar və s. ilə müqayisədə yad millətlərdən (fars və b.) daha çox özlərini qorumaq məcburiyyətində qaldıqları üçün müəyyən qədər dilini, etnik mənşəyini unutmaq təhlükəsi ilə qarşılaşıblar. Onun fikrincə, bundan qurtulmaq üçün: 1) dilimiz saflaşmalı; 2) ədəbi dil el ədəbiyyatından götürülməli; 3) musiqimiz türkləşməli; 4) qadınlara hüquqlar verilməli; 5) türk məktəblərinin sayı artırılmalı; 6) fars ədəbiyyatı türkcəyə çevirilməli; 7) milli dahilər təbliğ edilməli; 8) Azərbaycan türk tarixi yazılmalıdır [30, 641-642].

Dil məsələsinə gəldikdə, o bildirirdi ki, Azərbaycanda dövlət dili türk dili olmalıdır. Çünki Azərbaycan əhalisinin çoxu türkdür [67, 229]. Bu baxımdan dil məsələsində osmanlı türk ləhcəsinin bütün türklərin ortaq dili olmasına qarşı çıxan Çəmənzəminli Azərbaycan türkcəsinə üstünlük verməsini isə, belə əsaslandırırdı: "Dilin kökü camaatımızın yaratdığı el ədəbiyyatındadır, gərək onlar toplansın, öyrənilsin, əzbərlənsin. Dil axtaran gərək camaatımızın arasında gəzsin, dolaşsın, öyrənsin" [30, 643]. Onun fikrincə, böyük bir ərazidə yaşayan, dili bütün yad tayfalar üçün belə ortaq dilə çevrilən, eyni zamanda ədəbiyyatı, musiqisi, operası, teatrı olan bir camaat "millət" adını daşımağa haqlıdır [30, 654].

Bizcə, həmin dövrdə Ələbas Müznibin "Dirilik" (1914-1916) adlı jurnalı nəşr etməkdə də başlıca məqsədi azərbaycanlılara türklüklərini və islamlıqlarını elmi-fəlsəfi şəkildə tanıtmaq istəyi olmuşdur. O, həmin jurnalın ilk sayında çıxan məqalələrində də bildirir ki, islamçılıq və türkçülük bir-birlərini tamamlasalar da, dini mənsubiyyətlə etnik mənsubiyyət eyni anlamı daşımır. Çünki İslam dininə tapınan ərəb, fars, türk və başqa millətlər var. Bu baxımdan milləti din adı ilə adlandırmağı böyük xəta, nöqsan hesab edən Müznib yazırdı ki, dini və milləti bir-birindən fərqləndirmək məqsədilə "Türk tarixi" kitabını qələmə almışdır.

Ə.Müznib hesab edirdi ki, hələ, 1900-cu illərdə Azərbaycan türk mütəfəkkirlərindən Ə.Hüseynzadə, Ə.Ağaoğlu və başqaları Qafqazdakı Türk balalarına türklüyünü bildirmiş, "həsbi-nəsəbini öyrəmiş", "abavü əcdadını" tanıtmışdı: "Lakin onların getməsi Qafqaz əhalisini başsız, böyüksüz buraxmış kimidir. Çünki o cənablar dilsizlərin dili, karların qulağı, korların gözü idilər. Müxtəsər, bir bölük maarif yetimi olan Qafqaz müsəlmanlarının ataları idi" [162, 111]. Ə.Hüseynzadə, Ə.Ağaoğlunun Azərbaycanda olmadığı bir dövrdə onların yolunu davam etdirən Ə.Müznib də Azərbaycan türkçülüyü ideyasını müdafiə edən M.Ə.Rəsulzadə, Ü.Hacıbəyli, N.Yusifbəyli, Ə.M.Topçubaşı və başqaları kimi, bir millətin varlığının milli dilinin və milli adətlərinin qorunub saxlanılmasından asılı olduğunu hesab etmişdir [162, 31].

XX əsrdə yaranmış Azərbaycan türkçülüyü ideyasının formalaşmasında mühüm rol oynamış mütəfəkkirlərimizdən biri də **Firidun bəy Köçərlidir (1863-1920).** F.B.Köçərli də digər çağdaşları Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, Ə.Ağaoğlu və başqaları kimi, bütün türklərin, o cümlədən Azərbaycan türklərinin oyanışı, inkişafı və birliyi yolu kimi milli (türkçülük)-dini (islamçılıq) birliyi görmüş, eyni zamanda demokratik (yeniləşmə və mədəniləşmə) ideyalarla çıxış etmişdir. F.B.Köçərlinin milli və müstəqil Azərbaycan, Azərbaycan türkçülüyü ideyası ilə bağlı əsas

xidməti, ilk növbədə Azərbaycan türk ədəbiyyatının, türk ədəbi dilinin formalaşmasına və İslamın əsil mahiyyətinin dərk olunmasına sərf etdiyi danılmaz əməkdir.

İlk öncə qeyd edək ki, 1900-cu illərdə Azərbaycan tarixində ilk dəfə, 1900-cu illərdə F.B.Köçərlinin müəllifliyi ilə rus və türk dilində "Azərbaycan türklərinin ədəbiyyatı" kitabı nəşr olunmuşdu. Köçərlinin fikrincə, milli ədəbiyyat ona görə lazımdır ki, başqa millətlər kimi Azərbaycan türkləri də öz milli ədibləri və şairlərini tanısın və onlarla fəxr etsinlər: "Aya, biz Azərbaycan türklərinin seretelliləri və çavçavadzeləri olmayıbdırmı? Bizim milli şairlərimiz ərseyi-dünyaya gəlməyibdirmi? Aya, bizlər belə möhtərəm şəxslərin vücudundan məhrummu qalmışıq? Bu suallara cavab verib deyə bilərik ki, bizim də çox böyük, müqtədir və xoştəb milli şairlərimiz olubdur və lakin mütəəssüf onların qədir və qiyməti nə öz vaxtlarında və nə bu halda bilinməyibdir" [30, 92]. Beləliklə, F.B.Köçərli hesab edirdi ki, bir millətin ədəbiyyatı onun məişətinin aynası deməkdir, yəni millətin dolanacağı, inkişafı, tərəqqisi, kamalı və s. onunla ölçülür [30, 70]. Başqa sözlə, şairlər ədəbiyyatda vətənə məhəbbət, millətə xidmət, dostluğa sədaqət kimi müqəddəs hisslərə yer versə daha yaxşı olar [30, 73].

Milli dil məsələsinə gəlincə, Köçərli yazırdı ki, bununla bağlı üç xətt var: "Kimi İstanbulda işlənən ədəbi dili tərif edib, onu sair yerlərdə işlənən türk dillərinə tərcih verir, kimi Azərbaycan türklərinin şiveyi-lisanını bəyənib, onun tərəfini saxlayır. Bir paraları da İbn-Yasəf kimi türklər üçün ümumi bir dil təsis etmək fikrindədirlər ki, hər yerdə o dildə danışılıb yazılsın" [30, 124]. Bu üç xətt arasında Azərbaycan Türk dilini müdafiə edən Köçərlinin fikrincə, Azərbaycan türkləri osmanlı şivəsini o baxımdan qəbul edə bilməz ki, İstanbul ədibləri öz dillərini unudub fars və ərəb terminləri ilə doldurublar. Doğrudur, Köçərli etiraf edirdi ki, Azərbaycan türkləri də uzun müddət farslarla bir yerdə yaşamağa məcbur olduğu üçün, bir növ onların dilinin təsirinə məruz qalıbdır: "Amma bunula belə, dilimizi o qədər qəliz və dolaşıq etməyibdir

ki, onu anlamaq olmasın" [30, 125]. Bununla da Köçərli C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, A.Şaiq və başqaları kimi hesab edirdi ki, İstanbul şivəsini Azərbaycanda tətbiq etmək istəyən Ə.Hüseynzadə, M.Hadi və başqalarının tutduğu yol səhvdir.

Fikrimizcə, bu mərhələdə Azərbaycan türkçülüyü ideyasının yaranmasında və formalaşmasında ən mühüm xidmətlər isə Məhəmməd Əmin Rəsulzadə və Nəsib bəy Yusifbəyliyə məxsusdur. Bu iki böyük idealist, millətpərvər və demokrat milli və müstəqil Azərbaycan ideyasının müəlliflərindir. Doğrudur, bu məsələ ilə həm nəzəri, həm də təcrübi baxımdan M.Ə.Rəsulzadə daha çox uğraşmış, daha böyük mənəvi-ideoloji və siyasi-fəlsəfi irs qoyub getmişdir. Xüsusilə, Rəsulzadənin mənəvi-ideoloji irsi ilə müqayisədə N.Yusifbəylinin bu sahədə zəngin bir irsindən danışmaq mümkün deyildir.

Bütün bunlara baxmayaraq, **Nəsib bəy Yusifbəyli**nin milli və müstəqil Azərbaycan ideyasının müəlliflərindən biri olması da danılmazdır. Öncə qeyd edək ki, Nəsib bəy də M.Ə.Rəsulzadə, Ü.Hacıbəyli və başqa bir çox tanınmış ziyalılarımız kimi, ilk dövrlərdə sosial-demokratlara meyil göstərmişdir. Ancaq çox keçmir ki, N.Yusifbəyli sosial-demokrat təlimindən uzaqlaşaraq türkçülük, daha sonra onun bir qolu olan Azərbaycan türkçülüyü uğrunda mübarizə aparır. Nəsib bəy də türkçülük ideyasının yaranmasında və formalaşmasında ilk olaraq, böyük türkçülərdən İsmayıl bəy Qaspıralının mühüm rolu olmuşdu [134, 7-8]. Eyni zamanda Yusifbəylidə türkçülük məfkurəsinin yaranmasında 1908-1909-cu illərdə Türkiyədə yaşaması və burada "Türk dərnəyi" üzvləri ilə birgə apardığı mübarizə də mühüm rol oynamışdır.

1910-cu illərdən etibarən əsasən, Azərbaycanda (Gəncədə) yaşayan N.Yusifbəyli etnik-milli türkçülüyün əsas dava adamlarından biri olmuşdu. Məhz bunun nəticəsidir ki, 1917-ci ilin martında yaranan "Türk ədəmi-mərkəziyyət" partiyasının lideri kimi N.Yusifbəyli Rusiyanı federativ şəkildə görmüş, bu federasiya çərçivəsində isə Azərbaycanın muxtariyyətini tələb etmişdir [134,

179]. Bu faktordan çıxış edərək M.Ə.Rəsulzadə mühacirət dövründə yazırdı ki, N.Yusifbəylinin Azərbaycan istiqlalı hərəkatındakı rolu yalnız maarif naziri və baş nazir olmaqla kifayətlənməmişdir: "Onun hərəkatdakı həqiqi rolu sonra tutduğu bu rəsmi mövqelərdən çox əvvəl başlamışdır. Bu rol onun Gəncədə 1917-də "Türk ədəmi mərkəziyyət xalq firqəsi" namıyla təsis edilən siyasi Azərbaycan firqəsinin təşkilinə təşəbbüs etməsiylə başlayır. Azərbaycan ideyasını siyasi bir tələb maddəsi şəklində formulə etmək şərəfi mərhum Nəsib bəyindir" [134, 174]. M.Ə.Rəsulzadə daha sonra qeyd edir ki, əslində Azərbaycan milli ideyası onların tanışlığının ilk illərindən (1914-1915-ci illər) hər ikisində yaranmışdı: "Bu dostluğu bu qədər mətin bağlarla bir görüşmədə bağlayan şey, şübhəsiz, müştərək bir qayə, müştərək bir ruh daşıdığımızı mütəqabilən kəşf edişimiz idi. Bu ruhi-müştərək Gəncədə Nəsib bəyə siyasi bir firqə maddəsinin yazılmasını təlqin etdiyi bir zamanlarda, mənə də Bakıda "Açıq söz" qəzetəsinə eyni tezisi müdafiə edən bir baş məqalə yazdırmışdı" [134, 174].

Qeyd edək ki, Nəsib bəy 1917-ci il aprelində Bakıda keçirilən Qafqaz Müsəlmanlarının 1-ci qurultayında "kim dava edə bilər ki, biz kəndini (özünü – F.Ə.) idarəyə səlahiyyətdar bir millət deyilik!" demişdir. Beləliklə, Rəsulzadənin də yazdığı kimi, o bu qurultayda milliyyətçilik (Azərbaycan türkçülüyü), türkçülük, xalqçılıq və modernləşmə (yeniləşmə) prinsiplərini müdafiə etmişdi. Hətta, bununla kifayətlənməyərək, eyni prinsiplərlə çıxış edən iki partiyanın birləşməsinə təşəbbüs göstərmiş və həmən bunun tətbiqini istəmişdi. Rəsulzadə yazır: "Bir tərəfdən Nəsib bəy, digər tərəfdən də M.Ə.Rəsulzadə ilə A.Kazımzadə tərəfindən təmsil olunan Gəncə və Bakı milliyyətçi Azərbaycan istiqlalçılıq hərəkatında çox mühüm əsərləri sonradan meydana çıxan bu ittihadın hüsulunda Nəsib bəyin zəka və səmimiyyətinin qəti rol oynadığını burada təsdiq etməliyəm" [134, 175].

Azərbaycan Cümhuriyyətinin qurulmasında mühüm işlər görmüş Nəsib bəy bu dövrdə istər maarif naziri, istərsə də baş nazir kimi bəyan edirdi ki, Azərbaycan türklərinin yeganə ideyası Azərbaycanın milli istiqlalıdır. Bu mənada Azərbaycanın Türkiyəyə, yaxud da Rusiyaya birləşməsini tələb edən "ittihadçılar"a, bolşeviklərə ümumiyyətlə, istənilən "ihaqçılar"a qarşı çıxan Yusifbəyli öncə osmanlıpərəstləri tənqid etmişdir. Belə ki, Cümhuriyyətin bəyan olunmasından sonra, ilk dövrlərdə müəyyən təsir qüvvəsinə malik olan osmanlıpərəst "ilhaqçılar"ın milli istiqlala qarşı yönəlmiş ideyalarına cavab olaraq Yusifbəyli deyirdi ki, onlara müəyyən obyektiv səbəblərə görə güzəştlər getmək olar. Ancaq bu güzəştlər Azərbaycanın milli istiqlalına xətər yetirməməlidir.

N.Yusifbəylinin fikrincə, bu dövrdə Azərbaycan türkçülüyü ideyasının, milli istiqlalın tamamilə ziddinə olan əsas qüvvə isə bolşevizm və bolşeviklər olmuşdur. "Bolşevizm bizim üçün bir təhlükədir, bəlkə də daha böyük təhlükədir" [35, 67] deyən, Nəsib bəy daha sonra qeyd edirdi: "Əgər bu saat mənə desələr ki, səni tanıyıb və istiqlalını təsdiq edirəm, mən sabah burada bir bolşevik qoymaram. Çünki bolşeviklərin təhlükəsini biz öz istiqlalımız ilə ölçürük. Biz hürriyyəti-vicdan tərəfdarıyıq" [35, 68]. N.Yusifbəyli bildirirdi ki, milli istiqlalçı kimi bütün qüvvələrə bir nəzər ilə baxır: "Mənim tutduğum nə bolşevik, nə də menşevikdir. Mən yalnız vətənimizin, istiqalliyyətimizin düşmənlərini tuturam. Onlar öylə adamlardır ki, hər zaman fikirləri bizim hüququmuza və istiqlalımıza təcavüz etməkdir və yaxud idarə tərzimizi dəyişmək üçün çalışmaqdır. Bunlar bizim düşmənlərimizdir" [35, 69]. Bütün bunları nəzərə alaraq Rəsulzadə yazırdı ki, ümumilikdə, Nəsib bəy xalqçı, idealist, millətpərvər, demokrat və liberal bir şəxsiyyət olmuşdur: "O, milli Azərbaycan demokratiyasının yetişdirdiyi ən tipik müməssillərindən biridir. Elə bir müməssil

ki, milli Azərbaycan hərəkatının istiqlala müncər olan qayəsini formulə etmək onun ismilə mərbutdur" [134, 177].

Fikrimizcə, M.Ə.Rəsulzadənin silahdaşı, məsləkdaşı Nəsib bəy haqqında dedikləri o qədər doğru, dürüst və səmimidir ki, bu deyilənlərə əlavə bir söz demək çox çətindir. Rəsulzadənin Yusifbəyli ilə bağlı dediklərində diqqəti çəkən məqamlardan biri də, Nəsib bəyi milli Azərbaycan ideyasının müəllifi kimi göstərməsidir. Bu onun göstəricidir ki, Rəsulzadə memarı olduğu Azərbaycan Cümhuriyyəti ideyasında Nəsib bəyin rolunu daha üstün verməklə öz ləyaqətinin ucalığını ifadə etmişdir. Başqa sözlə, Rəsulzadənin bu fikirlərindən belə nəticə çıxarmaq olar ki, milli və müstəqil Azərbaycan ideyasının nəzəri-ideoloji müəllifi Rəsulzadə, siyas hədəfçisi isə Nəsib bəy olmuşdur. belə ki, Nəsib bəy Rəsulzadənin nəzəri-ideoloji şəkildə irəli sürdüyü milli və müstəqil Azərbaycan ideyasını siyasi bir tələb kimi ifadə etmişdir. Deməli, Azərbaycan Cümhriyyəti iki böyük liderin nəzəri-ideoloji və siyasi praktiki əməllərinin nəticəsidir. Bu mənada bu iki böyük Azərbaycan Türkünün Azərbaycan Cümhuriyyətinin yaranması və inkişafında göstərdiyi xidmətlər misilsizdir.

Bu dövrdə Azərbaycan türkçülüyü, müstəqil və demokratik Azərbaycan ideyasının əsas ideoloqu, Azərbaycan türklərinin lideri **Məhəmməd Əmin Rəsulzadə (1884-1955)** olmuşdur. O, Azərbaycan türk aydınları arasında ilk dəfə, "ümmətçilik"dən millətçiliy"ə üz tutaraq milli ideologiyanın təməl prinsiplərini işləyib hazırlamışdır. Çünki 1915-ci ildən işıq üzü görən "Açıq söz" qəzetində ilk dəfə olaraq "müsəlman", "tatar" əvəzinə "türk" sözünü işlədən, "Biz türkük!" deyən M.Ə.Rəsulzadə bu surətlə "ümmət" və "ümmətçilik" dövrünü rəsmən qapamış, "millət", "türk millətçiliyi" dövrünün başlandığını elan etmişdir. M.B.Məmmədzadə yazır: "Şeyx Cəmaləddin Əfqani kimi, Məhəmməd Əmin bəy də islamiyyətin və müsəlmanlığın milliyyət deyil, "ümmətçilik" ifadə etdiyini,

milliyyətin isə din üzərində deyil, dil və mədəniyyət birliyi üzərində qurulduğunu və bu milli diriliyin təməlini təşkil edən milli mədəniyyətin ünsürlərini izah edərək milli hərəkatın ictimai fəlsəfəsini qurmuşdur" [154, 52]. Ə.Cəfəroğlunun fikrincə də, milli istiqlal məfkurəsinin, milli ideologiyanın intişar tapmasında, "həqiqi milliyyətçiliyin geniş yayılmasında" M.Ə.Rəsulzadə və onun baş redaktoru olduğu "Açıq söz" qəzeti mühüm rol oynamışdır [63, 151]. Belə ki, M.Ə.Rəsulzadənin öndərliyi ilə ilk dəfə, həmin qəzetdə öz əksini tapan ideyalar get-gedə bütün Azərbaycan türklüyünü əhatə etmişdir. Cəfəroğlu yazır: "Onun "Açıq söz" qəzeti ilk dəfə milli cərəyanı ardıcıl və şüurlu sistem halına saldı, milli mövzunun geniş oxucu kütləsi arasında bir ilham mənbəyinə çevrilməsinə imkan yaratdı" [63, 235].

H.Baykara da hesab edir ki, Qafqaz müsəlmanlarını ümmətçilikdən millətçiliyə yönəldən, onları türkçülük-millətçilik, Azərbaycan milli ideyası ətrafında birləşdirən və "Açıq söz" qəzetində bunu təbliğ edən "Müsavat"ın lideri M.Ə.Rəsulzadə olmuşdur [52, 186]. Baykaranın fikrincə, ilk dövrlərdə sosial-demokratlarla eyni cəbhədə çalışmış M.Ə.Rəsulzadə 1911-1913-cü illərdə C.Əfqaninin yazılarının təsiri altında türkçülük hərəkatına qoşulmuş və Azərbaycanda bu ideyanın əsas ideoloqu olmuşdur: "M.Ə.Rəsulzadənin Azərbaycan istiqlalının elanında və Azərbaycan dövlətinin yaradılmasında xidmətləri əvəzsizdir" [52, 192]. H.Baykara onu da əlavə edir ki, Rəsulzadənin lideri olduğu, "Müsavat" və Bitərəf demokratik qrup öncə milli ərazi və milli muxtariyyət tərəfdarı olsalar da, 1-ci və 2-ci rus inqilablarının gedişi, Qafqaz hadisələri onları özlərinin öncədən "uzaq məqsəd" olaraq planlaşdırdıqları Azərbaycan istiqlalı yoluna sürükləmişdi: "Azərbaycan istiqlal mübarizəsi tarixində "Azərbaycan istiqlalı-na" nə rast gəlinmiş, nə də baş verən siyasi hadisə olmuşdur. Azərbaycan xalqının ruhundan doğan bu istiqlal hadisəsi tarixin

axarı içində öz yerini tapmışdır" [52, 133]. Fikrimizcə, Baykara yuxardakı sözləri ifadə edərkən əsas vurğunu "Azərbaycan" anlayışına salmış, bu mənada tarixən "Azərbaycan istiqlalına" rast gəlinmədyini iddia etmişdir. Məlum olduğu kimi, 1918-ci ilə qədər "Azərbaycan" anlayışı coğrafi ərazi mənasında işlədilmiş, bu ərazidə təşəkkül tapmış dövlətlər isə müxtəlif adlarla (Manna, İskit, Atropatena, Albaniya-Aran, Şirvanşahlar, İldənizlər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər və b.) tarixə düşmüşdür. Dünya tarixində "Azərbaycan" adlı ilk müstəqil dövlət isə 1918-ci ildə yaranmışdır. Baykara da məhz bu faktordan çıxış etmişdir.

Qeyd edək ki, 1910-cu illərdə qələmə aldığı yazılarında, xüsusilə "Milli dirilik" (1914) başlıqlı sislilə məqalələrində artıq M.Ə.Rəsulzadə milli ideyanın, milli ideologiyanın yaranmasının zəruriliyndən bəhs edirdi. O göstərirdi ki, yalnız cəmiyyətin intellektual qismi milli ideologiyanın yaradıcısı və təbliğatçısı ola bilər: "Ayrı-ayrı əməlpərvərlər tərəfindən təsvir və təyin edilən, başqa sözlə desək, hazırlanan millli əməllər layihəsi xalqın düşünüb də hiss və arzu etdiklərinə uyğun gələrsə, sürətli bir şəkildə xalq arasında yayılar və çoxlu tərəfdarlar qazanar" [186, 471]. Milli ideyanı əsaslandırmaq üçün Rəsulzadə ilk növbədə, ümmət, milliyyət, millət və xalq məfhumlanını izah etməyə çalışmışdır

"Açıq söz" qəzetinin ilk sayında nəşr olunan Tutacağımız yol" (1915) məqaləsində isə, Rəsulzadə ilk dəfə Azərbaycan milli ideyasının başlıca prinsiplərini göstərmişdir. Onun fikrincə, milli ideyanın əsas idealı milliyyətdir ki, 20-ci əsrdə milliyyət əsri olduğuna görə, Azərbaycan türkləri də milliyyət mərhələsini keçib millət olaraq meydana çıxmalıdır. Bu baxımdan 1-ci dünya müharibəsi nəticəsində dünyanın xəritəsinin dəyişməsinin labüd olduğunu qeyd edən Rəsulzadəyə görə, dünya xəritəsinin alacağı yeni şəkilə vətəndaşların fədakarlığı, dövlətlərin təşkilatı və orduların əzəməti ilə bərabər, aşkar və qətiyyətlə peyda olmuş

milliyyət məfkurələrinin də böyük təsiri var və olacaqdır: "Özünü lüzumunca bilib də istiqbal üçün müəyyən bir ideal bəsləyən millət şübhəsiz ki, böyük bir qüvvət təşkil edər. Şübhəsiz ki, sözün tam mənası ilə deyiləcək qədər dağ dağıdan topların hakim olduğu hərb meydanlarında təsirsiz qalmayan bu qüvvət yaşıl mahudlu barışıq masası üzərində əsaslıca bir əsir yapacaq. Hər hansı qalib tərəf az-çox sorunclu bir dinclik vücuda gətirmək istərsə, əsrin vicdanları üzərində ən çox təsir icra edən qüvvətli milliyyət məfkurəsini ehmal edəməz! Bunun böylə olacağı arabir gələcəyin sülhü haqqında söz söyləyən Avropa mütəfəkkirlərincə də təsdiq olunmaqdadır. Sülhsunə mənsub siyasilərcə, milliyyət əsasına riayət etməyəcək, millətlərin hüququnu gözətməyəcək bir sülh əqdnaməsi çox çəkməz yırıtlar və sorunclu bir dinclik təmin edəməz" [186[a], 171].

Milli ideologiyanın konkret cizgilərini cızan milli ideoloq qeyd edirdi ki, təbii hüququ əlindən alınmış bir millət əbədi olaraq bu vəziyyətdə qalarsa, bir tərəfdən Avropa dövlətləri arasında daimi sülh əldə edilməyəcək, başqa tərəfdən onların öz vətəndaşları arasında ögeylik-doğmalıq olduğu üçün müutərəqqi və qüvvətli təşkilata çevrilə bilməyəcəklər: "Demək ki, müəyyən bir məfkurəyə və əksər fərdlərcə tanınmış amala, qayəyə malik olan millətlər, dövlətlər arasındakı münasibətdə əhəmiyyət qazandıqları kimi, dövlətlərin daxili siyasətləri üzərinə də böyük təsirlər icra edəcəklərdir. Bu surətdə ayrı-ayrı millətlər bir millət olaraq yaşaya bilmək üçün hər şeydən əvvəl özlərini bilməli, müəyyən fikir və amallar ətrafında birləşərək bütün bir məfkurəyə, xəyal qayəsinə hədəf olacaq o işıqlı yıldıza sahib olmalıdırlar. Çünki müttəhid bir ruh və müştərək bir yıldıza malik olmayan millətlərlə yeni əsaslar üzərinə qurulacaq həyat hesablaşamayacaq və böylə silahdan məhrum qalan heyətlər kimsəyə söz eşitdirməyəcəklərdir!" [186[a], 171]. O, fikirlərinə davam edərək yazırdı: "Tutacağımız yolun nöqteyi-əzəmətini (məramını) təşkil edəcək əsas – milliyyət əsası"dır [186[a], 172].

Bununla da, fikrimizcə, Azərbaycan tarixində ilk dəfə siyasi-ideoloji mənada "milliyyət" anlayışını ortaya atan və onu Azərbaycan türk milliyyəti kimi ifadə edən Rəsulzadə olmuşdur. Ancaq bu milli ideologiyanın əsas hədəfi olan "milliyyət"çilik, Rəsulzadənin özünün də qeyd etdiyi kimi, şovinist millətçilik, yəni onlarca özgə millətləri hakim millət mənafeyinə fəda edən rus millətçiliyi deyil, mütərəqqi millətçilikdir: "Halbuki bizim tərvic elədigimiz əsas bütün milliyyətlər üçün bir dərəcə hürriyyət və müsavat tələb edir ki, bununla biz rus camaatının da salim düşünür qismilə heç bir ixtilafda bulunmuyoruz" [186[a], 172].

Onun fikrinə görə, hər bir milliyyət azad yaşayıb da tərəqqi edə bilmək üçün üç əsasa: 1) dil; 2) din; 3) zaman-müasirliyə istinad etmək məcburiyyətindədir. **Milliyyətin birinci əsası dildir** ki, dili türk olan bu xalqın etnik mənsubiyyəti də türkdür: "Dilcə – biz türküz, türklük milliyyətimizdir. Ona görə də müstəqil türk ədəbiyyatı, türk sənəti, türk tarixi və türk mədəniyyətinə malikiyyətimiz – məqsədimizdir. Parlaq bir türk mədəniyyəti isə ən müqəddəs qayeyi-amalımız, işıqlı yıldızımızdır" [186[a], 172].

M.Ə.Rəsulzadə milli ədəbi dilin formalaşması problemi ilə bağlı qeyd edirdi ki, əski Səlcuqlu-Türkiyə və Azərbaycan türkcəsi bir olmuş, "ortadakı ayrılığı yaradan şey isə Azərbaycan danışığının daha çox Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər kimi türk dövlətlərinin yönətimi altında, Osmanlılardan ayrı, məzhəb baxımından onlara kəskin qarşı olan başqa bir siyasi yönətimin özəyini oluşdurmuşdur" [189, 41]. Bu baxımdan dil məsələsində "osmançılar" (Ə.Hüseynzadə və b.) və "azərbaycançılar" (C.Məmmədquluzadə, F.B.Köçərli və b.) arasında orta mövqedən çıxış edən Rəsulzadə bir tərəfdən türk ədəbi dilinin xalqın dili ilə bağlı olmasının vacibliyini qeyd etmiş, digər tərəfdən isə onun həddən artıq "aşağıya" enməsinin əleyhinə çıxaraq ortaq türkcənin yaranması təklifi ilə çıxış etmişdi: "Ədəbi dil, xalqın anlayacağı dildir. Yazı dili xalqın danışdığı dildən çox uzaq olmamalıdır. Yazı dilinin anlaşılmaz bir halda olduğunu ədəbi hesab eyləyən dövr

çoxdan keçmişdir. İndi bir əsrdəyik ki, hər bir şey ümumiləşdiyi kimi, ədəbiyyat da ümumiləşir. Böylə bir əsrdə məhdud şəxslərə məxsus bir dil ilə yazı yazmaq, əlbəttə, ədəbi hesab olunmaz" [186, 286]. Eyni zamanda, o qeyd edirdi ki, hər dilin bir milliyyəti olduğu kimi, bir də beynəlmilliyyəti vardır: "Milliyyət cəhəti hissiyyata, beynəlmilliyyət cəhəti isə fənniyyata aiddir. Bir millət özünə məxsus olan hissiyyatını ifadə etmək üçün mütləq öz ana dilində istədiyi qədər lüğətlər tapa bilər, bu şərtlə ki, bu hisslər milli və təbii olsun, əcnəbi bir təsirlə peyvənd olunmuş özgə hisslər olmasın. Halbuki elmi və fənni mənaları ifadə üçün ana dili lüğətləri kifayət etmir. Çünki elm və fənn bir millətin deyildir, millətlərindir. Çünki fənniyyat təbii deyil: sünidir ixtiraidir! Sonradan icad olunan məfhumun bittəb ixtirai bir olmaq da icabatdandır. Dil milliyyət, din isə beynəlmilliyyət təşkil edir. Biz türk olmaq hesabilə dilimizin milliyyəti türkcədir. Müsəlman olduğumuz üçün beynəlmilliyyətimiz İslamdır" [186, 287].

Osmanlı türkcəsi ilə müqayisədə Azərbaycan türkcəsinin ərəb və fars dillərinin təsirinə az qalması müddəası ilə sonuncunu müdafiə etməklə yanaşı, Rəsulzadə türk dilinin məhəlli şivələrinin inkişafına da meyil göstərmirdi. Məhz bunun nəticəsidir ki, Rəsulzadənin təşəbbüsü ilə Azərbaycan Cümhuriyyəti dövründə natamam ali və ali məktəblərdə Türkiyə türkcəsinin qrammatikası əsasında, ancaq Azərbaycan türkcəsinin də qayda-qanunları nəzərə alınmaqla ortaq türk dili keçilmişdi [189, 78-79]. Hətta Müsavat Partiyası ikinci qurultayda (1919) qəbul edilmiş proqramında da, M.Əmin bəyin təklifi ilə ortaq türk birliyindən və ortaq türk dilindən çıxış etmişdir: "Oxuma proqramında İstanbul danışığının orta məktəblərdə keçilməsilə ali məktəblərdəki dərslərin ortaq ədəbi danışıq saydığı İstanbul türkcəsilə oxudulmasını istər" [189, 74]. Beləliklə "milli və müstəqil Azərbaycan" ideyasının ideoloqları vahid Türk dili, Türk tarixi, Türk ədəbiyyatı ilə bağlı nəzəri ideyalarını 1918-ci il mayın 28-də qurulan Azərbaycan Cümhuriy-

yətində reallaşdırmışlar. Bu baxımdan Rəsulzadənin ortaq türk ədəbi dili ideyasını müdafiə etməsi şübhəsizdir [51, 36].

M.Ə.Rəsulzadə dillə yanaşı, dini də cəmiyyətin, millətin əsas sütunları saymışdır. Onun fikrincə, din və dilsiz cəmiyyət təşəkkül tapa bilməz: "İnsanlar arasında cameiyyət vücuda gətirən iki mühüm amil vardır. Bunlardan biri din, digəri dildir. Məlum olduğu üzrə din müxtəlif dillərlə mütəkəllim və müxtəlif cinsdən olanları birləşdirdiyi halda, dil ancaq bir növdən və bir cinsdən olan insanları birləşdiriyor" [186, 232]. Rəsulzadə daha sonra yazır: "Din hər nə qədər dildən sonra gələn bir amil isə də bəzi şərait daxilində ondan müəssir bir qüvvət şəklini də ala bilir, ümumi bir dil nə qədər dil əhlində ümumi bəzi xislətlər və ideallar tövlid ediyorsa, ümumi bir dinə malik olmaq dəxi o dərəcədə böyük bir təsir icra edə bilər. Müxtəlif din və məzhəblərə malik olan bir dil sahiblərinin "milliyyət" olaraq vahid mədəni bir kütlə vücuda gətirmələri müşkül olduğu halda, bir din və bir dilə malik olanlarca bu müşkülat mütəssəvir deyildir. Dil bir millətin əsliyyətini mühafizə edə bilər. Fəqət çox kərə də din bir millətin dilinin baqi qalmasına və bu münasibətilə milliyyət fikri və amalının inkişafına səbəb oluyor" [186, 480].

Bu baxımdan Rəsulzadənin fikrinə görə, **milliyyətin ikinci əsası dindir**: "Dincə – müsəlmanız. Hər bir din öz mütədəyyinləri (inananları) arasında məxsusi bir təməddün (yeniləşmə) vücuda gətirmişdir ki, bu mədəniyyət də bir beynəlmiləliyyət səbəbi təşkil edir. Müsəlman olduğumuz üçün biz türklər beynəlmiləliyyəti-islamiyyəyə daxiliz. Bütün İslam millətlərilə şərikli bir əxlaqa, dini bir tarixə, müştərək bir yazıya, xülasə ortaq bir mədəniyyətə malikiz… Bu şəriklik islamiyyətə daxil olan zərərli təsirlərdən bizi mütəzərrir etdiyi kimi, bu yolda olacaq islahat feyzlərindən də bizi nəsibsiz qoymaz" [186[a], 172]. M.Əmin millət və dini bir-birindən ayrı mürəkkəb, anlaşılmaz şəkildə yox, apaydın olaraq tamamlanmasını istəyirdi. O, din ilə millətin öncə fərqlərini göstərir, daha sonra onların birgə şəkildə çulğalaşa biləcəyini ortaya qoyurdu.

Bunun üçün, öncə müsəlmanlar milli kimliklərini tanımalıdırlar. Rəsulzadə yazır: "Din və onun ehkamı mütədəyyinlərincə anlaşılmaz bir hala gəlirsə, verəcəyi faydanı təmin edə bilməz, ruhsuz olar, məişətdən uzaqlaşar, öylə də İslam, bir məişət və həyati-dini olaraq təsis elədiyi halda mütədəyyinləri ilə öz arasına bir məchuliyyət girdi. Bunun nəticəsində İslam həyatından və həyati-İslamla yaşamaq gümanında olanlar isə əsil İslamdan uzaqlaşdılar. Bunun üçün də müxtəlif islam millətlərindən olan islam mütəfəkkirləri arasında İslam deyə tanınan şeyin möhtaci-islah olduğunu düşünənlər gündən-günə çoxalıyorlar. Şübhəsiz, bu yolda bir islah lazımdır. Böylə bir islah vücuda gəlməyincə, İslam millətləri düçar olduqları ətalətdən müşkül ki çıxsınlar" [186, 481].

Ən əsası odur ki, hələ milli istiqladan öncə, "Müsavat"ın 1-ci qurultayındakı çıxışında (1917) Rəsulzadə dünyəvi dövlətin tərəfdarı kimi dini mənəvi məsələ hesab edərək onun siyasətə qarışmasının əleyhinə çıxış etmişdir. Onun fikrincə, məscidə daxil olan şəxs siyasəti, partiyanı, ideyanı unutmalı və ancaq Allaha dua etməlidir. Ümumiyyətlə, ruhanilər siyasətlə məşğul olmamalı və siyasi mübarizədə məscid bitərəf qalmalıdır. Dinin dövlətdən ayrı olması öz əksini, Rəsulzadənin təkidi ilə partiyanın yeni proqramında da tapdı: "Hökumət din və məzhəblərdən heç birini digərilərindən üstün tutub, onu himayə və mühafizə edə bilməz" [253, 77]. Cümhuriyyət dövründə də din məsələsində dünyəvilik modelindən çıxış edən Rəsulzadə üzünü islamçılara, xüsusilə onların siyasi təşkilatı olan "ittihadçılar"a tutaraq deyirdi: "Din və məscid öz müqəddəsliyini qoruyub saxlamaq istəyirsə, siyasətdən kənarda qalmalıdır. ruhanilər siyasi ehtiraslar burulğanında sülh və anlaşmanın daşıyıcıları olaraq qalmalıdırlar. Bizə deyirlər ki, qaradovoy, polis ağac ilə, qamçı ilə, ruhanilər isə vəz ilə gələcəklər. Fəqət, siz məni təmin edərmisiniz ki, qaradovoylar qamçı ilə gəldikdə bəzi ruhanilər lənətlər və küfrlərlə gəlməyəcəklər? Qaradovoyun əlində ağac varsa, ruhanilərin də küfrü, lənəti vardır.

Əgər istəyirsiniz ki, məscid möhtərəm bir vasitə, sülh və səlah olsun, qoyunuz o bitərəf və müqəddəs qalsın" [34, 731-232].

Onun fikrincə, **milliyyətin varlığının üçüncü əsası** isə zamandır-müasirləşməkdir: "Zamanca da – biz texnikanın, elm və fənnin möcüzələr yaradan bir dövründəyiz. Türk və müsəlman qalaraq müstəqilən yaşamaq istərsək mütləq əsrimizdəki elmlər, fənlər, hikmət və fəlsəfələrlə silahlanmalı, sözün bütün mənası ilə zəmanə adamı olmalıyız… Demək ki, sağlam, mətin və oyanıq məfkurəli bir milliyyət vücuduna çalışmaq istərsək ki, zaman bunu tələb ediyor – mütləqə üç əsasa sarılmalıyız: **Türkləşmək, islamlaşmaq və müasirləşmək.** İştə millətimizin ictimai həyatının islahı üçün üzərinə dayandığımız üç payeyi-mədəniyyət!" [186a, 172].

Bu "üçlü" düstura əsaslanaraq Azərbaycan Türk muxtariyyətini, eləcə də Rusiya daxilindəki digər Türk ellərinin avtonomiyası uğrunda mübarizəni Rəsulzadə 1917-ci il fevral burjua inqilabından sonra rəsmən irəli sürmüş və müdafiə etmişdi. Bununla da o, türkçülükdən Azərbaycan Milli ideyasına doğru önəmli bir addım atmış və azərbaycançılığın əsasını qoymuşdur. Azərbaycan türkçülüyü ideyasının yaxın hədəfi Azərbaycan Türk muxtariyyəti, uzaq hədəfi Azərbaycan Türk istiqlalı idi.

Bu baxımdan Bakıda irəli sürdüyü federativ quruluş əsasında milli-ərazi muxtariyyət ideyasını Rəsulzadə, 1917-ci ilin mayında Moskvada keçirilən Ümumrusiya Müsəlmanlarının I qurultayında müdafiə etmişdi. Qurultaydakı çıxışında unitaristlərin (Ə.Salikov və b.) xristianlardan fərqli olaraq müsəlmanların vahid bir millət olması ideyasını ciddi şəkildə tənqid edən Rəsulzadə bildirirdi ki, millətin əsas əlaməti dindən daha çox dil, tarix və adət-ənənələr birliyidir: "İslam da digər dinlər kimi, heç şübhəsiz ki, öz inananları arasında bir bağlantı yaratmışdır. Amma bu bağlantı milliyyət bağlantısı deyil, beynəlmiləliyyətdir. Bu beynəlmiləliyyət xristian qövmləri arasında xristian mədəniyyəti deyilən şeyi vucuda gətirdiyi kimi, müsəlman millətlər də bir ortaq İslam mədəniyyəti

yaratmışlar. Amma, bu bütün İslam qövmlərini bir millət halına gətirmək demək deyildir. Xristian milləti olmadığı kimi müsəlman milləti də yoxdur" [240, 298].

Bununla da, vahid "İslam milləti" anlayışını rədd edən Rəsulzadə hətta, vahid "Türk milləti" konsepsiyasını da tənqid etmişdir. Çünki onun fikrincə, Rusiyadakı türk-tatar millətləri Türk oğlu Türk olmaqla, vahid Türk dilindən bəhrələnməklə yanaşı, müstəqil şəkildə müxtəlif şivələrə, ədəbiyyata, mədəniyyətə və mətbuata malikdirlər. Rəsulzadə hesab edirdi ki, heç bir türk-tatar milləti, o cümlədən Azərbaycan türkü digər türk millətinə görə dilinə, ədəbiyyatına və adət-ənənələrinə əlivda deməz [240, 166]. Bu baxımdan da, Rəsulzadə çıxış yolu kimi Rusiyanın federativ dövlətə çevrilməsində görürdü: "Rusiyanın idarə forması demokratik respublika olmalıdır" [240, 163]. Onun irəli sürdüyü milli-məhəlli (milli-ərazi) muxtariyyət ideyası unitaristlərin (Əhməd Salikov və b.) milli-mədəni muxtariyyət ideyasına qarşı üstünlük saxlamaqla, qurultay nümayəndələrinin əksəriyyəti tərəfindən qəbul edilmişdi [51, 60].

Milli ideologiyanın ana xəttini təşkil edən milli dövlət ideyasını "Müsavat"ın 1-ci qurultayında (1917, 25-31 oktyabr) da müdafiə edən Rəsulzadə haqlı olaraq qeyd edirdi ki, milli amal (milli ideya) və milli məfkurə (milli ideologiya) olmadan milli istiqlal mümkün deyildir. Beləliklə, istiqlaldan öncə "insanlara hürriyyət, millətlərə istiqlal!" şüarı ilə çıxış edən Rəsulzadənin bu ideyaları "Müsavat"ın yeni proqramında da öz əksini tapmışdı: "… ən müvafiq və ən təbii dövlət milli dövlətdir, çünki milli istiqlal və ya muxtariyyətə malik olmayan bir millət hürriyyət və mədəniyyətini hifz edə bilməz" [253, 74]. Bu baxımdan çağdaş tədqiqatçılardan Nazim Cəfərov doğru qeyd edir ki, həmin dövrdə "milli azadlığın alovlu carçısı M.Ə.Rəsulzadə milli azadlığı, milli istiqlalı yalnız yorulmadan təbliğ etmirdi, həm də bəşər mədəniyyəti, ictimai inkişaf baxımından fikrini əsaslandırır, istiqlalın labüdlüyünü sübuta yetirməyə çalışırdı" [66, 78].

Milli ideoloqun istiqlal ərəfəsində "Azərbaycan" adına müraciət etməsi isə, türkçülüyün yaxın və uzaq milli hədəfi olan türk dövlətinin yaranması ilə birbaşa bağlı olmuşdur. M.Ə.Rəsulzadə Azərbaycan milli ideyasını – azərbaycançılığı nəzərdə tutaraq yazırdı: "Bu yolla qafqazlı türk yazıçıların və şairlərdən bir çoxunun ayrı-ayrı çağlarda gizli olsa da, söylədikləri "bağımsızlıq" ("istiqlal"-F.Ə.) ideyası I Dünya savaşı illərində bilginlərin başında yaranaraq devrim (inqilab – F.Ə.) günlərində siyasi bir çağrış biçiminə girir, daha uyğun bir gündə "bütünlüklə bağımsızlıq" çağrışına keçmək yetənəyində bulunan siyasi bir prorqama çevrilirdi" [189, 56]. O hesab etmişdir ki, Azərbaycan milli ideyası – azərbaycançılıq yalnız türkçülük uğrunda savaş aparan müsavatçıları deyil, sosialistləri, islamçıları və başqalarını da öz ətrafında birləşdirə bilər. Əslində son hədəfi müstəqil türk dövləti yaratmaq olan türkçülərin ölkənin "Azərbaycan" adlandırılması bir tərəfdən türklüyün ifadəsi, digər tərəfdən isə siyasi-ideoloji gediş idi. Rəsulzadə yazır: "…Güney Doğu Qafqaz torpaqlarının bütünlüklə Azərbaycan adı altında yaranmış siyasi quruluşlarda olması tutalqasından (sübutundan – F.Ə.) başqa Azərbaycan türklərinin yaşadıqları bir ölkə olduğu üçün buraya Azərbaycan deməkdə heç bir sıxıntı görülməmişdir. Bu adın yeni Türk Cümhuriyyətinə verilməsində ən böyük tutalqa sözsüz bu türklük olmuşdur" [189, 61].

Deməli, bu dövlətin bir türk dövləti olması, onun dilinin və millətinin türk adı daşıması kimi, "Azərbaycan" sözünün də türklüyü ifadə etməsi heç kəsdə şübhə doğurmamış, başda Azərbaycan türkləri olmaqla bütün azərbaycanlılar tərəfindən birmənalı şəkildə qəbul edilmişdir. Sadəcə, siyasi-ideoloji mənada "Azərbaycan", "Azərbaycan Cümhuriyyəti" anlayışları yalnız türklüyü ifadə etməklə məhdudlaşmamış, Azərbaycanda yaşayan bütün vətəndaşların (türk və türk olmayan) vətəni və dövləti kimi daha geniş məna daşımışdır. Sosialistlərdən **Aslan bəy Səfikürdlü** parlamentdəki çıxışlarının birində bunu belə ifadə etmişdi: "Bu gün

kiçik bir Türk parlamenti açılıbdır. Bizim bu parlamentimiz gözlərdə bir ağ kimidir. Çox imperialistlər onu görmək belə istəmirlər. Cümhuriyyətimizə Türk Cümhuriyyəti deyil, Azərbaycan Cümhuriyyəti dedik ki, bütün vətəndaşlara ümumi bir vətən olsun" [34, 46].

Beləliklə, 1918-1920-ci illərdə və sonralar da M.Ə.Rəsulzadə "Azərbaycan məfkurəsi", "Azərbaycan milli məfkurəsi", "Azərbaycan fikri", "Azərbaycan milli ideyası", "Azərbaycan məfhumu", "azərbaycançılıq", "Azərbaycan ideyası" dedikdə, türkçülüyün milli özünütəyin ifadəsi olan bugünkü azərbaycançılıq ideyasının nəzərdə tutmuşdur: "Rus istibdadı pəncəsindən dağılmış xanlıqlar şəklində deyil, müttəhid və milli bir kütlə surətində nicat arayan Azərbaycan türklüyü bu istiqlalını tərtəmiz edəcək bayrağa əsrin məfkurəsi ilə mütənasib bir məna vermək istəyirdi. Bu mənanı da "türkləşmək, islamlaşmaq və müasirləşmək" məfhumlarında tapdı: bayrağı mavi, al (qırmızı) və yaşıl rəngli qumaşlardan düzəldildi" [185, 8].

Ancaq Azərbaycan milli ideyasının reallaşması kimi, onun qorunub yaşadılması da Rəsulzadənin qarşısında əsas vəzifə kimi dayanmışdır. Çünki xüsusilə ilk dövrlərdə, Azərbaycan Cümhuriyyəti adlı müstəqil bir türk dövlətinin müstəqilliyi bəyan olunmasına baxmayaraq istər daxildə, istərsə də onun xaricində onu azadlığını tanımaq istəməyən xeyli sayda qüvvələr (bolşeviklər, "ittihadçılar"-"ilhaqçılar" və b.) var idi. Milli istiqlalın əleyhinə olan bolşeviklər və "ittihadçılar"-"ilhaqçılar" (dini qüvvələr) müvafiq olaraq Azərbaycanı Rusiyadan və Osmanıldan ayrı təsəvvür etmirdilər. Təsadüfi deyil ki, həmin dövrdə Azərbaycanın bir hissəsi bolşeviklərin əlində olduğu halda, digər hissəsi isə faktiki olaraq Azərbaycandakı Osmanlı dövlətinin qoşunlarının komandanı Nuru paşanın və onun ətrafına toplanmış Azərbaycanın Türkiyəyə birləşməsinin tərəfdardlarının təsiri altında idi.

Tarixçı alim Aydın Balayevin fikrincə, həmin dövrdə Nuru paşanın "ilhaqçılar"ın təsiri altında olması ilə bağlı bəzi müəlliflərin qeydləri doğru deyildir: "Fikrimizcə, Nuru paşanın "ilhaqçılar"a dəstəyi Türkiyənin hakim dairlərinin o dövrdə türk xalqları, o cümlədən Azərbaycana münasibətdə yeritdikləri siyasətin mahiyyətindən irəli gəlirdi" [51, 114]. Bu fikirlə razılaşaraq hesab edirik ki, bunu, "ilhaqçılar" da yaxşı bilir və bu amildən istifadə etməyə çalışırdılar. A.Balayevin də qeyd etdiyi kimi, əsas özəyini Azərbaycanın burjua-mülkədar və dini dairələrinin nümayəndələri təşkil edən "ilahqçılar"ı, Azərbaycanın müstəqilliyi ideyasından daha çox, Rəsulzadənin başçılıq etdiyi Milli Şuranın ölkənin siyasi sistemində köklü demokratik dəyişikliklər həyata keçirmək planları narahat edirdi: "Milli Şuranın təxirə salmadan ölkədə geniş demokratik azadlıqları gerçəkləşdirmək, dini dövlətdən ayırmaq, aqrar sahədə islahatlar həyata keçirmək, qadınlara kişilərlə bərabər hüquqlar vermək planlarını həmin dairələr öz imtiyazlarının toxunulmazlığı üçün təhlükə hesab edirdilər" [51, 112].

Bütün hallarda, M.Ə.Rəsulzadənin uzaqgörənliyi və müdrik siyasəti nəticəsində bu məsələ də, Azərbaycanın müstəqilliyinin itirilməməsi şərti ilə həll edilmiş [51, 119] və çox keçmədən "Azərbaycan milli məfkurəsi" Azərbaycandakı bütün siyasi qüvvələrin, o cümlədən burada yaşayan bütün etnosların əsas ideyasına çevrilə bilmişdir. M.Ə.Rəsulzadə 1918-ci ilin 10 dekabrında parlamentin 2-ci iclasındakı çıxışında, azərbaycançılıq ideyasının hansı şəraitdə yaranmasını göstərmək üçün deyirdi: "Bizim yaxın məqsədlərmizdən biri olan Azərbaycan muxtariy-yətini tələb edərkən həm sağdan, həm də soldan hücumlara düçar olurduq. Sağdaklar bir nöqtədən Azərbaycan muxtariyyətini inkar edirdilər. Sağdan deyirdilər ki, Azərbaycan-Azərbaycan deyə müsəlmanları parçalayır, türklük bayrağı qalxızarkən – nəuzu billah (Allah eləməsin – F.Ə.)- İslama xətər vurursunuz. Soldan da iddia edirdilər ki, Azərbaycan davası bizi inqilabçı, hürriyyətpərvər

Rusiya demokratiyasından ayırır, xan, bəy hökuməti düzəltməyə səbəb olur… Daima Azərbaycan məfkurəsinin müdafiəçisi olan firqəmiz üçün bu gün o böyük məqsəd hasil olmuşdur. Çünki artıq gərək sağlar, gərəksə sollar Azərbaycanı inkar deyil, var qənaətlərilə isbat edirlər. Çünki artıq Azərbaycan fikri üzərində müsəlman firqələri arasında ixtilafi-nəzər yoxdur. Çünki cəmiyyətimizin zehnində Azərbaycan istiqlalı fikri yer tutmuş, yerləşmişdir. Çünki üçrəngli o məğrur bayraq artıq siyasətən hamımızı birləşdirmişdir" [34, 50].

Deməli, o dövrdə türkçülükdən Azərbaycan milli ideyası – azərbaycançılıq yaranmış, onun nüvəsində də Azərbaycan türkləri başda olmaqla, bütün azərbaycanlılar durmuşdur. Bu baxımdan, hazırda azərbaycançılığı türkçülüyə alternativ olaraq göstərməyin, üstəlik sonuncunu onun tərkibində əritməyin nə tarixi, nə də ciddi elmi əsasları yoxdur. Çünki həmin dövrdə "azərbaycançılıq" anlayışına, ən yaxşı halda türkçülüyün etnik adı - Azərbaycan türkçülüyü kimi müraciət olunmuşdur. Bunu, M.Ə.Rəsulzadə belə ifadə etmişdi: "Millət məhkumluğu acısını dadmış Azərbaycan türkü məhkum millət yaratmaz! Azərbaycan Cümhuriyyəti övladını ögey-doğmaya ayırmaz: erməni, rus, yəhudi, gürcü, nemes, polyak və sair azlıqda qalan millətlər Azərbaycan vətəndaşı olmaqla bərabər milli-mədəni muxtariyyətə malik olub, öz dini, milli və mədəni işlərini özləri idarə etməlidirlər" [34, 53-54].

Azərbaycan Parlamentindəki çıxışlarının birində M.Ə. Rəsulzadə onu da qeyd edirdi ki, Azərbaycan milli-demokratları yalnız türkçü və demokrat deyil, həm də **federalistdirlər – gələcəkdə Türk Federasiyası**nın yaranmasını istəyirlər: "Bizim federalist, türkçü və demokratizm məsləkimiz milli-demokrat məsələsidir. Demokratlığımız radikalizm dərəcəsinə qədər vardır. Millətin qüvvətli bir birləşdirici ümumi cəhətini yalnız dinə deyil, xalqın "dili dilimdən, dini dinimdən" deyə özünəməxsus sağlam hisslə dərk elədiyi düsturda görürüz. Bu mülahizə ilə biz məfkurəmizdə böyük bir türk millətinin bir gün gəlib də bir Türk

Federasyonu qurmaqla bütün görmək istəriz! Bu ittihadın bəşər mədəniyyəti sərgisinə qiymətli bir milli kültür bəxş edəcəyinə əminiz!" [34, 51]. Beləliklə, Azərbaycan Cümhuriyyət dövründə M.Ə.Rəsulzadə milli-demokratik cərəyanın əsasını təşkil edən türkçülük, islamçılıq, müasirləşmək və azərbaycançılıq ideyalarına sadiq qalmaqla yanaşı, gələcəkdə türk millətlərinin Türk Federasiyası yarada bilməsinin mümkünlüyünü də irəli sürürdü. Türk Federasiyası ideyasının gerçəkləşməsi ilə bağlı real olaraq, Azərbaycan Cümhuriyyətinin məktəblərində ümumi türk tarixi tədris edilmiş, türk dili məktəblərdə məcburi şəkildə keçilmiş, dövlətin rəsmi dili elan olunmuşdur [189, 79].

Ən əsası odur ki, tarixçi alim Aydın Balayevin də qeyd etdiyi kimi, M.Ə.Rəsulzadə XX əsrin əvvəllərində azərbaycançılıq konsepsiyasının bitkin, bütöv sistemini işləyib hazırlamış və bu konsepsiya nəticəsində də dünyanın siyasi xəritəsində "Azərbaycan" adlı dövlətin yaranması mümkün olmuşdır [51, 8-9]. A.Balayevə görə, Rəsulzadənin və "müsavatçılığ"ın ciddi opponentlərindən biri hesab olunan N.Nərimanov da etiraf edərək bildirmişdir ki, Azərbaycanın istiqlal ideyası M.Ə.Rəsulzadənin lideri olduğu "Müsavat" partiyası ilə assosiasiya olunur [51, 66; 259, 499]. Y.Qarayevin təbrincə desək, bu isə o deməkdir ki, Məhəmməd Əmin Atatürklə yanaşı, Türk xalqlarının XX əsrdə dünyaya verdiyi iki müdrik ərindən, iki türk dahisindən biridir: "İki türk xalqının iki xilaskarı bu adlar oldular. Türk adını millətlərin və xalqların demokratiya, hüquqi dövlət və istiqlal xəritəsinə hətta Atatürkdən də əvvəl Rəsulzadə həkk etdi… Məncə, indi Atatürkün əsil məqbərəsi heç də Türkiyədəki ən möhtəşəm daş-divar, bədii abidə kompleksi deyildir, yox: azad, münəvvər, suveren Türkiyənin özüdür. Və Məhəmməd Əmin Rəsulzadə də Azərbaycanda yalnız belə bir möhtəşəm abidəyə, mənəvi mehraba, milli məbədə köç edə, əbədi qayıda bilər" [127, 126]. Bütün bunları təsdiq etməklə yanaşı, biz isə hesab edirik ki, ümumilikdə XX əsrdə Azərbaycan ədəbiyyatına, tarixinə,

mədəniyyətinə də M.Ə.Rəsulzadə qədər diqqət yetirən, bunları qələmə alan, qiymətləndirən ikinci bir azərbaycanlı mütəfəkkir yoxdur. Bu baxımdan Məhəmməd Əmin mədəniyyətimizin, adət-ənənələrimizin, milli dövlətçiliyimizin unudulmaması və yaşadılması üçün əlindən gələni etmiş, yeni nəslin yaddaşında əbədi bir iz buraxmışdır [81, 260].

Göründüyü kimi, 20-ci əsrin əvvəllərində ictimai-siyasi və fəlsəfi fikrin milli-demokratik yönü birmənalı şəkildə millətçilik (Türk birliyi), islamçılıq (İslam birliyi), qərbçilik (Qərb mədəniyyətini mənimsəmək və müasirləşmək-yeniləşmək) və istiqlalçılıq (müstəqil Azərbaycan) ideyaları ilə bağlı olmuşdu. Burada başlıca məqsəd milli və dini məsələlərin əsas prinsiplərindən kənara çıxmamaq şərti ilə Qərbin müsbət demokratik dəyərlərini də təbliğ etmək idi. Deməli, bu dövrdə milli-demokratik cərəyan Azərbaycan ictimai-fəlsəfi fikrində önəmli yer tutmuşdur.

Bu dövrdə Azərbaycan türk aydınlarının böyük əksəriyyəti (Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə, Ə.M.Topçubaşı, N.Yusifbəyli və b.) milli fəlsəfi dünyagörüşlərində əsas üstünlüyü milli-dini xüsusiyyətlərə və liberal-demokratik dəyərlərə vermişlər. Bu aydınlar dövrünün tələblərini və ideyalarını da nəzərə almaqla milli və dini dəyərlərə sadiq qaldılar. Onlar Azərbaycan-türk millətinin fəlsəfi, mədəni və dini dünyagörüşü əsasında yeni ideyalar irəli sürdülər. Bu ideyalar idealist dünyagörüşdən əsasən kənara çıxmamış və milli fəlsəfi fikir zəminində təşəkkül tapmışdır. Məhz bu aydınların irəli sürdüyü ideyalar nəticəsində Azərbaycan çar Rusiyasının müstəmləkəsindən qurtularaq azad və müstəqil bir dövlətə çevrilmişdi. Belə ki, ilk rüşeymləri XIX əsrin ikinci yarısında qoyulan və XX əsrin əvvəllərində sistemləşən milli azadlıq ideyası Azərbaycan Cümhuriyyətinin yaranması (1918) ilə nəticələndi. Ölkənin siyasi-ideoloji mənzərəsinin dəyişməsində I (1905) və II (1917) Rusiya inqilabları çox mühüm rol oynadı. Şübhəsiz ki, bu inqilablar dövründə xalq arasından milli liderlərin,

ideoloqların xalqı öz arxalarınca aparmaları müstəsna yerə malikdir. Məhz onların sayəsində yeni dövrdə Azərbaycanda milli ideologiyanın təməl prinsipləri müəyyənləşdirildi. Azərbaycanın siyasi azadlığı milli muxtariyyətdən milli istiqlala qədər çox mühüm bir mərhələ keçmiş oldu. Ən əsası odur ki, "tarixi-coğrafi Azərbaycan" deyimini, müstəqil və milli Azərbaycan anlayışı əvəz etdi. Milli istiqlalın birmənalı şəkildə ideoloqu olan M.Ə.Rəsulzadə Azərbaycan türkçülüyü ideyasını Azərbaycan milli ideologiyasına qədər yüksəldə bilmişdi.

Doğrudur, Milli Şuranın o cümlədən, Azərbaycan hökumətinin böyük uğurları ilə yanaşı, onların iradəsinin zidd olan, ancaq məcburiyyət qarşısında "İrəvanın ermənilərə güzəştə gedilməsi" kimi bəzi uğursuzluqları da olmuşdur. Fikrimizcə, İrəvanın ermənilərə güzəştə gedilməsi indiki şəraitdə ciddi siyasi səhv sayılsa da, həmin dövrdə Azərbaycan Cümhuriyyətinin liderlərinin, o cümlədən Xoyskinin bunu etməmək üçün böyük imkanları olmamışdır. Onlar bu addımı atdıqları dövrdə Azərbaycan Cümhuriyyətinin bir əsgəri belə yox idi. Üstəlik, Azərbaycanın Bakı kimi mühüm sənaye və siyasi mərkəzi başda olmaqla, şərq hissəsinin rus-erməni birləşmələrinin nəzarəti altında olduğu bir dövrdə, Azərbaycan Milli Şurasının erməni milli şurasının bu təklifi qarşısında dirənməsi vəziyyəti daha da gərginləşdirə bilərdi. Bunu, arxalarında bir sıra beynəlxlaq qüvvələrlə yanaşı Sovet Rusiyasının dayandığı erməni milli şurası da yaxşı anlamış, məhz Azərbaycan üçün son dərəcə əlverişsiz bir şəraitdə İrəvanı onlardan istəmişdi. Bunu, Fətəli xan parlamentdəki ilk çıxışında da dolayısıyla etiraf etmişdir: "Hökumətimiz öylə bir zamada təşəkkül etmişdi ki, bir kənddən o biri kəndə getmək qorxulu idi. Gecə yatanda sabaha çıxmaq ümidi yox idi. Heç kəsin irzi, namusu, canı, mali əmniyyətdə deyildi… İdarələrin adı var isə də, özü yox idi. Hərə başına beş-on adam yığıb bir hökumət, bir qanun düzəltmiş idi. Güclü olanlar özünü ağa hesab edirlərdi" [87^{b}, 112].

Hər halda, heç bir əskəri qüvvətə malik olmayan Milli Şura ondan fərqli durumda olan, yəni bir tərəfdə Azərbaycaın şərq hissəsində faktiki hakimiyyətə malik olan S.Şaumyanın başçılıq etdiyi bolşevik-daşnaklara, digər tərəfdən Azərbaycanın qərb hissəsində İrəvan, Naxçıvan və ona yaxın ərazilərdə işğalçılıqla məşğul olan Andranikin quldur qüvvələrinə qarşı çıxmaq üçün ciddi əsgəri qüvvəyə ehtiyacı var idi. Belə bir yeganə ümid yeri isə Türkiyə idi. Xoyski də bunu etiraf edirdi: "Daxili işlər böylə ikən Azərbaycan istiqlalı elan edilmişsə də, heç bir hökumət tərəfindən təsdiq edilməmişdi. O zaman bütün Azərbaycan tərəfindən seçilmiş Milli Komitə bu hökuməti təyin edib idarə işlərini ona tapşırdı. Məni rəis seçərək idarəyə başladıq. Türkiyə ilə sülh əhdinaməsi tezliklə bağlandı. Bununla bərabər hökumət qanun və qayda barəsində aciz idi. Zira heç bir tədbir qüvvəmiz və silahımız yox idi. Aşkar hökumət təşkil etməyə məcbur idik, lakin bunu da edə bilməzdik. Ona görə bir qüvvəyə lüzum görürdük, sülh müzakirəsi vaxtı türklərdən bir qədər əskər almaq iltizam edildi… Bu təklif ilə başqasına müraciət etmək mümkün deyil idi. İstəsək də bir fayda olmaz idi. Türkiyə həm dindaşımız, həm də millətdaşımız idi" [87^{b}, 113].

Fikrimizcə, bəlkə Azərbaycan və Osmanlı imperiyası arasında hərbi əməkdaşlıqla bağlı Batum müqaviləsi iyunun 4-dən öncə imzalansaydı, məsələ bir qədər fərqli ola bilərdi. Ancaq bu da, faktiki mümkün deyildi. Belə ki, Gürcüstanın Zaqafqaziya seymindən çıxıb müstəqilliyini elan etməsi (26 may), bunun ardınca erməni milli şurasının İrəvanı Azərbaycan Milli Şurasından istəməsi (28 may) müəyyən qədər də olsa, onlar üçün bir tərəfdən gözlənilməz olmuş və hazırlıqsız vəziyyətdə yaxalanmış, digər tərəfdən Xoyskinin təbrincə desək: "Bu xüsusda çox sözlər ola bilər. Fəqət vaxta baxıb tərəziyə qoyulmalıdır ki, bu işləri hansı hökumət və nə vaxt etmişdir? Tarixi, sabiqəsi, əskər və xəzinəsi olan hökumətmi? Yoxsa iki gündə təşkil olunmuş pulsuz və əskərsiz hökumətmi?" [87^{b}, 113].

Ancaq bu məsələ də o da nəzərə alınmalıdır ki, Milli Şura üzvləri müəyyən şərtlərlə – ermənilərin İrəvan, Naxçıvan və digər ərazilərmizdən iddialarını əl çəkməsi və müharibəni dayandırması halında belə bir güzəştə getmişdir. Ermənilərin buna əməl etməyəcəyi təqdirdə isə Milli Şuranın həmin qərarı qüvvədən düşmüş hesab olunacaqdı. Hər halda, Fətəli xan Xoyski və onun silahdaşları (M.Ə.Rəsulzadə, N.Yusifbəyli və b.) həmin dövrdə Azərbaycan xalqı, Azərbaycan dövləti üçün mümkün olan nə var idisə, onu da etdilər. Bununla da onlar müəyyən uğursuzluqlara baxmayaraq adlarını tarixin qızıl səhifəsinə yazdılar. Şübhəsiz, bunların arasında ən alisi Azərbaycan Cümhuriyyyətinin istiqlalı idi. 1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinin ilk təsis iclasında Fətəli Xan Xoyskinin çıxışının ana məzmunu o idi ki, Azərbaycan xalqı artıq milli bayrağı, milli ordusu, milli dili, milli demokratiyası və sair olan müstəqil bir dövlətdir: "Qüvvəmiz qədər vəzifəmizi ifa etdik. Hələ çox şey edə bilməmişik, amma bunu cürətlə deyə bilərəm ki, hökumətin nöqsanları ilə bərabər yol göstərən işıqlı ulduzu bu şüar olmuşdur: Millətin Hüququ, İstiqlalı, Hürriyyəti" [34, 38].

Xoyski parlamentdəki çıxışlarında Azərbaycanda milli-dini ayrı-seçkiliyin olmamasını dəfələrlə bəyan etmişdir. O deyirdi ki, Azərbaycandakı müsəlman türk milləti heç bir zaman bu Vətəni özlərinə tək övlad kimi görməyiblər. Yəni Azərbaycan Cümhuriyyəti bütün etnoslar üçün Vətəndir və onların bütün hüquqları və azadlıqları qorunur. Ona görə də, Azərbaycanın əsas sütunu olan türklər deyil, bütün etnoslar Milli İstiqlalı daima qorumalı və müdafiə etməlidirlər: "Hökumətin qabağında mühüm bir məsələ var isə də, o da istiqlaliyyət məsələsidir. Bizim birinci məsələmiz budur. Buna diqqət edəcəyiz. Sizlərdə buraya hər bir yerdən gəlmiş olduğunuz onu göstərir ki, bu istiqlaliyyət tək adamların dediyi olmayıb, bütün millətin xahişidir. Bir yerdə millətin xahişi olsa və o yerdə çalışsa, o millət azad olsa öz məqsədinə çatacaqdır" [87^{b}, 129].

Qeyd edək ki, Xoyski 1920-ci il yanvarın 11-də Azərbaycan Cümhuriyyətini Paris sülh konfransının iştirakçı dövlətlərinin (Fransa, İngiltərə, ABŞ və b.) tanımasını böyük sevinclə qarşılamış və bununla bağlı parlamentdəki çıxışında demişdir: "Bu yalnız bizim üçün deyil, ümum türk milləti və türk aləmi üçün böyük bir bayramdır. Böylə bir günü dərk etmək üçün qeyri-millətlər on illərlə çalışmışlar. Biz isə onu az müddətdə bir il yarım içərisində qazandıq. Böylə az müddətdə istiqlaliyyətini alan bir millətin onu möhkəm saxlayacağına əminəm" [87^{b}, 140]. Həmin dövrdə Azərbaycan parlamentinin sədr əvəzi olmuş Həsən bəy Ağayev isə Azərbaycan türklərinin azadlığını belə dəyərləndirmişdi: "Türk xalqı azadlığı qanı ilə satın almışdır və onu heç vaxt əldən verməyəcəkdir. Azadlıq meyvəsini dadmış olan xalq bir daha zülmətli keçmişə qayıtmaz. Azad Azərbaycan - ziyalıdan tutmuş fəhlə və kəndliyə qədər bütün türk xalqının varlığına hopmuş bir idealdır" [105, 74].

Beləliklə, İslam-Türk dünyasında ilk dəfə Cümhuriyyət quran, demokratiya yolu tutan Azərbaycan türklərinin bu dövrdə gördükləri böyük işlər xələfləri-biz Azərbaycan türkləri, bütün azərbaycanlılar üçün əbədi olaraq yolumuza işıq salır. Cümhuriyyət dövründə təməli qoyulmuş milli-demokratik ənənələr - çağdaş dünyada hökm sürən dövlətçilik üsul və qaydaları, insan hüquq və azadlıqları Azərbaycanın şimalında yaşayan türklər üçün gerçək bir əməl, quzeyndəki soydaşlarımız üçün isə ümid işartılarıdır. Azərbaycan Cümhuriyyəti kimi tanınan bu milli-demokratik dövlətin qurucuları önündə, dünyanın hansı bölgəsində yaşamasından asılı olmayaraq hər bir Azərbaycan türkü, azərbaycanlı baş əyməli, onların xatirələrinə hörmət göstərməlidirlər. Ən azı ona görə ki, Cümhuriyyətin qurucuları Azərbaycan türklərinə, bütün azərbaycanlılara böyük və müqəddəs bir ad əmanət qoyublar: Azərbaycan Cümhuriyyəti!!!

Mənim zərrə qədər də şübhəm yoxdur
ki, Serqo və Stalinin simasında AKP MK
biz türklərə etibar etmir və Azərbaycanın
taleyini erməni daşnaklarına tapşırır!
Nəriman Nərimanov

II FƏSİL

SSRİ dövründə (1920-1991-ci illər) Azərbaycan milli ideologiyasının həlli yolları (millilik və beynəlmiləlçilik)

2.1. "Sovet Azərbaycanı" ideyası: milli təmayülçülük və sovet beynəlmiləlçiliyi

Azərbaycan Cümhuriyyəti Sovet Rusiyası tərəfindən işğal olunduqdan (1920) sonra ən önəmli siyasi-ideoloji məsələlərdən biri "Sovet Azərbaycanı" ideyasının hansı şəkildə reallaşması ilə bağlı olmuşdu. Başqa sözlə, ilk növbədə, Sovet Azərbaycanının müstəqil, yoxsa Mərkəzdən asılı və onun rəhbərliyinin etnik tərkibinin hansı formada, yəni beynəlmiləl, yoxsa milli kadrlardan təşkil edilməsi məsələsi gündəmə gəlmişdi. Şübhəsiz, bütün bunlar Sovet Azərbaycanının digər sahələrinə – mədəniyyət, dilçilik, etnoqrafiya, din, fəlsəfə, ədəbiyyat və sairəyə də öz təsirini göstərmişdi. Bu baxımdan hesab edirik ki, "Sovet Azərbaycanı" ideyası ilə bağlı siyasi-ideoloji mübarizədə aşağıdakı bir neçə başlıca məsələ daima müzakirə obyekti olmuşdur:

1) Milli məsələ;
2) Milli mədəniyyət və ədəbiyyat problemi;
3) Milli dil və əlifba məsələsi;
4) İslam dininə münasibət.

Şübhəsiz, bu məsələlər ideoloji xarakterli olduğu üçün bir-biri ilə bağlı olmuşlar. Xüsusilə, milli məsələ birmənalı şəkildə siyasi-ideoloji məzmun daşıması baxımından həmişə işğalın ilk ilindən (1920) son ilinədək (1991) həlledici rol oynamışdır. Ona görə də, işğalın ilk günlərindən başlayaraq birnci növbədə, milli məsələnin hansı şəkildə həllindən çox şey asılı idi. Bu baxımdan işğalçı ruslar ilk dövrlərdə, bir tərəfdən həm öz maraqları naminə, həm də bir qədər də məcburiyyətdən, sözdə müstəqil Sovet Azərbaycanını tanıdıqlarını bəyan etsələr də, reallıqda onun siyasi, hüquqi, iqtisadi və s. azadlıqlarını əlindən alaraq müstəmləkə vəziyyətinə salmağa çalışırdılar.

Yeri gəlmişkən, istər ötən əsrdə, istərsə də günümüzdə bəzi tədqiqatçılar (Türkiyə, Azərbaycan və b.) hesab edirlər ki, Azərbaycan Cümhuriyyətini xilas etmək üçün kommunistləri hakimiyyətə M.Ə.Rəsulzadə və onun silahdaşları dəvət etmişlər. Məsələn, çağdaş Türkiyə tədqiqatçılarından Kənan Ərzurumlu "Türklüyə baxış" əsərində yazır ki, türkçü düşüncənin siyasət və dövlət həyatında aktiv yer alması, ancaq Atatürklə bağlıdır: "Dahası, Atatürkdən öncə siyasət səhnəsində yer alan türkçü kadrların tamamı maaləsəf başarısız olmuşlar. Ənvər və Camal paşaların aqibəti, Orta Asiya və Azərbaycanda türkçü sosialistlər deyə biləcəyimiz Sultan Qaliyev, Nəriman Nərimanov və Turar Rıskılovun sonları, böyük türkçü ideoloq Məhəmməd Əmin Rəsulzadənin 1918-də qurulan Azərbaycan Cümhuriyyətinə qurtarıcı olaraq kommunistləri dəvəti bu başarısızlıqların göstərgələridir" [238, 16, 181].

Bizə elə gəlir ki, bu türk tədqiqatçı Azərbaycan Cümhuriyyətini qurtarmaq üçün Rəsulzadə tərəfindən kommunistlərin hakimiyyətə dəvət edilməsini məsələsini səthi şəkildə, məsələnin mahiyyətinə varmadan qələmə almışdır. Çünki həmin dövrdə Azərbaycan Cümhuriyyətinin süqutu və yerli kommunistlərin hakimiyyətə dəvət edilməsi M.Ə.Rəsulzadə və onun silahdaşlarının türkçülük ideolojisinin

uğursuzluqları ilə deyil, iki önəmli: 1) Sovet Rusiyası ordusunun Türkiyəyə yardım adı ilə Azərbaycan sərhədlərinə yaxınlaşması; 2) Sovet Rusiyasından hərbi yardım istəyən Türkiyənin buna ehtiyacının olması məsələləri ilə bağlı olmuşdur. Deməli, Sovet-Rus ordusu Azərbaycan Cümhuriyyətinin milli hökumətini devirmək üçün Türkiyəyə hərbi yardım bəhanəsindən maksimum istifadə etmişdir. Bolşeviklər yaxşı anlayırdılar ki, Azərbaycan milli hökuməti vaxtilə ona hər cür yardım edən xilaskar Türkiyənin əleyhinə heç bir addım atmayacaqdır. Bolşeviklərin təxmin etdiyi kimi də oldu, 1920-ci il aprelin 27-də Sovet-Rus ordusu Türkiyəyə hərbi yardım adı ilə Azərbaycanı işğal etdi. Belə bir anda, heç olmasa Azərbaycan adlı bir dövlətin yaşaması naminə, milli hökumət: Azərbaycanın tam müstəqilliyinin qorunub saxlanılması, yeni yaranan hökumətin müvəqqəti orqan olması, hökumət idarələrindəki köhnə qulluqçuların tutduğu vəzifələrində qalması, hökumət və parlament üzvlərinin həyat və mülkiyyətlərinin toxunulmazlığının təmin edilməsi, Azərbaycan ordusunun saxlanılması, siyasi partiyaların sərbəst şəkildə fəaliyyət göstərməsi, XI Qırmızı ordunun dəmiryolu ilə birbaşa Türkiyənin yardımına getməsi şərtləri ilə hakimiyyəti yerli kommunistlərə təslim etdi [35, 978-979].

Bəzi tədqiqatçıların yazdığının əksinə olaraq Rəsulzadə həmin dövrdə Sovet Rusiyasının Türkiyəyə yardım bəhanəsindən istifadə edərək Azərbaycanı işğal edəcəyini anladığı üçün, parlamentin son toplantısında hakimiyyətin yerli kommunistlərə təslim edilməsinin əleyhinə çıxmışdır. O, bəyan edirdi ki, Sovet-Rus ordusunun Türkiyəyə yardım etməsi naminə Azərbaycanın qapıları bolşeviklərin üzünə açıq olsa da, bu onun müstəqilliyi bahasına başa gəlməməlidir: “Bizə deyirlər ki, hüdudunuzu keçən ordunun başında Nicati adında bir türk komandanı durmuşdur. Rusiyadan gələn bu mötəcaviz ordu təmin edirlər ki, həyat və məmat mücadiləsində qalan Türkiyəni

xilas üçün gedir. Əfəndilər, Türkiyə Azərbaycanın xilaskarıdır. Amali milliyyətimizin təbcil eylədiyi müqəddəs bir məmləkətdir. Onun xilasına gedən qüvvəti biz məmnuniyyətlə istiqbal və teşyi edərik. Fəqət bir şərtlə ki, bu qüvvət bizim hürriyyətimizi, istiqlalımızı çeynəməsin. Halbuki, əfəndilər, bizə sormadan hüdudumuzu keçən hər hansı bir qüvvət dostumuz deyil, düşmənimizdir... Biz buraya millətin iradə və arzusuyla gəldik, bizi buradan yalnız qüvvət və süngü çıxarmalıdır" [230, 146-147]. Ancaq Rəsulzadənin də yazdığı kimi, həmin dövrdə "türklərin Azərbaycan üzərində mənəvi nüfuzundan istifadə ilə bolşeviklər Yaxın Şərqdə özlərini o qədər sevdirə bildilər ki, bunlar müsəlmanların könülünü fəth edərək, Azərbaycanın istila deyil, əksinə, İstanbulu belə qurtaracaqlarına inandırdılar… Hətta iş o mərhələyə gəlmişdi ki, küçə baqqalları belə bolşevikin, artıq gördükləri "spekulyasion" düşməni olmadığına inanmışdılar, dargörüşlü ittihadçılar da Qarayevin qızıl yalanlarına qapılmışdılar. Düşünürdülər ki, Rusiya gələcək, Ermənistanı ortadan qaldıracaq və ordularını Mustafa Kamal Paşanın yardımına göndərəcəkdir. Yalanın ömrü az olur. Xalq hikmətincə açıq olan bu həqiqət bir daha isbat olundu" [188, 50-51].

Göründüyü kimi, Azərbaycan Cümhuriyyətinin işğalında Rəsulzadə və onun silahdaşlarının türkçü ideolojisinin başarısızlığı deyil, A.Balayevin də qeyd etdiyi kimi, Türkiyə və Sovet Rusiyası arasındakı isti münasibətlər həlledici rol oynamışdır [51, 198-199]. O zaman Türkiyənin rəhbərləri başda Mustafa Kamal olmaqla, hesab edirdilər ki, az qala bütün Qərb ölkələrinin Türkiyəyə müharibə açdıqları bir vaxtda türklərin bolşeviklərlə, yəni Sovet Rusiyası ilə əməkdaşlıq etməsi məcburidir [25, 12-13]. Xüsusilə, Türkiyə və Azərbaycandakı bəzi kommunist düşüncəli qüvvələrin (Xəlil paşa, Kazım Qarabəkir paşa, N.Nərimanov, Ə.Qarayev və b.) Sovet Rusiyasına həddən artıq etimad göstərməsi, xüsusilə Azərbaycan

Milli hökumətinin Sovet hökuməti ilə əvəz olunmasının zəruriliyi ilə bağlı mülahizələr Azərbaycanın faciəsi, yəni Milli hökumətin devrilməsi ilə nəticələnmişdir. Hər halda, bunu yalnız Azərbaycan tədqiqatçıları deyil, bir sıra Türkiyə alimləri – Tarık Zafer Tunaya, Doğan Avçıoğlu, Səlahəddin Tansel, Aclan Sayılqan və başqaları da etiraf ediblər [52, 261; 25, 66]. Bu baxımdan Azərbaycan Cümhuriyyətinin süqutunda milli ideoloqların başarsızlığını önə çəkmək bir o qədər də inandırıcı deyildir.

Sadəcə, etiraf etmək lazımdır ki, Türkiyənin və Azərbaycanın bəzi ideoloqları (Mustafa Kamal, Xəlil paşa, N.Nərimanov və b.) ilk dövrlərdə, doğrudan da Sovet Rusiyasına etimad göstərmiş, onun sovetləşmə ideyasının Azərbaycanda reallaşmasında ya maraqlı olmuş, ya da bu prosesdə birbaşa şəkildə iştirak etmişlər. Ancaq sonralar onlar Sovet Rusiyasının "sovetləşmə" ideyası adı altında işğalçılıq siyasətini anlamışdılarsa da, artıq çox gec olmuşdur. Bunu, Türkiyə Cümhuriyyətinin qurucusu Atatürk də, Sovet Azərbaycanının rəhbəri N.Nərimanov da etiraf etmişlər. Yəni onlar "sovetləşmə"dən Azərbaycanın, müəyyən mənada da Türkiyənin də qazanacağını ümid etdikləri halda, Sovet Rusiyasının iküzlü və riyakar siyasəti nəticəsində, N.Nərimanovun təbrincə desək, Azərbaycan yalnız müstəqilliyini deyil, həm də torpaqlarını itirmişdir.

Hər halda, işğalın ilk günlərində dünya dövlətləri, o cümlədən Türkiyə qarşısında müstəmləkəçilik siyasətini pərdələmək üçün sözdə müstəqil Sovet Azərbaycanını rəsmən tanıdığını bəyan edən Sovet Rusiyası çox keçmədən, İ.V.Stalinin "kommunistlərin bir hissəsinin digərindən müstəqilliyi ola bilməz" mülahizəsi ilə onun müstəqilliyinin formal olduğunu da ortaya qoymuşdu [45, 56]. Bu məqsədlə də Moskvadan Bakıya göndərilmiş bolşevik emissarları – Pankratov, Q.N.Kaminski, S.Orconikidze, Lominadize,

S.M.Kirov, L.Mirzoyan, Sarkis, A.Mikoyan və başqaları Azərbaycanda hər cür milliliyin əleyhinə mübarizə aparmış, milli ziyalılara qarşı repressiya siyasəti yürütmüşlər. Bu baxımdan ABŞ tədqiqatçısı Tadeuş Svyatoçovski "Rusiya və Azərbaycan: sərhədyanı bölgə keçid dövründə" əsərində doğru yazır ki, Sovet rejimi "həm Azərbaycanda yerli dar düşüncəni, həm də güclü şəkildə ruslaşdırmanı təşviq edirdi. Bu iki istiqamətdə aparılan əməliyyat keçmişlə əlaqələri kəsmək və Azərbaycanın sovet sisteminə inteqrasiya edilməsini sürətləndirmək məqsədi güdürdü" [203, 174]. Beləliklə, Mərkəzin müstəqil Sovet Azərbaycanı ideyasına qarşı olan bu cür mövqeyindən, yəni bir tərəfdən vəd verilmiş müstəqilliyin təmin edilməməsi, digər tərəfdən isə Sovet Azərbaycanı rəhbərliyinin rus, erməni, yəhudi və onların yerli əlaltılarından ibarət olması milli məsələnin meydana çıxmasına səbəb olmuşdu. Milli məsələyə münasibətdə isə bir-birinə əks cəbhədə dayanan iki qüvvə: 1) "sollar"; və 2) "sağlar" var idi.

Azərbaycan "sollar"ının Mərkəzə meyilli siyasəti. Mərkəzin müdafiə etdiyi "**sollar"** adlandırılan müstəmləkəçi-mərkəzçi bolşeviklərin arasında yuxarıda adını çəkdiyimiz qeyri-türk kommunistlərlə yanaşı, yerli kommunistlərdən S.Ağamalıoğlu, R.Axundov, M.D.Hüseynov, Ə.Qarayev və başqaları Rusiya təcrübəsini Azərbaycanda zorla həyata keçirməyi, milli adət-ənənələrə məhəl qoymamağı, milli kadrlara inanmamağı, Bakını qəzalara qarşı qoymağı təklif edirdilər. "Solların" antimilli təkliflərindən biri Bakını Azərbaycandan ayırmaq idi. Kirov və Mirzoyan Bakı haqqında deyirdilər ki, Bakı türk şəhəri deyil, beynəlmiləl proletar şəhəridir, ona görə də birbaşa Rusiyanın ərazisinə qatılmalıdır. Eyni zamanda "sollar" hesab edirdilər ki, Azərbaycan müstəqil olmamalı və o, Sovet Rusiyasına birləşdirilməlidir. Bu baxımdan "sollar" Sovet Azərbaycanının əvvəlcə Zaqafqaziya Federasiyası əsasında birləşməsinin, daha sonra isə Rusiyanın

tərkbinə qatılmasının tərəfdarı kimi çıxış edir, həmçinin rəhbərlikdə təmsil olunanların beynəlmiləl tərkibi ilə razılaşırdlar. Çünki "sol" cərəyana görə milliyyət, millət, milli mədəniyyət və milli istiqlal keçmişə aid və məhv olmağa məhkum anlayışlardır [154[a], 65].

Milli məsələ ilə bağlı ilk dövrlərdə, yəni 1920-1930-cu illərdə "sollar" mübarizəni "sağlar"dan hesab olunan N.Nərimanov, müəyyən qədər isə Ə.Xanbudaqov, M.Xanbudaqov və başqalarının "millətçi-təmayülçü" xətlərinə qarşı aparmışlar. Milli məsələdə Mərkəzin hərtərəfli dəstəyini alan "sollar" onun köməkliyi ilə əvvəlcə N.Nərimanovun, daha sonra Ə.Xanbudaqovun Azərbaycan rəhbərliyindən uzaqlaşdırılmasına nail olmuşlar [42, 296, 311].

Qeyd edək ki, "Sovet Azərbaycanı" ideyasının bu gününə və gələcəyinə münasibətdə müstəqillik-millilik tərəfdarlarından ("sağlar"dan) fərqli olaraq, mərkəzçilik-beynəlmiləlçilik tərəfdarları ("sollar") öz fikirlərindən çıxış etmir, Mərkəzin, yəni Sovet Rusiyasının diqtəsi altında hərəkət edirdilər. Məsələn, Sovet Rusiyasının işğalı dönəmində özünü "bolşevik" kimi doğrultmaq istəyən "sollar"dan **Səməd Ağamalıoğlu** hesab edirdi ki, Sovet Azərbaycanı müstəqil olmamalıdır. Xüsusilə, Zaqafqaziya Federasiyasının yaranması uğrunda fəal mübarizə aparan Ağamalıoğlu marksizm-leninizmin "xalqlar dostluğu" ideyasından çıxış edərək yazırdı ki, ZSFSR-in birləşməsinin əlehinə olan millətçiliyin kökü kəsilməlidir. Guya, millətçilər- "sağlar" anlamalı idilər ki, Azərbaycan türkləri ilə ermənilər və gürcülər arasında heç bir milli fərq yoxdur: "Mən erməni kəndində yaşayarkən heç bir milli fərq hiss etməmişəm. Ona görə ki, bizim nağıl və mahnılarımız bir-birinə uyğun gəlir. Mən gürcülər arasında da çox yaşamışam, onların da adət və ənənələri bizimkinə çox yaxındır" [166, 23]. Həmin dövrdə fəal "sollar"dan **Əliheydər Qarayev** də hesab edirdi ki, Azərbaycan əsil istiqlalını 27 aprel

inqilabından sonra tapmışdı. Guya, buna sübut fəhlə və kəndlilərin hakimiyyətdə olmasıdır. Onun fikrincə, millətçilər fəhlə və kəndli hakimiyyətinə deyil, xaricdəki himayədarlarına söykəndiklərinə görə iflasa uğramışlar. Bununla yanaşı, o etiraf edirdi ki, onlara "istiqal" verən elə xarici quvvədir-Sovet Rusiyasıdır. Sovet Azərbaycanı da öz gələcək varlığını Sovet Rusiyasından ayrı tuta bilməz [168, 437].

Eyni mövqeni müdafiə edən "solçu" **Ruhulla Axundov** da yazırdı ki, Sovet Azərbaycanının Sovet Rusiyasından kənarda müstəqilliyinə ehtiyac yoxdur. Bu baxımdan Rusiyanın birbaşa təhriki ilə üç Cənubi Qafqaz dövlətinin birləşməsini milli sülhün möhkəmləndirilməsi kimi qiymətləndirən Axundov iddia edirdi ki, bu birləşmənin əleyhinə çıxış edən müsavat, daşnak və menşevik ziyalıları isə tək deyillər [20, 70]. Axundov özünü və özü kimi yerli bolşevikləri inandırmağa çalışırdı ki, ZSFSR-in yaradılması müsavatçıların dediyi kimi, istiqlaliyyətin məhv olması, millətin hüququnun tapdalanması demək deyildir. Əksinə, Cümhuriyyət dövründə istiqlal formal xarakter daşımış, güya əsil istiqlal Azərbaycanda sovet hakimiyyətinin qurulması ilə mövcud olmuşdu. Onun fikrincə, Fransa, İngiltərə və başqa dövlətlər Azərbaycan, Gürcüstan və Ermənistanın bir-birindən və bunların hamısının Rusiyadan tamamilə ayrılmasını tələb etməklə, qüvvələri parçalayıb Şura cümhuriyyətlərini asanlıqla aradan götürmək istəyirmişlər [20, 78]. Onun fikrincə, milli şovinizmə qarşı beynəlmiləlçilik, milli ədavətə qarşı sinfi ədavət, imperializmə qarşı isə kommunizm irəli sürülməlidir [20, 162].

Maraqlıdır ki, Axundov SSRİ dövründə baş qaldıran milli təmayülçülüyü isə Azərbaycan Cümhuriyyəti dövrü ilə əlaqləndirirdi. Guya, Milli hökumətin zamanında elə xəyanətlər, bərbadlıqlar törədilmişdir ki, məmləkətdə təxribatdan başqa bir şey qalmamışdır və bolşeviklər bu təxribatı aradan qaldırmalıdır. Ancaq az sonra o etiraf edirdi ki, əslində problem Cümhuriyyət

hökuməti ilə deyil, bolşeviklərin özü ilə bağlıdır. Daha doğrusu, Axundov Mərkəzin təsiri altında açıq şəkildə yaza bilmirdi ki, Azərbaycanda hakimiyyət Moskvanın buradakı erməni və rus mənşəli nümayəndələri əlindədir, bu da türklər-azərbaycanlılar arasında ciddi narazlıq doğurur. R.Axundov yalnız onu etiraf etməli olurdu ki, Azərbaycanda rəsmən Şura hökuməti elan olunsa da, ancaq bu yalnız Bakıda gerçəkləşmiş, digər yerlərdə nə varlılar, nə də yoxsullar onun gücünü tamamilə anlamamışlar. Çünki Şura hökuməti torpaqları varlıların əlindən alacağını, eləcə də qaçmış bəylərin və xanların torpaqlarını yoxsullara verəcəyini bəyan etsə də, bunlardan heç biri reallaşmamışdır. Ona görə də bolşevik R.Axundov Bakıdan kənarda qalan əyalətləri zorla sovetləşdirməyi təklif edirdi: "Kəndlərdə özümüzə möhkəm əsas qurmaq üçün hələ hərəkətsiz duran arasında şiddətli mübarizə törətmək lazımdır. O da birini yandırmaq, o birilərini qandırmaqdır. Qolçomaqları, müftəxorları və qoçuları soymaq, dilsiz, ağızsız, hürkəgən və məzlum yoxsulları doyurmaq. Bunu da kəndçilərin öz əllərilə başa gətirmək lazımdır. Qoy özləri boğuşsunlar, özləri didişsinlər. Biz isə yoxsul kəndçilərə bu didişmədə var qüvvəmizlə kömək edəcəyik, onlara yol göstərəcəyik" [20, 45]. Fikrimizcə, R.Axundovun bu "ideyası" yalnız onun fikirlərinin məhsulu deyil, bütövlükdə bolşeviklərin o dövrdəki dünyagörüşünün örnəyi idi. Azərbaycanda inqilabla hakimiyyətə gəldiklərini iddia etdikləri halda, Bakını çıxmaq şərtilə, hələ də yerlərdə bolşeviklərin qəbul olunmadığını etiraf edən və buna görə də, yerlərdə xalqı bir-birinə qırdırmaqla bolşevik "inqilabı" olması ideyası ilə çıxış edənlərə heç bir şəkildə bəraət qazandırmaq olmur. Bütün bunlar bir daha göstərir ki, "28 Aprel inqilabı" hansı şəkildə baş vermiş və Azərbaycan bolşeviklərinin bu inqilabda rolu nədən ibarət olmuşdur. R.Axundovun Azərbaycan kommunistlərinin 3-cü qurultayı münasibəti ilə yazdığı məqalədə bir daha etiraf etdiyi kimi, 1920-ci ilin

əvvəllərində AKP (b) "kiçik, zəif" [20, 54] bir təşkilat idi ki, bu qüvvə ilə Cümhuriyyəti devirmək əsla mümkün deyildir.

Azərbaycanda milli təmayülçülük cərəyanı. 1920-ci illərdə Mərkəzə-Moskvaya və onun müdafiə etdiyi "sollar"a qarşı mübarizədə əsas rolu "sağlar" adlandırılan **milli təmayülçülər** oynamışlar. Xüsusilə, Azərbaycan rəhbərliyində təmsil olunan "sağlar"dan Nəriman Nərimanov, Əyyub Xanbudaqov, Mahmud Xanbudaqov və başqaları hesab edirdilər ki, bolşevik ideyaları Azərbaycana tətqin edilərkən Rusiya təcrübəsi kor-koranə tətbiq edilməməlidir, yəni yerli şərait, milli adət-ənənələr, məişət xüsusiyyətləri nəzərə alınmalıdır. Eyni zamanda "sağlar" Sovet Azərbaycanının müstəqil bir respublika kimi qorunub saxlanılması, rəhbərlikdə əsasən, milli kadrların – Azərbaycan türklərinin təmsil olunması uğrunda mübarizə aparırdılar. Bir sözlə, onlar Sovet Rusiyasının Azərbaycanda apardığı mərkəzçilik-beynəlmiləlçilik siyasətinə etiraz edirdilər. Sovet Azərbaycanında mübahisə obyekti olan milli məsələni mühacirətdə izləyən M.Ə.Rəsulzadə yazırdı: "Heç bir repressiyaya baxmayaraq Azərbaycanda milli ovqat kommunizmi get-gedə daha çox üstələyirdi. Millətin və dövlətin müstəqilliyi ideyası təkcə xalq kütlələrinin geniş təbəqələrinə deyil, kommunistlərin özlərinin ən mərhəm dairələrinə də nüfuz edirdi. Azərbaycan Kommunist (b) Partiyasının katibi Xanbudaqova qədər hər cür təmayülçülüyün ana xətti "Mərkəz Azərbaycanın daxili işinə qarışmamalıdır" tələbindən gəlib keçirdi" [180, 36].

Milli təmayül xəttinin tərəfdarlarının başlıca prinsipləri aşağıdakılar idi: 1) Yerli türk xalqlarının tərbiyəsi və irəli çəkilməsi; 2) Müsadirənin dayandırılması; 3) Əhalini təmin etmək üçün xırda ticarətə yol verilməsi [231, 160]. "Sağlar" hesab edirdilər ki, milliyyət və milli mədəniyyət – ictimai və siyasi həyatda çox yüksək birər həqiqətdir. Onlar üçün milli mədəniyyətin və milli hakimiyyətin mənafeyi, proletar

mənafeyinin fövqündədir. "Sağlar" sovet şəraiti içərisində vücuda gələn milli həyatı, milli mədəniyyət və milli hakimiyyəti qayə və ideal halına qoymuşlardır [154[a], 65].

Milli məsələyə münasibətin ilk mərhələsində, xüsusilə 1920-1924-cü illərdə Sovet Rusiyasının Azərbaycanda apardığı müstəmləkəçilik ideologiyasına milli kommunist rəhbərlər arasında, ilk dəfə açıq şəkildə etiraz edən **Nəriman Nərimanov** olmuşdu. Onun milli məsələ üzrə siyasi-ideoloji baxışları "Ucqarlarda inqilabımızın tarixinə dair" məktubunda geniş şəkildə şərh olunmuşdu.

Ümumilikdə, Nərimanovun bu və başqa yazılarında milli məsələ ilə bağlı irəli sürdüyü mülahizələrdən belə nəticə çıxarmaq olar ki, o, müstəqil və milli Azərbaycan dedikdə, nə 27 aprel işğalına qədər, nə də işğaldan sonra heç vaxt onu Sovet Rusiyasından tamamilə ayrılıqda nəzərdə tutmamışdı [169, 9]. Yəni, o bütün hallarda Sovet Azərbaycanının varlığının Sovet Rusiyası ilə bağlı olmasını qəbul etmişdi. Nərimanov açıq şəkildə yazırdı: "Sovet Rusiyasız biz elə sabah mövcudluğumuza son qoyarıq…" [168, 426]. Sadəcə, Nərimanova görə Sovet Azərbaycanının müstəqil və milli siyasət yürütməsi Sovet Rusiyasının özünə də lazım imiş. Guya, Sovet Azərbaycanı müstəqil və milli olardısa, Şərq xalqları bundan ruhlanaraq milli azadlıq hərəkatlarına qoşular və Avropa kapitalizmi diz çökərmiş [168, 438]. Ancaq Nərimanov başa düşmək istəmirdi ki, Sovet Rusiyasının ilk növbədə məqsədi Avropa imperialistlərini deyil, Türk-İslam mədəniyyəti məhv etmək idi. Bu mənada, Nərimanov Sovet Rusiyasının bütün mənalarda ona bağlı olan bir şəxsə deyil, çox sonralar kommunist olmuş keçmiş menşeviklərə, eserlərə, hətta "müsavatçı"lara güvənməsini də vaxtında anlaya bilməmişdir. Çünki Nərimanov öz aləmində müstəqil və milli Sovet Azərbaycanı vasitəsilə digər Şərq xalqlarını da sosializm hərəkatına qoşmaq istəyirdi. Ancaq bu ideyasını həyata

keçirmək üçün Mərkəzin ona etibar etmədiyini, üstəlik bütün səlahiyyətləri Orconikidzeyə, Kirova, Mirzoyana və b. qeyri-türk kommunistlərə verdiyni görən Nərimanov yazırdı ki, onlar isə ətrafındakı xəbis adamları vasitəsilə onu milli təmayülçülükdə ittiham edirlər: "Mərkəz baş açа bilmirdi ki, nə üçün mən, 20 il bundan əvvəl öz romanımda beynəlmiləlçiliyi təbliğ etdiyim halda, o zaman ən çətin anda müsəlmanlar arasında hər cür dini inkar etdiyim halda, indi mənim milli təmayülüm olmalıdır, dünənki daşnak və ya müsavatçı isə beynəlmiləlçi olmalıdır. Burada məsələni belə qoymaq lazımdır: ya həqiqətən Mərkəz bu məsələdən baş açа bilmir, ya da o, ucqar respublikaların daxili işlərinə qarışmaq məqsədilə qəsdən bu "beynəlmiləlçilər"i irəli çəkir, müdafiə edir" [168, 438].

Nərimanov gec də olsa, sonralar anlamışdı ki, həmin dövrdə Sovet Rusiyasının Şərqdə sosializm inqilabı etmək kimi niyyəti olmamışdı. Belə bir niyyəti olmadığı üçün də Sovet Azərbaycanının milli və müstəqil olması sovet rəhbərlərinə heç cür əl vermirdi. Əksinə, Sovet Rusiyasına müstəmləkə və onun hər cür arzu və istəklərini qeyd-şərtsiz yerinə yetirən "beynəlmiləlçi" rəhbərlər lazım idi. Məhz N.Nərimanov Sovet Rusiyasının rəhbərlərinin nəzərində ideya baxımından deyil, praktik baxımından "beynəlmiləlç" hesab olunmurdu. Praktiki "beynəlmiləlçilər" o kəslər ("sollar") idilər ki, onlar Nərimanovdan fərqli olaraq, Azərbaycanın sərvətinin Rusiya tərəfindən istənilən şəkildə istimar olunmasına, üstəlik onun millətinə yuxarıdan aşağı baxılmasına, eyni zamanda ermənilərin Azərbaycan rəhbərliyində yüksək vəzifə tutmalarına heç bir etiraz etmirdilər. Bu baxımdan Nərimanovun əsas savaşı Sovet Azərbaycanının müstəqilliyini tanımaq istəməyən və Azərbaycanda özünə "sollar" adı altında beynəlmiləlçi" dayaq nöqtəsi yaradan Moskva ilə idi. Nərimanova görə, Sovet Azərbaycanını simasızlaşdıranlara, onu tanımayanlara qarşı mübarizə apardığı üçün rəqibləri onu millətçilikdə ittiham

etmişlər [168, 441]. Nərimanov da məhz bu güvənsizliyə etiraz etmiş, hansı səbəblərdən türklərin deyil, qeyri-türklərin Sovet Azərbaycanının rəhbəri vəzifələrinə irəli çəkilmələrini aydınlaşdırmağa çalışmışdır: "Mənim zərrə qədər də şübhəm yoxdur ki, Serqo və Stalinin simasında AKP MK biz türklərə etibar etmir və Azərbaycanın taleyini erməni daşnaklarına tapşırır" [168, 465].

N.Nərimanov qeyd edirdi ki, əgər bir il bundan əvvəl Azərbaycanda sovet hakimiyyəti türk kütlələrinin ümumi rəğbəti ilə müdafiə edilirdisə, hazırda hakimiyyət yalnız süngü gücünə qorunur [168, 452]. Çünki artıq Mərkəz Azərbaycana açıq-aşkar öz müstəmləkəsi kimi baxır. Bu müstəmləkəçiliyin nəticəsi olaraq, Azərbaycan türkləri Bakı Sovetinin qulluqçularına rus dilində şifahi və yazılı müraciət edə bilirlər. Eyni zamanda rəhbər vəzifə tutan işçilərin əksəriyyəti rus, erməni, yəhudi və gürcü mənşəlidirlər. Nərimanov yazır: "Mən bildirirəm ki, Dövlət Duması olanda türk əhalisi belə sıxıntıya məruz qalmırdı" [168, 453].

Nərimanovun Leninə yazdığı məktubu da açıq şəkildə göstərir ki, o, Azərbaycanın simasızlaşdırılmasında və müstəqilliyinin əlindən alınmasında əsas günahkar kimi Mərkəzi və onun havadarlıq etdiyi daşnakları və başqa antitürk, antiazərbaycan qüvvələri görmüşdü: "Əziz Vladimir İliç Lenin, məgər "Müstəqil Azərbaycan" sizin dilinizdən çıxmamışdırmı? Axı, məhz buna əsaslanaraq biz Müsavatın qurduğu fitnəkarlığı məhv edə bildik. İndi vəziyyət belə bir şəkil alır: həmişə Denikini müdafiə etmiş Ermənistan müstəqillik qazanmış və üstəlik də Azərbaycanın ərazisini almışdır. İndiyə qədər ikili siyasət aparan Gürcüstan müstəqillik əldə etmişdi. Üç respublikadan birinci olaraq Sovet Rusiyasının qoynuna atılmış Azərbaycan isə həm ərazisini, həm də müstəqilliyini itirir" [168, 466]. Nərimanov oğlu Nəcəfə məktubunda da Azərbaycanın simasızlaşdırılmasında günahkar kimi sosial-demokratizmi – bolşevizmi deyil, bu təlimin başlıca müddəalarına xəyanət edən Mərkəzi və onun yerli əlalıtlarını

görmüşdür: "Bəlkə də sən bu sətirləri oxuyarkən, bolşevizm heç olmaycaq. Lakin bu heç də o demək deyil ki, bolşevizm yaramır; bu o demək olacaq ki, biz onu saxlamağı bacarmadıq, onu yetərincə qiymətləndirmədik, işin qulpundan pis yapışdıq" [168, 469]. Deməli, Nərimanov ömrünün sonuna qədər "bolşevizm-leninizm yolu"ndan [169, 35] üz döndərməmiş, sadəcə, o, hesab etmişdir ki, onu həyata keçirənlər işin qulpundan pis yapışmışlar.

N.Nərimanovun keçdiyi siyasi-ideoloji həyata nəzər salaraq belə qənaətə gəlmək olar ki, milli-demokratizm və rus sosial-demokratizmi arasında seçim edərkən, sonuncuya üstünlük verməsi taleyində həlledici rol oynamışdır. Şübhəsiz, Nərimanovun siyasi-ideoloji sahədə buraxdığı əsas səhv sosial-demokrat ideyasına inanmasından daha çox, həmin ideyanı müstəmləkəçilik siyasətinin tərkib hissəsinə çevirən rus bolşeviklərinə həddən artıq güvənməsi idi. Bu mənada Nərimanov hesab etmişdir ki, Azərbaycanın gələcəyi milli-demokratik yol tutan Azərbaycan Cümhuriyyəti ilə deyil, Sovet Rusiyası və onun bolşevik imperializmi ilə bağlıdır. Hətta bir dönəm Nərimanov bolşevik imperializminin yalnız Azərbaycanın deyil, Şərqin xilası və Avropanın inqilabı üçün lazım olduğuna da inanmışdır: "Avropada biz istədiyimiz inqilab meydana gələrsə, bolşevik imperializması özü-özündən yox olacaqdır. Bu bir nazik mətləbdir, bunu başa düşmək gərəkdir" [48, 94]. Halbuki çar Rusiyasının yerində təşəkkül tapan Sovet Rusiyası üçün əsas məqsəd Avropada və Şərqdə sosializm inqilabının baş verməsi deyil, çarizm dövründəki müstəmləkə torpaqlarda hakimiyyətini bərpa etməsi idi. Bu mənada, Nərimanov müstəqil və milli Azərbaycan ideyasını müdafiə etmək, Azərbaycan Cümhuriyyətinə dayaq durmaq əvəzinə, əksinə onun yenidən müstəmləkə halına gətrilməsi üçün rus bolşeviklərinə yardım etmişdir.

Hər halda etiraf olunmalıdır ki, Nərimanov Rəsulzadə, Yusifbəyli və digər türkçülərdən fərqli olaraq marksist sosial-demokratizmlə rus bolşevizmini vaxtında bir-birindən ayra

bilməmiş, ən vacibi rusların sosial-demokratizmi müstəmləkəçiliklə eyniləşdirdiyini çox gec anlamışdır. Halbuki, M.Ə.Rəsulzadə, N.Yusifbəyli və başqa türkçülər sosial-demokratizmə zaman-zaman rəğbət göstərmələrinə baxmayaraq, rus bolşevizminin əsil mahiyyətinin türkçülüyün (istər ümumi türkçülük, istərsə də Azərbaycan türkçülüyünun) mənafeyinə zidd olduğunu vaxtında görmüş və ondan uzaq durmuşlar. Ancaq Nərimanov isə onlarla müqayisədə, çox sonralar başa düşmüşdür ki, istənilən bir ideya (sosial-demokrat, liberalizm, millətçilik və b.) yalnız müəyyən bir sinfin (məsələn, proetariatın) deyil, ümumilikdə millətin xeyrinə işləməli və onun maraqlarına uyğun olmalıdır. Bu isə, millətin sinfi maraqlarından çaha çox onun kimliyi, dili, mədəniyyəti, ərazi bütövlüyü və müstəqilliyi ilə bağlıdır. Bunlar var olmayan yerdə isə, hər hansı millətin sosial-demokratizm, yaxud da başqa bir ideyaya tapınmasının heç bir əhəmiyyəti qalmır.

Deməli, N.Nərimanov, Ə.Xanbudaqov və başqaları milli məsələnin ilk mərhələsində (1920-1936) birinci növbədə, Sovet Azərbaycanının yaranmasında Sovet Rusiyasının müstəsna "əməyi"ni etiraf etməklə yanaşı, müəyyən mənada onu müstəqil və milli dövlət kimi qorumağa çalışmışlar. Onlar ümid etmişlər ki, Azərbaycan Cümhuriyyəti müəyyən obyektiv səbəblərdən kənar təsirlər (Türkiyə, İngiltərə və b.) altında olmasına baxmayaraq, müstəqil siyasət yürütmüşdürsə, Azərbaycan da sosializm quruluşuna görə Sovet Rusiyasına borclu olmaqla yanaşı, sərbəst hərəkət etməlidir. Ən azı rəhbərliyinin tərkibini, daxili və xarici siyasətini, mədəni inkişafını Azərbaycan türkləri özləri müəyyənləşdirməlidir.

Ancaq Sovet Rusiyası və onun Azərbaycandakı yerli əlaltıları, Nərimanov və başqa bir neçə milli təmayülçünün (Ə.Xanbudaqov, M.Xanbudaqov və b.) səylərinə baxmayaraq, "Azərbaycan" sözü istisna olmaqla Azərbaycan türkçülüyünə aid yerdə qalan prinsiplərin hamısını zaman-zaman "sovet beynəlmiləlçiliy"i pərdəsi altında məhv etdi. İlk olaraq

Azərbaycanın müstəqilliyini Zaqafqaziya federasiyası və SSRİ adı altında kağız üzərində saxlayan Sovet Rusiyası daha sonra, onu bir türk hökuməti ikən, "beynəlmiləlləşdir"di, hətta kosmopolitləşdirdi. Bununla kifayətlənməyən Mərkəz Azərbaycan türklərinin türk milli kimliyi, türk dili, türk mədəniyyəti üzərindən çarpaz bir qara xətt çəkərək, üstəlik İslama və İslam mədəniyyətinə əsaslanmağı da yasaq etdi. Beləliklə, Sovet Rusiyası Azərbaycanı işğalının təxminən 20 illik bir dövrü ərzində Azərbaycan türkçülüyü ilə bağlı prinsipləri əsasən tarixə qovuşduraraq, həmin prinsiplər arasında toxunmadığı yeganə prinsip üzərində yeni ideya irəli sürdü: Azərbaycan sovet beynəlmiləlçiliyi ideyası.

Beləliklə, Sovet Azərbaycanı dövründə cəmiyyətin siyasi quruluşu, yəni sosial-demokratizm ilə Azərbaycan türkçülüyü arasında nəinki uzlaşma yaradıldı (Nərimanovun və bir neçə milli təmayülçünün səylərini çıxmaq şərtilə), tam əksinə, millilik beynəlmiləlçiliyə, müstəqillik müstəmləkəçiliyə tabe etdirildi. Bununla da, Azərbaycan türkçülüyü ideyası müvəqqəti də olsa, öz yerini Azərbaycan sovet beynəlmiləlçiliyi ideyasına tərk etdi. Hələ, 1930-cu ildə Əziz Ubeydullin yazırdı ki, Azərbaycan sovetləşəndən sonra marksizmlə idealizm, millətçiliklə beynəlmiləlçilik arasında mübarizə başlamışdır: "Bu mübarizə axırıncı illərdə qəti bir yola girib, indi millətçilik, idealizm, pluralizm məfkurələrinin tarix səhnəsində məğlub olduqlarını görürük" [217^{b}, 261].

Bu dövrdə **xanbudaqovçular** da N.Nərimanov kimi, RK(b)P XII qurultayının qərarlarına uyğun surətdə AK(b)P tərəfindən respublikada iqtisadi və mədəni geriliyi aradan qaldırmaq üçün aparılan işləri səhv adlandırırdılar. Onlar türk-azərbaycanlı fəhlə kadrları işlə təmin etməyi, onların əmək haqqının qaldırılmasını və başqa millətlərdən olanların Bakıya axınının qarşısını almağa çağırırdılar. M.Ə.Rəsulzadə 1920-ci illərin birinci yarısında Azərbaycanda baş qaldıran milli müqavimət hərəkatı, konkret xanbudaqovçularla bağlı yazırdı:

“1924-cü ildə Azərbaycan Kommunist Partiyasının baş katibi Əyyub Xanbudaqov Azərbaycan sapıntıçılarına başçılıq etdi və bu cərəyanın istəklərini bu şəkildə formalaşdırdı:

1. Bundan sonra Moskva Azərbaycanın daxili işlərinə qarışmayacaq;

2. Yerli kommunistləri, sadəcə, yuxarıdan təyin olunan katiblərlə rəhbərlərin idarəsində, yalnız onların müşavirləri rolunda görmək fikri və adətindən vaz keçiriləcək;

3. Azərbaycan milləti öz-özünü idarə etmək çağına çatmış ikən, moskvalı idarəçilər, yerlilərin müstəqil olaraq çalışmalarına əngəl olur və bu çalışmaya “yerli millətçilər” damğası vurulur. Buna qəti olaraq son qoyulaçaq;

4. İşçi birliklər, kooperativləri və digər dövlət müəssisələri, sözdə deyil, gerçəkdən türkləşdiriləcək…” [188, 95].

Ancaq çox keçmədi ki, xanbudaqovçuluq adını almış bu hərəkat təqibə məruz qaldı, Ə.Xanbudaqovun özü isə Azərbaycan rəhbərliyindən kənarlaşdırıldı. Bu barədə sovet ədəbiyyatında yazılırdı: “Respublika kommunistləri Xanbudaqovun millətçi-təmayülçü qrupuna qarşı mübarizəni genişləndirdilər. Bakı partiya konfransı (aprel-may 1924-cü il) xanbudaqovçuları dəf etdi. Millətçi-təmayülçülər AK(b)P VI qurultayında (may 1924-cü il) tamamilə ifşa edildilər. Qurultay onların antipartiya çıxışını pislədi və partiya təşkilatlarını millətçiliyin hər cür təzahürlərinə qarşı amansız mübarizə aparmağa çağırdı” [42, 329].

Xüsusilə keçmiş “müsavatçı”lardan bəzilərinin, o cümlədən vaxtilə “Müsavat”a rəğbət bəsləyənlərin AK(b)P-yə daxil olaraq bolşeviklərə qarşı mübarizə aparmaları yerli və qeyri-yerli “sollar”ı qane edə bilməzdi. Bu məqsədlə Mərkəz AKP-ni yenidən “təmizləmək” qərarına gəldi. ÜİK(b)P MK-nın 25 iyul 1925-ci il tarixli qətnaməsi ilə AKP-ni yenidən təşkil etmək, yəni mərkəzi, şəhər, qəza və kənd partiya komitələrinin bütün üzvlərini kənarlaşdırıb onları Moskvadan təyin olunmuş şəxslərlə əvəzləmək haqqında qərar qəbul edildi” [180, 38].

Sovet rəhbərliyinin bu addımlarından sonra milli təmayülçülərin Azərbaycan rəhbərliyində mövqeyi bir qədər zəifləsə də, lakin bununla da milli məsələ özünün tamamilə həllini tapmadı. Belə ki, 1925-1927-ci illərdə AK(b)P MK-nın məsul katibi Mahmud Xanbudaqovun başçılığı ilə kommunist partiyası daxilində yeni bir müxalifət cərəyanı meydana çıxdı. Bu cərəyan 1927-ci ildə "Kommunist" qəzetində nəşr olunan platformasında məramlarını belə açıqlayırdı: Moskva, millətlərə komanda etməkdən və milli respublikaların bütün problemlərinə qarışmaqdan əl çəkməli; həmkarlar ittifaqı, kooperativlər, dövlət müəssisələri mütləq türkləşdirilməli; milli-mədəni quruculuq sahəsinin inkişafına şərait yaradılmalıdır və sairə [231, 161].

Qeyd edək ki, milli kommunistlərin müstəqil Sovet Azərbaycanı uğrunda apardıqları mübarizə 1920-ci illərin sonu, 1930-cu illərin əvvəllərində, yəni kollektivləşdirmə dövründə də davam etmişdir. Bu dövrün milli kommunistləri tələb edirdilər ki, Azərbaycanda milli sənaye yaradılmalı, Azərbaycan büdcəsi onun zənginliyinə mütənasib şəkildə formalaşdırılmalı, Azərbaycan daha çox müstəqil siyasət yürütməli, Azərbaycana yalnız türk mühacirlər buraxılmalı, sənaye işlərində baş ustalar türklər olmalı, türklər rus fəhlələr qədər maaş almalı, Azərbaycan neftinə ruslar yox, türklər nəzarət etməli, ölkə rəhbərləri türklərdən ibarət olmalıdır [154[a], 71-72].

"Sağlar" və "sollar"ın 1920-1937-ci illərdə milli məsələyə münasibətlərini **ümumiləşdirsək** görərik ki, bu problem artıq SSRİ tərəfindən birtərəfli şəkildə həmin dövrdə əsasən "həll" edildi. Bu da, ondan ibarətdir ki, Azərbaycan sözdə müstəqil sovet respublikası olduğu halda, faktiki olaraq SSRİ imperiyasının müstəmləkəsi idi. Doğrudur, Sovet Azərbaycanının ilk illərində müstəqilliyə oxşar müəyyən addımlar atılmışdı (Sovet Rusiyası ilə ikitərəfli müqavilə, Moskvada Azərbaycanın səlahiyyətli nümayəndəsinin olması və s.). Ancaq bu çox çəkməmiş və müxtəlif yollarla Azərbaycan SSRİ imperiyasının tərkib hissəsinə

çevrilmişdi. 1937-ci ildə qəbul edilən Azərbaycan Sovet Konstitusiyası isə bu müstəmləkəçiliyi bir daha rəsmiləşdirmişdir. Belə ki, bu dəfə Azərbaycan ZSFSR şəklində deyil, guya, müstəqil şəkildə SSRİ-nin tərkibinə daxil edilmişdi.

Yeni konstitusiyada da SSRİ rəhbərləri ikiüzlü siyasətdən çıxış etməyə davam etmişlər. **Azərbaycan SSR Konstitusiyasında** Azərbaycanın müstəqil sovet respublikası kimi xarici dövlətlərlə bilavasitə əlaqəyə girmək, onlarla saziş bağlamaq, diplomatik və konsulluq nümayəndələri göndərmək və qəbul etmək hüququndan, qoşun birləşmələrinə sahib olmasından [40, 25], hətta istədiyi vaxt "SSRİ-dən azad surətdə çıxmaq hüququna malik"liyindən [41, 6] bəhs olunsa da, əslində bütün bunların gerçəklikdən tamamilə uzaq olması nəinki SSRİ rəhbərliyinə, o cümlədən Azərbaycan türk xalqına da məlum idi. Bunu, "Dövlətin quruluşu" ilə bağlı 2-ci fəsildə öz əksini tapmış 13-cü maddə də ifadə edirdi: "İqtisadi və siyasi cəhətdən, habelə müdafiə cəhətindən qarşılıqlı yardımı həyata keçirmək məqsədilə Azərbaycan SSR könüllü olaraq (əsilində məcburi olaraq – F.Ə.) bərabər hüquqlu Sovet Sosialist Respublikaları ilə: Rusiya SFSR, Ukrayna SSR və b. ilə ittifaq dövləti olan SSRİ-də birləşmişdir" [41, 5]. Eyni zamanda yeni konstitusiyada açıq şəkildə qeyd olunurdu ki, "Azərbaycan SSR SSRİ Konstitusiyasının 14-cü maddəsilə müəyyən olunmuş hüququn SSRİ-nin ali hakimiyyət orqanları və dövlət idarəsi orqanları sifətində SSR İttifaqına aid olmasını təmin edir. SSRİ-nin Konstitusiyasının 14-cü maddəsi hüdudu xaricində, Azərbaycan SSR öz suveren hüququnu tamamilə mühafizə edərək dövlət hakimiyyətini müstəqil surətdə həyata keçirir" [41, 5]. Göründüyü kimi, rus ideoloqları bir tərəfdən, Azərbaycan SSR-nin sözdə müstəqilliyindən danışsalar da, digər tərəfdən, bəyan edirdilər ki, SSRİ-nin qanunları Azərbaycan SSR ərazisində məcburidir, Azərbaycan SSR vətəndaşı həm də SSRİ vətəndaşıdır [41, 6]. Bu isə o demək idi ki, Azərbaycan SSR birmənalı şəkildə Sovet Rusiyasının

müstəmləkəsidir və onun icazəsi olmadan heç bir müstəqil addım ata bilməz. Çünki S.M.Əfəndiyevin qeyd etdiyi kimi, yeni konstitusiya layihəsi SSRİ Konstitusiyasının layihəsinə tamamilə uyğunlaşdırılmışdı [76, 347]. Bu baxımdan Azərbaycan SSR-nin hansı şəkildə "müstəqil" olması məlum idi.

20-ci əsrin ikinci yarısında milli məsələ. Fikrimizcə, milli məsələ ilə bağlı millilik və beynəlmiləlçilik ideyaları arasında mübarizə II Dünya müharibəsi illərində və müharibədən sonra, xüsusilə, SSRİ-nin totalitar başçısı İ.V.Stalinin ölümündən (1953) və M.C.Bağırovun Sovet Azərbaycanının rəhbərliyindən uzaqlaşdırılmasından sonra da davam etmişdi. Milli məsələnin yenidən gündəmə gəlməsində Azərbaycan rəhbərliyində təmsil olunan bəzi vəzifəli şəxslər (İ.Mustafayev, M.İbrahimov, V.Axundov, Ş.Qurbanov, H.Əliyev və b.), ziyalılar və aydınlar (G.Abdullayev, B.Vahabzadə, Z.Bünyadov, Xudu Məmmədov, Ə.Elçibəy və b.) arasında müstəmləkəçiliyə qarşı bu və ya digər formada baş qaldıran etiraz dalğası mühüm rol oynamışdı.

Hələ, II Dünya müharibəsi dövründə sovet ideologiya maşını əsas diqqəti faşizmə-hitlerizmə yönəldərək ucqarlardakı milli məsələni ört-basdır etməyə çalışmasına baxmayaraq, müharibə illərində Azərbaycanın azadlığa çıxması üçün "İldırım" təşkilatı yaranmış və onun üzvləri Gülhüseyn Abudllayev, İsmixan Rəhimov, Hacı Zeynalov, Kamal Əliyev, Aydın Vahidov və başqaları bu quruma rəhbərlik üçün Səməd Vurğuna müraciət etmişlər [54, 307-308]. Bu baş tutmasa da, milli qüvvələrin 1950-ci illərin ortalarında Bakı və Sumqayıt şəhərlərində yaydığı vərəqələrdə Azərbaycanın Rusiyanın ağalığından qurtarmağın vaxtının gəlib çatdığı bildirlirdi. O da qeyd olunurdu ki, ermənilər və ruslar Azərbaycandan qovulmalı, Azərbaycanın milli dili (türk) və əlifbası (latın) bərpa olunmalı, ana dili rəsmi dövlət dili kimi bütün idarələrdə işlədilməlidir. Hətta bəzi vərəqələrdə "Millətçi Gənclər Təşkilatı", "İldırım" təşkilatı adından Azərbaycanın Türkiyə ilə birləşməsi belə təklif olunurdu [103, 91-94].

1940-1950-ci illərdə hər hansı bir Azərbaycan mütəfəkkirinin milliliyə azacıq meyilliliyi belə müstəmləkəçiliyə-mərkəzçiliyə qarşı çıxış kimi qiymətləndirilirdi. Bu dövrdə milli mədəniyyət və dinlə bağlı irəli sürülən əsas mülahizələrdə zərdüştilik Azərbaycanda fəlsəfi fikrin rüşeymi kimi göstərildiyi halda, "Kitabi-Dədə Qorqud"a tarixi, fəlsəfi və elmi ədəbiyyat kimi lazımi qiyməti verilmir, üstəlik feodalizmin qalığı kimi tənqid olunurdu. Buna səbəb də, "Kitabi-Dədə Qorqud"un "Avesta"dan fərqli olaraq, birmənalı şəkildə türk mədəni irsinə aid olması idi. Bu baxımdan ziyalıların əksəriyyəti milli mədəniyyətə və ədəbiyyata ya müraciət etmir, ya da yalnız tənqid yazmaqla məşğul olurdular. Az-az mütəfəkkirlər isə özlərində cəsarət taparaq milli mədəniyyət və milli özünəməxsusluğu önə çəkirdilər. Belə mütəfəkkirlərdən biri olan akademik **Heydər Hüseynovun** materialist filosof olmasına baxmayaraq, "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" (1949) əsərində Şeyx Şamil hərəkatını müsbət qiymətləndirməsi, eləcə də çar Rusiyasını bir qayda olaraq, işğalçı kimi qələm verməsi son nəticədə onun təqiblərə və təzyiqlərə məruz qalmasına səbəb olmuşdur [107, 107]. Bundan "nəticə"" çıxardan digər Azərbaycan filosofları (M.Qasımov, M.Ağamirov, F.Q.Köçərli və b.) və ədəbiyyatçıları (M.Rəfili, Ə.Nazim. və b.) əsərlərində islamçılığı və türkçülüyü tənqid etməklə yanaşı, "böyük qardaşın" - rusların çar Rusiyasının və sovet Rusiyasının timsalında Azərbaycanı işğal etməsinə haqq qazandırır, bir çox Azərbaycan türk mütəfəkkirlərinin rus ictimai fikrindən ilham aldığını yazırdılar. Məsələn, Mehbalı Qasımov yazırdı ki, Azərbaycanın çar Rusiyasına birləşdirilməsi (əslində işğal olunması) mütərəqqi bir hadisə olmuşdur: "Azərbaycanda maarifçilik ideyalarının yayılması və Bakıxanovun yetişməsi və s. dəyişikliklər Rusiyadan gələn qabaqcıl ictimai ideyaların və böyük rus xalqının mədəniyyətinin təsiri ilə izah olunur. Bütün bunlar Azərbaycanın Rusiya ilə birləşdirilməsi kimi bir tarixi aktın nəticəsi idi" [129, 17]. Mikayıl Rəfili də hesab edirdi ki,

Azərbaycan mütəfəkkirlərinin, o cümlədən M.F.Axundzadənin demokratik və mütərəqqi fikirləri rus ziyalıları ilə bağlı olmuşdur [177, 164].

Sovet Azərbaycanının rəhbərliyində milliliyə meyil M.C.Bağırov hakimiyyətdən uzaqlaşdırılıb onun yerinə İmam Mustafayev təyin edildikdən sonra (1954-1959) özünü çox büruzə vermişdi. Bu dövrdə İ.Mustafayev və Azərbaycan SSR Ali Sovetinin rəyasət heyətinin sədri Mirzə İbrahimov Azərbaycan dilinin (Azərbaycan türkcəsinin) rəsmi dövlət dili statusu hüququnu bərpa etməklə yanaşı, ədəbiyyat və incəsənətdə də milli mədəniyyətin formalaşmasına şərait yaratdılar [46, 140]. İ.Mustafayev və M.İbrahimovdan sonra isə, AKP rəhbərlərindən olmuş Vəli Axundov və Şıxəli Qurbanov dövlətin milliləşdirilməsinə doğru müəyyən işlər gördülər. Məsələn, AKP MK katibi Ş.Qurbanov 1960-cı illərdə Novruz-Bahar bayramının dövlət səviyyəsində qeyd edilməsinə nail olmuşdu [46, 146]. Bunun nəticəsi olaraq 1960-cı illərdə "milli-azadlıq uğrunda mübariz nəsil yetişməkdə idi. 1962-ci ildə Milli Azərbaycan Qərargahı yarandı ki, əsas rəhbərləri Oqtay Rəfili (sədr) və Xudu Məmmədov (müavin) idilər. "Başlıca məqsəd rəhbər vəzifələrdə azərbaycanlıların olmasına, respublika büdcəsinə ayırmaların Moskvada deyil, Bakıda həll olunmasına çalışmaq, milli oyanışa xidmət etmək idi" [46, 146]. 1964-cü ildə Azərbaycanın Rusiyanın tərkibinə "daxil olması"nın 150 illiyii "bayram" edilərkən Azərbaycan tarixçilərindən Z.Bünyadov, M.Ə.İsmayılov və S.Əliyarov buna qarşı çıxdılar. Onların fikrincə, 19-cu əsrin əvvəllərində Azərbaycan Rusiyaya birləşməmişdir, onu çar Rusiyası hərbi qüvvə ilə işğal etmişdir [46, 147].

Bu baxımdan akademik Əfrand Daşdəmirov doğru yazır ki, II Dünya müharibəsindən sonrakı dövr, fəal inkişaf edən milli özünüdərk tarix dövrü bərpa edilməlidir. Onun fikrincə, Azərbaycan dilinin, ənənələrinin və adətlərinin, millətin respublikanın nüfuzu ilə eyniləşdirən hadisələrin etnosəfərbəredici

rolunun güclənməsi ilə bağlı mənlik şüurunun inkişaf mərhələləri həmin məcrada xüsusilə əlamətdar görünür: "Məsələn, 50-ci illərin ikinci yarısı Azərbaycan tarixinə milli vətənpərvərlik əhval-ruhiyyəsinin, milli tarixə marğın fəal artması, onun 30-cu illərin təqibləri ilə bağlı faciəli səhifələrinin yenidən dərki, açıqlanması dövrü kimi daxil olmuşdur. Bu, açıq-aşkar azərbaycançılıq ideyasının – hər şeydən əvvəl milli dil ideyasının, onun respublikamızın Konstitusiyasında dövlət dili kimi təsbiti, milli-mədəni dəyərlərin üstünlüyü ideyası dövrü idi. 60-cı illərdə milli hissiyatımızın Novruz bayramını bərpa etmək hərəkatı ilə müşaiyət olunan yüksəlişi hələ də hamımızın yaddaşındadır. 70-ci illərdə milli ideyamız "əxlaqi təmizlik", respublikanın iqtisadi yüksəlişi amalı ilə, onun siyasi-mədəni nüfuzunu artırmaq qayəsi ilə qidalanırdı" [72, 131].

Qeyd edək ki, 1960-cı illərin əvvəllərində "Azərbaycan Dövlət Universitetinin azadfikirli tələbələrindən bir qrupu Əbülfəz Əliyevin (Elçibəyin – F.Ə.) rəhbərliyi ilə gizli siyasi mübarizəyə başlamışdılar. Onlar gizli özək təşkil edərək, üçlük qruplar yaradır və tələbə gəncləri azadlıq uğrunda mübariz ruhda tərbiyələndirməyə çalışırdılar" [46, 146]. **Əbulfəz Elçibəy** xatirələrində yazırdı ki, universitetin 2-3-cü kurslarında oxuyarkən tarixi-siyasi məsələlər onu daha çox özünə çəkmişdi: "Bir neçə tələbə yoldaşımla siyasi-milli yöndə qızğın mübahisələrə başladıq. Bizdə belə fikir yarandı ki, millətimiz qul halındadır, ölkəmiz isə müstəmləkədir" [73, 8]. Elçibəy qeyd edirdi ki, tələbə və müəllim olarkən onun əsas düşməni Sovet İmperiyası olmuşdu. O, imperiyanın əsil simasını açmaq üçün, 1970-ci illərdə müəllim kimi işlədiyi Bakı Dövlət Universitetində dərnəklər yaratmışdı. Onun fikrinə görə, dərnəklərin məqsədi Azərbaycan tarixini, Azərbaycandakı inqilabi hərəkatları olduğu kimi tələbələrə çatdırmaq, eyni zamanda, Azərbaycanın müstəmləkə olduğunu və sosializm quruluşunun bir gün dağılacağını onlara başa salmaq imiş [73, 35-36].

Ə.Elçibəy və onun digər məsləkdaşları (Malik Qarayev, Vasim Məmmədəliyev, Elxan Əzizov və b.) 1965-1975-ci illərdə milli bir proqram təşkil edərək "Müstəqil Azərbaycan" ideyası uğrunda mübarizə aparmışlar. Elçibəy yazır: "1965-ci ildən 1975-ci ilədək aşağı-yuxarı 200-dən çox həmfikir elsevəri proqram ətrafında, daha doğrusu, bu proqramda qoyulan məslək yolunda toplaya bilmişdik. 1970-1975-ci illərdə, necə deyərlər, "yuxarılara" əl atdıq. Malik bəy Ziya Bünyadovla, Alim bəy Tofiq Köçərli ilə, mən Xudu Məmmədov və Bəxtiyar Vahabzadə ilə, mən və Rafiq bəy Süleyman Əliyarovla, Abbas bəy Həsən Abdullayevlə çox ehtiyatla əlaqə saxlamalı, onlara yanaşmalı, təşkilat haqda heç bir söz demədən bu yurdsevər, elsevər insanlarla onların hörmətini uca tutmaqla, bir növ, böyük-kiçik münasibətində yaxın olmalıyıdıq" [74, 213]. Elçibəy xatirələrində yazırdı ki, həmin dövrdə milli məsələ ilə bağlı baxışlarını "Azərbaycanın birləşdirilməsi üzərində düşüncələr" adlı yazısında ifadə etmişdir: "Burada qarşımda iki yön qoymuşdum: birincisi, bacardıqca ərəb, fars, rus və Batı dillərindən gələn, dilimizin axarlığına, gözəlliyinə yara vuran, onu ağırlaşdıran sözlərdən, söz birləşmələrindən aralı durmaq; ikincisi, dilimizin gücünü ayrı-ayrı sözlərdən çox, sözlərin düzümündə, ayrı-ayrı sözlərin düşüncə düzümündə çevik yer dəyişməsi ilə deyişində olduğunu ya yaddaş, ya da göz önündə tutaraq yazmaq" [74, 216]. Deməli, Elçibəy və onun məsləkdaşları bu dövrdə Azərbaycan türkcəsinin təmizliyi uğrunda da mübarizə aparmışlar. Bütün bunların nəticəsi olaraq SSRİ dövründə Ə.Elçibəy həbs edilmiş və iki ilə yaxın məhbus həyatı yaşamışdır [74, 218].

Ə.Elçibəy onu da qeyd edirdi ki, Azərbaycanın müstəqilliyini tələb edən bir ziyalı kimi, bir müddət həmin dövrdə Sovet Azərbaycanına rəhbərlik edən Heydər Əliyevin əleyhinə çıxışlar etsə də, sonralar onun güclü idrak sahibi, güclü şəxsiyyət kimi tanıyaraq, eləcə də bəzi çıxışlarını və siyasi manevrlər bacarığını görərək bir müddət də onu müdafiə etmişdi [73, 37]. Elçibəy yazır:

“Azərbaycanda iki şeyi görəndən sonra Əliyevə münasibətim dəyişməyə başladı. Birincisi, ilk dəfə olaraq bir neçə dilçi alimə bir yerdə dövlət mükafatı verdirdi. O mükafatın verilməsi bu demək idi ki, Azərbaycan dilçilərinin nüfuzu qalxır və onlar toxunulmaz olurlar. Axı millətin təfəkkürünü inkişaf etdirməyə dilçilər başlayırlar. Bu baxımdan mükafatın çox xeyri oldu. Mükafat verilən kimi dilimizin işlədilməsi genişlənməyə başladı… Bu, Heydər Əliyevin xidməti idi” [73, 42].

Onun fikrincə, 1970-ci illərdə H.Əliyevin Azərbaycan xalqına ikinci xidməti akademik Ziya Bünyadovun “Azərbaycan Atabəylər dövləti” əsərinə dövlət mükafatı verdirməsi olub: “Bu da o deməkdi ki, vaxtilə Ziya Bünyadova “millətçi”, “şovinist” deyə hər cür damğalar vururdular və indi o, alimi bütün hücumlardan qorudu, yəni siz ermənilər ki, həmişə Ziyaya “millətçi” deyirdiniz, indi alın – o, dövlət mükafatı laureatıdır. Vaxtilə Heydər Əliyev Ziya Bünyadovu tənqid etmişdi. Ermənilər bundan istifadə edib yazırıdlar ki, hətta Azərbaycan KP MK-nın birinci katibi belə onu tənqid edib və Ziyanı beləcə vururdular. Bu mükafatdan sonra isə ermənilər təzədən yazdılar ki, Heydər Əliyev millətçidir – o, millətçi Ziya Bünyadova dövlət mükafatı verdirib” [73, 42[. Elçibəyin fikrinə görə, bu onun göstəricisi idi ki, “hamı öz vətənini, millətini istəyir, ancaq sadəcə olaraq bunun müdafiə formalarını bilmir. Hərə bir cür, öz bacardığı kimi müdafiə edir. Bu, bir xətt idi” [73, 42]. Elçibəy yazırdı ki, H.Əliyev əvvəllər tənqid etdiyi adamların hamısını sonradan həm müdafiə etmək, həm də Sosialist Əməyi Qəhrəmanı adı verməklə, “Azərbaycanda yəni bir millətçilik, bir düşmənçilik var” sözünü götürdü, ab-havanı yumşaltdı [73, 43].

Ə.Elçibəyin bu fikirlərindən belə nəticə çıxarmaq olar ki, 1969-cu ildə **Heydər Əliyevin** AKP MK-nın birinci katibi vəzifəsinə təyin olunması ilə 1970-ci illərdə Azərbaycanda milli məsələyə münasibət dövlət səviyyəsində də yeni bir mərhələyə qədəm qoymuşdu. 7 cildlik “Azərbaycan tarixi”ndə bu barədə yazı-

lır: "Heydər Əliyev böyük uzaqgörənliklə bütün dövlət hakimiyyəti orqanlarının işini xalqın iqtisadi, sosial-mədəni tərəqqisi və milli oyanış siyasətinin reallaşmasına yönəltdi" [46, 175]. Bu mənbədə daha sonra qeyd olunur ki, H.Əliyev Azərbaycanın suveren hüquqlarının pozulmasına qarşı yönələn bütün cəhdlərin qarşısını vaxtında və qətiyyətlə almışdı: "Heydər Əliyevin rəhbərliyi altında fəaliyyət göstərən respublika Konstitusiya Komissiyasının hazırladığı yeni "Azərbaycan SSR Konstitusiyası" 1978-ci il aprelin 21-də qəbul edildi. Bu Konstitusiya mövcud olan dar imkanlar daxilində xalqın mənəvi sərvətlərinin, xüsusən dilinin qorunub saxlanılması və inkişaf etdirilməsi üçün hüquqi əsasları genişləndirdi. Ölkə rəhbərliyinin etirazına baxmayaraq H.Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan dili respublikada dövlət dili statusunu saxladı" [46, 176].

"Azərbaycan tarixi"ndə o da qeyd olunur ki, H.Əliyevin hakimiyyəti dövründə milli mənəvi sərvətlərin tədqiqi və təbliği, tarixi araşdırmaları geniş vüsət almışdı. Xüsusilə, Azərbaycan tarixinə və Azərbaycan dilinə aid qiymətli araşdırmalara yüksək dövlət mükafatları verilməsi ziyalıları bu sahədə öz fəaliyyətlərini genişləndirməyə ruhlandırmışdı: "Heydər Əliyevin məqsədyönlü siyasi fəaliyyəti nəticəsində Azərbaycanda milli özünüdərk prosesi xeyli güclənmişdi. Yaradıcı ziyalılar üçün sərbəst düşüncə və iş şəraiti yaradılmışdı" [46, 178]. Daha sonra bu kitabda yazılır: "Beləliklə, 70-ci illərdə və 80-ci illərin birinci yarısında Heydər Əliyevin çoxcəhətli partiya və dövlət idarəçiliyi səviyyəsində Azərbaycanın ictimai-siyasi həyatı olduqca zənginləşdi. İnsanların partiya və dövlət orqanlarının, ictimai təşkilatların işində fəallığı artdı. Partiya və dövlətin, yerli sovetlərin, həmkarlar ittifaqlarının, komsomolun, ziyalıların, yaradıcılıq təşkilatlarının əsas diqqəti respublikanın iqtisadi, sosial-mədəni tərəqqisi, xalqın milli oyanışına istiqamətləndirilmiş siyasətin reallaşdırılmasına yönəldildi və səmərəli nəticələr verdi" [46, 180].

Doğrudan da, çox keçmədi ki, Azərbaycanda islama və türklüyə qayıdışın yeni mərhələsinə qədəm qoyuldu. Artıq 1980-ci illərdə "islam və millətçilik prinsiplərinə əsaslanan" Azərbaycan millətçiliyindən bəhs olunurdu. Hətta, bir çox əcnəbi tədqiqatçılar (A.Benniqsen, E.Vimbuş və b.) yazırdılar ki, Sovet Şərqi xalqları, o cümlədən Azərbaycanda milli məsələyə dair elmi kommunizm nəzəriyyəsi öz əhəmiyyətini itirmş, marksizm bir dünyagörüş kimi aradan qalxmış və o, yalnız "idarəetmə formasının vasitəsi" kimi yaşamaqdadır [194, 56]. Həmin dövrün filosofları (M.Ə.Rüstəmov, Ə.M.Tağıyev və b.) Azərbaycanda islam və millətçiliyə əsaslanan "Azərbaycan millətçiliyi"nin olmasını inkar etsələr də, əslində dolyasıyıla milli məsələ ilə bağlı problemin olmasını təsdiq etmiş olurdular [194, 56]. Göründüyü kimi, ikinci Dünya müharibəsindən sonra milli məsələ yenidən gündəmə gəlmiş və SSRİ dağılana qədər öz aktuallığını qoruyub saxlamışdır. Şübhəsiz, milli məsələnin Azərbaycan rəhbərliyi səviyyəsinə qədər yüksəlməsi onun müsbət həllində mühüm rol oynamışdı.

2.2. Milli mədəniyyətlə "proletar mədəniyyəti" arasında mübarizə

Sovet dövründə milli məsələ ilə yanaşı, əsas problemlərdən biri də beynəlmiləlçilik, proletar mədəniyyəti adı altında milli mədəniyyətin və milli ədəbiyyatın, yaxud da bütövlükdə milli mənəvi dəyərlərin saxtalaşdırılması idi. Sovet ideoloqları kommunizm, sinifsiz cəmiyyət qurmaq adı altında Azərbaycan türk millətinin keçmişinə aid bütün mədəni irsini, o cümlədən mədəniyyətini və ədəbiyyatını təftiş etməyə başladılar. Bu zaman keçmişdə yalnız İslam dininə və milli-mərkəzi hakimiyyətə qarşı çıxmış qəhrəmanlar (Babək, Koroğlu və b.), həmçinin ateizmə və qərbçiliyə meyilli mütəfəkkirlər (M.F.Axundzadə və b.) əsasən, istisna olunurdular. Ancaq həmin

"istisnalar" belə bəzən beynəlmiləlçi-proletar mədəniyyətə qurban verilirdi.

Beləliklə, 27 aprel işğalından sonra Azərbaycanda milli mədəniyyətin əvəzinə, guya onu əvəz edən "proletar mədəniyyət" - "proletkultçuluq" yaradılırdı. Hətta iş o yerə gəlib çatmışdı ki, bir müddət N.Gəncəvi və M.Ə.Sabirə belə heykəl qoyulması "fəhlə işinə" xəyanət hesab olunmuşdu. Çox keçməmiş Novruz-Yeni gün bayramı yasaq edilərək tar, kamança və dastanlarımız isə keçmişin qalığı kimi tənqid olunmuşdu. 1920-1930-cu illərdə milli-mənəvi dəyərlərə qarşı tədbirlər "mədəni yürüş", "rədd olsun tar!", "rədd olsun kamança!" kimi şüarlar altında keçirilmiş, Azərbaycanda mədəni yürüşün yeni formaları – "mədəni estefeta", "mədəni hücum" meydana çıxmışdı [42, 435].

Sosialist (proletar) mədəniyyəti və onun ikili mahiyyəti. 1920-1930-cu illərdə R.Axundov, S.M.Əfəndiyev, Ə.Nazim, M.Rəfili və başqaları 27 aprel işğalına qədər müstəqil Azərbaycan ədəbiyyatının olmaması iddiasını ortaya ataraq bildirirdilər ki, yalnız sovetləşmədən sonra bunlar meydana çıxmışdı. Başqa sözlə, **"proletar mədəniyyəti"** tərəfdarları Azərbaycan türk mədəniyyətini inkar edərək beynəlmiləlçi proletar mədəniyyətini təbliğ etmişlər. Onların fikrincə (S.M.Əfəndiyev və b.), mədəniyyət dedikdə formaca milli, məzmunca sosialist, ya da proletar mədəniyyəti nəzərdə tutulmalıdır [76, 325]. Məsələn, **Ruhulla Axundov** hesab edirdi ki, sinifsiz cəmiyyətdə milli mədəniyyət lazımdır, amma azərbaycanlı, erməni və gürcü kommunistlərinin milli idealı kimi yox: "Bizə öz mahiyyəti etibarilə beynəlmiləl, öz mahiyyəti etibarilə proletar, öz məzmunu etibarilə sosialist mədəniyyəti lazımdır" [20, 17].

İlk marksist tənqidçilərdən **Əli Nazim** də hər cür milliliyə, milli mədəniyyətə qarşı çıxaraq "vahid türk ədəbiyyatı" nəzəriyyəsinin elmi cəhətdən əsassız olduğunu yazır, bu işlə uğraşan B.Çobanzadəni, İ.Hikməti, F.Ağazadəni və başqalarını tənqid edirdi. Onun fikrincə, ümumiyyətlə oktyabr inqilabına qədər

Azərbaycanda milli mədəniyyət olmamış, Füzuli və Nəvai türk saray aristokrat şairləri olmuş, hətta M.F.Axundzadənin maarifçiliyi belə burjuaziyanın mənafeyinə xidmət etmişdi [164, 53, 57]. O, sovet beynəlmiləlçiliyinin, rus kosmopolitizminin təsiri altında yazırdı: "Çünki biz milli mədəniyyət etibarilə çox fəqirik və bizdə mədəni inqilab dövrü milli mədəniyyətin yeni yaradılması dövrüdür. Bizdə mədəniyyət yoxdur" [163; 164, 28-31]. Onun iddiasına görə, Azərbaycan proletar mədəniyyətini isə Cavad-Cavid zümrəsi, ya da "mollanəsrəddinçilər" deyil, "Gənc qızıl qələmlər" ətrafında toplananlar yaratmaq iqtidarındadırlar [164, 64]. Rus kosmopolitizminin təsiri altında **Mikayıl Rəfili** də Ə.Nazim kimi hesab edirdi ki, vahid türk-tatar ədəbiyyatı ideyasının əsası yoxdur [38, 208]. Bu baxımdan milli ədəbi ənənələri öyrənməyi rədd edən Rəfili yazırdı: "Biz üzümüzü füzulilərə, nəsimilərə, vaqiflərə, mirzə fətəlilərə, hüseyn cavidlərə doğru deyil, verxarnlara, uitmenlərə, jülromenlərə, mayakovskilərə və bütün dünya klassiklərinə doğru çevirməliyik" [178].

Bu dövrdə Azərbaycan poeziyasında sovet beynəlmiləlçiliyinin ən tanınmış nümayəndəsi kimi **Səməd Vurğun** da "sosialist mündərəcəli, milli formalı ədəbiyyatın" tərəfdarı kimi çıxış edirdi [225, 20-63]. Şeirdə Əhməd Cavad nə qədər milli idisə, S.Vurğun bir o qədər sosialist, proletar mədəniyyəti tərəfdarı idi. Belə ki, Cavad millətin haqq bağıran səsi kimi üçrəngli bayraqdan, aypara və səkkizgüşəli ulduzdan bəhs etdiyi halda, S.Vurğun özünü dünya məzlumlarının haqq bağıran səsi adlandırırdı [224, 97]. Ə.Cavadın milli ruhlu "Göygöl" şeirinə cavab olaraq S.Vurğun yazırdı ki, bir daha üçrəngli bayraq ucalmayacaq, çünki "nifrəti var əski ulduza, hilala" [224, 3]. Milli vətəndən daha çox qeyri-müəyyən SSRİ vətənini tərənnüm edən şairə görə, artıq Rəsulzadələrin milli ideyası deyil [224, 139], Leninin beynəlmiləlçiliyi qələbə çalmışdır [224, 178]. S.Vurğunun fikrincə, oktyabr və aprel inqilablarından sonra ədəbiyyata gələn beynəlmiləlçilik-internasionalizm ideyası isə yeni bir şeydir: "Bu, hər dürlü millətçiliyə, vətənçiliyə zidd olan

proletar ideolojisinin bir ifadəsidir. Türk ədəbiyyatı tarixində internasionalizm yeni və tarixi bir hadisədir ki, şura ədəbiyyatı ordusu bu ideyanın əksinə çalışan pantürkizm, panislamizm kimi burjua ideyaları ilə ciddi mübarizələr aparmışdır. İnternasionalizm ideyası artıq konkret bədii obrazlar vasitəsilə ədəbiyyatımızda yaranmaqdadır" [225, 28]. Beynəlmiləlçiliyin proqresivliyini isə o, milli mahiyyəti məhv edərək beynəlxalq ədəbiyyat sahəsinə keçilməsinə imkan yaratmaqda görürdü [225, 29]. **Süleyman Rüstəm** də S.Vurğun kimi, "proletar mədəniyyəti"nin təbliğində canfəşanlıq göstərmişdi. Bu baxımdan onun həmin dövrdə işıq üzü görən "Öləmdən nəşəyə" kitabı diqqəti çəkirdi. Ancaq digər "proletar mədəniyyət"inin tərəfdarı Ə.Nazim hesab edirdi ki, S.Rüstəm şeirlərində proletar sinfini deyil, Z.Gökalp kimi xalqçılığı tərənnüm etmişdir [154[a], 54]. Hər halda, həmin dövrdə S.Rüstəm tarı, Mustafa Quliyev isə "çahargah"ı İrana aid edərək "mədəni hücum"u həyata keçirirdilər.

Bizim bütün bunları yazmaqda məqsədimiz nə Səməd Vurğunun, nə S.Rüstəmin, nə də başqa bir Azərbaycan ziyalısının, ya da şairinin nüfuzuna xələl gətirmək, yaxud da kölgə salmaq deyildir. Sadəcə, sovet ideologiyasının Azərbaycan xalqının milli mənlik şüurunda hansı dərin izlər açdığını, eyni zamanda həmin izlərdən günümüz də hansı nəticələr çıxarmağımızdır. Yəni sovet ideologiyasının sovet beynəlmiləlçiliyi adı altında milli mədəniyyətimizə vurulan zərbələri dərk etmək əvəzinə, bunu sadəcə taleyin hökmü kimi qəbul etməyimiz doğru olmazdı.

Biz də yaxşı anlayırıq ki, Ə.Nazim, S.Vurğun, S.Rüstəm və onlar kimi sovet beynəlmiləlçiliyini, "proletar mədəniyyəti"ni tərənnüm edənlər bunun bəşəri dəyərlərə söykənən beynəlmiləlçiliklə heç bir əlaqəsinin olmadığını yaxşı dərk etmişlər. Çünki SSRİ imperiyası qurulmamışdan çox-çox əvvəllər bir sıra mütəfəkkirlər, şairlər və alimlər (N.Gəncəvi, Şekspir, İbn Xaldun, Höte və b.) beynəlmiləlçilik ideyalarını, bəşərilik duyğularını tərənnüm ediblər. Ancaq bunu anlaya-anlaya M.Rəfili,

S.Vurğun, Ə.Nazim və onun kimi düşünənlərin beynəlmiləlçiliyi yeni bir ideya kimi qələmə vermələri sovet ideologiyasının, marksizm-leninizm-stalinizmin tələbi idi. Bu mənada hesab etmək olar ki, onlar zamanın ideoloji tələblərindən və şəraitindən çıxış edərək "proletar mədəniyyəti", sovet beynəlmiləlçiliyini müdafiə etmək zorunda qalıblar. Amma fikrimizcə, bu o demək deyildir ki, sovet ideologiyasının beynəlmiləlçiliyini müdafiə edənlərlə, müdafiə etməyənlər arasında da, asanlıqla heç bir ciddi fərqin olmadığını iddia edək.

Hər halda, sovet beynəlmiləlçiliyini deyil, assimilyasiyaya məruz qalan milli-mənəvi dəyərləri müdafiə edənlər yanlız milli mədəniyyəti deyil, həm də bəşəri dəyərləri tərənnüm ediblər. Çünki bir milləti ayaq üstə tutan, öncə onun özünəməxsusluğu, milli mentallığıdır. Milli özünəməxsusluq isə yalnız o halda mövcud ola bilər ki, mədəniyyətdə, ədəbiyyatda, fəlsəfədə, incəsənətdə yaşaya bilsin. Yəni öncə milli mədəniyyət olmalıdır ki, daha sonra o, bəşəri dəyərlərin tərkib hissəsinə çevrilsin. Bu baxımdan fikrimizcə, saxta sovet beynəlmiləlçiliyini tərənnüm etməklə yanaşı, milli mədəniyyətə töhfə verənlərin əməyi birdirsə, "proletar mədəniyyəti"nə qarşı çıxaraq ona qarşı milli mədəniyyəti müdafiə edənlərin əməyi birə on qat artıqdır. Bunun nə üçün məhz belə olmasını anlamaq üçün bir neçə məqama diqqət yetirmək yetərlidir.

Birincisi, aydınlığa qovuşmalı olan məqam odur ki, SSRİ rəhbərliyi və ideoloqları "proletar mədəniyyəti" adı altında nəyi hədəfləmişdir. Şübhəsiz, işğalın ilk illərindən başlayaraq (1920-1930-cu illər) Sovet Rusiyası qarşısına ilk məqsədlərdən biri kimi, müstəmləkə halına gətirdiyi millətlərin, özəlliklə türk-müsəlman xalqlarının milli mədəniyyətini məhv etmək siyasəti yürütmüşdür. Sovet rəhbərləri və ideoloqları bu siyasətini "proletar mədəniyyəti" adı altında həyata keçirməklə isə, əsil məqsədlərini pərdələmiş olurudlar. İkinci məqam isə odur ki, sovet ideoloqları sosialist mədəniyyəti, yəni sovet beynəlmiləlçiliyi ideyasını yerli mütəfəkkirlərin əli ilə həyata keçirmək, bir növ vahid və milli

mədəniyyətin ikitirəliyinə, üçtirəliyinə nail olmaq istəyirdilər. Əgər xalq özünün yaratdığı mədəniyyətə, milli mədəniyyətə inamını itirərsə, ona yuxarıdan aşağı baxarsa o zaman, onun şüuruna istənilən saxta mədəniyyəti yeritmək də çətin olmayacaqdır. Başqa sözlə, bu halda yerli xalqı mənasını və mahiyyətini anlamadığı istənilən mədəniyyəti, o cümlədən "proletar mədəniyyətinə", yəni sovet beynəlmiləlçiliyinə uyğunlaşdırmaq, daha doğrusu zorla tabe etdirmək də asanlaşacaqdır. Sözün açığı, etiraf etməliyik ki, SSRİ-nin mövcud olduğu 70 il ərzində müəyyən qədər də olsa, sovet rəhbərliyi və ideoloqları bunu bacardılar.

Bu baxımdan həmin dövrdə Azərbaycanda baş verənləri mühacirətdə izləyən M.B.Məmmədzadə doğru yazırdı ki, hər bir millət mahiyyətcə də, formaca da milli mədəniyyətdən çıxış etməlidir. Əks təqdirdə milli mədəniyyətdən uzaq qalan bir dövlətdə Qacarlar da, Osmanlılar da olduğu kimi, uçurumlar yaranar və üsyanlar çıxar: "Əski saray zehniyyətilə "mahiyyəti" və hər şeyi kəndilərindən ibarət bilən kommunistlər çox dərin qəflət içərisində idilər. Azərbaycanın həqiqi vəziyyətini obyektiv baxışla görə bilmədiklərindən fikirlərində israr edirdilər. Halbuki şəkilcə və mahiyyətcə Türk olan Azərbaycan mədəniyyəti yeni şərait içərisində bu mədəniyyəti mahiyyətcə daha çox türkləşdirmiş və milliləşdirmişdir" [154[a], 53].

Bizə elə gəlir ki, işğalın ilk illərindən başlayaraq, xüsusilə repressiyanın tüğyan etdiyi bir dövrdə Azərbaycan xalqının şüuruna zorla yeridilən formaca milli, "mahiyyət"cə sosialist mədəniyyətini, nə milli, nə də sözün həqiqi mənasında beynəmiləl mədəniyyət adlandırmaq mümkün deyildir. Xüsusilə də, bir xalqın mədəniyyətinin mahiyyəti ona məxsus deyilsə, onun zahiri, forması nə qədər milli olursa-olsun, o saxta olacaqdır. Xalqın içindən çıxmayan, onun mənəviyyatına əsaslanmayan saxta mədəniyyət hansı məzmun və forma daşımasından asılı olmayaraq həmin millətə, onun varlığına və gələcəyinə xidmət edə bilməz. Ona görə də, hesab edirik ki, bir millət milli-mənəvi dəyərlərdən

istər könüllü olaraq, istərsə də zorla uzaqlaşdırılarsa, çox keçməz ki, həmin məmləkətdə əxlaqi-mənəvi aşınma baş verər. Hətta, o millət gələcəkdə müstəqil və azad yaşamağa haqq qazansa belə, onun ağrılarını, acılarını çiyinlərində daşıyar. Zənnimizcə, bu mənada hazırda Azərbaycan xalqı xeyli dərəcədə SSRİ dövründə onun mədəniyyətinə qarşı yönəldilmiş assimilyasiya siyasətinin ağrılarını, sancılarını çəkir.

Sovet dövründə milli mədəniyyət və onun ideoloji-fəlsəfi əhəmiyyəti. 1920-1930-cu illərdə beynəlmiləlçi-proletar mədəniyyət tərəfdarlarının kosmopolit fikirləri isə **millilik və müstəqillilik** tərəfdarları tərəfindən birmənalı qarşılanmırdı. Azərbaycanda və onun xaricində N.Nərimanov, M.Ə.Rəsulzadə, H.Cavid, Ə.Cavad, M.Müşfiq, S.Mənsur, İ.Hikmət, Ə.Yurdsevər, M.B.Məmmədzadə və başqaları proletar mədəniyyət adı altında milli mədəniyyətin və milli ədəbiyyatın məhv edilməsinə qarşı çıxırdılar. **N.Nərimanov** 1922-ci ilin iyununda "Bakinskiy raboçiy" qəzetində dərc olunan bir məqaləsində "proletar mədəniyyət"i tərəfdarlarını tənqid edərək yazırdı: "Türk uşaqları təkcə Puşkinin deyil, habelə Şekspir və Şillerin də şeirlərini bilməlidirlər. Ancaq hər halda yalnız ondan sonra, o zaman ki, onlar hər şeydən əvvəl əsl proletar, xalq şairi Sabir, Vaqif, Zakir, Vidadinin bütün zəhmli, döyüşkən şeirlərini bilələr" [258].

Hesab edirik ki, həmin dövrdə milli mədəniyyəti beynəlmiləl-proletar mədəniyyətə qarşı müdafiə edənlər arasında H.Cavid və Ə.Cavad xüsusilə fərqlənmişlər. Məhz islamçılığa, türkçülüyə, o cümlədən Azərbaycan türkçülüyünə bağlılığın nəticəsi idi ki, Sovet Rusiyasının Azərbaycanı əsarət altında saxladığı dönəmdə də **Hüseyn Cavid** bu ideyalardan üz döndərmədi. Əksinə hər bir şeirində, dramında, poemasında onu yaşatmağa çalışdı. Buna bariz örnək H.Cavidin 1920-1930-cu illərdə qələmə aldığı "Topal Teymur" ilə "Peyğəmbər" əsərləridir ki, o, burada bilavasitə milli və dini dəyərləri müdafiə etmişdir. Xüsusilə, Azərbaycan türkləri bu dövrdə səhnəyə qoyulan "Tolpal

Teymur"da türklüyün ümumi qəhrəman tipi Teymurun obrazından fövqəladə dərəcədə razı qalmışdır. Çünki Cavid bu əsərdə Teymuru türklüyün və islamın böyük bir türk oğlu kimi tərif etmişdir [61, 271]. Eyni zamanda, o, bu əsərində Teymurla İldırım Bəyazid arasındakı tarixi döyüşü sonuncunun dilindən bir tərəfin deyil, bütün türk millətinin məğlubiyyəti kimi qələmə almışdır [61, 302]. H.Cavid göstərmək istəmişdir ki, türk və islam birliyini daxildən qorusaq, başqa bir millət onun haqlarını qəsb edə bilməz. Bunu, sonradan başa düşən beynəlmiləlçi bolşeviklər bir tərəfdən pyesin göstərilməsini qadağan etmiş, digər tərəfdən "panturanist tiplərini realizə etməyə cəsarət edən" H.Cavidin əleyhinə təbliğat aparmağa başlamışlar. Fikrimizcə, Cavidin "Siyavuş" əsərində də milli istiqlal ideyası təbliğ olunmuşdu. Bir növ o, Rəsulzadənin "Əsrimizin Siyavuşu" siyasi-fəlsəfi əsərini bədii dillə ifadə etmişdi. H.Cavid də Rəsulzadə kimi bir türk qəhrəmanının – Siyavuşun ölümünü, yəni Azərbaycanın Rusiya tərəfindən işğalını Turan üçün zərbə hesab etmişdir [62, 251]. Bu baxımdan hər iki mütəfəkkirin fikrincə, Siyavuşun-Azərbaycanın mücadiləsi millilik və müstəqillik uğrunda mübarizədir [62, 250].

Bu dövrdə beynəlmiləlçi proletar mədəniyyətinə və ədəbiyyatına qarşı çıxan **Əhməd Cavada** görə, milləti ifadə edən ilk növbədə, onun milli varlığı, milli müstəqilliyidir. O, beynəlmiləlçiliyə qarşı milliliyi, yəni türk mədəniyyətinə aid olan nə varsa onu qoyurdu. Fikrimizcə, bu baxımdan onun "Göy göl"ü şeiri çox ibrətamizdir: "Sənin gözəlliyin gəlməz ki saya, Qoynunda yer vardır yıldıza, aya. Oldun sən onlara mehriban daya, Fələk büsatını quralı, Göy göl!" [58, 229]. Ə.Cavadın bu sözlərində açıq-aşkar Cümhuriyyətin nisgili var və o, heç bunu gizlətmirdi. Cavad üçün millətin müstəqilliyi və milli mənəvi dəyərləri hər şey demək idi. Onun milli ruhuna hər cür beynəlmiləlçi proletar mədəniyyəti və ədəbiyyatı yad idi. O, ona yad olan və millətinin müstəqil varlığını danan, beynəlmiləlçilik adı altında milli mədəniyyətini məhv edən "kommunizm" cəmiyyətinə uyuşa bilmirdi:

“Assınlar məni! Kəssinlər məni! Qoy türmələrə bassınlar məni! Neynirəm könülü? Neynirəm dili? Səndən yazmasam, neynirəm əli?!” [58, 230]. Ə.Cavad Sovet Rusiyasının işğalçılıq siyasətini və bu siyasətin tərkib hissəsi kimi Azərbaycan türk mədəniyyətinin yerlə-yeksan olmasını “Kür” əsərində olduqca dəqiq ifadə etmişdi. O, Sovet Rusiyasının dilindən Kürə, yəni Azərbaycana deyir: “Mən artıq tək Kür deyil, Dənizləri boğaram” [58, 240]. Daha sonra Ə.Cavad Sovet Rusiyasının bu iddiasına cavab olaraq yazır: “Əyil, Kürüm, əyil, keç! Meydan sənin deyil, keç!” [58, 241].

1920-ci illərdə Azərbaycanda yaşayan Türkiyə türklərindən **İsmayıl Hikmət** iki cildlik “Azərbaycan ədəbiyyatı tarixi” (1928) kitabında millilikdən çıxış edərək yazırdı ki, Türk xalqlarının ədəbiyyatı və mədəniyyətinin kökü, mənşəyi birdir: “Türkmənlər, azərilər və osmanlıların ədəbiyyatındakı xüsusi ayrılıqlar və yaxud da kəsikliklər ancaq mühit və məzhəblə bağlıdır” [33, 14]. Türk xalqlarının ədəbiyyatının mənşəyini ümumi “qövmi cərəyana”, yəni milli cərəyana bağlayan İ.Hikmət hesab edirdi ki, bütün türk etnoslarının ən təbii, ən səmimi və əsil ədəbiyyatını təşkil edən bu cərəyandır. Onun fikrincə, milli cərəyan bütün bir xalqın müştərək vicdanından doğan, milli hisslərinin, həyəcanlarının və nəğmələrindən ibarət bir ümumilikdir [38, 208]. Fikrimizcə, həmin dövrdə “proletar mədəniyyəti” ilə razılaşmayan böyük bəstəkarımız **Üzeyir Hacıbəyli**nin kosmopolitçilərə qarşı mübarizəsini təhlil edən A.Hacıyeva qeyd edir ki, Ü.Hacıbəyli novator bəstəkar olmasına baxmayaraq, həmişə xalq musiqinin, xalq mahnılarının yaşadılmasına və inkişafına mühüm yer vermişdir. Xüsusilə, 1920-ci illərdə Hacıbəyli bir tərəfdən muğamın, o cümlədən “çahargah”ın, tarın iranlılaşdırılmasına, digər tərəfdən milli musiqimizin avropalaşdırılmasına qarşı çıxmışdır [95, 23]. Sovetlər Birliyi dövründə **Səməd Mənsur** da əsil millətpərəvər kimi, yalançı “proletar mədəniyyəti”ndən uzaq duraraq türklüyünü müdafiə etmiş və onu məhv etmək istəyən bolşeviklərə qarşı çıxmışdı. Bu baxımdan S.Mənsurun həmin

dövrdə yaşamış, Azərbaycan şairi Məşədi İmaməlizadə Azərə yazdığı bir şeir diqqətəlayiqdir: "Türklüyün varlığı qeyrə nə böyük qorxuymuş – Dost-düşmən onu məhv etməyi istər, Azər!" [156, 38]. Bu fikir günümüzdə də aktual olaraq qalmaqdadır. Çünki türklük-islamlıq dünən də, bu gün də bolşevizm kimi antimilli ideyalara qarşıdır. **Əmin Abid (Gültəkin)nin təbrincə desək,** boşevizm rəngini tökdüyü qandan almışdı: "Qafqaz onun deyil, bizdən çaldı o, Oldu bu gün bizə düşman bolşevik" [37, 9].

Əhməd Cavadın, H.Cavidin, Ə.Abidin və başqalarının mədəniyyət və ədəbiyyatdakı milli xəttinin davamçısı olan **Mikayıl Müşfiq** də rus kommunizminə və onun beynəlmiləlçilik-proletkultçuluq nəzəriyyəsinə uyğunlaşa bilməmişdi. Ona görə də, Müşfiq milliliyin əleyhinə olanlarla şeirilə, sənətilə daima mübarizə aparmışdır. O dövrdə tarı, kamançanı və sairəni milli mədəniyyətdən uzaqlaşdıranlara, yadlaşdıranlara, "oxuma tar" və s. deyənlərə qarşı M.Müşfiq yazırdı: "Oxu, tar, oxu, tar!.. Səsindən ən lətif, şeirlər dinləyim. Oxu, tar, bir qadar!... Nəğməni su kimi alışan ruhuma çiləyim" [161, 121]. Doğrudur, Müşfiq də dövrünün tələblərinə uyğun olaraq bəzi əsərlərində ("Mədəni hücum") sosializm quruluşunu, proetar mədəniyyətini öymək istəmişdir: "Mən sosialist şura vətənimə, əməkçi xalqıma, qəlbimin, beynimin qarşığından bir çox bədiələr vermək üçün çırpınıram" [161[a], 121]. Ancaq onun bu yönlü şeirlərində səmimilikdən, etibardan və s. daha çox inamsızlıq, qeyri-səmimilik hiss olunur. Bunu, Müşfiq də etiraf edərək yazırdı ki, "mədəni hücumda sinfi ziddiyyətlər də meydana çıxarılmalıydı. Amma o şeirdə bunlar yoxdu" [161[a], 115]. Başqa sözlə, Müşfiq də Cavid, Cavad və digər milli ruhlu şəxsiyyətlər kimi proletar mədəniyyətinə, sosializm quruluşuna uyuşa bilmirdi: "Unutmadıq ikibaşlı qartal çarı, Çəkdi bizi gah aşağı, gah yuxarı" [161, 104].

Bu dövrdə müəyyən qədər beynəlmiləlçiliyə rəğbət bəsləməsinə baxmayaraq, əsasən mədəniyyət və ədəbiyyatda millilik mövqeyindən çıxış edənlərdən biri də **Cəfər Cabbarlı**

olmuşdu. Cabbarlıya görə, hər millətin özünəməxsus xüsusiyyəti vardır ki, bu xüsusiyyət hər bir vətəndaşın, xüsusilə mütəfəkkirlərin dünyagörüşündə öz əksini tapmalıdır [57, 158]. Onun fikrincə, Azərbaycan Türk ədəbiyyatına indiyə qədər üç təsir: 1) İran-Fars; 2) Rus; 3) Türk ədəbiyyatı olmuşdur. Bunlardan ən doğması Türk ədəbiyyatıdır ki, Azərbaycan ədəbiyyatı da onun əsasında inkişaf etməlidir [57, 204-210]. C.Cabbarlı onu yalnız formaca deyil, məzmunca da milli ədəbiyyat yaratmaqda ittiham edənlərə cavab olaraq yazırdı: "Klassik ədəbiyyatın nümunələrini tənqidi nöqteyi-nəzərlə isifadə edərək, ədəbi keçmişdən ən yaxşı və ən qiymətli cəhətləri götürərək, mən səy edəcəyəm ki, "formaca milli" əsər yaradım. Azərbaycan xalqının nəhəng mübarizəsinin qəhrəmanlığını əks etdirərək, mən geniş əməkçi kütlələrinə yaxın və tanış olan milli formalar axtarıram" [57, 273]. Ancaq bütün səylərinə baxmayaraq, onun SSRİ dövründə yazdığı bir çox əsərlərində, o cümlədən "Od gəlini"ndə milli istiqlal, milli mədəniyyət, milli tarix və s. daha çox özünü büruzə vermişdi. Bizə elə gəlir ki, o, "Od gəlini"ndə Ərəb Xilafətinə qarşı mübarizə aparan Elxanın timsalında Azərbaycan Cümhuriyyətinin istiqlalını və Sovet Rusiyasına qarşı dirənişini ifadə etmək istəmişdir. Çünki Elxanın yalnız bir istəyi var – milli azadlıq [56, 294].

O, bu əsərində ərəblərin adı ilə əslində rusların işğalçılıq siyasətini və onların milli mədəniyyəti hansı şəkildə məhv etmələrini göstərmişdir. Cabbarlı əsərin qəhrəmanı Elxanın dilindən deyir: "Mən insanlığın ümumi və əbədi səadətini bu şəxsiyyət istibdadının (Stalinə pərəstiş – F.Ə.) məzarları üzərində tikmək istəyirəm, anlayırsanmı! Düşündüyüm vuruşda ilk düşmənim ərəb basqınçıları (rus işğalçıları – F.Ə.), ikinci düşmənim bəşəriyyəti salışdıran və gücsüzləri əzdirən dinlər, üçüncü düşmənim isə, köləlik törədən bütün indiki ictimai mühit və yaşayış quruluşudur ki (bolşevizm –F.Ə.), onun da başında sən və sənin kimi insan qəssabları (Kirov, Orconikidze, R.Axundov, Ə.Qarayev və b.) dururlar. Başqa yol (milli istiqlaldan kənar –

F.Ə.) yoxdur. Mənim yolum sənə qarşıdır" [56, 305]. C.Cabbarlı çox məntiqi olaraq burada, azadlıq (Elxan) və kölәlilik (Aqşin) tərəfdarı olan iki qardaşı bir-birinə qarşı qoyur. Elxan milli istiqlalı hər şeydən üstün tutduğu halda, onun qardaşı Aqşin onunla eyni fikirdə deyil. Bu, Azərbaycan Cümhuriyyətinə münasibətdə milli istiqlalçıların (M.Ə.Rəsulzadə, N.Yusifbəyli və b.) və milli bolşeviklərin (N.Nərimanov, Ə.Qarayev və b.) mövqeyini xatırladır. Cabbarlı Elxanın dilindən Aqşinə deyir: "Dünya iki cəbhəyə ayrılmışdır. Bir tərəfdə silahlı güclülər (bolşeviklər – F.Ə.), digər tərəfdə isə əliboş məzlumlar (istiqlalçılar – F.Ə.)" [56, 313]. Elxan istiqlalı təbliğ etdiyi halda, Aqşin isə ona qarşı çıxır. Bununla da, Cabbarlı göstərmək istəyir ki, Azərbaycan Cümhuriyyətinin işğal olunmasında yad qüvvələrlə (rus, erməni və b.) yanaşı, bəzi qanı qanımızdan olan soydaşlarımız da iştirak etmişlər.

Göründüyü kimi, 1920-1940-cı illərdə milli mədəniyyət və milli ədəbiyyat məsələsində millilik-müstəqillik dən çıxış edən ziyalılar doğru yol tutmuşdu. Bunu, çox keçmədi ki, sovet ideoloqları da bu və ya digər formada etiraf etmək məcburiyyətində qaldılar. Artıq 1950-1960-cı illərdə sovet ədəbiyyatında yazılırdı ki, 1920-1940-cı illərdə mövcud olan "proletar mədəniyyəti"-"proletkult" leninizmə zidd hərəkət-xətt kimi [38, 51], milli mədəni irsi tamamilə inkar etmişdi. Bundan çıxış edilərək həmin dövrün bir sıra ədəbi tənqidçiləri, o cümlədən Əli Nazim, Cəfər Cəfərov, Mikayıl Rəfili, Mustafa Quluzadə və başqaları kosmopolitizm, nihilizm, burjua estetizmi və vulqar sosoligizmində ittiham olunurdular [103, 27, 41]. Bununla da, dolyasıyla da olsa, vaxtilə milli mədəniyyətdə proletkultçuluqdan deyil, millilik mövqeyindən çıxış edən mütəfəkkirlərin (H.Cavid, Ə.Cavad, A.İldırım və b.) əslində düzgün yol tutduqları etiraf olunurdu.

Ancaq bunula yanaşı, milliliyi ört-basdır etmək üçün, sovet ideoloqları yenə də məsələyə bolşevizm donu geyindirməyə çalışırdılar. Bu baxımdan sovet ədəbiyyatında yazılırdı ki, guya,

“ədəbiyyatın sinfiliyi haqda marksist-leninçi təlimi bayağılaşdıranlar vülqar sosiologiya və proletar mədəniyyətinin ümumxalq və ümümbəşəri mahiyyətini təhrif edərək onu yalnız fəhlə sinifnin mədəniyyəti kimi məhdud çərçivəyə salmağa çalışır, sosialist mədəniyyətinin yaranmasında keçmiş irsin rol və əhəmiyyətini inkar edirdilər” [38, 209]. Hətta 1950-ci illərdə Yazıçılar İttifaqının sədri S.Rəhimov qurumun plenumundakı (1954) çıxışında deyirdi ki, Azərbaycan sovet ədəbiyyatı hər hansı düşmən ideyalara qarşı atəş açа-açа irəliləmiş, pantürkizm, panislamizm, kosmopolitizm, nihilizm, formalizm və başqa zərərli, yabançı meyillərə qarşı amansız mübarizə aparmışdır [103, 23].

Bu onu göstərirdi ki, sovet ideoloqları zaman-zaman milli şüuru məhv etmək üçün müxtəlif ideyalara əl atmış, bəzən həmin ideyaların onların özlərinə qarşı yönəlməsini görərək, ondan imtina etmişlər. Bu zaman isə, vaxtilə milli şüuru məhv etmək üçün ortaya atdıqları “proletkultçuluq” “kosmoplitizmi” təbliğ edən yerli ziyalıları günahkar çıxarır, ittiham edirdilər. Burada ən çox təəssüf doğuran hal isə odur ki, sovet rəhbərləri və ideoloqları adətən, bu məsələlərdə milli ziyalıları bir-birlərinə qarşı qoyurdular. Halbuki dünənə qədər proletar mədəniyyəti şüarı ilə əli nazimlərə, süleyman rüstəmlərə, səməd vurğunlara, mikayıl rəfilərə və başqalarına şərait yaradaraq onları millilik-müstəqillik tərəfdarlarına qarşı sürkləyənlər də, eyni zamanda, sonuncu ideyanı müdafiə etdikləri üçün hüseyn cavidləri, əhməd cavadları, bəkir çobanzadələri, mikayıl müşfiqləri və başaqalarını isə repressiya edənlər də SSRİ rəhbərləri və ideoloqları özləri olmuşdu. Ancaq 1950-ci illərdə Stalinin ölümü və Bağırovun hakimiyyətdən uzaqlaşıdırılması ilə repressiya qurbanlarını əfv edən sovet rəhbərləri və ideoloqları bunun günahkarı kimi, bu və ya digər formada Azərbaycan rəhbərlərini və ziyalı təbəqəsini ittiham edirdilər. Artıq qeyd olunurdu ki, vaxtilə proletar mədəniyyətindən çıxış edən Ə.Nazim, M.Rəfili və başqaları Füzuli, Vaqif, M.F.Axundzadə, H.Cavid və başqalarını milli-burjua, aristokrat

şair-mütəfəkkirləri kimi qələmə verməklə marksizmə xələl gətirmişlər [38, 210].

Fikrimizcə, SSRİ rəhbərlərinin və ideoloqlarının bu cür riyakar, ikiüzlü əməlləri, hətta marksizm-leninizmə bağlı olan bəzi ziyalılarımızda belə əks reaksiya doğurmuşdur. Belə ki, bu vaxta qədər Sovet ideoloqlarının təşviqi ilə Azərbaycan mədəniyyətinə, ədəbiyyatına, dilinə və tarixinə müəyyən qədər müstəmləkəçilik-mərkəzçilik ideologiyasından yanaşanlar, artıq milli ideyaya üz tuturdular. Bununla da, 1950-1960-cı illərdə milli dil, milli mədəniyyət, milli tarix və milli ədəbiyyat uğrunda çalışan ziyalılar, o cümlədən filosoflar, tarixçilər, dilçilər, ədəbiyyatçılar, yazıçlar və başqa aydınlar arasında (Ə.M.Dəmirçizadə, M.İbrahimov, Z.Bünyadov, X.Məmmədov, S.Əliyarov, B.Vahabzadə, R.Rza, M.Hüseyn, X.R.Ulutürk və b.) Azərbaycan milli ideyasının tərəfdarları xeyli dərəcədə çoxaldı.

Bizcə, bu dövrdə rus bolşevizminin bütün sahələrdə (dil, ədəbiyyat, tarix, mədəniyyət və s.) Sovet Azərbaycanında yürütdüyü müstəmləkəçilik-mərkəzçilik siyasətini dərindən anlayan və ona qarşı çıxanlardan biri yazıçı-mütəfəkkir **Mirzə İbrahimov** olmuşdur. O hesab edirdi ki, artıq son 20-25 ildə Sovet Azərbaycanı ədəbiyyatına, mədəniyyətinə, tarixinə eyni zamanda, həmin dövrün repressiya qurbanlarına (M.Müşfiq, H.Cavid, Ü.Rəcəb, K.Ələkbərli və b.) qarşı yönəlmiş siyasətə, ideologiyaya son qoyulmalıdır. Onun fikrincə, Azərbaycan mədəniyyətinə, ədəbiyyatına və onun mütəfəkkirlərinə münasibətdəki ziddiyyətlər xüsusilə, H.Hüseynovun məsələsi ilə bağlı olaraq A.Bakıxanovun gah demokratik və mütərrəqi, gah da monarxist və fanatik yazıçı adlandırılması doğru deyildir. M.İbrahimov açıq şəkildə deyirdi ki, bu cür ziddiyyətlərə görə yalnız alimlər və ziyalılar deyil, partiya rəhbərliyi də günahkardır: "Biz bütün günahları elmi idarələrin və işçilərin üzərinə qoymamalıyıq, biz özümüz, Mərkəzi Komitənin bürosu ideoloji işi istiqamətləndirmək üçün heç də hər zaman aydın və operativ işləmirik. Bəzən biz tərəddüd edirik və hətta indi

hamıya aydın olan məsələlərin həlində gecikmələr müşahidə olunur" [103, 68].

Fikrimizcə, bu dövrdə Azərbaycan milli ideyasını ədəbiyyatda yaşadan öncüllərdən biri də **Bəxtiyar Vahabzadə** olmuşdur. O, "Gülüstan" poemasında Azərbaycanın iki yerə parçalanmasının səbəblərini göstərir və demək istəyirdi ki, əslində indi hər iki Azərbaycan işğal altındadır. Çünki o vaxt da, indi də Azərbaycanı iki yerə bölən farslar və ruslar olmuşlar: "Bir xalqı yarıya böldü qılınc tək. Öz sivri ucuyla bu lələk qələm, Dəldi sinəsini Azərbaycanın… Kəsdilər səsini Azərbaycanın" [219, 76]. Bəs, Azərbaycanın taleyi ilə bağlı hökm verənlər kimlər idilər? Cavab aydındır: ruslar və farslar. Şair yazır ki, bunu Azərbaycan xalqı bilməli və öz sözünü yenidən deməlidir: "Tərəflər kim idi? Hər ikisi yad. Yadlarmı edəcək bu xalqa imdad?! Qoy qalxsın ayağa ruhu Tomrisin. Babəkin qılıncı parlasın yenə. Onlar bu şərtlərə sözünü desin" [219, 77]. Vahabzadə məsələni açıq şəkildə qoyaraq sual edirdi ki, bu yadları Vətənə kim çağırmışdır? Əgər onlar çağırılmamış "qonaq"lardırsa Azərbaycanın taleyini də həll edə bilməzlər. Azərbaycanın taleyini yalnız onun öz oğulları, Oğuz xaqanın nəsili həll etməlidir. O Oğuz xaqanın nəsli ki, indi onu əsarət altında saxlayanlardan biri fars, onu "xər", digəri, rus isə "baran" adlandırır [219, 79]. Bizə elə gəlir ki, artıq bu poemasında Vahabzadə sovet köləliyinə qarşı ciddi etirazını bildirmişdi.

Həmin dövrdə gənc şairlərimizdən **Xəlil Rza** da milli dilin xalqın həyatında oynadığı mühüm rolu dəyərləndirmiş və onun ruslar tərəfindən ikinci dil halına gəlməsinə qarşı çıxmışdır. Milli şairimiz yazırdı ki, vaxtilə ərəblər, farslar və başqa millətlər bu dilin varlığına göz yumsalar da, "lakin yenə o yaşadı". Bu mənada, o, dolayısıyla ruslara çatdırırdı ki, bu dil onların qarşısında da əyilməyəcəkdir: "Mənim dilim məğrur baxmış üzərindən gəlib keçmiş, Ürəyini dəlib keçmiş oxların qanlı ucuna. Baş əyməmiş ərəblərin qol zoruna, dil zoruna, qılıncına, qırmancına! Baş əyməmiş! Baş əyməyir! Əyməyəcək" [195[c], 167].

Bu dövrdə **Rəsul Rza** isə bəzi şeir və poemalarında müəyyən qədər Sovet rejiminə və onun yalançı beynəlmiləlçilik ideyasına qarşı çıxmışdı. O, xüsusilə, Mikayıl Müşfiqə və digər repressiya qurbanlarına həsr etdiyi "Qızılgül olmayaydı" poemasında Sovetlər Birliyinin mahiyyətini göstərmək istəmişdi. Eyni zamanda hiss olunur ki, Rəsul Rza vaxtilə M.Müşfiqi məhv edən bolşevizmin indi onu da hədələdiyini yaxşı anlayır: "Vaxt oldu ki, araya girdi qor-qoduqlar. Sənəti yumruqla, ilhamı zirzəmilə qorxutdular. Bir də gördün, əldə möhürlü mandat, gəldi ədəbiyyat darğaları… Neçə mərd oğulların adı silindi dirilər sadalağından. Yetmiş günah asdılar hər ayağından. Olsun ki, indi də bu sözlərə rəng vermək istəyən tapılar. Kəsib mətləbin qabağını, dalını – qara qələmə verərlər nəcib insan arzusunu, yaxşı insan xəyalını…" [195, 229]. Bizcə, R.Rza ehtiyatla "ədəbiyyat darğaları" adı altında milli mədəniyyətə, milli ədəbiyyata və milli dilə qarşı çıxan Mərkəzi və onun yerlərdəki "beynəlmiləlçi" nümayəndələrini nəzərdə tutmuşdu: "Biz "darğalar" deyəndə, dili vətən, xalq deməkdən qabar çalan, güclüyə yarınmağa çalışıb, gücsüzü şahmar kimi çalan, özündən yuxarıya (Mərkəzə – F.Ə.) qat-qat alçalan, vicdanı da qəlbi kimi piy bağlamış, vəliyi-nemətinin hər sözünə əl çalan yaramazları deyirik" [195, 231].

R.Rza qeyd edirdi ki, M.Müşfiqin, Ə.Cavadın, Seyid Hüseynin, H.Cavidin və başqalarının günahsız olmasına ən bariz sübut xalq qarşısında mühakimə olunmamaları idi. Xalq gözündən iraqda ədalət və haqqın olmasına şübhə edən Rza "xalqı ədalətsiz bir hökmü pozmağa çağırmadığı" [195, 243] üçün, özünü günahkar saysa da, ancaq onu da qeyd edirdi ki, hakimiyyət M.C.Bağırov və onun ətrafındakı Xorenlərin, Topuridzelərin, Makaryanların və başqaların əlində olduğu bir dövrdə bu addımı atmaq mümkün deyildi [195, 244]. Bu mənada R.Rza qeyd edir ki, nəinki həmin dövrdə M.Müşfiqə və başqalarına bir yardım edə bilmiş, üstəlik, Müşfiqin kitablarını, məktublarını gizlətməyə məcbur olmuşdu: "Bilirəm, qəhrəmanlar var indi, irişə-irişə, qulp qoyurlar hər işə.

Tərcümeyi-hallarından "artıq" yerləri kəsib indi, çalışırlar yada salan olmasın ki, bir zaman hər nemət onlara nəsib idi" [195, 245]. R.Rza etiraf edirdi ki, kommunizm ideyasına tapınsa da, onun üçün, xüsusilə 1930-1940-cı illərdə baş verənlər "mürəkkəb", "vahiməli" və "təzadlı" olmuşdu [195, 248]. Doğrudur, onun fikrinə görə, artıq şaxtalı zamanlar arxada qalmış və havalar isinmişdi [195, 262]. Ancaq bizə elə gəlir ki, "şaxtaların sınması" və "havanın isinməsi" yarımçıq idi və bunu, R.Rza da yaxşı dərk edirdi.

Göründüyü kimi, sovet dövründə mədəniyyət və ədəbiyyat ilə bağlı bir-birinə zidd olan iki baxış: millilik və beynləmiləçilik-mərkəzçilik mövcud olmuşdu ki, bu özünü əlifba, dil, din, ədəbiyyat, tarix və s. məsələlərə münasibətdə daima büruzə vermişdi. Bizcə, bu məsələlər bir-birilə sıx şəkildə bağlı olduğu üçün hər iki tərəf hər hansı məsələni müdafiə edərkən digərlərinə də müraciət etmişlər. Məsələn, ərəb əlifbasından imtina edib latın əlifbasına keçidi mühüm sayan bəzi bolşevik mütəfəkkirlər bunu, yalnız maarifçilik, əhalinin savadlanması ilə məhdudlaşdırmır, onu dini və milli ədəbbiyyata da qarşı qoyurdular. Yaxud da, yeni proletar ədəbiyyatı iddiası ilə çıxış edənlər yalnız milli ədəbiyyatı deyil, az qala bütün mədəni və tarixi irsi inkar edirdilər.

2.3. Milli dil və əlifba məsələsinin ideoloji yönləri

Sovet dövründə milli mədəniyyət və milli ədəbiyyatla bağlı əsas problemlərdən biri də milli əlifba və milli dil məsələsi olmuşdur. Sovet ideoloqları tərəfindən bu problemin gündəmə gətirilməsi təsadüfi olmamış, əksinə, onlar Sovet Azərbaycanında yeni əlifbanın tətbiqini ortaya atmaq və milli diiln adını dəyişdirməkdə siyasi məqsədlər güdmüşlər. Bu cür siyasi gedişlər isə rus şovinizm siyasətində nə birinci, nə də sonuncu idi. Bu cür mənfur siyasi gedişlərdən biri 1917-ci ildə

Leninin imzası ilə bolşevik hökumətinin adından, guya bütün Rusiya ərazisində yaşayan xalqların milli müqəddəratlarını özlərinin təyin edə biləcəyi bəyannaməsi şəklində baş vermişdi. O zaman çox keçmədən əsil niyyətlərini, imperiya məqsədələrini ortaya qoyaraq Azərbaycanı və başqa türk ölkələrini işğal edən, bununla da türk-tatar xalqlarının siyasi müstəqilliyinə son qoyan Lenin və onun silahdaşlarının bu dəfə hədəflərində milli şüurun assimilyasiya edilməsi dururudu. Sovet ideoloqlarına əlifbanın dəyişdirilməsi, milli dil məsələsinin gündəmə gətirilməsi bütövlükdə, milliliyin beynəlmiləlçilik adı altında assimilyasiya edilməsi üçün lazım idi.

Sovet Rusiyasının yeni əlifba siyasəti Azərbaycan türklərini türk dünyasından ayırmaq üçün əvvəlcədən düşünülmüşdü [47, 9]. Azərbaycan Cümhuriyyətinin siyasi müstəqilliyinə son qoyan Sovet Rusiyası, latın əlifbasını Sovet Azərbaycanında tətbiq etməklə, onun milli mədəniyyətini də zərbə altında qoyurdu. Bu baxımdan sovet ideoloqları üçün bu müstəmləkəçiliyə hədəfələnmiş "yenilik" idi. Başqa sözlə, tələm-tələsik yeni əlifbaya-latın əlifbasına keçmək Azərbaycan türk xalqının keçmişi ilə gələcəyi arasında körpünün tez yandırılmasına, eyni zamanda dünənə qədər onunla eyni əlifbanı paylaşan islam və türk xalqları, xüsusilə Anadolu türkləri ilə mənəvi və siyasi bağların qırılmasına hesablanmışdı.

Sovet ədəbiyyatında qeyd olunur ki, yeni əlifbanın birinci mərhələsində (1920-1929) bununla bağlı iki cərəyan: 1) latınçılar və 2) islahatçılar (ərəb əlifbası tərəfdarları) mövcud olmuşdur [26, 10]. Əslində əlifba məsələsi ilə bağlı "latınçılar" və "islahatçılar" məsələsi, məsələnin əsil mahiyyətini gizlətmək üçün uydurulmuşdur. Burada, əsas məsələ ideoloji savaş idi. Çünki bu məsələnin dərininə vardıqda görürük ki, burada problem yalnız köhnə və yeni əlifba məsələsi olmamışdır. Bu baxımdan məsələni tam dərk etmək üçün, ilk növbədə "latınçılar" və "islahatçılar"ın əlifba məsələsi ilə bağlı irəli sürdüyü mülahizələrə, ən əsası onların hansı siyasi-

ideoloji dünyagörüşə və nəzəri-fəlsəfi ideyalara əsaslanmalarına diqqət yetirmək kifayətdir.

Qeyd edək ki, milli-demokrtalar hələ Azərbaycan Cümhuriyyəti dövründə ərəb əlifbasından latın əlibfasına keçməyi təklif edirdilər. Bu məqsədlə Azərbaycan parlamentində bir komissiya təşkil olunmuş və bu komissiya latınlaşmış türk əlifbasının layihəsini parlamentə belə təqdim etmişlər [254, 70]. Ancaq bir tərəfdən "İslam birliyi" ideyası ilə çıxış edən "ittihadçı"ların, digər tərəfdən isə bolşevizmin günü-gündən Azərbaycan Cümhuriyyətinə qarşı yönəlmiş təzyiqlərinin və s. nəticəsində latın əlifbasına keçid məsələsi həmin dövrdə öz həllini tapmamışdı. Eyni zamanda, Azərbaycan Cümhuriyyəti latın əlifbasına keçidlə bağlı Türkiyə Cümhuriyyəti ilə ortaq addım atmaq niyyəti də güdmüşdü. Həmin vaxt isə istər Türkiyə, istərsə də Azərbaycan Cümhuriyyəti üzərinə xaricdən olan basqılar bu məsələnin öz həllini tapmasına əngəl olmuşdu.

Sovet dövründə ərəb əlifbasında dəyişkliklər edilməsinin tərəfdarı kimi çıxış edən "islahatçılar" əslində həmin milli qüvvələr idi. Vaxtilə ərəb əlifbasından imtina edilib latın əlifbasına keçmək istəyən Azərbaycan milli qüvvələrinin Sovet işğalı dövründə bunu, istəməməsi təsadüfi deyildi. Əslində milli-demokratik qüvvələri narahat edən latın qrafikasına keçmək deyil, latın əlifbasına keçmək adı altında ifratçılığa varılması, millətlər arasında ayrı-seçkilik edilməsi, gələcəkdə kiril əlifbasına keçmək üçün bir vasitəyə çevrilməsi idi. Çünki SSRİ xüsusilə, əsarət altına aldığı türk və müsəlman millətlərini özünəməxsus "beynəlmiləl siyasət"lə assimilyasiya etmək niyyəti güdmüşdü. Bu baxımdan SSRİ-nin Azərbaycanın və Orta Asiyanın türk dövlətlərinin ərəb əlifbasından latın qrafikasına keçməsinə bilavasitə şərait yaratmasında məqsədləri yalnız türk millətlərini maarifləndirmək, elm və biliklərini inkişaf etdirmək ola bilməzdi. Əgər SSRİ, yəni Mərkəz belə səmimi niyyət güdürdüsə, nə üçün yeni əlifba məsələsinə əsasən, türk-müsəlman xalqları cəlb edilmişdi?! Yoxsa, Rusiya

üçün ermənilər, gürcülər və başqa millətlər ikinci dərəcəli idilər? Deməli, bu məsələdə Rusiyanın başlıca məqsədi Azərbaycan türklərini və başqa müsəlman-türk xalqlarını SSRİ-nin əsarətindən kənarda qalan müsəlman ölkələrindən, xüsusilə Türkiyə türklərindən ayırmaq olmuşdur [238, 192].

SSRİ ideoloqları bu planını birdən-birə həyata keçirə bilməzdi və bu mərhələli şəkildə nəzərdə tutulmuşdu. Həmin dövrdə milli qüvvələr də məhz sovet Rusiyasının bu ikiüzlü siyasətini ifşa etmişdilər ki, onların bu baxışları da bolşeviklər tərəfindən latın qrafikasının əleyhinə olan mülahizələr kimi dəyərləndirilmişdi [76, 249]. Əslində onların bu etirazı, əlifbanın latınlaşdırılmasından daha çox kirilləşdirməyə-ruslaşdırmaya qarşı idi. M.Ə.Rəsulzadə də sonralar yazırdı ki, o zaman (1921-1922-ci illər) bolşeviklərin bu niyyətindən xəbərdar idilər: "Bolşeviklərin ərəb hərflərini latın hərfləri ilə əvəz etdirmək xüsusunda gizli və əsil fikirlərini bildiyimizdən (ki, bu fikir sonradan həyata keçirilmiş, ərəb hərfləri öncə latın hərflərinə, sonra da rus hərflərinə təbddül edilmişdir) bir məqalədə türk elləri arasındakı mədəni əlaqələri tamamilə kəsdirməmək üçün yazılanı daha asan oxutdura bilmək məqsədini təmin edən inqilabçılara haqq verirdim" [182, 85]. Yəni Rəsulzadə də bolşeviklərin əməllərindən xəbəri olduğu üçün latın əlifbasına keçilməsini deyil, ərəb əlifbasında islahatların aparılmasını müdafiə etmişdir. M.B.Məmmədzadə də milli qüvvələrin əvvəlcə ərəb əlifbasından latına keçilməsinə etiraz etmələrinə səbəb olaraq, bolşeviklərin məkrli niyyətlərini və bunun Azərbaycan ilə türk dünyası arasında əlaqələrə zərbə olmasını göstərmişdi [153, 56].

Bu baxımdan ərəb əlifbasında islahatların aparılmasını məqsədəuyğun hesab edən "islahatçılar", latın qrafikasına keçilməsi ilə Azərbaycan xalqının islam mədəniyyətindən uzaq düşməsi, din və milli birliyin aradan qalxması məsələsini daha çox qabartmışlar. Bizə elə gəlir ki, bu cür mülahizələrin səslənməsi də təsadüfi olmamışdır. Bütün hallarda, yeni əlifbaya keçidlə bağlı

imperiyanın maraqları olduğu kimi, bunun əleyhinə çıxan "islahatçılar"ın da öz mövqeyi olmuşdur. "İslahatçılar" ədəbi dilin yazısında ərəb əlifbasını saxlamaqla yalnız islah edilməsini, yəni bəzi dəyişikliklərin aparılmasını məqsədəuyğun hesab edirdilər. Onlar deyirdilər ki, yeni əlifba qəbul edilərsə, bununla da əski ədəbiyyat məhv olacaq, İslam birliyi pozulacaq və türk dilini öyrənmək çətin olacaq [26, 13]. Milli qüvvələrin əlifba məsələsində fikir dəyişdirməsinin əsil mahiyyətinə varmayan bolşeviklər, bunu tamamilə başqa yerə yozurdular. Məsələn, mətin bolşevik **S.M.Əfəndiyev** hesab edirdi ki, millətçilər qısqanclıqdan bu məsələyə müsbət yanaşmırlar. Belə ki, əvvəllər ərəb əlifbasından latın əlifbasına keçmək istəyən millətçilər, indi bunu həyata keçirənin bolşeviklər olduğu üçün yeni əlifba məsələsini tənqid edirlər [76, 177]. Əfəndiyevin fikrincə, millətçilərdən fərqli olaraq, islamçılar-ruhanilər isə ərəb əlifbasından daha çox onun təsiri məqsədilə möhkəm yapışırlar [76, 70].

Fikrimizcə, ərəb əlifbasının əleyhinə çıxış edən **"latınçılar"** özlərini də bu məsələyə münasibətdə iki qrupa ayırmaq olar: 1) mədəni "latınçılar" - yeni əlifbaya keçməni daha çox mədəni inqilab kimi qiymətləndirənlər və məsələyə səmimi şəkildə yanaşanlar; 2) siyasi "latınçılar" - yeni əlifbaya keçməni tamamilə siyasiləşdirərək, bunu, marksizm-leninzmin qələbəsi kimi qələmə verənlər. Mədəni "latınçılar" (F.Ağazadə, B.Çobanzadə, M.Şahtaxtlı və b.) yeni əlifbaya keçidi yalnız elm və təlim baxımından dəyərləndirir, ərəb əlifbasında islahatlar aparılmasının mümkünsüzlüyünü irəli sürərək latın əlifbasının qəbul edilməsini zəruri hesab edirdilər [204, 231; 26, 12]. Mədəni latınçılardan fərqli olaraq, siyasi "latınçılar" (R.Axundov, S.Ağamalıoğlu, S.M.Əfəndiyev və b.) bu məsələni ideolojiləşdirir və ona siyasi çalar əlavə edirdilər. Bu baxımdan Azərbaycan, Türkmənistan, Özbəkistan və b. türk dövlətlərində ərəb əlifbasından latın qrafikasına keçid məsələsində Moskvanın məkrli

niyyətini bəzi yerli bolşeviklər görə bilməmiş, əksinə, bunu bolşevizmin nailiyyəti kimi təbliğ etmişlər [20, 156-157; 166, 31].

Ancaq türk-tatar xalqlarının ərəb əlifbasından latın qrafikasına keçməsi məsələsində SSRİ-nin siyasi manevra etdiyi, əsil məqsədinin türk xalqlarına kiril əlifbasının qəbul etdirilməsi olması çox keçmədən bəlli olmuşdu. Belə ki, sovet ideoloqları milli mədəniyyət məsələsində də "milli müqəddərat" məsələsində olduğu kimi, türk-tatar və müsəlman xalqlarının ərəb əlifbasından birbarşa rus-kiril əlifbasına keçilməsinin təhlükəli olduğunu nəzərə alaraq, bunu mərhələli şəkildə reallaşdırmaq niyyəti güdmüşdür. Əgər SSRİ 1920-ci illərdə yeni əlifbanı rus qrafikasına keçidlə həll etsəydi, şübhəsiz "xilaskar" donu geyinmiş rus bolşeviklərinin bu addımı istər işğal etdiyi ölkələrdə, istərsə də dünyada birmənalı qarşılanmaycaqdı. Bu baxımdan ilk mərhələdə, latın əlifbasından istifadə edən bir çox Avropa dövlətlərini də razı sala bilən bir addım atılmışdı. Lakin imperiya ideoloqları yaxşı anlayırdılar ki, ərəb əlifbasından imtina etməklə SSRİ-nin tərkibindəki türk dövlətləri müsəlman dünyasından, islam mədəniyyətindən müəyyən dərəcədə uzaqlaşsa da, başqa tərəfdən eyni əlifbanı qəbul edən Türkiyə ilə isə bir o qədər yaxınlaşmış olmuşdur. Bunun gələcəkdə SSRİ üçün böyük bir təhlükə mənbəyi olduğunu görən, eyni zamanda, başdan imperiya əsarəti altında olan türk-tatar və müsəlman xalqlarının istər Türkiyə, istərsə də Avropa dövlətləri ilə əlaqəsində qətiyyən maraqlı olmayan sovet ideoloqları 1920-ci illərin sonu, 1930-cu illərin əvvəllərindən etibarən Azərbaycanın və b. türk dövlətlərinin və xalqlarının, gələcəkdə rus əlifbasına keçə bilməsi ideyasını yaymağa başlamışlar.

Maraqlıdır ki, latın əlifbasını türk əlifbası adlandırıraq bir müddət onu müdafiə edənlər, rus əlifbasının zorla tətbiqi meylini hiss etdikdən sonra, bəzi beynəlmiləlçi bolşeviklər həm türk anlayışından, həm də müdafiə etdikləri türk əlifbasından imtina etdilər. Bu baxımdan S.Ağamalıoğlu Azərbaycanın SSRİ və bütün Şərqdə ilk dəfə olaraq rəsmən latın qrafikasına keçməsini böyük

qələbə saydığı halda [166, 36], həmin hadisənin üstündən bir il ötməmiş türk əlifbası adlandırdığı latın qrafikasından rus əlifbasına keçməyin zəruriliyindən bəhs etmişdir: "Azərbaycanlıların yeni latın əlifbasına keçmək yolu, gələcəkdə onların rus əlifbası qrafikası üzrə düzəldilmiş yeni əlifbaya keçmək işini bir qədər asanlaşdıracaqdır" [166, 37]. Artıq türk əlifbası beynəlmiləçiliyin içində əriyərək yox olur, onun yerini rus əlifbası tuturdu. Beləliklə, yarım əsr ərzində bir millətin üç əlifbadan istifadə etmək məcburiyyətində qalması faciəsini görmək, bunu oybektiv qiymətləndirmək və etiraz etmək əvəzinə, bəzi Azərbaycan ziyalılarının bu cür mövqe tutması, ancaq təəssüf doğrur.

Sovet ədəbiyyatında 1940-cı ilin yanvarın 1-dən, latın qrafikasından rus əlifbasına keçilməsi [40, 113] belə əsaslandırılırdı ki, bu qrafika ümumiliyi rus dilindən söz və terminləri düzgün yazmağa kömək edəcək: "Bundan başqa, qrafika ümumiliyi nəşriyyat-mətbəə işlərini də asanlaşdırar, əlavə xərc və işləri azaldardı" [26, 14]. Burada rus əlifbasına keçməyin zəruriliyi ilə bağlı gətirilən "arqumentlərə" təəccüb etməyə bilmirsən. Daha sonra bu müəlliflər yazırlar: "Əgər birinci dövrdə bir-birinə zidd cərəyanlar əmələ gəlmişdisə, ikinci dövrdə belə bir vəziyyət olmamış, hamı rus qrafikasına keçmək təşəbbüsünü bəyənmişdir. Lakin müzakirələrdə əsas iki fikir nəzərə çarpır. Bir çoxları dilimizin fonetik tərkib və xüsusiyyətinə uyğun olaraq bəzi dəyişikliklə rus əlifbasını qəbul etməyi, bəziləri isə rus əlifbasında heç bir dəyişiklik aparmadan, onu olduğu qaydada qəbul etməyi təklif edirdilər" [26, 15].

Fikrimizcə, rus əlifbasının olduğu kimi qəbul edlilməsinin tərəfdarı olanlar yaxşı anlayırdılar ki, Mərkəz məhz bu qərarın üzərində dayanacaq və gözlənildiyi kimi də oldu. Sovet ideoloqları Azərbaycan-türk dilinin başına bu cür oyun açmaqda nə etdiklərini yaxşı anlayırdılar. Bununla da, Azərbaycan-türk insanı rus kimi düşünməyə, rus kimi yazmağa və rus kimi kommunizm xəyalı ilə yaşamağa məhkum və məcbur edilirdi. Başqa sözlə, "yeni əlifba"

oyunu ilə sovet imperiyası türk millətini öz mədəniyyətindən, mənəviyyatından və ən əsası dilinin saflığından uzaqlaşdırırdı.

Bizə elə gəlir ki, Azərbaycanda latın qrafikasından rus əlifbasına keçilməsi ilə bağlı ciddi etirazların olmaması iki başlıca amillə bağlı idi: 1) milli ziyalıların böyük əksəriyyətinin, kütləvi şəkildə 1937-1938-ci illərdə repressiya olunması; 2) rus əlifbasına etiraz edə biləcək istənilən ziyalının həmin aqibətə düçar olacağı. Bu baxımdan bəzi ziyalılar yalnız bəzi dəyişikliklərlə rus əlifbasına keçilməsinin doğru olacağını deyə bilir, bundan artığına cəsarət edə bilmirdilər.

Doğrudur, rus əlifbasının Azərbaycanda olduğu kimi tətbiqinə 1958-ci ildə son qoyulmuş və bəzi islahatlar aparılaraq rus qrafikalı Azərbaycan əlifbası müəyyən qədər təkmilləşdirilmişdir. Ancaq bütün hallarda, "Leninin dili" olan rus dili və rus əlifbası Azərbaycan xalqının həyatında bir çox sahələrdə mənfi bir iz buraxmışdır ki, onun izləri bu günə qədər də hiss olunmaqdadır. Bunlardan biri də rus əlifbasına keçməyə məcbur edilməklə Azərbaycan türklərinin Türkiyə türkləri arasında ən önəmli bağ olan – eyni əlifba bağı da qırılmış olmuşdu. Türkiyə alimi **Məşkurə Yılmaz**ın yazdığı kimi, "böyləcə Türkiyədən fərqli bir əlifba kullanmalı olan azərilərin (Azərbaycan türklərinin – F.Ə.), Anadolu türklüyü ilə yazılı əlaqə qurmaları və ortaq milli kültür gəliştirmələri əngəllənmək istənmişdir. Ayrıca ruslar, kiril əlifbasını rus kültür aracı olaraq görmüş və Sovet rejimi ortaq kültürünün bu əlifba ilə yapılacağını düşünmüşlərdir" [248, 243].

Sovet dövründə Azərbaycanda milli dil məsələsi. Sovetlər Birliyi dövründə yeni əlifba kimi, "milli dil" məsələsinə münasibət də ideoloji savaşlar şəklində özünü büruzə vermiş və Sovetlər Birliyi dağılana qədər və sonralar da öz aktuallığını qoruyub saxlamışdır. Buna əsas səbəb odur ki, hazırda bir çoxları üçün "Türk dili"nin yerinə "Azərbaycan dili"nin necə meydana çıxması və onun mahiyyəti haqqında kifayət qədər bilgi yoxdur. Buna səbəb də "Azərbaycan dili" anlayışının hansı

şəraitdə meydana çıxması ilə bağlı elmi ədəbiyyatda, o cumlədən mətbuatda əsasən, birtərəfli məlumatların və yaxud informasiyaların öz əksini tapmasıdır. Xüsusilə, yeniyetmələrin və gənclərin əksəriyyəti üçün "Azərbyacan dili"nin necə meydana çıxması, eyni zamanda Azərbaycan xalqının dilinin 1937-ci ildən etibarən nədən bu cür adlandırılması haqqında konkret təsəvvür yoxdur. Bu baxımdan fikrimizcə, milli dil məsələsi ilə bağlı iki önəmli faktora aydınlıq gətirilməsinə ehtiyac vardır:

1. "Azərbaycan dili" meydana çıxana qədər türk dili ətrafında baş verən siyasi-ideoloji hadisələrə (1920-1936);

2. "Azərbaycan dili"nin əsaslandırılması və onun hüquqi, yəni dövlət statusunun müəyyənləşməsinə (1937-1991).

Birinci amillə bağlı, öncə qeyd edək ki, Azərbaycan Cümhuriyyəti dövründə (1918-1920) milli dil məsələsi, əsasən çözülmüşdü. Belə ki, Cümhuriyyət ideoloqları çar Rusiyasının "tatar", İranın fars mənşəli "azəri" kimi qələm verdikləri bir dilin əsilində türk dili olduğunu irəli sürməklə kifayətlənməmiş, eyni zamanda türk dilini Azərbaycan Cümhuriyyətinin rəsmi dili elan etmişdilər. Bununla da, XX əsrdə türksoylu millətlər arasında Azərbaycan türkləri, birinci olaraq dövlət dilini türk dili adlandırmış və ona rəsmi bir status vermişlər.

Bu baxımdan ilk mərhələdə sovet ideoloqları Azərbaycan türklərinin dilinə və milli kimliyinə əsasən toxunmamışlar. Bu baxımdan Azərbaycan SSR MİK və XKS-nin 1923 31 iyul dekretində qeyd olunurdu ki, əksər komissarlıqlar kəndli kütlələri ilə daha çox əlaqədə olan aparatlar olduqları üçün milli-ləşdirilsinlər, yəni türk dili tətbiq edilsin. Qalan xalq komissarlıqlarına və idarəetmə orqanlarına bir vəzifə olaraq tapşırılsın ki, özlərinin qəzalarla əlaqələrini və yazışmalarını türk dilində aparsınlar [39, 32]. Eyni zamanda türk dili məcburi olaraq bütün məktəblərdə, ali məktəblərdə, kurslarda bir fənn kimi tətbiq edilməlidir [39, 33].

Sovet müəlliflərinin yazmasına görə, 1920-1936-cı illərdə **milli dilin təmizlənməsi və formalaşması** ilə bağlı uç fikir cərəyanı: 1) türk dilinin qədim və yeni türk sözləri əsasında təmizlənməsi (bizcə, ortaq türkcədən çıxış edən türkçülük – millilik tərəfdarları); 2) türk dilini rus və rus dili vasitəsilə Avropa dillərindən alınmış sözlərlə zənginləşdirmək istəyənlər (bizcə, beynəlmiləlçilik – rus bolşevizminə xidmət edənlər); 3) ərəb və fars mənşəli sözlərin saxlanılaraq, yeni terminlərin də onların əsasında formalaşdırılmasını istəyənlər (bizcə, islamçılıq – dini birliyə meyil edənlər) olmuşdur [26, 130-131].

Bizim fikrimizcə isə, həmin mərhələdə (1920-1936) milli dilin təmizlənməsi və formalaşması uğrunda əsas mübarizə ilk iki cərəyan: türkçülük-millilik və sovet beynəlmiləlçiliyi (ilk dövrlərdə beynəlmiləçilər xalqlaşmaq yolu tutsalar da, sonralar Mərkəzin təsiri altında onların əksəriyyəti beynəlmiləçiliyə üz tutdular) arasında getmişdir.

Bu dövrdə **dildə türkçülük-millilik** tərəfdarları milli dil məsələsində qədim türkcə ilə xalq dilinin uzlaşmasına önəm vermişlər (B.Çobanzadə, F.Ağazadə, H.Zeynallı, C.Cabbarlı, V.Xuluflu və b.). Onlar 1922-ci ildə Azərbaycan Mərəkəzi İcraiyyə Komitəsi (MİK) yanında təşkil olunan istilah komissiyasının hazırladığı cəbr, hesab, həndəsə, coğrafiya və təbiiyyat lüğətlərində ədəbi dildə mövcud olan terminlərin uyğun olaraq dəyişilməsini təklif edirdilər [26, 44]. Milli dilin mühüm tərkib hissəsi olan terminologiya ilə bağlı Azərbaycan türk aydınlarının əksəriyyətinin mövqeyi belə idi ki, ərəb və fars mənşəli, eləcə də beynəlxalq terminləri dilimizdən çıxararaq yerində qədim türkcədə olan sözləri, yaxud da türk dilinə uğyun yeni sözləri işlətmək lazımdır. 1926-cı ildə Bakıda keçirilən 1-ci Ümumittifaq türkoloji qurultayda, eləcə də həmin dövrdə Bakıda nəşr olunan bir sıra qəzet və jurnallarda da bu ideya ciddi şəkildə dəstək qazanmışdır.

Həmin dövrdə milli ədəbi dilin qədim türkcə və yeni sözlər əsasında formalaşmasının tərəfdarları bu fikirlərini sübuta yetirmək

üçün bir sıra əsərlər və məqalələr yazmışlar. Onlar bu əsərlərində türk dilinin (Azərbaycan) qədim türkcənin bir bir parçası olduğunu iddia edirdilər. Məsələn, bu xətti müdafiə edən dilçi alimlərdən **Bəkir Çobanzadəyə** görə, türk dili türk-tatar dilinin bir parçası, bir budağıdır. Türk-tatar dilinin abidələri isə Orxon-Yenisey abidələri (7-8-ci əsrlər), "Kutadqu bilik", "Divani-lüğatit-türk" və başqaları olmuşdu [68, 66-67]. Onun fikrincə, türk dilinin azəri ləhcəsi isə XI əsrdə oğuz-qıpçaq ləhcəsindən əmələ gəlmişdir. Beləliklə, Çobanzadə belə nəticə çıxarır ki, türk dilinin "azəri ləhcəsi oğuz-qıpçaq qrupunun bir budağıdır və türkməncədən az, anadolucadan ziyadə şimali və ya şərq şivə qruplarının təsiri altında bulunmuşdur" [68, 83]. O yazırdı ki, hazırda milli dilin formalaşması ilə bağlı üç cərəyan var: 1) Xalqın dilində yazmağa üstünlük verənlər ("mollanəsrəddinçi"lər və b.); 2) İstanbul ədəbi şivəsinə üstünlük verənlər (H.Cavid və b.); 3) Orta mövqe tutanlar – xalqın canlı danışıq dili və klassik ədəbi dilin bütövlüyündən çıxış edənlər. B.Çobanzadənin fikrincə, ilk iki cərəyanın irəli sürdüyü prinsiplər əsasında Azərbaycanda ədəbi dil yarana bilməz. Çünki, birincisini ədəbi sistemə salmaq mümkün olmadığı kimi, ikincisi isə Azərbaycan türk dilinin xüsusiyyətlərini kifayət qədər əks etdirmir. Bu baxımdan xalqın canlı danışıq dili və klassik ədəbi dilin bütövlüyündən çıxış edənlərin ədəbi dili istiqbala malikdir [68, 76-77].

Bu dövrdə dilçi alimlərdən **Fərhad Ağazadə** də B.Çobanzadə kimi, hesab edirdi ki, dilimizdə minlərcə əcnəbi kəlmələr var ki, türkləşdirmək olmur. Ona görə də türkləşə bilməyən kəlmələrin qədim türkcəsi var ki, onları canlandırmaq və dilimizə gətirmək lazımdır. Qədim türkcədə qarşılıqı olmayan sözləri isə başqa türk dillərindən (cığatay, altay və b.) almaq lazımdır. O yazırdı: "Hərgah bugünkü türkcənin dörddə üçü ərəbcədən alınmışdırsa, bunun bir çox səbəbləri vardır ki, başlıcası minlərcə türk sözlərinin ərəb hərflərinə uyğunlaşdırılması olmuşdur: hər kəlmənin imlasında az-çox çətinlik duyan yazıçılar o

kəlməni atıb əvəzində ərəbcəsini meydana fırlatmışlar. Min ildən çoxdur ki, türkcənin başına böylə oyunlar gəlmişdir; minlərcə kəlmələrimiz atılmış və unudulmuşdur, dilimiz də bundan dolayı kasıblaşmışdır" [16, 10]. O qeyd edirdi ki, vaxtilə başqa dillərin təsiri altında yarımcan qalmış türk dili indi dirilmək istəyir, köhnə zənginliyinə qayıtmaq fikrindədir: "Buna dəlil türk ellərindəki dil hərəkətləridir: bir yerdə dili türkləşdirirlər, o biri yerdə saflaşdırırlar, hətta Azərbaycanda istilahları da türkləşdirmək fikrinə gəlmişlər. Bəs, türkcəmiz çoxdan itirdiyi yatağına qayıtmaq istəyir [16, 11].

Həmin dövrün tədqiqatçılarından **Hənəfi Zeynallı** yazırdı ki, dilçilərin əksəriyyəti Azərbaycanı cənub türkləri qrupundan sayırlar. Ancaq bu mülahizə yanlışdı və zaman gələcək, bəlkə də araşdırmalar nəticəsində "Azərbaycan ləhcəsini bütün türk ləhcələrinin ortası sayacaqlar" [232, 114]. "Azərbaycanda el ədəbiyyatı" məqaləsində (1926) isə o yazırdı ki, Azərbaycanın işğalçıların əsarəti altında olduğu "zamanında xalq yaradıcılığının bir qismi olan el ədəbiyyatı, el söz və ahəngi, el vəzni, el düşünüşünün büsbütün xatirələrdən silinməsinə çalışılmışdır. El sözünü işlətmək istəyənlər bu elin yağıları nüfuzuna tabe olaraq sapqın mülhazilərə uymuşdular. Hətta o dərəcəyə varmışdılar ki, həqarətlə "türk demişkən" demədikcə öz ana dilindəki bir sözü işlətməyə cəsarət edə bilməzmiş" [232, 120]. Bu baxımdan H.Zeynallı qeyd edirdi ki, milli dilin təmizlənməsi türkün öz dilinə və onun qayda-qanunlarına əsaslanmalıdır.

Milli ədəbi dilin qədim türkcə əsasında formalaşdırılması baxımından 1930-cu ildə Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutu tərəfindən cəmi iki buraxılışı nəşr olunan "Azərbaycan türk xalq şivələri lüğəti" diqqətəlayiqdir. Bu nəşrin müəllifləri (B.Çobanzadə, V.Xuluflu, Ə.Haqverdiyev, N.İ.Aşmarin, A.R.Zifeldt və b.) də yazırdılar ki, "Azərbaycan türk dili osmanlı dilindən çox əvvəl təşəkkül etmişdir; çünki daha XI əsrdə Mahmud Kaşğari tərəfindən göstərilən "Oğuz – Qıpçaq" ləhcəsinin

xüsusiyyətləri bu gün də azəri türk dilinin xüsusiyyətlərinin mühüm bir qismini təşkil edir" [47, 8]. Ancaq bütün hallarda osmanlı türk dili ilə Azərbaycan türk dilinin kökünün bir olduğunu yazan müəlliflər qeyd edirlər ki, ancaq 15-16-cı əsrlərdə osmanlı ədəbi dili azəri türk dilindən ayrılmışdı [47, 8]. Sonralar Azərbaycan türk dilinə İran-fars, Slavyan-rus, şimali türk-tatar dillərinin də müəyyən təsiri olmuşdur. Onların fikrincə, hazırda Azərbaycan türk ədəbi dilinin yaranmasına zərurət bir tərəfdən ərəb-fars sözlərindən qurtulmaq, digər tərəfdən elm və sənayə ilə ayaqlaşmaqdan ötrüdür. Bunun üçün isə, onlar klassik azəri türkcəsinin və onun əsasında ədəbi dilin formalaşmasını təklif edirdilər [47, 10]. Görünür, bu kitabın Azərbaycan türk dilinin inkişafında mühüm rol oynayacağını görən sovet ideoloqları cəmi iki ("A" və "B") buraxılışdan sonra, onun nəşrini dayandırmışlar.

Milli aydınlar tərəfindən irəli sürələn Azərbaycan türk ədəbi dilinin ərəb, fars, rus, eləcə də digər əcnəbi terminlərdən təmizlənməsi və qədim türkcə əsasında formalaşması ideyasının ictimaiyyət arasında, o cümlədən mətbuatda bu qədər dəstək görməsi SSRİ rəhbərliyini və sovet ideoloqlarını ciddi şəkildə rahatsız etmişdir. Eyni zamanda, sovet ədəbiyyatında puristlər adlandırılan [26, 131] milli fikrin tərəfdarları rus mənşəli sözləri də dəyişməyi təklif edirdilər ki, bu, sovet imperiyası üçün dözülməz idi. Həmin dövrdə, eləcə də sonralar sovet ideoloqları və onların Azərbaycandakı təmsilçiləri bu təklifləri pantürkizm, millətçilik kimi qiymətləndirir və tənqid edirdilər. Sovet ədəbiyyatında bununla bağlı yazılırdı: "Purizm kimi tanınmış bu cərəyan tərəfdarları həmin yolla, yeni ictimai-siyasi vəziyyətlə əlaqədar dilimizə daxil olan rus dili və rus dili vasitəsilə başqa dillərə məxsus sözlərin də qarşısını almağa çalışırdılar. Puristlərin məsləhət gördükləri sözlər dili təmizləmir, onun aydınlaşmasına, kütləviləşməsinə xidmət etmir, əksinə, dili daha da qəlizləşdirir, tez qavrama və savadlanmanı çətinləşdirirdi. Məhz buna görə də,

purizm cərəyanı həm 20-ci, 30-cu illərdə, həm də sonrakı dövrlərdə tənqid oybektinə çevrilmişdir" [26, 76].

Ancaq milli dil məsələsində **"sovet beynəlmiləlçiliyi" tərəfdarları** (S.M.Əfəndiyev, C.Məmmədquluzadə, H.K.Sanılı və b.) birincisi, türk dili dedikdə xalqın canlı danışıq dilini nəzərdə tutur, ikincisi rus və avropamənşəli sözlərə də meyil göstərirdilər. Ümumiyyətlə, türkcənin milliləşdirməsinə-qədim türkcəyə müraciət edilməsinin əleyhinə olanlar əsasən, milli dil məsələsində "mollanəsrəddinçilər"in mövqeyini müdafiə edirdilər. Buna səbəb, "mollanəsrəddinçi"lərin 27 aprel işğalından öncə də dil məsələsində ortaq türk dilinin deyil, Azərbaycan türklərinin danışıq dilinin inkişafına çalışmaları və bu zaman rus və Avropa mənşəli sözlərə meyil etmələri idi. Bu baxımdan sovet beynəlmiləlçiliyi tərəfdarları üçün Azərbaycan türk ədəbi dilinin formalaşmasında ən yaxşı variant "mollanəsrəddinçilər"in yolu idi.

Halbuki, artıq 1920-1930-cu illərdə "mollanəsrəddinçilər"in əsas siması olan **C.Məmmədquluzadə** özü belə, Azərbaycan türk ədəbi dilinin xalqın açıq ana dili əsasında formalaşmasını məqsədə uyğun saymamışdır.: "Əlbəttə, bu dil ki, biz onunla "Molla Nəsrəddin"i yazırdıq, o dili biz ümumi türklər üçün ədəbi dil hesab etmək fikrində deyilik və bu da bizə heç lazım deyil. Bizim məqsədimiz hal-hazırda öz fikrimizi asan bir dillə Azərbaycan türklərinə və bəlkə də sair türklərə yetirmək idi. Və zənn edirəm ki, yetirirdik də… Bizim də şüarımız dil yaratmaq deyil idi, ancaq dərdi-dilimizi hal-hazırda camaat başa düşən dildə ona yetirmək idi" [148, 74-75]. Ancaq o, bununla yanaşı ədəbi dil kimi "Molla Nəsrəddin" xəttinin tutulmasına rəğbətini də gizlətmirdi. Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalının SSRİ dövründəki saylarının birində "Təmizləmək" məqaləsində Bakıda keçiriləcək Türkoloji qurultayla bağlı dil məsələsinə toxunaraq yazırdı: "İndi türkoloji qurultayı da bir belə sil-süpurə, yır-yığışdıra başlayacaqdır. Amma bu qurultayın təmizləyəcəyi ev deyil, dildir və özü də Türk dilidir. Bəziləri dildə nə zibil ola biləcəyini soruşa

bilərlər. Dərd elə burasındadır ki, heç bir evdə bizim dilimizdə olan qədər zibil yoxdur. Əlifba zibili, əruz vəzni zibili, ərəb dili zibili, fars dili zibili, din zibili və başqaları. Türk dilini bütün bu zibillərdən təmizləmək lazım gəlir" [160[a], 632].

Bu baxımdan sovet beynəlmiləlçiliyi tərəfdarları və onların havadarları üçün Azərbaycan türk ədəbi dilinin formalaşmasında ən yaxşı variant "mollanəsrəddinçilər"in yolu idi. **S.M.Əfəndiyev** də hesab edirdi ki, Azərbaycan türk dili ərəb-fars sözləri ilə dolu olan nə İstanbul şivəsini yamsılamalı, nə də qədim türkcə ilə uğraşmalıdır: "Belə bir adi həqiqəti yadda saxlamaq vacibdir ki, danışdığımız kimi yazmaq, yazdığımız kimi danışmaq lazımdır" [76, 70]. Bu, sırf "mollanəsrəddinçilər"in yolu idi. Bu yola yaxın mövqe tutanlardan **Hacı Kərim Sanılı** da, digər bolşeviklər kimi "mollanəsrəddinçilər"in dildə xəlqləşmək yolunun doğru olduğuna inanmışdı [198, 18].

Maraqlıdır ki, yerli "beynəlmiləçilər" milli dilin xalqlaşması dedikdə, xalqın danışdığı türkcəni nəzərdə tutduğu halda, sovet ideoloqları isə xalqlaşmaq adı altında türk dilinin əsas mahiyyətinin və məzmununun bəsitləşdirilməsi və sonralar əvəzində, türk dilinin rus və avropa mənşəli sözlərlə doldurulmasını qarşılarına məqsəd kimi qoymuşdular. Başqa sözlə, S.M.Əfəndiyevin təbrincə desək, 1930-1940-cı illərdə bir tərəfdən türk dili "ərəbçilik və farsçılıq təsirindən müvəffəqiyyətlə azad edilir" [76, 334], digər tərəfdən fikrimizcə, sürətlə ruslaşdırılır və beynəlmiləlləşdirilirdi. Bu baxımdan "mollanəsrəddinçilər"in xalqa yaxın yol tutmasını əlində bayraq edərək, onların İstanbul şivəsini və qədim türkcəni tənqid etməsini təqdir edənlər, ancaq "Azərbaycan dili" altında bu dilin ruslaşdırılması və avropalaşdırılması məsələsində eyni mövqe tutmurdular. Halbuki millilik-türkçülük tərəfdarları deyil, sovet beynəlmiləlçiləri türk dilini xalqın dilindən ayırır, onu beynəlmiləlləşdirir və kosmopolitləşdirirdilər.

Çünki milli dil məsələsinin müzakirəsində yerli beynəlmiləlçilər əvvəlcə dildə xalqlaşmaq-xalqın danışdığı türk dilində milli dil yaratmaq yolu tutsalar da, 1930-cu ilin ortalarından etibarən bu fikrin nümayəndələrindən bəziləri deyirdilər ki, türk dilindəki ərəb və fars mənşəli sözləri rus və Avropa mənşəli sözlərlə əvəz etmək lazımdır. Çox təəssüflər olsun ki, repressiyanın güclənməsi və əksər milli ziyalıların da qətlinə fərman verilməsi ilə bu xətt üstünlük təşkil etməyə başlamış, Azərbaycan türk dilinə əsasən rus, qismən də Avropa mənşəli terminlər daxil olmağa başlamışdır. Belə ki, "məzmunca sosialist, formaca milli mədəniyyət yaradılması", "Lenin dilinin öyrənilməsinin vacibliyi" devizləri altında azərbaycanlılar milli mənəvi dəyərlərindən uzaqlaşdırılırdı. Bununla da Azərbaycan türk dilinin türkləşməyə başladığı 30-35 illik bir dövr geridə qalır, onun yerini "böyük, xilaskar qardaşın" rus əlifbası və rus terminləri tuturdu [26, 50]. Bu baxımdan M.B.Məmmədzadə doğru yazırdı ki, sovet ideoloqları ruslaşdırma nəticəsində yarı rusca, yarı türkcə olan "internasional" dil yaradırdılar [242, 574-575].

Beləliklə, Azərbaycanda "milli dil"ə münasibət ikinci mərhələyə (1937-1991) qədəm qoydu ki, burada əsas məsələ Sovet Azərbaycanında milli dilə verilmiş yeni adın "Azərbaycan dili"nin əsaslandırılması və onun hüquqi, yəni dövlət statusunun müəyyənləşməsi idi. Başqa sözlə, sovet rəhbərləri və ideoloqları bu mərhələdə bir tərəfdən, "Türk dili" anlayışını xalqın yaddından çıxartmağa və müstəqil "yeni dil"- "Azərbaycan dili" anlayışını formalaşdırmağa çalışdığı halda, digər tərəfdən, "Azərbaycan dili"ni formal bir dil halına gətirərək, faktiki olaraq rus dilini rəsmi dil səviyyəsinə qaldırmağa cəhd göstərmişlər. Şübhəsiz, hər iki məsələni öz müstəmləkə maraqlarına uyğun şəkildə həll etmək üçün Sovet Rusiyası Azərbaycan alimlərindən, şairlərindən və başqalarından da maksimum faydalanmağa çalışmışdır.

Bunun nəticəsi idi ki, birinci məsələ – "Azərbaycan dili"nin Türk dilindən tamamilə ayrı, müstəqil bir dil olmasını

əsaslandırmaq üçün dilçi alimlərdən **Ə.M.Dəmirçizadə** "Azərbaycan ədəbi dil tarixi xülasələri" (1938) kitabında yazırdı ki, Azərbaycan ədəbi dil tarixi bu vaxta qədər tədqiq edilməmiş sahədir. Guya, bu vaxta qədər "Azərbaycan dili" tarixi əvəzinə Orxon-uyğur yazıları keçilmişdir. Belə ki, türkoloqlar, pantürkist-idealist burjuaziya linqivistləri "Azərbaycan dili"ni "türk-tatar dilləri ailəsinin" bir ləhcəsi hesab edərək onun tarixini, müstəqil inkişafını ümumi dil ailəsi içərisində əritmişlər. Dəmirçizadə bu fikirlərini irəli sürərkən B.Çobanzadə, F.Ağazadə və başqa dilçi alimlərin Azərbaycan türk dilinin ümumtürk dilinin bir qolu olması müddəalarını nəzərdə tutmuşdur: "Bunların fikrincə (B.Çobanzadə, F.Ağazadə və b. – F.Ə.), XI əsrdə yaranmış iki ədəbi dildən biri xaqaniyyə-şərqi türkcəsi olmuş ki, sonra cığataycanı – özbək, türkmən və ümumən Orta Asiya "türk ləhcəsini" yaratmış; digəri isə oğuzcadır ki, Anadolu, Azərbaycan, İraq, Əlcəzair türklərinin dili olubmuş ki, sonradan bu oğuzcadan, guya osmanlı və Azərbaycan ləhcələri ayrılıbmış. Bu dillərin anası isə tukyu (Orxon-Yenisey boyları və şərqi Türküstanın qədim "ləhcələri", uyğurca və s.) dili olubmuş. Buna görə də, bu vaxta qədər Azərbaycan dili tarixi Orxon – uyğur abidələri ilə başlanıb, onunla da bitirilirdi" [70, 7].

Sovet ideoloqları tərəfindən ortaya atılmış "Azərbaycan dili"ni Türk dilindən tamamilə ayrı müstəqil bir dil olması mülahizəsini əsaslandırmaq üçün Dəmirçizadə iddia edirdi ki, dillər bir anadan olmayıb, bir kökdən ayrılmayıb. Onun fikrincə, dillər bir kökdən budaqlara ayrılma, vahidlikdən müxtəlifləşmə yolu ilə deyil, müxtəliflikdən vahidliyə doğru inkişaf etmişdir: "Halbuki, pantürkizmin çıxış nöqtəsi ana dilidir. Onlar "ana dilin" budaqlanması yolu ilə hərəkət edirlər. Bu isə, heç bir doğru nəticə verə bilmir" [70, 8]. Dəmirçizadə hesab edirdi ki, yeni yaranmış dilin osmanlı dili ilə eyniliyindən çıxış etmək doğru deyil, çünki "Azərbaycan dili əsas spesifik cəhətləri ilə osmanlı dilindən, bir müstəqil dil olaraq ayrılır" [70, 8]. Beləliklə, Dəmirçizadənin

Marks-Engels-Lenin-Stalin təlimindən çıxış edərək gəldiyi qənaətə görə, "Azərbaycan dili" Türk dilinin əsasında deyil, ərəb və fars dillərinin yerli dilə qarışması nəticəsində 13-cü əsrdə yaranmışdır [70, 9]. Ancaq o bu zaman "yerli dil" dedikdə hansı dili nəzərdə tutmuşdur, məlum deyildir.

Bütün hallarda, "müstəmləkəçilik" siyasətinin nəticəsi idi ki, 1920-1940-cı illər Azərbaycan mətbuatında ortaq türk dilinin ruhuna uyğun işlədilmiş bir sıra sözlər (yasaq, qolay, tışarı, varmaq, köy, əkmək, yabançı və s.), 1940-1960-cı illərdə sovet ədəbiyyatında türk dilindən alınmış yabançı sözlər kimi qələmə verilmişdi. Hətta, iş o yerə gəlib çatmışdı ki, 1950-1953-cü illərdə "Kitabi Dədə-Qorqud"un Türk dilində yazıldığı, bu baxımdan onun Azərbaycan dilinə və Azəbaycan xalqına heç bir aidiyyətinin olmadığı iddia olunurdu [103, 161].

Bu baxımdan sovet dövründə hökm sürən kosmopolit və mərkəzçilik ideologiyasının təsiri altında bəzi tədqiqatçılar, o cümlədən dilçi alimlər (V.Aslanov və b.) imperiya tərəfindən yeni ad verilmiş "Azərbaycan dili" ilə türk dilinin fərqli olduğunu göstərmək üçün yazırdılar: "Nəzərdə tutmaq lazımdır ki, bu qəbil sözlərin, demək olar ki, hamısı uzun müddət hər iki dildə (?! – F.Ə.), yəni həm doğma ana dilimizdə, həm də türk dilində qədimdən müştərək şəkildə işlənmiş, sonralar dilimizin inkişafı ilə əlaqədar olaraq başqa sözlərlə əvəz edilmiş, türk dilində isə qalmışdır" [26, 109]. Bu zaman açıq-aşkar 1937-ci ilə qədər "türk dili" adlanan bir dilin varlığı inkar edilir və heç bir əsası olmayan fikirlər səsləndirilirdi. Əgər burada söhbət Türkiyə türkcəsi ilə Azərbaycan türkcəsindən gedirsə, bu dilin qədim dövrdə eyni köklü olması, sonrakı dönəmlərdə, ləhcələr baxımından müəyyən dəyişikliklərə məruz qalaraq bir qədər fərqli şəkildə inkişaf etməsi təbiidir. Ancaq bunu, tamamilə bir-birindən fərqli və müstəqil iki dil kimi qələmə vermək, ən azı elmi obyektivlikdən uzaq idi.

Qeyd edək ki, bir müddət yalnız bəzi dilçi alimlər deyil (Ə.Dəmirçizadə, V.Aslanov və b.) deyil, o cümlədən tanınmış

şairlər, yazıçılar da dünənə qədər "Türk dili" adlandırdıqları bir dili [225, 17], 1937-ci ildən etibarən "Azərbaycan dili" kimi ifadə etmişlər. Həmin dövrdə onların arasında ən tanınmış sima hesab olunan S.Vurğun yazırdı ki, "yeni dil" "ərəbçilik, farsçılıq, nəhayət pantürkist Ə.Hüseynzadələrin ədəbiyyatımıza gətirmiş olduqları osmanlılıq xəstəliyindən azad olaraq bu gün xalis Azərbaycan dili olmuşdur" [225, 63]. Ancaq bunun əvəzində "yeni dil" təzə bir "xəstəlik" tapmışdır ki, bunu S.Vurğun nailiyyət kimi qələmə verirdi: "Biz bu gün fəxr edirik ki, Azərbaycan dili əsasən öz milli forması ilə inkişaf etməklə bərabər, qardaş xalqlar, xüsusən böyük rus dili hesabına da zənginləşir. Beləliklə, bu dil dar milli bir çərçivədə qalmayaraq, bütün ittifaq sahəsinə qalxır" [225, 64].

S.Vurğunun fikirlərindən belə çıxır ki, dünənə qədər Azərbaycan xalqının dili türk dili olduqda məhdud xarakter daşıyırmış, ancaq o adını dəyişdirib rus dili ilə "zənginləşəndən" sonra Sovet İttifaqı sahəsində genişlənmişdir. Hər halda, bütün bunlar milli dilə qarşı yönəlmiş məntiqsiz və müstəmləkəçilik ruhundan irəli gələn mülahizələr idi. Eyni zamanda, bu müstəmləkəçilik ruhunun nəticəsi idi ki, 1937-ci ilə qədər Azərbaycan türk dilindən [225, 26], türk ədəbiyyatından [225, 28], türk şeirindən [225, 45] bəhs edən Vurğun hətta, sovet ideoloqlarının ortaya atdığı "yeni xalq" və "yeni dil" tezislərinə uyğun olaraq, Azərbaycan türklərinin Türkiyə türklərindən ayrı müstəqil bir xalq olduğunu da iddia edirdi: "Biz heç bir xalqın, xüsusən osmanlı türklərinin quyruğunda getməmişik, çünki Azərbaycan xalqı özünün tarixi ilə başqa millətdir və öz tarixi vardır, onun adı Azərbaycan xalqıdır. Burada məsələ prinsip məsələsidir" [225, 68]. Şübhəsiz, Azərbaycan türk milləti türk irqinin ayrıca bir qolu kimi təşəkkül tapmış və bunun nəticəsi olaraq müstəqil dövlətlərini (Sacilər, Azərbaycan Atabəylər, Şirvanşahlar, Qaraqoyunlular, Azərbaycan Səfəvilər, Azərbaycan Cümhuriyyəti və b.) də yaratmışdır. Ancaq bu Azərbaycan

türklərinin Anodolu türklərindən tamamilə fərqli bir millət olması və fərqli dillərdə danışması anlamını da özündə əksir etdirmir.

Göründüyü kimi, vaxtilə çar Rusiyası türk dilinin varlığını inkar edib, onu "tatar dili" olaraq əsaslandırmağa çalışdığı kimi, Sovet Rusiyası da bir müddət türk dilinin mövcudluğuna dözdüyü halda, sonra sələfinin yolunu davam etdirərək "Azərbaycan dili" versiyasını ortaya atmışdı. Üstəlik, çarizm A.A.Bakıxanov, M.F.Axundzadə, M.Kazım bəy və başqalarını "tatar dili" məsələsinə cəlb etdiyi kimi, Sovet Rusiyası da "Azərbaycan dili" ideyasını ortaya ataraq yerli ziyalıları (Ə.Dəmirçizadə, S.Vurğun və b.) məcbur edirdi ki, yeni yaradılmış dilin türk dilindən əsasən ayrı, müstəqil bir dil olmasını sübut etsinlər. Hər iki halda müstəmləkə siyasəti və bunun nəticəsi olaraq milli dilin assimilyasiyası prosesi baş vermişdi. Çünki milli dilin adının dəyişdirilməsi ilə yalnız, millətin milli kimliyinə zərbə vurulmamış, həm də onun mədəniyyəti, ədəbiyyatı və tarixi də saxtalaşdırılmışdı. Başqa sözlə, Azərbaycan türkləri tarixən eyni soykökü, eyni mədəniyyəti, eyni ədəbiyyatı, eyni tarixi paylaşdığı Türkiyə türklərindən tamamilə fərqli millət olması insanların şüurlarına yeridilməyə çalışılmışdı.

Yuxarıda da qeyd etdiyimiz kimi, SSRİ dövründə sovet rəhbərləri və ideoloqları "Azərbaycan dili"nin türk dilindən tamamilə ayrı və fərqli bir dil olmasını əsaslandırmağa çalışmaqla yanaşı, eyni zamanda, bir tərəfdən "Azərbaycan dili"ni bacardıqları qədər ruslaşdırır-kosmopolitləşdirir, digər tərəfdən bu dilin konstitusion hüquqi statusunu inkar edir və onun əvəzində rus dilini qeyri-rəsmi şəkidə də olsa, Azərbaycanda dövlət dili səviyyəsinə qaldırırdılar. Şübhəsiz hər iki hal, Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələrində, istər Azərbaycanın yüksək çinli rəhbərləri, istərsə də milli ruhlu mütəfəkkirləri və gəncləri tərəfindən birmənalı qarşılanmamışdır.

Xüsusilə, 1930-cu illərin sonu, 1940-cı illərin əvvəllərində, yəni milli dilin adının dəyişdirilməsindən və latın əlifbasından

kirilə keçiddən sonra "Azərbaycan dili" ətrafında baş verən **ruslaşdırma və kosmopolitləşdirmə** siyasəti o qədər güclü olmuşdur ki, bəzi ziyalılarımız ifrata vararaq rus və Avropa terminlərini (alqebra, qradus, nerv, prosent, şar, muskul, pauza, avtor, epos, tragediya, kultura, induvud, stilistika, minus, vertikal, evolyosiya, qeoqrafiya, qeometriya və.) ana dilin qayda-qanunlarına uyğunlaşdırılmadan tətbiq olunması təklifini irəli sürürdülər. Çox təəssüf ki, o vaxt Azərbaycan türk ziyalılarından bəziləri (repressiyanın qurbanı olmayanlar) bu prosesin kor-koranə təbliğatçısına çevrilmişdir. Bəzi ziyalıların özlərinin də etiraflarına görə, ruslaşdırma siyasəti nəticəsində artıq 1940-cı illərin ortalarında Azərbaycan türk dili rus və Avropa mənşəli sözlərlə zibillənmişdir. 1944-cü ildə çap olunan "Azərbaycan dilinin təmizliyi uğrunda" məqalədə yazılır: "Açıq söyləmək lazımdır ki, ədəbi dilimiz bu son illərdə xalqdan, ədəbi irsimizdən uzaqlaşmağa doğru meyil edir və getdikcə ahəngini və xüsusiyyətini itirmək təhlükəsi yaradırdı. Son illərdə dilimizin korlanması, xalq dilindən uzaqlaşması, kobudlaşması heç bir həddi, heç bir məsuliyyət hiss etmədən, yerli-yersiz əcnəbi sözlərin dilimizə daxil edilməsi yolu ilə getmişdir" [26, 52].

Bu cür məqalələrin müəllifləri əcnəbi sözlər dedikdə, rus və Avropa mənşəli terminləri nəzərdə tutur, ancaq məlum səbəblərə görə, bunu açıq formada ifadə etməyə çəkinirdilər. Yəni, dünənə qədər ərəb və fars terminlərinin qədim türkcə, yaxud da yeni türk sözləri ilə əvəz olunmasını irəli sürənləri – türkçüləri tənqid edənlər, eyni qaydada rus və Avropa mənşəli terminləri dilimizə sırıyan beynəlmiləlçilərə-müstəmləkəçilərə cavab verə bilmirdilər.

Bu baxımdan 1940-cı ilin ortalarında Azərbaycan türk ziyalılarından bəzilərinin rus və Avropa mənşəli terminlərin dilmizə gətirilməsi, eləcə də yeni terminlərin rus dilində yaradılması ilə bağlı üstüörtülü etirazları da elə bir ciddi nəticə verməmiş, bu proses sonrakı onilliklərdə də davam etmişdir. Belə

ki, 1930-cu illərin axırlarından başlayan dildə və əlifbada ruslaşdırma siyasəti 1950-1970-ci illərdə də davam etmiş, yəni termin düzəltməkdə əsas mənbə rus dili olmuşdur. Bu baxımdan sovet ədəbiyyatında termin düzəltməkdə birinci mənbə Azərbaycan, ikinci mənbə rus dili göstərilsə də [26, 55], əslində vəziyyət tamamilə fərqli olmuşdur. Çünki elə həmin ədəbiyyatın başqa bir yerində açıq şəkildə etiraf olunur ki, 1940-cı illərə doğru inkişaf etdikcə ərəb, fars və türk dilinin təsirinə qarşı aparılan mübarizə nəticəsində ədəbi dilin lüğət tərkibi "müsbət nəticə"yə doğru dəyişmişdir. Həmin "müsbət nəticə" isə bundan ibarətdir: "Yəni ədəbi dilə lüzumsuz yerə gətirilmiş ərəb, fars, türk dili söz və tərkiblərinin, eləcə də purizm ünsürlərinin miqdarı azalır, ədəbi dilin lüğət tərkibinin zənginləşmə mənbəyinin istiqaməti dəyişilərək rus dilindən və rus dili vasitəsilə başqa dillərdən sözgötürmə meylləri daha da çoxalır" [26, 80]. Bunu sovet müəllifləri təbii hal adlandırıb, rus dilindən alınan sözlərin zorakılıqla, müəyyən bir təsirlə olmayıb, "sosializm prinsipləri əsasında yeni həyat quran hər iki xalqın siyasi, ictimai, iqtisadi və mədəni həyatı ilə bağlı" yaranan anlayışlar kimi qələmə alsalar da, əsilində burada birinci müddəanın əsaslı rol oynaması şübhəsizdir. Yəni heç bir halda məntiqə uyğun gəlmir ki, bir millət dilini saflaşdırıb yad dillərə aid kəlmələrdən təmizləyərkən, öz ana dili qaynağına-qədim türkcəsinə və ona doğma olan başqa türksoylu millətlərin terminlərinə deyil, ona yad olan bir xalqın dilinə və onun terminlərinə müraciət edilir. Bu baxımdan sovet müəlliflərinin Azərbaycan türk dilinin 1930-cu illərin ortalarından başlayaraq ruslaşdırılması siyasətinə haqq qazandırmaqla bağlı irəli sürdüyü mülahizələr inandırıcı deyildir.

Belə müəlliflərdən biri Məmməd Arif Dadaşzadə əvvəlcə XX əsrin əvvəllərində ədəbi dilin formalaşması ilə bağlı osmanlı şivəsini təqdir edənləri xalqa zidd yol tutmaqda ittiham edib [69, 248], C.Məmmədquluzadə başda olmaqla, dili xəlqiləşdirmək istəyən "mollanəsrəddinçilər"i [69, 250] müdafiə etdiyi halda,

sovet dövründə türk dilini ruslaşdıranlara və avropalaşdıranlara (kosmopolitlərə) qarşı eyni mövqeyi ortaya qoymamışdır. Axı kosmopolitlər də dildə xəlqlikdən kənara çıxıb, türk dilinə tamamilə yad olan rus dilini müdafiə edirdilər. M.Arif yazır: "Xüsusilə rus dili ilə yaxından əlaqədar olan Azərbaycan dilinə bir sıra sözlər, ifadələr daxil olur ki, bunların bir qismi dildə qalır, onun lüğət fondunu və tərkibini zənginləşdirir. Bu çox təbii və qanunauyğun prosesdir" [69, 264]. Kamal Talıbzadə də M.Arifin yolunu davam etdirərək Ə.Hüseynzadəni Azərbaycan türkcəsini osmanlılaşdırmaqda ittiham etdiyi halda [212, 301], o dövrdə Azərbaycan xalqı arasında rus dilinin yayılmasını isə müsbət hadisə kimi qiymətləndirmişdir [212, 314]. N.Xudiyev də ədəbi dil məsələsində, "mollanəsrəddinçilər"in demokratik, füyuzatçıların isə qeyri-demokratik dildən istifadə etməsini [114, 47] vurğulamaqla yanaşı, Azərbaycan türkcəsinin ruslaşdırılması-avropalaşdırması məsələsində obyektiv mövqe tutmamışdır [114, 57].

1937-ci ildən etibarən "Azərbaycan dili" adlanın **milli dilin hüquqi, yəni dövlət dili kimi rəsmi statusuna** gəlincə, burada da qaranlıq və mürəkkəb məsələlər kifayət qədərdir. Milli dili ruslaşdırmaq və kosmopolit hala gətirmək üçün, Sovet rəhbərliyinə lazım idi ki, yalnız türk dilinin mahiyyətini deyil, onun adını da dəyişdirsin və yeni hüquqi bir status yaratsınlar. Bu məqsədlə 1936-cı ildə SSRİ Konstitusiyasında baş verən dəyişikliklər nəticəsində Azərbaycanda da yeni konstitusiyanın qəbul olunması məcburi hala çevrildi. Yeni konstitusiya layihəsində isə Azərbaycan SSR-nin dövlət dili ilə bağlı heç bir maddə öz əksini tapmamışdır. Sadəcə, layihədə göstərilirdi ki, Sovet Azərbaycanının qanunları, fərmanları və qərarları Azərbaycan, rus və erməni dillərində elan olunur [41, 10]. Fikrimizcə, konstitusiya layihəsinə Sovet Azərbaycanının dövlət dili ilə bağlı ayrıca maddənin salınmamasına əsas səbəb SSRİ rəhbərliyinin Azərbaycan türklərinin etnik mənşəyinə və dilinə

qarşı dəyişən münasibəti mühüm rol oynamışdı. SSRİ ideoloqları Sovet Azərbaycanını artıq bir türk dövləti kimi görmək istəmir, bu mənada onun əhalisinin və dilinin türk adlandırılmasına qarşı çıxırdı. Bunu nəticəsi olaraq, Azərbaycanda yeni konstitusiya layihəsini hazırlayanlar cəsarət edib milli dillin statusu, eləcə də milli bayraqla bağlı heç bir maddə salmamışdılar.

Ancaq Azərbaycan SSR qanunları, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti fərmanları və Azərbaycan SSR hökuməti qərarlarının xronoloji külliyyatının 1961-ci ildə nəşr olunan 2-ci cildində 1937-ci ilin martında 14-də ÜmumAzərbaycan Fövqalədə 9-cu Sovetlər qurultayının qərarı ilə qəbul edilmiş yeni konstitusiyada Sovet Azərbaycanının dövlət dilinin Azərbaycan dili olması ilə bağlı 151-ci maddə də öz əksini tapmışdır: "Azərbaycan SSR-nin dövlət dili Azərbaycan dilidir. Azərbaycan SSR ərazisində yaşayıb azlıq təşkil edən millətlərə, həm öz mədəniyyət idarələrində, həm də dövlət idarələrində ana dilini inkişaf etdirmək və işlətmək hüququ təmin edilir" [40, 42]. Maraqlıdır ki, akademik Ziya Bünyadovun "Qırmızı terror" kitabında 1948-ci ildə həbs olunan antisovet, millətçi "İldırım" təşkilatının üzvlərindən İsmixan Rəhimova aid istintaq ifadəsində, onun tərəfindən dövlət dilinin Azərbaycan dili olması ilə bağlı mülahizə səslənmişdir: "Baxmayaraq ki, bizim indiki Azərbaycan Sovet Respublikasının Konstitusiyasında azəri dilinin dövlət dili olduğu qeyd olunmuşdur, əsl həqiqətdə bütün idarələrdə rəsmi dil rus dilidir" [54, 310].

İlk baxışda, belə nəticə çıxarmaq olar ki, 1937-ci ildə qəbul edilmiş konstitusiyaya az sonra dövlət dili kimi "Azərbaycan dili" maddəsi əlavə olunmuşdur. Ancaq bu bir o qədər də inandırıcı deyil. Çünki 1947-ci ildə və 1954-cü ildə müəyyən dəyişikliklər və əlavələrlə nəşr olunan Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili olması ilə bağlı heç bir maddə öz əksini tapmamışdır [41^{a}, 41^{b}]. Şübhəsiz,

belə bir mühüm dəyişiklik baş versəydi, hökmən konstitusiyada öz əksini tapardı. Görünür, 1961-ci ildə nəşr olunan kitabda 1937-ci il Konstitusiyasına "Azərbaycan dili" maddəsinin salınmasına səbəb 1956-cı ildə Azərbaycan SSR konstitusiyasında baş verən dəyişikliklər və əlavələr olmuşdur [41[c], 29]. "Azərbaycan tarixi"nin 7-ci cildində yazılır: "1956-cı ildə Azərbaycan SSR Ali Soveti 1937-ci ildə qəbul edilmiş Konstitusiyaya respublikada dövlət dilinin Azərbaycan dili olması barədə maddə əlavə etdi" [46, 140]. Cəmil Həsənli də yazır ki, yalnız Stalinin ölümündən (1953) və M.C.Bağırovun Sovet Azərbaycanının rəhbərliyindən uzaqlaşdırılmasından (1954) sonra Azərbaycan rəhbərləri və ziyalıları tərəfindən "Azərbaycan dili"nin dövlət dili kimi hüquqi statusu məsələsi gündəmə gətirilmiş, bu vaxta qədər isə SSRİ-nin tərkibinə daxil olan respublikalardan yalnız Ermənistan və Gürcüstanın konstitusiyalarında dövlət dili ilə bağlı xüsusi maddə olmuşdur [103, 143]. Onun qeydinə görə, həmin dövrdə milli dilə qarşı yönəlmiş assimilyasiyaya etiraz olaraq AKP MK-nin birinci katibi İ.Mustafayev və Ali Sovetin sədri M.İbrahimovun təşəbbüsü ilə Azərbaycan dilinin rəsmi dövlət dili statusunun təmin olunması ilə bağlı mətbuatda açıq müzakirə keçirilmişdi. Bu müzakirələrdən sonra Azərbaycan SSR Konstitusiyasına Azərbaycanın dövlət dilinin "Azərbaycan dili" olması ilə bağlı 151-ci maddə əlavə olunmuşdu [103, 146]. C.Həsənli daha sonra yazır: "Dövlət dili haqqında qanunun qəbul edilməsindən sonra respublikada güclənən milli ideya mədəni irsə və mədəniyyət xadimlərinə münasibətdə milli təssübkeşlik meyillərini doğurdu" [103, 165].

Qeyd edək ki, milli dilin hüququ statusu ilə bağlı, məsələnin bu cür fərqli izahı təsadüfi deyildir. Belə ki, həmin dövrdə bu məsələ ilə uğraşan İ.Mustafayev, M.İbrahimov, R.Rza, R.Yüzbaşov və başqaları da bildirirdilər ki, 1937-ci ildə qəbul olunan Azərbaycan SSR Konstitusiyasında dövlət dili ilə bağlı

ayrıca bir maddə salınmamışdır və bu, Azərbaycan xalqı arasında narazlığa gətirib çıxarmışdır. Bu baxımdan 1950-ci illərdə Ali Sovetin sədri, xalq yazıçısı **Mirzə İbrahimov** AKP MK-ya göndərdiyi məktubunda "Azərbaycan dili"nin dövlət dili olmasını əsaslandırmaq üçün yazırdı: "Sovet dövründə əldə etdiyimiz böyük qələbələrdən biri Azərbaycan dilinin dövlət dili səviyyəsinə qalxmasıdır. İstər kənd, rayon, şəhər partiya və sovet təşkilatlarında, istərsə respublika təşkilatlarında Azərbaycan dili dövlət dili kimi işlənir. Söz yox ki, getdikcə bu vəziyyət genişlənəcək və möhkəmlənəcəkdir. Bu vəziyyət respublikanın Konstitusiyasında (Qanun əsasında) əks olunmalıdır" [103, 143].

1956-cı ildə Ali Sovetin 3-cü sessiyası "Azərbaycan dili"nin dövlət dili olması haqqında qanun qəbul etdikdən az sonra M.İbrahimovun "Kommunist" qəzetində "Azərbaycan dili dövlət idarələrində" məqaləsi dərc olundu ki, burada C.Həsənlinin də qeyd etdiyi kimi, çar Rusiyasının simasında Sovet Rusiyasının müstəmləkəçilik siyasəti, xüsusilə milli məsələyə baxışda "böyük millət" və "kiçik millət" anlayışları tənqid olunmuşdu. M.İbrahimov yazırdı: "Hakim millətin, "böyük" millətin məzlum millətə, "kiçik" millətə göstərdiyi hər hansı təzyiq yalnız nifrət və nifaq duyğuları oyadır, əzilən milləti tarixi intiqam saatını gözlətməyə məcbur edir… Çarizm qeyri-rus xalqları ən kobud və vəhşi jandarm üsulu ilə əzir, həyasızcasına "ruslaşdırmaq" siyasəti apaprırdı, milli mədəniyyətlərə və milli dillərə qarşı təcavüzkar hərəkət edirdi, hətta milli qırğınlar törətməkdən belə çəkinmirdi. Başqa xalqları əzib məhv etmək və imperiyanı daxilində "əritmək" məqsədilə çarizm ucqarlara zorla rusları köçürürdü. Çarizm bu vəhşi siyasəti ilə böyük rus xalqını bədnam edir, təbii olaraq imperiyanın əzilən xalqlarını ürəyində ona qarşı etimadsızlıq oyadırdı" [103, 147].

M.İbrahimov onu da haqlı olaraq qeyd edirdi ki, Azərbaycanda sovet hakimiyyətinin ilk on ilində Azərbaycan türk dilinin işlənməsinə xüsusi diqqət yetirilsə də, ondan sonrakı

dövrlərdə təhriflərə yol verilmiş və bu dilə qarşı münasibət tamamilə dəyişilmişdir. Bunun da nəticəsində bir millətin öz ana dilində təhsil alması, danışması, dövlət məmurlarına yazılı və şifahi şəkildə müraciət etməsi və s. sahələrdə problemlər meydana çıxmışdır. Halbuki "hər bir xalqın öz idarələrində ana dilində idarə etmək arzusundan təbii bir şey ola bilməz" [103, 147].

Maraqlıdır ki, "Azərbaycan dili"nin konstitusion hüquqları bərpa edildikdən sonra da (1956), Sovet Rusiyası rəhbərliyi milli dilə qarşı təzyiqləri bundan sonra da bu və ya digər şəkildə davam etdirmişdir. Lakin SSRİ rəhbərliyinin və onun əlaltılarının ciddi təziyqlərinə baxmayaraq, 1978-ci ildə qəbul edilən 3-cü Sovet Azərbaycanı Konstitusiyasında da, "H.Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan dili respublikada dövlət dili statusunu saxlamışdı" [46, 176].

Qeyd edək ki, Sovet Azərbaycanının rəhbərləri Azərbaycan dilinin dövlət dili kimi hüququ statusunu qorumağa çalışdıqları bir dövrdə, bir sıra Azərbaycan türk aydınları – B.Vahabzadə, R.Rza, Z.Bünyadov, Ə.M.Dəmirçizadə, T.Hacıyev, Q.Qeybullayev və başqaları bu məsələdə onlara dəstək verməklə yanaşı, hətta Azərbaycan xalqının türk mənşəli, onun dilinin də türk dili olması ideyasını müdafiə etmişlər. Bunu, **B.Vahabzadə**nin 1950-ci illərdə yazdığı "Latın dili" poeması, "Ana dili" şeiri və başqa əsərləri də, məhz milli dilin qorunması yolunda atılmış çox mühüm bir addım idi [218, 8].

Bütün hallarda, etiraf etməliyik ki, SSRİ imperiyası Azərbaycan, Türkmənistan, Qazaxıstan və başqa türk ölkələrində digər ideoloji sahələrdə olduğu kimi, "milli dil və yeni əlifba" siyasətini də, əsasən öz mənafeyinə uyğun şəkildə həll etməyi bacarmışdır. Bununla da, 20 il ərzində bir neçə qrafikadan istifadə edən, sonda rus əlifbasına və ruslaşdırılmış "Azərbaycan dili"nə keçməyə məcbur olan Azərbaycan türk millətinin şüurunda istər-istəməz müəyyən dəyişikliklər yaranmış, keçmişlə varislik xeyli dərəcədə itirilmişdir. Sözün açığı, bu günümüzdən baxdıqda da

xeyli ölçüdə sovet ideoloqlarının və onların Bakıdakı təmsilçilərinin qısa deyil, uzun bir zaman üçün, müəyyən dərəcədə istəklərinə nail olması göz qabağındadır. Başqa sözlə, həmin dövrdə SSRİ rəhbərliyinin və onun ideoloqlarının millətimizin dilinin, əlifbasının, ümumilikdə milli mənəvi dəyərlərinin başına açdıqları faciəli oyunlar, müstəqilliyimizin bərpası ilə qismən aradan qalxsa da, ancaq imperiyanın izləri həyatımızda bu gün də qalmaqdadır.

2.1. **Sovet dövrü Azərbaycan fəlsəfəsində islamçılıq və türkçülüyə münasibət**

Sovet dövründə Rus-Xristian-Qərb-Avropa mədəniyyəti və ideologiyasının əsas hədəflərindən biri və birincisi İslam dini olmuşdur. Bolşefaşistlər Azərbaycanı işğal etdikləri ilk günlərdən etibarən İslam dininə qarşı açıq və gizli şəkildə müharibə elan etdilər. Bizə elə gəlir ki, 1920-1940-cu illərdə həyata keçirilən "mədəni inqilab"ın məqsədi də ilk növbədə, dini dəyərləri məhv etmək, əvəzində insanların şüurlarına kommunist ideologiyasına uyğun olaraq "beynəlmiləlçiliy"i-ateizmi yeritmək idi. Bu baxımdan 1920-1940-cı illərdə K.Marks, F.Engels, V.İ.Leninin əsərləri ilə yanaşı, S.Ağamalıoğlu, M.Quliyev, M.S.Ordubadi və başqalarının İslam dininə qarşı çevrilmiş marksist-leninçi kitabçaları çap edilmişdi. Bütün bunlardan başqa "1924-cü ildə Bakıda təşkil olunan, öz ətrafında qabaqcıl fəhlələri, sonralar isə kənd fəallarını da toplayan Allahsızlar Cəmiyyəti din əleyhinə aparılan təbliğat sahəsində böyük iş görürdü" [42, 454]. "Allahsızlar cəmiyyəti"nin işini sürətləndirmək üçün, AK(b)P 1929-cu ilin aprelində keçirilən plenumu dinə qarşı mübarizə, çadranın və papağın atılması ilə bağlı məsələni də müzakirəyə çıxarmışdı. Bir qədər sonra "Allahsızlar cəmiyyəti" dinə qarşı mübarizəni gücləndirmək adı altında "Mübariz Allahsızlar İttiifaqı"na çevrildi. İslama qarşı bolşevizmin tutduğu radikal

siyasət onunla nəticələndi ki, 1930-cu illərin sonlarında Azərbaycanda cəmi 20 məscid formal fəaliyyət göstərirdi [45, 356-357].

Tədqiqatçı Müstəqil Ağayev hesab edir ki, həmin dövrdə bəziləri könüllü şəkildə olsa da, bir çoxları iradələrinə zidd olaraq, özlərini sığortalamaq üçün ateistlər, allahsızlar təşkilatlarına qoşulmuşlar: "Dinin mahiyyətini başa düşüb-düşməməsindən asılı olmayaraq, böyük bir qrup filosof ateizm cəbhəsinə keçdi və bütün səy və bacarıqlarını bu sahəyə həsr etdi" [15, 98]. M.Ağayevin fikrincə, bunun nəticəsində Azərbaycanda dinsizlərin, ateistlərin sayı çoxaldı, dindarların sayı isə yox səviyyəsinə qədər aşağı düşdü. Bizcə də, həmin dövrdə könüllü olaraq İslamı tənqid hədəfi seçənlərlə yanaşı, məcburiyyətdən bunu edənlər də olmuşdur. Fikrimicə, ümumilikdə SSRİ dövründə Azərbaycanda dinə ikili baxış: 1) mötədilçilər (N.Nərimanov, S.M.Əfəndiyev və b.); 2) radikallar (S.Ağamalıoğlu, R.Axundov, Ə.Qarayev və b.) olmuşdur. Doğrudur, onların hər ikisi İslam dininin məhvini qarşılarına məqsəd kimi qoymuşdular. Sadəcə, burada fərq o idi ki, birincilər təkamüllə və zor işətmədən, ikincilər isə dəhral və zorakılıqla İslam dinini məhv etmək məqsədi güdürdülər.

Sovet dövründə din probleminin təkamüllə və zor işlətmədən həll edilməsinin tərəfdarlarından **N.Nərimanov** hesab edirdi ki, kütləni savadlandırmadan bu problemi həll etmək mümkün deyildir. Onun fikrincə, yalnız dindar kütlənin inkişaf səviyyəsini yüksəltmək yolu ilə dinə aid mərasimlərə, o cümlədən məhərrəmliyə münasibət dəyişə bilər. Bu mənada, İmam Hüseynin (ə) qətlini "Məhəmmədin qanunlarını pozan, hamını və hər şeyi qızılla ələ amaq istəyən Yezidə qarşı mərdimərdanə çıxış etmiş adamın həyatında bütöv bir faciə" [168, 447] kimi qiymətləndirən Nərimanov yazırdı ki, S.Ağamalıoğlu, R.Axundov kimlərinin İmam Hüseyni (ə) qorxaq kimi xarakterizə etmələri doğru deyildir: "Qorxaq odur ki, vəzifəsindən ötrü alçaqcasına yalan danışır, lakin imam Hüseyn tabe olsun və öz

vicdanını satsın deyə Yezid bütöv bir vilayəti idarə etməyi ona təklif edirdi. O bunu etmədi: həlak oldu" [168, 447].

Bu fikirlərinə görə, onu İslam dininin müdafiəçisi kimi qələmə verənlərə cavab olaraq Nərimanov qeyd edirdi ki, ilk dəfə "Bahadır və Sona" romanında 20 il bundan əvvəl kilsənin dövlətdən ayrılması barədə yazmış, millətlərin məhv edilməsini və erməni Sonanın türk Bahadırla bir canda qovuşmasını təbliğ etmişdir [168, 429]. Bununla da, Nərimanov demək istəmişdir ki, "dinə qarşı materialist kimi çıxış etmək bir şeydir, bu mərasimləri icra etməyi qadağan etmək məqsədilə silahlı qüvvə tətbiq etmək başqa şey" [168, 448]. Bu baxımdan fəlsəfə elmləri doktoru Arzu Hacıyeva doğru qeyd edir ki, N.Nərimanovun dinə baxışı bir çox materialist filosoflardan fərqli olmuşdur: "Nərman Nərimanov bir çox başqa materialist filosoflar kimi dini qətiyyətlə inkar və rədd etmir, ona tarixin müəyyən mərhələsində yaranaraq insanların həyatında müsbət rol oynamış və hələ də öz təsir qüvvəsini saxlamış baxışlar sistemi kimi baxır" [94, 160].

Deməli, N.Nərimanov din məsələsinə materialist kimi yanaşsa da, bu problemin zorla və dərhal deyil, dinc yolla və təkamüllə həll olunmasının tərəfdarı olmuşdu. Ancaq ümumilikdə Nərimanov dinin, o cümlədən İslam dininin müəyyən bir mərhələdə aradan qalxacağaına inanırdı. Onun bu mövqeyini müdafiə edən S.M.Əfəndiyev də yazırdı ki, Azərbaycanda dinə qarşı mübarizə işləri çox zaman mədəni-maarif yolu ilə deyil, inzibati yollar ilə aparılmışdır: "Din əleyhinə mübarizə işlərini düşünülmüş və sağlam yollar ilə aparmaq əvəzinə, bu iş məscidləri almaqdan ibarət olmuşdur" [76, 167]. O hesab edirdi ki, mədəni gerilik dini fanatizmə qarşı mübarizədə bir əngəldir. Ona görə də, dinə qarşı mübarizəni dünyəvi elmləri öyrənmək, mədəni səviyyəni yüksəltmək yolu ilə aparmaq lazımdır [76, 71]. Ancaq Nərimanovla müqayisədə S.M.Əfəndiyev İslam dini ilə mübarizədə radikalizmə də meyil göstərmişdir.

Ancaq həmin dövrdə bir çox yerli bolşeviklər (S.Ağamalıoğlu, R.Axundov və b.) İslam dininə münasibətdə **radikal** mövqeyi ilə seçilmişlər. Hətta, onlar Quranla, Məhəmməd peyğəmbərin (s) dünyagörüşü ilə birbaşa tanış olmadan, eləcə də bu dinə aid ayin və mərasimlərin əsil mahiyyətini öyrənmədən kor-koranə şəkildə İslam dininə qarşı çıxmışlar. Bu yolu tutanlar başa düşmür, yaxud da düşmək istəmirdilər ki, bu və ya digər ayin və mərasimlə bağlı yaranmış mövhumatın, xurafatın İslam dininə və onun Peyğəmbərinə (s) heç bir aidiyyəti yoxdur. Məhz İslamın əsil mahiyyətini dərk etmədikləri, eləcə də marksist-leninçi təlimə sadiq olduqlarını sübut etmək üçün 1923-cü ildə "Materialistlər klubu"nda bir araya gələn S.Ağamalıoğlu, R.Axundov, S.M.Əfəndiyev, Ə.Qarayev və bu kimi bolşeviklər namaz qılmaq, həccə getmək və İslamın digər ayinlərini zəhmətkeş xalqın fiziki və mənəvi inkişafına yabançı olduğunu iddia edirdilər. Onlar xalq arasında elmi kommunizmi, elmi ateizmi təbliğ edərək yalnız dini mövhumata və xurafata deyil, bütövlükdə İslam dininə qarşı çıxırdılar [256, 8]. Məsələn, **Səmədağa Ağamalıoğlu** hesab edirdi ki, bütün dinlər, o cümlədən İslam ruhanilərin iddia etdikləri kimi, nə insan təbiətinə xas olan fitri xüsusiyyət, nə də Allahın insanlara bəxş etdiyi bir hadisədir. Dünyanın ikiliyi, yəni bu dünya və o dünya (axirət) ideyasını rədd edən Ağamalıoğlunun fikrincə, din üstə ölənlərin cənnətə getmələrinə heç bir ümid yoxdur və cənnətin özü də yoxdur [166, 48]. Onun fikrincə, ictimai-tarixi hadisə olan İslam dini Allahın göndərdiyi din kimi deyil, ərəb əyanlarının və tacirlər təbəqəsinin sinfi ideologiyası kimi yaranmışdır [166, 46]. Başqa bir yerli marksist-leninçi **Ruhulla Axundov** da hesab edirdi ki, ideoloji sahədə zəif cəhətlərdən biri din əleyhinə təbliğatın yaxşı aparılmaması və İslamın tam ifşa olunmamasıdır. Ona görə, bu cəhətdən din əleyhinə Azərbaycanda fəlsəfə sahəsində isə daha çox iş görülə bilər: "Məgər bizim üçün eyib deyilmi ki, bu vaxtadək biz islam dinini ifşa etmək üçün heç bir iş görməmişik və ümumiyyətlə dünya ədəbiyyatında bu məsələyə dair heç bir şey

görünmür" [20, 181]. R.Axundova görə, Azərbaycan ədəbiyyatında İslam dini barəsində yalnız bir neçə başdansovdu yazı vardır ki, bununla kifayətlənmək olmaz: "Odur ki, bizim ən birinci vəzifəmiz nəzəri cəbhədə amansız mübarizə aparmaqdan ibarətdir. Bu vəzifə xüsusilə Azərbaycan kommunistlərinin üzərinə düşür. Onlar İslam dinini lap tarixi rüşeymindən, lap təməlindən ifşa etməlidirlər, misli görünməmiş bir şəkildə ifşa etməlidirlər" [20, 181].

1920-1940-cu illərdə fəlsəfədə idealizm, o cümlədən din məsələsinə marksizm fəlsəfəsi, dialektik materializm mövqeyindən yanaşan ziyalılar C.Nağıyev, M.Hüseynov, Ə.Kazımov, M.Quliyev, Q.Musabəyov və başqaları da S.Ağamalıoğlu, R.Axundov kimi, idealizmin tərkib hissəsi kimi gördükləri İslam dinini tənqid etmişlər [256, 14].

Bu dövrdə sırf marksizm-leninzm fəlsəfəsi ilə məşğul olan partiya və dövlət xadimləri ilə yanaşı, bir sıra tanınmış Azərbaycan mütəfəkkirləri də İslama münasibətdə radikallığı ilə fərqlənmişlər. Məsələn, hələ, çar Rusiyası dövründə İslama münasibətdə müəyyən qədər ifratçılığı ilə seçilən **Cəlil Məmmədquluzadə** etiraf edirdi ki, "Molla Nəsrəddin" ilk gündən qarşısına əsas məqsəd kimi yalnız dini mövhumatın, dini xurafatın deyil, bütövlükdə "din, məzhəb, şəriət, etiqad, iman, cənnət, cəhənnəm, müctəhid, molla, keşiş, xaxam, mürid, habelə bütün bu qism sözlər gərək insanlar arasından götürülüb lüğətlərdən, kitablardan, yazılardan tamamilə silinib tullansınlar! Məscidlər, kəlisalar, sinaqoqlar, təkyələr, ibadətgahlar, pirlər, ziyarətgahlar, məhfillər, əza yerləri tamamilə sökülüb, dağıdılıb maarif və mədəniyyət evlərinə döndərilsinlər" [148, 288]. Bu dövrdə C.Məmmədquluzadənin M.F.Axundzadəyə həsr etdiyi məqaləsi də göstərir ki, o bütövlükdə dinləri, o cümlədən İslamı və Allahı inkar etmişdi: "…Bizim məqsədimiz budur ki, biz allahın dərgahından qovulanlar, bari Mirzə Fətəlinin allahsızlığı ilə təsəlli tapaq və bəlkə də, hələ buna iftixar edək" [148, 281]. C.Məmmədquluzadənin bütün

bu fikirlərini materializmə yozan Azərbaycan filosofu İ.Rüstəmov yazır: "Heç şübhəsiz ki, Cəlil Məmmədquluzadənin ateist irsi Azərbaycan ictimai-fəlsəfi fikrinin inkişafında, intibahında çox mühüm rol oynamışdır" [191, 404].

Əlbəttə, İ.Rüstəmovun müsbət mənada ifadə etdiyi Məmmədquluzadə irsi əslində toplumun şüurunda mənfi rol oynamışdır. Məsələn, o, "Molla Nəsrəddin" jurnalının SSRİ dövründəki saylarının (1925, 7 fevral, №6) birinin üz qabağında Marksın "Kapital" əsəri ilə abidəsini, onun yanında Molla Bağırı vermişdir. Marksın abidəsinin altında: Bütün ölkələrin yoxsulları birləşiniz! Molla Bağır Məclisinin altında: Bütün Şərqin dindarları birləşiniz! Daha sonra Məmmədquluzadə M.B.Məclisinin dilindən yazırdı: Ay axmaq Şərq camaatı! Nə tökülmüşsünüz bu kişinin dalınca. Onun yazdığı bir Kapitaldır. Amma mən M.B.Məclisi yüzlərlə kitab yazmışam [160[a], 63]. Şübhəsiz, Məmmədquluzadənin bu müqayisəsi kökündən yanlış idi. Çünki İslam dinin əsas kitabı Quran idi, hansısa M.B.Məclisinin "kitabları" yox.

Xüsusilə, SSRİ dövründə "Molla Nəsrəddin" jurnalında din xadimlərini haqlı və ya haqsız son dərəcədə alçaldırdılar. Hətta, din xadimlərini, o cümlədən mollaları dünyada təhqiredici heyvan hesab olunan ulağa bənzədirdilər. "Molla Nəsrəddin" jurnalının saylarının birinin (1926, mart, №13) üz qabığında molla ulağın qarnından çıxaraq: köpək uşaqları səs salıb ağzıoruc məni özündən çıxarırsınız [160[a], 663]. Hətta, "din mövhumat və xurafatdan ibarətdir" deyən "mollanəsrəddin"çilər bir qədər də qabağa gedərək peyğəmbərimizin (s) dilindən yazırdılar: "Mən bu islamı vücudə vaxt orucunu İran əsatirindən, namazını Xristianlıqdan, Şarib vurmağı babillərdən, zülf qoymağı qibtilərdən, kitabını İncildən, Tövratdan, Buddadan, Zənd-Avestadan aldım, təəddüdi-zəvacatı (çoxarvardlılığı) da özüm əlavə elədim [160[a], 171]. Ümumiyyətlə, SSRİ dövründə nəşr olunan "Molla Nəsrəddin" jurnalında Allahın

və onun peyğəmbərlərinin təhqir olunması adi hal olmuşdu [160[a], 219, 236-237, 352, 751, 767].

Hətta, arada-sırada "Molla Nəsrəddin" jurnalının baş redaktoru mühacirətdə olan milli ruhlu azərbaycançılara sataşmaqdan da geri qalmırdı. Belə ki, "Molla Nəsrəddin" jurnalının saylarının birində müsavatçılara sataşan C.Məmməd-quluzadə yazırdı: "Bu da bir cür məhərrəmi. Berlində yaşayan bəzi Müsavat qaçıqınları, Şura Azərbaycanının 6-cı ildönümündə, Berlin restoranlarından birini Müsavat bayraqları ilə bəzəyib, gecə yarısınacan matəm saxlamışlardır". Jurnalın üz qabığındakı şəklində "Müsavat" qaçqınları üçboyalı bayraqla bəzədilmiş restoranda "kef edirlər". Məmmədquluzadə onların dilindən yazırdı: "Necə qan ağlamasın daş bu gün, Qalmışıq xaricdə biz kibi ovbaş, bu gün" [160[a], 767].

Sovet ideoloqlarının İslama qarşı mübarizədə əslində məqsədi Azərbaycan türklərini elm-mərifət sahibi etmək deyil, milli-dini dəyərlərindən və kökündən uzaqlaşdırmaq idi. Ancaq Mərkəzin əsil niyyətini anlamayan bəzi mütəfəkkirlərimiz mütərrəqi elmə yiyələnmək adı altında yalnız dini mövhumata və din xurafata deyil, bütövlükdə İslam dininə qarşı hücuma keçirdilər. Məsələn, M.S.Ordubadi şeirlərinin birində Azərbaycan insanının zorla dinsizləşdirilməsini bu cür başa düşürdü: "Artdıqca elmü ürfan, dindən çıxır müsəlman" [173, 61]. Ordubadi bir az da qabağa gedərək yazırdı ki, dinsizlik özü bir din, milliyyətsizlik isə bir sinfi məsələdir [173, 19]. O dövrdə K.Sanılı da cəmiyyətin geriliynə səbəb kimi İslam dinini göstərmişdir [198, 52].

Beləliklə, SSRİ dövründə fəlsəfə dinə qarşı qoyulmuşdu. Guya, din idealizm, fəlsəfə isə materializm deməkdir. Fəlsəfəni dinsizlik kimi təbliğ edən sovet ideoloqları iddia edirdilər ki, fəlsəfə və din, elm və din bir araya sığışa bilməz. Bizə elə gəlir ki, bununla da sovet dövründə mənfi bir tendensiyanın, yəni fəlsəfə ilə məşğul olanların yalnız ateist, allahsız olmasının təməl daşları qoyulmuşdu.

Qeyd edək ki, 2-ci Dünya müharibəsi dövründə və sonralar dinə münasibət nisbətən yumşalmışdı. Hətta 1944-cü ildə Cənubi Qafqaz Müsəlmanlarının Ruhani İdarəsi yaradılmışdır. Ancaq bütövlükdə, XX əsrin ikinci yarısında da sovet ideoloqları dinə, xüsusilə İslama münasibətdə daima tənqidi mövqe tutmuşlar.

Fikrimizcə, 2-ci Dünya müharibəsindən sonrakı dövrdə islamçılığın və türkçülüyün tənqidinə çox yer ayıran Azərbaycan filosoflarından Firudin Köçərli, Mehbalı Qasımov, Midhət Ağamirov, Qədim Mustafayev və başqaları olmuşdur. Məsələn, bu dövrdə akademik **F.Q.Köçərli** bir çox çağdaşları kimi, heç bir ciddi arqument gətirmədən iddia edirdi ki, din bir-birini əvəz edən bütün istismarçı quruluşların "ədalətli", "əbədi", "sarsılmaz" və s. olduğunu elan etmiş, hakim siniflərin əlində zülm silahı olmuşdur [123, 24]. Ümumiyyətlə, Köçərli dinə, o cümlədən İslama münasibətdə belə bir nəticəyə gəlir ki, din zəhmətkeşləri hər cür zülmə dözməyə, istismarçılara qarşı mübarizə aparmamağa çağırırdı [123, 40]. Eyni zamanda, akademik yalnız İslamı və din xadimlərini deyil, milli ideyanın daşıyıcları olan milli mütəfəkkirləri də tənqid edir və sübut etməyə çalışırdı ki, 20-ci əsrin əvvəllərində Azərbaycanda əsas ideya marksizm-leninizm olmuşdur [122, 13]. Bu baxımdan o, mühacirətdə Azərbaycan milli ideyasını təbliğ edən M.Ə.Rəsulzadə, Ə.Cəfəroğlu və başqalarına cavab olaraq yazırdı ki, hazırda da Sovet Azərbaycanında türkçülük və islamçılıq deyil, əsas ideya xətti marksizm-leninizmdir: "Aydındır ki, M.Ə.Rəsulzadə, Ə.Cəfəroğlu kimi burjua ieoloqlarından Azərbaycan ictimai fikrinin obyektiv şərhini gözləmək son dərəcə sadəlövhlük olardı. Onların konsepsiyası tarixi faktların təhrifinə əsaslanan millətçilik demaqoqiyasından başqa bir şey deyildir" [122, 30]. Xüsusilə, Köçərli Rəsulzadənin hazırkı şərtlər içərsində islamın kommunizmə əngəllər törətməsini müsbət dəyərləndirməsinə qarşı çıxırdı. Onun fikrincə, bütün bunlara baxmayaraq, Azərbaycan xalqı yarım əsrdən artıqdır ki, SSRİ xalqları ailəsində kommunizm quruculuğu yolu ilə inamla irəliləyir [122, 32]. Çünki

Azərbaycan xalqı öz nicatını islamçılıqda və türkçülükdə deyil, marksizm-leninizmdə tapmışdı. Guya, "panislamizm" və "pantürkizm" mülkədarların, ruhanilərin və başqa mütrəce qüvvələrin cərəyanları olduğu halda, marksizm-leninizm Azərbaycan xalqını mütərəqqi qüvvələrinin təlimi olmuşdu [122, 90].

Ümumiyyətlə, XX əsrin ikinci yarısında Rus-Avropa ideologiyasından çıxış edən Q.Mustafayev, M.Qasımov, Z.Göyüşov, Ə.K.Zəkuyev və başqaları Azərbaycan filosoflarına (Bəhmənyar, M.F.Axundzadə, M.Ş.Vazeh, M.Kazım bəy və b.) və fəlsəfəsinə həsr etdikləri əsərlərində bacardıqları qədər islamçılıq və türkçülüyü tənqid etmişlərdir. Məsələn, Mehbalı Qasımov M.F.Axundzadənin ateist irsindən ilham alaraq yazırdı ki, "xurafatdan o vaxt yaxa qurtarmaq olar ki, mənfur islam dini yox edilmiş olsun" [130, 6]. Onun nəzərində islamçılıq qədər türkçülük də SSRİ-yə qarşı yönəldiyi üçün zərərli və qəbuledilməz idi [130, 42]. Qədim Mustafayev də hesab edirdi ki, keçmişin ən davamlı və zərərli qalıqları islamlaşmaq və türkləşmək olmuşdur: "XX əsrin ikinci onilliyində Azərbaycanda liberal burjuaziya islamla millətçiliyin (özü də irqi-etnik millətçiliyin) qarşılıqlı əlaqəsini möhkəmləndirməyə çalışmış və buna görə də millilik naminə nə olmuşsa, hamısını, o cümlədən milli adət-ənənələri tamamilə islamlaşdırmaq və türkləşdirməyə cəhd etmiş, eyni zamanda müsəlman xalqlarının, o cümlədən türk dilli xalqların dini-mürtəce adət-ənənələrini də "milliləşdirməyə" çalışmışdır" [159, 9]. Onların bu yolunu davam etdirən **Ziyəddin Göyüşov** da məlum ideologiyadan çıxış edərək yazırdı ki, İslam şəriəti və onun qayda-qanunları cəmiyyətin əxlaqına zidd olmuşdur [90, 16]. Z.Göyüşov xüsusilə "Sovet Azərbaycanında fəlsəfi fikir" (1979) kitabında dövründə dinə, o cümlədən konkret İslama qarşı mübarizədə cəmiyyət daxilində elmi kommunizm, elmi ateizm təbliğatının aparılmasının aktuallığından bəhs etmişdir [256, 198]. Bu dövrdə Ə.Həsənov, F.Ramazanov, M.Məmmədov və başqaları da İslam və

Türklük əleyhinə aparılan kompaniyaya dəstək vermişlər [101, 4; 176, 4-5; 200, 15; 151, 26].

Gördüyümüz kimi, sovet dövründə əksər alimlərin İslama və Türklüyə münasibəti daha çox qeyri-obyektiv mahiyyət daşımışdır. Şübhəsiz, bu müəyyən qədər onların öz dünyagörüşünün nəticəsi idisə, burada həmin dövrün ideoloji mühiti də mühüm rol oynamışdır. Belə ki, həmin mütəfəkkirlər xurafat və mövhumatı, ikiüzlü ruhaniləri tənqid etməkdə nə qədər haqlı olsalar da, ancaq bütun bunları İslam və onun əsas kitabı olan Quranla bağlamaqla səhvə yol vermişlərdir. Məsələn, onlar bu dövrdə yeri gəldi-gəlmədi İslam dini ilə bağlı mərasim və bayramları, o cümlədən orucluğu və qurban bayramını tənqid hədəfi kimi seçirdidər. Bu zaman onlar həmin mərasim və bayramlardan sui-istifadə edən ruhanilərlə yanaşı, heç bir əsası olmadan xalqın ürəkdən bağlandığı orucluq və qurban bayramlarının da keçirilməsinə qarşı çıxırdılar. Doğrudur, sovet dövründə yaşamış bu alimlər bunu edərkən həm də sovet ideologiyasının uydurduğu elmi kommunizmin dinə münasibətindən çıxış etmişlərdir.

Deməli, XX əsrin ikinci yarısında da, dini və milli ideologiyaya qarşı sovet ideoloqları ciddi şəkildə mübarizə aparmışlar. Sadəcə, bu dövrdə milli-dini dəyərləri tənqid edənlər özlərinə istinadgah kimi, ya XIX əsr mütəfəkkirləri M.F.Axundzadəni, M.Ş.Vazehi, ya da XX əsrin əvvəllərində marksizm-leninizm əqidəsindən çıxış edən N.Nərimanov, S.M.Əfəndiyev, S.Ağamalıoğlu, R.Axundov, C.Məmməd-quluzadə və başqalarını götürmüşlər. Digər tərəfdən hiss olunur ki, dini və millilik ideyasını tənqid edənlərin əsas hədəfi din və millətdən daha çox, islamçılıq və türkçülükdür. Bu isə o anlama gəlir ki, dinə və milliliyə qarşı çıxış ilk növbədə islamçılıq və türkçülüyün məhvinə yönəlmişdi. Sovet ideoloqları hər cür dini və milli ideyanı beynəlmiləlçiliyə və rus kommunizminə zidd hesab edirdilər.

Xüsusilə, 1970-1980-ci illərdə milli oyanış hərəkatının yeni bir mərhələyə daxil olduğunu görən sovet ideoloqları bu prosesdə Azərbaycan türklərinin Türkiyə türklərindən dəstək almasından ehtiyat edirdilər. Onların ən çox qorxduğu eyni mədəniyyəti, dini və milli kimliyi paylaşan hər iki türk millətinin bir-birinə yaxınlaşması idi. Bu baxımdan Azərbaycan xalqını Türkiyə türklərindən ayıran müəlliflərdən Q.Qasımzadə hesab edirdi ki, hər bir fərdin, insanın mənəvi aləmi dövlətin, cəmiyyətin inikasıdır: "Deməli, iki millətin eyni sinfinə məxsus bəzi psixoloji əlamətlərin ümumiliyini əsas götürüb bunları fərqləndirən əsas cəhətləri, həmçinin eyni millətin zidd sinifləri nümayəndələrini birləşdirən mənəvi xüsusiyyətləri inkar etmək həqiqətdən uzaqlaşmaqdır" [132, 21]. Beləliklə, Qasımzadə də bir tərəfdən, Azərbaycan xalqını Türkiyə türklərindən ayrı bir müstəqil millət kimi qələmə verir və onun özünəməxsus etnik mənsubiyyətinin, milli özünəməxsusuluğunun, milli şüurunun olmasını iddia edir [132, 27], digər tərəfdən isə, bu milli keyfiyyətlərin – milliliyin sovet beynəlmiləlçiliyinə zidd olmadığını, onu tamamladığını bildirir [132, 28].

Sovet beynəlmiləlçiliyinin millilik üzərində qələbəsinə, yəni SSRİ-nin tərkibinə zorla daxil edilmiş ayrı-ayrı respublikaların xalqlarının milli mədəniyyətlərinin məhv olunması təhlükəsinə gəlincə, Qasımzadə hesab edirdi ki, bu burjua ideoloqlarının ortaya atdığı yanlış bir nəzəriyyədir. Onun fikrincə, rus mədəniyyətinin milli mədəniyyətləri, o cümlədən milli dilləri məhv etməsi ilə bağlı səsələnən müddəaların heç bir əsası yoxdur: "Hər bir millətin mədəniyyətinə onun tarixi inkişafının xüsusiyyətlərini, milli özünüdərkini, məişətini, xarakterini, coğrafi mühitini ifadə edən məxsusi milli əlamət və ənənələr daxildir. V.İ.Lenin qeyd etdiyi kimi, ümumən heç bir "beynəlmiləl mədəniyyət milliyyətsiz deyildir". Bunları nəzərə almadan milli mədəniyyətin istiqamətini, onun beynəlmiləl keyfiyyətlərini düzgün müəyyənləşdirmək olmaz [132, 33-34].

Bunu gözə alaraq sovet ideoloqları Azərbaycan xalqı arasında təbliğat aparırdılar ki, tarixən ayrı-ayrı ictimai-siyasi və ərazi şəraitində yaşayan kütlələri bir millətdən saymaq olmaz. Bu baxımdan guya, Türkiyə türkləri ilə onun sərhədindən kənardakı türklər (azərbaycanlılar, türkmənlər və b.) arasında nə milli siyasi, nə də dini-mədəni bağ qalmışdır. Belə ki, yüz illərdən bəri bambaşqa tarixi inkişaf nəticəsində Türkiyədən kənarda qalan türklər, Türkiyə türklüyündən qoparaq başqa ölkələrin, başqa quruluşların fərdləri olmuşlar. Ona görə də, Türkiyədən kənardakı Azərbaycan, Orta Asiya və başqa türklərlə əlaqə yaratmaq lazım gəlmir.

Şübhəsiz, bu cür Rus-Avropa-Qərb yönlü ideologiyaya qarşı mübarizə aparmaq dünən olduğu kimi bu gün də çətindir. Çünki bu antitürk, antislam ideologiya İslam-Türk dünyasında geniş yayılmış, bir çox ziyalıların şüuruna hakim kəsilmişdir. Hazırda Rus-Avropa-Qərb yönlü ideologiya postsovet məkanındakı Azərbaycan, Türküstan, Tatarıstan türklərinə bir, Türkiyə türklərinə başqa, Uyğur və İran türklərinə isə digər şəkildə təsir göstərməkdə davam edir. Bu mənada, türk aydınlarının başlıca məqsədi bu antitürk, antislam ideologiyadan qurtulmaq və milli-demokratik əsaslı məfkurəyə üz tutmaq olmalıdır.

Davamız, Azərbaycan davasıdır,
bu tarixi və milli bir davadır!
Məhəmməd Əmin Rəsulzadə

Ey Türk xalqı! Səni azad edəcək və
xoşbəxt yaşadacaq mübarizəyə bütün qüvvənlə
hazırlaş, səni bu mübarizə xilas edəcəkdir!
Mirzə Bala Məmmədzadə

III FƏSİL

Mühacirət dövründə (1920-1991-ci illər) milli-demokratik ideyalar: milli azərbaycançılıq, yeni turançılıq, qafqazçılıq, milli təsanüd

1.1. Milli azərbaycançılıq və yeni turançılıq

Azərbaycanın mühacirət irsinin məfkurəsində əsas mübarizə xətti bütün sahələrdə (mədəni, fəlsəfi, siyasi və s.) Azərbaycan Milli İdeyasını yaşatmaq və onu son məqsədə – Milli İstiqlala çatdırmaq istəyi olmuşdur. Bu mənada, mühacir aydınlarımızın (M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, H.Baykara, Ə.Cəfəroğlu, Ə.Yurdsevər, S.Təkinər və b.) yaradıcılıqlarında yer verdikləri mədəni, fəlsəfi, dini, tarixi və iqtisadi məsələlər Azərbaycan Milli İdeyası ilə uzlaşdırılmışdır. Yəni onlar müxtəlif sahələrin tədqiqatçıları olsalar da, bütövlükdə həmin yaradıcılıq sahələrini Azərbaycanın Milli İdeyası ilə əlaqələndirməyə çalışmışlar. Xüsusilə, Azərbaycanın Milli İstiqlalının zorla əlindən alınıb, onun yerini Sovet Rusiyası müstəmləkəçiliyi ilə əvəz olunmasını heç cürə qəbul edə bilməyən mühacir aydınlarımız müxtəlif aspektlərdən bu tarixi hadisənin mahiyyətini dünya ictimaiyyətinin diqqətinə çatdırmışlar. Onlar bir tərəfdən Azərbaycan türklərinin qədim mədə-

niyyətə, tarixə, ədəbiyyata malik bir millət kimi azad yaşamağa haqqı olduğunu isbat etməyə çalışmış, digər tərəfdən SSRİ kommunizminin saxta mahiyyətini ifşa etməyə çalışmışlar.

Eyni zamanda mühacir aydınlarımız Azərbaycan Milli İstiqlalını tarixi nümunələrlə yanaşı, Milli İdeologiyanın meydana çıxması və formalaşması açısından da idealizə etməyə çalışmışlar. Beləliklə, Türk-İslam-Şərq mədəniyyətinə əsaslanan Azərbaycan Milli İdeyası və onunla bağlı olan yeni turançılıq, qafqazçılıq, "rus kommunizmi"nin tənqidi və milli təsanüd mühacirət mütəfəkkirlərinin irsində başlıca yer tutmuşdur.

Azərbaycan Milli İdeyası və yeni turançılıq. M.Ə.Rəsulzadənin Azərbaycan Milli İdeyasının şüurlarda yaşadılmasına və yeni turançılıqla uzlaşdırılmasına həsr olunmuş "Azərbaycan Cümhuriyyəti" və "Əsrimizin Siyavuşu" Azərbaycan Cümhuriyyətinin milli ideologiyasının mahiyyətini əks etdirən, çox dəyərli tarixi-fəlsəfi əsərlərdir. O, "Azərbaycan Cümhuriyyəti" əsərində Azərbaycan Milli İdeyasının fəlsəfi-tarixi mahiyyətini açıqlamış, milli istiqlalın bir gün yenidən qazanılacağına inamını ifadə etmişdir. Ən əsası bu əsərdə "Azərbaycan məfkurəsi"nin yaranmasının, formalaşmasının və inkişafının mahiyyəti açıqlanmışdır [183]. Ümumiyyətlə, Rəsulzadə bütün həyatını Azərbaycan məfkurəsinə və davasına həsr etmişdir: "Davamız, Azərbaycan davasıdır, bu tarixi və milli bir davadır!" [186^{b}, 21[.

Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti"nə ön söz yazan Əli bəy Hüseynzadənin fikrincə də, bu kitab Azərbaycanı, Azərbaycan türklərinin məfkurəsini tanıtmaq baxımdan qiymətli bir əsərdir: "Çünki mövzusu, siyasi və iqtisadi vəziyyəti ilə beynəlxalq bir əhəmiyyət daşıyan Bakının, Azərbaycanın və dolayısıyla bütün türklüyün müqəddəs və müəzzəz istiqlalı, istiqbalı məsələlərinə təmas edir. Bir xalqın, bir millətin asudə və müsəmmər bir həyata, rifah və səadətə nail ola bilməsi ictimai sinfin beynində necə iqtisadi bir həmrəyliyin olmasını tələb edirsə, eləcə də aləmin, bütün bəşəriyyətin sülh və asayiş

nemətlərindən faydalana bilməsi beynəlmiləl münasibətdə ədalət və insaf məfhumlarının hakim və cari olmasilə mümkündür. Beynəlmiləl insaf və ədalətdən doğan ümumdünya sülhü isə Azərbaycanın eyni şəkildə hürriyyət və istiqlalını vacib edir" [183, 7-8]. Milli istiqlaliyyəti əlindən alınmış bir dövlətin təbii haqq və hüquqlarının pozulduğu halda, dünya dövlətlərinin buna göz yummasına isə təəssüf edən Ə.Hüseynzadə yazırdı ki, bu istiqlalın mücahidləri, rəhbərləri qüvvətli və səbrli olmalıdırlar [183, 7-8].

Burada bir məsələyə də toxunmağı zəruri hesab edirik ki, M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə və başqa milli ideoloqlardan fərqli olaraq Ə.Hüseynzadə, Ə.Ağaoğlu kimi tanınmış milli aydınlarımız 1920-1940-cı illərdə Türkiyədə yaşadıqları dövrdə Azərbaycan Milli İdeyasına çox az yer ayırmışlar. Doğrudur, **Əhməd bəy Ağaoğlu** Ə.Hüseynzadədən fərqli olaraq Malta sürgünündən sonra hətta, artıq zorla sovetləşmiş Azərbaycana dönərək milli məfkurə uğrunda mübarizəni davam etdirmək niyyətinə düşmüşdür. Sovet Azərbaycanının başçısı N.Nərimanova göndərdiyi ilk məktubunda Ağaoğlu yazırdı ki, Vətənə qayıtmaq və marksist-leninçilərlə bir yerdə sosializm uğrunda mübarizə aparmaq istəyir: "…yeganə qurtuluş hal-hazırda Rusiyada hökmfərma olan ideal sayəsində mümkündür. Mən bu hərəkat rəhbərlərinə, bəşəriyyətin xilaskarlarına istirahət, məhəbbət və səadət üçün imanı ilə doğru yol göstərən peyğəmbərlərə baxan kimi baxıram" [106, 78].

Ə.Ağaoğlunun yaşının və şüurunun kamil çağında marksizm-leninizm nəzəriyyəsinə bu cür yanaşması göstərir ki, ondan öncə M.Ə.Rəsulzadənin, N.Nərimanovun bu cərəyana inanması təsadüfi olmamışdır. Doğrudur, Rəsulzadə sonralar marksizm-leninzmin iç mahiyyətini dərk edərək, vaxtında bu ideologiyadan üz döndərsə də, N.Nərimanov yalnız ömrünün son illərində bu cərəyanın əsil mahiyyətini dərk etməyə başlamış, ancaq bütövlükdə ondan üz döndərməmişdir. Bu baxımdan

Ə.Ağaoğlunun Malta sürgünündən sonra, müəyyən hisslərə qapılaraq marksizm-leninizmə ideal kimi baxması təəccüblü deyil. Məhz bu hislərin təsiri altında Ağaoğlu daha sonra məktubunda yazırdı ki, bolşevizm Şərq üçün də yeganə qurtuluş yoludur: "Ələlxüsus, İslam Şərqi onu qəbul edəcəkdir və bütün Asiyanı, Afrikanı öz arxasınca dartaraq bütün Qərbi də onun qarşısında səcdə etməyə məcbur edəcək, zəhmətkeş sinfi əsarətə alan imperalistlərdən onu xilas edəcəkdir. Bu barədə Bakı fövqəladə tarixi bir rol oynaya bilər" [106, 79].

N.Nərimanovun onun bu istəyinə müsbət cavab verməsinə baxmayaraq, az sonra Ə.Ağaoğlu bu fikrindən daşınmışdır. O, N.Nərimanova yazdığı ikinci məktubunda Azərbaycana qayıtmamasına üç səbəb 1) bolşeviklərlə həmfikir olmamasını; 2) türklər üçün qurtuluş imkanının təkcə Osmanlı türklüyündə qalmasını; 3) onu əsarətdən qurtaran Ankaraya (Atatürkə) namus borcunun olmasını göstərmişdir [5, 22]. Bu səbəblər arasında türklüyə xidməti özünün ali vəzifəsi hesab edən Ə.Ağaoğlunun fikrincə, türklük bölünməyi qəbul etməyən tamdır. Ancaq fikrimizcə, burada əsas rolu heç də türklüyə, türkçülüyə xidmət istəyi oynamamışdır. Çünki türkçülüyə xidmət, özünün də dediyi hissələrə ayrılmayan bir tamdır; istər Azərbaycanda, istər Türkiyədə, istərsə də Türküstanda olsun. Deməli, Ağaoğlunun çox qısa bir zamanda fikrindən daşınmasında başqa amillər: 1) bolşevizmin əsas mahiyyəti haqqında bilgilərinin artması; 2) vətənində baş verənlər fonunda onu hansı aqibətlərin gözləməsi mühüm rol oynamışdır.

Fikrimizcə, Ağaoğlunun "rus kommunizmi"nə əvvəlcə rəğbət bəsləməsi, daha sonra ondan üz döndərməsinin kökü Malta sürgünündə (1919-1920) olarkən yazdığı "Üç mədəniyyət" əsərinə gedib çıxır. Hələ, azadlığa çıxmamışdan öncə, Ağaoğlu Rus-Avropa-Qərb mədəniyyətinin təsiri altıında olmuşdur. Bu əsərdən də görmək olur ki, bir çox hallarda Ağaoğlu iki əsas xətt 1) Rus-Qərb-Avropa-; 2) Türk-İslam-Şərq

arasında tərddüd etmişdir. Bəzən o Türk-İslam dünyasının cəhalətdən və gerilikdən qurtuluş yolu kimi birinciyə, bəzən də də ikinciyə üstünlük vermişdir. Məsələn, onun Nərimanova yazdığı məktub göstərir ki, Malta sürgünündə olarkən birinciyə üstünlük vermişdir. Çünki Ağaoğlu həmin əsərində yazırdı ki, son əsrlərdə Şərq, yəni İslam və Budda-Brəhmən mədəniyyəti yalnız maddi deyil, mənəvi baxımdan da Qərb mədəniyyətinə yenilərək, onun şəxsiyyət və özəlliklərini qəbul və iradəsinə tabe olmaq məcburiyyətində qalmışlar. Müsəlmanların və buddistlərin bütün sahələrdə avropalıları təqlidə başladıqlarını irəli sürən Ə.Ağaoğlunun fikrincə, bununla da müsəlman ölkələrində qədim ənənələrə dayanan mühafizəkarlarla Avropa mədəniyyəti tərəfdarları çarpışmağa, ölüm-dirim mücadiləsi aparmağa başlamışlar: "Avropa mədəniyyətindən qorunmaq istəyən bütün cəmiyyətlərin və özəlliklə İslam mədəniyyətinə mənsub olanların hər gün tükənib getməkdə olduqlarını görürük… Sel kimi axıb gələn və qarşısında öz türündən əngəllər görməyən Avropa mədəniyyəti hər şeyi sürükləyib götürür. Bu halda tək çarə yenə o mədəniyyətə isinişmək, onu qəbul etməkdir" [8, 30].

Ağaoğlu qeyd edirdi ki, Avropa mədəniyyətini qəbul edənlər arasında da fikir ayrılığı vardır. Bəziləri mədəniyyəti elm və fənnə bağlayaraq, Avropa mədəniyyətinin süzgəcdən keçirilməsini və onun yalnız bu tərəfinin qəbul edilməsini irəli sürdükləri halda, başqaları Qərb mədəniyyətinin tam şəkildə mənimsənilməsinin tərəfdarıdırlar. Sonuncuların fikri ilə həmrəy olan Ağaoğlu yazırdı ki, bir mədəniyyət zümrəsi bölünməz bir bütündür, parçalanmaz, süzgəcdən keçirilə bilməz: "Qalibiyyət və üstünlüyü qazanan onun bütünüdür. Yoxsa ayrı-ayrı filan və yaxud filan qismi deyildir. Avropa sahəsində elm və fənn başqa çevrələrdən ziyadə gəlişirsə, bunun səbəbləri o çevrənin bütünündə aranmalıdır, bugünkü Avropa elm və fənni doğrudan-doğruya öz şərtlərinin və ümumi ünsürlərinin bir əsəridir" [8,

31]. Bu baxımdan Ağaoğluya görə, Qərb mədəniyyətini tam qəbul etməli, yalnız geyimlərimizi, evlərimizi, müəssisələrimizi deyil, beynimizi, görüş tərzimizi, qəlbimizi, zehniyyətimizi də ona uyğunlaşdırmalıyıq və bundan kənarda qurtuluş yoxdur [8, 32].

Bütün bunlarla yanaşı Ağaoğlu hesab edirdi ki, türk-müsəlman xalqlarının Qərb mədəniyyətini mənimsəməsi, heç də onların milli şəxsiyyətini və özünəməxsusluğunu itirməsi demək deyildir. Çünki, yalnız əsasən dil və başqa özünəməxsusluqları (menitalitet) nəzərə almasaq, hər bir millətdə dəyişməyən, ölümsüz bir özəllik yoxdur. Belə ki, tarix boyu hər bir millətin həyatında bir neçə dəfə din, hüquq, əxlaq sahələrində dəyişikliklər olmuşdur [8, 33]. Bir sözlə, Ağaoğlunun fikrincə, hər bir millət özünəməxsus xüsusiyyətləri saxlamaqla yanaşı, həmişə dəyişməyə, inkişafa meyillidir. Bu baxımdan mədəniyyət sahəsində məğlub durumda qalan və Qərb mədəniyyətini mənimsəmək məcburiyyətində olan müsəlman-türk xalqları da, bu addımı atmaqla milli şəxsiyyətlərini itirməyəcəklər.

Fikrimizcə, məhz bu düşüncənin təsiri altında da Ağaoğlu əvvəlcə Sovet Azərbaycanına gəlmək istəmiş, ancaq son anda fikrini dəyişərək Atatürkün Türkiyəsi uğrunda çalışmaq qərarı vermişdir. Həmin dövrdə Atatürkün Türkiyəsi də Qərb mədəniyyətinə yönəlik yol tutmuşdu ki, Ağaoğlu üçün bu da, əsasən məqbul idi. Çünki bütövlükdə Ağaoğlu Türkiyənin Qərb mədəniyyətinə meyilli olmasına baxmayaraq razılaşmadığı məqamlar da vardı. Bu da ondan irəli gəlirdi ki, Ağaoğlu Qərb mədəniyyətini və demokratiyasını tam olaraq Türkiyədə tətbiqinin tərəfdarı idi. Onu "Sərbəst insanlar ölkəsində" utopik, siyasi-fəlsəfi əsər yazmağa məcbur edən də din, əxlaq, cəmiyyət, dövlət və demokratiya sahələrində Qərb ölkələrinin əldə etdiyi nailiyyətlərin xeyli qismənin Türkiyədə gerçəkləşməməsi idi [5, 186]. Şübhəsiz, Ağaoğlu Qərb mədəniyyətini və

demokratiyasını həddən artıq ideallaşdırmaqla yanlışlığa yol verirdi. Bu baxımdan Atatürk onun Qərb mədəniyyətinə meyilliyin qəbul etsə də, ifratçı liberalist baxışları ilə bəzi hallarda razılaşmırdı. Halbuki Atatürkün özü də kifayət qədər inqilabi dəyişiklikləri ilə tarixə düşmüşdür. Bu mənada, Ə.Ağaoğlu Türkiyədə yaşadığı dövrdə M.Ə.Rəsulzadənin təbrincə desək, türk milliyyətçiliyinin, kamalizmin (atatürkçülüyün) və Türkiyədəki liberalizmin öndərlərindən biri olmuşdur [245, 177].

Əlbəttə, bütün bunlar Azərbaycan türklərinin Ə.Hüseynzadəyə, Ə.Ağaoğluna olan sevgilərini zərrə qədər azalmasına əsas vermir. Ancaq o da bir həqiqətdir ki, Azərbaycan Milli İdeyasının əsas daşıyıcısı M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə kimi milli ideoloqlar olmuşdur.

Bu mənada, M.Ə.Rəsulzadənin "Əsrimizin Siyavuşu" əsəri milli-ideoloji bir konsepsiyadır. Fars şairi Firdovsinin "Şahnamə" əsərini bir daha oxuyan və paralel müqayisə apararaq Firdovsinin qəhrəmanlarından biri olan Siyavuşun həyatını Azərbaycan Cümhuriyyətinə oxşadan Rəsulzadənin gəldiyi nəticəyə görə, İranla Turan arasında qalan Siyavuşla, Rusiya və İran arasında bölüşdürülə bilməyən Azərbaycan eyni taleyi yaşayır. Ancaq Firdovsinin Siyavuşundan fərqli olaraq Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti" adlı idealının bir gün azadlığa qovuşacağı əsərdə nikbinliklə qeyd edilir.

XX yüzilliyin böyük Azərbaycan türk ideoloqu "Əsrimizin Siyavuşu"nda yazırdı ki, bir çox zaman azərbaycanlılar öz türklüklərini və türk soyundan gəldiklərini bilməyərək xalis iranlı kimi özlərini hiss edib, iranlı kimi düşünüb, iranlı kimi yaşayıblar. Rəsulzadənin fikrinə görə, XIX əsrin əvvəllərində Quzey Azərbaycanın çar Rusiyasının idarəsinə keçməsinin xeyri bu oldu ki, "azərbaycanlılar özlərini ictimai bir vücud, xüsusi mədəniyyət toxumlarını daşıyan bir cəmiyyət, yəni ruslardan ayrı bir millət olduqlarını hiss etməyə başladılar" [188, 34]. Azərbaycan xalqının bir millət kimi formalaşmasında

əsas rolun türklərə məxsus olmasına qətiyyən şübhə etmyən Rəsulzadənin fikrincə, onların öndərliyi ilə "Turanın mərkəzində Azərbaycan" adlı bir ölkə yaranmışdır ki, "yeni Turanın açarı" ondadır. Yeni Azərbaycan Türk ocağı, əski Türk yurdudur [188, 35].

Azərbaycan milli ideyasını elmi dəlillərlə əsaslandırmağa çalışan M.Ə.Rəsulzadə onu da qeyd edirdi ki, azərbaycanlılar milliyyət etibarilə müxtəlif adlar daşıyan böyük türk ağacının bir qoludur. Bu mənada ümumi türkçülüyün bir qolu da Azərbaycan türkçülüyü-azərbaycançılıqdır.

Beləliklə, M.Ə.Rəsulzadə bir tərəfdən, Azərbaycan milli ideyasını müdafiə edir, digər tərəfdən, azərbaycançılığı ümumi türkçülüyün, turançılığın ayrılmaz bir hissəsi olduğunu göstərirdi. Hələ, Azərbaycan Cümhuriyyəti qurulmamışdan öncə (1917-ci il), Rusiya tərkibindəki türk-tatar millətlərinin, o cümlədən Azərbaycan türklərinin ayrı-ayrılıqda milli-ərazi muxtariyyətini tələb etməklə yanaşı, Rəsulzadə gələcək muxtar türk dövlətlərinin nümayəndələrindən ibarət Milli Şuranın formalaşdırılmasını təklif etmişdi [51, 61]. Mühacirət dövründə bu ideyanı inkişaf etdirən Rəsulzadə xatırladırdı ki, Azərbaycan Cümhuriyyəti dövründə (1918-1920) də "Müsavat" partiyasının 1919-cu ildə Bakıda keçirilən 2-ci qurultayında qəbul etdiyi proqramının girişində "bugünkü durumu ilə dağınıq olan geniş türk dünyasının bir gün gəlib də əlbir və dost bir türk aləmi oluşduracağına inanırıq və bu imanla getdiyimiz əməl yolunun çatacağı son yeri belə bir bağlılığın gerçəkləşməsində görürük" deyilmişdir [189, 74].

Bu baxımdan Rəsulzadə hesab edirdi ki, müstəqil türk dövlətlərinin yaranması turançılıq, türkçülük məfkurəsinə kölgə salmamış, bir sözlə Türk-Turan birliyini parçalamamışdır: "Turançılıq, türkçülük ədəbi məsləki Türkiyə ilə Azərbaycanı bir-birinə bağlayan ən davamlı bir bağ, mətanətli bir ip idi. Turançılıq məfkurəsi doğulunca millət beynəlmiləl

islamiyyətçilik və federasiyon formullarını çıxarmış, sosiologiyada da "Türkləşmək, İslamlaşmaq və Müasirləşmək" kimi üçayaqlı bir şüar ortaya atmışdı. İstanbul yurdçuları bu şüarları nəzəri şəkildə yaymaqda ikən, Azərbaycan turançıları bunu siyasi bir fəlsəfə kimi qəbul edərək qurduqları milli siyasi partiyanın prinsipi elan etdilər" [188, 35-36].

Yeni turançılıq ideyasına görə, bütün müsəlmanları "İslam birliyi" altında birləşdirmək mümkün deyilsə, ancaq bütün türklər öz aralarında böyük dünya federasiyasına nümunə olmaq üzrə bir federasiya yarada bilərlər: "Yeni Turan, mədəni birlik üzərində təsis edilib ancaq gələcək birər Türk hökumətlərinin federasyonu şəklində təsəvvür oluna bilər. Azərbaycan da bu gələcək Turan silsiləsinin mühüm bir halqasıdır" [188, 36]. Deməli, M.Ə.Rəsulzadə 27 aprel işğalından az sonra Azərbaycan milli ideyasının yaşaması üçün, mədəni ruhlu "Yeni Turançılıq" ideyasını müdafiə etmişdi. "Yeni Turançılıq" ideyası isə Rusiya əsarətində yaşayan bütün türklərin, o cümlədən Azərbaycan türklərinin əsas hədəflərindən biri olmalı, Z.Gökalpın təbrincə, Rusiyanın dağılıb viran, Türkiyənin böyüyüb Turan olmasına yönəlməli idi [188, 37]. Ziya Gökalpın və M.Ə.Rəsulzadənin bu fikirləri, yəni Turanın Türk hökumətlərinin federasiyası şəklində gerçəkləşə bilməsi, o dövr üçün bir qədər romantik xarakter daşısa da, hazırda digər müstəqil türk dövlətləri (Qazaxıstan, Qırğızıstan, Özbəkistan və b.) ilə birlikdə belə bir federasiyanın yarana biləcəyi baxımından inandırıcı olan tərəfləri də az deyildir.

Şübhəsiz, indi olduğu kimi, həmin dönəmdə də türkçü-turançı mütəfəkkirlərin bu mülahizələri rus, erməni və başqa millətlərin ideoloqları tərəfindən birmənalı qarşılana bilməzdi. Bu baxımdan 1920-1930-cu illərdə bəzi əcənəbi müəlliflər, o cümlədən Hondkaryan, A.Kerenski, Zarevand, Mandelştam və başqaları panturanizm, panturkizm təhlükəsindən bəhs edən əsərlər ("Türkiyənin qulluğunda", "Rus milləti üzərində

diktatur", "Türkiyə. Panturanizm") yazırdılar. Onların fikrincə, SSRİ-ni dağıtmaq istəyən panturançılar Turan imperiyası yaratmaq niyyəti güdürdülər. Tədqiqatçı Rafail Əhmədli bu məsələ ilə bağlı doğru qeyd edir ki, "əzilməyə məhkum edilmiş türk xalqlarını əsarətdən xilas etmək məqsədi ilə ortaya çıxan türkçülük ideologiyası türk düşmənləri tərəifndən "pantürkizm" və "panturanizm" kimi qələmə verilmiş, türklərin yenidən tarix səhnəsində söz sahibi olmasının qarşısı alınmağa çalışılmışdı" [77, 195].

M.Ə.Rəsulzadə isə həmin dövrdə bir sıra məqalələrində, o cümlədən "pantürkizm", "panturanizm"lə bağlı ən məşhur əsəri "Panturanizm. Qafqaz problemi"ndə (1930) antitürkçülərə cavab olaraq yazırdı ki, bu məsələdən bəhs edənlər türkçülüyün, turançılığın tarixini, o cümlədən bu ideyaların müəlliflərinin fikirlərini təhrif edirlər. Belə ki, "pantürkizm", "panturanizm" panslavyanizm kimi ideologiyalardan fərqli olaraq xalqın içindən yaranan bir məfkurə olmuşdur. O yazırdı: "Pantürkizm məsələsinə gəlincə, fürsətdən istifadə edən yanıltmaçıların aldatmaq istədikləri zümrəyə birdəfəlik anladaq ki, slavyan millətlərində olduğu kimi, türk irqinə mənsub millətlərdə dəxi, bir birlik məfkurəsi doğmuş və bu doğuş müəyyən bir zaman romantik bir dövr yaşayaraq, o vaxta qədər, İslam dini düşünüş alışqanlığında olan siyasi türk-tatar fikri üzərində daha əsri və tərəqqi sevərcəsinə bir təsir yapmışdır. Fəqət panslavyanizmdən daha az real şərait və imkana malik olan panturanizm panslavyanizmin çatdığı nəticəyə nisbətən daha az bir zamanda gəlmiş və bu gün ən qatı panturanistlər belə sadə bir kültür birliyini mümkün mərtəbə mühafizəyə qeyrət etməklə kifayət-lənmişlər" [181, 50-51].

Bununla da, Rəsulzadə demək istəmişdir ki, birincisi turançılıq millətin özünün yaratdığı ideyadır, ikincisi isə bu ideya ilk dövrlərdə romantik xarakter daşısa da, artıq öz yerini gerçəkçi, müasir məsələlərə tərk etmişdir. Çağdaş dövrdə yeni

türkçülük və yaxud da yeni turançılıq ideologiyası ondan ibarətdir ki, vahid türk milləti deyil, vahid türk irqi vardır. Türk irqinə aid hər bir millətin də ayrı-ayrı müstəqil türk dövlətləri yaratması məntiqə uyğundur. Bu baxımdan "panrusizm" vahid "slavyan" dövlətinin yaranmasına çalışdığı halda, yeni turançılıq ideologiyası ayrı-ayrı türk dövlətlərinin yaranmasını müdafiə edir. Bunu nəzərə alaraq Rəsulzadə yazır: "Varlığı ilə Sovet İttifaqında türk ellərinin ulusal, doğal axınlarını yaxşı yöndə etkiləyən çağdaş, gerçəkçi "türkizm", sözsüz "panrusizmin" yağısıdır" [179, 27].

Bu mənada 1930-cu illərin əvvəllərində M.Ə.Rəsulzadə hətta, vaxtilə irəli sürdüyü Türk hökumətlərinin federativ Turan birliyi ideyasının özünə belə ehtiyatla yanaşmışdır. Onun fikrincə, XX əsrin əvvəllərindəki siyasi türkçülərdən fərqli olaraq, çağdaş türkçülər vahid Turan dövləti ideyası ilə yaşamırlar. Ona görə də yeni türkçülər Türkiyənin-Osmanlının timsalında türklərin böyük imperatorluğunu yaratmaq deyil, hər bir türk millətinin ayrıca istiqlalı uğrunda mücadilə edirlər. Bu baxımdan slavyan birliyi fikri Çexoslovakiya dövlətinin təşəkkülünə mane olmadığı kimi, türk-turan birliyi fikri də Azərbaycanın müstəqil bir türk dövləti kimi Qafqaz Konfederasiyasına girməsinə əngəl ola bilməz. M.Ə.Rəsulzadə yazır: "Eyni irqə yaxınlıq nəticəsində bir-birinə yaxın mədəniyyət məhsullarına malik olan türk ellərindəki müştərək qiymətləri mühafizə etməklə bərabər, ayrı-ayrı türk millətlərinin ayrıca bir dövlət və cümhuriyyət halında istiqlal qazanmaq yolundakı hərəkatlarını şübhə altına alanlar ancaq rus imperalizminin könüllüləri və yaxud kölələri ola bilirlər! Azərbaycan istiqlalçılığının türk birliyi fikrindən əzəmi surətdə mülhəm olduğunu inkar etməməklə bərabər, siyasətdə realizm tərəfdarı olan Azərbaycan milliyyətçiləri üçün bu fikrin sadə mədəniyyət sahəsində qəbulu tətbiq olacağı aşkardır" [181, 52]. O, açıq şəkildə qeyd edirdi ki, panturanizm ideyası adı altında

Azərbaycanın Türkiyə ilə birləşmək niyyəti yoxdur. Çünki mədəniyyət birliyi sahəsinə çəkilən siyasi panturanistlər artıq mövqeyini türk millətləri reallığına tərk etmişdir [181, 53].

Rəsulzadə yazırdı ki, artıq yeni türkçülüklə, yeni turançılıqla "pantürkizm", "panturanizm"in eyni anlamı daşımadığı ortada olduğu halda, özəlliklə, Zarevandın "Türkiyə. Panturanizm" əsərində irəli sürdüyü antitürkçü, antiturançı müddəaları qəbul etmək mümkün deyildir. Belə ki, Zarevand və onun kitabına ön söz yazan Mandelştam bilərəkdən türkçülüyün tarixini və mahiyyətini saxtalaşdırmış, ona tamam başqa siyasi rəng verməyə çalışmışlar. Məsələn, Zarevand ən çox türkçülüyün ideoloqları Z.Gökalp, Y.Akçuraoğlu, eləcə də Atatürkü tənqid hədəfi götürmüş və onları panutrançılıqda, pantürkizmdə ittiham etmişdir. Zarevanda görə guya, "panturanizm" ideyasını türkçülüyün ideoloqları Z.Gökalp, "panturançıların Marksı" Y.Akçuraoğlu irəli sürmüşdür ki, çağımızın "panturanizm"ini isə Mustafa Kamal (Atatürk) həyata keçirir, çünki kamalçıların da əsas bayrağı pantürkizm, panturanizmdir.

Rəsulzadə öncə antitürkçü ideoloqların diqqətinə çatdırırdı ki, Z.Gökalp turançılıq məfkurəsindən bəhs etsə də, bunu Leninin kommunizmi kimi utopiya [88, 38] adlandırmışdır. Deməli, Gökalpın turançılıq məfkurəsi daha çox romantik və mədəni mahiyyətli olmuşdur. Bu mənada Gökalpın ideyalarına söykənən Atatürkün "panturanizm"i də ondan çox fərqlənmir. Belə ki, Atatürk bu dövrdəki (1920-1930-cu illər) çıxışlarında panislamizm və panturanizm ideyalarının indiyə qədər heç bir uğur əldə etməməsindən bəhs etmişdir. Atatürkün fikrincə, tək gerçək siyasət milli-ulusal siyasətdir ki, bu mənada "dünyanın bütün türklərini içinə alacaq bir dövlət yaratmaq amacı da gerçəkləşməz düşüncədir" [179, 40].

Atatürkün "panturanizm"ə bu cür mövqeyinin nəticəsi idi ki, həmin dövrdə bəzi türk ideoloqlar (X.Müşkrim və b.) ilk türkçülərdən və turançılardan fərqli olaraq, milləti ancaq soy, dil

göstəricilərilə bəlirləməyib, ona ayrı-ayrı tarixi, sosial, mədəni təsirlərinin qarşılıqlı məhsulu kimi baxırdılar. Onlar təklif edirdilər ki, "türk millətçiliyi"ndən "türk ulusalçılığı"na, yəni "türk beynəlmiləlçiliyi"nə" keçilsin: "Bu ulusal sistemin yolçuları başda tanımış tarixçi Xəlil bəy Müşkrim olmaqla, türk anlayışının ulus yox, irq göstərdiyini deyən "anadoluçular" adlı məktəb də yaratmışdılar. "Anadoluçular" tək bir türk ulusunun yox, ayrı-ayrı türk uluslarının olduğunu deyirlər. Onlar bu düşüncələrini gəlişdirərək Türkiyəni Anadolu adlandırmağı da irəli sürdülər. Onlara görə, "anadolu" sözü ulusal kimliyinə "türk" sözündən daha uyğundur" [179, 19].

Bizcə, türk aydınlarının və liderlərinin turançılığa münasibətdə ehtiyatlı mövqe tutmasına əsas səbəblərdən biri həmin dövrdə türk ismiylə tanınan millətlərin, o cümlədən Türkiyə türklərinin dünya müstəvisində istənilən gücə sahib olmamaları idi. Belə ki, türklərin sahib olduğu ən böyük imperiya – Osmanlı İmperiyası dağılmış, digər türk dövlətləri isə Sovet Rusiyası tərəfindən işğal olunmuşdur. Belə bir vəziyyətdə Z.Gökalpın, M.Ə.Rəsulzadənin, Atatürkün və başqa türk böyüklərinin turançılığı daha çox mənəvi bir ülkü-məfkurə kimi qəbul etmələri təbii idi. Bu, onların turançılıqdan imtina etmələri deyil, Atatürkün də qeyd etdiyi kimi, zamanın tələblərinə və türk millətinin gücünə görə siyasət yürütmək idi. Bu baxımdan çağdaş Türkiyə alimi A.Gökdəmirin aşağıdakı fikirlərinə tamamilə qatılırıq ki, Z.Gökalp, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Y.Akçuraoğlu kimi türk milliyətçiliyinə, turançılığa öncüllük və xidmət verən aydınların Türkiyənin sərhədlərinin xaricində qalan türk elləri ilə bağlı heç bir tələbdə bulunmamaları ağlabatan deyildir: "Burada əsəf ediləcək şey, aydınların turançı olması deyil, Türkiyənin də, Türk dünyasının da yetəri qədər güclü olmaması və qalib gələməməsidir" [249, 245].

Bu baxımdan 1920-1930-cu illərdə Rəsulzadənin turançılığa yeni bir açıdan baxması, bu mənada Şərqdəki milli

axınlardan olan panturanizmlə Qərbdəki şovinist cərəyanları bir-birindən fərqləndirməsi başa düşüləndir. Çünki Rəsulzadənin fikrincə, Qərbdəki şovinizm-nasionalizm siyasi saldırıcı, sosial tutucu ideologiya olduğu halda, Şərqdəki millətçilik isə siyasi qoruyucu, sosial yenilikçi olaydır [179, 42]. Başqa sözlə, ilk dövrlərdə romantik vahid Turan birliyinə qapılan türkçülər, artıq türk irqindən ayrı-ayrı millətlərin və onların da öz müstəqil dövlətlərinin yaranmasına inanırlar. Rəsulzadə yazır: "Daha romantik, siyasi panturanizm yoxdur, ancaq ulus istəklərini güdən türkçülük vardır… Türk ellərinin özünüanlaması, irq ideologiyasından ulus ideologiyasına keçir, bu da saldırıcılığı ideoloji-qurama baxımından da aradan qaldırır" [179, 62].

M.B.Məmmədzadə isə "Milli Azərbaycan hərəkatı" (1938) əsərində Azərbaycan türkçülüyü ideyasının yaranması və təkamülü ilə yanaşı, mühacirət dövründə türkçülük və turançılığın türk xalqları üçün hansı: siyasi, yoxsa mədəni birlik mənası daşıması ilə bağlı mövcud olan fikirləri dəyərləndirməyə və bu məsələdə tutduğu mövqeyi ifadə etməyə çalışmışdı. O yazırdı ki, hələ çar Rusiyasının dağılması ərəfəsində türkçülər və turançılar vahid türk dövlətinin qurulması istəyində bulunsalar da, bunun imkansız olduğunu anlamışdılar: "Rusiyanın xarabalıqları üzərində vahid deyil, ayrı-ayrı türk dövlətləri qurulur və yaxud qurulmaq istənir. Dünya türklərinin geopolitik vəziyyəti, coğrafi vəziyyət etibarilə dağınıq və bir-birilərindən uzaq olmaları, onları ayrı-ayrı dövlətlər qurmağa sövq etmişdi. Doğrudur, "Müsavat" firqəsi bu vəziyyəti nəzərə almış və bu milli dövlət prinsipini dilə gətirərkən bir gün bu dövlətlərin federasiya yaradacaqlarını təsəvvür etmişdi. Fəqət o "bir gün" uzaq, bu gün isə yaxın idi. Türk dünyasının geopolitik vəziyyəti, mədəniyyət və kültür xüsusunda eyni məfkurə, qayə və taktikaya sahib müxtəlif türk ellərini siyasi-dövlətçilik sahəsində məhəlli yurdçuluq-vətənçilik yoluna sövq etmişdi" [154, 201-202]. Onun fikrincə, bir bütün halda başlayan türk milli

hərəkatının ayrı-ayrı yurdçuluq və milli dövlətçilik halına gəlməsində siyasi, coğrafi, iqtisadi və strateji səbəblər mühüm rol oynamışdı.

Məhz bunun nəticəsidir ki, Türkiyədə milli hərəkata başlayanlar yalnız Anadolu türklərini düşünmüş, onların proqramında Türkiyə xaricindəki türklərdən bəhs olunmamış, hətta Türkiyə Misaqi-Millini gerçəkləşdirmək üçün Qərbi Avropa imperialistləri ilə döyüşdə Türküstan, Krım, İdil-Ural və Azərbaycan türklərinin mübarizə apardıqları Rusiya ilə müttəfiq olmaq məcburiyyətində qalmışdı. Türkiyə Cümhuriyyəti qurulduqdan sonra da bu proses davam etmiş və türk birliyi uğrunda mübarizə aparan "Türk ocağı" əvvəlcə fəaliyyətini Türkiyə ilə məhdudlaşdırmış, daha sonra isə bir müddət qapanmışdır: "Artıq Türkiyədə bir Türkiyə türkçülüyü doğmuşdu və bu halın cığırından sapmış bir xətası olmaq üzrə "Anadolu millətçiliyi" epizodu da müşahidə edilmişdi. "Anadolu" məcmuəsi ətrafında toplanan bir qrup ziyalılardan ibarət zümrənin irəli sürdyü iddiaya görə türklük bir millət deyil, bir irqdir və bu irqə Anadolu, Azərbaycan, Türküstan və i.a. kimi millətlər daxildir" [154, 206]. Doğrudan da, bu dövrdə türkçülüyün ideoloqu sayılan Z.Gökalp belə türkçülüyün və turançılığın real siyasi-ideoloji hədəfi kimi türkiyəçiliyi götürmüşdü. Onun fikrincə, uzaq gələcəkdə oğuzçuluq və daha sonra turançılıq mümkündür ki, bu isə daha çox siyasi deyil, mədəni birlik mahiyyətli idi [88, 38]. Gökalpın bu fikirlərini əsas tutaraq M.B.Məmmədzadə qeyd edirdi ki, bu mənada artıq türkçülük-türk birliyi kimi romantik turançılıq da əski mənasını tamamilə dəyişdirmişdi.

O yazırdı ki, türkçülük və turançılıq məsələsində "Müsavat"ın 1936-cı ildə qəbul etdiyi "Yeni proqram əsasları"na görə, ümumi türkçülüklə Azərbaycan türkçülüyünü ideal bir surətdə birləşdirməyə nail olmaqdan ibarətdir. Yəni müsavatçılar da türk mədəni birliyinə sadiq və bağlı qalmaqla yanaşı, müstəqil Azərbaycan türkçülüyü ideyasını müdafiə

edirlər: "Müsavatçılıq böyük türk kültürünə bağlı, milli, mədəni və insani dəyərləri mənimsəyən, hürriyyət, cümhuriyyət və istiqlal idealına sadiq Azərbaycan vətənsevərliyidir. Böyük türklüyə mənsub bir məmləkət olması səbəbilə Azərbaycan digər türk elləri ilə kültürəl surətdə bağlıdır. Bu bağlılığın bundan əvvəl olduğu kimi, bundan sonra da qorunmasını müsavatçılıq ciddiyyətlə müdafiə edər" [154, 209].

Bununla da, Azərbaycan Milli İdeyasını müdafiə edən Məmmədzadə və başqa müsavatçılar hesab etmişdilər ki, azərbaycançılığın tarixi bir missiyası vardır. Həmin missiya "Müsavat"ın "Yeni proqram əsasları"ında öz əksini belə tapmışdı: "Azərbaycan qədim zamanlardan bəri tarixin müxtəlif dövrlərində özünəməxsus siyasi varlıq göstərərək müstəqil dövlət halında yaşamışdır. Azərbaycan xalqı isə müasir millət olmaq üzrə zəngin bir kültür həyatına malik bulunmuş və bunun məntiqi nəticəsi olaraq siyasi bir ideal daşımışdır. Bu ideala tərcüman olan milli Azərbaycan "Müsavat" xalq firqəsi 1918-ci ildə milli Azərbaycan Cümhuriyyəti istiqlalının elanındakı təşəbbüsü, bu təşəbbüsün fikirdən işə keçirilməsi yolundakı fəaliyyəti və nəhayət, qızıl rus istilasına qarşı milli mücadilə işində göstərdiyi yol göstərənliyi ilə bütün azərbaycanlıların biricik siyasi təşəkkülüdür" [154, 209].

Mirzə Balanın fikrincə, istiqlal və milli dövlət ən yüksək, ən qüdsi və ən insani bir məfkurəni milli sərhədlər daxilində gerçəkləşdirmək üçün bir vasitədir: "Zatən siyasi türkçülük, milli dövlət qurmaq hərəkatı milli varlığı qorumaq əndişəsindən və mədəni millətçiliyi gerçəkləşdirə bilmək arzusundan doğmamışdırmı? Müstəqil və azad bir milli dövlət həyatı türk mədəni birliyini tətbiq etməkdən və gerçəkləşdirə bilməkdən əlavə millətin fərdlərini səadətə və rifaha qovuşdurmaq, ictimai bir ədalət və bərabərlik qura bilmək üçün də lazımdır" [154, 211]. Beləliklə, o, belə bir doğru nəticəyə gəlir ki, "Müsavat" partiyasının liderliyi ilə Azərbaycan xalqı ümmətçilikdən-

islamçılıqdan türkçülüyə, ümumi türkçülükdən Azərbaycan türkçülüyünə-Azərbaycan milli dövlətçiliyinə doğru böyük bir yol keçmişdir: "Əgər o ("Müsavat" – F.Ə.), "islamçılıq" dövründən "ümumi türkçülüyə", oradan da türk kültür birliyinə əsaslanan "Azərbaycan milli dövlətçiliyinə" keçməmiş olsaydı, yerini başqa ifrat və qeyri-milli firqələrə verəcəkdi" [154, 234].

1.2. Milli azərbaycançılıq və Qafqazçılıq ideyası

Mühacirət dövründə ən geniq yayılmış ideyalardan biri də Qafqazçılıq olmuşdur. Qafqazçılığın əsas ideoloqlarından biri M.Ə.Rəsulzadə idi. Onun fikrincə, bir müddət panturanizmin inqilabçı ideyalarından ilhamlanaraq milli varlığını qorumaq ideyasına çatan Azərbaycan xalqı artıq hazırda müstəqil Qafqaz Konfederasiyası siyasi birliyindən qıraqda qurtuluş olmadığını anlamışdı [179, 63]. Bununla da, Rəsulzadə özəkçi Turan birliyi ideyasına qarşı olmaqla yanaşı, hətta gələcəkdə gerçəkləşməsini mümkün saydığı Türk dövlətlərinin Türk Federasiyası ideyasının belə, obyektiv səbəblərdən həmin dövr üçün məqbul olmadığını anlayaraq, ən ideal variant kimi Qafqaz Konfederasiyasını müdafiə etmişdir. Rəsulzadə yazırdı: "Biz müstəqil Qafqasiya Konfedarasiyası fikrini zamanın ən aktual bir tezisi olaraq müdafiə edirik" [181, 52].

Bu isə o demək idi ki, Rəsulzadə Azərbaycan milli ideyası ilə Qafqaz Birliyi ideyası arasında uzlaşmanın olması ilə bağlı da ciddi siyasi-nəzəri müəddəalar irəli sürmüşdür. Hələ, Azərbaycan Cümhuriyyəti dövründə Qafqaz Konfederasiyası ideyasını irəli sürən Rəsulzadə yazırdı: "Mən Azərbaycanı Qafqaz İttifaq dövlətinin konfederativ tərkib hissəsi kimi təsəvvür edirəm. Həmin ittifaq dövlətinin tərkibinə Azərbaycan, Gürcüstan, Ermənistan və Şimali Qafqaz daxil olmalıdır" [51, 186]. Bu ideyanı 1919-cu ilin noybarında "Müsavat"ın 2-ci qurultayında da müdafiə edən Rəsulzadənin təşəbbüsü ilə

toplantı iştirakçıları Qafqaz respublikalarının Qafqaz Konfederasiyası azad ittifaqında birləşməsi ilə bağlı qətnamə də qəbul etmişdi [51, 186].

Bu dövrdə Rəsulzadə ilə yanaşı Ə.Ağaoğlu və Ə.M.Topçubaşov da Qafqaz birliyi ideyasını müdafiə etmişlər. Topçubaşov 1918-ci ildə qələmə aldığı "Azərbaycan Cümhuriyyətinin yaradılması" əsərində yazırdı ki, Güney Qafqazın üç ulusu (türklər, gürcülər və ermənilər) İsveçrə Respublikasında olduğu kimi konfederasiya əsasına dayanan ortaq bir siyasi yaşama iqlim, təbiət özü yönəldir: "Konfederasiya quruluşu düşüncəsi Güney Qafqazda olduqca geniş yayılmışdır. Bu düşüncə bu il (1918) aprelin 9-da bütün Güney Qafqazın bağımsızlığının bildirilməsi, ölkədə bir yönətim yaratmış Ağalığın yaradılması ilə sözdən işə keçdi. Bu baxış indi də yaşamaqda olub, istəyənləri arasında ermənilərin, gürcülərin, azərbaycanlıların orta-liberalları, ulusalçı partiyaları ilə yanaşı Güney Qafqazın bütün ellərinin birləşmək istəyən sosial-demokrat partiyaları da bulunmaqdadır" [214[a], 54-55]. O yazırdı ki, Azərbaycan mütəfəkkirləri və dövlət adamları (Ə.Ağaoğlu, Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə və b.) Qafqaz Birliyi ideyasını 1918-1920-ci illərdə irəli sürüb müdafiə etdikləri kimi, bu gun də onun arxasında dayanırlar: "1918-ci ildə bu məsələ nə qədər aktual idisə, bu gün də o qədər önəmli və aktualdır. Otuz iki ildən bəri davam edən müştərək fəlakət otuz dörd il əvvəl duyulan bu zərurətin ikna qüvvətini şübhəsiz daha ziyadə artırmışdır. Mühacirətdəki konfderasiyonçuluq hərəkatı da ancaq bu iddiayı isbat edər" [245, 178]. Bu mənada, 1934-cü ildə Parisdə ortaq bir Pakta imza atan gürcülər, şimalı qafqazlılar və azərbaycanlılar Qafqaz Cümhuriyyətləri Konfederasiyasını yaratmaqla doğru yol tutmuşlar [245, 168].

1952-ci ildə Münhendəki "Qafqaz" dərgisində nəşr olunan "Qafqaz məsələsi" məqaləsində Qafqaz Konfederasiyasının gerçəkləşməsi yollarını daha dərindən incələyən

Rəsulzadə hesab edirdi ki, belə bir birliyin yaranmasını vacib edən amillər aşağıdakılardır: birincisi, "*Qafqazın nə qövm, nə kültür, nə də irq baxımından Rusiya ilə heç bir ilgisi yoxdur"* [245, 173]. İkincisi, *"ekonomi baxımından Qafqaz, kəndinə yetər müstəqil bir vəhdətdir*" [245, 173]. Üçüncüsü, *"strateji baxımından da, Qafqaz bir bütündür*" [245, 173]. Dördüncüsü, "aralarındakı milli və kültürəl özəlliklərə baxmayaraq, *Qafqaz millətləri ortaq bir ruh və xarakterə malikdirlər ki, bu Qafqaz deyilən psixolojik bir tipin yaranmasını dəstəkləyən ictimai bir çox müəssisələrdə görükməkdədir*" [245, 174]. Beşincisi, ən əsası *"çarizmin və bolşevizmin hər şeyi bir səviyyəyə gətirən ruslaşdırma, müstəmləkəçilik siyasətinə qarşı mücadilədə bütün Qafqaz millətləri birləşməlidilər"* [245, 174]. Çünki çar Rusiyasından sonra Sovet Rusiyasının da Qafqaz millətlərinə qarşı yürütdyü işğalçı siyasət bir daha göstərdi ki, *"geopolitik bir vəhdət təşkil edən Qafqaz daxilində yaşayan millətlər eyni müqəddərata malikdirlər"* [245, 175]. Bütün bunlardan sonra Rəsulzadə belə bir nəticəyə gəlirdi: "Türkiyə Cümhuriyyəti və İran kimi güneydəki müsəlman dövlətləri ilə qüzeydəki xristian Rusiya arasında bir *Eta tampon* (hail hökumət) halində qurulacaq *Qafqaz Konfederasyonu* isə məsələni məqbul bir tərzdə həll edə bilir. Gürcülərlə ermənilər Türk-Müsəlman dünyasında boğulmaq təhlükəsindən özlərini masun görür, azərbaycanlılarla, Şimali Qafqaz müsəlmanları da quzeydən gələcək təhlükəyə qarşı öz qonşularıyla yapmış olduqları ittifaq sayəsində təmin edilmiş olurlar" [245, 175].

Rəsulzadənin fikrincə, belə bir ittifaqın varlığının Qafqazdakı türk ünsürünə xələl gətirə bilərmi sualına isə azərbaycanlı mütəfəkkirlərin cavabı budur: "Ekonomi baxımından qüvvətli, kültür baxımından qüdrətli olan Azərbaycan böylə bir kombinezonda öz önəmini itirmək riskinə heç bir zaman məruz deyildir. Əksinə, Qafqaz millətləri ailəsində Türk ünsürünə özünə layiq bir rol oynamaq

müqəddərdir" [245, 176]. Rəsulzadə inanırdı ki, Qafqaz Birliyi məsələsində Türkiyə Cümhuriyyəti Sovet Rusiyasından fərqli olaraq imperalist yol tutmamışdır. Artıq böyük Atatürkün sayəsində, Türkiyə demokratik bir xətt seçmiş və onu davam etdirməkdədir. Onun fikrincə, Türkiyənin bu xətti isə Qafqaz Birliyini nəinki inkar edir, əksinə onun yaranmasının tərəfdarıdır: "Türkiyə Cümhuriyyətinin müqəddəratını idarə edənlər hər fırsatta bugünkü milli hüdudlar xaricində heçbir əməl daşımadıqlarını israr və önəmlə elan etməkdədirlər. Patriotizm mənasında anlaşılan türk milliyyətçiliyi ilə, Qafqazya Konfederasiyon fikri arasında qətiyyən bir təzad yoxdur" [245, 177]. O, böyük uzaqgörənliklə onu da əlavə edirdi ki, çürük əsaslara söykənən SSRİ dağıldıqdan sonra qurutlacaq Qafqazın alacağı siyasi idarə şəkli haqqında indidən qərara gəlmənin həyati önəmi vardı: "Gələcək Qafqaz rejimi haqqında indidən dəqiq bir fikir və qənaət birliyi təmin etməlidir. Bu təmin edilmədən Qafqaz millətlərinin ən az qüvvət və fədəkarlıq sərfiylə ən çox hürriyyət və istiqlal imkanlarına qovuşmaq imkansızdır… Buna məhəl buraxmayacaq biricik tədbir isə, Qafqaz Konfederasiyası ideyasının bütün əlaqədarlarca indidən ciddiyyət və önəmlə ələ alınmasıdır!" [245, 179].

Göründüyü kimi, Rəsulzadə Azərbaycan milli ideyasını müdafiə etməklə yanaşı, yeni turançılıq-yeni türkçülk və qafqazçılıq ideyalarının onunla hansı yönlərdən uzlaşdırıla biləcəyi ilə bağlı siyasi-ideoloji təkliflərlə çıxış etmişdir. Bununla da, Rəsulzadə bir tərəfdən, azərbaycançılığın türkçülüklə, eyni zamanda müəyyən qədər islamçılıqla bağlılığını daima qoryub salxamış, digər tərəfdən, bu ideyanın demokratiyaya zidd olmadığını ifadə etmək üçün Azərbaycanın Qafqaz Birliyi ideyasının əsas tərəfdarı olduğunu göstərmişdir.

Qeyd edək ki, hazırda istər Azərbaycanda, istərsə ondan kənarda bəzi politoloqlar, tədqiqatçı alimlər, ictimai-siyasi xadimlər və başqaları qafqazçılıq ideyası ilə bağlı müxtəlif

mülahizələr irəli sürürlər. Bəziləri hesab edirlər ki, qafqazçılıq ideyası və identikliyi artıq əsrlərin sücgəcindən gəlib keçən və müəyyən bir psixoloji fenomen kimi formalaşan tarixi hadisədir [281, 4]. Məsələn, akademik Əfrand Daşdəmirov yazır ki, artıq neçə əsrlərdən bəri Qafqazda yaşayan ayrı-ayrı etnoslar (türk, kvartel, slavyan, dağıstan və b.) eyni tarixi hadisələri yaşamaları, ortaq mədəniyyəti paylaşmaları, eyni zamanda zaman-zaman bir-birlərinə yaxınlaşaraq qohumlaşmaları baxımından Qafqaz mədəniyyəti, Qafqaz tarixi, Qafqaz adət-ənənələri, Qafqaz mentaliteti adı altında birləşiblər [264, 16]. Bütün onların göstəricisidir ki, vaxtilə M.Ə.Rəsulzadənin qafqazçılıq ideyası ilə bağlı irəli sürdüyü müddəalar bu gün də öz aktuallığını qoruyub saxlamaqdadır.

1.3. Milli azərbaycançılıq və milli təsanüd

Mühacirət dövründə milli aydınlarımızın ən çox diqqət yetirdiyi məsələlərdən biri də Sovet Rusiyasının işğalçılıq siyasətinin, o cümlədən bolşevizm "demokratiyası"nın tənqidi və buna qarşı qoyduğu Azərbaycançılıq və milli təsanüdçülük (həmrəylik) ideyası olmuşdur. Onların fikrincə, sovetlərin qondarma beynəlmiləlçiliyi və "kommunizm" təbliğatı artıq qeyri-rus millətləri arasında özünə yer tapmır. Buna səbəb isə bolşeviklərin sözləri ilə əməllərinin üst-üstə düşməməsidir.

Onlar sosializmin yaranması və inkişafı tarixinə nəzər salaraq göstərirdilər ki, elmi əsasları alman filosofları K.Marks və F.Engels tərəfindən qoyulan kommunizm rus bolşeviklərincə tamam başqa hala gətirilmişdir. Bu mənada, SSRİ dönəmindəki kommunizm nəinki xalqlara azadlıq gətirmiş, əksinə onların bütün hüquq və azadlıqlarını tamamilə əllərindən almışdır. Bu mənada, SSRİ rejiminin zülmündən ən çox əziyyət çəkənlər isə qeyri-rus millətlər, o cümlədən Türk-müsəlman xalqları

olmuşdur. Ona görə də, rus kommunizminin əsil mahiyyətinin dünya ictimayyətinin diqqətinə çatdırılması vacibdir.

Milli ideoloq M.Ə.Rəsulzadə yazırdı ki, bolşeviklərin lideri Lenin 1917-ci il oktyabr inqilabına qədər və inqilabın ilk dövrlərində özü də, hər bir millətin ayrı yaşamaq hüququnun olduğunu irəli sürmüşdü. Ancaq bolşeviklər Leninin bu formulunu "mərama müvafiq olarsa" qeydi ilə qəbul etmişlər. Bolşeviklərin milliyyət məsələsində fəaliyyət proqramı kimi qəbul etdiyi bu tezisə görə, guya sovet federalizmi isə müvvəqətidir, ittifaqı təşkil edən üzvlərin hansı istərsə ittifaqı tərk etmək haqqına malikdir: "Ancaq bu xəyali bir istiqlal idi. "Sovetlər ittifaqı" təşkilati-əsasiyyəsi - ölkə ruslar tərəfindən birmənalı şəkildə idarə olunur. MİK "ittifaq şurası" və "millətlər şurası" rusların əlindədir. O birisi cümhuriyyətlərin heç bir səlahiyyəti yoxdur. Sovet federasiyonunu təşkil edən cümhuriyyətlərin yalnız adı cümhuriyyətdir" [187, 61]. Bütövlükdə, bolşeviklərin Şərq siyasətini Rəsulzadə, belə dəyərləndirirdi: "Rus "Lafonten"i məşhur Krılovun "istifadə edə bilmədiyimizi hədiyyə edirik"- deyə bir misrası vardır. Bolşeviklərin Şərq məmləkətləri haqqındakı comərdlikləri də bu yöndəndir. Əlləri çatmadıqlarını hədiyyə edirlər… Bu, parlaq manevr idi. Manevrə idi-deyirik, çünki manevrə olmayıb da Sovet hökumətinin Şərqdəki qonşuları ilə dostluğu həqiqi və hər cürə istismar iştihasından ari həqiqətpərvaranə bir əsasə istinad etmiş olsaydı o zaman biz aradakı siyasi razılıq və uyğunluğa baxmayaraq, Şərq millətləri ilə Sovet arasında sənələrcə davam edən və hələ də bir cürə həll edilməyən iqtsadi ixtilaflarla ticarət mübarizələrinə şahid olmazdıq" [187, 74-75].

M.Ə.Rəsulzadə kommunizmə və faşizmə qarşı qoyduğu **milli təsanüd ideyası**nı 1930-1940-cı illərdə irəli sürsə də, onun kökü Azərbaycan Cümhuriyyəti dövrünə gedib çıxır. Hələ, "Əsrimizin Siyavuşu" əsərində Rəsulzadə milli-dini dəyərlərlə liberalizmin ortaq nöqtələrinin tapılmasının zəruriliyindən bəhs

etmişdir. Bununla da həmin kitabında milli təsanüd ideyasına ötəri şəkildə toxunan mühacirət dövründə bu məsələyə əsaslı şəkildə yanaşmışdır. O, "Milli mücadilədə sosial şüarlar" məqaləsində yazırdı ki, indi başlıca problem "milli dava və sosial məsələ"yə aydınlıq gətirməkdir: "Bir kərə "millət"in özü ictimai, yəni sosial bir anlamdır. Milli dava dəxi, əhatəli və ötkün bir baxışla, sosial bir davadır. Bir millət nə zaman müstəqil olur və bu istiqlalı nə üçün istəyir? Bu suallara cavab aradığımız zaman milli istiqlal davası ilə sosial məsələlər arasında ayrılıq deyil, dərin bir bağlılıq olduğunu görürük. Bir millətin dışarıya qarşı həqiqi istiqlalı, içəridəki milli hakimiyyətinin həqiqiliyi ilə mütənasibdir. Dövlətlər arasındakı "milli istiqlal" anlamının bir dövlət içindəki qarşılığı, "milli hakimiyyət" sözündəki mənadır" [181, 58-59].

Onun fikrincə, hürriyyət, milliyyət və istiqlal kimi mücərrəd siyasi şüarlar, münəvvər kütləyə xitab edən və onları inqilablaşdıran anlamlardır. Çünki geniş xalq təbəqələrini ayaqlandırmaq üçün, sadə şüarlar kafi deyildir. Onlar hərəkətə keçmək üçün, daha maddi və daha aydın şüarlar istər. Bu mənada, bolşeviklərdən fərqli olaraq İtaliyada Mussolin, Almaniyada isə Hitler sosial şüarlardan milli mənfəətlər üçün istifadə edir. Bolşeviklər sosial şüarlarını beynəlmiləl proletar sinfi uğrunda mübarizə adı ilə təqdim etdikləri halda, Mussolin və Hitler isə, bütün bunları milli şüarlar kimi qələmə verirlər. M.Ə.Rəsulzadənin fikrincə, bolşevizm olmasaydı İtaliya və Almaniyada faşizm bu dərəcədə uğur qazanmazdı. Yəni rus bolşevizmi təhlükəsi İtaliya və Almaniyada millətçiliyn radikal şəkildə ortaya çıxmasına səbəb olmuşdur [181, 60-61].

"Milli dava və sosial məsələ" problemindən çıxış yolu kimi milli təsanüdü qəbul edən Rəsulzadə yazırdı ki, Cümhuriyyət dövründə bu məsələlər arasında uzlaşmanın yaranmamasının bir sıra səbəbləri olmuşdur: "O zaman bir tərəfdən liberalizm, digər tərəfdən də internasyonal sosializm cərəyanlarının zamana hakim

təsirlərinə rəğmən, milliyyətçi qalmağı bacaran "Müsavat" üçün indiki ümumi ruhdan mülhəm olaraq, daha milli bir siyasət də daha təsanüdçü sosial bir sistem təsbit etmək qeyri mümkün idi!…" [181, 66]. Bu baxımdan 1930-cu illərdə "Müsavat"ın proqramına sosial məsələlərlə bağlı bir sıra dəyişikliklərin edildiyini önə çəkən Rəsulzadə yazırdı ki, bu milli həmrəylik anlayışıdır. Onun fikrincə, yalnız milli təsanüd demokratik dövlətin əsas ideologiyası ola bilər. Bu zaman nə liberalizmə, nə də bolşevizmə ehtiyac qalacaq. Burada əsas məsələ milli çərçivə daxilində sosial məsələləri həll etmək cəhdidir. Şübhəsiz ki, bu zaman kommunizmin doğurduğu bolşevizm və s. kimi bəlaları özündən uzaq tutmaqla yanaşı, milli təsanüdçülük kapitalizmin də mənfi tərəflərini rədd edirdi: "Milli istiqlal mücadiləsinin müvəffəqiyyəti və onun bir kütlə hərəkatı olaraq, şumulluluğu üçün milliyyətçilərə sosial məsələlərlə məşğul olmaq zərurət və bu məsələləri milli davanın faydası namına həll etmək isə borcdur! Sadə istiqlal şüarı məmləkətin geniş xalq kütlələrini toplayaraq mücadiləyə çəkmək üçün kafi deyildir. Uğrunda mücadilə edilən "istiqlalın" daşıdığı sosial mənanı da açmalıdır ki, milli hərəkat düşmənlərinə kütləyi şaşırtmaq üçün demaqogiyasına imkan qalmasın!…" [181, 66].

O hesab edirdi ki, sosial məsələni milli məsələnin bir hissəsinə çevirməklə bolşevikləri sıradan çıxarmaq mümkündür. Bu baxımdan onun əsas məqsədi sosial məsələnin millətçiliyə zidd olmadığını sübut etmək idi: "Düşmənimiz bolşevizm üçün milliyyət, keçici bir taktika məsələsi isə, bizim üçün sosial islahat heç də öylə deyildir. Bu, öz başına təsanüdlü və məsud bir varlıq təsəvvür etdiyimiz ahəngdar milli cəmiyyətin həm davamı, həm də istiqlalının təmini üçün zəruri və daimi bir qayədir!…" [244, 51].

M.Ə.Rəsulzadənin milli təsanüd ideyası, milli məsələ ilə sosial məsələnin kəsişdiyi bir nöqtə idi. O, bu ideyanı irəli sürməklə sübut etmək istəyirdi ki, sosial məsələləri milli məsələlərə qarşı qoymağın heç bir mənası yoxdur. Rəsulzadə sosial məsələlərin milli məsələlərə zidd olmadığını, əksinə, onunla bağlı

olduğuna inanırdı. Beləliklə, milli ideoloq əsas fikirlərini milli məsələ ilə sosial məsələnin təsanüdünə, yəni onların həmrəyliyinə yönəltmişdir. Mühacirət dövründə Rəsulzadənin milli ideyaya, o cümlədən milli həmrəylik fəlsəfəsinə sonsuz dərəcədə inaması bir daha göstərir ki, o bir milli ideoloq kimi Azərbaycan Cümhuriyyətinin memarıdır. Elə bir memar ki, Rəsulzadənin ideyaları əldə əsas tutarlarsa, bu dövlət əbədiyyən yaşamaq gücünə malikdir.

M.B.Məmmədzadənin fikrincə də, 27 aprel faciəsinin kommunistlərin hər yerdə çığırdıqları və bağırdıqları kimi, Azərbaycan kəndli və işçisinin inqilabı deyil, sadə Rusiya ordusunun vəhşicə istilası olması hər kəsə aydın və açıqdır [154, 155]. Bunu nəzərə alaraq, o qeyd edirdi ki, Azərbaycan Türk xalqının məsumanə axan qanından yaranan milli intibah rus ağalığının son qəbir daşı olacaqdır: "Ey Türk xalqı! Səni azad edəcək və xoşbəxt yaşadacaq mübarizəyə bütün qüvvənlə hazırlaş, səni bu mübarizə xilas edəcəkdir! Azərbaycanın istiqlalını bir dəfə qurdun, iknici dəfə də qurmaq bacarığına maliksən. Düşmənini tanı, milli intibahını yüksəlt, haqq sənindir" [154, 156]. Bu fikirlərinin davamı olaraq Məmmədzadə yazırdı: "Bir millət ya yetişmişdir, öz haqqına müdrikdir, müştərək milli bir şüura malikdir və yaxud əksinə olaraq ölgündür, ictimai bir üzviyyət halına gəlməmişdir" [241].

M.Ə.Rəsulzadənin "rus kommunizmi"nə qarşı irəli sürdüyü milli həmrəylik (solidarizm) ideyasını müdafiə edən Məmmədzadə yazırdı ki, "Müsavat"ın "Yeni proqram əsasları"na görə, müstəqil türk dövlətində nə ifrat liberalizmə, nə də kommunizmə yer olmayacaqdı: "Bu qənaətlə o, fərdi azadlıq və şəxsi mülkiyyət əsasını siyasət və iqtisad prinsipi olaraq qəbul etməklə bərabər, əsrimizin gündən-günə qüvvətlənən bir sintezi halında olan həmrəylik (solidarizm) sistemi gərəyincə dövlətlə cəmiyyətin haqlarını tanıyır və onların çarpışan zümrə mənfəətləri üzərində nizamlayıcı rolunu oynamağa mükəlləf müəssisələr olduğunu qədul edir. Bu surətlə müsavatçılıq milli birlik və həmrəyliyi əsas olaraq qəbul edir, hər cür sinif və zümrə

hakimiyyətini rədd edir" [154, 211]. Bu proqrama görə, türk mədəniyyətinin inkişafı və təkamülü, Azərbaycan türkünün səadəti və rifahı belə bir milli həmərylik sistemi daxilində mümkündür. Artıq burada fərdi azadlıq və fərdi mülkiyyət ilə yanaşı, ümüminin mənfəəti də vardır. Məmmədzadə yazır: "Bu tezisdə cəmiyyət də (bütün) var, fərd də (tək). Fərdi hürriyyət və mülkiyyət, ümumun, bütünün, dövlətin – millətin ali mənafelərinə zərər vurmamalıdır. Ona görə millət-dövlət fərdi hürriyyət və mülkiyyətləri kontrol etmək haqqına malikdir" [154, 212].

"Rus kommunizmi" ideologiyasına qarşı çıxan türkoloq **Əhməd Cəfəroğlu (1899-1975)** "Dil guşəsi" məqaləsində yazırdı ki, çar Rusiyası dövründən başlayan dildə və dində ruslaşdırma siyasəti sovet dövründə də davam etməkdədir: "Türk qardaşlarmızdan başqa dünyanın heç bir yerində heç bir millət və qövm öz doğma dili ilə aldadılaraq milli ruhundan və əqidəsindən uzaqlaşdırılmamışdır. Sərhədləri az qala Ağrı dağının ətəklərinə qədər uzanan, dünənə qədər torpaqlarında hürr və azad yaşayan Azərbaycanda rus istilasının təsiri altında, kim bilir, nə qədər sıravi türk və hətta türk ziyalısı ana dilində düzgün yazmağı-oxumağı bacarır?!" [63, 296]. Fikrimizcə, Ə.Cəfəroğlunun o zaman yazdıqlarının bu gün nə dərəcədə aktual olmasının geniş şərhə ehtiyacı yoxdur. Çox təəssüflər olsun ki, ruslaşdırma siyasəti nəticəsində bugünkü Azərbaycan insanlarının, xüsusilə onun ziyalısının xeyli bir qismi yalnız rusca yazmağı-oxumağı bacarır. Bu isə əlbəttə, milli şüurun formalaşmasının qarşısını alan zərərli amillərdəndir. Məhz çarizm və sovet dövründə bu günü nəzərə alan antiazərbaycan və antitürk ideolaqları ruslaşdırma siyasətinin əsasını qoymuşdular.

Cəfəroğlu haqlı olaraq yazırdı ki, çarizm və sovetlər dönəmində Rusiya türklərinin, o cümlədən azəri türklərin dilini tədqiqat obyektinə çevirmələri heç də səmimi xaratker daşımamışdır. Belə ki, ruslar bir əsrə yaxın əsarət altında saxladığı millətin ləhcəsində nəinki bəsit bir qrammatika kitabı, heç adi bir

lüğət də hazrlamamışlar. O yazır: "Bu hər şeydən əvvəl dili bir, qanı və tarixi bir iki qardaş türkü, yəni Azərbaycan və Türkiyəni bir-birindən ayırmaq siyasətinin nəticəsidir. Yoxsa, hətta ədəbi dilə malik olmayan hər hansı bir türk qövmünün ləhcəsinə aid ortaya yüzlərlə əsər qoyan rus şərqşünaslarının daha inkişaf etmiş ədəbiyyata və dilə malik azərilərin üzərindən belə səssiz-səmirsiz keçmələri başqa cür izah edilə bilməz" [63, 297].

Çarizm və sovet ideoloqları yaxşı başa düşürdülər ki, türklər milli kimliklərini, dilini, mədəniyyətini, ədəbiyyatını, tarixini daha dərindən yaxşı anladıqca, onların müstəmləkəçilik ideyaları türklər arasında geniş yayılmayacaqdır. Bu isə əlbəttə, rus şovinistlərinə sərf etmirdi. Bu baxımdan rus millətçilərinin türklərin öz dillərini tədqiq etmələrinə, yeni ədəbiyyat yaratmalarına qısqanclıqla yanaşması təbii idi. Bir sözlə, rus millətçiləri türklərə məktəblərdə, universitetlərdə təhsil almağa şərait yaradır, ancaq bu zaman ruslaşdırma siyasətini, yəni türklərin türk kimi deyil, rus kimi (zahirən isə sovet milləti kimi) düşünməyə vadar etməyi unutmurdular. Cəfəroğlu yazır: "Türk ziyalısına universitet kürsüsünü yalnız milli varlığından ayrılmaq və xristinalığı qəbul etmək şərti ilə vermək, türk müəllimlərini orta məktəbdə tarix dərslərini keçmək hüququndan məhrum etmək, Rusiyadakı türklərin Türkiyə mətbuatını izləmələrinin qarşısını almaq kimi şərtlər irəli sürən bu "mədəniyyət" əslində hər vasitə ilə türkləri geri çəkməyə xidmət göstrirdi. Çox güman ki, elə bu səbəbdən də rus inqilabçısı Çadeyev Rusiyanın keçmişini qaranlıq, dünənini məhcul, gələcəyini isə bərbad hesab etmişdi" [63, 299].

Şübhəsiz ki, çar və sovet Rusiyasında türklərə qarşı yeridilən ruslaşdırma siyasəti təsirsiz ötüşməmişdir. Sözdə milli dil və milli mədəniyyətdən bəhs açan bolşeviklər gerçəklikdə isə türk vəhdətinin və milli birliyinin parçalanması uğrunda çalışırdılar. Rusiya əsarətindəki türk qövmlərinin az qala hər birinin dilini "müstəqil dil" və "cümhuriyyət" elan edən bolşeviklərin əsas məqsədi vahid türk dilinin və millətini parçalamaq idi.

Bu baxımdan Azərbaycan işğal olunduqdan sonra Türkiyə və Azərbaycan türkləri arasındakı dil və millət birliyini aradan qaldırmaq üçün ilk növbədə Azərbaycanda latın yazısını həyata keçirməyə başladı. Guya, bununla türklərə xidmət etdiklərini iddia edən bolşeviklərin əslində məqsədləri vahid türk toplumlarını bir-birindən ayrımaq idi. Bu baxımdan Azərbayan türk dövlətinin əsaslarını sarsıtmaq üçün ilk zərbə dil birliyinə vuruldu. Cəfəroğlu yazır: "Bolşeviklər bir tərəfdən iki qardaş və həmsərhəd ölkə arasındakı dil vəhdətini pozmağa çalışarkən, o biri tərəfdən də Rusiyada yaşayan türkləri bir-birlərindən və tarixlərindən ayırmaq üçün dərhal latın əlifbasının tətbiqinə girişdilər" [63, 301]. Onun fikrincə, nəticədə bolşeviklər istəklərinə çatdılar: iki qardaş türk xalqı bir-birlərinin yazılarını və kitablarını oxumayacaq duruma gətirildi. Türklər dil və siyasi birlik baxımından müxtəlif cərəyanlara ayrıldılar.

Ancaq bolşeviklər bu yolla türk dil və türk birliyinin süqutuna çalışarkən Türkiyənin də latın yazısına keçməsi vəziyyəti dəyişdi. Bununla da yenidən türk birliyi ideyası gücləndi. Bolşeviklər güman edirdilər ki, Türkiyə bir çox səbəblərə görə (İslam dini və s.) heç bir zaman ərəb əlifbasından imtina etməyəcək. Bununla da Rusiya türkləri Türkiyə türklərindən bütün sahələrdə (mədəniyyət, dil, əlifba və s.) bir-birlərindən fərqli yol tutmuş olacaqlar. Ən əsası əsarət altındakı Rusiya türkləri heç vaxt Türkiyə türklərindən mənəvi qida ala bilməyəcəklər. Ancaq Türkiyənin latın əlifbasına keçməsi ilə bolşeviklər əvvəlcə Türkiyədə və sovet Rusiyasında nəşr olunan qəzet və kitabların bir-birlərinə çatdırılması ilə bağlı qərar qəbul etsə də, bunun sonralar faydasız olduğunu anlayaraq rus-kiril əlifbasına keçməklə bağlı qərar qəbul etdi. Beləliklə, Azərbaycan və Türkiyə türkləri arasında dil sahəsindəki birliyə ciddi zərbə vurulmuş oldu.

Bütün bunlara baxmayaraq Azərbaycan **milli ideyasının** Azərbaycan türklərinin şüurunda yaşamasına inanan Cəfəroğlu yazırdı ki, haqq və istiqlal eşqi, istiqbal və milliyyət davası

könüllərdə yer tapdığı bir zamanda nə qırmızı xəncər, nə də boğazdan yuxarı şənliklər kimsəni qorxutmur. Onun fikrincə, hər bir türk Azərbaycan türklərinin izzəti-nəfsinə endirilən vicdansız zərbəni bir daha göz önünə gətirməklə, Azərbaycan milli məfkurəsinin nə qədər uca amal olduğuna inanır. O yazırdı ki, dil, mədəniyyət, milli mənlik və əxlaq etibari ilə türklüyə tam yad olan qüvvənin illərdən bəri vurduğu zərbələr yalnız bir məqsədə və bir hədəfə yönəldilmişdir: "Azərbaycanı türksüz qoymaq, istiqlal və milliyyət ruhunu kökündən qoparıb atmaq! Bu isə bir daha onu göstərir ki, Azəri türkləri istiqlala layiq, hürr yaşamağa hazır, yetişmiş bir millətdir. On üç ildən bəri rusların istismarına və təzyiqlərinə qarşı aparılan inadlı çarpışmalar, axıdılan qanlar, daxildə və xaricdə ucaldılan mübarizə sədaları məhz bu yetkin millətin istiqlaldan dönməyəcək əzmə və milli varlığa malik olmasının göstəricisidir" [63, 351-352].

O qeyd edir ki, Türkiyəyə yardım göstərmək, milli istiqlalın tam şəkildə təmin olunmasına kömək etmək adı ilə maskalanan bolşeviklər Azərbaycanın istiqlalına son qoyaraq, keçmiş çar Rusiyasının sərhədlərini bərpa etmək niyyəti güdmüşdü. Bu məqsədlə milli ordu buraxıldı, milli müəssisələr ləğv olundu, türk məmurlarının yerinə erməni və ruslar gətirildi. Milli Cümhuriyyətin istiqlal ruhu şər qüvvə kimi Azərbaycandan çıxarıldı, milli ruhun daşıyıcıları olan ziyalıları istisnasız şəkildə məhv edildi. "Türk Azərbaycanı"nda bundan sonra türklərin qonaq, rusların isə həqiqi "ev sahibi" olduğunu qeyd edən Cəfəroğlu yazırdı ki, artıq ruslara yad və yabançı görünən milli türk istiqlalı yerinə rus qoxulu müjik ruhu Azərbaycanı işğal etmişdi: "Azərbaycan başdan-başa qırmızı bayraqlarla bəzədildi, əhali isə qorxu və təhdidlə susdurularaq lallığa məhkum olundu. Oktyabr dili "zəfər dili" elan edildi. Hər şey dəyişdirildi. Milli istiqlal ruhu ilə yaşayan millət Azərbaycan uğrunda mübarizədən kənarlaşdırıldı" [63, 353]. Beləliklə, "türksüz Azərbaycan" yaradılması üçün əhali yurd-yuvasından çıxarıldı. Cəfəroğlu yazır: "İstəklərindən uzaq düşmək

istəməyənlər qürbət ellərə yayıldılar. Millətinin, milliyyətinin adı üzərindən götürüldü. Sən mənliksiz, sahibsiz, Türksüz buraxıldın" [63, 355]. Onun fikrincə, lakin Türk yenilər, amma ölməz: "Onun varlığı başlanğıcsız və sonsuzdur. Bu böyük varlıq hər zaman müqəddəs olmuş və müqəddəs qalacaqdır. Türkün yurdu türk tarixində bir çox 27 nisanlar yaşamış, lakin heç vaxt idealını qeyb etməmiş, istiqlaliyyətini unutmamışdır" [63, 355].

Yeri gəlmişkən, hələ də sıralarmızda Azərbaycanın şimalının çar Rusiyası tərəfindən işğalına haqq qazandıranlarla yanaşı, eyni aqibətə uğramış Azərbaycan Cümhuriyyətinin faciəvi taleyinə müsbət don geyindirmək istəyənlər də tapılır. Bəzi "ziyalılarmız" iddia edirlər ki, Azərbaycan Cümhuriyyətinin sovet Rusiyası tərəfindən işğalı mənfi hal olsa da, Sovetlər Birliyi dövründə Sovet Azərbaycanı hansısa uğurlar əldə etmişdir. Bu fikirlə müəyyən mənada razılaşmaqla yanaşı, hesab edirik ki, Azərbaycan türk milləti hansı adla adlanmasından (çarizm, bolşevizm) aslı olmayaraq heç vaxt rus müstəmləkəsi ilə razılaşmamış, onun adət-ənənələrini, mədəniyyətini, dilini və milli kimliyini assimilyasiya etməyə çalışan, var-dövlətini mənimsəyən müstəmləkəçilərə qarşı bütün sahələrdə daima mübarizə aparmışdır. Bu mübarizə çarizmin və bolşevizmin ən çox tüğyan etdiyi zamanlarda belə özünü büruzə vermişdir.

Bu baxımdan hazırda çarizmin və bolşevizmin bizə "miras" qoyub getdiyi bir çox "adət-ənənələr" var ki, xalqımız sözün həqiqi mənasında ondan qurtula bilmiş deyildir. Bu ən çox özünü dilimizdə, mədəniyyətimizdə, ədəbiyyatımızda bir sözlə, həyatımızın bütün vacib sahələrində özünü büruzə verir. Çox təəssüflər olsun ki, bir çox ziyalılarımız obyektiv və subyektiv səbəblərə görə milli ideyanı-Azərbaycan türkçülüyünü anlmaqda zorluq çəkir, çarizm və bolşevizmin əsil üzünü görmək əvəzinə orada yalnız müsbət meyarlar axtarırlar. Əlbəttə, biz keçmişə aid bütün məsələlərə destruktiv yanaşmanın da əleyhinəyik. Ancaq bütün hallarda çarizm və bolşevizm dövründə Azərbaycan

türkləri arasında yaranmış "Rusiya və rus düşmənçiliyi"ni təsadüfi də saymaq mümkün deyildir. Azərbaycan türkləri onun istiqlaliyyətini (Azərbaycan Türk Xanlıqlarını və Azərbaycan Cümhuriyyətini) əlindən alan və bütün sahələrdə ona qarşı düşmən münasibət bəsləyən Rusiyanın müstəmləkəçilik siyasətinə başqa cür yanaşa da bilməz. Bu baxımdan Cəfəroğlu doğru qeyd edir ki, hələ XIX əsrdə "Rusiya və rus düşmənçiliyi beləcə şüurlu şəkildə azəri şairləri arasında geniş yayılmışdı" [63, 212].

Gördüyümüz kimi, Azərbaycan türk milləti arasında çarizm və bolşevizm dövrlərində yaranan "Rusiya və rus düşmənçiliyi"nin əsasında, müstəmləkəçilik və ruslaşdırma siyasəti dayanmışdı. Rus şovinistləri yerli türkləri nə qədər assimilyasiya etməyə cəhd göstərir, bu mənada onun etnik kimliyini, dilini, mədəniyyətini saxtalaşdırır, vətənindən sürgün edir, İran Azərbaycanı və Türkiyədəki dindaşları və soydaşları ilə əlaqəni kəsməyə çalışırdısa və s. bütün bunlar təbii olaraq etiraza səbəb olmuşdu. Bu məsələ ilə bağlı Ə.Cəfəroğlunun gəldiyi qənaət də doğrudur: "Rus hakim dairələrinin qarşılarına qoyduqları əsas məsələ yerli əhalini çox da qorxutmadan Qafqaz türkləri arasındakı istiqlal fikrinin kökünü birdəfəlik kəsmək, digər iki qonşu islam ölkəsinin – İranın və Türkiyənin Azərbaycan üzərindəki siyasi və dini imkanlarını birdəfəlik aradan qaldırmaq idi. Rus idarəçilərinin fikrincə, bu məqsədə çatmaq üçün ən müvafiq yol yerli Qafqaz millətlərini ruslaşdırmaq, onların arasında mümkün qədər tez müddətdə özünə sədaqətli zümrə yaratmaq idi" [63, 230]. Ancaq Azərbaycan türkləri milli və dini dəyərlərini Rus-Qərb-Avropa müstəmləkəçiliyinə qarşı qoymağı bacarmış, Türk-İslam birliyindən heç vaxt geri çəkilməmişlər.

Azərbaycan Cümhuriyyətinin müstəqilliyi əlindən aldığı üçün Sovet Rusiyasına bəslədiyi kini gizlətməyən **Almas İldırım** yazırdı ki, milli istiqlalsız ona nə "Yeni dünya"-Sovet beynəlmiləlçiliyi, nə də "rus kommunizmi" lazım deyildir. O, "Mənim türküm" şeirində sovet beynəlmiləlçiliyinə olan nifrətinin və vətənə

olan sevigisinin ifadəsi olaraq yazırdı: "Qafqasın eşqi bütün zər dolu dünyaya dəyər, Desələr yurdu unut, al "Yeni dünya"yı əgər, Söylərəm, eşqimi ver, haqqımı ver, yurdumu ver, Dinləsin qoy bütün aləm bu boğulmaz səsimi!" [116, 89].

Sovet beynəlmiləlçiliyi-"rus kommunizmi"nə qarşı türkçülüyü-islamçılığı qoyan A.İldırım Azərbaycan Milli İdeyasının bir zaman müqəddəs inqilabla gerçəkləşəcəyinə inanırdı. Bu inamla da A.İldırım "Müqəddəs ixtilal" şeirində yazırdı: "Doğan günəşlə qopsun bir axın vəlvələsi, Görünsün qan köpüklu qasırğanın yeləsi, Bitsin əsir türklüyün, bitsin artıq çilləsi, Nə zəncirli bir Qafqas, nə qan qusan bir Ural, İxtilal istəyirəm, müqəddəs bir ixtilal" [116, 133]. XX əsrdə hürr bir aləmdə, bir millətin azadlığının əlindən alınması kimi faciəli bir vəziyyət ola bilməz. Bu baxımdan "hürr bir aləmdə insan hürriyyətinə məlun bir qüvvət kimi zəncir vurana lənət" deyən şair qeyd edirdi ki, Tanrı ona keçmişdən bir anını versəydi, bir məşəl yaxaraq azad bir cəmiyyət qurardı: "Qazardım könüllərdə yalnız tək bir ideal: "İnsanlara hürriyyət, millətlərə istiqlal!". Hardasan, ey xilaskar Bozqurdum, çıx yoluma, Hardasan, ey Teymurun qüdrəti, gəl qoluma, Şimşəklər kimi bir an mən çaxmaq istiyorum" [116, 136].

Azərbaycan milli ideoloqu M.Ə.Rəsulzadənin "İnsanlara hürriyyət, millətələr istiqlal!" devizini bir ideal kimi qəbul edən A.İldırım və yüzlərlə milli istiqlal şəhidlərimiz Azərbaycanın istiqlalı yolunda təkcə özünü deyil, ailəsini və övladlarını da qurban vermişlər. Halbuki 1920-1930-cu illərdə bəzi şair-mütəfəkkirlərimiz kimi, A.İldırım da Stalinə, Leninə və başqalarına məhdiyyələr yazaraq vətənində rahatca yaşaya bilərdi. Ancaq A.İldırım üçün Vətən-Azərbaycan, Millət-Türk, İstiqlal-Azadlıq sevdası hər şeydən – ailədən də, övladlardan da, rahat yaşamaqdan da öndə dayanırdı. Çünki Almas İldırımın həyat devizi belə idi: öncə vətən, öncə millət, öncə istiqlal.

"Rus kommunizmi"ni "Azərbaycan mühitinə və ümumiyyətlə türk və islam dünyasına tamamilə yabançı və zərərli bir

doktrina" adlandıran **Əbdülvahab Məmmədzadə (Yurdsevər)** isə yazırdı ki, Azərbaycanın istiqlalını qəsb edən SSRİ rejiminin ömrü uzun olmayacaqdır. O, buna əsas kimi sovet istismarçılığını və bolşeviklərin saxta beynəlmiləlçiliyini göstərmişdir: "Sovetlər beynəlmiləlçilikdən bəhs etdikləri halda, tamamilə Rus hakimiyyət təmayüllərinə istinad edirlər. Bu təmayüllər xüsusilə Stalin dövründə bütün çılpaqlığı ilə ortaya çıxdı. Bu gün Sovet imperatorluğunun hüdud bölgələrində vaqe olan məhkum ölkələr, türklər də daxil olmaqla qeyri-rus ünsürlərlə məskunlaşmışlar. Bunlardan heç birinin rusluqla milli və tarixi bağlılıqları yoxdur" [247[a], 46].

O yazırdı ki, SSRİ rəhbərliyi çarlıq müstəmləkə imperatorluğundan formalaşan bütün bu qeyri-rus ölkələri parça-parça edərək, çeşidli adlar altında müxtəlif bölgələrə qarışdırıdqan sonra, həm siyasi, iqtisadi və hərbi istismara tabe etməkdə, həm də milli varlıqların tədricən məhvə məruz qoyaraq tamamilə ruslaşdırmaqdadır. Beləliklə, sözdə müstəmləkəçiliyə müxalif olan Sovet hökuməti çarlıq müstəmləkələrini haqlı göstərmək üçün bəzi doktrinalar uydurmuşdur: ""Beynəlmiləlçi" Sovet məntiqinə görə, rus xalqı və məhkum millətlər Birinci Pyotr, Suvorov, Kutuzov, və Aleksandr Nevski kimi rus tarixi simalarını milli qəhrəman olaraq anmalı və təqdir etməlidirlər. Bunun əksinə olaraq, Şimali Qafqazlılar Şeyx Şamillərini, azərbaycanlılar Cavad xanlarını, türküstanlılar Əmir Teymurlarını və digər milli qəhrəmanlarını dilə belə gətirə bilməzlər. Buna qarşı hərəkət edənlər partiyadan, işdən atılmaqda və ağır cəzalarla üzləşməkdədirlər" [247[a], 46].

Yurdsevər daha sonra yazırdı ki, SSRİ rejiminin əsarəti altında olan ölkələrdə milli tarix və ədəbiyyata dair bütün əsərlər kitabxanalardan yığışdırıldığı kimi, bu cür əsərlər evlərdə ələ keçirildiyi vaxtda bir günah dəlili olaraq ev sahibi əleyhinə qoyulmuşdur: "Sovet rejimi din və vicdan azadlığı tanımadığı üçün came və məscidlərin yüzdə doxsanını dağıtmış, dini etiqadların açıq bildirən partiyalı və partiyasızları şiddətlə təqib etmişdir. Bütün bunların fövqündə sovet idarəsi məhkum ölkələrin ətrafında qalın

bir dəmir pərdə çəkərək azad dünya ilə və öz yaxın irqdaşları ilə hər cür milli, dini, ədəbi, mədəni, siyasi və iqtisadi bağlarını kəsmişdir" [247[a], 47]. Ümumiyyətlə, Yurdsevər yaradıcılığında bir tərəfdən Sovetlər Birliyi imperiyasının iç üzünü açıb göstərməyə çalışmış, digər tərəfdən isə Azərbaycan Milli İdeyasını geniş şəkildə təbliğ etmişdir.

Mühacir aydınımız **Əhməd Qaraca (1929-2005)** da "Azərbaycan" aylıq dərgisində nəşr olunan "Kommunist-Rus imperializminin yeni taktikaları" (1976) məqaləsində yazırdı ki. Türk Cümhuriyyəti Azərbaycan Rus imperializminin silah gücü ilə istilaya məruz qalmışdı [238[a], 172]. Qaraca hesab edirdi ki, çar Rusiyası kimi kommunist Rusiya da müstəmləkə halına saldığı ölkələrdən bir çevik qalxan meydana gətirmişdir. Onun fikrincə, çar Rusiyası müstəmləkə imperatorluğunu qura bilmək üçün dünən xristanlığı-slvayanlığı necə silah etmişdisə, Sovet Rusiyasının rəbhərləri də kommunizmi eyni şəkildə yıxıcı, bölücü bir silah olaraq millətlərin başına bəla etmişdir: "Kommunistlər Rusiyada ağları məğlub edərək, iqtidarı ələ keçirdikdən sonra çarlıq müstəmləkəsi olmaqdan qurtulmuş millətləri təkrar işğalı altına almağı planlaşdırmış, xaricdən gələcək qüvvələrə qarşı bu ölkələrdən qalxan kimi istifadə etmək istəmişdir. Bu etibarla kommunist rus imperalistlərinin Türküstan, Ukrayna, İdil-Ural, Krım – Şimali Qafqaz, Azərbaycan, Gürcüstan və Ermənistan kimi ölkələri silah gücü ilə ələ keçirdiyi zaman, eynilə bu gün olduğu kimi, o gün də kapitalist Batı-Qərb ilə birlikdə hürr dünya dilsiz, kar və kor davranış içində qalmışdır" [238[a], 173]. Onun fikrincə, kommunist rus imperalistləri çar Rusiyası boyun-duruğundan qurtulan ölkələri yenidən işğal etdikdən sonra, ikinci bir hasarı daha qurtaraq özünü həm təhlükəsizlik içində saxlamış, həm də dəmir pərdə ilə əhatə etdiyi bu ölkələrdə yeni müstəmləkə yerləri tapmışdır. Belə ki, rus bolşevikləri 1-ci Pyotrun vəsiyyətini yerinə yetirmək üçün yeni müstəmləkə torpaqları əldə etməyə çalışmışdır: "Vaxtilə Məhəmməd Əmin

Rəsulzadələrin, Mustafa Çokayların, Ayaz İshaklərin, Çələbi Cahan və Cəfər Seyil Əhməd Krımlıların, Məhəmməd Əmin Buğraların və digər əsir Türk elləri fikir və elm adamlarının xəbərdarlıqlarına qulaq asan hürr dünya ölkələri, indi də Soljentsınların, Saxarovların Qızıl Rus imperializminin bu dırmanmasının Batı-Qərb mədəniyyətinin yıxılışı olacağı əmrlərini görməməzliyə vura bilməzlər" [238[a], 173].

Bu dövrdə Azərbaycan Milli Mərkəzinin və Azərbaycan Kültür Dərnəyinin fəal üzvlərindən olan **Məhəmməd Gəngərli (1914-2006)** bir çox məqalələrində SSRİ rejiminin mahiyyətini açmağa çalışmışdır. O, "Xaincəsinə boğulan bir səs" məqaləsində yazırdı ki, Azərbaycan türkləri tarix boyunca hürr və müstəqil yaşamağa alışmış bir millətdir. Onun milli varlığının ana prinsipi isə hər zaman azlıq təşkil edən etnoslara deyil, bilavasitə onların haqq və hüququnu çeynəməyə yönələn yırtıcı ruhlu müstəmləkəçilərə qarşı yönəlmişdir. Gəngərli hesab edirdi ki, 1920-ci ilin 27 aprelində Azərbaycan türklərinin Hürriyyət, İstiqlal və Milli hakimiyyət səsi xaincəsinə boğulmuşdu: "Azəri türklərinin bütün təbii zənginliklərinə, şəxsi mülklərinə milli sərvətlərinə, kültür, sənət, tarix və ədəbiyyatına yabançı bir elin qonduğu, tarixi milli abidələrin, mədrəsələrin, camelərin və dini ziyarətgahların yıxıldığı, türkcə tədrisatın ruscaya çevrildiyi, Türk böyükləri, şairləri yerinə rusların öyrədildiyi, Azəri münəvvərlərinin çeşidli bəhanələrlə topdan Sibir əsir düşərgələrinə sürüldüyü və kəndlilərin dövlət hesabına səhərdən axşama qədər qədər çalışmaya məcbur edildiyi milli, dini ənənələrin, örf və gələnəklərin ruslaşdırıldığı bir gün" [229, 157].

Mühacir aydınımıza görə, nə öz torpağımız, nə də bu torpağın yetişdirmiş olduğu Milli Azərbaycan gəncliyi Azərbaycan Milli İstiqlalı uğrunda mübarizə aparmış mücahidləri bir anda özlərindən ayrı görməyəcəkdir. Gəngərliyə görə, bu mənada gənc nəslin üzərinə düşən tək, fəqət çox məsuliyyətli ideal Milli bir vəzifə vardır. Bu, Milli vəzifə isə ondan ibarətdir ki, hər bir gənc

Azərbaycan Milli İstiqlal ideyasına bütün varlığı ilə sarılmalıdır: "Davanı mənimsəmək, ondan uzaqda qalmamaq, təklif və dəvət gözləməmək, ona ciddiyyət və səmimiyyətlə bağlanmaq, heç bir maddi mənfəət gözləmədən mücadiləyə qatılmaq, onun ana prinsiplərinə sadiq qalmaq – qeydsiz-şərtsiz Milli İstiqlal hədəfini güdmək, bu ülvi, milli qayəni ziyanlı mahiyyətdə olan pozğun fəaliyyətlərə qarşı əli silahlı növbə gözləyən bir əsgər kimi durmaq deməkdir" [229, 159]. Ziyalımız onu da qeyd edirdi ki, Azərbaycanın rus-bolşevik istilasına cəbrən girdiyi gündən bəri həyatın ən təhlükəli və acı günlərini əzablarla yaşamış, hələ də yaşamaqda olan Azərbaycan Türk gəncliyi bu qorxunc hadisələrdən ibrət alaraq Milli hədəflərini, bütün enerjilərini doğru istiqamdə inkişaf etdirməlidirlər. Belə ki, bütün Azərbaycan türkləri "İstiqlal, Hürriyyət və Milli Hegemonluq" şuarı altında birləşərək mənəviyyatının sapsağlam, Milli Davada səbatlı olduğunu bir kərə dünya ictimaiyyətinə çatdırmalıdır.

Başqa bir aydınımız **Çingiz Göygöl** də yazılarında "Rus kommunizmi"nin əsil mahiyyətini ifşa etməyə və Azərbaycan Milli İdeyasını yaşatmağa çalışmışdır. Onun fikrincə, rus bolşevizminə mübarizədə müsəlmanlar, o cümlədən türklər daha çox gözə çarpırlar: "Bu əhval və şərait altında kosmopolit və internasional bir platforma içərisində qeyri rusların mənlik və varlıqlarının, ənənə və adətlərinin Rus Kommunist qaynar qazanında əriməsi üçün böyük qeyrət sərf edildiyi də inkar edilməz bir həqiqətdir. Türk və Müsəlman xalqlar üzərində bu təzyiq və qeyrət son həddini bulmaqdadır" [239[a], 177-178]. Göygöl yazırdı ki, sovet ideoloqları Azərbaycan türklərinin tarixini, mədəniyyətini, soykökünü və dilini saxtalaşdırmaq üçün bütün vasitələrə əl atırlar: "Azərbaycanlıların Türk olmayıb Alban əslindən olduğu saxta tezisini isbat etmək üçün Sovet tarixçilərincə coşqun fəaliyyət göstərilməkdədir. Türk dili və fonetikasına heç bir şəkildə uymayan Rus hərflərinin qəbulu ilə kifayətlənməyən kommunistlər bütün elmi olan kəlmələrin də ruscada olanların eyni olması

məcburiyyətini qoymuşlar. Bu məmləkətlərdə olan ərəbcə, farsca, türkcə dəyişikliklərin ruscada olanların dəyişdirilməsi məcburən təmin edilməkdədir. Bütün bunlara riayətsizlik kommunist əleyhdarlığı və siyasi günah sayılmaqdadır. Bütün bu tədbirlərdə tək qayə, Rus Kommunist diktaturası altında yaşayanların Kosmopolit Rus Kommunist qaynar qazan içərisində mənlik və varlıqlarını itirərək, fərdlərin bir Rus köləsi halına gəlmələrini saxlamaqdır" [239[a], 178].

Ziyalımıza görə, Rus kosmopolitizmi uğrunda atılan ciddi tədbirlər əhəmiyyətsiz sayılmayacaq dərəcədə təsirlərini göstərməkdədir. Bu baxımdan Rus kosmopolitizminə qarşı mübarizə aparmaq əsas məsələlərdən birinə çevrilmişdir. Göygöl yazırdı ki, Sovet diktaturasının müstəmləkəsinə çevrilmiş millətlərin üzərində həssaslıqla durmalı olduğu əsas məsələ də Rus kosmopolitizminin təsirinin nəticəsiz qalmasını saxlamaqdır. Ona görə də kommunistlərin iqtisadi, ictimai, kültürəl və başqa sahələrdə basqı, məhvetmə siyasətlərian qarşı istilada olanlar ciddi və daimi şəkildə müqavimət göstərməlidirlər. Göygöl yazırdı: "Əlbəttə bu amili əsaslandıran ruhun Milli Ruh olduğuna kimsə tərəddüd etməz. Bolşevik kommunistlərin üzərində həssaslıqla durduqları məhv-edilməsi və tənəzzülə uğradılması üçün ən çox məşğul olduqları yenə Milli Ruhdur. Bu ruh, insanlara hürriyyət, millətlərə gələcək təmin edən ən mühüm ünsürdür. Bolşevik kommunistlərcə təqibə uğrayan insanlarda milli ruh və ən üstün vəsf olunandır. Milli ruhun insanlar içərsindən silinərək onun yerinə Kosmopolit Marksizm və Leninizm öndərləri yetişdirmək istənilməkdədir ki, bu öndərlərin insanlar arasında qardaşlıqda başqa sinfi ayrılıqları və mənfəət toxumları samaq qayəsini güddüyünü, indiyə qədərki hadisələr bizə açıqlamaqdadır" [239[a], 178-179].

Bu doğrudan da bir həqiqət idi ki, mübarizə İslam-Türk mədəniyyətinə əsaslanan Milli Ruhla Rus-Qərb-Avropa mədəniyyətinə söykənən Rus Kosmopolitizmi arasında gedirdi. Rus kosmopolitizminin əsas qayəsi də bolşevik Kommunist istilası altındakı

millətlərdə Milli Ruhun məhv edilməsi idi. Milli Ruhun daşıyıcları bunu anladıqları üçün bütün vasitələrlə Rus kosmopolitizminə qarşı çıxırdılar. Göygöl də məhz bunu nəzərə alaraq Milli Ruhun Rus kosmopolitizminə qarşı dayanmasının vacibliyindən bəhs etmişdir: "…bu gün qurtuluş üçün üzərində həssaslıqla durulması lazım gələn ünsürün mili ruh olduğu bütün çılpaqlığı ilə çözülməkdədir. Mili ruhun tənəzzülü və ortadan itməsi yalnız millətlərə deyil, ümumən insanlığa köləlik, hürriyyətsizlik, haqq və hüquqdan məhrumiyyət gətirir. Bu etibarla millətlərdə mövcud milli ruhun mühafizəsi insanlığın üzərində ciddiyyətlə durması lazım gələn bir məsələdir. Milli ruhun mövcudiyyəti ilə "Millətlərə istiqlal, insanlığa hürriyyət" təmin edilə bilir. Milli ruhun mühafizəsi üçün bütün millətlərin müştərək qüvvə sərf etmələri zərurəti, bu gün dünəndən daha çox ehtiyac halındadır" [239[a], 180].

Süleyman Təkinərin də "Tarix boyunca kommunistvari fikir və hərəkatlar" məqaləsində yazırdı ki, kommunizm ideyası birdən-birə meydana çıxmamış, müəyyən bir təkamül mərhələsi keçmişdir. Onun fikrincə, kommunizmin yaranmasında əsas rol Karl Marks və Fridrix Engelsə məxsus olsa da, o, özünün daha yüksək mərhələsini Rusiyada tapmışdır. Ancaq Marks və Engelsin düşündüyü kommunizmlə V.Leninin və İ.V.Stalinin uyğuladığı kommunizm xeyli dərəcədə fərqli olmuşdur: "Fərdlərini bir robot halına gətirməklə qəddar bir diktatorluq quran Rus kommunistləri, bu gün Rusiyada artıq sosializmin gerçəkləşmiş olduğunu iddia edirlər. Əcəba, bugünkü Sovetlər Birliyi deyilən fərdlər və millətlər həbsxanasında sosializmin gerçəkləmiş olduğunu iddia etmək mümkündürmü?" [240[a]].

Mühacir ziyalımıza görə, Sovetlər Birliyindəki ictimai ədalətsizlik və sosial bərabərsizlik dünyanın heç bir mədəni məmləkətində yoxdur. Çünki Staxnovçuluq, Krivonosovçuluq, Vineqradovçuluq və sair buna bənzər adlar altında xalqın bütün təbəqələri arasında hasilə gətirilən aristokrat təbəqələrinin sahib olduqları geniş imtiyazlara dünyanın heç bir tərəfində rast

gəlinmir. Yalnız bu Sovet aristokratiyası tərəfindən dəstəklənən kiçik tiranlar qrupu bu böyük məmləkətin idarəsini geniş xalq kütlələrinin arzuları xilafına olaraq, yalnız zülm sayəsində əllərində tuta bilərlər. Təkinər yazırdı: "Digər tərəfdən "Rus imperializminin qorxunc bir silahı" halına gəlməklə artıq bir ideologiya olmaqdan çoxdan çıxmış olan kommunizm bu gün marksist internasionalizmindən artıq Rus şovinizmini təmsil etməkdədir. Fəqət, insan cəmiyyətinin təbii əsaslarını yıxmaqla təbiət qanunlarına qarşı çıxan kommunizmin "İnsanlara hürriyyət, millətlərə istiqlal" parolunu mənimsəyərək, insanlıq mədəniyyətini də yaşatmağa əzm etmiş olan Hürr Millətlərin bu dərin iman və sarsılmaz iradələri qarşısında tez-gec yıxılacağından əsla şübhə edilməməlidir" [240[a]].

Azərbaycan milli ideyasının gerçəkləşməsi üçün əlindən gələni edən, bu baxımdan yaradıcılığında Azərbaycan istiqlal davası tarixinə və Azərbaycan türk mədəniyyətinə mühüm yer ayıran **Hüseyn Baykara (1904-1984)** olmuşdur. Azərbaycanın milli azadlıq hərəkatına yaradıcılığında xüsusi yer verən H.Baykara yazırdı ki, ona aid "Azərbaycan mədəniyyəti tarixi" ilə "Azərbaycan istiqlal mübarizəsi tarixi" kitabları Azərbaycanın azadlıq mübarizəsinin əlifbasıdır [52, 7].

Mühacir ziyalılarımızdan **Nağı Şeyxzamanlının** fikrincə də, hər bir Azərbaycan türkünün ürəyi iki müqəddəs varlıq ilə doludur: "Birisi din duyğusu, digəri milli duyğu. Azərilər bu iki müqəddəs varlıqlarını sevimli milli bayraqlarında da əks etdirmişdilər. Azərbaycan bayrağı üçrənglidir: yaşıl rəng islamiyyəti təmsil edir. Qırmızı rəng və ay-ulduz müasirçiliyi təmsil edir. Üçüncü rəngi olan mavi isə soyunu təmsil edir. Hər bir azərinin fikri istiqlal duyğusu ilə doludur" [206, 103]. Şeyxzamanlı "Dərdləşmə" məqaləsində yazırdı ki, bəzi mühacirlər Azərbaycan Milli İdeyası uğrunda aparılan mübarizəni doğru qiymətləndirə bilmirlər. Belə ki, indiyə qədər Sovet Rusiyasına qarşı aparılan Milli Azadlıq Mübarizəsinin

rolunu və yerini aşağı endirirlər. Halbuki Azərbaycan mühacirləri Vətəndən ayrı düşdükləri ilk günlərdən etibarən daima Azərbaycanın azadlığı uğrunda mübarizə aparmışlar. Doğrudur, ilk illərdə Azərbaycan mühacirləri arasında parakəndəlik olmuş və bir yerdə mübarizə aparmaqda çətinlik çəkmişlər. Ancaq bu çox uzun sürməmiş, M.Ə.Rəsulzadənin Rusiyanı gizli yollarla tərk edərək İstanbula gəlməsi ilə vəziyyət yaxşılığa doğru dəyişmişdir. Şeyxzamanlı yazırdı: "Azərbaycan istiqlal mübarizəsinin böyük lideri Məhəmməd Əmin Rəsulzadənin İstanbula gəlişi yurddaşlarda böyük bir sevinc yaratmışdır. İlk iş olaraq yurddaşlar "Milli Komitə" adı altında birləşərək Əmin bəyi rəhbər seçdilər. İllərdən bəri özünü hiss etdirən boşluq Milli Komitənin nəşr etdiyi "Yeni Qafqasiya" məcmuəsi və bunun ardınca çıxan digər mətbuat orqanları tərəfindən doldurulmuş oldu" [206[a], 170]. Şeyxzamanlının fikrincə, Rəsulzadənin mühacirlər arasında yaratdığı birlik və bərabərlik hazırda da davam etməkdədir. Çünki Rəsulzadə Azərbaycanın bir gün Milli İstiqlala qovuşacağı inamını həmin nəşrlərdə yazdığı məqalələrdə onlara aşılıya bilmişdir: "Azərbaycan Milli Mübarizəsinin böyük lideri mərhum Məhəmməd Əmin Rəsulzadənin qurduğu bu nəşr sistemi günümüzə qədər davam etməkdədir" [206[a], 174].

Mühacir ziyalılardan **Cəmil Ünal** artıq 1980-ci illərin sonlarına doğru Azərbaycan türklərinin Milli İstiqlala qovuşacağına tamamilə inanırdı. O, 1990-cı ildə qələmə aldığı "Yenidən doğuş" məqaləsində yazırdı ki, Azərbaycan Türk millətinin tək dayanağı Allaha təslimiyyət və Türklük şüurudur: "Hər kəs hürriyyət istəyir, istiqlal deyə hayqırır. İnsanca yaşamanın özləmini çəkən milyonlarca insan marksizmin, leninizmin, kommunizmin çöküşünü hayqırmaq istəyir. Basqı rejimi altındakı millətlər, öz kimliklərinə yenidən qovuşmaq istəyir. Türkülük aləmi içərisində Azərbaycan olayların mərkəzi halına gəlmişdir" [249[a]].

Mühacirətdə olan Azərbaycan türk mütəfəkkirlərinin fəlsəfi irsinin əsas cəhətlərini **ümumiləşdirərək,** belə qənaətə gəlmək olar

ki, onların yaradıcılıqları və dünyagörüşləri nə qədər çoxşaxəli olsa da, bütövlükdə Azərbaycan mədəniyyətinə, fəlsəfəsinə və elminə xidmət etmişdir. İlk növbədə, onların yaradıcılıqlarında və dünyagörüşlərində Azərbaycan Milli İdeyasının yaşadılması konteksində, Azərbaycan mədəniyyətinin, fəlsəfəsinin tədqiqi və təbliği dayanmışdır. Əlbəttə, bu zaman onlar Sovet dövründə yaşamağa məcbur olan həmkarlarından və soydaşlarından fərqli olaraq Azərbaycan mədəniyyətini və fəlsəfəsini daha obyekti şəkildə tədqiq etmək şansına malik olmuşlar. Yəni Azərbaycannın mühacir mütəfəkkirləri istər klassik, istərsə də cağdaş mədəniyyət və fəlsəfəyə münasibətdə daha real prizmadan yanaşmışlar.

Digər tərəfdən, onların Azərbaycan türk mədəniyyəti və fəlsəfi ilə bağlı araşdırmaları Azərbaycan Milli İdeyası ilə sıx bağlı olmuşdur. Yəni azərbaycanlı mühacirlər hər bir əsərlərində mədəniyyət və fəlsəfənin problemlərini araşdırmaqla yanaşı, dövrün onların qarşısında qoyduğu çətinlikləri də ifadə etməyə çalışmışlar. Bu mənada, SSRİ rejiminin Azərbaycan türk mədəniyyəti və fəlsəfəsinə qarşı yürtüdyü "sovet beynəlmiləlçiliyi" ideyası azərbaycanlı mütəfəkkirlər tərəfindən ciddi tənqid atəşinə tutlumuşdur. Xüsusilə, M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, Ə.Cəfəroğlu, Ə.Yurdsevər və başqa mütəfəkkirlərimiz bu məsələni geniş tədqiqat obyektinə eçvirmiş, SSRİ ideoloqlarının saxtakarlığını ifşa etməyə çalışmışlar.

Yeri gəlmişkən, Azərbaycan mühacirət mütəfəkkirlərinin mədəni və fəlsəfi irsində mühüm məqamlardan biri də, SSRİ dövründə Azərbaycanda aparılan saxta mədəniyyətə və fəlsəfəyə qarşı çıxmalarıdır. Onlar əsərlərində Azərbaycan türklərinin şüurunu dəyişdirmək üçün SSRİ rejiminin müxtəlif üsullara əl atmasını, xüsusilə klassik irsimizi, o cümlədən mədəniyyət və fəlsəfəmizi saxtalaşdırılmasını ifşa etməyə çalışmışlar. Belə ki, xüsusilə 1950-ci illərdən sonra SSRİ ideoloqları bütün sahələrdə (tarix, fəlsəfə, mədəniyyət, ədəbiyyat və s.) Azərbaycan xalqının milli-mənəvi dəyərlərini saxtalaşdırır və ona kosmopolit bir ruh

verməyə çalışırdı. Bu məqsədlə SSRİ ideoloqları klassik Azərbaycan mütəfəkkirlərinin əsərlərinin mahiyyətini dəyişdirir, yaxud da onun məzmunu kommunizmə uyğunlaşdırmağa çalışırdılar. Bunun nəticəsində də yeni Azərbaycan nəsli nəinki keçmiş adət-ənənələrini, hətta yaxın tarixini belə "sovet beynəlmiləlçiliyi" prinsiplərindən kənarda öyrənə bilmirdi.

Bütün bunları Azərbaycandan kənarda izləyən mühacir mütəfəkkirlərimiz bacardıqları qədər bir tərəfdən "sovet beynəlmiləlçiliyi"nin iç üzünü açıb göstərməyə çalışır, digər tərəfdən isə Azərbaycan mədəniyyətini və fəlsəfəsini obyektiv şəkildə dünya ictimaiyyətnin nəzərinə çatdırmağa çalışırdılar. Bu baxımdan mühacir mütəfəkkirlərimizin Dədə Qorqud, Nizami Gəncəvi, Ə.Xaqani, İ.Nəsimi, M.Füzuli, M.P.Vaqif, A.A.Bakıxanov, M.F.Axundzadə, H.Zərdabi və başqa klassiklərimizə həsr etdikləri saysız-hesabsız əsərləri onların dünyagörüşlərinin doğru şəkildə cəmiyyətə çatdırılmasında mühüm rol oynamışdır.

Şübhəsiz, bu məsələlər arasında klassik mütəfəkkirlərimizin İslam dininə münasibəti xüsusi yer tutmuşdur. Çünki SSRİ dövründə ən çox təhrif uğrayan sahələrdən biri də İslam dini və onunla bağlı dini ayin və mərasimlər olmuşdur. Azərbaycanın mühacir mütəfəkkirləri öz əsərlərində SSRİ ideoloqlarının İslam dininə qarşı apardıqları səlib yürüşün mahiyyətini açıb göstərməklə yanaşı, müsəlmanlığın Azərbaycan türklərinin həyatında oynadığı müsbət rolu da ifadə etmişlər. Onlar göstərirdilər ki, İslam dini Azərbaycan türklərinin formalaşmasında mühüm rol oyanmış və bu gündə öz yüksək mövqeyini qorumaqdadır.

Gördüyümüz kimi, Azərbaycanın mühacirətdə olan mütəfəkkirləri bütün dövrlərdə olduğu kimi, bu dönəmdə də Azərbaycan mədəniyyətinə və fəlsəfəsinə əvəzsiz töhfələr vermiş, öz dünyagörüşlərində Azərbaycan Milli İdeyasını sonsuza qədər yaşatmaq prinsipindən bir an olsun belə geri çəkilməmişlər. Əksinə, mühacir mütəfəkkirlərimiz üçün Azərbaycan

mədəniyyəti və fəlsəfəsini öyrənmək və tədqiq etmək, "rus kommunizmi"nin saxta mahiyyətini açıb göstərmək Azərbaycan Milli İdeyasını yaşatmaq və Milli İstiqlala nail olmaq üçün ən ümdə vasitələr olmuşdur.

Beləliklə, mühacir Azərbaycan mütəfəkkirlərinin 70 il ərzində, xüsusilə Sovet Rusiyası işğalının ilk on illiklərində milli istiqlal savaşı və Azərbaycan elminin müxtəlif sahələrində gördüyü müstəsna işlər nəticəsində Azərbaycan adlı dövlət formal şəkildə də olsa, SSRİ-nin tərkibində yaşaya bilmişdi. Özəlliklə 1920-1940-cı illərdə mühacirətdə olan ziyalıların Azərbaycanın tarixi, mədəniyyəti, ədəbiyyatı ilə bağlı qəzet-jurnallarda nəşr etdirdiyi yüzlərlə məqalələr, o cümlədən bir sıra kitablar müstəsna rol oynamışdır. Başqa sözlə, mühacirətdə Azərbaycanın tarixinə, ədəbiyyatına, mədəniyyətinə və s. dair yaranan əsərlər, aparılan siyasi işlər o dönəmdə Azərbaycan Cümhuriyyətini siyasi müstəqilliyə və azadlığa qovuşdura bilməsə də (hər halda bu işlərin məntiqi nəticəsi 70 ildən sonra öz bəhrəsini verdi), ən azı Azərbaycan adlı bir dövlətin SSRİ-nin tərkibində, formal şəkildə də olsa yaşamasına rəvac vermişdi. Bizə elə gəlir ki, həmin dövrdə mühacir ziyalılarımız həm siyasi, həm də ictimai-fəlsəfi yaradıcılıqlarında bu qədər fəallıq göstərməsəydilər, Azərbaycanın SSRİ-nin tərkibində formal şəkildə varlığı da təhlükə altında qalmış olardı.

Mühacirətdə yaranan tarixi, ədəbi, fəlsəfi əsərlər sovet Azərbaycanında yaranan həmin istiqamətli əsərlərə də xeyli dərəcədə təsir göstərmişdir. Hətta deyə bilərik ki, Sovet Azərbaycanı mütəfəkkirləri bu istiqamətli işlərində, bir çox hallarda adlarını çəkməsə də, mühacir mütəfəkkirlərimizin irsindən (M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, C.Zeynaloğlu və b.) bu və ya başqa dərəcədə yararlanmışlar. Çünki Azərbaycan tarixinə, mədəniyyətinə, fəlsəfəsinə və s. dair ilk ciddi elmi-tədqiqat işləri mühacir ziyalılar tərəfindən aparılmışdır. Məsələn, mühacir ziyalılar Azərbaycan tarixinə aid kitabları 1920-ci

illərdə nəşr etdirdiyi halda, Sovet Azərbaycanında bu prosesə yalnız 1940-cı illərdə başlanmışdır. Deməli, mühacir ziyalılar vətənlərindən kənarda yaşamlarına baxmayaraq, Azərbaycan tarixinin, fəlsəfəsinin, mədəniyyətinin və ədəbiyyatının inkişafında çox mühüm rol oynamışlar. Bütün bunlar isə ilk növbədə milli ideyanın yaşaması üçün çox vacib amillər idi.

Ümumiyyətlə, mühacirət dövrünün mütəfəkkirləri Azərbaycan milli ideyasının yaşadılmasında əvəzsiz rol oynamışlar. Azərbaycan mühacirət ədəbiyyatında diqqət çəkən milli varlıq (millət, dil, mədəniyyət və s.) və azərbaycançılıq məfkurəsidir. Mühacir mütəfəkkirlərin fikrincə ana, millət və vətən müqəddəs hislərdir və onlar bir-birlərinə son dərəcə bağlıdırlar. Bunların arasında millətin varlığını daha önəmlidir, çünki Azərbaycanın milli istiqlalı təmin edilmədən ana və vətən anlayışının heç bir məna kəsb etməyəcəkdir. Mühacir mütəfəkkirlər bəyan edirdilər ki, bolşevizmin mövcudluğu dövründə isə milli istiqlal xəyal olaraq qalacaqdır. Çünki çarizm kimi bolşevizmin də mahiyyətinin əsasını müstəmləkəçilik təşkil edir.

Mühacir mütəfəkkirlərin fikrincə, milli istiqlalı yaşadacaq əsas amillərdən biri də milli dildir. Bu baxımdan onlar bütün mənalarda türk dilinin ruslaşdırılması siyasətinə, eləcə də kiril əlifbasına qarşı çıxmışlar. Onlar hesab edirdilər ki, azad və müstəqil Azərbaycan qurmaq üçün, birinci növbədə Azərbaycan türk dili öz varlığını mühafizə etməlidir. Başqa sözlə, türk dili hər cür yad ünsürlərdən, o cümlədən sovetizm-leninizm adı ilə dilimizə doldurulmuş rus və Avropa mənşəli sözlərdən təmizlənməlidir. Onlar bir tərəfdən rus dilinə və əlifbasına, digər tərəfdən ərəb-fars dilindən istifadəyə və ərəb əlifbasına qarşı çıxırdılar. Mühacir mütəfəkkirlərin fikrincə, ən yaxşı seçim türk dili və türk (latın) əlifbasıdır. Deməli, onlar həm ruslaşdırmaya, həm də farslaşdırmaya qarşı çıxaraq müstəqil və milli Azərbaycan ideyasını müdafiə ediblər.

Əslimi, nəslimi tanıyıram mən,
Qarışıq deyiləm özümdən hürkəm.
Sən kimsən, sən nəsən, özün bilərsən,
Mən ilk qaynağımdan Türk oğlu Türkəm!
Bəxtiyar Vahabzadə

Aman Tanrı, düşmənlər nasıl qorxur Türkcədən!
Məgər Türkcəm seçilir pardaxlanan qönçədən
Xəlil Rza

IV FƏSİL

XX yüzilliyin sonu – XXI yüzilliyin başlanğıcında milli ideologiyanın dirçəlişi: yeni baxışlar və problemlər

4.1. XX yüzilliyin sonu - XXI yüzilliyin başlanğıcında milli ideologiya probleminə ikili baxış və milli şüur məsələsi

70 illik Sovet imperiyasından və onun "sovet beynəlmiləlçiliyi" ("rus kommunizmi") ideologiyasından imtina edib dövlət müstəqilliyini bərpa edən (1991) Azərbaycan xalqının yeni ideologiyasının hansı istiqamətdə formalaşacağı məsələsi ilk illərdən aktuallıq kəsb etməyə başlamışdır. Müstəqil dövlətə sahib olan Azərbaycan türkləri üçün "sovet beynəlmiləlçiliyi" ideologiyasından sonra yeni bir ideologiyaya üz tutmaq heç də asan məsələ deyildi. Görünür, SSRİ dövrünün "sovet beynəlmiləlçiliyi" ideologiyasının ağrı və əzablarını görməyin nəticəsi idi ki, bəzi yerli ziyalılar ümumiyyətlə, istənilən ideologiyanın əleyhinə çıxırdılar. Ancaq Azərbaycan aydınları arasında yeni bir ideologiyanın yaradılması tərəfdarları daha çox idilər. Bununla da, müstəqil Azərbaycanda milli ideologiya məsələsinə münasibətdə ikili mövqedə: 1) ideologiyanın vacibliyini müdafiə edənlər; 2) istənilən ideologiyanın əleyhinə olanlar var.

Bizcə, hər iki tərəfin müdafiə etdikləri mövqeni əsaslandırmaq üçün irəli sürdükləri arqumentlər ciddi şəkildə təhlil olunmalıdır. Məsələn, ideologiyasızlaşdırma tərəfdarları hesab edirlər ki, istənilən ideologiya insanları təzyiq altında saxlayır, onların hüquqlarını tapdalayır. Onlar buna bariz nümunə kimi SSRİ-ni və həmin imperiyanın "sovet beynəlmiləlçiliyi" ideologiyasını göstərirlər. Ümumiyyətlə, bu fikrin tərəfdarlarına görə, SSRİ dövründə olduğu kimi, 70 il hakim ideologiyanın təzyiqi altında yaşayan bir milləti yenidən hansısa bir ideologiyaya cəlb etmək doğru deyildir [2[a], 183]. Burada əsas məsələ hər bir vətəndaşın hüquq və azadlıqlarının təmin olunması, sosial rifahının yaxşılaşdırılması və sairdir. Əlbəttə, ilk baxışda bu dəlillər heç də əsassız görünmür.

Ancaq bizə elə gəlir ki, bu faktorlardan çıxış edərək ideologiyadan, xüsusilə milli ideologiyadan imtina etmək ən azı həmin cəmiyyətin xarici geosiyasi dairələrin ideologiyalarının təsiri altına düşməsi üçün münbit şərait yaradır. Buna nümunə kimi, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra milli şüurun formalaşması yolunda kənar ideologiyaların oynadığı mənfi rolu göstərə bilərik. Belə ki, bu illər ərzində Azərbaycan insanının şüurundakı ziddiyyətlərdən istifadə edərək onu daha da dərinləşdirən, öz maraqlarına uyğunlaşdırmağa çalışan antimilli, antiazərbaycan qüvvələr olmuşdur. Konkret olaraq Azərbaycan müstəqilliyini bərpa edəndən sonra Rusiyanın imperalizm ənənələrini davam etdirən dairələrin "Gömrük İttifaqı-yeni imperializmi", Qərb-Avropa qlobalistlərinin vətəndaş cəmiyyəti-kosmopolitizmi, paniranizm ideoloqlarının "müsəlman birliyi"- "şiə islamçılığı" və başqa antimilli ideyalar bu günədək azərbaycanlıların milli şüurunun formalaşmasına mənfi təsir göstərmişdir. Belə ki, Azərbaycan türk insanının şüuruna təsir etmək üçün Rusiyanın "Gömrük İttifaqı-yeni imperializm" tərəfdarları 70 illik SSRİ nostalgiyasını, İran ideoloqları ortaq islam-şiə dəyərləri və "tarixi birlik" ənənələrini, Qərb-Avropa

qlobalistləri isə demokratiya və vətəndaş cəmiyyəti prinsiplərini önə sürürlər.

Bu onun göstəricisidir ki, Azərbaycan toplumunun ideologiyasızlaşdırma (ideologiyadan azad etmə) xəttini müdafiə edib-etməməsindən asılı olmayaraq, onun şüuruna kənardan hansısa ideyalar, daha doğrusu antimilli ideyalar yeridilməyə davam edilir. Bu baxımdan, Azərbaycan xalqının özünü müdafiə etməsi və milli varlığını qoruyub yaşatması üçün ideologiyalaşma faktorundan istifadə etməsi qaçılmazdır. Çünki nə qloballaşmanın vacibliyini irəli sürən Qərb-Avropa ölkələri, nə "şiə islamçılığı"ndan çıxış edən İran, nə də "Gömrük İttifaqı"-Avrasiyaçılıq havası ilə yaşayan Rusiya ümumilikdə öz cəmiyyətləri daxilində heç də ideologiyalaşmadan imtina etmirlər. Onların "demokratiya-vətəndaş cəmiyyəti" (Qərb), "Gömrük İttifaqı"-avrasiyaçılıq (Rusiya), "müsəlman-şiə həmrəyliyi" (İran) adları altında gizlənmiş "beynəlmiləlçiliyi" əslində başqa dövlətlərin cəmiyyətlərinin, o cümlədən Azərbaycan xalqının milli mənlik şüurunun assimilyasiyasına yönəlmişdir.

Digər tərəfdən, hər hansı bir cəmiyyətin ideologiyasızlaşdırılması onun milli-mənəvi dəyərlərinin, o cümlədən dilinin, tarixinin, ədəbiyyatının, mədəniyyətinin itirilməsinə, assimilyasiya olunmasına gətirib çıxarır. Belə ki, mütərəqqi ideologiyanın hökm sürmədiyi cəmiyyətdə millilik tamamilə aradan qalxır və onun yerini kosmopolitizm ("dünya vətəndaşlığı" ideyası naminə siyasətdə milli əsaslardan imtina edilməsi) tutur. Bu zaman kosmopolit- "beynəlmiləlçi" cəmiyyətin tarixi, ədəbiyyatı, mədəniyyəti də bir növ ayrı-ayrı xalqların, dinlərin, mədəniyyətlərin mexaniki cəmindən başqa bir şey olmur. Fikrimizcə, son 22-23 il ərzində bundan əziyyət çəkən cəmiyyətlərdən biri də Azərbaycan xalqıdır. Halbuki Azərbaycan cəmiyyəti hələlik, yeni milli ideologiya formalaşdıra bilməsə də, ondan imtina da etməmişdir.

Müstəqilliyin ilk dövrlərindən etibarən Azərbaycanda ideologiyalaşmanın zəruri olduğunu iddia edənlər isə ideologiya məsələsində milli ideologiyadan çıxış edənlərdir. Azərbaycanda milli ideologiya deyərkən, əsasən türkçülük və azərbaycançılıqdan bəhs olunur. Ancaq Azərbaycanın milli ideologiyası kimi islamçılığı, modernləşməyi və başqalarını göstərənlər də vardır. Biz də burada Azərbaycan milli ideyası kimi daha çox türkçülük və azərbaycançılıq ideyaları və bu ideyaların mahiyyətini təşkil edən milli şüur məsələsi üzərində dayanacağıq. Çünki istər ötən əsrin əvvəllərində, istərsə hazırda milli ideya kimi türkçülüklə azərbaycançılığa əsaslananlar İslamı və modernləşməyi onun tərkib hissəsi hesab edirlər.

70 illik müstəmləkəçilikdən sonra yenidən meydana çıxan türkçülük və azərbaycançılıq kimi milli ideyalar, hətta onlarla bir sırada tutulan islamçılıq və müasirlik özünü doğrultmaq üçün ilk növbədə, azərbaycanlıları öz ətrafında birləşdirmək iqtidarına malik olduğunu sübut etməli idi. İlk dövrlərdə həmin ideyaların tərəfdarlarında güclü inam var idi ki, məhz onların yolu doğru yoldur. Bu baxımdan Azərbaycanın hansı əlifbadan istifadə etməsi kimi önəmli bir məsələdə, islamçıların ərəb əlifbasını, türkçülərin latın qrafikasını müdafiə etmələri, "sovet beynəlmiləlçiliyi"nin təsirindən qurtula bilməyənlərin isə kiril əlifbasının saxlanılması ilə bağlı müddəaları başa düşülən idi [235[a], 34]. Ancaq türkçülər, islamçılar və "yeni kommunistlər" yalnız onlara məxsus ideyanın digərindən üstünlüyünü irəli sürərkən bir vacib məqamı unudurdular ki, SSRİ dövründə Azərbaycan türklərinin şüuruna yeridilən "sovet beynəlmiləlçiliyi"ndən sonra, yeni ideologiyanı əsaslandırmaq heç də asan məsələ deyildir. Xüsusilə o mənada ki, bir ictimai quruluş dəyişsə də, həmin quruluşda yaşamış insanların şüuruna hakim kəsilmiş ideologiya dərhal dəyişmir. Bunun üçün müəyyən bir zaman kəsiyinə və həmin zaman

içində sözün həqiqi mənasında, irəli sürülən hər hansı ideyanın digərlərindən üstünlüyünü əsaslandırılmasına ehtiyac var idi.

Fikrimizcə, hakim olan ideyaları dünənə qədər şüurundan çıxara bilməyən, yenisini isə hələ formalaşdırmayan, üstəlik bir-birinə tamamilə zidd ideyaların təsirinə məruz qalan insanların əksəriyyəti üçün müəyyən dövrdə bir, sonra isə digər ideya cəlbedici görünə bilər. Bu mənada, hər hansı ideyanın cəmiyyətin əksəriyyətinin şüurunda möhkəmlənməsi bir neçə ilin, hətta on illərin ərzində belə mümkün ola bilməz. Bu mənada tarix elmləri doktoru Fərid Ələkbərlinin o fikiri ilə razıyıq ki, bir ölkədə vahid millətin yaranması üçün müəyyən bir dövr lazımdır **[286].** Əks təqdirdə tez bir zamanda ideologiya və ya milli ideologiya yalnız müəyyən güc və təsiretmə vasitələrilə "yaradıla", yaxud da onun "üstünlüyü" önə çıxa bilər. Ancaq bu ideya insanların şüurunda əsaslı və inandırıcı şəkildə deyil, zor və müxtəlif təsiretmə vasitələri ilə özünə yer tapmışdırsa, sonralar cəmiyyət asanlıqla ondan üz də döndərə bilər. Biz bunu, artıq "sovet beynəlmiləlçiliyi" ideologiyasının timsalında görmüşük. Ona görə də, hər hansı milli ideya irəli sürülərkən bir millətin müəyyən dövr üçün deyil, əbədi olaraq varlığının mühafizəsi nəzərə alınmalıdır.

Bu cür nəzər nöqtəsindən, ötən 22-23 il ərzində Azərbaycan türkləri, azərbaycanlılar milli ideyanın müəyyənləşməsi baxımından ziddiyyətli bir prosesin içində olmuşlar. Belə ki, ilk dövrlərdə daha çox türkçülük və müəyyən qədər də islamçılığın təsiri altında olan Azərbaycan xalqı sonralar azərbaycançılığa, hətta ideologiyasızlaşdırmağın bir növü olan "vətəndaş cəmiyyəti"nə meyil etməyə başlamışlar. Hazırda isə, demək olar ki, bu ideyaların hər biri az və ya çox dərəcədə azərbaycanlıların şüurunda müəyyən yer tutmuşdur. Ancaq bunun özü də zənnimizcə, nisbi xarakter daşıyır. Buna səbəb də, yuxarıda da qeyd etdiyimiz kimi, əksər azərbaycanlıların şüur baxımından sovet ideologiyasından tamamilə uzaqlaşmaması və əvəzində

yeni ideyaların özünə yer tapa bilməməsidir. Bu mənada, müstəqillik dönəmində az sayda azərbaycanlılar hansısa ideyaya tapınıblar və ondan üz döndərmək fikirləri də yoxdur.

Çağdaş dövrdə milli ideologiya problemi ilə bağlı şüurlarımızda tərəddüd etməyimizin başlıca səbəblərindən biri, Azərbaycan xalqının ayrı-ayrı təbəqələrində, o cümlədən düşünən beynində kifayət qədər ziddiyyətlərin olmasıdır. Bu ziddiyyətlərin kökləri nədir? Bizcə, milli ideolgiya məsələsinə Sovetlər Birliyi dövründə yaşamış nəsil ilə, yeni nəslin fərqli baxışları var. Biz istəsək də, istəməsək də bu bir reallıqdır ki, bugünkü Azərbaycan insanlarının xeyli qismi SSRİ dövründə yaşayıb və "sovet beynəlmiləlçiliyi" təhsili alıblar. Şübhəsiz, onların əksəriyyətinin milli ideya, milli ideologiya anlayışlarına özünəməxsus münasibətləri vardır. Bu münasibətdən dolayı onları ittiham etmək, əsasən doğru deyildir. Yeni nəslin isə pis-yaxşı, milli ideologiya probleminə onlardan fərqli baxışı var. Bu o demək deyil ki, hökmən yeni nəsil və sovet nəsli hansısa məsələlərdə hökmən ya razılaşmalı, ya da inkar yolu tutmalıdır. Fikrimizcə, burada əsas olan ilk növbədə, ortaq nöqtələrin tapılması və uzlaşdırmaların olmasıdır.

Hər halda, son illərdə milli ideologiyaya marağın artması göstərir ki, artıq azərbaycanlılar mövcud olan ideyaları daha çox şüurlu şəkildə saf-çürük edərək əsaslı bir ideyaya tapınmaq, bununla da milli birliyi gücləndirmək əzmindədirlər. Ancaq bunun üçün ilk növbədə, Azərbaycan xalqında milli şüur formalaşmalıdır. Milli şüur formalaşmadan milli ideologiya sahəsində ciddi uğurlar əldə etmək çətindir. Bu mənada, çağdaş dövrdə Azərbaycanda milli şüur məsələsindən bəhs etmədən milli ideologiya haqqında mühakimlər yürütmək doğru olmazdı. Başqa sözlə, "sovet beynəlmiləlçiliyi" təfəkküründən milli təfəkkürə keçid edib milli şüur formalaşdırmaqla milli ideologiya məsələsində nə isə əldə etmək olar.

4.1.1. Milli şüur məsələsi: tarix və çağdaşlıq

Milli şüur milli mənəvi dəyərləri özündə əks etdirən bir anlayışdır. Şüur anlayışı nə qədər ümumidirsə, milli şüur istilahında həm ümumilik, həm də xüsusilik vardır. Milli şüur bir növ fərdi şüurla ümumi şüur arasında əlaqələndirici keyfiyyətə malikdir. Çünki milli şüurda bir fərdin təmsil olunduğu konkret etnik, dini, mədəni xüsusiyyətlərlə yanaşı, ümumi mahiyyətli bəşəri dəyərlər də öz əksini tapa bilər. Yəni hər birimiz bir tərəfdən konkret bir millətin, dinin, mədəniyyətin nümayəndəsi olduğumuz halda, digər tərəfdən bəşəriyyətə aid əlamətləri də daşıyırıq.

Ümumiyyətlə, milli şüurun tərkibinə daxildir: milli mentalitet, milli özünüdərk, milli adət-ənənələr, vətənpərvərlik, bəşəri dəyərlər və s. Ancaq milli şüurdan bəhs edərkən, onun dini və beynəlmiləl şüurla oxşar tərəfləri ilə yanaşı, fərqli cəhətləri də göstərilməlidir. Məsələn, milli şüurla dini şüur arasında oxşar cəhətlər arasında əxlaqi-mənəvi, humanizm, xoşgörü, qonaqpərvərlik, ümumiyyətlə mənəviyyat məsələləri mühüm yer tutur. Eyni zamanda, milli və dini şüurun oxşar cəhətləri arasında ən vacib faktor milli birlik məsələsidir. Yəni hər iki şüurun uğurla dərk edilməsi nəticəsində bir millət, cəmiyyət daxilində milli birlik daha da gücləndirilə bilər. Ancaq bu zaman hökmən milli birliklə dini birliyi fərqləndirmək, daha doğrusu, dini birliyin milli birlik kimi təqdim edilməsinə imkan verilməməlidir.

Bütün bunlardan sonra belə bir nəticəyə gəlmək olar ki, milli şüur-milli ruh yalnız nəsil, qan birliyi əsasında formalaşa bilməz. Bu prizmadan çıxış etsək görərik ki, milli ideologiyanı da yalnız qan-nəsil birliyi ilə formalaşdırmaq çətindir. Ona görə də, etnik və irqi birliklə yanaşı, tarixi, dini, mədəni, coğrafi, iştisadi amillər milli şüurun formalaşmasında çox mühum rol oynayır. Bu mənada, türklüyümüzlə yanaşı, islamlılığı, çağdaşlı-

ğı, dövlətçiliyi və azərbaycanlılığı ifadə edən yeni bir milli şüura ehtiyacımız var. Burada Türklük dil, mədəniyyət və etnosla, Azərbaycanlılıq vətən və dövlətçiliklə, İslam dini inanc və etiqadla, Çağdaşlıq yeniləşmə və zəmanənin tələbləri ilə bağlıdır. Bunu, Rəsulzadə vaxtilə "Əsrimizin Siyavuşu" əsərində çox məntiqli şəkildə ifadə etmişdir. Onun ifkrincə, bugünkü anlayışla millət qan və irq deyil, mədəniyyət və ideologiyaları özündə əks etdirən milli şüurla bağlıdır [188, 31].

Ona görə də milli şüur, o cümlədən milli ideya dedikdə, onu yalnız etnik mənada başa düşüb, yalnız türklük kimi yozmaq doğru deyildir. Türklük milli şüurun bir hissəsidir. Həm də aparıcı hissəsi və nüvəsidir. Buna səbəb də odur ki, milli şüurun formalaşması hər şeydən öncə dil, mədəniyyət və qan-nəsil birliyi (etnos) ilə bağlıdır. Hər bir insan danışdığı dilin milli varlığıdır. Elə bir varlıq ki, özünü onunla ifadə edir. Bu baxımdan türk (Azərbaycan) dilində danışan və təhsil alan hər bir Azərbaycan vətəndaşı (türk və türk olmayanlar) özünü həm türk (çoxsaylı Azərbaycan türkləri), həm də azərbaycanlı (çoxsaylı türklər, azsaylı etnik qruplar və milli azlıqlar) kimi qəbul edir. Bu bütövlük nəticəsində yaranan azərbaycanlılıq milli şüurun özünüdərk nümunəsidir. Deməli, milli şüur formalaşdırılarkən dil amili birinci yeri tutur.

Burada genetik amilin, yəni eyni qanı daşıyan nəsillərin etnos birliyinin-milliyyətin də xüsusi rolunu qeyd etmək lazımdır. Genetik amil (qan birliyi) milli özünüdərkin daxili bir prosesidir. Bu proses insanın şüuraltı (təhtəlşüur) hissəsinin oyanışına, öz etnikliyini tanımasına səbəb olur.

Mədəniyyət isə milli adət-ənənələrlə bağlıdır. Burada milli mentalitet də çox mühüm rol oynayır. Məsələn, türklərin mədəniyyətində xoşgörü (tolerantlıq), humanizm və sair amillər mühüm yer tutur.

Çar Rusiyası dövründə milli şüur. Ümumiyyətlə, Şimali Azərbaycanda milli şüurun yaranmasına ehtiyac çar

Rusiyasının işğalından sonra meydana çıxmışdı. Belə ki, çar Rusiyasının işğalçılıq siyasəti nəticəsində işğal olunan Quzey Azərbaycan xalqı yenidən özünü ifadə etmək məcburiyyətində qalmışdı. Bu mənada, XIX əsrin ortalarından başlayaraq çar Rusiyasının işğalı altında olan Şimali Azərbaycan ərazisindəki türklər ilk növbədə qan-nəsil (etnos), dil və mədəniyyət birliyindən çıxış edərək milli varlıqlarını ifadə etməyə çalışmışlar. Azərbaycan türk ziyalıları tayfa və xanlıq şüurundan əl çəkərək çağdaş dövrün tələblərinə uyğun millət olmanın əhəmiyyətini anlamışlar. Artıq A.A.Bakıxanov, M.F.Axundzadə, H.B.Zərdabi, S.Ə.Şirvani kimi Azərbaycan mütəfəkkirləri hər hansı milli və dini məsələyə bir tayfa, yaxud bir bölgənin miqyasında deyil, Qafqaz-Azərbaycan türklərinin səviyyəsində yanaşmağa çalışmışlar. Doğrudur, onların Azərbaycan xalqının yenidən millətləşmə prosesinə baxışları bir qədər fərqli olmuşdur. Bu baxımdan onlardan bəziləri bu çar Rusiyasının apardığı siyasət nəticəsində bir sıra hallarda, milli kimliyini və milli dilini "tatar", "müsəlman", hətta "fars-persian" kimi qələmə vermişlər. Bütün hallarda onların ilk addımları nəticəsində milli şüurun çağdaş dövrün tələblərinə uğyun şəkildə formalaşması prosesi başlamışdır.

Şübhəsiz, milli şüurun yenidən bərpası prosesində Azərbaycan türkləri əsas rol oynamışlar. Çünki bu bölgədə istər say, istərsə də tarixi gerçəklik baxımından yalnız Azərbaycan türkləri buna hazır idilər. Bu baxımdan XIX əsrin sonu – XX əsrin əvvəllərində baş qaldıran milli oyanış prosesində aktiv iştirak edən Azərbaycan türkləri və onun aydınlarının (A.A.Bakıxanov, H.B.Zərdabi və b.) əsas xətlərindən biri türklük olmuşdur. XX əsrin əvvəllərində milli şüurun formalaş-dırılması yolunda ciddi addımlar atan milli ideoloqlar da (Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.Topçubaşı, M.Ə.Rəsulzadə və b.) sonunda anlamışlar ki, milli varlıqlarını ifadə etmək üçün ən güclü silahlardan biri etniklikdir-türkçülükdür.

Onlar bu qənaətə dini şüurun istənilən effekti verməməsindən sonra gəlmişlər. Bu mənada, ilk dövrlərdə milli şüurun aparıcı qüvvəsi dini şüur-islamçılıq idisə, daha sonra onu türkçülük əvəz etmişdi. Bu dövrdə xüsusilə, Əhməd Ağaoğlu məhz dini birliyi milli birlik kimi ("islam millətçiliyi") qələmə vermişdir. Belə ki, Ağaoğlu Quranın mahiyyətindən xəbərsiz olduğumuzu, əgər bilərsə buna doğru müəyyən addımların atılıcağına inamını ifadə etmişdir. Onun fikrincə, Qurandan uzaqlaşmağımızın nəticəsidir ki, müsəlmanlar arasında milli birlik yoxdur. Bu baxımdan Qurana üz tutaraq milli birlik məsələsini – "müsəlmanlar qardaşdırlar" prinsipini dərk etməli və bu ideyanı cəmiyyət daxilində yaymaq lazımdır **[251].** Ancaq onun bu ideyası özünü doğrultmadı. Buna səbəb də dini şüura aid bəzi məsələlərin lüzumsuz yerə milli şüura da aid edilməsi idi.

Bu mənada, İslamçılıqdan Türkçülüyə keçid milli şüurun formalaşması yolunda mühüm bir addım idi. Belə ki, çar Rusiyası ideoloqlarının sayəsində milli kimliyi və milli dili saxtalaşdırılan Azərbaycan türklərinin milli şüurunun oyanmasında milli özünəməxsusluqlar (türk kimliyi, türk dili, türk tarixi, türk mədəniyyəti, türk qəzeti, türk teatrı) din faktorundan daha vacib idi. Çar Rusiyasının ideoloqları, fars şovinistləri və onların havadarlarının sayəsində "müsəlman", "tatar", "persian", "fars" və s. adlarla milli kimliyi və milli dili saxtalaşdırılan Azərbaycan türklərinin milli şüuru türkçülük əsasında formalaşdırmaqdan başqa seçənəyi qalmamışdır. Bu o demək deyil ki, milli ideoloqlar İslamçılıq və Çağdaşlıq şüurunu bir kənara qoydular. Əslində bu mümkün də deyildi. Sadəcə, Türklük milli şüurun formalaşmasında İslamçılıq və Müasirlikdən önəmli, aparıcı olduğunu sübut etdi. Çünki İslamçılıq və Müasirləşmək ideyalarından fərqli olaraq antitürk ideoloqlar Türklük məsələsində manevr edə bilmirdilər. Beləliklə, Türkçülük və

onun Azərbaycandakı bir qolu olan Azərbaycan türkçülüyü milli şüurun formalaşmasında təkanverici amil oldu.

Yeri gəlmişkən, burada Türkçülüklə onun bir qolu olan Azərbaycan türkçülüyünü müəyyən qədər fərqləndirmək lazımdır. Əgər Türkçülük bütün Türk dünyasınının oyanışını və birliyini hədəfləyirdisə, Azərbaycan türkçülüyü daha çox bu coğrafiyada yaşayan türklər başda olmaqla, bütün azərbaycanlıların çar Rusiyasının əsarətindən qurtulmasını və milli varlığını dünyaya sübut etməsini qarşıya əsas məqsəd kimi qoymuşdur. Başqa sözlə, türkçülüyün yerli forması olan Azərbaycan milli ideyası imkan verirdi ki, "tarixi-coğrafi Azərbaycan" ərazisində yaşayan bütün türk və qeyri-türk etnoslar vahid millət şəklində meydana çıxsınlar. Əslində bu ideya ən azı bir əsr öncə reallaşmalıydı. Ancaq milli şüur istənilən səviyyədə olmadığı üçün Şimali Azərbaycan Türk Xanlıqları birləşmə bilməmiş və çar Rusiyasının işğalına məruz qalmışdılar. Yalnız bu işğaldan sonra Şimali Azərbaycan türkləri bir millət olaraq toparlanmağa və milli şüuru formalaşdırmağa başlamışlar.

Mirzə Bala Məmmədzadə Azərbaycan türklərinin milliyyətdən millətə keçməsini cəmiyyətin ayrı-ayrı üzvləri arasında milli iradənin, milli düşüncənin, milli müqavimətin bir sözlə, milli şüurun yaranması ilə izah edirdi. Onun fikrincə, artıq XX əsrin əvvəllərində mütərəqqi Azərbaycan türk mütəfəkkirləri özlərini Xanlıqlar dövründə saraylara toplaşaraq xanların zövqünə uyğun olaraq özünü aparan şair və mütəfəkkirlər deyildirlər: "Bu, kollektiv bir hərəkat idi. Bu kollektiv hərəkatdan həqiqətən kollektiv bir vicdan, kollektiv bir şüur və iradə doğacaqdı. Bu şüur və iradə büllurlaşdıqca mahiyyəti və hədəfi artıq büllurlaşmış olan milli hərəkat öz zahiri simasına ad taparaq islami etiketdən çıxır, milli türk simasını alırdı. Çünki kollektiv vicdan islami mahiyyətini çoxdan tərk etmiş, ictimai münasibətlərdə dinin bağlayıcılıq yerini dil almış olurdu" [154,

23]. Beləliklə, M.B.Məmmədzadənin təbrincə desək, xanlıqlar dövründəki parçalanmış türk şüuru artıq aradan qalxmağa başlamış, tayfa-xanlıqlar şüurunun yerini kollektiv şüur – milli şüur (türklük) tutmuşdur. Rəsulzadə də yazırdı ki, artıq Azərbaycan insanının şüurunda bir neçə yerə bölünmüş xanlıqlar deyil, Azərbaycan milli ideyası şüuru formalaşmışdır. Halbuki yüz il əvvəl Azərbaycan Türk Xanlıqları hakimiyyətlərini çar Rusiyasına qeyb etdikləri zamanı belə, Azərbaycan xalqı bugünkü Azərbaycan birliyinə malik deyildilər. Bu baxımdan Azərbaycan Türk Xanlıqları çar Rusiyasının işğalına məruz qaldıqdan sonra, milli birliyi-Azərbaycan birliyini bəlkə də, heç romantik şəkildə belə xəyal etməyən bir millət indi onu əldə etmişdirsə, deməli, gerçək Azərbaycan birliyi şüuru olduğu halda Azərbaycanın istiqlalı qaçılmazdır [188, 54].

Şübhəsiz, 20-ci əsrin əvvəllərində milli şüurun formalaşması prosesinə dünyada və çar Rusiyasında baş verən tarixi olaylar da öz təsirini göstərdi. Bir tərəfdən tayfa-xanlıqlar şüurundan uzaqlaşma, digər tərəfdən ümmətçilikdən millətçiliyə keçid türklük əsasında milli şüurun yaranması ilə nəticələndi. Bu isə, öz əksini "türk kimliyi", "türk dili", "türk mədəniyyəti", "türk tarixi", "türk ədəbiyyatı" anlayışlarında tapdı. Xüsusilə, "Açıq söz" qəzetinin şüarı olan türkləşmək, müasirləşmək və islamlaşmaq milli şüurun formalaşmasında həlledici rol oynadı.

XX əsrin əvvəllərində Milli şüur və beynəlmiləl ideyalar. Ümumiyyətlə, bu gün olduğu kimi, ötən əsrin əvvəllərində də milli şüurun formalaşması prosesində əsas mübarizə islamlaşmaq, türkləşmək və müasirləşməklə ("üçlük"lə) yanaşı, beynəlmiləl ideya hesab edilə biləcək sosial-demokratizm, liberal-demokratizm və başqaları arasında da getmişdir. Xüsusilə, XX əsrin əvvəllərində dünyanın bir nömrəli qloballaşma hadisəsi kimi sosial-demokratizmi (marksizmi) hesab etmək olar.

O dövrdə bəziləri hesab edirdilər ki, zəmanənin əsas ideyası islamlaşmaq və türkləşmək deyil, sosial-demokratizm-dir-bütün fəhlə və kəndli sinfinin birləşməsi və dünyada sosial-izm cəmiyyəti qurmaqdır. Bu mənada, Azərbaycan türklərinin də xilas yolunu islam, türklük deyil, sosial-demokartizmlə bağlayanlar da vardı. Etiraf etmək lazımdır ki, həmin dövrdə sosial-demokratizm qlobal hadisə kimi, bir müddət islamçılıq və türkçülük şüuru ilə başa-baş mübarizə apara bilmişdir. Hətta, Azərbaycanın bəzi aydınları ilk dövrlərdə sosial-demokratizmi milliyyət və islamiyyətdən belə üstün tutmuşlar.

Deməli, hazırda olduğu kimi, XX əsrin əvvəllərində də milli şüurun hansı ideyalar əsasında formalaşa biləcəyi ilə bağlı təzadlı mülahizələr və mövqelər olmuşdur. Bir çox aydınlarımız sosial-demokrtizmin təsiri altında islamçılığın ona zidd olmamasını əsaslandırmağa çalışmışlar. Marksizm kimi islamiyyətin də beynəlmiləl mahiyyətə malik olması vurğulan-mışdır. Beləliklə, islamçılıqla beynəlmiləl ideya hesab olunan sosial-demokratizm arasında oxşarlıqlar tapmaq bir növ əsas ideoloji məşğuliyyətlərdən biri olmuşdur (M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə, Ə.Ağaoğlu və b.). Çünki islamçılıq və beynəlmiləlçilikdən fərqli olaraq, türkçülük və sosial-demo-kratizm arasında bərabərlik işarəsi qoymaq çox çətin idi. Ona görə də, ilk dövrlərdə milliyyət anlayışı daha çox tənqid edilmiş, bu mənada milli şüurun milliyyət əsasında formalaşmasının əleyhdarları heç də az olmamışdır. Məsələn, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə və başqaları ilk dövrlərdə yazırdılar ki, milliyyəti önə çəkənlər uyğun olaraq islamiyyətin və sosial-demokratiyanın düşmənidirlər. Rəsulzadənin fikirlərindən belə çıxırdı ki, beynəlmiləlçilik nuru olan sosial-demokratiya "milliy-yət"çiliyin düşmənidir [185, 108; 123]. Hətta, Rəsulzadə İsmayıl bəy Qaspıralını və onun "Tərcüman" qəzetini milliyyət məsələsini daha çox qabardaraq sosial-demokratiyanı tənqid etdiklərinə görə onlarla da razılaşmadığını bildirmişdir [185,

95]. Ə.Hüseynzadə də həmin dövrdə "Füyuzat" jurnalında nəşr olunan "Milliyyət və insaniyyət" məqaləsində, milliyyət və ona yaxın cərəyanların deyil, islamiyyət və sosial-demokratiyanın vacibliyindən bəhs etmişdir [109, 113-114].

Doğrudur, onlar islamiyyət və sosial-demokratizmin bəşəriyyət üçün daha vacib olmasından bəhs edərkən heç də milli kimliklərinin-türklüklərinin üstündən xətt çəkməmişlər. Əksinə, bu milli ideoloqlar türk kimliklərini az qala hər bir yazılarında vurğulayaraq türk mədəniyyətini və türk tarixini təbliğ etmişlər. Ancaq ümumilikdə, Rəsulzadə bir müddət milliyyət anlayışını sosial-demokratlar kimi izah etmiş, Hüseynzadə və Ağaoğlu isə onu islamiyyətin içində əritmişdir.

Deməli, XX əsrin əvvəllərində milli aydınlarımızın aparıcı hissəsi qloballaşma hadisəsi kimi dəyərləndirə biləcəyimiz marksizmə qarşı bu formada mübarizə aparmışlar. Bu, müəyyən bir keçid dövründə onlar üçün ən məqbul variant idi. Bu baxımdan yalnız milliyyət məsələsindən çıxış etməklə, beynəlmiləliyyət və islamiyyəti tamamilə bir kənara qoymaqla milli şüuru formalaşdırmaq istənilən effekti verə bilməzdi. Məhz əksər aydınlarımızın sosial-demokratizmə münasibətdə doğru mövqe tutmaları, son nəticədə türkülüyün və islamçılığın bir ideya kimi marksizm üzərində qalib gəlməsi ilə nəticələnmişdi. Bununla da milli şüurun əsas bazisi türkçülük və islamçılıq olmuşdur.

Göründüyü kimi, bu dövrdə müxtəlif ideyaların fonunda milli şüurun formalaşması heç də asan olmamışdır. Bir tərəfdən marksistlər və sosialistlər, digər tərəfdən mühafizəkarlar və ittihadçılar milli şüurun formalaşması prosesinə əngəl olmağa çalışmışlar. Çünki bu qüvvələr hesab edirdilər ki, milli şüura sahib olmaq uyğun şəkildə dünyada sosializmin və islamiyyətin qələbəsinə nail olmağa əngəldir. Bu mənada, milli şüuru sosialist və islami beynəlmiləlçiliyə zidd sayanlar hesab edirdilər ki, Azərbaycan milli ideyası utopiyadan başqa bir şey

deyildir. Üstəlik, onların fikrincə, Azərbaycan milli ideyası "İslam birliyi"nə, yaxud da sosializm hərəkatına zərbə idi. Parlamentin ilk iclaslarının birində Rəsulzadə məhz bu cür müddəaları nəzərə alaraq demişdir ki, vaxtilə Azərbaycan milli ideyası irəli sürüləndə mühafizəkar islamçılar bunu "İslam birliyi"ni parçlamaq, sosial-demokratlar isə dünyada sosializmin qalib gəlməsi ideyasına xəyanət kimi görmüşlər. Ancaq Cümhuriyyət yarandıqdan sonra istər mühafizəkar islamçılar, istərsə də sosialistlər Azərbaycan milli ideyasını iki əllə müdafiə etmişlər [34, 50].

Rəsulzadənin bu tarixi çıxışı göstərir ki, həmin dövrdə milli şüur artıq qalib bir vəziyyətə gəlmişdir. Ancaq onun bu qalibiyyəti istər sosial-demokrat cildinə girmiş rus bolşeviklərini və onların Azərbaycandakı əlaltılarını, istərsə də "Rusiya müsəlmanlarının birliyi" xülyası ilə yaşayan, bu mənada Rusiya imperiyasının dağılmasını istəməyən ittihadçıları müəyyən mənada narahat edirdi. Xüsusilə, rus bolşevikləri Azərbaycanda milli şüurun qələbəsini həzm edə bilmirdilər. Çünki milli şüur ilk növbədə türklüyə, daha sonra islami və demokratik dəyərlərə əsaslanırdı. Beləliklə, bunların vəhdəti olaraq Azərbaycan milli ideyası, yəni azərbaycanlılıq şüuru da yaranmış olurdu.

Azərbaycanlılıq şüuru dil birliyi, qan birliyi (genetik amil) və mədəniyyət birliyinə əsaslanan türkçülüklə yanaşı, İslam, Vətən və Dövlət şüurunu da özündə əks etdirirdi. Yuxarıda da qeyd etdiyimiz kimi, türkçülük milli şüurun əsas xətlərindən biri və birincisidir. Ancaq müxtəlif etnosların yaşadığı bir ölkədə yalnız nəsil-qan birliyindən çıxış etmək heç də asan deyildir. Bu o deməkdir ki, dil, mədəniyyət və qan-nəsil (etnos) birliyi daha çox milli dövlət yaranana qədər aparıcı mövqe daşıya bilər.

Azərbaycan Cümhuriyyəti dövründə milli şüur. Dövlət yarandıqdan sonra etniklik (dil, mədəniyyət və etnos birliyi) kifayət etmir. Başqa sözlə, bir dövlətdə, xüsusilə

çoxetnoslu bir dövlətdə yalnız etniklikdən çıxış etmək və milli ideya kimi qəbul etmək problemlidir. Doğrudur, bu zaman da müstəqil dövlətdə aparıcı etnosun dili və mədəniyyəti birmənalı şəkildə qəbul edilir. Ancaq müstəqil dövlətdə etniklik öz yerini qoruyub saxlamaqla yanaşı, digər azsaylı etnik qrupların da dil və mədəniyyətləri nəzərə alınmalıdır. Bunun üçün isə dini dəyərlər və dövlətçilik vacib amillərdəndir.

Azərbaycan Cümhuriyyəti dövründə türkçülüyün aparıcılığı qəbul edilməklə yanaşı, dini dəyərlərin qorunması, demokratiyanın təmin edilməsi və dövlətçiliyin möhkəmləndirilməsi üçün azərbaycanlılıq şüuru və onun nəticəsi olaraq Azərbaycan milli ideyası (azərbaycançılıq) irəli sürüldü. Hətta, azərbaycançılığı ictimai şüurda formalaşdırmaq üçün Türk milləti, Türk dili, Türk teatrı, Türk mədəniyyəti ilə yanaşı, Azərbaycan Türk milləti, Azərbaycan türk dili, Azərbaycan türk teatrı və s. anlayışlardan da istifadə olunurdu. Bununla da Azərbaycan Cümhuriyyətinin yalnız türklərin deyil, burada yaşayan türk və qeyri-türk etnosların dövləti və vətəni olması şüuru formalaşmağa başladı. Şübhəsiz, bütün bunlar bir tərəfdən Azərbaycan türklərinin min illər boyu sahib olduqları dövlətçilik ənənələrinin, digər tərəfdən çağdaş dövrün tələblərinin təzahürü idi.

Azərbaycan Cümhuriyyətinin ideoloqları milli şüurun formalaşması zamanı uzaqgörənliklə gördükləri işlərin nəticəsində Azərbaycan xalqının şüurunda dərin iz sala bildilər. Cümhuriyyətin iki ilə yaxın mövcudluğu dövründə bütün Azərbaycan vətəndaşlarının şüurunda bir vətən, dövlət və milli varlıq şüuru yarandı. Azərbaycan türkləri qurduqları dövlətdə, eləcə də milli hökumətin idarəçiliyində azsaylı etnoslara və milli azlıqlara nə dərəcədə dəyər verirdisə, onlar da Azərbaycan Cümhuriyyətini bir türk dövləti olaraq səmimi şəkildə qəbul etməklə yanaşı, onu özlərinə bir vətən və dövlət kimi də görürdülər. Deməli, onlar Azərbaycan Cümhuriyyətinin yaranmasında türkçülüyün əhəmiyyətini başa düşürdülər. Eyni zamanda, Azərbaycan

türklərinin bundan sui-istifadə etmədiyini və bu gənc dövlətdə türk, qeyri-türk bütün vətəndaşların eyni hüqüq və azadlıqlara malik olduğunu da yaxşı dərk edirdilər. M.Ə.Rəsulzadə parlamentdəki çıxışlarında, eləcə də Cümhuriyyətə həsr etdiyi bir çox əsərlərində bu məsələni dəfələrlə vurğulamışdır. Milli ideoloqumuz haqlı olaraq yazırdı ki, bu Cümhuriyyət türk və qeyri-türk bütün Azərbaycan vətəndaşlarının Vətəni və Dövlətidir, burada hamı eyni hüquqlara malikdir [188, 40].

Milli şüur məsələsində Türk və Azərbaycan anlayışlarının ayrıca bir yeri var. Türklük və azərbaycanlılıq bir tamdır. Çünki əsrlər boyu biri (türklük) o birini (azərbaycanlılığı) tamamlamış, bununla da bütövlük şüurunu-milli şüurunu daima mühafizə etmişlər. Ona görə də, Cümhuriyyət dövründə də azərbaycanlılığın bir tərəfdən türk etnoslarını, digər tərəfdən türk olmayan etnosları özündə birləşdirməsi təbii bir proses olmuşdur. Çünki azərbaycanlılıq türklük, türklük isə azərbaycanlılıq demək idi. Bu baxımdan azərbaycanlılıq qədər türklük də bütün azərbaycanlılar üçün birləşdirici simvollardan biri idi. Türklük demək talışa, ləzgiyə, kürdə, udinə və başqa etnoslara qardaşlıq, birlik, bərabərlik, bir sözlə azərbaycanlılıq demək idi.

Bununla da Azərbaycanda milli mənsubiyyətindən, dinindən, siyasi dünyagörüşündən asılı olmayaraq vətəndaş həmrəyliyli yaranmışdı. Çünki milli ideoloqlarımızın irəli sürdüyü Azərbaycan milli ideyası-azərbaycanlılıq şüuru heç zaman türklük şüurundan ayrı təsəvvür edilməmişdir. Əksinə, türklük olmadan, azərbaycanlılığın heç bir məna və mahiyyətə malik olmayacağını türklər də, azsaylı etnoslar da yaxşı anlayırdılar. Ona görə də Azərbaycan Sovet Rusiyasının işğalına məruz qaldığı dövrdə və sonralar Azərbaycan türkləri ilə yanaşı talışlar, kürdlər, ləzgilər və başqa azsaylı etnoslar müstəqil Azərbaycan dövlətini qorumaq üçün birgə mübarizə aparmışlar. Bu, ilk növbədə milli şüurun-azərbaycanlılılq şüurunun təzahürünün nəticəsi idi. Şübəhsiz, gənc bir Cümhuriyyətin milli və dini

məsələlərdə heç bir ayrı-seçkilik qoymaması, dövlət quruculuğunda milli mənsubiyyətdən çox bilikli və idarəçilik qabiliyyəti olan istənilən etnosun nümayəndəsinə yer verməsi də milli şüurun formalaşması istiqamətində çox əhəmiyyətli olmuşdur.

Sovet dövründə milli şüur və beynəlmiləl şüur. Sovet Rusiyası Cümhuriyyəti işğal etdikdən sonra Azərbaycanda formalaşan milli şüuru məhv etmək üçün pilləli siyasi-ideoloji işlər həyata keçirdi. Burada sovet ideoloqlarının əsas məqsədi türklük şüurunu azərbaycanlılıq şüurundan ayırmaq və aradan qaldırmaq idi. Bunun üçün isə, rus bolşeviklərinin fikrincə, ilk növbədə türklük şüurunun birbaşa daşıyıcıları olan milli aydınlarımız ya məhv edilməli, ya da onların siyasətlərinə uyğunlaşdırılmalı idi. İkinci növbədə isə Azərbaycan Cümhuriyyətinin süqutunda yaxından iştirak edən, ancaq özlərini türk kimliyi içində görənlərin məhv edilməsi idi. Bu proses 1920-ci il aprel işğalından başlamış və 1930-cu illərin sonlarına qədər davam etmişdi.

Bu baxımdan işğalın ilk günündən etibarən birinci növbədə, milli şüurun formalaşmasında əsas rol oynayan milli aydınlarımız nəzarət altına alındı. Sovet rejimi bir tərəfdən milli aydınlar arasında onlara yaxın olanları müəyyənləşdirir, digər tərəfdən heç vaxt onlarla yollarının birləşməsi mümkün olmayanları fiziki və mənəvi cəhətdən sındırmağa çalışırdı. Bu mənada, ilk mərhələ türklük şüurunun birbaşa daşıyıcıları üçün çox ağrılı oldu. Onlar Azərbaycanda türklük şüurunu qorumaq və yaşatmaq üçün yalnız canlarından olmadılar, eyni zamanda bütün qohum-əqrabalarının da özləri ilə bərabər ya ölümünə, ya da sürgününə səbəb oldular. Bu bir milli kimlik və milli varlıq davası idi. Əgər o zaman türklük şüurunun daşıyıcıları Vətəndə və Vətəndən kənarda bu davanı aparmasaydılar, bəlkə də bugünkü Azərbaycan olmayacaqdı.

Özəlliklə, SSRİ hərbi-diktatura rejiminin mövcudluğu dövründə Vətəndən xaricə mühacirətə getməyə imkanları olduğu halda belə, bunu etməyib bütün mümkün vasitələrə əl ataraq türklük, eyni zamanda Azərbaycan milli ideyası (azərbaycanlılıq) şüurunu yaşadanlar bugünkü Azərbaycanın milli varlığının müqəddəs örnəkləridir. Məhz onların mücadiləsi, son nəfəslərinə qədər türklük və azərbaycanlılıq üçün apardıqları mübarizə nəticəsində, SSRİ rejimi Azərbaycanda milli şüurun tamamilə məhv olunmasına nail ola bilmədi.

Ancaq onu da etiraf etməliyik ki, antitürk, antiazərbaycan SSRİ ideoloqları milli şüurun türklük və azərbaycanlılıq istiqamətində formalaşması yolunda ciddi zədələrə yol açа bildilər. Özəlliklə, türklük və azərbaycanlılıq şüurunun əsas daşıyıcılarının (H.Cavid, Ə.Cavad, B.Çobanzadə və b.) repressiya və mənəvi terrora məruz qalması milli şüur açısından çox ağrılı olmuşdur. Qeyd edək ki, məhz milli şüurun əsas daşıyıcılarını məhv etmək üçün SSRİ rejimi ilk dövrlərdə müəyyən mənada onlara milli varlıqlarını və dini kimliklərini ifadə etmək üçün bilərəkdən "şərait" yaratmışdır. Bununla da, SSRİ rəhbərliyi müəyyən bir zaman kəsiyində müəyyənləşdirməyə çalışmışdır ki, milli aydınlardan kimlər öz yolundan dönəcək, kimlər isə heç vaxt dönməyəcəklər. İlk növbədə də, bu repressiyalar türklük və azərbaycanlılıqdan dönməyənlərə qarşı həyata keçirilmişdir.

Bu zaman yalnız fiziki repressiya həyata keçirilməmişdir. Əslində fiziki repressiya SSRİ rəhbərləri və ideoloqları üçün məsələnin yalnız bir tərəfi idi. Onların əsas məqsədi Azərbaycan insanının türklük, islamlıq və azərbaycanlılıq ideyalarına əsaslanan milli şüurunu məhv etmək, onun yerində tamamilə yeni bir nəsil yetişdirmək və yeni bir ictimai şüur formalaşdırmaq idi. Elə bir nəsil ki, türklüyə, islamlığa və azərbaycanlılığa tamam başqa gözlə, başqa şüurla baxsın. Bir sözlə, bu xalq milli kimliyinə və dininə nifrətlə, Azərbaycana isə

"gəlmə" millət ruhunda böyüdülsün. Bunun üçün də, əvvəlcə türkçülük və azərbaycançılığın əsas daşıyıcıları olan milli ziyalılar repressiya olundular.

Ancaq həmin dövrdə SSRİ rəhbərliyi üçün yalnız türkçülüyün əsas daşıyıcıları deyil, marksizmə münasibətdə onlarla bir sırada yer tutan, ancaq milli kimlik və milli dil məsələsində türklükdən çıxış edənlər də təhlükəli idilər. Bu baxımdan SSRİ rejimi ikinci növbədə də olsa, onları da təftiş etdi. Bunun ilk qurbanlarından biri N.Nərimanov, daha sonra R.Axundov, Ə.Qarayev və başqaları oldular.

Deməli, sovet ideoloqları üçün N.Nərimanovun, R.Axundovun və başqalarının siyasi ideologiya baxımından kommunist və ateist olması yetərli deyildi. Rus bolşeviklərinin fikrincə, onlar milli kimlik baxımından da özlərini kommunist, yaxud da sovet beynəlmiləlçisi hesab etməli idilər. Başqa sözlə, rus bolşevikləri üçün türk kimliyi və türk dili belə SSRİ imperiyasının gələcəyi üçün təhlükə hesab olunurdu. Bu isə, birbaşa milli şüur məsələsi ilə bağlı idi. Rus bolşeviklərinin fikrincə, azərbaycanlı bir kommunist milli kimliyinin türk, dilinin türk dili olduğunu iddia edirsə, deməli, o sovet ideologiyası baxımından zərərlidir.

Bu mənada, Sovetlər Birliyi öz varlığı üçün həmişə ciddi təhlükə olaraq türkləri, xüsusilə də Azərbaycan türklərini görmüşlər. Ən azı onlar çar Rusiyası dövründə Azərbaycan türklərinin şüur baxımdan hansı səviyyədə olduqlarını öyrənmiş və bundan nəticə çıxarmışdılar. Onlar yaxşı bilirdilər ki, çar Rusiyasının devrilməsində digər amillərlə yanaşı, Rusiya daxilindəki türk milli azadlıq hərəkatları əsas rol oynamışdır. Deməli, SSRİ-nin çöküşündə əsas rollardan birini də türklər oynayacaqdır. Bunu, hələ o dövrdə proqnozlaşdıran sovet ideolqları qabaqlayıcı tədbirlər görməyi zəruri hesab etmişlər. Belə ki, rus bolşevikləri hətta, SSRİ çökərsə belə türklərin uzun

müddət özlərinə gələ bilməməsinin, milli dövlət olaraq yaşamaqda çətinlik çəkməsinin planlarını cızmışlar.

Ona görə də, bu gündən baxanda həmin dövrdə baş verənləri daha aydın şəkildə dərk etməliyik. Ən azı ona görə ki, günümüzdə qarşılaşdığımız problemlərin kökü məhz həmin dövrdə, xüsusilə 1930-cu illərdə qoyulmuşdu. Çünki həmin dövrdə yalnız türklük və azərbaycanlılıq şüurunun daşıyıcılarına deyil, birbaşa milli şüurun özünə qəsd edilmişdir. Bütün bunlardan sonra milli şüur "sovet beynəlmiləlçiliyi" şüuru ilə əvəz olunmuşdur.

Əlbəttə, ümumilikdə beynəlmiləlçilik ilk baxışda mənfi bir anlayış deyildir. Ancaq baxır ona hansı millət nə cür yanaşır. Əgər SSRİ dövründə Azərbaycan vətəndaşı da, Qazaxıstan vətəndaşı da, Rusiya vətəndaşı da eyni hüquqları malik olsyadı, eyni hüquqlarla yaşasaydılar, o vaxtda bu beynəlmiləlçilik yaxşı ideya hesab olunardı. Ancaq bundan sui-istifadə edib biri o birsini əzirdisə, bu saxta beynəlmiləlçilik idi.

Hər bir insan, vətəndaş ilk növbədə, yaşadığı, doğulduğu Vətənin, tapındığı Dinin, və təmsil olunduğu Millətin nümayəndəsidir. Yalnız bunları dərk edəndən sonra bəşəri ideyalardan çıxış edilə bilər. Necə ola bilər ki, kimsə doğulduğu andan kosmopolit olub qeyri-müəyyən bir dildə danışsın. Bu, normal olaraq mümkün deyil. Bəşəri ideyalardan H.Cavid də, Ə.Cavad da başqası da yaza bilər və yazıblar da. Yer kürəsi burada yaşayan bütün insanların vətənidir. Ancaq birinci insanın doğulduğu ərazi onun vətənidir. İlk növbədə, hər bir insan üstündə yaşadığı Vətənin, təmsil olunduğu Millətin və Dinin dəyərini bilməlidir. Bundan sonra bəşəri ideyalarla çıxış etməsi normaldır.

Bu baxımdan SSRİ ideoloqları sözün həqiqi mənasında beynəlmiləlçilikdən çıxış etməmişlər. Onlar üçün kommunizm, beynəlmiləlçilik, xalqlar dostluğu ideyaları ilk növbədə vətən, millət, din anlayışlarını insanların şüurundan çıxartmaq üçün bir

ideoloji silah olmuşdur. Uzun müddət bir nəslin şüuruna hər gün, hər saat, hər dəqiqə eyni informasiyalar yeridilərsə, eyni sözlər təkrarlanarsa bu gec-tez öz təsirini göstərəcəkdir. SSRİ ideoloqları Azərbaycan işğal olunduqdan sonra addım-addım məhz milli şüuru aradan qaldırmağa və onu "sovet şüuru" ilə əvəz etməyə çalışmışlar.

Maraqlıdır ki, beynəlmiləlçi əsaslı "sovet şüuru" formalışdırılarkən yenidən repressiya olunmuşlara müraciət edilmiş, hətta onlara bəraət verilmiş, günahsız olmaları barədə məhkəmə qərarları çıxarılmışdı. Ona görə yox ki, SSRİ rəhbərləri fiziki cəhətdən repressiya edib, mənəvi-ruhi cəhətdən yoxsul buraxmaq istədikləri Azərbaycan türklərinə ürəkləri yanırdı. Əsla. Sadəcə, bu bəraətlər beynəlmiləlçi əsaslı "sovet şüuru"nu Azərbaycan cəmiyyətində təbliğ etmək üçün lazım idi. Bu zaman repressiya olunmuş milli ziyalılara da ancaq "sovet beynəlmiləlçiliyi" ideyası əsasında müraciət olunurdu.

Bununla da sovet ideoloqları ikibaşlı oyun oynayırdılar. Vaxtilə repressiya etdikləri milli ziyalılara "bəraət" verməklə əslində Azərbaycan xalqının deyil, öz imperiya maraqlarını güdürdülər. Başqa sözlə, SSRİ ideoloqları Azərbaycan xalqında qeyri-milli şüur formalaşdırmaq üçün repressiya olunmuş milli ziyalılardan sui-istifadə edirdilər. Bu prosesi sovet ideoloqları elə bir şəkildə həyata keçirirdilər ki, Azərbaycan insanının keçmişə baxışında ziddiyyətlər yaransın. Yəni keçmişini doğru-dürüst görə bilməsin, dərk etmək iqtidarında olmasın.

Çünki SSRİ ideoloqları da yaxşı anlayırdılar ki, istənilən cəmiyyəti, milləti yaşadan onun sözün həqiqi mənasında milli aydın-ziyalı adına layiq olanlardır. Əgər cəmiyyəti, milləti yaşadan milli aydınlar yoxdursa, onda həmin millət milli ruhdan yoxsul qalacaqdır. Əvəzində isə ona hansısa qeyri-müəyyən "Sovet ruhu", "Sovet beynəmiləlçiliyi" ideyaları ilə silahlanmış "kosmopolit ziyalılar" sırımaq mümkün olacadır. Başqa sözlə, Sovetlər Birliyinin "ziyalı"sı, ancaq onların istədiyi şəkildə

"ziyalı" ola biləcək. SSRİ dövrünün yetişdirdiyi "ziyalı"nın türklüyə, islamlığa baxışı da yalnız və yalnız "sovet beynəlmiləlçiliyi" və "xalqlar dostluğu" ideyasından kənara çıxmayacaqdır.

Beləliklə, son 50 ildə Azərbaycanda milli aydının yerini "Sovet ruhlu", "beynəlmiləlçi ruhlu" ziyalılar tutmağa başladı. Çünki fiziki repressiyalar nəticəsində 1920-1930-cu illərdəki "pantürkçü", "panislamçı" adı ilə damğalanmış milli aydınlardan əsər-əlamət qalmamışdı. Onların əvəzində əsasən türklüyə, islamlığa az qala tamamilə yad gözü ilə baxan yeni bir ziyalı təbəqəsi və həmin təbəqənin də təmsil olunduğu Sovet Azərbaycanı nəsli yetişmişdi. Bununla da, Sovet Azərbaycanın ziyalısı və nəsli ilə 1930-cu illərə qədərki milli ziyalılar və nəsil arasında bağ əsasən qırılmış, aralarında bir uçurum yaradılmışdı. Bu uçurum zaman-zaman daha da dərinləşdirilmiş, bunun da nəticəsi olaraq Azərbaycan xalqının türklüyə, islamlığa, milli azərbaycanlılığa əsaslanan milli şüuru ciddi şəkildə zədələnmişdir.

Bu baxımdan SSRİ dövründə əvvəlcə milli aydınların nüfuzuna ağır zərbə vuruldu. Onların əksəriyyəti istər mənəvi, istərsə də fiziki cəhətdən məhv edildi. Çünki əvvəlcə sovet ideoloqlarının qarşısında əsas məqsəd milli aydını məhv etmək idi. Bununla da cəmiyyətdə sözün həqiqi mənasında, milli aydın olmaq çox qorxulu idi. Sovet ideoloqları yalnız 1950-ci illərdən başlayaraq ziyalının nüfuzunu bərpa etməyə başladılar. Ancaq bu nüfuzun bərpası millilik deyil, sovet beynəlmiləlçiliyi üzərində quruldu. Yəni burada diqqət çəkmək istədiymiz əsas məqam odur ki, SSRİ dövründə milli aydın nüfuzunun məhvindən sonra Azərbaycan cəmiyyətində sovet ruhlu ziyalı formalaşdırılmağa başlandı.

Çağdaş dövrdə milli şüur və beynəlmiləl şüur. Fikrimizcə, indiki dövrdə yaşananlar, 20-ci əsrin əvvəllərində baş verən proseslərin yeni bir formada təkrarıdır. Burada söhbət

tarixin təkrarından deyil, müxtəlif tarixlərdə baş verən hadisələrin oxşar cəhətlərindən gedir.

Belə ki, rus imperiyası təfəkkürünün daşıyıcıları o vaxtda da, indinin özündə də Azərbaycanda türklük və milli azərbaycanlılıq şüurunun formalaşmasına bacardıqları qədər əngəl olmuşlar. Bu işdə isə, onlarla həmişə eyni mövqe tutan fars şovinistləri olmuşlar. Hazırda isə eyni mövqeni davam etdirən İrandakı fars-molla rejimidir. Hər iki antiazərbaycan, antitürk qüvvələr daima Azərbaycanda milli şüurun formalaşmasına qarşı çıxmışlar. Onlar bunu həyata keçirmək üçün vaxtilə ermənilərdən, indi isə ermənilərlə yanaşı, digər qeyri-türk etnoslardan da istifadə etməyə çalışırlar.

Milli ideoloqlar bu problemləri önləmək üçün vaxtilə bir Türk dövlətinə "Azərbaycan" adını verdilər ki, türk də, talış da, ləzgi də, udin də, tat da və başqa etnoslar da onu özlərinə vahid Vətən və Dövlət bilsinlər! Ancaq ermənilər rusların əli ilə bu birliyə xəyanət etdilər, Vətənimizin bir hissəsini Rusiyanın və rus əsgərinin birbaşa hərbi yardımı ilə işğal etdilər. Deməli, ilk növbədə ermənilər azərbaycanlılıq şüuruna qarşı çıxmışlar. Ermənilərin bu xəyanətlərinin arxasında rus imperiyası təfəkkürünün daşıyıcıları dayandığı üçün hər şey bəllidir. O vaxtda da, bu günün özündə də rus şovinist ideoloqlar üçün milli dövlətlər və milli dövlətdə milli şüurlar qəbul edilməzdir. Çünki hər millətin müstəqil milli şüura malik olması imperiya təfəkkürü ilə üst-üstə düşmür. Bunun qarşısını almaq üçün rus imperialistləri və fars şovinistləri milli dövlətlərdə "parçala və hökm sür!" faktorundan həmişə geniş şəkildə istifadə etmişlər.

Milli dövlətlərdə bölücülüyü həyata keçirmək üçün bu antiazərbaycan, antitürk dairələr bir tərəfdən "beynəlmiləl" ideyalardan (avrasiyaçılıq, "şiə islamçılığı" və s.), digər tərəfdən isə qeyri-türk etnoslardan istifadə etməyə çalışmışlar. Birinci halda, onlar həmişə Azərbaycan xalqının gələcəyinin ya Rusiya, ya da İranla bağlı olmasını təbliğ etmişlər. Xüsusilə, hazırda rus

ideoloqları "avrasiyaçılıq" adı altında keçmiş SSRİ xalqlarını, o cümlədən Azərbaycan türklərini yeni bir oyuna gətirməyə cəhd edirlər. İki əsrdə Azərbaycanı iki dəfə, özü də hərbi güclə işğal edən Rusiya üçüncü dəfə, hərbi gücdən istifadə etmədən imperiya maraqlarını həyata keçirməyə çalışır. Bu zaman rus ideoloqları sovet dövrünün nostalgiyası ilə yaşayan sovet nəslindən maksimum faydalanmağı, onların vasitəsilə gənclərə təsir göstərməyi də unutmurlar.

İran rejiminin ideoloqları "şiə islamçılığı" adı altında, bir tərəfdən bu məsələdə rus ideoloqlara dəstək verir, digər tərəfdən öz maraqlarını da güdürlər. Bu gün rus və fars ideoloqlarının "Gülüstan" (1813) və "Türkmənçay" (1828) müqavilələri ilə bağlı konyuktura ilə məşğul olması Azərbaycanda milli şüurun formalaşmasının qarşısını almaq, Azərbaycan xalqının şüurunda aydınlaşmaların aparılmasına əngəl olmaqdır.

4.1.2.Milli şüur və vətəndaş cəmiyyəti, modernləşmə

Hazırda Azərbaycan xalqının milli şüuruna ciddi təsir göstərən faktorlar arasında qloballaşma prosesi xüsusi yer tutur. Bir çoxları hesab edirlər ki, qloballaşmanın əsas ideyaları modernləşmə, postmodernləşmə, demokratiya, liberalizm və vətəndaş cəmiyyətidir. Fikrimizcə, bütün bunlar Azərbaycan vətəndaşının təfəkküründə yaxşı halda beynəlmiləl, pis halda isə kosmopolit şüur formalaşdıra bilər. Bu ideyaların tətbiqi zamanı irqindən, dinindən asılı olmayaraq bütün insanların hüquq və azadlıqları önə çəkildiyi üçün millilik arxa plana keçirilir. Xüsusilə, son zamanlar vətəndaş cəmiyyəti, çoxmədəniyyətlilik, informasiya cəmiyyəti, tolerantlıq anlayışlarının qloballaşma prosesinin tərkib hissəsi kimi təbliği çox düşündürücüdür. Bizə elə gəlir ki, qloballaşma prosesi anlamında aldadıcı və zahirən müsbət görünən (məsələn, fərdin azadlığı millətin və dövlətin azadlığında üstündür) ideyaların içində şüurlarımıza yeridilən,

ancaq milli və dini mənəviyyatımıza uyğun olmayan məsələlərdə son dərəcə diqqətli olmalıyıq. Bu mənada, qlobal-laşma prosessi ilə bağlı Səlahəddin Xəlilovun fikirləri çox anlamlıdır: "İndi qloballaşma adı altında baş verən proseslər əslində bir qütblü dünyanın mütləqləşdirilməsi və milli dövlətlərin vahid bayraq altında sıraya düzülməsi, bir dilin başqa dilləri, bir siyasi iradənin başqa siyasi iradələri, bir iqtisadi marağın başqa maraqları sıxışdırıb çıxarması ilə müşaiyət olunur" [113[a], 22].

Azərbaycanda qloballaşmanın geniş yayıldığı, modern və vətəndaş cəmiyyətinin qurulmasına çağırışlar edildiyi bir dövrdə, islamçılıq və türkçülüyün də nə qədər vacibliyi məsələsinin xüsusi maraq doğurması təbiidir. Ümumiyyətlə, qloballaşma prosesində "üçlüyə" (türkləşmək, islamlaşmaq və müasirləşmək) münasibətdə iki əsas baxış var: 1) Qərbyönlü vətəndaş cəmiyyəti, modernləşmə "üçlüy"ə nisbətən daha vacibdir; 2) Qərbyönlü vətəndaş cəmiyyəti quruculuğu, modernləşmə nə qədər zəruri olursa-olsun, "üçlük" onun kölgəsində qalmamalıdır.

Deməli, bu gün də milli şüurun formalaşmasında ən azı iki tərəfli mübarizə gedir. Bu mübarizədən hansının qalib çıxması ilə milli şüurun formalaşması prosesi yeni bir çalar daşıya bilər. Daha doğrusu, əgər vətəndaş cəmiyyətinin, modernləşmənin "üçlük"dən daha vacib olması qənaətinə gəlinərsə, yaxud da gəlinirsə bu zaman milli şüurun öz mahiyyətindən xeyli dərəcədə kənara çıxması baş verə bilər. Çünki vətəndaş cəmiyyəti üzərində formalaşan şüur daha çox beynəlmiləl, müəyyən mənada kosmopolit şüurdur. Digər tərəfdən, vətəndaş cəmiyyətinin özünə olan münasibət və onun tətbiqi forması birmənalı deyildir. Belə ki, sözün həqiqi mənasında vətəndaş cəmiyyəti modeli uyğulanarsa, müəyyən mənada o, milli şüurla uzlaşdırıla bilər. Ancaq bu formal şəkildə baş verərsə məsələ tamamilə başqa rəng alar.

Burada incə məqam odur ki, beynəlmiləl ideyalara (liberalizm, demokratiya, vətəndaş cəmiyyəti və s.) hər bir millət öz adət-ənənələri və mədəniyyəti mövqeyindən yanaşır. Bu zaman millətin milli şüurunun inkişaf səviyyəsindən asılı olaraq beynəlmiləl ideyalar və milli ideyaların birgə mövcudluğu da mümkündür. Bu mənada, milli demokratiya, milli liberalizm, milli sosial-demokratiya anlayışları da siyasi-ideoloji ədəbiyyatda özünə yer tapmışdır. Deməli, beynəlmiləl ideya hesab edilən hər hansı ideyaya, o cümlədən vətəndaş cəmiyyətinə "milli" don geyindirmək (rus bolşevizmi, alman milli sosializmi-faşizm, amerikan demokratiyası, ingilis liberalizmi, isveç sosializmi və s.) mümkündür.

Ancaq onu da unutmaq lazım deyil ki, beynəlmiləl ideyaları milliləşdirmək heç vaxt birmənalı qarşılanmamışdır. Xüsusilə, "sollar" və "sağlar" beynəlmiləl ideyaların milliləş-dirilməsinin əleyhinə olmuşlar. Belə ki, "sollara" görə demokratiya, liberalizm və bu kimi ideyaların milliləşdirilməsi onların bəşəri mahiyyətinə xələl gətirir. Yəni onların əsil mahiyyətindən uzaqlaşmasına səbəb olur. Şübhəsiz, bu məsələdə "sollar" müəyyən qədər haqlıdırlar. Çünki bu zaman hər hansı bir ölkədə mövcud olan hakimiyyət mövcud olan problemləri həll etmək əvəzinə, dünyanı və öz cəmiyyətini "milli demokratiya" pərdəsi altında aldatmağa da çalışa bilər. Bir qədər də dərinə getdikdə hakim qüvvə bəyan edə bilər ki, hər bir xalqın demokratiyası onun adət-ənənələrinə və mədəniyyətinə uyğundur. Bu mənada, başqa ölkələr bizim daxili işimizə qarışa bilməz və s.

Yeri gəlmişkən, "sağlar" da "sollar" kimi beynəlmiləl ideyaları birmənalı şəkildə qəbul etmirlər. "Sağlar"a görə, beynəlmiləl ideyalarda öz əksini tapan müddəaları kənarda deyil, ya millətin öz adət-ənənələrində, ya da dini dəyərlərdə axtarmaq lazımdır. Xüsusilə, dini ideydan çıxış edənlərin fikrincə, xristianlıq və islamlıq özü beynəlmiləl ideyalardır.

Məsələn, müsəlman din xadimlərinə görə demokratiya, liberalizm, vətəndaş cəmiyyətinə aid müddəaların bir çoxu Quranda vardır. Ona görə də Qərbin məhsulu olan bu cür ideyaların müsəlman ölkələrində tətbiqinə ehtiyac yoxdur.

Fikrimizcə, yalnız milli-demokratik məfkurədən çıxış edən qüvvələrin beynəlmiləl və milli ideyalara münasibəti daha obyektiv olmuşdur. Belə ki, milli-demokratik məfkurəni təmsil edən qüvvələr milli varlıqlarını ifadə etmək və yaşatmaq üçün "sol"-radikal beynəlmiləl və "sağ"-mühafizəkar ideyalar arasında ortaq nöqtələr tapmağa çalışmışlar. Xüsusilə də, dini kimliklərindən asılı olaraq ayrı-ayrı millətlər (fransız, ərəb, türk, alman, yapon və b.) çalışmışlar ki, bu məsələlərdə mərkəzi mövqe tutsunlar. Ancaq bu bütün dövrlərdə, o cümlədən 20-ci yüzillikdə və hazırda da ən ciddi problemlərdən biri olaraq qalmaqdadır.

Bu baxımdan qloballaşmanın geniş yayıldığı indiki dövrdə "sollar" və "sağlar" arasında mərkəzi mövqe tutmaq çox çətindir. Özəlliklə, modernləşmə, postmodernləşmə, vətəndaş cəmiyyəti ideyaları ilə şiəlik, vahabilik, millətçilik, ələvilik ideyaları arasında uzlaşdırma tapmaq heç də asan məsələ deyildir. Bu mənada, "milli demokratiya"dan, "milli sosializm"dən hər hansı formada nisbi də olsa, bəhs etmək mümkündürsə, ilk baxışda "milli vətəndaş cəmiyyəti", "milli modernləşmə" bir o qədər də məntiqə və təfəkkürə uyğun gəlmir. Ancaq kiminsə, bunu da iddia etməsi istisna deyil. Hətta, hər hansı cəmiyyətdə hakim qüvvənin "milli vətəndaş cəmiyyəti" modeli həyata keçirmək istəyinə düşməsi də mümkündür. Özəlliklə, həmin cəmiyyətdə hakim siyasi qüvvə bunda maraqlı olarsa, "milli vətəndaş cəmiyyəti" də "reallaşa" bilər.

Yeri gəlmişkən, "Vətəndaş cəmiyyəti"ndən bəhs olunarkən tez-tez belə bir fikrin səsləndirilməsi ki, hər hansı toplumda ABŞ-a məxsus vətəndaş cəmiyyəti tətbiq olunarsa, bu zaman yerli adət-ənənələr, milli özünəməxsusluqlar nəzərə

alınmalıdır, dediyimiz "milli vətəndaş cəmiyyəti" modelinə doğru getməyin bir nişanəsidir. Onda ortaya belə bir sual çıxır ki, "sovet vətəndaşı cəmiyyəti" təfəkküründən tam xilas ola bilməyən, üstəlik milli şüuru natamam olan bir toplumda "milli vətəndaş cəmiyyət"i modelini tələm-tələsik həyata keçirmək nə dərəcədə doğrudur?

Fikrimizcə, bu sualın aydın cavabını bilmək üçün hökmən vaxtilə başqa bir formada Azərbaycanda həyata keçirilən oxşar iki nümunəyə: 1) sosializm-kommunizm ideyasına; 2) demokratiya ideyasına diqqət yetirmək lazımdır. Maraqlıdır ki, bu iki beynəlmiləl ideyanın biri - kommunizm məfkurəsi Azərbaycanda zorakılıqla, digəri – demokratiya isə könülülük əsasında həyata keçirilmişdir. Bizə elə gəlir ki, bu iki nümunənin Azərbaycanda hansı şəkildə həyata keçirilməsini təhlil etməklə "milli vətəndaş cəmiyyəti" modeli ilə bağlı müəyyən bir qənaətə gələ bilərik.

Kommunizm və milli şüur. Öncə, kommunizmin Azərbaycanda və digər keçmiş SSRİ ərazilərində nə cür tətbiq olunması məsələsinə diqqət yetirək. Rus bolşevikləri 1917-ci ildə Rusiyada hakimiyyəti ələ aldıqdan sonra əvvəlcə bütün millətlərə azadlıq vəd etdiyi, hətta bunu yazılı şəkildə bəyan etdiyi halda, çox keçmədi ki, kommunizm məfkurəsindən işğalçılıq siyasəti kimi istifadə etməyə başladılar. Ancaq bunun yalnız birtərəfli, yəni beynəlmiləl formada həyata keçirilməsinin mümkünsüzlüyünü anlayan rus bolşevikləri kommunizmə "milli forma" da verməyə başladılar. Başqa sözlə, onlar Marks və Engelsin kommunizm məfkurəsini rus milli maraqlarına uyğun şəkildə digər millətlərin şüurlarına yeritmək üçün sosializm ideyasına "milli" don geyindirməyə çalışdılar. Rus bolşevikləri kommunizm məfkurəsinin "milli" mahiyyətini belə izah edirdilər: formaca milli, məzmunca sosialist. Kommunizm ideyasına "milli" don geyindirməkdə onların məqsədi qeyri-rus millətlərinin şüurunu dolaşdırmaq və kölə halına gətirmək idi.

Başqa sözlə, rus bolşevikəri qeyri-rus millətlərini, özəlliklə türk xalqlarını zor-xoş inandırmaq istəyirdilər ki, yalnız ruslar arasında deyil, guya Azərbaycan türkləri, Türküstan türkləri, ukraynalılar və başqa xalqların həyatında da sosializm inqilabı baş vermişdir. Sadəcə, Rusiyada sosializm inqilabı bir, Azərbaycanda digər, Ukraynada isə ondan bir qədər fərqli formada baş vermişdir. Guya, sosializmin digər ölkələrdə (Ukrayna, Azərbaycan, Gürcüstan və b.) Rusiyadan bir qədər fərqli şəkildə baş verməsinə səbəb isə, həmin millətlərin kommunizmə nə dərəcədə hazır olması səviyyəsi, ictimai-iqtisadi formasiya quruluşu, kütlənin şüur səviyyəsi, bir sözlə milli özünəməxsusluqla bağlı olmuşdur. Ancaq bütün hallarda, guya bu ölkələrdə də sosializm inqilabı baş vermiş, fəhlə və kəndlillər milli burjuaziyanı devirərək hakimiyyəti ələ almışlar.

Bu zaman rus bolşeviklərinə əsas lazım olan o idi ki, öz əlləri ilə yıxdıqları milli dövlətlərdə (Ukrayna, Azərbaycan, Gürcüstan və b.) sözdə "sosialist dövlətləri"nin yaradıldığını əsaslandırsınlar. Bundan sonra həmin "sosialist dövlətlərə" bir "milli" sözünü əlavə etmək işğalçılıq siyasətini pərdələməkdən başqa bir şey deyildi. Bu zaman ədəbiyyatda formaca milli, məzmunca kommunist-sosialist mütəfəkkirlərin (Nizami, Nəsimi, Axundzadə və b.) axtarışına çıxılması həmin siyasətin tərkib hissəsi idi. Bütün hallarda yerlərdəki "milli sosializm" inqilabı ruslaşdırmaq, rus imperiyasını bərpa etmək ideologiyasından başqa bir şey deyildi.

Bəlkə də, marksizm banilərinin kommunizm ideyası rus bolşeviklərinin əlində imperiya alətinə çevrilməsəydi, keçmiş SSRİ xalqlarında ona münasibət bu dərəcədə mənfi olmazdı. Başqa sözlə, marksistlərin kommunizmini rus bolşevikləri zoraklıqla sırıdığı üçün keçmiş SSRİ-nin tərkibində olmuş xalqlarda, o cümlədən Azərbaycan xalqının yeni nəslində (köh-nə nəslin əksəriyyəti bu məsələyə fərqli yanaşır) ona qarşı qıcıq var. Əslində bu qıcıq daha çox "rus kommunizmi" ilə bağlıdır,

nəinki marksizm banilərinin kommunizm məfkurəsi ilə. Hər halda, marksizmin banilərinin irəli sürdüyü təlimdə son zamanlar çox vurğulanan vətəndaş cəmiyyətinin eleməntləri var idi. Onlar dövləti üstqurum, vətəndaş cəmiyyətini maddi bazis kimi görür, dövlətsiz kommunist cəmiyyətinin yarana biləcəyinə inanırdılar. Bir sözlə, zaman gələcək, hüquq və dövlət aradan qalxacaq, hakimiyyətsiz vətəndaş cəmiyyəti yaranacaq [50, 7].

Bu mənada, keçmiş SSRİ dövründə Ukraynada, Azərbaycanda, Gürcüstanda və başqa müstəmləkə ölkələrdə "milli" xüsusiyyətli sosializm adı altında, sözün həqiqi mənasında marksizmin dövlətsiz kommunist cəmiyyəti deyil, rus bolşeviklərinin "rus kommunizmi" qurulurdu. Demək istədiyimiz odur ki, bu beynəlmiləl ideya rus bolşeviklərinin imperiya maraqları səbəbindən olduğu kimi tətbiq olunmamışdır. Hər halda, marksizmin banilərinin irəli sürdükləri kommunizm (dövlətsiz vətəndaş cəmiyyəti) ideyası "rus kommunizmi"ndən mahiyyət etibarilə çox fərqli olmuşdur. Deməli, keçmiş SSRİ xalqlarının şüurlarına marksizm banilərinin kommunizm ideyası deyil, Leninin və Stalinin "rus kommunizmi" ideyası yeridilmiş, üstəlik ona bir "milli" xüsusiyyətlər də əlavə edilmişdir. Bununla da, keçmiş SSRİ xalqlarının şüurlarında kommunizmə münasibətdə yeni bir ictimai şüur formalaşdırılmışdır. Elə bir şüur ki, orada vətəndaş nə özünü kommunist, nə də milli mənada dərk edə bilirdi. Bununla da, keçmiş SSRİ xalqları "sovet vətəndaşı cəmiyyəti" və "kommunizm" adı altında daha çox ruslaşdırılırdı. Bu da, qeyri-rus millətlərin şüurunda natamamlıq kompleksi, kölələk düşüncəsi yaradırdı.

Bu, artıq idarəedənlər (rus bolşevikləri) üçün asan idarəolunan cəmiyyətlər (ukraynalı, azərbaycanlı, gürcü, qazax və b.) demək idi. Burada əsas məqam odur ki, idarəedənlər (rus bolşevikləri) özlərindən əvvəlki imperiya sələflərinin yolunu (çar Rusiyası dövründəki rus mütləqiyyətçiləri) davam etdirməklə yanaşı, özlərindən sonrakı xələflərini də düşünür-

dülər. Belə ki, bir gün SSRİ-nin dağılmasının mümkünlüyünü nəzərə alaraq, gələcəkdə imperiya təfəkkürünü davam etdirənlər üçün (məsələn, indi buna "rus avrasiyaçılığı" nümunə ola bilər), sovet dövründə idarəolunan millətlər halına gətirilmiş cəmiyyətləri daim təzyiq altında saxlamağın planlarını da cızmışlar. Fikrimizcə, keçmiş SSRİ-nin tərkibindəki xalqların marksizmin banilərinin kommunizmini deyil, rus imperiya təfəkkürünün daşıyıcıları olan bolşeviklərin "rus kommunizmi"nin psixoloji təzyiqi altında olduğu bir dövrdə "rus avrasiyaçılığı"nın postsovet məkanında yayılması çox ağıllı düşünülmüş bir ideyadır. Çünki Rusiyada yaxşı anlayırlar ki, keçmiş SSRİ xalqları hər il sovet ideologiyasından uzaqlaşır və bu uzaqlaşma yeni nəsil və yeni təfəkkür deməkdir. Yeni nəsilin sovet nəslini get-gedə inkar etməsi isə, rus imperiyası təfəkkürünə daban-dabana ziddir.

Ona görə də, yeni rus ideoloqları keçmiş SSRİ xalqları arasında imperiya təfəkkürünə cavab verən sovet nəsli tarix səhnəsindən getmədən "rus avrasiyaçılığı"nı həyata keçirməyə çalışırlar. Onlar yaxşı anlayırlar ki, ötən 20 ilin üzərinə bir 10, yaxud 20 il gələrsə, keçmiş SSRİ xalqlarını yeni nəsli rus imperiya təfəkkürünü yaxına belə buraxmayacaqlar. Bu baxımdan rus ideoloqları üçün avrasiyaçılıq imperiya təfəkkürünü davam etdirməyin bir vasitəsidir. "Avrasiyaçılıq" kimi imperialist ideyaya qarşı milli şüur formalaşdırıb milli ideya ilə çıxış etmək isə ona alternativlikdir. Fikrimizcə, bu prosesin imperialistlərin, yoxsa millilik tərəfdarlarının qalib çıxmasında ictimai şüurun hansı istiqamətdə – imperiya təfəkkürünə, yoxsa milli şüura doğru inkişaf etməsindən çox şey asılı olacaqdır.

Çağdaş dövrdə demokratiya və milli şüur. Kommunizm (sosializm) ideyasından fərqli olaraq demokratiyaya münasibətdə keçmiş SSRİ xalqlarının, o cümlədən Azərbaycan xalqının yeni nəsli ilə sovet nəsli arasında çox ziddiyyətlər var. Yeni nəsil demokratiyaya çox meyil etdiyi

halda, sovet nəslinin böyük əksəriyyəti onu qəbul etmir, yaxud da etmək istəmir. Şübhəsiz, bunlar ilk növbədə ictimai şüurla, ictimai psixologiya ilə bağlıdır. Başqa sözlə, ictimai şüurun səviyyəsindən asılı olaraq demokratiyaya münasibət birmənalı deyildir. Məsələn, sovet nəslinin əksəriyyətinin demokratiyaya antisimpatiyası əvəzində "rus kommunizm"inə müsbət münasibətinin əsasında sovet dövrü və şəraiti, sovet ideologiyası dayanır. Bu, başqa cür də ola bilməz.

Xüsusilə, sovet nəslinin böyük bir qisminin kommunizm dedikdə, marksizm banilərinin kommunizminə deyil, "rus kommunizmi"nə tapınmaları ideyaya bağlılıqdan daha çox, dövrün reallıqları və gerçəklikləri ilə bağlıdır. Bu, artıq ideyaya olan könüllü sevginin təzahürü ola bilməz. Burada zorakılıq və həmin zorakılığın "sevgiyə" çevrilməsi prosesi açıq şəkildə özünü büruzə verir. Bunun da nəticəsidir ki, sovet nəslinin xeyli qismi faktiki olaraq "rus kommunizmi"ni unuda bilmir, unuda bilmədiyi üçün də demokratiyaya kapitalizmin ünsürü kimi yanaşır. Onların fikrincə, demokratiya anarxiya, özbaşınalıq deməkdir. Bütün bunlar sovet nəslinin əksəriyyəti üçün yalnız mənfi amillərdir.

Ancaq yeni nəslin, yəni sovet mühiti ilə ya çox az bağlı olanlar, ya da ümumiyyətlə bağlı olmayanların demokratiyaya, o cümlədən milli demokratiyaya münasibəti xeyli dərəcədə fərqlidir. Bunun da başlıca səbəbi var:

1) "rus kommunizmi" ideologiyasından, sovet mühitindən xeyli fərqli bir şəraitdə yetişmələri və demokratiyaya keçid, yaxud demokratiya quruculuğu dövründə yaşamaları;
2) Azərbaycanda demokratiya ənənələri, xüsusilə Azərbaycan Cümhuriyyəti dövründəki milli demokratiya ideyaları ilə tanışlıq.

Birincisi, fikrimizcə, "rus kommunizmi" (sovet) ideologiyası mühitində yetişməyən, onu görməyən, ya da çox az görən

faktiki olaraq təsir dairəsi az olan yeni nəslin "rus kommunizmi" və demokratiyaya münasibəti sovet nəslinin nümayəndəsindən xeyli dərəcə də fərqlidir. Ən azı yeni dövr nəslinin düşüncəsində pis və yaxşı fərq etməz, "rus kommunizmi" xülyası və sovet beynəlmiləlçiliyi ideologiyası yoxdur. Digər tərəfdən hər bir gənc pis və yaxşı yaşadığı dövrün, mühitin, təhsilin və mədəniyyətin yetişdirməsidir. Doğrudur, yeni nəslin arasında da elələri var ki, sözün həqiqi mənasında demokratiya, milli demokratiya anlayışlarını dərk etmirlər. Ancaq belə gənclərin "rus kommunizmi" haqqında da təsəvvürləri demək olar ki, yox dərəcəsindədir. Bu mənada, həmin gənclərin də təsəvvürlərinin demokratiya, milli demokratiya lehinə yönəlməsi ümidi çoxdur.

İkincisi, yeni nəsilin sovet nəslindən fərqli olaraq orta məktəbdən başlayaraq ümumi şəkildə də olsa, demokratiya və milli demokratiya anlayışlarını mənimsəmək şansları var. Özləlliklə, "Azərbaycan tarixi" fənnində demokratiya və milli demokratiyanın Azərbaycanda təşəkkülü və inkişafını görürlər. Eyni zamanda, yeni nəslin imperiya müstəmləkəçilik mühitində və təhsilində deyil, müstəqil Azərbaycan mühitində və təhsilində bu anlayışları mənimsəməsi də vacib amillərdəndir. Məsələn, Azərbaycan Cümhuriyyəti dövründəki millətçi demokratlarla tanışlıq, onların ideyalarının öyrənilməsi yeni nəslin şüurunun formalaşmasında xeyli dərəcədə müsbət təsir göstərir. Yeni nəsil anlayır ki (hamısı olmasa da), yaxın tarixdə demokratiyaya və "rus kommunizmi"nə münasibətdə onların ata-babaları hansı yolu tutmuşlar! Deməli, sovet nəslindən fərqli olaraq yeni nəslin bu ideyaları müqayisə etmək şansları da var.

Gördüyümüz kimi, XX əsrdə beynəlmiləl ideya olan iki ideya xəttinə münasibətdə sovet və yeni nəsil arasında nə qədər ziddiyyətlər mövcuddur. Bu cür ziddiyyətlərin mövcudluğu, üstəlik modernəlşmə, postmodernləşmə və vətəndaş cəmiyyəti ideyalarının da yayıldığı bir dövrdə milli şüurun asan şəkildə formalaşması prosesinin həyata keçirilməsi mümkün deyildir.

Ən azı ona görə ki, Azərbaycan xalqı "rus kommunizmi"ndən tamamilə qurtulub milli demokratiyaya uyğunlaşmadığı bir dövrdə, yeni ideyaların da təsirinə məruz qalır. Bu isə, istər-istəməz milli şüurun formalaşması prosesinə əngəl olur.

Milli şüurun formalaşması prosesinin ləngiməsi fonunda, buna alternativ olaraq Azərbaycan cəmiyyətində kənar ideyalar və ona uyğun qeyri-milli şüur formaları toplumun ayrı-ayrı təbəqələrinə bu və ya digər dərəcədə təsir göstərir. Çünki milli şüuru istənilən səviyyədə olmayan insanlar istər-istəməz alterantiv ideyaların ya təsirinə məruz qalır, ya da özləri kənar ideyalara meyil göstərirlər. Bu, xüsusilə gənc bir dövlət üçün çox təhlükəlidir.

Fikrimizcə, bütün bunların fonunda, yəni Azərbaycan xalqının ictimai şüurunda ona yaxın olan milli-dini ideyalarla (türkçülük, islamçılıq) və beynəlmiləl ideyalar (kommunizm, demokratiya, liberalizm vəb.) arasında mübarizə getdiyi bir dövrdə toplumun vətəndaş cəmiyyətinə nə dərəcədə hazır olub-olmaması məsələsi çox mübahisəlidir. Bunu sözlə belə ifadə etmək olar ki, Azərbaycan xalqı vətəndaş cəmiyyətinə hazırdır, hətta bəzilərinə görə, artıq vətəndaş cəmiyyəti dövründə yaşayırıq! Əlbəttə, vaxtından əvvəl bu cür hökmələr çıxarmaq doğru deyildir. Yuxarıda da qeyd etdiyimiz kimi, vaxtilə kommunizm haqqında da eyni hökmlər çıxarılmışdı. Ancaq sonra məlum oldu ki, nəinki biz kommunizm dövründə yaşamışıq, əksinə həmin dövr hərbi diktatura rejimindən başqa bir şey olmamışdır.

Doğrudur, biz razılaşırıq ki, vətəndaş cəmiyyəti və kommunizm fərqli ideyalardır. Ona görə də, bunların arasında bərabərlik işarəsi qoymaq yanlışdır. Ancaq məsələyə daha obyektiv və elmi yöndən yanaşsaq görərik ki, istənilən müsbət ideya belə vaxtında və müəyyən təkamül əsasında tətbiq olunmursa, o, cəmiyyətə zərər verir. Bu mənada, kommunizm özünün mənfi cəhətlərinə baxmayaraq, müəyyən təkamüldən

sonra həyata keçirilsəydi, eyni zamanda Rus imperiya maraqlarınının alətinə çevrilməsəydi, vəziyyət müəyyən qədər də olsa, fərqli ola bilərdi. Bir sözlə, istənilən halda formallıq və qanunların kağız üzərində qalması nə kommunizm, nə demokratiya, nə də vətəndaş cəmiyyətinin mahiyyəti ilə bağlı deyildir. Özəlliklə, uydurma kommunizm dövrünü yaşamış xalqların, yenidən uydurma vətəndaş cəmiyyəti, yaxud da uydurma demokratiya dövrünü yaşamasının nə mənası var?

Demək istədiyimiz əsas məsələ odur ki, cəmiyyətin şüurunu əvvəlcə demokratiyaya, vətəndaş cəmiyyətinə köklə-mək, onun əsil mahiyyətini çatdırmaq daha sonra ona keçid etmək lazımdır. Bu isə, bütün hallarda milli şüuru normal səviyyədə olan cəmiyyətlər üçün xarakterik ola bilər. Bizə elə gəlir ki, Azərbaycan cəmiyyəti hər iki halda – həm demokratik təfəkkürə hazırlıq, həm də milli şüurun üst səviyyydə olması baxımından hələlik, buna hazır deyildir.

Əlbəttə, bunun əksini iddia edənlər də ola bilər, hətta bellələri vardır da. Ancaq bu fikirdə olanların xeyli qisminin bunda nə dərəcədə obyektiv olması və elmliyə əsaslanması özü də birmənalı deyildir.

Bu baxımdan formal olaraq vətəndaş cəmiyyətinin müddəalarını konstitusiyaya salmaq hətta, real həyatın bəzi sahələrində tətbiq etmək olar. Ancaq ictimai şüur baxımından bunun dərki, onun mahiyyətinin reallıqla inikası çox fərqlidir. Biz bir şeyi bir formada görə, hətta səmimi şəkildə həyata keçirmək niyyətində də ola bilərik. Ancaq kütlənin əksəriyyəti onu dərk etmirsə, dərk etmədiyi müddəaları kor-koranə qəbul edirsə, bu vətəndaş cəmiyyətinə keçid deyil, öz-özünü aldatmaqdır. Əgər iddia olunursa ki, vətəndaş cəmiyyətində insanlar qanunlara görə deyil, insanlıqlarına görə hərəkət edirlər, bu zaman kütlənin şüurunun səviyyəsi qanunların üstündə olmalıdır. Halbuki keçmiş SSRİ xalqlarının əksəriyyətində

qanunlarının mövcudluğu şəraitində belə insanların əksəriyyəti reallıqları fərqli şəkildə dəyərləndirirlər.

Xüsusilə, Azərbaycan cəmiyyətində demokratiya və vətəndaş cəmiyyəti haqqında, sözün həqiqi mənasında, tam və geniş təsəvvür yoxdur. Bu məsələ ilə bağlı daha çox nəzəriyyələr və informativ bilgilər üstünlük təşkil edir. Bütün bunlar, hələ vətəndaş cəmiyyəti demək deyildir. Bu baxımdan demokratiya, vətəndaş cəmiyyəti nəzəriyyələriylə, onlara aid müddəalarla bir toplumun gerçək həyatı, milli özünəməxsusluqları arasında dərhal bərabərlik işarəsi qoymaq yanlışdır. Çünki milli şüuru normal səviyyədə formalaşmayan bir cəmiyyətdə kənar ideyalarla bağlı mövcud olan təsəvvürlərin özü də yarımçıq olur. Bu yarımçıqlıqlar insanların ictimai şüurunda natamamlıq kompleksi yaradır. Hər halda, Azərbaycan cəmiyyətinin ictimai şüurunda yarımçıq demokratiya, yarımçıq kommunizm (sostal-demokratiya), yarımçıq liberalizm, yarımçıq vətəndaş cəmiyyəti, yarımçıq islamçılıq, yarımçıq türkçülük, yarmıçıq azərbaycançılıq hakimdir. Yəni bizdə bütün bunların hamısından var, ancaq yarımçıq formada. Bütün bu yarımçıqlıqlar isə Azərbaycan cəmiyyətində milli şüurun formalaşmasına imkan vermir. Yaxın iki əsr ərzində milli yaddaşı dolaşdırılan bir cəmiyyətin bunu həll etmədən hər hansı bir yeni ictimai-iqtisadi formasiyaya, o cümlədən vətəndaş cəmiyyətinə transformasiya olması mümkün deyildir. Öncə milli yaddaş şüuru bərpa olunmalı, daha sonra hansısa yeni bir modelin tətbiqinə cəhd göstərilməlidir. Əgər milli yaddaş şüuru bərpa olunmadan cəmiyyətə yeni bir model təklif olunarsa, cəmiyyətin müxtəlif təbəqələri ona fərqli təpkilər verəcəklər.

Bu mənada, hazırda demokratiya, vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu adı altında həyata keçirlən islahatlar toplumun ayrı-ayrı təbəqələri birmənalı qarşılamırlar. Doğrudur, ümumilikdə bu islahatların əleyhinə heç kim çıxmır və bunların əleyhinə çıxmağın özü də mənasız bir addım olardı. Ancaq bu

zahirən belədir. Çünki bir tərəfdən milli şüur yaddaşı bərpa olunmayan, digər tərəfdən vətəndaş cəmiyyəti modelini tam anlamayan bir cəmiyyətdə istər-istəməz əks reaksiyalar yaranacaqdır. Ola bilsin ki, bu əks reaksiyalar ilk dövrlərdə ciddi şəkildə özünü büruzə verməsin. Lakin zaman keçdikcə vəziyyət dəyişə bilər. Bu hal, bütün cəmiyyətlər üçün keçərlidir. Yəni heç bir cəmiyyət bundan sığortalanmamışdır.

Bu əks reaksiyaların mahiyyəti də eyni deyildir. Yəni əks reaksiyalar cəmiyyətin inkişafı baxımından müsbət də, mənfi də ola bilər. Baxır kimlər, hansı dairələr, hansı mənada əks reaksiyalar verirlər. Əlbəttə, cəmiyyətin sağlam düşünən beyininin əks reaksiyaları ortada olan səhvləri aradan qaldırmaq, yəni toplumda öncə milli yaddaş şüurunu bərpa etmək, milli-demokratik ruhu yüksəltmək və bunun sonunda vətəndaş cəmiyyəti ilə uzlaşdırma tapmaqla bağlıdır. Yəni milli mənəvi dəyərləri qorumaqla yanaşı, zəmanənin çağdaş tələblərini də nəzərə almaq lazımdır.

Ancaq milli şüurun daşıyıcılarından fərqli olaraq dini şüurun və beynəlmiləl şüurun radikal tərəfdarları demokratiya, vətəndaş cəmiyyəti ideyalarına tamamilə fərqli yöndən yanaşırlar. Birincilər demokratiya, vətəndaş cəmiyyəti ideyalarını yaxına buraxmadıqları halda, ikincilər isə həmin ideyaları həddən artıq ideallaşdırırlar. Bununla da, hər iki tərəf cəmiyyət daxilində özlərinə tərəfdar qazanmağa çalışır. Bu, çox düşündürücü məsələdir. Bu mənada, milli şüur, vətəndaş cəmiyyəti və modernləşmə arasındakı oxşarlıq və ziddiyyətlərlə yanaşı, dini şüur və vətəndaş cəmiyyəti, modernləşmə arasındakı ziddiyyət və oxşarlıqları da araşdırmaq lazımdır. Çünki hər bir cəmiyyət yalnız etnik kimliyin deyil, eyni zamanda dini kimliyin də daşıyıcısıdır. Ola bilsin ki, hər hansı beynəlmiləl ideya milli xüsusiyyətlərlə uyğunlaşsın, ancaq dini kimliklə yox. Əlbəttə, bu əksinə də ola bilər.

Çağdaş dövrdə "üçlük" və vətəndaş cəmiyyəti. Bu baxımdan hazırda "üçlüy"ün kölgədə qalması deyil, əksinə önə çəkilməsi qəbuledilən variant olardı. Fikrimizcə, 20-ci əsrin əvvəllərində qloballaşma nümunəsi olan sosial-demokratizmlə "üçlük" arasında gedən mübarizədə sonuncunun qalib çıxması bunun bariz nümunəsidir. Doğrudur, "üçlüy"ün "rus marksizmi" üzərində qələbəsi çox çəkmədi, bir az sonra rus və rusyönlü sosial-demokratlar Azərbaycanda hökmran oldular. Onlar da beynəlmiləlçilik adı altında "rus kommunizmi"ni təbliğ edirdilər. Ancaq "üçlük"dən fərqli olaraq rus sosial-demokrtalarının qalibiyyəti zorakılığa və saxta beynəlmiləlçiliyə əsaslandığı üçün onun perspektivi yox idi. Məhz marksizmin rus variantı olan bolşevizmin zorakılığa arxalanmasının nəticəsi idi ki, sonda məhv oldu. Bununla da, 20-ci əsrin sonlarında yenidən milli ideyalara üz tutuldu. Milli ideyalar olmadan bir millətin var ola bilməyəcəyi qənaətinə gəlindi.

Sadəcə, burada yeni problemlər ortaya çıxdı. Bu da ondan ibarət idi ki, millətin milli şüuru formalaşmadan populist və məntiqdənkənar şüarlarla nəyisə əldə etmək çətindir. Müstəqilliyimizin bərpasının ilk dövrlərində populist və məntiqdənkənar şüuarlardan uzağa gedə, yəni milli şüuru formalaşdıracaq "üçlüy"ü doğru şəkildə cəmiyyətə çatdıra bilmədiyimiz üçün, yenidən milli ideyaların, yoxsa beynəlmiləl ideyaların vacibliyi məsələsi gündəmə gəldi. Bu günə qədər də həmin mübahisələr və diskusiyalar davam etməkdədir.

Bu gün beynəlmiləlçilik özünü Azərbaycanda Qərbin, yaxud da Avropanın demokratik ideyaları şəklində büruzə verir. Eyni zamanda bizə qonşu dövlətlər də, bu və ya digər dərəcədə beynəlmiləlçiliyin müxtəlif variantlarını əldə bayraq edərək millətin şüuruna müəyyən mənada təsir göstərirlər.

Günümüzdə bəzi tədqiqatçılar, ideoloqlar hesab edirlər ki, "üçlük"dən çıxış etmək hazırkı şəraitdə mümkün deyildir. Bunu, ötən əsrin əvvəllərində eynilə sosial-demokratlar və

ittihadçılar deyirdilər. Bu gün isə özlərini demokratlar, liberallar, bir sözlə vətəndaş cəmiyyəti, modernləşmə tərəfdarları kimi təqdim edənlər həmin müddəanı önə çəkirlər. Bu cür düşünənlərin fikrincə, 20-ci əsrin əvvəllərində islamlaşmaq və türkləşmək lazım və zəruri idi, indi isə artıq onlara bir o qədər ehtiyac yoxdur. Maraqlıdır ki, həmin dövrdə bu fikri müdafiə edənlər ən çox marksistlər olmuşlar. Onlar hesab edirdilər ki, sosializm quruculuğunda millət və dinə yer yoxdur. İndi də bəzi ideoloqlara görə, vətəndaş cəmiyyəti quruculuğunda millətə və dinə əhəmiyyətli pay düşmür. Çünki vətəndaş cəmiyyətində dini, milli, hətta sinfi ideologiyalar deyil, sağlam düşüncə, şüurlu azadlıq və məsuliyyət əsasdır. Bir sözlə, vətəndaş cəmiyyətində ən ali dəyər milli kimlik (millət), dini kimlik (müsəlman, xristian), siyasi kimlik (sağçı, solçu, mərkəzçi) deyil insandır [50, 42]. Bu mənada, vətəndaş cəmiyyəti modeli əslində liberalistlərin, marksistlərin ideyalarının yeni bir formasından başqa bir şey deyildir.

Bizcə, hər hansı toplumda fərdin azadlığı millət və dövlətin azadlığından üstün tutularsa, həmin cəmiyyətin milli və siyasi varlığı gec-tez təhlükə altına düşmüş olacaqdır. Çünki fərd özünü daha çox azad hiss etdikcə, mənsub olduğu millət və dövlətə bağlılığı azalacaqdır. Bu mənada, insanın azadlığının millət və dövlətin azadlığı ilə müqayisə edilməsi, onların qarşı-qarşıya qoyulması doğru deyildir. Fərd həmişə özünü millətin və dövlətin bir üzvü hesab etməli, müəyyən mənada öz maraqlarından millət və dövlət üçün güzəştə getməyə hazır olmalıdır. Yəni bütün hallarda millət və dövlət naminə güzəştə gedən bir tərəf varsa, o da fərd olmalıdır. Yalnız bu halda həmin millət və dövlət milli və siyasi varlığını qoruyub yaşada bilər. Çünki millətin varlığı fərdin varlığından daha dəyərlidir. Fərd özünü millət və dövlət naminə qurban verməyə hazır olmalıdır. Yalnız bu şüura malik cəmiyyətlərdə millət və dövlət həmişə var olur. Ancaq hansı cəmiyyətdə ayrı-ayrı fərdlər öz maraqlarını

millət və dövlət maraqlarından üstün tutub bunu sınırsız insan azadlığı ilə izah edirlərsə onların gələcək varlıqları şübhə altındadır.

Bu baxımdan vətəndaş cəmiyyətinin mövcud olduğu bir çox Avropa ölkələrində, ABŞ-da milli və dini dəyərlərin yenidən dirçəldilməsinə cəhd başa düşüləndir. Çünki onlar anlayırlar ki, insan nə qədər dəyərli olursa olsun fərd nə qədər azadlıqlara sahib olursa olsun milli və dini dəyərlərdən uzaqlaşdıqca özgələşir. Özü də bu özgələşmə, yəni fərdin milli mənsubiyyətdən və dini dəyərlərdən uzaqlaşması, onun beynəlmiləl-kosmopolit (dünya vətəndaşı) bir şəkilə girməsindən çox ən adi insani keyfiyyətlərdən mərhum olunması ilə nəticələnir. Vaxtilə eyni hadisələr uydurma kommunizm dövründə yaşandı. Ruslar kommunizm məfkurəsi adı altında qeyri-rusları, xüsusilə türk-müsəlman xalqları milli və dini kimliklərdən uzaqlaşdırmağa çalışdılar və müəyyən qədər də bunu bacardılar. Bunula da, türk-müsəlman xalqları daha çox özgələşməyə məruz qaldılar. Buna əks reaksiyanın nəticəsi kimi Çingiz Aytmatov "Gün var əsrə bərabər", Oljes Süleymonov "Az-ya", Bəxtiyar Vahabzadə "Latın dili", "Gülüstan" əsərlərini yazdılar.

İndi də vətəndaş cəmiyyəti adı altında insan amili milli və dini dəyərlərdən üstün tutulur. Bir sözlə, fərd millət və dinə qarşı qoyulur. Guya, fərdin azadlığının əsasında yalnız hüquq və azadlıqları dayanır. Bu zaman millət və dinə münasibət SSRİ dövründə olduğu kimi, arxa plana keçilir. Burada əsas üstünlük şəxsiyyətin hüquq və azadlılarına verilir, dövlətin xaricində insanların ictimai münasibətlərinin qurulmasının önəmliliyindən bəhs olunur və s. Yuxarıda da qeyd etdiyimiz kimi, bu cür vətəndaş cəmiyyəti modeli bir tərəfdən insan hüquq və azadlıqlarının təmin olunması baxımından müsbət görünsə də, ancaq ümumilikdə ailə dəyərlərinin aradan qalxmasına, bununla da dövlətin əsasını təşkil edən sosial institutların dağılmasına səbəb olur. Bu isə, əslində gələcəkdə dövlətin özünün varlığı

üçün təhlükə mənbəyidir. Belə olduğu təqdirdə, milli və dini dəyərlərdən uzaq olan insanın-fərdin dünya vətəndaşına çevrilməsi öz mənasını itirir. Çünki fərd öz mahiyyətini itirir və qeyri-müəyyən vəziyyətə düşür, başqa sözlə özgələşir.

Ona görə də, fərdin öz milli kimliyinin və dini dəyərlərinin üstündə insani keyiyyətə malik olması inandırıcı deyildir. Bu özünü heç vaxt doğrultmamışdır. Bu mənada, hazırda fərdin azadlığının önəmliliyi adı altında vətəndaş cəmiyyətinin zərurətindən çıxış edənlər müəyyən mənada, XX əsrin əvvəllərində "üçlük" ideyasını tənqid edənlərlə – marksistlərlə eyni mövqe nümayiş etdirirlər. Bu mənada, indiki dövrün "marksistləri" və "liberalistləri" XX əsrin əvvəllərində bu cür mövqe tutanlardan çox da fərqlənmirlər. Bütövlükdə, hazırda "üçlüy"ü cəmiyyətin əsas ideyaları kimi vacib saymayanlarla, XX əsrin marksistlərini və liberalistlərini bir amal birləşdirir: çağdaş ruhlu islamlıq və türklüyün kölgədə saxlanılması, yaxud da ümumiyyətlə aradan qaldırılması. Bunun əksini düşünənlər isə, müasir ruhlu türkçülük və islamçılığı müdafiə edənlərdir.

Yeri gəlmişkən, ötən əsrin əvvəllərində "üçlüy"ü müdafiə edənlər beynəlmiləl-qlobal ideyaların milli ideyaların üzərində təsirini azaltmaq üçün islamçılıq və türkçülükdəki müasirlik ruhunu önə çəkirdilər. Bu mənada, onlar islamçılıq və türkçülüyə müasirliyi də əlavə etmişdilər. Bu müasirlik ilk baxışda, Qərb mədəniyyəti ilə əlaqələndirilsə də, əsas məqsəd türkçülük və islamçılığın çağdaş ruhunu qabartmaq idi. Bu baxımdan "üçlük"dən çıxış edən aydınlarımızın "Avropa qiyafəli", "Qərb mədəniyyətindənəm" ifadələri müasir ruhlu türkçülük və islamçılıq mülahizəsi ilə səsləşdirilir, bununla da bir növ qloballaşma ideyalarını zərərsizləşdirmək məqsədi güdürdü. Çünki 20-ci əsrin əvvəllərində hazırda olduğu kimi, qərbləşmək, liberalizm, sosial-demokratizm ideyaları geniş yayılmışdı. Bu beynəlmiləl ideyaların bir növ "zərərsizləşdirilməsi" üçün milli ideoloqlarımız islamçılıq və türkçülüyün

cağdaşlıq ruhunu qabartmağa çalışmışlar. Fikrimizcə, onlar bunu, yəni milli ideyalarla beynəmiləl ideyaları birincinin üstünlüyü şəklində uzlaşdırmaq yolunda çox uğurlu işlər həyata keçirmişlər. Məhz bu cür xəttin tutulmasının nəticəsi olaraq türk-islam dünyasında ilk milli demokratik dövlət olan Azərbaycan Cümhuriyyəti yaranmışdır.

Hətta, həmin dövrdə vətəndaş analayışı da yaranmağa başlamışdır. "Vətəndaş" dedikdə, Azərbaycan Cümhuriyyəti ərazisində yaşayan və özünü bu ölkənin bir üzvü sayan bütün insanlar nəzərdə tutulurdu. Bu bir növ Avropa ölkələrində də istifadə olunan "Vətəndaş" məfhumuna yaxın idi. Bu mənada qərbsayağı, ancaq milli özünəməxsusluğu da qorumaqla "Vətəndaş cəmiyyəti"nin ilk nümunələri Azərbaycan Cümhuriyyəti dövründə yaranmışdır.

Yenicə formalaşmağa, şüurlarda öz yerinin tapmağa çalışan "Vətəndaş" anlayışına SSRİ dövründə "milli burjua" damğası vuruldu. Onun yerini "yoldaş" anlayışı tutdu. "Yoldaş" dedikdə isə, əsasən fəhlə sinfi nəzərdə tutulurdu. Kəndlilər isə fəhlələrin səviyyəsinə çatmağa səy göstərən bir təbəqə kimi qiymətələndirilirdi. Əsas məsələ o idi ki, "Vətəndaş" anlayışı yarımçıq qaldı.

Bütün bunları yazmaqda məqsədimiz odur ki, XX əsrin əvvəllərində olduğu kimi, hazırda da beynəlmiləl ideyalara, qloballaşma proseslərinə milli ideoloqların tutduğu xəttdən yanaşmaq, ancaq zamanın tələblərinə uyğun şəkildə hərəkət etmək lazımdır. Başqa sözlə, beynəlmiləl, qlobal ideyaların qarşısında təslim olmağı qloballaşma prosesinin, vətəndaş cəmiyyətinin zəruriliyi kimi başa düşülməsi çox yanlışdır. Çünki milli ideyalar olmadan istənilən beynəlmiləl, yaxud da qlobal ideyaların heç bir əhəmiyyəti yoxdur. Üstəlik, beynəlmiləl ideyaların aparıcılığı və milli ideyaların kölgədə qalması istənilən millət üçün çox təhlükəlidir. Burada bir amili hökmən nəzərə almaq lazımdır ki, beynəlmiləl ideyalardan adətən, bir

millət digər millətlərin üzərində hakim olmaq məqsədi ilə istifadə etmişlər. Məsələn, İranda şiəlik, Osmanlıda osmanlılıq, Rusiyada bolşevizm və s. buna bariz nümunədir. Ona görə də beynəlmiləlçilik, qloballaşma kimi proseslərin təsirinə daha çox dövlətçilik ənənələri zəif, üstəlik müstəqillik təcrübəsi az olan, milli şüuru tam formalaşmayan millətlər qalırlar.

Şimali Azərbaycan türkləri kifayət qədər dövlətçilik ənənələrinə (Xəzər İmperiyası, Sacilər, Qaraqoyunlular, Şirvanşahlar, Səfəvilər və b.) malik olsalar da, son iki əsrin böyük bir dövrünü çar Rusiyası imperiyasının tərkibində yaşamalarından dolayı müstəqillik təcrübəsi azalmışdır. Eyni zamanda gənc bir dövlətin əhalisi arasında milli şüurun formalaşması prosesi başa çatmadığına görə, qlobal ideyaların təsirinə daha çox məruz qalan ölkə halına gəlmişdir. Bu baxımdan milli ideyaların, yoxsa beynəlmiləl ideyaların hansının vacibliyi məsələsində Azərbaycan xalqının seçim etmək məsələsində ictimai şüur problemi vardır. Xüsusilə, sovet-müstəmləkə nəsli ilə yeni-müstəqil nəsil arasında varislik probleminin bu günə qədər həll olunmaması məsələni daha da mürəkkəbləşdirir. Sovet nəslinin əksəriyyəti daha çox "saxta beynəlmiləlçiliyə" uyğunlaşdığı üçün milli ideyalara münasibət-də "rus kommunizmi" xəstəliyindən qurtula bilmir. Əvəzində sovet nəsilinin övladları olan yeni nəsilin əksəriyyəti milli ideyaları tam dərk edə bilməydiyi üçün beynəlmiləl ideyalara münasibətdə "modernləşmək" xəstəliyinə tutulur. Belə bir şəraitdə, sovet nəsli ilə yeni nəsil arasında uzlaşdırma tapmaq heç də asan məsələ deyildir. Bu mənada, milli şüurun formalaşması prosesi də mürəkkəbliyi ilə diqqəti cəlb edir. Ona görə də bəzi sahələrdə ciddi addımlar atılmadan milli şüurun yox yerdən formalaşmasını gözləmək doğru olmazdı.

Milli şüur: təhsil və ziyalı. Fikrimizcə, hazırda milli şüurun formalaşmasına nail olmaq üçün iki məsələyə: 1) təhsil bazası; 2) müəllim-ziyalı kontingentinə xüsusi diqqət yetirmək

lazımdır. Bizcə, milli şürun formalaşması üçün ilk addımlar məhz bu sahələrdə atılmalıdır. Özü də bu təxirəsalınmaz şəkildə həyata keçirilməlidir.

Təhsil bazisi: tarixi şüur və mədəniyyət şüuru. Bizcə, milli şüurun formalaşması prosesinin ləng getməsində SSRİ dövrünün təhsil və tərbiyəsi özünü çox büruzə verir. Belə ki, SSRİ dövrünün ziyalılarının milli ideya və milli ideologiya problemlərinə münasibəti milli şüurun formalaşmasını ləngidən faktorlardan biridir. Bu isə, sovet nəslinin əksəriyyətinin istəsələr belə, qurtula bilmədiyi "xəstəlik"dir.

Bu mənada, bugünkü nəslin xeyli bir hissəsinin şüuru əsasən SSRİ dövründə formalaşmış sovet ruhlu şüurun yeni bir formasıdır. Belə demək mümkündürsə, burada daha çox müəyyən forma və məzmun dəyişmişdir. Ancaq mahiyyət etibarilə əslində heç nə dəyişməmişdir. Məsələn, sovet təhsil və tərbiyəsi almış yaşlı nəsil arasında, əsasən türklüyünü, müsəlmanlığı dərk edənlərlə yeni nəslin türklüyə, müsəlmanlığa baxışı eyni deyildir. Halbuki türklük və islamlıq mahiyyətcə bəllidir. Ancaq istər türklüyü və islamlığı qəbul edən, istərsə də qəbul etməyən bu sovet dövründə yaşamış nəsil və onların düşünən beyinləri milli ideyalara öz baxışlarından yanaşır və bunda da haqlı olmalarına əsla şübhə etmirlər.

Bu, heç də sadə bir məsələ deyildir. Əslində qısa zaman kəsiyində milli şüur məsələsində ciddi dəyişikliklərin baş verməsini gözləmək sadəlövhlük olardı. Ancaq o da sadəlövhlükdür ki, SSRİ dövründə sovet beynəlmiləlçiliyi ruhunda yetişmiş ziyalılardan yeni nəslə milli ruh öyrətməyi, təbliğ etməyi gözləyək. Əlbəttə, burada istisnalar ola bilər. Ancaq bu istisnalar yeni nəslin milli şüurunun formalaşmasında ciddi rol oynaya bilməz.

Ümumiyyətlə, təhsil milli şüurun formalaşmasında ən vacib vasitələrdən biri, bəlkə də birinicisdir. Çünki təhsil milli şüurun formalaşmasında bazis rolunda çıxış edir. Əgər bir

millətin təhsil bazisi yetərli deyilsə, yaxud da təhsil bazisində kifayət qədər bir-birinə zidd bilgilər varsa, o zaman üstqurum olan milli şüurun formalaşması prosesində problemlər olacaqdır. Başqa sözlə, təhsili problemli olan bir cəmiyyətin milli şüur səviyyəsinin normal səviyyədə olması mümkün deyildir. Deməli, milli şüurun formalaşması poesində təhsil bazisinə xüsusilə diqqət yetirilməlidir. Fikrimizcə, milli şüurun formalaşması baxımından isə təhsil bazisində ilk növbədə, aşağıdakılar nəzərə alınmalıdır:

1) Tarixi şüur;
2) Mədəniyyət şüuru.

Bu mənada, hazırda milli şüurun formalaşmasında çox vacib olan milli mədəniyyət və milli tarix şüurunun öyrənilməsinə böyük ehtiyac var. Hər bir millətin varlığı və gələcəyi onun tarixi (dövlətçilik ənənələri, qəhrəmanların obrazı, hökmdarların şəxsiyyəti və s.) və mədəniyyət (adət-ənənələr, törələr, alimlərin-şairlərin elmi və ədəbi əsərləri və s.) şüurunun səviyyəsi ilə bağlıdır.

Milli mədəniyyət dedikdə, bir millətə məxsus olan adət-ənənələr, milli özünəməxsusluqlar, milli mentalitet və əxlaqi dəyərlərin ümumiliyi başa düşülür. Milli mədəniyyətə daxil olan bu faktorlar milli şüurun formalaşmasına bu və ya digər dərəcədə təsir göstərir. Mədəniyyət ilk növbədə, adət-ənənələrlə, törələrlə bağlıdır. Hər hansı ulus-millət törələrdən, adət-ənənələrdən uzaqlaşdıqca özgələşir. Bu özgələşmə dərinləşdikcə törələr və adət-ənənələr get-gedə tamamilə unudulur. Milli şüurun əsasın təşkil edən törələr unudulduqda qan-nəsil birliyinin də mahiyyəti itir. Bir növ keçmişini görə bilməyən, yalnız bu günü ilə yaşayan və sabahını başqaları müəyyənləşdirən amorf bir topluma çevrilir. Burada keçmiş dedikdə, milli yaddaşı – tarix şüurunu və törələri (adət-ənənələri) bir yerdə nəzərdə tuturuq. Özgələşən, yaxud da milli yaddaşından uzaqlaşdırılan millət üçün bunların heç bir mənası yoxdur. Onun

şüurunda yalnız bu gün var. Bu günlə yaşamaq yalnız törələrə, adət-ənənələrə laqeydlik deyil, həm də gələcəyi görə bilməməkdir. Bir növ, "praqmatist" olmaq düşüncəsi altında başqalarının ovu olmaqdır.

Halbuki ingilis-amerikan praqmatizmi mahiyyət etibarilə bu günlə yaşamaqdan çox, bu günün problemlərini zəmanənin tələblərinə uyğun şəkildə həll etməkdir. Ancaq bunu "həyata bağlılıq" kimi dərk edən cəmiyyətlərin şüurunda günün problemlərini zəmanənin tələblərinə uyğun şəkildə həll etmək deyil, özünü taleyin axarına buraxmaqdır. Bu taleyin axarı "Allaha təvəkkül" mənasında öz "təsbitini" gücləndirməklə, "palaza bürün elnən sürün" kimi mahiyyət alır. Artıq insan ətrafında baş verən proseslərə müstəqil düşüncədən daha çox, başqaları necə mən də elə "prinsipi" ilə yanaşır. Belə bir vəziyyətdə olan insan və həmin insanların ümumiliyi olan cəmiyyət özünü dərk etməkdə çətinlik çəkir.

Özəlliklə, tarixi və mədəniyyət şüuru baxımından milli yaddaşı dolaşdırılmış bir cəmiyyətdə insanların xeyli qismi özünə özünün deyil, başqalarının, yad millətlərin gözü ilə baxırlar. Bütün bunlar toplumda natamamlıq, yarımçıqlıq kompleksi yaradır. Hətta, bəzən özgələşmə prosesi o dərəcəyə gəlib çatır ki, başqa millətlərin aydınlarının onun tarixi, mədəniyyəti, adət-ənənələri ilə bağlı verdiyi bilgilərə möhtac qalır. Şübhəsiz, başqa millətlərin aydınlarının bilgiləri də çox vaxt təhrif olunmuş şəkildə çatdırılır. Bu təhrif olunmuş bilgilərlə milli özünüdərk daha da mürəkkəbləşir. Biz bunu, 19-cu əsrin ortalarında çar Rusiyasının Şimali Azərbaycan türkləri üzərində apardığı müstəmləkəçilik siyasəti nümunəsində görmüşük. Çar Rusiyasının apardığı assimilyasiya siyasəti nəticəsində milli yaddaşı dolaşdırılan millətin qabaqcıl aydınlarından bəziləri (M.F.Axundzadə və b.) türk kimliklərindən imtina edərək fars kimliyinə, İslam dinindən Xristianlığa (Mirzə Kazım bəy və b.) üz tutmuşlar.

Ümumiyyətlə, bütün türksoylu millətlər, o cümlədən Azərbaycan türkləri 19-cu yüzildə milli yaddaşın bərpasına çalışarkən yad millətlərin tarixi, mədəni, fəlsəfi və s. bilgilərinin təsiri altında olmuşlar (bunun mənfi cəhətləri müsbətindən daha çox olmuşdur). Buna səbəb də, artıq həmin dövrdə türk tarixi, mədəni, fəlsəfi və s. abidələrin əsasən, yad millətlərin əllərində olması idi. Ötən yüzilliklərdə Osmanlı, Səfəvi kimi türk sülalələrinin başçılarının diqqətsizliyi, biganəliyi nəticəsində türklüyə aid abidələr yad millətlərin, xüsusilə rusların, almanların, fransızların, ingilislərin əllərinə keçmişdi. Onlar bu abidələri bir çox hallarda satın almışlar!!! Beləliklə, bir tərəfdən Osmanlı və Səfəvi arxivlərindən bir çox sənədlər, digər tərəfdən əhalidə olan qiymətli abidələr müxtəlif vasitələrlə əcnəbilərin əlinə keçmişdi. Bununla da, bir tərəfdən abidələrimizə sahib çıxa bilmədik, digər tərəfdən dünyaya bəyan etməyə başladıq ki, türklərin başı at belində zəfərlər eldə etməyə qarışdığı üçün tarix yazmağa vaxtı olmamışdır!!! Fikrimizcə, burada daha çox məntiqə uyğun gələn türklərin tarix yazmağa vaxtları olmaması deyil, yazdıqları və yaratdıqları mədəni və tarixi abidələri qoruya bilməməsidir.

Bu mənada, türklərə ulu əcdadlarının yazdıqları və yaratdıqları abidələrin başqalarının vasitəsilə çatdırılmasının "kəşf" və "yenilik" mahiyyyəti daşıması təsadüfi olmamışdır. Bunu, "tarixi zəfərlərə başımız qarışdığı üçün yazmağa vaxtımız olmadı" deyərək, özünə təsəlli verən türklər yalnız sonralar anlayacaqdır (ancaq hələ də, anlamayanlar var) ki, yad millətlərin türk mədəniyyəti və tarixi ilə bağlı "kəşf"ləri onların xeyrindən çox zərərinə işləmişdir. İlk dövrlərdə bunu, anlamayan türklər Avropa alimlərinin (Radlov, Vamberi, Marr və b.) türk mədəniyyəti və türk tarixi ilə bağlı araşdırmalarını maraqla qarşılamış, indinin özündə də bir çox müəlliflərin də yazdığı kimi, özlərini yenidən "kəşf" etmişlər.

Maraqlıdır ki, 19-cu yüzildən etibarən türklər özlərini Avropa alimlərinin sayəsində "kəşf" edir, bununla da üzünü milli yaddaşın bərpasından çox müasirləşmək adı altında Qərb mədəniyyətinə tuturdu. Fikrimizcə, bu çox ziddiyyətli haldır. Əgər türklər doğrudan da Avropa alimlərinin sayəsində özlərini yenidən kəşf etdilərsə, bəs nədən Avropa alimlər sayəsində "kəşf" edilmiş mədəniyyətlərinə sahib çıxmaq əvəzinə daha çox avropalaşmaqla uğraşdılar və hazırda da uğraşmaqda davam edirlər. Bizcə, burada başlıca məsələ türk mədəniyyəti və tarixi abidələrini kəşf edən Aropa alimlərinin və ideoloqlarının bu ad altında türklərə təsir göstərə bilməsidir. Belə ki, Avropa ideoloqları və alimləri türk mədəniyyətini və tarixi abidələrini avropasayağı şəkildə türklərə çatdırmaqla, türk milli şüurunda geçmişin bərpasından çox, qərbləşmək şüurunu təlqin etməyə çalışmışlar.

Onlar yaxşı anlayırdılar ki, son əsrlərdə turklər mədəniyyət və adət-ənənələrə münasibətdə geriləyiblər. Özəllikllə, türklər vaxtilə mədəniyyət gətirdikləri millətlərin (farsların, ərəblərin və b.) təsir altına düşmüşlər. Belə ki, 19-cu əsrə qədər Anadolu türkləri osmanlılıq, Qacarlar iranlılıq anlayışı altında yarı ərəbləşmiş, yarı farslaşmış, Qafqaz və Orta Asiya türkləri isə tatarlıq adı altında yarı ruslaşdırılmış bir hala gətirilmişdir. Başqa sözlə, son bir neçə əsrdə türk imperiyalar və türk dövlətləri sürətlə milli mənəvi dəyərlərdən ayrı salınmış, onun yerini isə fars, ərəb, çin, rus, ingilis mədəniyyəti tutmağa başlamışdır.

Belə bir məqamda, yəni türk milli şüuru Türk-Turan mədəniyyətindən (adət-ənənələrindən, əxlaqından, törələrindən) uzaq düşdüyü, yaxud da düşürüldüyü vaxtda Avropa alimlərinin Türk mədəniyyəti və adət-ənənələri ilə bağlı kəşfləri bir nicat yolu kimi başa düşülürdü. Qərb alimlərinin Turan tarixi və mədəniyyəti araşdırmaları Osmanlı, Qafqaz, Azərbaycan, Krım, Orta Asiya türkləri üçün, onun hansı formada çatdırılmasından

asılı olmayaraq yeni bir şeylər idi. Şübhəsiz, Türklərin Avropa alimlərinin "kəşf"lərinə möhtac halında qalması səbəbsiz deyildi. Türk millətinin aydınları başa düşürdülər ki, artıq xalq bir neçə yüz il bundan qabaq öz mədəniyyətini və adət-ənənələrini bilən və ona əməl edən bir xalq olmaqdan uzaqlaşmışdır. Ona görə də, başlıca olaraq tarixə və mədəni dəyərlərə əsaslanan milli şüur birliyini yenidən bərpa etmək lazım gəlirdi.

Bu baxımdan Avropa alimlərinin Türk mədəniyyəti və tarixi sahəsindəki "kəşf"ləri Türk xalqları, özəlliklə Osmanlı və çar Rusiyası türkləri arasında daha çox öz təsirini göstərdi. Osmanlı türkləri çökməkdə olan imperiyanı qurtarmaq üçün Türk mədəniyyəti və Türk tarixi şüurunu bərpasına çalışdıqları halda, Rusiyanın əsarəti altında yaşayan türksoylu xalqlar milli azadlıq hərəkatları baxımından buna ehtiyacları vardı. Çünki milli şüurun-türklük şüurunun Osmanlı və Rusiyada aşağılanması təhlükəli bir duruma gətirib çıxarmışdır. Üstəlik, eyni durum Çində, İranda və başqa türklər yaşayan ölkələrdə də hökm sürürdü. Bu mənada XVIII-XIX yüzilliklər türklük şüurunun tənəzzül dövrü kimi də dəyərləndirilə bilər.

XVIII-XIX yüz illiklərdə Türk törəsinə əsaslanan **Türk əxlaqı-Türk mədəniyyəti** yalnız Avropa ölkələrində deyil, Osmanlı, çar Rusiyası imperiyalarında da mənfi bir anlayış kimi təqdim olunurdu. Özəlliklə, türklərin böyük imperiyası olan Osmanlıda Türk əxlaqının aşağlayıcı bir duruma gətirilməsi təsadüfi deyildi. Belə ki, Osmanlının qeyri-türk əhalisi Türk mədəniyyətinə, Türk əxlaqına, Türk törələrinə yuxarıdan aşağı baxır, vəhşi adətlər kimi qələmə verir, hətta türklərin arasında irəli getmək fikrində olanları özləri kimi düşünməyə vadar edirdilər. Bununla da, "yeni türklər", yaxud da "gənc türklər" bir çox məsələlərə mütərəqqi ruhlu türklük və islamlıqdan daha çox Qərb ideyaları ilə baxmağa başladılar. Yeni türklər nicat yolunu daha çox Qərbdə axtarmağa başladılar. Bütün bunlar, ilk

növbədə türklüyü yenidən "kəşf" edən avropalıların "əməyi"nin və əməllərinin nəticəsi idi.

Rusiya türklərinin əxlaq və tarix şüur baxımından milli şüur səviyyəsi Osmanlı türklərindən çox da fərqlənmirdi. Çünki çar Rusiyasında da türklük Osmanlı da olduğu kimi, gerilik, vəhşilik kimi təqdim olunur, çıxış yolunu yalnız Rusiya və Avropa (ümumilikdə Xristian mədəniyyəti) mədəniyyəti ilə bağlı olunması vurğulanırdı. Çar Rusiyasının bu cür siyasəti nəticəsində türksoylu xalqlar, o cümlədən Azərbaycan türk aydınları arasında da Türk əxlaqına mənfi münasibətlər bəsləyənlər ortaya çıxdı.

Təsadüfi deyil ki, M.F.Axundzadənin qəhrəmanları mədəniyyət öyrənmək üçün Fransaya-Parisə getmək istəyirdi. Axundzadə bir tərəfdən komediyalarında milli və dini adət-ənənələri tənqid edir, digər tərəfdən nicat yolunu Rus-Avropa-Qərb mədəniyyətini mənimsəməkdə görürdü. Bu mənada, istər çar Rusiyasının, istərsə Sovet Rusiyasının Axundzadəyə olan "sevgisi"nin kökündə Türk və İslam mədəniyyətini inkar, Rus-Avropa-Qərb mədəniyyətini iqrar etməsi dayanırdı. Bu cür nümunələri Osmanlı və çar Rusiyası dövründə yaşamış başqa türk aydınlarının (M.A.Şahtaxtlı, C.Məmmədquluzadə və b.) şəxsində də görmək olar. Deməli, 18-19-cu yüzilliklərdə Türk mədəniyyətinin tənəzüllündən sui-istifadə edən qüvvələr onun yerinə türklərin yaşadıqları bölgələrdən asılı olaraq, fars-ərəb mədəniyyətini və Rus-Avropa-Qərb mədəniyyətini təbliğ etmişlər. Eyni zamanda, bir sıra türk aydınlarını da müasirləşmək adı altında öz sıralarına cəlb edə bilmişlər.

Türk mədəniyyətinə münasibətdə olduğu kimi, **Türk tarixinə** də Osmanlı və çar Rusiyasında mənfi bir fon yaradılmışdı. Türk tarixinin şanlı qəhrəmanları yalnız Avropa tarixçilərinin əsərlərində deyil, müsəlman ölkələrinin bir sıra tarixçiləri və alimlərinin əsərlərində də vəhşi və barbar kimi qələm verilirdi. Özəlliklə, türkləri "monqol-tatar" adı altında təqdim

edilməsi və Cingiz xanın dünyanın ən qəddar hökmdarı elan olunması bir sıra Avropa alimlərinin təbliğatının nəticəsi idi. Türk hökmdarları arasında Çingiz xanla yanaşı Atilla, Əmir Teymur, Sultan Süleyman Qanuni və başqaları da eyni şəkildə dünya ictimaiyyətinə mənfi hökmdarlar kimi təqdim olunurdu. Bu təsirin nəticəsində Osmanlı və Rusiyadakı bəzi türk aydınları da Əli bəy Hüseynzadənin, Hüseyn Cavidin təbrincə desək, türk tarixinin qəhrəmanlarını vəhşi və barbar adlandırırdılar.

Gödüyümüz kimi, əksər Avropa alimləri və ideoloqları məqsədli şəkildə Türk mədəniyyətini və Türk tarixini saxtalaşdırmış, bununla da milli şüurun-türklük şüurunun zədələnməsinə səbəb olmuşlar. Özəlliklə, bəzi türk aydınlarının Rus-Avropa-Qərb ideoloqlarının təsiri nəticəsində Türk mədəniyyətinə və Türk tarixinə yanlış yanaşmaları milli şüurun doğru istiqamətdə formalaşmasına əngəl olmuşdur. Bu günə qədər də həmin yanlış yanaşmaların ağrıları Türk toplumlarında hiss olunur.

Ancaq etiraf etməliyik ki, Osmanlı türklərindən fərqli olaraq Rusiya türkləri milli özünüdərkdə, yəni Rus-Avropa-Qərb mədəniyyətindən çox Türk mədəniyyətinə və Türk tarixinə dönüşdə bir pillədə olsa, öndə olublar. Bunun əsas səbəbi bir tərəfdən Rusiya türklərinin daha çox assimilyasiya məruz qalmaları, digər tərəfdən Rus-Avropa-Qərb mədəniyyəti ilə yaxından tanış olmaları idi. Əslində hər ikisi bir-birnə bağlıdır. Belə ki, Rus-Avropa-Qərb mədəniyyəti təsiri ilə assimilyasiya məruz qalanlar, bir növ məcbur olaraq onunla dərindən tanış olurdular. Bu dərindən tanışlıq bir sıra türk aydınlarında nicat yolunun Rus-Avropa mədəniyyətində olması şübhəsi yaradırdı. Məsələn, M.F.Axundzadə, M.A.Şahtaxtlı Rus-Avropa-Qərb mədəniyyətinə "aşiq" olub ərəb əlifbasında dəyşikliklər edilməsi, yaxud da latın əlifbasına keçilməsini təklif etdiyi halda, A.A.Bakıxanov, H.Zərdabi, Ə.Hüseynzadə buna bir o qədər meyil göstərməmişdir. Fikrimizcə, sonuncuların Rus-Avropa-Qərb mədəniyyətinə Axundzadədən, Şahtaxtlıdan fərqli

olaraq isti münasibət bəsləməməsi üçün ciddi amillər olmuşdu. Doğrudur, onlar da bütövlükdə Rus-Avropa mədəniyyətini inkar etmirdilər, ancaq M.F.Axundzadə, C.Məmmədquluzadə, M.A.Şahtaxtlı kimi onu ideal şəklində də görmürdülər. Əksinə, Zərdabi "Əkinçi" qəzetində yazırdı ki, müsəlmanlar islamlıq və türklük şüuru altında birləşməlidirlər. Eyni ideyanı Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə də müdafiə etmişdir. Fikrimizcə, Zərdabinin, Hüseynzadənin, Rəsulzadənin, Ağaoğlunun Rus-Avropa-Qərb mədəniyyətindən çox Türk-İslam mədəniyyətinə meyil göstərməsinin nəticəsi idi ki, erməni və rus ideoloqları onları tənqid edirdildər.

Bu mənada, Rus-Avropa-Qərb mədəniyyətinə meyilli Axundzadənin ən yaxın dostlarından birinin erməni Melkum xan olması təsadüfi deyildi. Əlbəttə, bizim burada Axundzadəni ermənipərəstlikdə ittiham etmək fikrimiz yoxdur. Ancaq etiraf etməliyik ki, həmin dövrdə Zərdabi ermənilər və ruslar üçün daha təhlükəli idi, nəinki çar Rusiyanın hərtərəfli etibarını qazanmış Axundzadə!!! Unutmaq olmaz ki, "Əkinçi"nin bağlanmasında və Zərdabinin Bakıdan sürgün olunmasında da erməni və rus ideoloqlarının birbaşa əli olmuşdur. Çar Rusiyasının "Əiknçi" qəzetinin bağlatmasının və Zərdabini Bakıdan sürgün etməsinin əsas səbəbi onun M.F.Axundzadə, C.Məmmədquluzadə, M.Şahtaxtlı və başqa Rus-Avropa-Qərb mədəniyyətinə ideal kimi baxanlardan fərqli olaraq daha çox Türk-İslam mədəniyyətinə bağlılığı idi. Əgər Zərdabini bu milli işinə davam etdirməyə çar məmurları imkan versəydi Rusiya türkləri, o cümlədən Azərbaycan türkləri arasında milli şüurun bərpası daha tez baş verəcək, milli azadlıq hərəkatı bir neçə on il öncə baş qaldıracaqdı.

Fikrimizcə, məhz bu səbəbdəndir ki, ermənilər ilk milli partiyalarını "Daşnaksutyunu" XIX əsrin sonlarında yaratdıqları halda, Azərbaycan türkləri ən azı on il onlardan geri qaldılar. Bunun sadə bir açıqlaması var: ermənilərə siyasi mənada

millətləşmə yolunda çar Rusiyası əngəl olmadığı, əksinə hər cür yardım etdiyi halda, Azərbaycan türkləri arasında ruslaşdırma-avropalaşdırma siyasətini yürütmüş, hər cür milli əməlin qarşısını zoraklıqla almışdır. Bu bir gerçəklikdir.

O da bir gerçəklikdir ki, çar Rusiyası müəyyən qədər məcbur olub müstəmləkə millətlərin azadlıqlarını tanımağa başladığı dövrdə Zərdabinin sələflərindən – Ə.Hüseynzadə, Ə.Ağaoğlu və başqalarından çox, Axundzadənin yolunu davam etdirənlərə – şahtaxtlılara, məmmədquluzadələrə şərait yaratmışlar. Yalnız 1905-ci il çar manifestindən sonra Türk-İslam mədəniyyətinə əsaslananlar müəyyən dərəcədə özlərini göstərərək milli qəzetlər və milli təşkilatlar yaratmağa nail olmuşlar. Ancaq çar Rusiyasının zoraklığını artdığı dönəmlərdə Türk-İslam mədəniyyətinin daşıyıcıları ilə Rus-Avropa mədəniyyətinə meyil edənlərə yenə də fərqli münasibətlərin göstərildiyi tarixə məlumdur. Ancaq onu da hökmən qeyd etməliyik ki, vaxtilə Rus-Avropa mədəniyyətinə, bu mənada oradan gələn marksizm kimi cərəyanlara meyil edən, Qərb mədəniyyəti ilə Türk-İsam mədəniyyəti arasında oxşarlıqlar tapmaq isəyən bir sıra türk aydınlarımızdan bəziləri (M.Ə.Rəsulzadə, A.Kazımzadə və b.) məsələnin əsil mahiyyətini dərk etdikdən sonra birmənalı şəkildə milli demokratik cəbhəyə üz tutmuşlar.

Bütün hallarda Türk mədəniyyətinin və Türk tarixi şüurunün dirçəldilməsi yolunda çar Rusiyasında yaşayan türk aydınları H.Zərdabi, İ.B.Qaspıralı, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Y.Akçuraoğlu, M.Ə.Rəsulzadə və başqaları mühüm rol oynamışlar. Onlar Türk-İslam mədəniyyətinə və tarixinə dair həsr etdikləri əsərləri ilə milli şüurun bərpasına doğru ciddi addımlar atmışlar. Ən əsası odur ki, Türk-İslam mədəniyyətinə və tarixinə əsaslanan aydınlarımız milli şüurun bərpasına çalışaraq türklük ruhunun aşağılanmasına qarşı fikir davasına başlamışlar. Bu yolda Türk tarixi şüuru baxımından Çingiz xanları, Əmir Teymurları, Atillaları, Sultan Suleyman Qanuniləri vəhşi,

barbar, İslam-Türk mədəniyyətini gerilik və xurafat kimi qələm verilməsinin yanlış olduğunu türk toplumlarına çatdırmağa çalışmışlar. Başqa sözlə, türk aydınları türklük və islamlıq ruhunun aşağılanmasına qarşı çıxaraq onun əzəmətini bərpası uğrunda mücadilə aparmışlar.

Şübhəsiz, bütün bunlar milli şüurun bərpası yolunda ilk cəhdlər idi. Ancaq vaxtında atılan və görülməsi zəruri olan addımlar idi. Çünki türklük ruhunun az qala məhv edilməsi təhlükəsi vardı. Belə bir məqamda türklük ruhunun bərpası, xüsusilə Osmanlı İmperiyasının yerində Türkiyə Cümhuriyyətinin, Rusiya imperiyasının işğal altında olun türk ellərində Azərbaycan Cümhuriyyəti, Türküstan cümhuriyyətləri, Krım muxtariyyəti, Tatarıstan cümhuriyyəti və başqalarının yaranması türklük şuruna yeni bir güc qatdı.

Doğrudur, ruslar çox kemədi ki, çar Rusiyası ərazisində yaranan türk cümhuriyyətlərinin hamısını yenidən işğal etdilər, ancaq onların oyanmış müstəqillik əzmlərini sındıraraq tamamilə tarix səhnəsindən silə bilmədilər. Bu mənada, SSRİ-nin tərkibində Türk cümhuriyyətlərinin formal da olsa, varlıqlarını sürdürməsi türklük şüurunun yaşaması yolunda mühüm amil idi. Hər halda, Sovetlər Birliyinin bütün basqılarına, repressiyalarına baxmayaraq imperiya tərkibindəki Türk cümhuriyyətlərinin, o cümlədən Azərbaycan Cümhuriyyətinin milli ruhlu aydınları Türk mədəniyyəti və Türk tarixi şüurunu bacardığı qədər yaşatmağa çalışdılar.

Məsələn, H.Cavid "Səyavuş", "Topal Teymur", C.Cabbarlı "Od gəlini", M.Rahim "Xaqani" əsərləri ilə milli mədəniyyəti və milli tarixi tərənnüm etmişlər. Doğrudur, onlardan bəziləri bu əsərlərinə daha çox "sosialist" don geyindirməyə çalışmışlar. Ancaq bütün hallarda bu, SSRİ dövründə də milli mədəniyyətin və milli tarixin yaşadılması, yəni milli şüurun qorunması demək idi. Eyni mövqeni H.Hüseynov "XIX əsr Azərbaycan fəlsəfi fikir tarixindən" əsərində əks etdirməyə

çalışmışdır. Belə ki, sosialist prinsipləri əsasında Azərbaycan fəlsəfi fikir tarixinə qələmə alan H.Hüseynov tarixi obeyktivlikdən çıxış edərək milli mədəniyyəti və milli fəlsəfi şüuru istər-istəməz önə çəkməli olmuşdur. Bu isə, sadiq və inanılmış kommunist olmasına baxmayaraq H.Hüseynovun əleyhinə yönəlmiş və o, Rus-Avropa-Qərb mədəniyyətindən kənara çıxmasının qurbanı olmuşdu. Çünki bu cür əsərlər sovet ideoloqlarının fikrincə, "sosialist"-beynəlmiləl olmaqdan çox milli mədəniyyət və milli tarixə aid idilər. Onlar bu məsələ də müəyyən mənada haqlı idilər.

SSRİ dövründə baş verən bu kimi hadisələr də göstərir ki, sadiq kommunistlər belə, dərinə getdikdə milli mədəniyyət və milli tarixi şüurdan çıxış etməkdən başqa yol görməmişlər. Şübhəsiz, Rus-Avropa-Qərb mədəniyyətinə və ideologiyasına əsaslanan sovet ideoloqları üçün bu qəbul edilməz idi. Onlar hesab edirdilər ki, sovet mədəniyyəti məhz Rus-Avropa-Qərb mədəniyyətidir, ona görə də rus olmayan millətlər, o cümlədən türksoylu xalqlar bu xətlə inkişaf etməlidirlər. Sovet ideololoqları açıq şəkildə qeyri-rus millətlərinin, xüsusilə Türk xalqlarının aydınlarını məcbur edirdilər ki, yalnız Rus-Avropa-Qərb mədəniyyəti əsasında tarix, mədəniyyət və fəlsəfi əsərlər yazılsın, bu zaman Lenin, Stalinin mülahizələri örnək götürülsün. Ümumilikdə, qeyri-rus millətlərinin aydınları bu prinsiplər əsasında əsərlər yazaraq xalqlar dostluğunu, sovet beynəlmiləlçiliyni tərənnüm etsinlər və ondan bir addım da olsun kənara çıxmasınlar.

Şübhəsiz, bütün bu repressiyalar, qadağalar təsirsiz ötüşmədi. Məhz Rus-Avropa-Qərb mədəniyyətini və tarixini deyil, Türk-İslam mədəniyyətini və tarixini təbliğ etdiklərinə görə də yüzlərlə türk aydınları SSRİ hərbi maşının repressiyasına məruz qaldılar. Beləliklə, çar Rusiyasından yenicə qurtulub milli mədəniyyətlərinə və milli tarix şüurlarına sahib çıxmağa başladıqları bir dövrdə, türksoylu xalqlar bu dəfə SSRİ-

nin repressiyası və onların antitürk mədəniyyəti (sovet mədəniyyəti), antitürk tarixi (Rus-Avropa tarixi) ilə üzbəüz qaldılar. Bunun da nəticəsində Rusiya əsarətində olan türksoylu xalqlar, o cümlədən Azərbaycan türkləri arasında milli şüurun bütövləşməsi prosesi yarımçıq qaldı. Əvəzində SSRİ tərkibindəki türksoylu xalqlar arasında Rus-Avropa-Qərb mədəniyyəti və tarixi yenidən vüsət aldı.

Fikrimizcə, bu antitürk mədəniyyəti və tarixinin həddən artıq vüsət ala bilməməsinə görə yenə də milli aydınlarımıza borcluyuq. Hər halda, milli aydınlar bu mücadiləni verməsəyidilər bu gün ümumiyyətlə, milli şüurdan heç bir nişanə qalmaz, bizlər də onların bu müqəddəs işlərini davam etdirə bilməzdik. Ancaq milli aydındlarımızın yolunu davam etdirmək heç də asan deyildir.

Çünki hazırda keçmiş SSRİ-nin tərkibində yaşamış türksoylu xalqlar, o cümlədən Azərbaycan xalqı Rus-Avropa-Qərb mədəniyyətinin və tarixi şüurunun güclü təsiri altındadır. Müstəqilliyin bərpasından sonra (1991) Rus-Avropa-Qərb mədəniyyətinin təsirindən qurtulmaq yolunda müəyyən işlər görülsə də, bu yetərli olmamışdır. Məhz bunun nəticəsidir ki, hələ də Azərbaycan xalqının tarixinə, mədəniyyətinə və fəlsəfəsinə münasibətdə dəqiq təsəvvür yoxdur. Bu məsələlərə münasibətdə dəqiqləşdirmələrin aparılmaması, əvəzində ziddiyyətlərin çoxalması milli şüurun formalaşması prosesinə ciddi şəkidə əngəl olur.

Çox təəssüflər olsun ki, hazırda Azərbaycan xalqının tarixinə, mədəniyyətinə və fəlsəfəsinə həsr olunmuş əsərlərin, tədqiqat işlərin əksəriyyəti milli şüuru formalaşdırmaqdansa, ona daha çox əngəl olur. Milli ideyalara münasibət yüz il bundan öncə başqa, indi müəyyən qədər bir qədər fərqli ola bilər. Biz də razılaşırıq ki, ayrı-ayrı ideyaların düşüncələrimizə təsir etməsində şərait, dövr və mühit çox böyük rol oynayır. Təbii ki, bu belədir. 10-20 ildən sonra cəmiyyətin həyatında yeni

bir dönəmə qədəm qoyulsa, bugünkü fikirlər də öz qüvvəsini itirə, ən azı korrektələr ola bilər.

Bütün hallarda tarixi, fəlsəfə tarixini, ədəbiyyat tarixini olduğu kimi yazmaq lazımdır. Ancaq həmin tarixləri yazanların hansı şüurun, hansı ruhun, hansı ideyanın daşıyıcısı olmasından da çox şey asılıdır. Axı həmin tarixləri yazanlar insanlardır və istər-istəməz onların özünəməxsus dünyagörüşləri, ideyaları və baxışları var. Belə olduğu təqdirdə, tarixlərin ruhunun və mahiyyətinin cızılmasında insanların tapındıqları ideya və məsləklərinin təsiri qaçılmazdır.

Bununla bağlı belə bir müqayisə aparmaq pis olmazdı ki, Azərbaycan Cümhuriyyətini Sovet Rusiyası işğal etdikdən sonra (1920-ci il, 27 aprel) kommunizmi təbliğ etmək məcburiyyətə çevrilmişdi. Xüsusilə, əli qələm tutan və az-çox istedadı olan hər bir kəsdən tələb olunurdu ki, sosializmi tərif edən elmi və bədii əsərlər yazsınlar. Demək olar ki, 1920-1930-cu illərdə hamı "rus kommunizmi"nin mahiyyətinə uyğun olaraq "mədəni quruculuq" adı altında buna məcbur edilirdi. S.Rüstəm, S.Vurğun, R.Rza, M.Rəfili və başqaları ilə yanaşı, vaxtilə millətçi-türkçü, mövqeyi ilə tanınan H.Cavid, Ə.Cavad, C.Cabarlı, Ü.Hacıbəyli kimi aydınlarımızdan bu xüsusilə tələb olunurdu. Demək olar ki, milli və beynəlmiləlçi ruhu daşımalarından asılı olmayaraq onların hamısı sosializmi tərifləyən əsərlər də yazmışlar. Sadəcə, milli ruhlu aydınlarımız, özəlliklə Cavid, Cavad, İldırım sosializmə həsr etdikləri əsərlərində belə, bu və ya digər şəkildə milli ruhu yaşatmağa çalışmışlar. Bu onların sözün həqiqi mənasında tapındıqları ideya və məsləyin dəyişməməsinin ifadəsi idi. Adətən, o kəslər əqidə və məsləklərini tez-tez dəyişirlər ki, onlar məslək və əqidə ilə yaşayanlar deyil, zəmanə və mühitlə uyğunlaşanlardır. Bu mənada, Cavid, Cavad, Cabbarlı (fikrimizcə, Cabbarlının irsini sovet ideologiyası çox təhrif etdiyi üçün ona daha çox "beynəlmiləl" don geyindirilmişdir), İldırım kimi aydınlarımız

məslək və əqidə sahibi idilər. Sovet Rusiyası milli aydınlarımızın Vətənini işğal etsələr də, "Rus kommunizmi" onların milli ruhunu və milli şüurunu işğal edə bilməmişdi. Bu bir reallıq idi. Bu reallığı görən və milli aydınlarımızın ruhunu dəyişdirə bilməyən sovet ideoloqları son çarə olaraq repressiyaya əl atmalı olmuşlar.

Eyni tarixi hadisəni, ancaq tamamilə fərqli yöndə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra yaşadıq və yaşamaqda da davam edirik. Belə ki, SSRİ dövründə sovet ideologiyasına uyğun Sovet Azərbaycanı xalqının fəlsəfəsini, tarixini, mədəniyyətini, ədəbiyyatını yazanlar imperiyanın süqutu və ictimai quruluşun dəyişməsindən sonra isə sözdə milli tarix, milli fəlsəfə, milli ədəbiyyat, milli mədəniyyətlə bağlı monoqrafiya və kitablar yazmağa başladılar və davam da edirlər. Çünki bütün bu sahələrdə aparıcı rol məhz onların əlindədir. Halbuki "rus kommunizmi" ideologiyasının hökmranlığı dövründə formalaşmış, sovet beynəlmiləlçiliyinin təbliğatçıları və ideoloqları olmuş bu insanların əksəriyyətinin nə dərəcədə məslək və əqidə dəyişdirmələri özü çox mübahisəli məsələdir. Hər halda, heç kəsə sirr deyil ki, onlar sovet dövründə "rus kommunizmi" ideyasına uyğun olaraq əsərlərində Marksı, Leninі, Stalini, Nərimanovu və başqalarını tarixi şəxsiyyətlər kimi idealladırmış, əvəzində Rəsulzadəni, Yusifbəylini, Xoyskini və başqalarını "müsavatçı" cəlladlar, Azərbaycan xalqına düşmən kimi qələmə vermişlər.

Müstəqilliyin ilk illərindən başlayaraq bu cür alimlərin əksəriyyəti birdən-birə 180 dərəcə dəyişib, SSRİ dövründə yazdıqlarını və dediklərinin əksini iddia etməyə başladılar. Əlbəttə, bütün bunlar daha çox eyforiya altında baş verdiyi üçün, çox geçmədi ki, sovet dövrünün yetişdirməsi olan alimlərin əksəriyyəti daha ehtiyatlı davranmağa çalışdılar. Bu ehtiyatlılıq da ondan ibarətdir ki, bir tərəfdən SSRİ dövrünü və sovet ideologiyasını kəskin şəkildə tənqid etməkən qaçmağa

başladılar. Çünki başa düşdülər ki, sovet dövrünün ideyalarının tamamilə əksinə çıxmaq dolayısıyla özlərini inkar etməkdir. Bu baxımdan onlar SSRİ dövrünün ideyalarını elə bir formada tənqid etməyə çalışdılar ki, müəyyən mənada özlərini sığortalaya bilsinlər.

Bu mənada, təsadüfən yuxarıda göstərmədik ki, Cavadlar, Cavidlər, İldırımlar Sovet Rusiyası işğalından sonra məcburən sosializmə həsr etdikləri əsərlərində belə milli ruhu yaşatmaqda davam etmişlər. Eyni hadisəni Azərbaycanın müstəqilliyinin bərpasından sonra milli ədəbiyyata, milli fəlsəfəyə, milli mədəniyyətə, milli tarixə həsr olunmuş elmi və bədii əsərlərdə sovet ruhunu əks etdirənlər təkrarlayırlar. Fikrimizcə, hazırda millilik pərdəsi adı altında sovet ruhunu yaşadanlar da müəyyən mənada buna məcburdurlar.

Digər tərəfdən, Sovet dövründə formalaşmış alimlərin əksəriyyəti vaxtilə tənqid etdikləri milli və dini dəyərlərə münasibətdə də ehtiyatlı hərəkət etməyə başladılar. Belə ki, bu məsələyə də daha çox milli maraqlara uyğun deyil, şəxsi mənafələrini qorumaq naminə bir növ ikili standartlardan yanaşdılar. Hətta, Sovet dövrünün bəzi ziyalıları SSRİ dövründə yaşadığımıza görə keçmiş kommunistləri deyil, milli mücadilədə şəhid və qazi olmuş Yusifbəyliləri, Rəsulzadələri, Xoyskiləri, Cavadları, İldırımları və başqalarını suçlama kampaniyası apardılar və aparırlar da. Fikrimizcə, bir çox hallarda məqsədli şəkildə milli mücadilə aparmış şəxsiyyətlər haqqında mənfi rəy formalaşdırılır. Bunun əvəzində isə, SSRİ dövrünün "sovet beynəlmiləlçiliyi" və onun tərənnümçüləri olan şəxsiyyətlər (istər dövlət xadimləri olsun, istərsə ziyalıları olsun) və haqqında müsbət rəy formalaşdırlır.

Məhz bunun nəticəsidir ki, bu gün 1930-cu illərdə milli şüurun məcburən "sovet beynəlmiləlçiliyi" ilə əvəz olunmasını müsbət dəyərləndirənlər, hətta bu antimilli prosesi milli özünüdərk kimi dəyərləndirənlər də var. Məsələn, fəlsəfə elmləri

doktoru Adil Əsədov yazır ki, 1930-cu illərə qədər biz özümüzü heç zaman azərbaycanlı adlandırmamışıq. Bu dövrdən başlayaraq azərbaycanlı adlandırılmağımızı yeni gerçəkliyin bir ifadəsi hesab edən A.Əsədov bunu milli özünüdərk (?!) kimi qiymətləndirir: "XX əsrin 30-cu illərinin siyasi kontekstində formalaşan milli özünüdərk meyarları Cümhuriyyət dövrünün milli özünüdərk meyarlarından təbbi ki fərqli idi" [217ª, 205].Hətta, bu tədqiqatçı həmin fərqi 1930-cu illlərdəki "milli özünüdərk meyarları"nın Cümhuriyyət dövrünün milli özünüdərk meyarlarından üstün olmasında görür. Onun fikrincə, bu gün Azərbaycan xalqı üçün vacib olan Cümhuriyyət dövrünün milli özünüdərk meyarlarına deyil, 1930-cu illlərdəki "milli özünüdərk meyarları"na ("azərbaycanlı", "Azərbaycan dili" və s.) sahib çıxmaq və yaşatmaqdır. A.Əsədovun öz təbrincə desək, "Azərbaycan etnogenezinə Sovet dövlətinin verdiyi töhfələri qoruyub saxlamaqdır" [217ª, 207].

Şübhəsiz, bütün bunların fonunda AMEA Tarix İnstitutunun milli ruhdan və milli şüurdan uzaq 7 cildlik "Azərbaycan tarixi", AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun ondan çoxda fərqlənməyən çoxcildlik "Azərbaycan fəlsəfəsi tarixi" (yeri gəlmişkən, bu çoxcildliyin yalnız iki cildi, özü də rus dilində işıq üzü görmüşdür) kitablarını ərsəyə gətirməsi nə qədər ağrılı olsa da, bir gerçəklikdir. Xüsusilə, "Azərbaycan tarixi" və "Azərbaycan fəlsəfəsi tarixi" kitablarının əsasən milli ruhdan uzaq şəkildə yazılması çox düşündürücüdür. Çünki biri tarixi şüur, digəri mədəni-əxlaqi şüurla bağlıdır. Bunlar isə milli şüurun əsas ünsürləridir. Ancaq həmin kitablarda milli ruhdan çox "sovet beyəlmiləlçiliyi"nin iyi gəlir. Bunun üçün hər iki institutun uyğun əsərlərini diqqətlə oxumaq kifayətdir.

Qeyd edək ki, "sovet beynəlmiləlçiliyi"ndən qurtula bil-məyənlər arasında müəllimlərdə vardı. Bu baxımdan sovet təhsil sistemini və sovet ideologiyasından qurtula bilməyən

müəllimlərin də müstəqillik dövrünün nəslini milli şurda formalaşdırması inandırıcı görünmür. Maraqlıdır ki, sovet təhsil sisteminin yüksək keyfiyyətindən danışan bu müəlimlərin əksəriyyəti indiki təhsil sistemindəki boşluqları başqa yerdə axtarırlar. Halbuki indi orta və ali məktəblərdə dərs deyən müəllimlərin böyük əksəriyyəti istəsək də, istəməsək də sovet dövrünün müəllimləridir. Belə olduğu təqdirdə, bəs onlar niyə əvvəlki təhsil keyfiyyətini şagirdlərə verə bilmirlər? Buna əngəl olan nədir? Sovet təhsil sistemini müdafiə edən bu cür müəllimlərin fikrincə, problem onlarla deyil, təhsil sitemindəki boşluqlarla bağlıdır. Onlar bu məsələdə müəyyən qədər haqlıdırlar. Yəni doğrudan da təhsil sistemində hələ də problemlər qalmaqdadır. Ancaq bu məsələnin bir tərəfidir.

Fikrimizcə, şagirdlərə istənilən səviyyədə təhsil və tərbiyə verilməməsində Təhsil Nazirliyinin yarıtmaz əməlləri, konkret bir sistemə düşə bilməməsi ilə yanaşı, sovet dövrünün təfəkküründən qurtula bilməyən müəllimlər və təhsil işçiləri də günahkardırlar. Onlar nə qədər yaxalarını qırağa çəksələr də, etiraf olunmalıdır ki, şagirdlərin əksəriyyətində milli şüurun (vətənpərvərlik, millətpərvərlik, islampərvərlik və s.) istənilən səviyyədə formalaşmamasında müəllimlər və təhsil işçiləri də müəyyən rol oynayırlar. Onlar dünyagörüşcə "sovet beynəlmiləlçiliyi"nə əsaslandıqları üçün, yeni nəsildə müstəqillik və millilik ruhunu formalaşdırmaqda çətinlik çəkirlər. Bu yalnız onların bunu istəməmələri ilə bağlı deyildir. Çünki onların arasında bunu istəyənlərin əksəriyyəti belə təfəkkür baxımından milli ideyalarla, əsasən milli ideyalara üz tutan yeni nəsillə uğyunlaşa bilmirlər.

Məsələn, "sovet beynəlmiləlçiliyi" təfəkkürlü müəllimlərin İslam dininə münasibəti ilə yeni nəsil müəllimlərin baxışı eyni deyildir. "Sovet beynəlmiləlçiliyi" təfəkküründə təhsil almış müəllimlərin əksəriyyəti istər-istəməz İslama yenə də "rus kommunizmi" məfkurəsindən yanaşırlar. Hətta, onların arasında

“rus kommunizmi”ni tənqid edib, İslamı müdafiə edənlərin də əksəriyyəti bunda səmimi deyillər. Bu onların danışıqları ilə əməllərinin üst-üstə düşməməsində də, açıq şəkildə hiss olunur.

Başqa misal kimi göstərə bilərik ki, “sovet beynəlmiləlçiliyi” təfəkküründən xilas ola bilməyən müəllimlərinin və ziyalılarının Azərbaycan xalqının tanınmış şəxsiyyətləri Babəkə, Şah İsmayıl Xətaiyə, Koroğluya, Cavad xana, M.Ə.Rəsulzadəyə, S.Vurğuna, Ə.Hüseynzadəyə, N.Nərimanova münasibəti ilə yeni nəslin onlara baxışlarında xeyli dərəcədə fərqliliklər var. Bu o demək deyil ki, müstəqil Azərbaycanın yeni nəsil müəllimlərinin və ziyalılarının hamısı hər şeyi doğru qiymətləndirirlər. Əlbəttə, belə bir müddəa ilə çıxış etmək yanlış olardı. Ancaq yeni nəslin şüurunda həmin şəxsiyyətlərə, qəhrəmanlara, ümumiyyətlə tarixi və mədəni abidələrə münasibətdə çatışmazlıq varsa, bunun da əsas günahkarları məhz “sovet beynəlmiləlçiliyi” təfəkküründən xilas ola bilməyən müəllimlər və ziyalılardır. Çünki onlar Sovet dövründə “rus kommunizmi”ni təbliğ edirdilər, müstəqillik olduqdan sonra ona uyğunlaşmaq adı altında dünyagörüşləri ilə uyğun gəlməyən, öz anlamlarında yeni bir şeylər ifadə etməyə çalışdılar. Fikrimizcə, əgər sovet təfəkküründən daşıyıcıları olan müəllimlərin və alimlərin əksəriyyəti öz sözlərində, yazdıqlarında səmimi deyillərsə, zəmanəyə uyğun hərəkət edirlərsə, o zaman yeni nəsildən hansı mənada böyük ümidlər gözləmək olar.

Gördüyümüz kimi, SSRİ 20 ildən çoxdur bitsə də, ancaq sovet ideologiyasının şüurlarmızdakı qalıqları hələ də davam etməkdədir. Xüsusilə, çağdaş nəsil ilə 20-ci əsrin əvvəllərində yaşamış nəsil (özəlliklə, həmin nəslin düşünən, aparıcı qismi ilə) arasında SSRİ dövründə qırılmış bağları yenidən bərpa etmək lazım gəldiyi bir vaxtda, bir çox hallarda bunun əksini görmək çox düşündürücüdür. Artıq sovet nəsli arasında deyil, gənclər arasında da Rəsulzadə, Ağaoğlu, Topçubaşov, Hüseynzadə, Xoyski və başqaları haqqında “satqın”,

"xəyanətkar", "panislamist", "İranpərəst", "Osmanlıpərəst", "ingilispərəst", "Vətəni qoyub qaçanlar" və s. ifadələrə rast gəlmək olur. Məsələn, Rəsulzadəni və Xoyskini İrəvanı Ermənistana verməkdə, Ağaoğlunu Azərbaycanı vaxtilə Türkiyəyə birləşməkdə, Hüseynzadəni Azərbaycan dilini deyil, Türkiyə türkcəsini müdafiə etməkdə və s. ittiham edənlər vardır.

Maraqlıdır ki, həmin nəsil arasında da ən çox ittiham olunan, SSRİ dövründə olduğu kimi, yenə də Rəsulzadədir. Vaxtilə sovet ideoloqları və onların təbliğatçıları milli ideoloqu sosial-demokrat əqidəsinə xəyanət edib Azərbaycan Cümhuriyyətini qurmaqda ittiham edirdilər. Səməd Vurğun "26-lar" poemasında Rəsulzadənin "xəyanətkar" mövqeyini türklük və islamlıqdan çıxış etməsi, Türkiyəyə üz tutması ilə əsaslandırırdı:

İndi xəbər verim oxucuma mən
O "millət rəhbəri" Rəsulzadədən;
Toplamış məclisdə müsəlmanları,
Yağlı vədələrə tutmuş onları;
Deyir: "Türkiyəni çağıraq gərək,
Bizə kömək olsun, qılınc çəkərək,
Parlasın ədalət, mehri-hürriyyət,
Ucalsın göylərə şərəfi-millət!...".
- Şarlatan!
- Afərin!
- Rəhbərə bir bax!..
- Vətəni yadlara bunlar satacaq!..
- Bir dayan!
- Nə dedin?
- O bir xaindir,
Sözünün pərdəsi millətdir, dindir" [224[a], 155-156].

İndi isə elələri tapılır ki, birbaşa və dolayısıyla Rəsulzadəni İrəvanı ermənilərə verməkdə, Vətəni qoyub qaçmaqda (yəni Rəsulzadə hökmən qalıb ölməliydi), Stalinlə

"dost" olmaqda, Hitler Almaniyası ilə münasibətlər qurmaqda və başqa məsələlərdə ittiham edirlər. Halbuki çağdaş nəsil ona Cümhuriyyət bəxş edən nəsli Rəsulzadə başda olmaqla, bir qəhrəmanlıq, şərəf örnəyi kimi görməlidir. Ən azı ona görə ki, qısa müddətdə həmin nəsil bir çox sahələrdə böyük uğurlara imza atmışlar. O uğurların təməlində və əsasında İslam-Türk dünyasında ilk demokratik cümhuriyyət olan Azərbaycan Cümhuriyyətinin mövcudluğu dayanır.

Azərbaycan Cümuriyyətinin yaranmasında və milli-demokratik yönlü inkişaf strategiyasında isə Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov, Nəsib bəy Yusifbəyli, Fətəli Xan Xoyski, Abbasqulu Kazımzadə, Firidun bəy Köçərli, Hacı Zeynalabdin Tağıyev, Üzeyir Hacıbəyli, Məmməd Həsən Hacınski, Xəlil bəy Xasməmmədov, Məmməd Yusif Cəfərov, Məhəmməd Əmin Rəsulzadə və başqaları mühüm rol oynamışlar. Rəsulzadənin təbrincə desək, bu nəsil bizə bunu miras qoymuşdur:

"Ey gənclik!

Sənin öhdəndə böyük bir vəzifə var. Səndən əvvəlki nəsil yoxdan bir bayraq, müqəddəs bir ideal rəmzi yaratdı, on min müşkülatla ucaldaraq dedi ki:

Bir kərə yüksələn bayraq bir da enməz!

Əlbəttə ki, sən onun bu ümidini qırmayacaq, bu gün parlament binası üzərindən Azərbaycan türklərinin yanıq ürəklərinə enmiş bu bayrağı təkrar o bina üzərinə dikəcək və bu yolda

- Ya qazi və ya şəhid olacaqsan!" [188, 56].

Rəsulzadə yox yerdən bir bayrağın ucaldılmasını deyərkən, heç də tariximizdə müstəqil dövlətlərin olmamasına, yaxud da əsrlər boyu ancaq əsarət altında yaşamağımıza işarə etməmişdir. Sadəcə, milli ideoloq onu ifadə etməyə çalışmışdır ki, artıq bir əsrə yaxındır çar Rusiyası Azərbaycan Türk millətinin azadlığını əlindən almış və milli bayraqdan məhrum

etmişdir. Çar Rusiyası bunu edərkən isə Azərbaycan türklərinin vahid milli bayrağı olmamış və o, ayrı-ayrı xanlıqlar şəklində idarə olunmuşdur. Bu mənada, Azərbaycan türkləri 1918-ci ildə artıq parçalanmış bir millət deyil, vahid millət şəklində meydana çıxmış və vahid milli bayrağını qaldırmışdır.

Yeri gəlmişkən, indi də bir çox ədəbiyyatlarda və hansısa natiqlərin çıxışlarında Azərbaycan xalqının əsrlər boyu əsarət altında yaşadığı mülahizəsi vurğulanır. Öncə, kökündən yanlış olan bu fikrin formalaşmasında SSRİ ideoloqlarının "əməyini" xatırlamaqda yarar vardır. Digər tərəfdən, Azərbaycan türkləri əsrlər boyu nəinki əsarət altında yaşamış, əksinə bir çox yüz illər başqa xalqları və etnosları milli imperiyalarında (İskitlər, Xəzərlər, Sacilər, Şirvanşahlar, Azərbaycan Atəbəyləri, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər və b.) idarə etmişlər. Yəni Azərbaycan türklərinin öz yaratdıqları dövlət və imperiyalarda əsarət altında yaşamaları fikri qətiyyən doğru deyildir.

XX əsrin əvvəlləri Azərbaycan türklərinin tarixində həm yeni bir dönəm, həm də bir tərəqqi dövrüdür. Bu dövrdə yaşayan türk aydınları XIX əsrin əvvəllərində xanlıqlara (İrəvan, Naxçıvan, Gəncə, Qarabağ, Quba, Şamaxı, Bakı, Lənkəran, Şəki), sultanlıqlara parçalanmış və çar Rusiyasının müstəmləkəsi halına gətirilmiş Şimali Azərbaycanı XX əsrin əvvəllərində bir vahid dövlətin tərkibində – Azərbaycan Cümhuriyyətində birləşdirdilər. Doğrudur, bu birləşmə tam şəkildə həyata keçirilmədi. Belə ki, müəyyən səbəblərə görə İrəvan xanlığı və onun paytaxtı ermənilərə güzəştə gedildi.

Məlum olduğu kimi, ara-sıra Azərbaycan mətbuatında və müəyyən dairələrdə (parlament səviyyəsində və s.) İrəvanın Ermənistana güzəştə gedilməsi siyasi səhv, satqınlıq və xəyanət kimi izah olunur. Maraqlıdır ki, İrəvanın Ermənistana verilməsi məsələsində də ən çox ittiham olunan M.Ə.Rəsulzadədir. Bu o Rəsulzadədir ki, nümayəndəsi olduğu nəslin yoxdan bayraq

yaratdığını və min cür çətinliklə ucaltdığını bəyan etmişdir. Onu da demişdir ki, yeni nəsil onu yenidən ucaltmalı və qorulmalıdır. Ancaq Rəsulzadənin gənclik timsalında olan bizlər arasında elələri tapılır ki, onun ucaltdığı bayrağın altında yaşamağı qəbul etməklə yanaşı, onu bir neçə məsələyə görə, o cümlədən İrəvanın ermənilərə güzəştə gedilməsinə görə xəyanətdə və satqınlıqda ittiham edir.

Burada çox incə bir məqam var. Bu da ondan ibarətdir ki, Azərbaycan Milli Şurası yaranıb M.Ə.Rəsulzadə onun sədri seçildiyi (1918-ci il, 27 may), Azərbaycan Cümhuriyyətinin İstiqlal Bəyannaməsi qəbul edildiyi (1918-ci il 28 may) və Milli Şura İrəvanı ermənilərə güzəştə gedildiyi (1918-ci il, 29 may) tarixlərdə Rəsulzadə faktiki olaraq Batum şəhərində olmuşdur. Belə ki, Rəsulzadə Məhəmməd Həsən Hacınski ilə birlikdə 1918-ci ilin mayın 11-dən iyunun 4-dək Osmanlı Türkiyəsi və Zaqafqaziya seymi nümaynədələri arasında keçirilən Batum konfransında iştirak etmişdir **[36[a], 246].**

Hətta, Batum konfransının sonunda (1918, 4 iyun) Azərbaycan və Türkiyə dövlətləri arasında ikitərəfli müqavilə bağlanmışdır. Müqaviləni Osmanlı hökuməti adına ədliyyə naziri və Dövlət Şurasının sədri Xəlil paşa Menteşe, Qafqaz Cəbhəsinin komandanı Mehmet Vehib Paşa, Azərbaycan Cümhuriyyətindən Milli Şuranın sədri M.Ə.Rəsulzadə və xarici işlər naziri M.H.Hacınski imzalamışlar **[36[a], 247].** Məqsəd həmin dövrdə Azərbaycanın bir hissəsində ağalıq edən bolşevik-daşnak hökumətini – Bakı Xalq Komissarları Sovetini aradan qaldırmaq üçün Türkiyədən hərbi yardım almaq idi. Bu mənada, Rəsulzadə fiziki şəkildə nə İstiqlal Bəyannaməsinə imza ata bilmiş, nə də "İrəvanın ermənilərə güzəştə gedilməsi" iclasında iştirak etmişdir.

Maraqlıdır ki, birinci faktdan, yəni İstiqlal Bəyannaməsində imzasının olmamasından çıxış edilərək Rəsulzadənin adı indi İçərişəhərdə ucaldılan İstiqlal Abidəsində öz əksini tapma-

mışdır. Halbuki Milli Şura adından İstiqlal Bəyannaməsinə imza atanlar onu həmin Ali Dövlət qurumunun başçısı seçmişdilər. Yəni bu fakt İstiqlal Abidəsini ucaldanlar üçün önəmli olmamışdır.

Ancaq əvəzində çox diqqət çəkici başqa bir məqam vardır. Elə həmin Milli Şuranın yenə də Rəsulzadənin iştirak etmədiyi növbəti iclasında (1918-ci il 29 may) İrəvanın Ermənistana güzəştə gedilməsi ilə bağlı məsələni müzakirə etmişdir. Bu məsələnin müzakirəyə çıxarılmasına isə erməni milli şurasının nümayəndələri səbəb olmuşlar. Belə ki, həmin dövrdə Azərbaycan Milli Şurası kimi Tiflisdə fəaliyyət göstərən erməni milli şurası müstəqilliklərini dünyaya bəyan etsə də, Ermənistanın paytaxtını müəyyənləşdirə bilməmişdir. Düzdür, haylar əvvəlcə Gümrünü (Aleksandropolu) paytaxtı kimi görürmüşlər. Ancaq həmin dövrdə Gümrü Türkiyənin nəzarəti altında olduğu üçün, bu mümkünsüz olmuşdur. Ona görə də ermənilər özlərinə yeni bir paytaxt kimi İrəvanı müəyyənləşdirmişlər.

Bu barədə Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyasının 2-ci cildində yazılır: "Zaqafqaziya seyminin dağılmasından sonra (1918, 26 may) erməni milli şurası Tiflisdə Ermənistan (Ararat) Respublikasının yaradıldığını elan etdi. 1918-ci il mayın 29-da Tiflisdə Azərbaycan Milli Şurasının iclası keçirildi. İclasın 3 nömrəli protokoluna görə, Fətəli xan Xoyski şura üzvlərinin Azərbaycan və Erməni federasiyası ərazilərinin sərhədləri məsələsinə dair erməni milli şurası ilə apardıqları danışıqların nəticələri barədə məruzə etmişdir. Xoyski məruzəsini Erməni federasiyasının yaradılması üçün onlara siyasi mərkəz lazım olduğunu, Aleksandropolun (Gümrü) Türkiyəyə keçməsindən sonra belə mərkəzin yalnız İrəvan ola biləcəyi haqqında məlumat verdikdən sonra İrəvanın ermənilərə güzəştə gedilməsinin zəruri olduğunu bildirmişdir. Xəlil bəy Xasməmmədov, Məmməd Yusif Cəfərov, Əkbər Ağa Şeyxülislamov, Məhəmməd Məhərrəmov bu məsələ üzrə çıxış edərək, İrəvanın ermənilərə güzəştini tarixi zərurət,

labüd bədbəxtlik adlandırdılar. Bu məsələ üzrə səsvermə nəticəsində 28 şura üzvündən 16-sı İrəvanın güzəşt edilməsinin lehinə, 1 nəfər əleyhinə səs vermiş, 3 nəfər bitərəf qalmışdır (protokolda belə göstərilmişdir). Beləliklə, Azərbaycan Milli Şurası İrəvanın Ermənistana güzəştə gedilməsi haqqında qərar qəbul etmişdir" [36^{b}, 57].

Yeri gəlmişkən, bütün bunlardan çıxış edilərək "İrəvanın ermənilərə güzəştə gedilməsi" məsələsində Rəsulzadə ilə yanaşı Fətəli Xan Xoyski də hədəf kimi götürülür. Çünki F.X.Xoyskinin baş nazir olduğu dövrdə, onun da razılığı və birbaşa iştirakı ilə İrəvan Ermənistana güzəşt gedilmişdir. Bu məsələni də Milli Şurada Xoyski səsləndirmişdir. Çünki Xoyski bir tərəfdən Milli Şuranın İcraiyyə Komitəsinin sədri, digər tərəfdən Azərbaycan Cümhuriyyətinin baş naziri idi. Ermənilər də bu təkliflərini ilk növbədə, ona bildirmişdilər. Bu mənada, Xoyski bir növ məcburi olaraq Milli Şurada belə bir məruzə ilə çıxış etməyə məcbur olmuşdu.

Bütün bunlarla yanaşı, qeyd etmək lazımdır ki, "İrəvanın Ermənistana güzəştə gedilməsi" məsələsi müəyyən şərtlər əsasında reallaşmışdır. Bu da ondan ibarət idi ki, İrəvan xanlığının və onun paytaxtının Ermənistana güzəşti müqabilində ermənilər Naxçıvan və Qarabağ iddialarından əl çəkməli, müharibəni dayandırmalı idilər. Ermənilərin bu iddialarından əl çəkməyəcəyi təqdirdə Azərbaycan Cümhuriyyəti rəhbərliyinin "İrəvanın Ermənistana güzəştə gedilməsi" məsələsi qüvvədən düşmüş olacaqdı. Hər halda, Xoyski Milli Şuranın həmin iclasında bunu açıq şəkildə bəyan etmişdir. O, Hacınskiyə yazdığı məktubunda da göstərmişdir ki, "İrəvanın Ermənistana güzəştə gedilməsi" ilə ermənilər digər iddialarından əl çəkəcək və müharibəyə son qoyacaqlar [87^{b}, 33]. Görünür, təkcə Xoyski deyil, "İrəvanın Ermənistana güzəştə gedilməsi"nin lehinə səs verən 16 Milli Şura üzvü də belə hesab emişdir.

Bizə elə gəlir ki, hazırda "İrəvanın Ermənistana güzəştə gedilməsi" məsələsində Xoyski və digər Milli Şura üzvülərinin adlarının hallandırılmasınını "günahkar"ı da Rəsulzadədir. Çünki Rəsulzadənin "satqın" və "xəyanətkar" olmasına çalışanlar, bu

zaman məcbur olaraq Xoyski və digərlərini də ittiham etməyə məcbur olurlar. Çünki tarixi faktlar Rəsulzadənin lehinə işləyir.

Hər halda, bu bir gerçəklikdir ki, Rəsulzadə İstiqlal Bəyannaməsinə imza ata bilmədiyinə görə adı İstiqlal Abidəsinə düşmədiyi halda, ancaq İrəvanın ermənilərə güzəştə gedilməsi məsələsində əsas günahkar, bu ittihamı irəli sürənlərin dili ilə desək "satqın", "xəyanətkar" rolunda görülür. Yəni müxtəlif variantlarla, qondarma "dəlillərlə" əsaslandırılmağa çalışılır ki, Rəsulzadənin "İrəvanın Ermənistana güzəştə gedilməsi"ndə hansısa böyük rolu, bu alınmayanda isə ən azı ümumi şəkildə payı olmuşdur.

Sözün açığı, ilk baxışdan anlaşılmır ki, niyə ən çox Rəsulzadə hədəf alınır. Əgər bu məsələdə səhvə yol verilmişdisə, bu və ya digər şəkildə Milli Şuranın, Azərbaycan Cümhuriyyətinin ilk Nazirlər Kabinetinin bütün üzvləri məsuliyyət daşıyırlar. Şübhəsiz, ilk növbədə də Milli Şuranın həmin iclasında (1918, 29 may) iştirak etmiş və bu qərarın lehinə səs vermiş üzvləri. Bu mənada, Rəsulzadə və onun kimi həmin iclasda iştirak etməyən Milli Şura üzvləri yalnız onlardan sonra, müəyyən mənada günahkar qismində çıxış edə bilərlər.

Halbuki Rəsulzadə Milli Şuranın sonrakı iclaslarında "İrəvanın Ermənistana güzəştə gedilməsi"nin əleyhinə çıxış etmişdir. Yəni Milli Şuranın həmin qərarını pisləmiş və buna etiraz etmişdir. Yeri gəlmişkən, eyni addımı Milli Şuranın İrəvandan olan 3 üzvü də atmışdır. Deməli, əgər indi kimlərsə "satqın" və "xəyanətkar" tapmaq istəyirlərsə, istənilən halda Rəsulzadəni əsas günahkar kimi ittiham etmək mümkün deyildir. Fikrimizcə, bunu, "İrəvanın Ermənistana güzəştə gedilməsi"ndə Rəsulzadəni əsas günahkar rolunda ittiham edənlər və təbliğ edənlər də yaxşı anlayırlar. Başqa sözlə, burada məqsəd "İrəvanın Ermənistana güzəştə gedilməsi"ndə Rəsulzadənin əsas rol oynamasını sübut etməkdən daha çox cəmiyyət daxilində, xüsusilə gənclər arasında onun haqqında mənfi rəy, mənfi imic yaratmaqdır.

Çünki bir çox hallarda kütlə, o cümlədən gənclər məsələnin əsas mahiyyətinə deyil, ümumi mənzərəyə nəzər salırlar. Ümumi mənzərə də ondan ibarətdir ki, məhz Azərbaycan Cümhuriyyətinin rəhbərləri İrəvan ermənilərə güzəştə getmişlər. Üstəlik nəzərə alsaq ki, Rəsulzadə həmin Cümhuriyyətin lideri hesab olunur, artıq əsas günahkar rolunda onun göstərilməsi heç də mənasız görünmür. Yəni bu müddəanı ortaya atanlar demək istəyirlər ki, Azərbaycan Cümhuriyyətinin lideri, dövlət başçısı, qurucusu və ideoloqu Rəsulzadə olmuşdusa, baxın onun dövlət başçısı olduğu dövrdə İrəvan ermənilərə verilmişdir. Müxtəlif yerlərdə, müxtəlif situasiyalarda müxtəlif adamların dilindən eyni kəlmələri dəfələrlə eşidən bəzi gənclər də artıq şübhə etmirlər ki, İrəvanı ermənilərə məhz Rəsulzadə vermişdir.

Burada maraqlı məqam odur ki, özəlliklə də gənclərə bu fikirlər harada və kimlərin vasitəsilə çatdırılır!? Yəni Rəsulzadənin "İrəvanın ermənilərə verməsi", "Vətəni qoyub qaçması", "Faşistlərlə danışıqlar aparması", "Stalinin ən yaxın dostu olması" və s. məlumatları gənclərimiz haradan və kimlərdən alırlar!? Yəni doğrudanmı orta və ali məktəb dərsliklərində, yaxud da ayrı-ayrı ədəbiyyatlarda həmin məsələlər bu şəkildə qoyulur? Bəlkə bunun üçün gənclər arasında ayrıca, xüsusi kurslar təşkil edilib? Ümumiyyətlə, niyə gənclər arasında Azərbaycan Cümhuriyyəti liderlərindən daha çox Rəsulzadə haqqında mənfi rəy formalaşdırılır? Fikrimizcə, bütün bu sualların da uyğun cavabı vardır.

Bu baxımdan burada SSRİ dövründə mühacirət yaşamağa məcbur olmuş bir sıra tanınmış şəxsiyyətlərimizin, özəlliklə də M.Ə.Rəsulzadənin "Vətəni qoyub qaçanlar" kimi ittiham olunması məsələsinə aydınlıq gətirməyə çalışmışıq. Bu ittihamı irəli sürənlər arasında həm yaşlı nəslin, həm də gənc nəslin nümayəndələri vardır. Belə ki, Azərbaycan Cümhuriyyətindən, onun liderlərindən, o cümlədən M.Ə.Rəzulzadədən söz düşəndə və onların gördükləri böyük milli əməllərdən bəhs olunan zaman bəziləri bir sıra

ittihamlarla yanaşı, "Vətəni qoyub qaçıblar" məsələsini xüsusilə qabardırlar.

Bu cür düşünənlərin fikrincə, xüsusilə Rəsulzadə 1920-ci il 27 aprel işğalından sonra Azərbaycanı heç bir şəkildə tərk etməməliydi. Bir sözlə, Rəsulzadə ölümü bahasına olsa belə Vətəndə qalmağa razı olmalıydı, nəinki çıxıb getməyə. Əgər o, Vətəndən sağ olaraq gedib xaricdə yaşayıbsa, deməli günahkardır. Hətta, deyirlər ki, məsələn filankəslər Vətəni tərk edib heç hara getmədilər, ancaq Rəsulzadə və başqaları xaricə mühacirət etdilər.

Bizə elə gəlir ki, burada bir neçə aydınlıq gətirilməsi vacib məsələ var. Onlardan biri Rəsulzadənin Azərbaycandan hansı şəkildə ayrılmasıdır. Belə ki, Rəsulzadə Sovet Rusiyasının 11-ci Qızıl Ordusunun Azərbaycanı işğal etməyə başladığı tarixlərdə, yəni 27 aprel işğalından bir az sonra Bakını gizli şəkildə tərk edərək xaricə yox, İsmayıllıya-Lahıca üz tutmuşdur. Bir neçə ay Lahıcda yaşayan Rəsulzadə bir təsadüf nəticəsində Rusiya bolşeviklərinin əlinə keçərək Bakıya gətirilmişdir.

Rəsulzadə **"Bir türk miliyyətçisinin Stalinlə ixtilal xatirələri"** əsərində bu hadisəni belə anladır: "Qızıl Ordunun aktiv yardımı ilə məmləkət sovetləşdirilirdi. Yəni sözdə Sovet Azərbaycanı Cümhuriyyəti ünvanı mühafizə edilirdisə, işdə demokratik milli bütün müəssisələr ortadan qaldırılır, liderlər təqib olunur, qızıl istila terroru hər tərəfi qovururdu. Fövqalədə ixtilal məhkəməsi mənasına gələn "Çrezvıçayka" cəza makinəsi (maşını) durmadan çalışır, gözdə bulunan bütün münəvvərlər (aydınlar) biri-biri arxasından yaxalanaraq zindanlara atılır, bir qismi də əlli-ayaqlı ortadan qeyb olurdular. Qızıl qasırğa devirmədik milli bir müəssisə, kəsmədik bir şəxsiyyət buraxmadı.

Bu şərtlər daxilində bir müddət saxlandıqdan sonra əski mücadilə arkadaşlarımdan mərhum Kazımzadə Abbasqulu bəylə bərabər Bakını tərk etmiş, əski Şirvan vilayətinin mərkəzi Şamaxı civarında Qafqaziya sıra dağları ətəyində Lahıc deyilən bir yerdə gizlənmişdik. Bulunduğumuz yer bir sui-təsadüf nəticəsində kəşf

edilmiş, yaxalanaraq Bakıya geri gətirilmiş və o zaman Çeka deyilən siyasi polis müəssisəsinin fövqalədə işlər şöbəsi olan "Osobı otdel"ə təslim edilmişdik" [182, 26-27].

Fikrimizcə, Rəsulzadənin bir çox Azərbaycan Cümhuriyyəti liderlərindən (Nəsib bəy Yusifbəyli və b.) və başqa tanınmış ziyalılardan (Firudin bəy Köçərli və b.) fərqli olaraq rus bolşeviklərinin əlinə keçəndən sonra dərhal öldürülməməsində bir neçə amil mühüm rol oynamışdır. Bu amillər arasında ən önəmlisi Rəsulzadənin Azərbaycan xalqı arasında yüksək nüfuz sahibi olması idi. Hər halda, Sovet Rusiyasının Azərbaycandakı ağaları (S.M.Kirov, S.Orconikidze, Pankratov və b.) yaxşı başa düşürdülər ki, Rəsulzadə ilə bağlı radikal addımın atılması xalq arasında onlara qarşı ciddi narazlıq yaradacaqdır. Bu baxımdan, məhz Azərbaycan xalqının etibarını itirməmək və siyasi böhrana yol verməmək üçün Rəsulzadəyə toxunulmamışdır. Hətta, Rəsulzadə yaxalanaraq Bakıya gətirildikdən sonra onunla bağlı hər şeyin qaydasında olduğunu xalqa çatdırmaq üçün, "Kommunist" qəzetində Azərbaycan Sovet hökumətinin sədri Nəriman Nərimanovun imzasıyla ilk səhifədə rəsmi məlumat da dərc olunmuşdur: "Məhəmməd Əmin Rəsulzadənin vilayətlərdə hər cür təhlükədən qorumaq məqsədilə Sovet hökuməti onun paytaxta gətirilməsinə qərar vermişdir. Burada isə həyatı əmniyyət altındadır, əhalinin bu xüsusda əmin olmasını və həyəcana düşməməsini tövsiyə edirik" [182, 29].

Eyni zamanda, vaxtilə İranda yaxın dostluq münasibətləri yaranmış tanınmış inqilabçılardan Heydər Əmioğlunun Rəsulzadəni açıq şəkildə müdafiə etməsi də, bu məsələdə az rol oynamamışdır. Belə ki, H.Əmioğlu Rəsulzadənin həbsi ilə bağlı başda Sovet Azərbaycanın rəhbəri Nəriman Nərimanov olmaqla bir sıra nüfuzlu şəxslərə baş vuraraq, "Məhəmməd Əminin başından bir tük belə əskik olmamalıdır!" - demişdir [182, 30]. Ona görə də, istər Moskvanın Azərbaycandakı nümayəndələri, istərsə də Sovet Azərbaycanının rəhbərləri Rəsulzadə məsələsində ehtiyatlı

davranmağı və Mərkəzdən gələn əmr əsasında hərəkət etməyə üstünlük vermişlər.

Həmin dövrdə Rəsulzadənin toxunulmazlığında önəmli amillərdən biri də Stalinlə bağlı olmuşdur. Tanınmış tarixçi Mövsüm Əliyev bu haqda yazır ki, 1920-ci il aprel hadisələrindən sonra Rəsulzadə Lahıcda həbsə alındı: "Onun tutulması xəbəri həmin ilin noyabrın əvvəllərində Vladiqafqaz şəhərində olan İ.V.Stalinə çatdırıldı. Stalin heç kəsə xəbər vermədən Bakıya gələrək, XI Ordunun xüsusi şöbəsinin rəisi V.Pankratova RSFSR-in Millətlər Komissarlığı adından göstəriş verdi və özü şəxsən həbsxanaya gedib M.Ə.Rəsulzadəni azad etdi. Bununla, İ.V.Stalin 1905-ci ildə onu ölümdən qurtaran keçmiş inqilabçı dostu M.Ə.Rəsulzadənin qarşısında öz tarixi vicdan borcunu yerinə yetirdi" [188, 12]. Bu məlumatdan da bəlli olur ki, Rəsulzadənin toxunulmazlığında əsas rolu Azərbaycan xalqı oynamışdır. Çünki Stalin Rəsulzadənin həbsi xəbərini bir müddət sonra öyrənmiş və həmin məsələyə müdaxilə etmişdir.

Yeri gəlmişkən, kimlərsə Stalinin Rəsulzadəni xilasından ağızdolusu danışıdıqları halda, nədənsə eynisini Stalinə etmiş Rəsulzadənin bu əməlini ya "unudurlar", ya da ötəri şəkildə toxunurlar. Halbuki Rəsulzadənin həyatının o zamanlar xilası mümkün olduğu halda, Stalin üçün belə bir şans ümumiyyətlə qalmamışdır. Əlbəttə, əgər Rəsulzadə olmasaydı…

Sadəcə, Rəsulzadənin toxunulmazlığının sonrakı mərhələsində Stalin də mühüm rol oynamışdır. Bunu, Rəsulzadə xatirələrində də açıq şəkildə ifadə etmişdir. Çünki Stalin Bakıda həbsxanada görüşərkən Rəsulzadəyə bildirmişdir ki, yerli kommunistlər onun haqqında iki rəydədirlər: Rəsulzadə ya öldürülməli, ya da ömürlük həbs edilməlidir. Ona görə də Stalin Rəsulzadəyə isə təklif edirdi ki, onunla Moskvaya getsin, çünki burada qalarsa bəhanə edib onu yenə də öldürə bilərlər.

Bütün bunları yazmaqda məqsədimiz odur ki, Rəsulzadə Vətəni qoyub heç hara qaçmamışdır. O, bolşeviklərin əlinə

keçməməsi üçün şəxsi iradəsi ilə öncə Lahıca getmiş və orada bir müddət gizli şəkildə yaşamış, ancaq burada yaxalanaraq Bakıya gətirilmişdir. Daha sonra Stalinin açıq şəkildə ifadə etdiyi kimi Rəsulzadə ya Azərbaycanda qalıb ölməli, ya da bir ümid işartısı olaraq Moskvaya getməyə razı olub hansısa bir yolla bolşeviklərdən qurtularaq milli mücadiləni davam etdirməli idi. Ona görə də Rəsulzadə ikinci yolu seçdi və bununla da xalqı qarşısında böyük fədakarlıq etdi.

Çünki Rəsulzadə ikinci yolu seçməklə öz həyatını deyil, Azərbaycanı və onun milli varlığını yaşatmış oldu. Ancaq əvəzində o, bütün ailəsini Vətən və Millət uğrunda qurban verdi. Oğlu Rəsul güllələndi, yerdə qalan ailə üzvüləri və əksər qohumları Qazaxıstana sürgün edildi. Sürgündə M.Ə.Rəsulzadənin analığı, həyat yoldaşı vəfat etdi. Bir qızı Lətifə soyuqdan donub öldüyü halda, digər qızı Xalidə isə Bakıya qayıtdıqdan sonra itkin düşdü. Halbuki Rəsulzadə Stalinin Moskvada ona etdiyi təkliflərlə razılaşsaydı ailəsinin və özünün başına bu qədər faciələr gəlməz, "Vətəni qoyub qaçıb" və sair bunu kimi ittihamlara da məruz qalmazdı.

Bütün bunlarla yanaşı, onu da xatırladaq ki, 1920-ci il 27 aprel işğalından sonra rus bolşeviklərin əlinə keçməməkdən ötrü Azərbaycan Cümhuriyyətinin liderlərindən Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Həsən bəy Ağayev və başqaları da Vətəni tərk etməyə məcbur olmuşlar. Onlardan Nəsib bəy, Fətəli Xan Xoyski, Həsən bəy Ağayev Gürcüstanda-Tiflisdə şəhid edilmişlər. Yəni bu insanlardan heç biri könüllü şəkildə və öz xoşbəxtlikləri üçün Vətəni tərk etməmiş, yaxud da gizli şəkildə yaşamağa çalışmamışlar. Sadəcə, Millət və Vətən uğrunda istər Azərbaycanın daixilində, istərsə də onun xaricində mücadilə və mübarizə etmiş, bu yolda şəhid olmuşlar.

Hətta, 27 aprel işğalından sonra Azərbaycanda bir neçə il gizli şəkildə bolşevikərə qarşı mübarizə aparanlar da (Mirzə Bala Məmmədzadə, Hüseyn Baykara və başqaları) çıxılmaz vəziyyətdə qaldıqda Vətəni tərk etməyə məcbur olmuşlar… Eyni zamanda, 27

aprel işğalından öncə müxtəlif səbəblərə görə xarici ölkələrdə olan bir çox tanınmış şəxsiyyətlərimiz (Əlimərdan Topçubaşov, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu və b.) var ki, məhz Azərbaycanın zorla sovetləşməsindən dolayı bir daha Vətənə qayıtmamışlar.

Maraqlıdır ki, hazırda dövlət səviyyəsində əsərləri ən az çap olunan da yuxarıda adını çəkdiymiz aydınlarımızdır. Məsələn, dövlət səviyyəsində Ağaoğlu, Hüseynzadə, Yıldırım, Gültəkin və başqalarının cəmi bir cildlik "Seçilmiş əsərləri" işıq üzü görmüşdür. Halbuki Hüseynzadənin, xüsusilə Ağaoğlunun bütün külliyyatının nəşrinə böyük ehtiyac vardır. Ən çox diqqət çəkən isə odur ki, Rəsulzadənin dövlət səviyyəsində heç bir cildlik olsun belə "Seçilmiş əsərələri" də işıq üzü görməmişdir. Hazırda Rəsulzadənin 4 cildlik "Əsərləri" nəşr olunmuşdur ki, onu da şəxsi təqaüdü hesabına çap etdirən tanınmış ziyalımız Şirməmməd Hüseynovdur.

Ancaq bütün bunların əvəzində SSRİ dövründə əsərləri çap olunmuş Azərbaycan mütəfəkkirlərinin bütün əsərləri dövlət səviyyəsində latın qrafikası ilə yenidən nəşr olunmuşudur. Əlbəttə, biz onun əleyhinə deyilik ki, niyə M.Rahim, C.Cabbarlı, S.Rüstəm, R.Rza, S.Vurğun, C.Məmmədquluzadə, S.Rəhman, H.Cavid və başqalarının əsərlərinin tam külliyyatı yenidən – latın qrafikası ilə Azərbaycan oxucusuna çatdırılır. Sadəcə, bütün bunlarla yanaşı SSRİ dövründə əsərlərinə tamamilə yasaq qoyulmuş Rəsulzadələrin, Ağaoğluların, Hüseynzadələrin və başqalarının da bütün külliyyatının dövlət səviyyəsində nəşrini görmək istəyirik. Fikrimizcə, onların əsərləri Azərbaycan cəmiyyətində geniş yaylması həm də ona görə lazımdır ki, istər elmi ictimaiyyət, istərsə də kütlə arasında həmin mütəfəkkirlərimizin irəli sürdükləri milli ideyalar haqqında dolğun bilik formalaşsın.

Bütün bunların niyə məhz bu formada baş verməsini əsaslandırmaq üçün Nizami Cəfərov mətubatda bəyan edir ki, ötən əsrdə Azərbaycanı S.Vurğun daha yaxşı təbliğ etmişdir, nəinki mühacirətdə yaşayan aydınlarımız. Bu mənada, mühacirət ədəbiyyatı S.Vurğun səviyyəsində deyil. Belə ki, M.Ə.Rəsulzadənin,

C.Hacıbəylinin və başqalarının ədəbiyyata dair böyük əsərləri olsa da, ədbiyyat üçün paralaq hadisə deyildir [65[a]]. Birincisi, bu cür müqayisə aparmağın və milli aydınlarımızı üz-üzə qoymağın özü yanlışdır. İkincisi, mühacirətdəki milli aydınlarımızın irsinin bu günə qədər Azərbaycan cəmiyyətinə tam çatdırılmadığı bir dövrdə, onlara bu cür yuxarıdan aşağı münasibət doğru deyildir. Unutmaq olmaz ki, Rəsulzadələr, Ceyhun Hacıbəylilər, Almas Yıldırımlar, Əmin Abid Gültəkinlər kimi onlarla milli aydınlarımız yalnız ruhən deyil, həm də cismən Azərbaycanın azadlığı uğrunda mübarizə aparmış, bu yoldda şəhid olmuşlar. Onların irsi SSRİ dövründə Azərbaycan cəmiyyətindən gizlədildiyi halda, bu gün isə natamam şəkildə topluma çatdırılmaqdadır. Məsələn, təkcə Rəsulzadənin "Azərbaycan şairi Nizami" əsəri çağdaş Azərbaycan ədəbiyyatının şah əsəridir.

Bütün bunlardan xəbərsiz kimi durub demək ki, S.Vurğuna, C.Cabbarlıya Azərbaycan cəmiyyətinin daha çox ehtiyacı var, nəinki mühacirətdəki milli aydınlarımızın, bu gerçəkliyin ifadəsi deyildir. Daha doğrusu, bu cür mülahizələr sovet dövrünün yetişdirmələri olan ziyalıların özünü qorumasıdır. Fikrimizcə, burada S.Vurğunu, C.Cabbarlını önə çəkmək də nisbi bir məsələdir. Bu bir növ S.Vurğunun, C.Cabbarlının kölgəsi altında özünümüdafiə, yəni sovet dövrünün ziyalısı olmağın üstün bir şey kimi cəmiyyətin şüuruna yeritməkdir. Bütün bu özünümüdafiədə S.Vurğundan, C.Cabbarlıdan və başqa SSRİ dövründə yaşamamış ziyalılardan sui-istifadə etmək heç bir halda məntiqə uyğun deyildir.

Bunu, N.Cəfərovun bir tərəfdən sovet dövrünün ideyalarına uyğunlaşan ziyalılara (S.Vurğun və b.) haqq qazandırdığı halda, M.Ə.Rəsulzadəni təftiş etməyə davam etməsi də göstərir. Rəsulzadənin millətin tarixi ilə bağlı ciddi səhvlərinin olduğunu yazan N.Cəfərovun fikrincə, bunlardan biri də, milli ideoloqun "Əsrimizin Siyavuşu" əsərində açıq mətnlə dediyi "Azərbaycan xalqı bir fars ata ilə bir türk ananın oğludur" fikridir: "Yəni Siyavuşun atası fars, anası isə türk idi. Bu baxış olduqca qeyri-ciddi

və və yanlış bir baxışdır. Mən xatırlatmaq istəmirəm, amma tədqiqatçılar yaxşı bilirlər ki, Rəsulzadənin həyatında çox ciddi problemlər, düzgün qərar çıxarmamaq məqamları və ziddiyyətləri olub. Burada söhbət ondan gedir ki, kimisə ideallaşdırarkən diqqətlə baxmaq lazımdır. Çünki bunun arxasınca onun ideyaları gəlir. Kimisə ideallaşdırırsansa, onun ideyalarına sözsüz və şübhəsiz əməl etməlisən, bu isə mümkün deyil" [65[b]].

Bizcə, Rəsulzadənin "Əsrimizin Siyavuşu" əsərindəki ideya xətti yenə də təhrif olunmuşdur. Çünki milli ideoloq heç də N.Cəfərovun dediyi kimi, bütövlükdə Azərbaycan xalqını fars ata ilə türk ananın oğlundan törəmə olduğunu iddia etməmişdir. Ümumiyyətlə, məsələnin bu cür qoyuluşu əsil mahiyyəti ya doğrudan da görməmək, ya da da görüb görməməzlikdən gəlməkdir.

Birincisi, Rəsulzadə bu əsərində azərbaycanlıların fars ata və türk anadan olması mülahizəsindən çox türk, fars və ərəb mədəniyyətinin islamlıq mədəniyyətini yaratdığını, bundan da bir sıra müsəlman millətlər kimi Azərbaycan xalqının da təsirləndiyini bildirmişdir. Yəni burada Rəsulzadə ortaq mədəniyyət ideyasını irəli sürmüşdür. Bu mənada, onun fikrincə çağdaş dövrdə milləti müəyyənləşdirən amil qan və irq (etnos) təsirindən çox ortaq biliklə - mədəniyyətlərlə, ideologiyalarla bağlıdır: "Dili, dini, əxlaqı, adəti, tarixi və ənənəsi bir olan xalq milli bir mədəniyyət yaradır: dinləri, dilləri və yaxud tarixi müqəddəratları, hətta bəzən coğrafi mövqeləri bir olan millətlər müştərək bir mədəniyyət yaradırlar. Bəzən iki ayrı soydan olan mədəniyyətlərin iştirakı o qədər sıxı olur ki, xətti-zatında iki mədəniyyətdən bir mədəniyyət, iki millətdən bir millət nümunəsi meydana gəlir" [188, 31]. Fikrimizcə, burada "iki millətdən bir millət nümunəsi meydana gəlir" ifadəsi qan deyil, daha çox mədəniyyət və ideologiya mənasında başa düşülməlidir. Çünki milli ideoloq əvvəlcədən bəyan edir ki, artıq çağdaş dövrdə milləti qan və irq deyil, ortaq milli şüur, yəni mədəniyyət və ideologiya (türk-islam mədəniyyəti) müəyyənləşdirir. Deməli, Azərbaycan

xalqının mədəniyyətinin əsasını türk və fars mədəniyyəti, müəyyən qədər də ərəb mədəniyyəti təşkil edir.

Rəsulzadə bununla da Azərbaycan xalqının həyatında fars atanın deyil, fars mədəniyyətinin, müəyyən qədər də ərəb mədəniyyətinin mühüm təsir göstərdiyini yazmışdır. Çünki onun fikrincə, xristianlıq mədəniyyəti Avropa mədəniyyəti adlandırılıdığı kimi, bu xalqların mədəniyyyəti də İslam və Şərq mədəniyyəti kimi tanınmışdır. Deməli, Azərbaycan mədəniyyəti də islamlıq və şərq mədəniyyətinin tərkib hissəsidir. Bu çox doğru bir təsbit idi. Belə ki, eyni sözləri fars və ərəb mədəniyyəti haqqında da demək olar. Yəni hər bir millətin mədəniyyəti nə qədər özünəməxsus olursa olsun, o müəyyən mənada digər mədəniyyətlərin də təcəssümüdür. Bu isə ümumilikdə, İslam-Şərq mədəniyyəti kimi də ifadə oluna bilər.

Bütün bunlar o deməkdir ki, Rəsulzadə N.Cəfərovun iddia etdiyi kimi Azərbaycan xalqını fars atanın türk ananın oğlu deyil, Azərbaycan mədəniyyətini fars, türk və ərəb mədəniyyətinin ortaq mədəniyyəti – islam mədəniyyəti kimi görmüşdür. Başqa sözlə, milli ideoloq burada Azərbaycan xalqının etnik kimliyindən çox mədəniyyətinə diqqəti yönəltmiş, bu mədəniyyətə türk mədəniyyəti ilə yanaşı, fars və ərəb mədəniyyətinin əsaslı təsirindən bəhs etmişdir. Rəsulzadənin bu zaman ərəb mədəniyyəti ilə nisbətdə fars mədəniyyətinə daha çox diqqət yetirməsi isə əsassız olmamışdır. Çünki ərəb mədəniyyəti ilə müqayisədə fars və türk mədəniyyəinin qarşlışqlı əlaqələrinin tarixi, bu zaman müəyyən mübadilələrin olması daha qədim dövrə gedib çıxır.

Bu o deməkdir ki, Rəsulzadə bu əsərində Azərbaycan xalqının həyatında fars qanından deyil, fars mədəniyyətinin təsirindən bəhs etmişdir. Digər tərəfdən əsrlər boyunca farslar və türklər birbirləri ilə qaynayıb qarışımışdır ki, Rəsulzadənin müəyyən mənada buna da toxunması normal bir haldır. Hər halda, bu gündə danılmaz faktdır ki, "Azərbaycan xalqı" dedikdə, yalnız türklər nəzərdə tutulmur. Bunu bir qədər aşağıda daha geniş şəkildə toxunacağmız üçün,

burada yalnız onu qeyd edə bilərik ki, Azərbaycan xalqı anlayışının tərkibinə türksoylu etnoslarla yanaşı, farsdilli (tat, talış, kürd və b.) və qafqazdilli (ləzgi, avar və b.) etnoslar, o cümlədən milli azlıqlar (rus, gürcü, ərəb və b.) da aiddirlər. Şübhəsiz, bunların arasında türksoylu etnoslardan sonra farsdilli etnoslar müəyyən çəkiyə malik olduğu üçün Rəsulzadə bunu bir qədər qabarıq şəkildə vermişdir.

Bu mənada, İran və Turan mədəniyyətinin ortaq məhsulu kimi Siyavuşun timsalında Firdovsinin bunu qələmə alması, Rəsulzadənin isə bunu ideoloji yöndə şərh etməsində qeyri-adi heç nə yoxdur. Çünki istər Firdovsinin, istərsə də Rəsulzadənin Siyavuşu rəmzi xarakter daşıyır. Xüsusilə, Rəsulzadə Siyavuşu fars ata türk ananın oğlu olmasından çox Azərbaycan cəmiyyətinin, Azərbaycan xalqının tərkibinin rəngarəngliyinə və mövcud mübahisələrə diqqəti yönəltmək istəmişdir: "İndiki Azərbaycandan ibarət olan bura əhalisinin türkmü, yoxsa farsmı olması çox zaman münaqişəli olub insanlarına, xalq ədəbiyyatına, aşıq dastanları ilə çoban türklərinə, ənənə və adətlərinə baxanlar türk, rəsmi yazılarına baxanlar da fars demişlər. Kimisi bunlar türkləşmiş farslar, kimisi farslaşmış türk deyə nəbul etmişdir" [188, 32]. Rəsulzadənin bu sözlərindən belə nəticə çıxarmaq olar ki, Azərbaycan əsasən, türklərin yaşadığı bir yurd olmaqla yanaşı, farslaşmanın təsirinə məruz qalmışdır. Bu isə, N.Cəfərovun iddia etdiyi kimi, qeyri-ciddi və yanlış baxış olmaqdan çox həmin dövrün mənzərəsinin obyektiv təhilidir. Bu təhilin əsas mahiyyəti ondan ibarətdir ki, Azərbaycan Turanın mərkəzi və açarı olsa da, zaman-zaman İran-Fars mədəniyyətinin və elminin təsirinə məruz qalmışdır. Bunun da nəticəsində canı və qanı türk olan Azərbaycan xalqı, xüsusilə Güney Azərbaycan türkləri İran-Fars elminin və mədəniyyətinin təsirilə (şiəliyin bunda mühüm rolunu da qeyd etməklə) şüur baxımdan xeyli dərəcədə farslaşmışdır.

Bu mənada, Rəsulzadə haqlı idi ki, bir çox zaman azərbaycanlılar öz türklüklərini və türk soyundan gəldiklərini bilməyərək xalis iranlı kimi özələrini hiss etmişlər. Ümumiyyətlə, bütün Türk aləmi bəzi dövrlərdə İran mədəniyyətinin və elminin təsiri altında

olmuşlar. Bu mənada, Rəsulzadənin İran və Turan savaşlarına, İranvə Turan mədəniyyətlərinin qarşılıqlı əlaqlərinə diqqət yetirməsi də başa düşüləndir. Yəni burada söhbət Azərbaycan xalqının həyatında fars atanın qanından deyil, İran mədəniyyətinin və İran elminin təsirindən gedir. Bunu, Rəsulzadənin aşağıdakı fikirləri də təsdiq edir: "Azərbaycan xalqında xoşbəxt bir həyat yaşamaq üçün tarixə lazım olan sağlam bir türk qanı və canı mövcud olduğu kimi, bu zəmində pöhrələyəcək gəlişmə fidanını daha ziyadə verimli etmək üçün peyvənd vəzifəsini görəcək əski bir İran irfanı vardı ki, saçı ağarmış əsrlərin əlində çox təcrübələr keçmişdi" [188, 34]. Fikrimizcə, milli ideoloqun bunda haqlı olmasında ən bariz nümunə M.F.Axundzadədir. Belə ki, türk qanı daşımasına baxmayaraq özünü şüur baxımdan İran-Fars mədəniyyətinə aid etmişdir. İlk dövrlərdə Ə.Ağaoğlu da İran-Fars şiəliyinin təsiri altında olmuşdur.

Fikrimizcə, burada önəmli məsələ Rəsulzadənin türk millətinin üstünlüyünü önə çəkməkdənsə milli birlikdən, qardaşlıqdan, tolerantılıqdan, bütövlükdən çıxış etməsidir. Yəni Rəsulzadə türklərin Azərbaycanda (şimalı-cənbulu) mütləq çoxluğunu bildiyi halda, İran-Fars və Turan-Türk köklü Siyavuşu bir örnək olaraq göstərməsi və mədəniyyətlərin müştərəkliyindən bəhs etməsi istər o dövr üçün, istərsə də zəmanəmizdə ən doğru addımdır. Bizə elə gəlir ki, Cəfərov diqqəti Rəsulzadənin uzaqgörənliyinə yönəltmək əvəzinə, bunu tamamilə başqa mənada yozmasının özü düşündürücüdür. Maraqlıdır, əgər Rəsulzadə Azərbaycanda yaşayan bütün əhalinin hamısının türk olduğunu yazsaydı, yalnız Türk mədəniyyətindən bəhs etsəydi onda cəfərovların buna münasibəti müsbətmi olacaqdı? Fikrimizcə, yox. Rəsulzadə belə bir iddia ilə çıxış etmiş olsaydı, o vaxtda, indinin özündə də onu millətçilkdə suçlaycaqdılar.

Ziyalı və milli şüur. Bu gün milli şüurun formalaşmasında yeni nəsil ziyalılarının, yeni nəsil alimlərin çiyninə daha ağır yük düşür. Ziyalı kimliyi milli şüurun formalaşmasında vacib faktordur. Yəni ziyalının özünü hansı kimlikdə – milli, dini və bəynəlmiləlçi –

görməsi milli şüurun hansı şəkildə formalaşmasına ciddi təsir göstərə bilər. Bu üç anlayışın üçünü də hər bir kəs öz başa düşdüyü kimi yanaşa və əsaslandıra bilər.

Bütün hallarda, hansı kimliyi çox ifadə etməsindən asılı olmayaraq ziyalı hər bir toplumda mühüm yerə malikdir. Çünki ziyal demək, mövqe demək, nüfuz demək və millətin siması deməkdir. Bu mənada, hər bir cəmiyyətdə ziyalının nüfuzunun hansı səviyyədə olması, həm də onun milli şüurunu göstəricisdir. Əgər cəmiyyət arasında ziyalı yüksək nüfuza malikdirsə, milli şüurun formalaşması prosesində aparıcı yer tutacaqdır. Ancaq hər hansı toplumda ziyalının nüfuzu istənilən səviyyədə deyilsə, o zaman milli şüurun formalaşması prosesi həm ləng gedəcək, həm də ciddi problemlərə yol açacaq.

Azərbaycan toplumunda ziyalının nüfuzuna başlıca zərbə kütlə üzərində təsirinin çox aşağı olmasıdır. Hər hansı cəmiyyətdə kütlə artıq ziyalıya inanmırsa, yaxud da bu inam aşağı səviyyədədirsə, o toplumda ziyalı məğlub durumdadır. Bunun əksi o deməkdir ki, əgər kütlə ziyalıya inamır, etimad göstərmirsə, bu zaman özünün haqlı olduğu qənaətinə gələr. Bu isə ona gətirib çıxarır ki, ziyalı kütləyə deyil, əksinə kütlə ziyalıya təsir göstərir, öz nüfuzu altına salır. Başqa sözlə, ziyalı kütlənin dediyi ilə oturub durmağa başlayır. Bu zaman ziyalı bir növ özünü də inandırmağa çalışır ki, xalq, kütlə nə istəyirsə ona onu da vermək, onunla hesablaşmaq lazımdır.

Bu çox incə məsələdir. Doğrudanmı kütlənin hər bir istəyi ilə dərhal razılaşmaq, demokratiya əlaməti, yaxud da insan hüquq və azadlıqlarına hörmət etmək deməkdir? Bizə elə gəlir ki, kütləyə hər istədiyini deyil, ümummilli mənafeyə zərərli olmayan, millətin bu gününə və gələcəyinə xeyirli olanlarla razılaşmaq lazımdır. Kütlənin zərərli ola biləcək istəklərinə qarşı dayanmaq üçün, ilk növbədə ziyalının itirilmiş nüfuzunu bərpa etmək lazımdır. Çünki milli şüurun formalaşmasında başlıca rol ziyalılara məxsusdur.

Fikrimizcə, ziyalılar bir növ hakimiyyətlə xalq arasında mühüm bir bağdır. Ziyalı kütlənin zərərli olmayan istəklərini hakimiyyətə çatdıraraq qəbul etdirməklə yanaşı, zərərli olanları da kənarlaşdıra bilər.

Bunun üçün ziyalının kütlə üzərində nüfuzu olmalıdır. Əgər artıq belə bir nüfuz yoxdursa, kütlə ziyalısız öz istəklərini (zərərli, yaxud zərərsiz) hakimiyyətə qəbul etdirməyə çalışacaqdır. Bu zaman müəyyən problemlərin yaranması qaçılmazdır.

Bu baxımdan hakimiyyət çalışmalıdır ki, cəmiyyət daxilində ziyalının müəyyən nüfuzu olsun. Burada söhbət, süni nüfuzdan deyil, təbii nüfuzdan gedir. Yəni hakimiyyətin ziyalıya münasibətindən çox şey asılıdır. Əgər hakimiyyət ziyalıya layiq olduğu dəyəri verərsə, kütlə də də bunu görəcək və nəticə çıxaracaqdır.

Fikrimizcə, ümumilikdə üç cür ziyalıdan: 1) milli; 2) dini; 3) bəşəri, bəhs etmək mümkündür. Əlbəttə, bu nisbi bir bölgüdür. Bu mənada, "milli ziyalı", "dini ziyalı" və "bəşəri ziyalı" anlayışları münasib görünməyə bilər. Yəni deyilə bilər ki, ziyalı ziyalıdır, bunun nə millisi, nə bəşərisi? Ancaq ümumi ziyalılıq keyfiyyətlərinə malik olmaqla yanaşı, ziyalının bir sıra önəmli məsələlərə münasibətdə tutduğu mövqedən çox şey asılıdır. Başqa sözlə, bəşəri dəyərlərdən çıxış edən edən ziyalı da milli və dini hisslərin olması nə qədər təbiidirsə, onlardan hansına daha çox meyil göstərməsi çıxış nöqtəsidir. Fikrimizcə, toplumun müxtəlif təbəqləri arasında ziyalılıq bu meyillənmələrə görə müəyyənləşdirilə bilər. Yəni ziyalının əsil simasının müəyyənləşməsində ictimai şüurunun daha çox dini, milli və yaxud da bəşəriliyin üzərində köklənməsindən asılıdır. Belə ki, özündə ziyalılığa aid olan ümumi keyfiyyətləri əks etdirən aydının, cəmiyyətin taleyinə ciddi şəkildə təsir göstərə biləcək hər hansı önəmli məsələ ilə bağlı tutduğu mövqeyi onun əsil simasını müəyyənləşdirir. Xüsusilə, son addım atılarkən ziyalının millətin, dinin, yoxsa bəşəri dəyərlərin çıxarlarından çıxış etməsi mühüm bir

nöqtədir. Çünki ziyalı istər-istəməz bəzən bunlardan birini nisbi də olsa, irəli çəkmək məcburiyyətindədir.

Bu mənada, "milli ziyalı" anlayışındakı "milli" sözü heç də ziyalının elmlikdən və obyektivlikdən kənara çıxması anlamına gəlməməlidir. Bu da, nisbi xarakter daşıyır. Fikrimizcə, milli ziyalı demək, elmliyi və obyektivliyi də gözləməklə milli maraqlardan çıxış etməkdir. Başqa sözlə, milli ziyalının dünyagörüşündə millətinin çıxarları və gələcəyi, müəyyən qədər də olsun öz əksini tapmalıdır. Məsələn, Nizami Gəncəvinin Azərbaycan, yoxsa İran şairi olması məsələsində onun uyğun olaraq Azərbaycan və ya İran şairi olmasını iddia edənlər bütün mənalarda milli mövqe tuturlar. çünki hər iki tərəf elmlik və obyektivlikdən çıxış etdiklərini bəyan etsələr də, onu özünküləşdirmək istəyirlər. Təbii ki, bizə görə biz, onlara görə onlar haqlıdırlar. Əgər Azərbaycandan biri tapılıb deyəndə ki, Nizami İran-fars şairidir, bu zaman o nə qədər obyektiv (bunun özü də mübahisəlidir) olsa belə, artıq onun milli düşüncə sahibi olması sual altına düşür. Tarixən belə ziyalılar (Türkiyədə Orxan Pamuk, Azərbaycanda Əkrəm Əlyisli və b.) olmuşdur ki, obyektivlikdən çıxış etmək adı altında öz xalqlarını zərbə altında qoymuşlar. Burada hakimiyyətlə xalq anlayışını eyniləşdirmək doğru deyildir. Çünki tarixən elə ziyalılar da olmuşdur ki, onlar təmsil olunduqları xalqı deyil, hakimiyyəti tənqid etmişlər. Bunlar tamamilə fərqli şeylərdir.

Deməli, "milli ziyalı" üçün milli maraqlar dini və bəşəri dəyərlərlə müqayisədə bir addım öndə ola ilər. Ancaq "bir addım öndə" olmaq heç də ziyalının obyektivliyi və elmliyi itirməsi anlamına gəlməməlidir. Milli ziyalı sözündə və yazısında populist və quru şüuarlardan yan qaçmalı, obyektivlik və elmliyə əsaslamalıdır. Ancaq bu obyektivlik və elmliyin özü də müəyyən əndazədə də olmalıdır. Yəni hər bir şeydə ifrat obyektivlik və elmliyin özü də mənasızdır.

Bütün hallarda, istənilən məsələyə münasibətdə ziyalı zəmanəyə uyğunlaşmaqdan daha çox, yəni gah ateist, gah millətçi,

gah da dinçi olmağı bir kənara qoyub, zəmanənin tələblərinə də nəzərə almaqla yanaşı, əsasən sabit bir mövqe nümayiş etdirməlidir. Burada "zəmanənin tələblərinin nəzərə alınması" dedikdə, dövrün inkişaf xüsusiyyətlərinin təhlili əsasında addımların atılmasını nəzərdə tuturuq. Bu o demək deyil ki, ziyalı-alim şəraitə, dövrə, mühitə (yəni mövcud olan rejimin həyata keçirdiyi ideologiyaya) hökmən uyğunlaşmalı, ona görə hərəkət etməlidir. Əgər ziyalı-aydın sovet dövründə ateist, müstəqillik dövründə dindar və millətçidirsə, artıq o ziyalılıqdan çox uzaqlaşmışdır. Əlbəttə, ziyalılar zaman-zaman özlərini gəlişdirib müəyyən fikir dəyişiklərinə gəlib çıxa bilər. Ancaq bu, onların dünyagörüşündə baş verən dəiyşiklikdən daha çox, ictimai varlığın dəyişməsi ilə bağlıdırsa, o zaman obyektivlik və elmlilik öz əhəmiyyətini itirmiş olur.

Fikrimizcə, Azərbaycan ziyalılarınnı böyük əksəriyyətində belə bir problem vardır. Onların əksəriyyətinin şüurları bu günə qədər sovet təfəkküründən kənara çıxamamış, yalnız ictimai varlığın dəyişməsi baxımından zahirən özlərini dəyişdirmiş kimi göstərməyə çalışırlar. Bu mənada, bugünkü Azərbaycan ziyalılarının əksəriyyətinin "sovet ziyalı"sından "milli ziyalı"ya, hətta bəzilərinin "dini ziyalı"ya çevrilməsi zəmanəyə (dövrə və mühitə) uyğunlaşmaqdan başqa bir şey deyildir. Onlar üçün "zəmanəyə uyğunlaşmaq" ən doğru addım olsa da, ancaq cəmiyyətin maraqları və çıxarları baxımından yanlışdır. Çünki ziyalı bir yandan zəmanəyə uyğunlaşıb özünə nə qədər "milli" və "dini" don geyindirməyə çalışsa da, onun şüurunun sovet təffəkkürünün yeni bir forması olması, cəmiyyətin böyük əksəriyyəti üçün sirr deyildir. Hər halda, həmin ziyalıların əksəriyyətinin "milli", "dini" çıxışlarının və yazlarının zahiri xarakter daşıması əməllərində o dəqiqə hiss olunur. Xüsusilə, sovet dövründəki kimi özlərindən yuxarıdakıların köləsi olmaq, özlərindən aşağını isə qul kimi görmək bu cür ziyalıların əksəriyyətinin təfəkkür tərzidir. Üstəlik, yalançı sovetpərəstlik və atetistlik kimi, yalançı millətpərəstlik və dinpərəstlik sadəcə, zəmanəyə (dövr və mühitə) uyğunlaşmaq "amalı"dır.

Halubki ziyalılıq zəmanəyə uyğunlaşmaq, yəni kor-koranə məddahlıq və yaltaqlıq formasında olmamalıdır. Ziyalı hər hansı fikrini yazmaq və ifadə etmək üçün kimsədən göstəriş və yaxud da, icazə gözləməməlidir. Başqa sözlə, alim taftalogiya ilə məşğul olmamalıdır. Əksinə əsil ziyalı odur ki, onun fikrinə hörmət göstərsinlər, onunla razılaşmağa məcbur olsunlar.

Cəmiyyətin müəyyən bir hissəsində ziyalı anlayışını daha çox din nəzər nöqtəsindən qəbul edirlər. Yəni ziyalı dedikdə, dini dünyagörüşlü şəxslərə üstünlük verirlər. Bu, heç də sadə və ötəri bi məsələ deyildir. Bununla da, kütlə daxilində dini şüura yönələn bir təbəqə formalaşdırılmağa çalışılır. Şübhəsiz, həmin təbəqə də daha çox dini ideyaları təbliğ edən insanları ziyalı kimi qəbul edirlər. Əlbəttə, dini ideyalar altında kütləyə, xüsusilə gənclərə hansı dəyərlərin təbliğıı bir o qədər dəqiq olmadığı üçün burada düşündürücü məşamlar kifayət qədərdir. Bu zaman "dini ideyalar" adı altında İslam dininə aidiyyəti olmayan fikirlər də gənclərə sırınır. Bu formada, "dini ideyaların" təbliği bəzi gənclər arasında daha erkən yaşlarında başlayır ki, bununla da "beyninin yuyulması" prosesi baş verir. Əlbəttə, hansısa təriqətlərin təsiri altına düşən gənclər yetkinlik yaşına çatdıqda artıq, müstəqil düşünməyə çətinlik çəkir və şüur baxımdan asılı vəziyyətə düşür.

Xüsusilə, bu zaman hansısa təriqətin "dini şüuru" İslam dini adı altında milli şüurdan üst mövqeyə çıxarmağa çalışması, istənilən dövlət, o cümlədən Azərbaycan kimi mstəqilliyini yenicə barpa etmiş bir dövlət üçün çox təhlükəlidir. Çünki dini şüur milli şüurla müqayisədə ilk baxışda daha çox birləşdiricilik təsiri bağışlasa da (yəni etnik kimliyi "müsəlmanlar qardaşdırlar" prinsipi içində əritməklə), mahiyyət etibarilə burada konkret nəyin nəzərdə tutulması həddən artıq mürəkkəbdir.

Bu mənada, elə etmək lazımdır ki, milli və dini şüur arasında qırmızı cizgi deyilən xətlərə diqqət yetririlsin. Yəni din şüura aid məsələlər həddən artıq ideallaqdırılaraq milli şüurdan

üst səviyyəyə qədər yüksəldilməsin. Buna nümunə kimi, "müsəlmanlar qardaşdırlar" prinsipini göstərə bilərik. Fikrimizcə, milli, yaxud dini şüura daha çox meyil etməsindən asılı olmayaraq "müsəlmanlar qardaşdırlar" prinsipi müxtəlif cür yozula və dəyərləndirilə bilər. Milli şüurdan çıxış edənlər üçün bu anlayış bir dövlət daixilində yaşayan müsəlmanların milli şüur ətrafında daha da sıx şəkildə birləşməsi anlamını verir. Xüsusilə, çoxetnoslu ölkədə bu daha çox zərurət kəsb edir. Bu zaman fərqli etnik kitmliyə malik olan vətəndaşlar ortaq dəyər kimi dini şüura aid "müsəlmanlar qardaşdırlar" prinsipindən çıxış edə bilərlər.

Ancaq bu prinispi dini ideyalara meyilli olaraq dəyərləndirənlər ondan daha çox "müsəlmanların birləşməsi" kimi nəticə çıxarırlar. Hətta, ayrı-ayrı təriqətlər (vahabilər, sələfilər, İran şiəçiləri və b.) bu prinsipi yalnız öz birlikləri mənada izah edirlər. Məsələn, bu günə qədər İran adlı ölkədə əsarət altında yaşayan Azərbaycan türkləri farsyönlü "şiəliyi"n əziyyətini bu günə qədər də çəkirlər. Belə ki, İranın fars ideoloqları "dini şüuru" şiəlik və iranlılıq adı altında təbliğ etməklə Azərbaycan türklərinin milli şüurunun formalaşmasını qarşısını bütün vasitələrlə alırlar. Üstəlik, İranın şövinist ideoloqları "dini şüuru" bu formada Quzey Azərbaycanda da təbliğ edirlər.

4.2. Milli ideologiyanın əsas problemləri və onun həlli yolları

Hazırda Azərbaycan milli ideologiyasının müəyyənləşməsi ilə bağlı əsas problem türkçülük, islamçılıq və müasirlik ideyalarına, eləcə də həmin ideyaların sinergizmindən yaranmış "Azərbaycan türkçülüyü", "Azərbaycan məfkurəsi" və ya "azər-baycanizm"ə (azəbaycançılığa) hansı formada müraciət olunmasıdır. Məsələn, əgər bu gün kimlərsə türkçülükdən, islamçılıqdan bəhs edirslərə, o zaman onların kökünə və inkişaf mərhələlərinə müraciət etmək məcburiyyətindədirlər. Bu mənada hazırda azərbaycançılıq ideologiyasınıdan bəhs olunursa, deməli

onun da müəyyən bir əsası və mənbəyi vardır. Bu isə o deməkdir ki, indi türkçülüyün nə qədər zəruri olub-olmaması mübahisə obyektidirsə, müəyyən mənada bunu azərbaycançılığa da aid etmək olar. Çünki Azərbaycan türkçülüyü vaxtilə "üçlüy"ün nəticəsində meydana çıxmış milli ideyadır. Azərbaycan türkçülüyü ideyasının bariz nümunəsi 1918-ci il mayın 28-də dünyaya bəyan olunmuş müstəqil Azərbaycan Respublikasıdır ki, hətta Sovet Rusiyasının işğalı belə onu tarixdən silə bilməmişdir.

Ancaq yuxarıda da qeyd etdiyimiz kimi, şüurlaramıza Azərbaycan Cümhuriyyəti ilə yanaşı, 70 il ərzində bir "Sovet Azərbaycanı" ideyası da hopmuşdur. Bu baxımdan bugünkü Azərbaycan Respublikası Azərbaycan Cümhuriyyətinin varisi olmaqla bərabər, o həm də "Sovet Azərbaycanı"-Azərbaycan SSR ilə də bağlıdır.

Bu o deməkdir ki, hazırda milli ideologiya ilə bağlı məsələlərə münasibət bildirilərkən, bu reallıqlar da nəzərə alınmalıdır. Yəni başa düşməliyik ki, bugünkü azərbaycanlıların xeyli qismi SSRİ dövründə yaşadıqları və sovet ideologiyasının təsiri altında formalaşdıqları üçün, bu gün də sıralarımızda nəinki türkçülüyü, onun etnik-milli forması olan Azərbaycan türkçülüyünü da yetərincə dərk etməyənlər var. Bu mənada, müstəqilliyin bərpasından sonrakı 22-23 illik dövrü milli ideologiya probleminin həlli baxımından bir növ "keçid dövrü" kimi qəbul etmək lazımdır. Bu "keçid"in özü də dünyada baş verən qloballaşma dövrünə təsadüf edir ki, yuxarıdakı məqamları da nəzərə almaqla, hazırda Azərbaycan milli ideologiyasının müəyyənləşməsi ilə bağlı irəli sürülən mülahizələrin daha çox azərbaycançılıq, türkçülük və modernləşmək ətrafında getməsi başa düşüləndir. Ancaq hesab edirik ki, artıq milli özünəməxsusluq, yaxud da milli mentalitetlə izah olunan "keçid dövrü" məsələsinə nöqtə qoyulmalıdır. Bu baxımdan Azərbaycan filosofu Həsən Quliyev doğru hesab edirdi ki, azərbaycanlılar keçmişə münasibətdə nə qədər milli mentalitetdən çıxış edirsə, bu yeniləşməyə və tərəqqiyə münasibətdə əngələ

çevrilməməlidir; artıq keçid dövründə baş verən yeniləşmə mentalitetlə uzlaşdırılmalıdır [268, 120].

Deməli, burada bir ideyanın digərindən üstünlüyündən deyil, uzlaşdırılmasından getməlidir. Çünki ideyaları yaşadan və inkişafına səbəb olan zorakı üstünlük deyil, onlar arasında mümkün qədər bərabərliyin qorunub saxlanılmasıdır. Xüsusilə o mənada ki, müəyyən bir dövrdə hər hansı ideya daha cəlbedici görünə bilər. Ancaq bu zaman həmin ideyanın cəlbediciliyinin şişirdilməsindən, ifratlaşdırılmasından yan keçərək digər ideyalarla sintezin yaradılması daha çox vacibdir. Bu mənada, hazırda daha çox cəlbedici görünən azərbaycançılıqla digər ideyalar (türkçülük, islamçılıq, müasirlik, modernləşmək) arasında da üzvi əlaqələr qorunub saxlanılmalıdır. Çünki azərbaycançılıq həmin ideyalar, xüsusilə türkçülük olmadan uzun ömürlü ola bilməz. Ən azı ona görə ki, milli və müstəqil Azərbaycan ideyasını M.Ə.Rəsulzadə, N.Yusifbəyli və başqaları ilk növbədə, türkçülük əsasında irəli sürmüşlər. Azərbaycan milli ideyasınının məhz türkçülük ideyası əsasında yaranmasının bariz nümunəsi idi ki, bu dövlət dili və dövlət bayrağında da öz əksini tapmışdı. Yəni biz bu gün nə qədər əksəriyyətlə "sovet dövrünün insanı" olmağımızı, qloballaşma zamanında yaşamağımızı, modernləşmənin zəruriliyini azərbaycançılığın bir üzündə əks etdirsək də, onun digər üzündə milliliyimizi-türklüyümüzü, mədəniyyətimizi, islami dəyərlərimizi də yaşatmalıyıq.

Hazırda milli ideologiya problemini araşdıran tədqiqatçıların demək olar ki, əksəriyyəti Azərbaycan milli ideyası kimi azərbaycançılığı qəbul edirlər. Buna səbəb, yuxarıda da qeyd etdiyimiz kimi, hazırda azərbaycançılığın başqa ideyalarla (türkçülük, islamçılıq, modernləşmək və s.) müqayisədə daha cəlbedici görünməsidir. Belə ki, azərbaycançılıq bir tərəfdən milliliyi – türkçülüyü, dini-əxlaqi dəyərləri – islamçılığı, digər tərəfdən modern-demokratik dövlətçiliyi, qlobal dünyanın bir hissəsi olmasını özündə əks etdirir. Bu mənada bəziləri daha çox azərbaycançılığı

türkçülüklə, digərləri dövlətçiliklə eyniləşdirdiyi halda, onun hər ikisi ilə səsləşdiyini işarə etməklə yanaşı, modern-demokratik dövlət modeli kimi müasir ideologiya kimi görənlər də az deyildir.

Ümumilikdə bu baxımdan azərbaycançılıq ideologiyasından çıxış edən tədqiqatçıların irəli sürdükləri bir çox mülahizələrlə (dövlətçiliyin müdafiəsi, ərazi bütövlüyünün qorunması, vətəndaş birliyi, etnik kimliyindən və dinindən asılı olmayaraq bütün azərbaycanlıların eyni hüquq və haqlara sahib olması, modern dövlətçiliyin qurulması və s.) razılaşmaqla yanaşı, zənnimizcə, mübahisəli olan bəzi məsələlər də vardır: 1. Azərbaycançılıq: tarix və çağdaşlıq; 2) Türkçülük və azərbaycançılıq: alternativlik və eynilik kimi; 3) Milli dil məsələsi: Türk dili və Azərbaycan dili; 4) Azərbaycançılıq: millilik və kosmopolitizm.

4.2.1. Azərbaycançılıq: tarix və çağdaşlıq

Hazırda Azərbaycan milli ideologiyası ilə bağlı müəyyən qədər mübahisə doğuran məsələlərdən biri azərbaycançılıq ideologiyasının tarixi kökləri ilə bağlıdır. Milli ideologiya problemi tədqiqatçılarının (R.Mehdiyev, Ə.Daşdəmirov, S.Xəlilov, N.Cəfərov, Ə.Tağıyev, S.Vəliyeva və b.) demək olar ki, hamısı azərbaycançılığın tarixi-nəzəri köklərinin XIX əsrin sonu – XX əsrin əvvəlləri ilə bağlı olduğunu, onun yaranmasında türkləşmək, islamlaşmaq və müasirləşməyin, xüsusilə də türkçülüyün mühüm rol oynamasını qəbul edirlər. Ancaq bununla yanaşı, ədəbiyyatda müasir azərbaycançılığın banisinin Azərbaycan Respublikasının sabiq prezidenti Heydər Əliyevin olması ilə bağlı fikirlərə də rast gəlirik. Bu baxımdan azərbaycançılığın XIX əsrin sonu – XX əsrin əvvəllərində, yoxsa 1990-cı illərdə yaranması ilə bağlı məsələdə bir qədər dəqiqləşdirmələrə ehtiyac vardır. Fikrimizcə, azərbaycançılığın tarixi-nəzəri köklərinin və mahiyyətinin olduğu kimi cəmiyyətə təqdim olunması, eyni zamanda çağdaş dövrdə Heydər Əliyevin həmin ideyaya üz tutaraq dövlətçilik kimi səciyyə-

ləndirməsi azərbaycanlıların bu ideologiya ətrafında şüurlu şəkildə birləşməsində mühüm rol oynaya bilər. Yəni azərbaycançılığın yaranması və təkamülü cəmiyyətə olduğu kimi çatdırılmalıdır.

Öncə qeyd edək ki, bugünkü Azərbaycan Respublikasının sələfi olan Azərbaycan Cümhuriyyətinin yaranmasında etnik türkçülüyün (Azərbaycan türkçülüyünün) mühüm rol oynadığını yalnız Azərbaycan və Türkiyənin alimləri deyil, rus, polyak, gürcü, amerikan və başqa millətlərin mütəfəkkirləri də dəfələrlə ifadə etmişlər. Çünki məhz 1900-1920-ci illərdə İslam və Azərbaycan (Azərbaycan islamçılığı), Türk və Azərbaycan (Azərbaycan türkçülüyü), Demokratiya və Azərbaycan (Azərbaycan milli demokratizmi), istiqlal və Azərbaycan (Azərbaycan milli istiqlalı) milli özünəməxsusluqlarının təməl daşları qoyulmuşdu. Bu ideyaların arasında türkçülük siyasi-ideoloji bir ideya kimi, islamçılıq və qərbçiliklə müqayisədə bir qədər gec təşəkkül tapsa da, Azərbaycan xalqının həyatında mühüm rol oynamış və Azərbaycan dövlətçiliyinin yaranmasında həlledici faktor olmuşdur. Xüsusilə, 1910-1920-ci illərdə türkçülüyün Azərbaycanda milli forması olan azərbaycançılıq əsasında müstəqil və milli Azərbaycan ideyası yaranmışdı.

Bir sözlə, bütün hallarda, milli dövlətçiliyin əsas prinsipi "üçlük" düsturu, xüsusilə də türkçülük əsasında qurulmuşdur. Bu mənada, hazırda bəzi ideoloqların hər cür vasitə ilə XX əsrin əvvəllərindəki türkçülüyü və azərbaycançılığı bir-birindən tamamilə fərqli ideyalar kimi yozmalarının heç bir əsası yoxdur. Bizə elə gəlir ki, o dövrdə türkçülük əsasında meydana çıxmış azərbaycançılıq Azərbaycan türklüyü və Azərbaycan türkçülüyünün milli dövlətçilik ifadəsidir. Bu zaman isə, ümumi türkçülükdən fərqləndirilməsi baxımından Azərbaycan türklüyünün "azərbaycanlılılq" və Azərbaycan türkçülüyünün isə "azərbaycanizm"-"azərbaycançılıq" (azərbaycançılıq) kimi ifadə olunması mümkündür. Yəni ümumi türkçülükdən Azərbaycan türklüyü – "azərbaycanlılıq", Azərbaycan türkçülüyü – "azərbaycançılıq" yaranmışdır.

Beləliklə, XX əsrin əvvəllərində türkçülüyün doğurduğu Azərbaycan türkçülüyü ideyası olmuş, onun nüvəsində də Azərbaycan türkləri durmuşdur. Bir sözlə, həmin dövrdə "azərbaycançılıq" anlayışına, ən yaxşı halda türkçülüyün bir qolu kimi, yəni Azərbaycan türkçülüyü mənasında müraciət olunmuşdur. Azərbaycan milli ideoloqları Məhəmməd Əmin Rəsulzadə, Nəsib bəy Yusifbəyli, Əlimərdan bəy Topçubaşı, Mirzə Bala Məmmədzadə və başqaları da "milli Azərbaycan", "azərbaycan-çılıq", "azərbaycanizm", "Azərbaycan milli ideyası" dedikdə, yalnız və yalnız ümumi türkçülüyün doğurduğu və onun müstəqil bir hissəsinə çevrilmiş Azərbaycan türkçülüyünü ifadə etmişlər. Ancaq onların dünyagörüşündə azərbaycançılıq yalnız türkçülüklə məhdudlaşmamışdır. Belə ki, milli ideoloqlar üçün azərbaycançılıq türkçülüklə yanaşı istiqlalçılığı, müsavatçılığı, xalqçılığı və dövlətçiliyi də özündə əks etdirir [154, 12]. Bunu, Azərbaycan milli ideoloqu M.Ə.Rəsulzadə belə ifadə etmişdir: "Azərbaycançılıq demək, istiqlalçılıq deməkdir. Bir istiqlalçılıq ki, tarixin ən böyük müəssəsi (qurucusu) olan milliyyətin dövlət olmaq üzrə müzəffər yürüşü deməkdir. Azərbaycançılıq demək, böyük Türk irqinə mənsub bir millətin istiqlalını qazanmaq üzrə başlanmış şanlı bir mücadilədir. Azərbaycançılıq eyni zamanda, bir hürriyyət və mədə-niyyət hərəkatıdır ki, onun ən bariz sifəti xalqçılıq və milli hakimiyyət əsasına bağlılıqdır" [245[a], 68].

Əslində həmin dövrdə "azərbaycanlı", yaxud da "azərbaycanlılıq" anlayışının dərk edilməsi yeni yaranmış bir dövlət üçün çox zəruri idi. Çünki bu zaman türklərlə qeyri türklər "azərbaycanlılıq" adı altında birləşir, həmin dövlətin ayrılmaz tərkib hissəsinə çevrilir, vahid vətən və dövlət anlayışını mənimsəyirdilər. Deməli, həmin dövrdə, hətta bir müddət sonra belə "azərbaycanlılıq" daha çox Azərbaycan türklüyünü, yəni türklərin milli kimliyini ifadə etməklə yanaşı, Azərbaycanda yaşayan bütün vətəndaşlara (türklərə və qeyri türklərə) verilmiş siyasi millət anlayışı (məsələn, iranlı, osmanlı, rusiyalı və s. kimi) olmuşdur. M.B.Məmmədzadə yazırdı:

"Azərbaycançılıq ideyasını ortaya atmaqla biz heç də türkçülüyü inkar etmirik, ancaq Azərbaycan Vətəni ideyasını birinci yerə keçirir, Azərbaycanın coğrafi sərhədləri daxilində millətin yekdilliyini və vəhdətini birinci dərəcəli vəzifə kimi irəli sürürük" [243, 54].

Bütün bunları nəzərə alaraq çağdaş dövrdə akademik Y.Qarayev yazırdı ki, "ən yeni Azərbaycan ideologiyasının öndəri olan Rəsulzadə ilk Azərbaycan Cümhuriyyətinin də banilərindən biri olmuşdu" [36, 3]. Belə ki, "azərbaycançılıq" ideologiyası yalnız Müsavatın proqramında təzahür etmiş və Azərbaycan Cümhuriyyətində əməli gerçəkliyini tapmışdır [36, 81]. Yəni onlar, bununla da siyasi-ideoloji anlamda türklərin vahid dövlət (məsələn, Turan dövləti kimi) yaratmasından deyil, ayrı-ayrı müstəqil türk dövlətlərinin mövcudluğu ideyasından çıxış etmişlər. Çünki o zaman da, indinin özündə də vahid Türk dövləti-Turan ideyası istər türklərin öz daxilində, istərsə də başqa millətlər tərəfindən birmənalı qarşılanmamışdır. Ona görə də milli ideoloqların əksəriyyəti turançılığı, türk birliyini mənəvi məsələ kimi qəbul edərək, siyasi-ideoloji baxımdan müstəqil türk dövlətləri ideyasını dəstəkləmişlər.

Nizaməddin Şəmsizadə də "Azərbaycançılıq" kitabında yazır ki, XIX əsrin sonu – XX əsrin əvvəllərində formalaşan və Azərbaycan Cümhuriyyətinin yaranması ilə nəticələnən milli ideologiya əslində "özündə türkçülük, islamçılıq və Qərb dəyərlərini birləşdirən" azərbaycançılıq olmuşdu [208, 50]. Azərbaycançılıq isə üç təməl üzərində bərqərar olur: türkçülük, islamçılıq və vətənçilik. Hətta, N.Şəmsizadəyə görə, türkçülük də Azərbaycan xalqının milli idealı – məfkurəsidir [208, 116]. Onun fikrincə, bütün bunlar isə azərbaycançılığı türkçülüyə qarşı qoymur [208, 117]. Çünki azərbaycançılıq islamçılıqdan, türkçülükdən, hətta şamançılıq və şumerçilikdən də qədimdir [208, 118].

Bu baxımdan, hazırda azərbaycançılığın əsas ideoloqlarından akademik Ramiz Mehdiyevin qeyd etməsi ki, "azərbaycançılıq" anlayışı milli siyasi diskursda yaxın vaxtlardan

işlədilir [140, 458] və azərbaycançılığın ideya ilahmçısı, yaradıcısı Heydər Əliyevdir [141, 447], şübhəsiz bu onun yeni bir ideya olması anlamına gəlməməlidir. Çünki R.Mehdiyev H.Əliyevi müasir azərbaycançılığın yaradıcısı kimi qəbul etməklə yanaşı, onun tarixi-nəzəri köklərinin XIX əsrin sonu, XX əsrin əvvəlləri ilə bağlı olmasını inkar etmir. Akademik hesab edir ki, Azərbaycanda inqilabaqədərki (1905-1907) milli təfəkkür əvvəlcə türkçülük və etnik millətçilik ideologiyası kimi inkişaf etsə də, son nəticədə azərbaycançılıq yaranmışdır: "Sonrakı dövrdə bizim mütəfəkkirlər milli identiklik ideyasını irəli sürməyə başladılar. Bu ideya azərbaycançılıq ideologiyasının formalaşmasına keçidi nəzərdə tuturdu, onun növbəti hədəfi isə milli ideya idi. Azərbaycanda genişlənən kəskin siyasi mübarizə milli ideyanı öz məntiqi sonluğuna – Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxardı" [142, 17]. Ümumiyyətlə, onun fikrincə, o vaxt bütün türk xalqlarında olduğu kimi, Azərbaycanda da əsas ideya xətlərindən olan ənənəvi panturançılıq, "türkçülük" (vahid türk dövləti, türk birliyi və s.) Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə və başqa milli mütəfəkkirlərin səyi ilə Azərbaycan milli ideyasının əsas istiqamətinə çevrilmişdi: "1905-1918-ci illərdə Azərbaycan milli hərəkatının nəzəriyyəçiləri və xadimləri Azərbaycan milli dövlətinin ideologiyasını – "azərbaycançılıq" (türkçülük mənasında) ideyasını işləyib hazırladılar. Bu ideya ölkədə yaşayan bütün xalqların hüquq bərabərliyinin tanınmasına əsaslanırdı. Onun fəlsəfi əsasını türkçülük, islamçılıq və müasirlik" şüarı təşkil edirdi. Bu şüar "Müsavat" partiyasının və Azərbaycan Demokratik Respublikasının rəsmi doktrinası oldu" [143, 196]. Akademikin fikrincə, XX əsrin əvvəllərində yaranmış azərbaycançılıq SSRİ dövründə isə boğulmuş, yalnız müstəqillik əldə etdikdən sonra milli ideya kimi yenidən dirçəlmişdir. Şübhəsiz, müasir dövrdə azərbaycançılığın dirçəlməsində və dövlətçilik ideolgiyası kimi irəli sürülməsində H.Əliyev mühüm rol oynamışdır.

Bizcə, Azərbaycan filosofu Səlahəddin Xəlilov da məhz azərbaycançılığın ötən əsrin əvvəllərində yaranmasından çıxış etməklə yanaşı, çağdaş dövrdə H.Əliyevin bu ideologiyanın inkişafında mühüm rol oynaması mülahizəsini müdafiə etmişdir. Azərbaycan alimi hesab edir ki, milli dövlətçilik və milli mənəvi dəyərlər arasında sıx əlaqə var ki, bu vaxta qədər heç kəs "milli ideologiyanın əsas istiqamətlərinin müəyyənləşdirilməsi, bu sahədə yeni mükəmməl elmi konsepsiyanın yaradılması və onun həyata keçirilməsi sahəsində Heydər Əliyev qədər şəxsi əzmkarlıq göstərməmişdir" [112, 83-84]. Hətta, Azərbaycan filosofunun iddiasına görə, "Heydər Əliyev ilk dəfə azərbaycançılıq ideyasını dövlətin strateji xətti kimi irəli sürəndə bu ideyanın həqiqi böyük mənası çoxları üçün anlaşılmaz idi" [113, 35]. Deməli, S.Xəlilovun fikrincə, H.Əliyev tarixən mövcud olan azərbaycançılıq ideyasını yeni dövrdə ilk dəfə, dövlətin strateji xətti kimi irəli sürmüşdür. Bu isə o deməkdir ki, H.Əliyev ona qədər mövcud olan azərbaycançılıq ideyasını vaxtında dəyərləndirərək onu dövlətin milli ideologiyası kimi tətbiqinin zəruriliyini dərk etmişdir. Bu kontekstdən çıxış edən Azərbaycan filosofu İzzət Rüstəmov da hesab edir ki, "vətəndaş həmrəyliyi fəlsəfəsi" kimi təqdir olunan "azərbaycançılıq" konsepsiyasını H.Əliyev irəli sürmüşdü: "Azərbaycançılıq konsepsiyası həmçinin buna diqqəti yönəldir ki, vətənimiz olan Azərbaycan böyük tarixə malik olan, çox vaxt da məhz "Azərbaycan" adı ilə çağırılan qədim bir ölkədir, türk dillərindən biri olan dilimiz də məhz Azərbaycan dilidir" [192, 119].

Fikrimizcə, məhz bu nüanslardan çıxış edərək AMEA-nın müxbir üzvü Nizami Cəfərov da yazır ki, azərbaycançılıq ideologiyası "nə qədər dərin köklərə malik olsa da onun əsaslarını müasir Azərbaycan dövlətçiliyinin banisi, dünya azərbaycanlılarının lideri Heydər Əliyev məhz milli dövlət quruculuğu prosesində yaratmışdır" [221, 5]. Başqa sözlə, H.Əliyev Azərbaycan xalqının, dünya azərbaycanlılarının milli birliyi uğrunda mübarizə aparmış, bunu Azərbaycan dövlətinin siyasəti səviyyəsinə qaldırmışdı [65,

231]. Onun fikrincə, çağdaş Azərbaycan dövləti də, respublikanın ərazisində tarixən məskunlaşmış bütün etnoslara, bir neçə minillik dövrdə formalaşmış bütün Azərbaycan cəmiyyətinə – Azərbaycan xalqına məxsusdur [65, 226]. Bütün bunlarla yanaşı, N.Cəfərovun fikrinə görə, Azərbaycan xalqının milli dövlətçilik təfəkküründün əsas mənbəyi qədim türk dövlətçilik mədəniyyətidir. 1918-ci ildə M.Ə.Rəsulzadə və başqa mütəfəkkirlərin ideyaları ilə yaranan Azərbaycan Xalq Cümhuriyyəti də həmin türk dövlətçiliyinin davamıdır [65, 220].

Azərbaycan filosofu Əlikram Tağıyev də hesab edir ki, müasir dövrdə azərbaycançılıq ideyası H.Əliyev tərəfindən irəli sürülsə də onun tarixi kökləri qədimdir: "Onun (azərbaycançılığın – F.Ə.) idealdan ideyaya çevrilməsi tarixi XIX əsrin sonu – XX əsrin əvvəllərinə gedib çıxır. M.Ə.Rəsulzadənin siyasi sahəyə və eləcə də elmə gətirdiyi bu anlayış Azərbaycan Demokratik Cümhuriyyətinin yaranmasının ideoloji əsaslarını təşkil etmişdi" [217, 20]. Eyni müddəanı müdafiə edən Sona Vəliyeva da yazır ki, Azərbaycan milli ideyası ideologiyaya çevrilmə prosesində tarixi inkişaf baxımından islamçılıq, türkçülük mərhələlərini yaşamış, 20-ci əsrin əvvəllərindən etibarən tədricən müstəqil ideya cərəyanına çevrilmiş və 1905-1918-ci illərdə Azərbaycan milli hərəkatının nəzəriyyəçiləri (M.Ə.Rəsulzadə, N.Yusifbəyli və Ə.Topçubaşov) "azərbaycançılıq" ("türkçülük") ideyasını işləyib hazırlamışdılar [221, 25-26, 38]. Onun fikrincə, 1993-cü ildən başlayaraq da azərbaycançılıq ideologiyasının müasir elmi-nəzəri standartlar səviyyəsində formalaşmasının və tətbiq olunmasının şahidləriyik [221, 130].

Fikrimizcə, bu müəlliflərin çağdaş dövrdə azərbaycançılığın H.Əliyev tərəfindən dövlət ideologiyası kimi irəli sürüldüyünü qeyd etməklə yanaşı, onun tarixi-nəzəri köklərini əsaslandırmaq üçün XIX əsrin sonu – XX əsrin əvvəllərinə üz tutmaları da təbiidir. Belə ki, doğrudan da Heydər Əliyev vaxtilə mövcud olan Azərbaycan milli ideyasını – azərbaycançılığı çağdaş dövrdə dirçəldərək, onu dövlətin milli ideologiyası kimi irəli sürmüşdür. Ona görə də hesab edirik ki,

azərbaycançılığın tarixi-nəzəri köklərini və mahiyyətini olduğu kimi xalqımıza çatdırmalıyıq. Hər halda, milli-mənəvi dəyərlərimizin tədqiqi, milli ideyanın mənşəyinin araşdırılması, şəxsiyyətlərin tarixdə yeri və rolu ilə bağlı Heydər Əliyev demişdir ki, tarix obyektiv təhlil olunmalı, bugünkü və gələcək nəslə doğru bilgilər ötürülüməlidir: "Biz tariximizi həmişə obyektiv təhlil etməliyik və bugünkü nəslə, gələcək nəsillərə düzgün çatdırmalıyıq. Təəssüf ki, əvvəlki dövrlərə aid tariximizdə çox faktlar təhrif olunubdur, indi də təhrif edilir. Əgər o vaxt bir istiqamətdə təhrif olunurdusa, indi başqa bir istiqamətdə təhrif edilir. Tarixçilərimizin borcudur ki, bu qüsuru aradan götürsünlər. Ancaq biz deməliyik ki, demokratik respublika, onun liderləri Məmmədəmin Rəsulzadə, Fətəli Xan Xoyski, Nəsib bəy Yusifbəyli, Məmmədhəsən Hacınski və başqaları çox böyük işlər görüblər. Onlar Azərbaycanı müstəqil bir dövlət kimi dünyanın bir qisminə tanıtdılar, bir neçə tədbir gördülər" [85, 153-154]. H.Əliyev fikrinin davamı olaraq deyirdi: "Mən yenə də deyirəm: Məmmədəmin Rəsulzadə və onunla bərabər Azərbaycan Respublikasının böyük şəxsiyyətləri XX əsrin əvvəlində və xüsusən 1918-ci ildə, Azərbaycan Demokratik Respublikası qurarkən böyük şücaət göstərmişlər, böyük iş görmüşlər. Bu, şəksiz-şübhəsizdir" [85, 156].

Bu isə o deməkdir ki, yeni dövrün siyasi-ideoloji maraqlarına uyğun olaraq Azərbaycanda və dünyada yaşayan bütün azərbaycanlıların milli ideyası kimi azərbaycançılıq ideyasını irəli sürüb, bu ideyanı 1992-1993-cü illərdə Azərbaycanda baş qaldıran separatçılıq hərəkatlarına qarşı qoymaqla yanaşı H.Əliyev hesab edirdi ki, azərbaycançılıq milli birliyin və dövlətçiliyin təməl daşıdır: "Dövlətçilik, milli-mənəvi dəyərlər, ümumbəşəri dəyərlər – bunlar hamısı Azərbaycançılıq anlayışının tərkib hissələridir" [49]. H.Əliyev milli ideologiyanın əsası kimi də azərbaycançılığı göstərir və onu dövlətçiliklə eyniləşdirirdi: "Bu milli ideologiya nədən ibarətdir? Birinci, dövlətçilik. Dövlətçilik bu gün və gələcəkdə bizim hər bir vətəndaşımızın, cəmiyyətin, dövlətin əsas vəzifəsidir.

Dövlətçilk Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır. Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir…" [49].

Bizə elə gəlir ki, H.Əliyev azərbaycançılıq ideyasını irəli sürərkən bütün bunlarla yanaşı, XIX-XX əsrlər Azərbaycan mütəfəkkirlərinin bu ideya ilə bağlı gördüyü nəzəri-praktiki işlərə əsaslanmışdır. O, azərbaycançılığın əsas təməlinin isə Azərbaycan Cümhuriyyəti dövründə qoyulmasını bu və ya başqa formada dəfələrlə bəyan etmişdir. Bu baxımdan H.Əliyevin milli mənəvi dəyərlərimiz, Azərbaycan Cümhuriyyəti və onun liderləri, o cümlədən M.Ə.Rəsulzadə ilə bağlı fikirləri azərbaycançılığın müəyyən bir tarixi mərhələ keçməsinə bariz nümunədir: "Azərbaycan xalqı əsrlər boyu azadlıq arzusu ilə yaşamış, milli azadlıq, istiqlal uğrunda mübarizə aparmışdır. Xalqımız minillik tarixində dəfələrlə öz milli azadlığına nail olmuş, milli dövlətini yaratmış, lakin sonralar müxtəlif səbəblər üzündən bunlardan məhrum olmuşdur. XX əsrin əvvəllərində Azərbaycanda milli azadlıq hərəkatı gücləndi. Azərbaycanın demokratik qüvvələri, mütəfəkkir şəxsləri, siyasi xadimləri yurdumuzun müstəqilliyi uğrunda, xalqımızın azadlığı uğrunda mübarizəyə qoşuldular. Birinci Dünya müharibəsinin bitməsi ilə əlaqədar olaraq dünyada baş vermiş dəyişikliklər, sosialist inqilabı nəticəsində Rusiya imperiyasının dağılması, Azərbaycanda müstəqil dövlət yaratmaq üçün şərait meydana gətirdi. Azərbaycanda geniş vüsət almış milli azadlıq hərəkatı bu dövrün səciyyəvi cəhətlərindən hesab edilməlidir. Məhz belə bir şəraitdə Azərbaycanın demokratik qüvvələri, siyasi xadimləri 1918-ci il mayın 28-də ilk Azərbaycan Demokratik Respublikasının yarandığını elan etdilər. Həmin gün Azərbaycan xalqının tarixinə böyük və əlamətdar bir hadisə kimi daxil olmuşdur. Biz bu günü Respublika günü, Milli İstiqlal bayramı kimi qeyd edirik" [82, 385].

1998-ci ildə Azərbaycan Cümhuriyyətinin 80 illiyinin keçirilməsi ilə bağlı verdiyi sərəncamda da H.Əliyev azərbay-

cançılığın milli ideyaya çevrilməsinin əsasının Cümhuriyyət dövründə qoyulduğunu ifadə etmişdi: "Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti istiqlaliyyətimizi elan edərək xalqımızın müstəqillik əzmini nümayiş etdirmişdir. Azərbaycan Xalq Cümhuriyyəti ölkənin daxilində və xaricində yaranmış kəskin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmişdir. Bu dövlətin qısa bir müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində böyük iz buraxmışdır. Milliyyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, Azərbaycan dövlətçiliyi atributlarının qəbul edilməsi, ana dilinin dövlət dili elan olunması Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmışdır. Demokratik dövlət quruculuğu sahələrində atılmış addımlar Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyətini əks etdirən əsas istiqamətlərdir" [137, 3]. H.Əliyev başqa çıxışlarında da dəfələrlə bəyan etmişdir ki, bugünkü Azərbaycan Respublikasının əsas təməl prinsipləri, dövlətçilik atributları, onun hüdudları Azərbaycan Cümhuriyyəti dövründə müəyyən olunmuşdur: "Azərbaycanın gerbi və digər atributları, Azərbaycan dövlətinin bu gün bu salonda səslənən əzəmətli himni də məhz o vaxt, o şəraitdə yaranmışdır. Dövlətçilik sahəsində bir çox işlər görülmüş, Azərbaycan dilinin – ana dilinin tətbiq olunması, mədəniyyətimizin bir çox sahələrində, təhsil sahəsində tədbirlər görülməsi, iqtisadiyyat sahəsində müəyyən addımlar atılması ilk Azərbaycan Demokratik Respublikasının fəaliyyətini əks etdirən faktlardır" [86, 6].

Deməli, H.Əliyev azərbaycançılıq ideyasının qaynağı kimi, ilk növbədə məhz Azərbaycan Cümhuriyyətini və onun qurucularını göstərmişdir. H.Əliyev qeyd edirdi ki, Azərbaycan Cümhuriyyəti milli azadlıq, müstəqillik toxumlarını bütün Azərbaycana səpmiş, bu toxumlar uzun müddətdən sonra cücərərək boy atmış və nəhayət, 1991-ci ildə Azərbaycan yenidən öz dövlət müstəqilliyini əldə etmişdi: "Ona görə də Azərbaycan Demokratik Respublikasının

fəaliyyəti ölkəmizin, xalqımızın tarixində parlaq bir səhifədir və biz bu günü bayram kimi qeyd edirik. Biz o günlərə, aylara, o dövrə böyük hörmət və ehtiramı bəsləyirik. Bu gün, Respublika günü bayramında Azərbaycanda ilk demokratik respublikanın yaradılmasında fəaliyyət göstərənlərin hamısını, xüsusən Azərbaycan Demokratik Respublikasının başçıları Məmmədəmin Rəsulzadəni, Fətəli xan Xoyskini, Əlimərdan bəy Topçubaşovu, Nəsib bəy Yusifbəyovu və başqalarını böyük hörmət və ehtiramla, minnətdarlıqla yad edirik. Onların fəaliyyəti, gördüyü işlər xalqımızın xatirəsində əbədi yaşayacaqdır" [84, 383].

Bütün bunlar göstərir ki, H.Əliyev azərbaycançılıq ideyasını çağdaş dövrdə yenidən dirçəltmiş və onun nəzəri-tarixi köklərini milli mənəvi dəyərlərimiz, XX əsr Azərbaycan mütəfəkkirlərinin irsi, xüsusilə Azərbaycan Cümhuriyyətinin qurucularının zehni və praktiki əməlləri ilə uzlaşdırmışdır. Başqa sözlə, H.Əliyev Azərbaycan xalqının və onun mütəfəkkirlərinin irsində bu və ya digər formada öz əksini tapmış Azərbaycan milli ideyasına həmin dövrdə mövcud olan problemlərin həlli baxımından yeni çalarlar əlavə edərək, onu azərbaycançılıq adlandırmışdır. Bu mənada, dövlət başçısı İlham Əliyevin H.Əliyevi "Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi" [217[a] , 6] dəyərləndirməsi çox doğru təsbitdir.

Deməli, H.Əliyev ona qədər mövcud olan və daha çox Azərbaycanın qəsb olunmuş milli istiqlalının bərpasını hədəfləyən Azərbaycan milli ideyasını, "Azərbaycan fikri"ni, "Azərbaycanizm" ideyasını Azərbaycanın bütövlüyünü və dövlətçiliyini qorumaq şüarı ilə azərbaycançılıq kimi formulə etmişdi. Fikrimizcə, bu baxımdan 1920-1991-ci illərdə Azərbaycanın milli istiqlalını hədəfləyən azərbaycançılıqla, çağdaş dövrdə Azərbaycanın bütövlüyünü və milli birliyini qorumaq üçün irəli sürülən azərbaycançılıq taktiki baxımdan müəyyən qədər fərqli məna kəsb etsə də, bütövlükdə hər iki halda ümumi məqsəd, ümumi ideya Azərbaycanın milli və müstəqil varlığıdır.

4.2.2. Türkçülük və azərbaycançılıq: alternativlik və eynilik kimi

Hazırda Azərbaycan milli ideologiyası ilə bağlı mübahisəli məsələlərdən biri də türkçülük, islamçılıq və müasirlik "üçlüy"ü, xüsusilə türkçülük ilə azərbaycançılığın nə dərəcədə uzlaşdırılması və ya da uzlaşdırılmamasıdır. Başqa sözlə, hazırda nədən "üçlüy"ün deyil, azərbaycançılığın milli ideologiya olması və belə olduğu təqdirdə, azərbaycançılığın həmin ideyalara münasibəti ilə bağlı birmənalı olmayan fikirlər vardır. Ümumiyyətlə, hazırda milli ideologiya kimi irəli sürlüən azərbaycançılığın "üçlüy"ə, xüsusilə türkçülüyə münasibəti məsələsində Azərbaycan alimləri arasında müəyyən fikir ayrılıqları vardır. Bu baxımdan azərbaycançılığı milli ideologiya kimi qəbul etməklə yanaşı, konkret bu məsələyə münasibətdə Azərbaycan ideoloqlarını iki qrupa: 1) azərbaycançılığın şəriksiz liderliyini irəli sürüb türkçülüyü tarixə qovuşmuş, hətta ona bir növ alternativ kimi qələmə verənlərə (Ə.Daşdəmirov, R.Mehdiyev, S.Xəlilov, İ.Məmmədzadə və b.); 2) azərbaycançılıq və türkçülük ideyalarının sinergizmindən çıxış edənlərə (Ə.Tağıyev, N.Şəmsizadə, H.Həsənov, Y.Türkel, R.Əhmədli, D.İsmayılov və b.) ayırmaq olar.

Azərbaycançılıq və türkçülüyün bəzən bir-birinə zidd, bəzən də birləşdirici ideyalar kimi tədqim olunmasının kökünü artıq 20 ildən çox müstəqil olmağımıza baxmayaraq, sözün həqiqi mənasında azad şəkildə düşünə bilməməyimizdə axtarmalıyıq. Bu isə o deməkdir ki, siyasi-hüquqi və maddi-cismani cəhətdən azadlıq əldə etsək də, hələlik mənəvi-ruhi baxımdan müstəqilliyi, milliliyi sözün həqiqi mənasında qavraya bilməmişik. Məhz bunun nəticəsidir ki, siyasi-hüquqi baxımdan bizlər özümüzü, cəmi iki il (1918-1920) ömür sürmüş Azərbaycan Cümhuriyyətinin xələfi elan edib, 70 il yaşamış

Azərbaycan Sovet Sosialist Respublikasından (Azərbaycan SSR) imtina etməyimizə baxmayaraq, bəzi hallarda kifayət qədər ziddiyyətli hallarla qarşılaşırıq.

Ümumiyyətlə, əgər bu gün söhbət "türkçülük" və "azərbaycançılıq" arasındakı fərqlərdən və oxşalıqlardan gedirsə, onda məntiqi olaraq Azərbaycan Respublikası Azərbaycan Cümhuriyyətinin, yoxsa Azərbaycan SSR-nin varisi olması məsələsi də gündəmə gəlməlidir. Çünki bu varislik bir çox məsələlərdə, o cümlədən türkçülüklə bağlı mənəvi-ideoloji sahədə sözdə qəbul edilsə də, əməldə bunun tamamilə əksi ortaya qoyulur. Belə ki, özünü Azərbaycan Cümhuriyyətinin xələfi elan edən bir respublika bəzi hallarda Cümhuriyyətin başlıca ideoloji prinsiplərinə (türk dili, türk milləti və s.) deyil, daha çox SSRİ ideoloqlarının Azərbaycan SSR üçün müəyyənləşdirdiyi ideyalara (Azərbaycan milləti, Azərbaycan dili və s.) sahib çıxmışdır. Çox təəssüflər olsun ki, yalnız millət və dilin adı ilə bağlı deyil, ərazi məsələsində də Azərbaycan Respublikası eyni yolu tutmuşdur. Ən düşündürücü hal odur ki, bu günə qədər nədən Azərbaycan Cümhuriyyətinin ərazisinin deyil, məhz Azərbaycan SSR ərazisinə varis çıxmağımzla bağlı doğru-dürüst fikirlərə, açıqlamalara rast gələ bilmirik. Bu baxımdan millət və dilin adı problemi ilə yanaşı, ərazi məsələsində də varislik problemi gündəmə gətirilməlidir [81[a], 436-437].

Azərbaycançılığın əsas ideoloqlarından akademik **Ramiz Mehdiyev**in Azərbaycan milli ideologiyası ilə bağlı mülahizələrindən belə çıxır ki, bu günün milli ideologiyası, əsasən tarixə qovuşmuş, ümumi və mücərrəd mahiyyət daşıyan türkçülük (türk birliyi, türk həmrəyliyi və s.) deyil, "ölkədə yaşayan bütün etnik qrupları və millətləri ümumdövlət mənafeləri və dəyərləri əsasında birləşdirmək ideyasının verballaşdırılması kimi 1992-1993-cü illərdə xüsusilə geniş yayılan şovinist və separatçılıq əhval-ruhiyyəsinə qarşı mübarizə ideyası kimi meydana gəlmiş" [140, 458] azərbaycançılıqdır. O yazır: "Yeni demokratik dövlətin əsas

prinsiplərinin, vətəndaş cəmiyyəti ünsürlərinin, yeni iqtisadi sistemə, tarazlı xarici siyasətə istiqamətlənmiş dünyəvi, hüquqi dövlətin prioritetlərinin təşəkkülünün, yeni demokratik təsisatların qurulması, yeni siyasi birliklərin yaradılması, siyasi plüralizmin inkişafı və milli ideologiyanın əsas ünsürlərinin tədricən formalaşması prosesinin ağlasığmaz dərəcədə mürəkkəb şəraitdə getməsinə baxmayaraq, Azərbaycan dövlətçiliyinin milli identifikasiyasının başlıca ehkamları məhz həmin dövrdə formalaşmışdır" [139, 22-33].

Akdemik hesab edir ki, "azərbaycançılıq" anlayışının sosial-etnik tərkibi Azərbaycan ərazisində yaşayan bütün xalqları əhatə etdiyi halda, "azərbaycanlılılq" məfhumu isə bir milləti ifadə edir [143, 191]. Bu məsələnin də bir qədər dəqiqləşdirilməsinə ehtiyac var. Belə ki, "azərbaycanlılıq" "türkiyəlilik", "gürcüstanlılıq", "rusiyalılılq", "iranlılıq" və başqaları kimi əslində konkret bir etnik milləti, məsələn yalnız türkləri nəzərdə tuta bilməz. Əslində "azərbaycanlılıq" başda türklər olmaqla, Azərbaycanda yaşayan bütün etnosları siyasi millət anlamında ifadə etmişdir. Ancaq o başqa məsələdir ki, Azərbaycan əhalisinin böyük əksəriyyəti türklərdən ibarət olduğu üçün, "azərbaycanlılıq" anlayışı ilk növbədə onlara şamil edilir. Eyni zamanda, türklər azlıq təşkil edən etnik qruplardan fərqli olaraq, "müsəlman" məfhumu kimi "azərbaycanlı" və "azərbaycanlılıq" anlayışlarını daha çox mənimsəmiş, "azərbaycanlı" olmaqda da elə bir zorluq çəkməmişlər. Bunu, bugünkü vəziyyət də bir daha ortaya qoyur. Belə ki, hazırda Azərbaycan türkləri siyasi mənsubiyyət olan "azərbaycanlı" anlayışını etnik mənada da qəbul edirlər.

Ümumiyyətlə, R.Mehdiyev bir tərəfdən ötən əsrin əvvəllərində yaranmış azərbaycançılığı türkçülüyün konkret təzahürü kimi qiymətləndirməklə yanaşı [143, 196], digər tərəfdən çağdaş Azərbaycan dövlətçiliyinin ideologiyasının əsas ünsürləri kimi türkçülük və islamçılığın olması fikri ilə razılaşmır [143, 198]. Onun fikrincə, artıq türkçülük öz missiyasını yerinə yetirərək, öz

yerini Azərbaycan milli ideyasına, yaxud da azərbaycançılığa verdiyi üçün ondan bir varis kimi, ən yaxşı halda isə hazırda bütün türkdilli xalqların mədəni və iqtisadi əməkdaşlığı, bir-birinə yaxınlaşması mənasında danışmaq olar [143, 200]. Beləliklə, R.Mehdiyevə görə, türkçülük əsasında azərbaycançılıq-Azərbaycan milli ideyası yaranmışdı ki, Azərbaycan Cümhuriyyətinin süquta uğraması ilə SSRİ dövründə müstəqillik ideyaları boğulmuşdu. Ancaq müstəqilliyimizin bərpası ilə Azərbaycan milli ideyası yenidən dirçəlib ki, "bu gün Azərbaycan Konstitusiyası Azərbaycan milli ideyasının rəsmi ifadəsidir" [142, 20].

Deməli, akademik azərbaycançılıq ideologiyasının yaranmasında türkçülüyün müstəsna rolunu inkar etməsə də, bu gün türkçülük ideyasının Azərbaycan Respublikası üçün yararlı olmadığı, əksinə bir sıra problemlər yarada bilməsi qənaətindədir. Xüsusilə, türkçülüyün etnik azlıqlar tərəfindən də qəbul edilməzliyini önə çəkən R.Mehdiyevin fikrincə, dövlətçilik ideologiyası baxımından da ən doğru seçim azərbaycançılıqdır. Bu mənada Heydər Əliyevin azərbaycançılıq və dövlətçiliyi milli ideologiyanın iki ən əsas tərəfi kimi göstərməsini bir medalın iki üzü kimi qiymətləndirən [141, 413] akademikə görə, "azərbaycançılıq ideologiyasında vahid polietnik millətin Azərbaycan dövlətçiliyinin yaradılmasına dair maraqlarının ümumiliyi, demokratiyanın, sərbəst iqtisadiyyatın, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizəsinin məqsədləri öz əksini tapmışdır. İdeologiya kimi azərbaycançılıq müstəqil Azərbaycanın fəlsəfi-sosial doktrinasının sosio-mədəni və etnik-geosiyasi cəhətlərini özündə birləşdirmişdir" [140, 460].

Əlbəttə, akademikin bu gün nədən türkçülüyün deyil, onun təzahür forması olan azərbaycançılığın Azərbaycan milli ideologiyası ilə bağlı fikirlərində xeyli həqiqət vardır. Ancaq bununla yanaşı hesab edirik ki, azərbaycançılıqla bağlı etniklər məsələsinin həddən artıq qabardılması, bunun əvəzində bu dövlətin

qurucusu olan Azərbaycan türklərinin mövqeyinin azaldılması düzgün deyildir. Yəni Azərbaycan milli ideologiyası ilə bağlı turklər və etniklər arasında bərabərlik qoyanda da, bunu birtərəfli deyil, hərtərəfli şəkildə etmək lazımdır. Bu mənada, "Türk" anlayışının (türk milləti, türk dili və s.) Əsas Qanunda öz əksini tapmaması bir tərəfə qalsın, hətta Azərbaycan türklərinin milli kimliyini və dilini bəzən bu mənada ifadə etmələrinin birmənalı qarşılanmaması tamamilə yanlışdır. Artıq bu bir millətin təbii haqqı olduğu milli kimliyinin və milli dilinin üstündən xətt çəkilməsidir. Başqa sözlə, müstəqil bir dövlətin yaranmasında müstəsna rol onyayan və ona müstəqil bir ideya bəxş edən türkçülüyü indi həmin dövlətçiliyə zidd kimi görmək doğru deyildir. Bu mənada, Azərbaycan nə qədər çoxetnoslu bir dövlət olursa-olsun, onun əsas sütununu ən azı 2 min ilə yaxındır ki, Azərbaycan türkləri təşkil etmişdir və bu gün də belədir. Ona görə də, azərbaycançılıqla bağlı hər bir məsələdə Azərbaycanın çoxetnoslu olması faktının şişirdilməsi, xüsusilə azsaylı etniklərin maraqlarının nəzərə alınmasının ifratlaşdırılması və bunun fonunda türkçülüyün tamamilə arxa plana çəkilməsi, yaxud da şovinizm adı verilərək dövlətçiliyə təhlükə kimi qiymətləndirilməsi kökündən yanlışdır.

Çox təəssüflər olsun ki, bəzi Azərbaycan alimləri (Ə.Daşdəmirov, Z.Quluzadə və b.) bunu, yəni türkçülüyün Azərbaycan dövlətçiliyinin tarixində mühüm rol oynamasını qəbul etmələrinə baxmayaraq, fikrimizcə, yenə də subyektiv yanaşamlardan çıxış edirlər. Məsələn, Azərbaycan filosofu, əməkdar elm xadimi Zümrüd Quluzadənin fikrincə, "Azərbaycan ideologiyası"nın yaranmasında qafqazdilli, türkdilli və farsdilli etnoslardan təşəkkül tapan Azərbaycan xalqı mühüm rol oynamışdır [282, 55-56]. Hətta, Azərbaycan tarixçiləri Fəridə Məmmədova və İqrar Əliyev Azərbaycan xalqının formalaşmasında əsas rolun türklərə deyil, uyğun olaraq qafqazdilli və irandilli etnoslara məxsus olduğunu iddia edirlər [283, 719].

Fikrimizcə, Azərbaycanın çoxetnoslu dövlət (irandilli, qafqazdilli, türkdilli) olması ilə bağlı məsələdə də dəqiqləşdirmələr aparmağa ciddi ehtiyac var. Əvvəlla, "çoxetnoslu" anlayışı dedikdə nə nəzərdə tutulur, buna aydınlıq gətirmək lazımdır. Doğrudur, Azərbaycanda türklərlə yanaşı, türk olmayan etnik qruplar da var, artıq neçə əsrlərdir birgə yaşayırlar. Biz etnik mənşəyi tarix elmində mübahisə obyekti olan ancaq bizim tərəfimizdən də türk hesab olunan xalqları (mannalılıar, albanlar və b.) nəzərə almadan belə deyə bilərik ki, ən azı 2500 ilə yaxındır türklər Azərbaycanda say çoxluğu və dövlət yaratmaq məsələsində həmişə əsas millət olmuşlar. Bunu, Dədə Qorqud boylarından tutmuş bir çox yerli və xarici mənbələr də təsdiq edirlər. Məsələn, 7-ci əsr ərəb mənbəsində Azərbaycanın bir türk olması və qədimdən burda türklərin yaşaması açıq şəkildə ifadə olunmuşdur. Həmin mülahizəni bir neçə əsr sonrakı fars mənbəsi də eynilə təsdiq edir. Biz burada xüsusilə ərəb və fars mənbələrini misal gətiririk ki, onlar türklərdən sonra bu bölgə ilə daha çox təmasda olublar.

Deməli, ən azı mübahisə doğurmayan 2500 illik bir dövrdə türklər Azərbaycanın əsas yaşayanları olublar. Bunun məhz belə olmasını eramızdan əvvəl yaranamış Skif çarlığı, Aran çarlığı, Xəzər çarlığı, bizim eramızda yaranmış Sacilər, yenidən Xəzər imperiyası, Sacilər, Şirvanşahlar, Azərbaycan Atabəyləri, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Azərbaycan türk xanlıqları, Qacarlar və başqlarının varlığı da açıq şəkildə təsdiq edir.

Bu o deməkdir ki, "Azərbaycan çoxetnoslu ölkədir" anlayışı bu ərazidə sayca çoxluq təşkil edən türklərin azsaylı etnik qurplarla birgə yaşaması mənasında başa düşülməlidir. Yəni "Azərbaycan çoxetnoslu ölkədir" anlayışı bütün etnosların Azərbaycanda bərabər olması anlamını əks etdirmir. Ümumiyyətlə, "çoxetnoslu" anlayışının özünə sayı bir neçə mindən çox olmayan udinləri, buduqları, cekləri də sayca onlardan çox olan talışları, kürdləri, ləzgiləri, tatları da aid

etmək olar. Ancaq ümumilikdə ölkə əhalisinin 90 faizə yaxınını təşkil edən türkləri say etibarilə nə udinlər, nə ceklər, nə talışlar, nə ləzgilər, nə də ki tatlarla müqayisə etmək doğru olmazdı.

Deməli, "Azərbaycan çoxetnoslu ölkədir" anlayışındakı çoxetnosluluq sayca bərabərliyi deyil, sadəcə burada çoxluq təşkil edən türklərlə yanaşı, azsaylı etnik qrupların olmasını özündə əks etdirir. Çox maraqlıdır ki, bəzən "Azərbaycan çoxetnoslu ölkədir" anlayışı ilə yanaşı, "Azərbaycan çoxmillətli ölkədir" sözündən də istfiadə olunur. Halbuki "çoxmillətli" anlayışı "çoxetnoslu" sözü ilə müqayisədə daha ciddi məna kəsb edir. Çoxmillətli ölkə o deməkdir ki, Azərbaycanda türklərlə yanaşı, sayca ona bərabər başqa millətlər də yaşayır. Bu, doğru deyildir. Çünki bu ərazidə Azərbaycan türkləri ilə yanaşı, yalnız azsaylı etnoslar və milli azlıqlar yaşayırlar. Millət və etnos arasında isə kəskin şəkildə fərq vardır. Hər bir etnosun millət olması üçün mühüm şərtlər vardır ki, həmin şərtlər daxilində yalnız Azərbaycan türkləri buna aiddirlər. Ancaq Azərbaycan türkləri bu dövlətdə digər azsaylı etnik qruplara və milli azlıqlara heç bir ayrı-seçkilik qoymadığı üçün onların hamısının vahid Azərbaycan milləti adını daşıyır. Bu baxımdan, Azərbaycanda çoxmillətli anlayışının heç birmənası yoxdur. Çünki Azərbaycandakı müxtəlif etnoslar birləşərək vahid Azərbaycan millətini (azərbaycanlı, azərbaycanlılıq) formalaşdırmışdır.

İkincisi, "Azərbaycan çoxmillətli ölkədir" dedikdə, burada yaşayan başqa millətlərin nümayəndələri-milli azlıqlar (rus, gürcü, ukraynalı və b.) nəzərdə tutulursa, bu da doğru deyildir. Çünki Azərbaycanda yaşayan rus, ukrayna, gürcü millətlərinin nümayəndələri milli azlıq təşkil edirlər və onlara görə, Azərbaycanı çoxmillətli adlandırmaq da yanlışdır. Örnək olaraq deyə bilərik ki, Azərbaycan unitar dövlətdir, çünki burada yaşayan əhalinin əksəriyyəti türklərdir. Ancaq İsevçrə konfederasiyadır, çünki burada almanlar və fransızlar bərabər şəkildə yaşayır və bu dövlətdə hər iki millətin dili, mədəniyyəti

eyni şəkildə öz əksini tapmışdır. Eyni sözləri federasiya olan Rusiya haqında da demək olar. Əslində Azərbacyan unitar dövlət olduğu halda, onu çoxmillətli ölkə kimi qələmə vermək məntiqə uyğun gəlmir. Bu mənada, Azərbaycana münasibətdə "çoxetnoslu" anlayışının ciddi izaha ehtiyacı olduğu halda, "çoxmillətli" terminindən istifadə olunmasını isə qətiyyən doğru hesab etmirik.

Yeri gəlmişkən, bəzən Azərbaycan xalqı" anlayşı ilə yanaşı, "azsaylı xalqlar" anlayışından da tez-tez istifadə olunur. Bundan belə nəticə çıxır ki, Azərbaycanda iki cür xalq var: 1) Azərbaycan xalqı; 2) azsaylı xalqlar.

Fikrimizcə, xalq anlayışının tərkibinə müxtəli etnoslar (çoxetnosluluğu vahid şəkildə ifadə etmək üçün) daxil olduğu üçün, yalnız Azərbaycan xalqı anlayışından istifadə olunmalıdır. Əks təqdirdə belə çıxır ki, "Azərbaycan xalqı" dedikdə türklər nəzərdə tutulur, azsaylı xalqlar dedikdə isə türk olmayan etnoslar. Halbuki bir ölkədə işlədilən xalq anlayışına bütün etnoslar daxildilər. Yəni "Azərbaycan xalqı" anlayışının tərkibinə türklərlə yanaşı, türk olmayan azsaylı etnoslar (talışlar, ləzgidlər, tatlar, kürdlər və b.), eyni zamanda burada yaşayan milli azlıqlar (rus, gürcü və b.) aiddirlər. Bu mənada, fəlsəfə doktoru Rövşən Hacıyevin o fikri ilə razılaşırıq ki, Azərbaycan xalqının formalaşmasında respublikamızda yaşayan bütün etnosların az və ya çox dərəcədə rolu olmuşdur: "Aydındır ki, xalqımzın vahid Azərbaycan türkcəsində danışması gerçəkliyi dövlətin formalaşması prosesində sayca üstünlük təşkil edən yerli türk etnosunun aparıcı rola malik olması gerçəkliyindən xəbər verir" [96, 156].

Azərbaycan milli ideologiyasını "çoxentoslu" yöndən şərh edən akademik **Əfrand Daşdəmirov** da hesab edir ki, azərbaycançılıq ideologiyasından və onun türkçülüyə münasibətindən bəhs edərkən Azərbaycanın çoxetnoslu olması nəzərə alınmalıdır. Onun fikrincə, Azərbaycan ideyasının özünə-

məxsusluğu daha çox Azərbaycan etnikliyinin təbiətilə şərtlənir ki, Azərbaycan mədəniyyətinin də meydana çıxmasında Qafqaz, Türk və İran xalqlarının mənəvi sərvətləri, eləcə də İslam mədəniyyəti mühüm rol oynamışdır [265, 11]. Doğrudur, Ə.Daşdəmirov öncə, Azərbaycan milli ideyasının yaranmasında Qafqaz və İran xalqları ilə müqayisədə İslam və Türk komponentlərinin üstünlüyünü etiraf edir. O, əvvəlcə qeyd edir ki, milli tariximizin 70 ildən çox davam etmiş SSRİ dövründə ən çox Türk və İslam komponentlərinin milli şüurdan sıxışdırılması, deformasiyaya uğraması nəticəsində mədəniyyətin etnik potensialı azalmışdır: "Amansız siyasi repressiyalara, İslam dünyasından, türk əlaqələrindən və dəyərlərindən təcrid olunma şəraitinə baxmayaraq, azərbaycanlılar ibrətamiz inadkarlıq nümayiş etdirərək, öz mədəniyyətlərinin tarixi potensalını qoruyub saxlaya bilmiş, sovet cəmiyyətinin mürəkkəb syiasi, sosial-iqtisadi şəraitinə uyğunlaşmışlar. Mədəniyyətin bu və ya digər dərəcədə qadağalara məruz qalmış İslam və Türk komponentləri o dövrdə müdafiə reaksiyasının başlıca simvolları kimi əhəmiyyət kəsb edir, azərbaycanlılar bunlarda öz milli hisslərini görür, onlara indikativ məna verib öz identikliyini qururdular" [72, 127]. Akademikə görə xüsusilə türk, türksevərlik motivləri həmişə azərbaycanlıların milli mənlik şüuruna, milli hisslərinə yaxın, doğma olub. Onun fikrincə, bu baxımdan bunun təcəssümünü azərbaycanlıların Türkiyədə, onun xalqında, mədəniyyətində, dilində axtarmaları təsadüfi deyildir: "Buna görə də türk həmrəyliyi, türk xalqı ilə dostluq, qardaşlıq ideyaları münbit zəminə düşərək ermənilərlə qarşıdurmada, dövlətçiliyin, müstəqilliyin möhkəmləndirilməsi uğrunda mübarizədə etnosəfərbəredici rol oynamışdır" [72, 139]. O daha sonra yazır: "Bütöv bir dövr ərzində türkçülük ideyası tarixi köklərə qayıdışın təcəssümü olmuş, İslam fəlsəfəsi və ideologiyası isə azərbaycanlıların formalaşmaqda olan milli

şüurunun və mənlik şüurunun, mənəvi-əxlaqının bünövrəsi rolunu oynamışdır" [72, 154].

Maraqlıdır, akademik türk ideyasının Azərbaycan xalqının, onun dövlətinin yaranmasında mühüm rolunu etiraf etməklə yanaşı, ancaq indiki zamanda onun əhəmiyyətini olduqca azaldır. Eyni zamanda, o, SSRİ dövründə Azərbaycan türklərinin milli mənlik şüurunun zədələnməsini, demək olar ki, nəzərə almaq istəmir və bu zaman yuxarıdakı fikirlərinə zidd mülahizələr səsləndirir. Məsələn, yuxarıda türksevərliyin, türklüyün Azərbaycan xalqına doğma və yaxın olduğunu yazan akademik daha sonra iddia edir ki, ötən əsrin əvvəllərində "türk" etnonimi şüura kifayət qədər möhkəm hopmamışdır: "Hər halda, 30-cu illərin ikinci yarısında inzibati yolla, "yuxarıdan aşağıya" "türk" etnoniminin "azərbaycanlılar" etnonimi ilə əvəz olunması, məlum olduğu kimi, elə bir müqavimətə rast gəlmədi. Bundan əlavə, "türk" adı tamamilə unudulmasa da, hər halda, tarixi yaddaşın periferik qatına "endi". Bu isə, hər necə olsa, milli mənlik şüurunun həmin ada etinasızlığından xəbər verir" [72, 141]. Çox qəribədir, "türk" adı türk olan bir millət üçün hansı mənada etinasız ola bilər? Eyni zamanda, necə oldu ki, dünənə qədər "azərbaycanlı" anlayışını nadir hallarda işlədən bir millət üçün bu ad qısa bir zamanda kütləvləşdi və doğmalaşdı?!

Fikrimizcə, azərbaycançılığın bu cür əsaslandırılmasının heç bir məntiqi yoxdur. Çünki bəlli olduğu kimi, "türk" etnoniminə qarşı qəti hücum başlayarkən (1937-1938-ci illər) "müqavimətə rast gəlinməməsi"nə səbəb Azərbaycan türklərinin milli kimliklərinə və milli dillərinə biganə olmaları, yaxud da onların şüurunda bu amillərin kifayət qədər hopmaması ilə deyil, 1920-ci il 27 aprel işğalından ötən 16-17 il ərzində milli aydınlarının 100-də 90 faizinin ya güllələnməsi, ya da sürgünə göndərilməsi ilə bağlı olmuşdur. Yəni işğaldan sonrakı dönəmdə türklüyə, milliliyə xidmət edənlərə qarşı bu cür amansız repressiyalardan sonra, Azərbaycan türklərinin "yuxarıdan

aşağıya" "türk" etnoniminin "azərbaycanlılar" etnonimi ilə əvəz olunmasının müqavimətsiz baş verməsini söyləmək heç bir oybektivliyə əsaslana bilməz. Üstəlik, akademikin türk etnonimi ətrafında baş verənləri xalqın milli mənlik şüurunun həmin ada etinasızlığı ilə bağlaması, sözün açığı başa düşülən deyildir. Əgər Azərbaycan xalqının milli mənlik şüurunda "türk" adına etinasızlıq var idisə, o zaman nədən Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ü.Hacıbəyli, N.Yusifbəyli, M.Ə.Rəsulzadə, Ə.Topçubaşov və başqaları 19-cu əsrin sonu – 20-ci əsrin əvvəllərində türklük davasını aparmış, 1918-ci ildə qurulan Azərbaycan Cümhuriyyətinin dilini türk dili elan etmişlər?! Üstəlik, unutmaq olmaz ki, 1920-ci ildə Sovet Rusiyası qoşunlarının birbaşa hərbi müdaxiləsi ilə süquta uğradılmış Azərbaycan Cümhuriyyətinin yerində yaradılmış Azərbaycan SSR-nin rəhbərləri və həmin dövrdə yaşamış ziyalıları başda N.Nərimanov olmaqla, bir müddət türk kimliyinə və türk dilinə birmənalı şəkildə sahib çıxmışlar. Ona görə "bir müddət" deyirik ki, artıq həmin vaxt ərzində milli mənlik şüurunun daşıyıcılarının əksəriyyəti məhv edildi; repressiyaya uğramamış çox az bir qisim ziyalılar baş verənlərlə "razılaşmalı" oldular. Bu baxımdan Azərbaycan türk etnoniminin "azərbaycanlılar"la əvəz olunmasının "müqavimətsizlik" və milli mənlik şüurunun etinasızlığı ilə bağlamaq nəinki ağlabatan deyildir, bu elmi obyektivlikdən çox uzaqdır.

Maraqlıdır ki, akademik xalqın təbii istəyilə milli mənlik şüurunda yer tapan "türk" etnoniminə münasibətdə etinasızlıqdan bəhs etdiyi halda, "azərbaycanlı" etnoniminin "kütləvi mənlik şüuruna" yeridilməsini yanlız inzibati-amirlik sisteminin siyasi-ideoloji amilləri ilə deyil, zamanca üst-üstə düşən mədəni inqilab, sənayeləşmə proseslərinin etnososial nəticələrilə əlaqələndirir. Hətta, Ə.Daşdəmirovun fikrincə, nəticə etibarilə bu və ya digər etnonimin (türk, azərbaycanlı və b.) necə və nə məqsədlə yayılması, qərarlaşması deyil, vacib məsələ xalqın əsas kütləsi tərəfindən bu etnonimin qəbul edilməsi, yaxud rədd olunmasıdır:

"Bu baxımdan, "azərbaycanlılar" etnonimi, onun "müəllifləri"nin siyasi niyyətlərindən asılı olmayaraq Azərbaycan etnosunun şüuruna, demoqrafik toplumun psixikasına möhkəm daxil olmuşdur. Və bu real etnik vəziyyəti dəyişmək cəhdləri insanlar üzərində, onların mentallığı, mənəvi mənliyi üzərində zorakılıqdan başqa bir şey deyildir" [72, 141].

İnzibati-amirlik sisteminin siyasi-ideoloji amilləri ilə etnonimin adında nə cür dəyişikşliklərin baş verməsi barədə geniş müzakirə açmadan, qeyd etmək istərdik ki, burada akademiklə razılaşmadığımız əsas məqam vurğunun etnonimin necə və nə məqsədlə yayılmasının deyil, etnonimin xalq kütləsi tərəfindən iqrar və ya inkarının üzərinə düşməsi məsələsidir. Daşdəmirovun fikrindən belə anlaşılır ki, bir millətin məqsədcə, mənaca ona yaxın və doğma olan türk etnonimini deyil, işğalçılıq dövründə "yuxarıdan aşağıya" ona zorla qəbul etdirilən istənilən etnonimi, o cümlədən "azərbaycanlı" kimliyini qəbul etməsi təbiidir. Daşdəmirovun məntiqi ilə gərək Azərbaycan türkləri 19-cu əsrdə çar Rusiyası tərəfindən onun milli mənlik şüuruna yeridilən "tatar" etnonimindən də imtina etməməli idilər. Axı unutmamalıyıq ki, bir əsr bundan əvvələ qədər "yuxarıdan aşağıya" zorla qəbul etdirilən assimilyasiya nəticəsində dilimiz, millətimiz, ədəbiyyatımız, mədəniyyətimiz, məktəblərimiz "tatar" adlandırılırdı. Hətta, çarizmin bu "yuxarıdan aşağıya" yönəlmiş müstəmləkəçilik siyasəti nəticəsində bəzi ziyalılarımız da "tatar" etnonimindən istifadə edirdilər. Ancaq 1900-1920-ci illərdə Ə.Hüseynzadənin, Ə.Ağaoğlunun, M.Ə.Rəsulzadənin, N.Yusifbəylinin və başqalarının müəyyənləşdirdikləri milli ideologiya nəticəsində Azərbaycan xalqı bu dəfə "yuxarıdan aşağıya" məcburi siyasətlə deyil, əksinə "aşağıdan yuxarıya" təklif edilən təbii istəklə, qısa bir müddətdə türk etnonimi adına qovuşmuşdu. Halbuki çar Rusiyası və SSRİ ideoloqları uyğun olaraq "tatar" və "azərbaycanlı" kimlikləri formalaşdırmaq üçün onillərlə vaxt sərf etməli olmuşlar.

Bu baxımdan hesab edirik ki, Ə.Daşdəmirov azərbaycançılıq və türkçülük məsələsinə qismən obyektiv şəkildə yanaşmış, əsasən subyektiv mövqedən çıxış etmişdir. Məhz məsələyə subyektiv yanaşmanın nəticəsidir ki, akademikin fikrincə, çağdaş dövrdə Azərbaycan xalqı türk ideyasına deyil, "azərbaycanlı" etnoniminə sahib çıxmaqla mühafizəkarlıq etmişdir: "Türk ideyası bəlkə ona görə Azərbaycan mənlik şüurunu inhisara ala, çoxməsaməli Azərbaycan etnikliyini tamamilə özünə hopdura bilmədi ki, Azərbaycanın etnik mədəniyyəti müasir mərhələdə də yetərincə möhkəm mühafizəkarlıq nümayiş etdirdi. Görünür, elə buna görə etnonimlə, dillə manipulyasiya baş tutmamışdır" [72, 142]. Birincisi, türklük ideyası heç zaman qeyri müəyyən "Azərbaycan mənlik şüurunu" inhisara almağa cəhd göstərməmişdir. Çünki Azərbaycanda bütün zamanlarda, əsasən türk mənlik şüuru hökm sürmüşdür. Təkcə bir faktı yenidən xatırlatmaq yerinə düşərdi ki, 7-ci əsrə aid tarixi məlumata görə, Xəlifə Müaviyənin müşaviri Azərbaycanın qədimdən türklər ölkəsi olmasını söyləmişdir. İkincisi, Azərbaycan türklərinin digər etnik qrupları tamamilə özünə hopdura bilməməsi fikrinə gəlincə, bu türk millətinin hər zaman azsalyı etnosların mədəniyyətinə, dilinə xoşgörüdən yanaşmasının, assimilyasiya düşüncəsindən həmişə uzaq olmasının bir ifadəsidir. Ancaq akademikin bütün bunları obyektiv şəkildə dəyərləndirmək əvəzinə, bunu qeyri-müəyyən Azərbaycan etnik mədəniyyətinin türk ideyası üzərində qələbəsi kimi qələmə verməsi tamamilə yanlışdır. Eyni zamanda, Ə.Daşdəmirovun o fikrini də doğru saymırıq ki, zaman keçdikcə türksevərliyin millət fövqündə duran fenomen olduğu dərk edilmiş, bununla da "bir millət – iki dövlət" ideyası Azərbaycan cəmiyyətində geniş müdafiə olunmamışdı [72, 139]. Bizcə, tamamilə əksinə Azərbaycan türklərinin məhz müstəqil türkçülüyü müdafiə etmələrinin, Türk birliyinə isə daha çox mənəvi baxımdan yanaşmalarının nəticəsidir ki, nəinki "bir millət – iki dövlət", digər Türk dövlətləri ilə də ən azı mənəvi-mədəni birlik ideyasına həmişə

dəstək veriblər və bu gün də verirlər. Əlbəttə, bu məsələyə münasibətdə bir qədər fərqli düşünənlər ola bilər. Ancaq bu heç də çoxluğun fikri demək deyildir.

Hər halda, bütün bunlardan sonra Ə.Daşdəmirov belə bir nəticə çıxarır ki, Azərbaycanın müasir ideoloji həyatında iki xətt, yaxud meyil təzahür edir: "Birinci meyil – azərbaycançılıq ideyasının ümumtürk, ümumislam ideyasında əriməsinə yönəlmişdir. İkinci meyil – türk kökləri, Qafqaz reallıqları, milli-demokratik meyillər, islam qaynaqları da daxil olmaqla, Azərbaycanın çoxlaylı etnik mədəniyyətini birləşdirən azərbaycançılıq formulunu təsbit edir" [72, 160]. Yenə də anlaşılan deyildir ki, azərbaycançılıq türkçülük və islamçılığın içində əridilir, yaxud da əksinə poses baş verir?! Ümumiyyətlə, axı konkret kimlər və hansı məqsədlə azərbaycançılığı türkçülük və islamçılığın içində əridirlər? Bizə elə gəlir ki, burada söhbət "əritməkdən" deyil, bu ideyaların bir-birilə uzlaşmasından, ortaq nöqtələrin tapılmasından getməlidir. Ən əsası unutmaq lazım deyildir ki, müstəqil Azərbaycan ideyası, indiki anlamda azərbaycançılıq "üçlüy"ün əsasında meydana çıxmış və Azərbaycan Cümhuriyyətinin yaranması ilə nəticələnmişdir. Bu baxımdan, fəlsəfə elmləri doktoru Dilqəm İsmayılovun təbrincə desək, türkçülük azərbaycançılığı qoruyan prinsipdir: "Azərbaycanın gələcəyini bu prinsipi yüksək tutan xalqımız qura bilər. Həm sosial, həm də coğrafi mənada azərbaycançılıq türkçülüyü tamamlayan prinsip olmalıdır. Beləliklə, bizim ideologiyamız azadlığa, dövlətçiliyə, ədalətə, türkçülüyə, azərbaycançılığa, müasirliyə və dünyəviliyə əsaslanan bir ideologiya olmalıdır" [118, 106].

Hazırda azərbacyançılıq və müasirləşmə ideologiyasını türkçülük və islamçılığa alternativ kimi görən, bu mənada onlar arasında oxşarlıqlarla yanaşı, fərqlərin göstərilməsinin zəruriliyindən bəhs edən müəlliflərdən fəlsəfə elmləri doktoru, prof. **İlham Məmmədzadə**nin fikrincə, türkçülük və islamçılığın tərəfdarları keçmişlə indini fərqləndirmək istəmirlər: "Nəyinsə 20-

ci əsrin, hətta 90-cı illərin əvvəlində sosiumun ideoloji həyatının bir hissəsi olması heç də o demək deyil ki, o, heç bir dəyişikliyə uğramadan bugünkü Azərbaycan üçün də yarayır. Şübhəsiz, islam və türkçülük variantları bizim ideoloji həyatımızın tarixinin, identikliyimizin real hissələridir və əvvəlki kimi də bizə təsir göstərməkdə davam edəcəklər. Bununla yanaşı, bizdə mədəniyyət və tariximizin mühüm hissəsini təşkil edən digər dəyərlərimiz də mövcuddur" [155, 14]. Hazırda türkçülüyün deyil, azərbaycançılığın vacibliyini sübut etmək üçün, İ.Məmmədzadə daha sonra yazır: "Marksizm qanunlarına əsaslanaraq, bəziləri 20-ci əsrin əvvəllərinə aid ideyalardan yoğrulmuş türkçülük ideologiyasını yaratmağa və başqalarına qəbul etdirməyə cəhd göstərirlər. Guya bütün türk xalqlarını bir dövlətin himayəsi altında birləşdirmək lazımdır, qan-soy birliyi, mənşə birliyi mədəniyyətdən, siyasi və geosiyasi, iqtisadi və sosial mənafelər isə vətəndaşların seçimindən vacibdir. Belə bir sual yarana bilər ki, belə olduğu halda, söz türkçülük ideallarının dirçəldilməsindən gedəndə biz marksizm qanunlarını nədə görürük? Bu qanunlar özünü onda göstərir ki, dünyanın rasional dərk edilməsində, Azərbaycan millətinə özünün inkişaf yollarının əsaslandırılmasından çox uzaq nəsə sırınır, nəhayət, azərbaycanlıların bir hissəsinin azərbaycanlı olmaq və dost xalqlarla əlaqə saxlamaq və s. bu kimi sarsılmaz arzularına əhəmiyyət verilmir" [155, 16].

Biz də hesab edirik ki, ötən əsrdə mövcud olan ideyalardan bəhs edərkən onları indiki cəmiyyətə olduğu kimi uyğulamaq lazım deyildir. Ancaq bu o da demək deyil ki, biz Azərbaycan dövlətçiliyinin yaranmasında müstəsna rol oynayan milli ideyaları bu gün yalnız tarixin, ya da milli identikliyin hissələri kimi görməliyik. Əgər yeni dövrdə, doğrudan da, həmin ideyaları reallaşdırmaq mümkün deyilsə, ancaq onların əvəzinə irəli sürülən ideya və ya ideologiyada bu və ya digər formada varisliyi qorumaq da mütləqdir. Əks təqdirdə bizim Cümhuriyyətin nəinki mənəvi-

ruhi, hətta siyasi-hüquqi baxımdan davamçısı olmağımızın da heç bir mənası olmaz. Ən azı ona görə ki, 20-ci əsrin əvvəllərində Azərbaycan milli ideyasının təcəssümü olan üçrəngli-üçmənalı (türkləşmək, müasirləşmək və islamlaşmaq), eyni zamanda vahidliyi və bütövlüyü (milli ruhlu azərbaycançılığı) ifadə edən bayrağı ucaldan Azərbaycan Cümhuriyyəti olmuşdursa da, onu həmin əsrin sonlarında yenidən dövlət bayrağı kimi qəbul edən də biz azərbaycanlılarıq. Hər halda, bugünkü Azərbaycanın dövlət bayrağı ötən əsrin əvvəllərində təməli qoyulmuş Azərbaycan milli ideyasının – azərbaycançılığın bariz təcəssümüdür. Deməli, çağdaş dövrün tələblərinə uyğun gəldiyi iddia edilən azərbaycançılığın və müasirləşməyin təməli də məhz 20-ci əsrin əvəllərində həmin ideyaların əsasında qoyulmuşdur. Bu mənada, müasirləşməyi azərbaycançlıqla yanaşı, ayrıca bir ideologiya kimi təqdim etməyin özü də mübahisəlidir.

Fikrimizcə "üçlüy"ü, xüsusilə də türkçülüyü və onun bariz təcəssümü olan Azərbaycan milli ideyasını ("üçlük"+azər-baycançılığı) yalnız tarixin, ya da identikliyin hissələri kimi qəbul etmək doğru deyildir. Yəni burada əsas məsələ Azərbaycan xalqının (yurdaşlıq və dövlətçilik anlamında) özünəməxsus inkişaf yolunun ənəgəllənməsi deyil, bəlkə də əksinə azərbaycançılığı "üçlük", o cümlədən türkçülük əsasında daha inandırcı və etibarlı etməkdir. O ki qaldı milli ideologiyanın tərikib hisəssi olan hər hansı bir ideyaya (türkçülük, azərbaycançılıq, modernləşmə və s.) münasibətdə bəzi kənara çıxmalara, ifrata varmalara - bu həmişə olmuşdur, indi də var və gələcəkdə də olacaqdır.

Ümumiyyətlə, İ.Məmmədzadənin türkçülük və azərbay-cançılıqla bağlı fikirlərindən belə nəticə çıxarmaq olar ki, o, sonuncunun müstəqil şəkildə, yəni türkçülüklə heç bir eyniləşdirmə aparılmadan, əksinə ona alternativ bir ideya kimi formalaşmasında və inkişafında maraqlıdır. Çünki İ.Məmmədzadə də hesab edir ki, əgər Azərbaycanda türkçülük ideyası varsa, bu müəyyən mənada Türkiyə ilə etnik və ya milli qohumluqdan qaynaqlanır. Halbuki bu

qohumluq fərqləri istisna etməməlidir. Bu mənada, Heydər Əliyevin Türkiyə türkləri və azərbaycanlılar arasında əlaqələrdən danışarkən irəli sürdüyü "biz bir millət, iki dövlətik" tezisini o, belə izah edir: "Bəziləri üçün bu tezis yalnız bizim bir millət olduğumuza dəlalət edir, lakin ideologiyamız və elmimiz üçün çox əhəmiyyətli olan bu tezisin bizim iki dövlətimizin olduğu barədəki ikinci tərəfinin əhəmiyyəti bundan heç də az deyildir. Yəni bu tezis bir çox alimlərin təsəvvür etdiyindən daha dərindir. Azərbaycanda dövlət xalqın, millətin, yəni vətəndaşların taleyi üçün çox böyük məsuliyyət daşıyır. Bizim vətəndaş cəmiyyətimiz hələ yalnız təşəkkül prosesindədir, buna görə də Dövlətin ölkənin idarə edilməsi, iqtisadi problemlərin həlli ilə yanaşı, həm ictimai, həm də mədəni missiyası, məsul vəzifələri vardır. Türkiyə dövlətinin də öz vətəndaşları qarşısında məsul vəzifəsi, missiyası və s. vardır" [155, 17].

Bir sözlə, İ.Məmmədzadənin H.Əliyevin "biz bir millət, iki dövlətik" tezisi ilə bağlı fikirlərindən belə nəticə çıxarmaq olar ki, birincisi burada əsas vurğu "bir millət" anlayışına deyil, "iki dövlət" məhfumuna yönəlməlidir. İkincisi isə, "bir millət" anlayışının özü də xalqlar arasındakı oxşar və fərqli cəhətləri aşkar etmək üçün kifayət etmir. Bununla da, İ.Məmmədzadə belə nəticəyə gəlir ki, əslində türkçülük azərbaycançılığa və müasirləşməyə alternativ ideologiyadır, bu mənada ideoloqların onları birləşdirməyə çalışaraq fərqləri nəzərə almamaları doğru deyildir: "İdeoloqlarımızın elmi əsərlərinin heç birində Türkiyə və Azərbaycan millətləri arasında fərqlərə dair tədqiqata rast gəlmək mümkün deyil. Bir sözlə, türkçülük ideoloqları mədəni, sosial və siyasi fərqləri görməməyə çalışırlar. Vaxtilə bu xəstəlikdən sovet doqmatik marksizmi də əziyyət çəkmiş, inqilaba bəraət qazandırmaq, həmçinin bazar münasibətlərindən imtina etmək istəmişdir. Amma gördüyümüz kimi, bunun nəticəsi bizim üçün acınacaqlı olmuşdur" [155, 33-34].

Bizə elə gəlir ki, H.Əliyevin "biz bir millət, iki dövlətik" tezisində əsas vurğunun "bir millət", ya da "iki dövlət"in üzərinə düşməsindən asılı olmayaraq, burada vacib olanı müəyyən mənada eyni etnik mənşəyi, dili, mədəniyyəti, ədəbiyyatı, tarixi paylaşmaqla yanaşı, siyasi, iqtisadi, mədəni, hərbi və s. mənalarda da bir-birinə dəstək olmalarıdır. Şübhəsiz, bütün bunlar Türkiyə və Azərbaycan müstəqil dövlətlər kimi başqa ölkələrlə əlaqələr qurması, ya da dostluq yaratmalarına əngəl ola bilməz. Türkiyə və Azərbaycan türkləri arasında fərqlərin olması, o cümlədən türkçülük və azərbaycançılığın alternativliyi məsələsinə gəlincə, fikrimizcə, bu məsələdə də obyektivliyə əməl edilməli, yəni, yalnız mövcud gerçəkliklərdən deyil, eyni zamanda ortaq milli tarixi, mədəni, bir sözlə milli dəyərlərdən də çıxış edilməlidir.

Bu baxımdan türkçülük və azərbaycançılığın bir-birinə alternativ olması prizmasından çıxış edən gənc tədqiqatçı, fəlsəfə üzrə fəlsəfə doktoru **Əliyar Orucov**un "Azərbaycan xalqı milli özünüdərk yollarında: XIX əsrin sonu – XX əsrin əvvəlləri" monoqrafiyasında bu məsələ ilə bağlı irəli sürdüyü bəzi fikirlərlə də razılaşmırıq. Çünki Ə.Orucov bu əsərində iddia edir ki, o, milli ideologiyaya münasibətdə F.Ələkbərovdan (yəni bu kitabın müəllifindən) fərqli olaraq, türkçülüyə deyil, azərbaycançılığa əsaslanmışdır: "Tədqiqatçı alim Faiq Ələkbərovun "Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış" (I hissə) adlı monoqrafiyası mövzuya yaxınlığı ilə seçilir. Amma buna baxmayaraq həmin monoqrafiya əsasən milli ideologiya məsələlərinin tədqiqinə həsr olunmuş və həmin məsələlərə türkçülük nöqteyi-nəzərindən yanaşılmışdır. F.Ələkbərovun monoqrafiyasından fərqli olaraq, oxuculara təqdim etdiyimiz monoqrafiya da isə sırf milli özünüdərk məsələlərindən bəhs olunmuş və burada türkçülük deyil, məhz azərbaycançılıq ideologiyası önə çəkilmiş və həmin dövrdə milli özünüdərk prosesi tədqiq olunaraq, müasir dövrlə azərbaycançılıq baxımından əlaqələndirilmişdir" [174, 10]. Birincisi, bu müəllif

göstərməmişdir ki, F.Ələkbərov konkret hansı mənada milli ideologiya məsələlərinin həllində azərbaycançılığa deyil, məhz türkçülüyə əsaslanmışdır. İkincisi isə, Ə.Orucovun burada irəli sürdüyü fikrindən belə nəticə çıxsa da ki, milli ideologiya məsələsində türkçülüyə deyil, yalnız azərbaycançılığa əsaslanmaq lazımdır, ancaq onun həmin kitabının digər yerlərində türkçülüyün Azərbaycan Cümhuriyyətinin yaranmasında və milli ideyanın yaşadılmasındakı mühüm rolu dəfələrlə qeyd edilmişdir. Ə.Orucov yazır: "İslamçılıq və türkçülüyün Azərbaycanda geniş vüsət alması, son nəticədə milli azadlıq mübarizəsinin, milli oyanışın, milli mənlik şüurunun və milli özünüdərketmənin inkişafına, yüksəlişinə səbəb olmuşdu" [174, 232].

Qeyd edək ki, türkçülük və azərbaycançılığın alternativ, yoxsa eynilik təşkil etməsi, yaxud da hazırda onlardan hansının zəruri olması məsələsində bu ideyaların ortaq nöqtələrindən çıxış edən Azərbaycan alimləri Ə.Tağıyev, Ə.Abbasov, Y.Türkel, N.Şəmsizadə və başqalarıdır. Bu müəlliflər ümumilikdə türkçülük və azərbaycançılığın sinergizmindən çıxış etsələr də, bəzi məsələlərdə ziddiyyətli mövqe tuturlar. Burada həmin ziddiyyətləri göstərməklə yanaşı, onlarla razılaşdığımız və ya razılaşmadığımız məqamlara da toxunmuşuq.

Məsələn, türkçülük və azərbaycançılığın sinergizmindən çıxış edən Azərbaycan filosofu, professor **Əlikram Tağıyev**in fikrincə, türkçülük və islamçılıq əsasında yaranan və M.Ə.Rəsulzadə tərəfindən milli ideyaya çevrilən azərbaycançılıq həm etnik-türk ideyası [210, 36], "həm də bir çox milli etnik ideyaların toplusudur, çünki vətəndaşlıq ideyasıdır, Azərbaycanda yaşayan müxtəlif aborigen xalqların (türk, talış, ləzgi, tat, avar və b.) vahid dövlətinin ideyasıdır" [217, 20]. Bu məsələdə Azərbaycan filosofu ilə əsas razılaşmadığımız məqam odur ki, azərbaycançılıq ilk növbədə, türkçülüyün ifadəsidir. Ə.Tağıyev daha sonra yazır: "Vaxtilə o (azərbaycançılıq – F.Ə.)

türkçülüyün bir qolu kimi çıxış edirdisə, burada indi o, artıq türkçülüyü də özündə təcəssüm etdirir. Yəni azərbaycançılıq bir tək etnik ideya olmaqdan kənara çıxaraq arıtq dövlət ideya sahəsini də özündə birləşdirir. Hazırda azərbaycançılıq bir ideya kimi formalaşmaqdadır və o, respublikanın bütün yerli aborigen etnoslarının iradəsini ifadə edir" [217, 22]. Fikrimizcə, Azərbaycan milli ideyasının türkçülüyün bir qolu kimi çıxış etməsi aydın olsa da, ancaq türkçülüyün sonralar hansı mənada azərbaycançılığın tərkib hissəsinə çevrilməsi məlum deyildir. Yəni necə olmuşdu ki, türkçülüyün doğurduğu azərbaycançılıq sonralar türkçülüyü bir ideya xətti kimi üstələmiş, hətta onu öz içərisində "əridə" bilmişdir?! Fikrimizcə, elmi və obyektiv əsaslandırmalar, faktlar olmadan məsələnin bu cür qoyuluşu doğru ola bilməz.

Bu məsələ ilə bağlı Ə.Tağıyev başqa bir əsərində isə yazır ki, azərbaycançılığın milli ideya kimi seçilməsi heç də onun türkçülüyə qarşı qoyulması demək deyildir: "Türkçülük ümumi, bir qədər də romantik səciyyə daşıyan halda, azərbaycançılıq daha real və praktiki görünür, yerli xalqlar, xüsusən də azsaylı xalqlar üçün daha məqbul və cəlbedicidir" [213, 182]. Maraqlıdır, bəzi müəlliflər, o cümlədən Ə.Daşdəmirov, Ə.Tağıyev və başqları hansı prinsipdən çıxış edərək hesab edirlər ki, azərbaycançılığın milli ideyaya çevrilməsi türkçülüyə qarşı olmaq, yaxud da onun azərbaycançılığın daxilində "əridilmə"si kimi qiymətləndirilməməlidir? Axı belə bir qarşı-qarşıya qoyulma fikri haradan gəlmiş və bunun kökündə hansı faktorlar dayanır?! Digər tərəfdən, o türkçülük ümumi, bir qədər də romantik ola bilər ki, konkretlikdən və gerçəklikdən uzaqdır. Ancaq bunu Azərbaycandakı türkçülüyə, yəni Azərbaycan türkçülüyünə aid etmək doğru deyildir. Ən azı ona görə ki, bugünkü Azərbaycan Respbulikasının sələfi olan Azərbaycan Cümhuriyyəti məhz Azərbaycan türkçülüyü-azərbaycançılıq əsasında yaranmışdır.

Azərbaycançılıq isə ilk növbədə, türkçülüyün siyasi-coğrafi Azərbaycanda müstəqil təcəssümüdür. Ancaq milli ideologiya problemi ilə bağlı Ə.Tağıyevin o fikri ilə razılaşırıq ki, türkçülük etnik, azərbaycançlıq isə siyasi-coğrafi millətçilikdir [213, 182].

Bu mənada, hazırda əgər Azərbaycanda türkçülük varsa belə, o əsla və əsla Azərbaycanda yaşayan talışlara, ləzgilərə, kürdlərə, udinlərə, tatlara və başqa azsaylı etnik qruplara qarşı yönəlməmişdir. Əksinə, Azərbaycan türkləri həmin azsaylı etnik qruplarla əsrlər boyu barış və xoşgörü əsasında bir yerdə yaşayaraq ortaq vətəni, mədəniyyəti, adət-ənənələri paylaşmışlar. Bu gün də belədir, əbədiyyən də belə olacaqdır. Çünki M.Ə.Rəsulzadənin təbrincə desək, etnik türkçülüyün özü də mütərəqqi türkçülük olub, bütün etnoslarla bərabər yaşamağın mümkünlüyünü ifadə edir [186[a], 172].

Məhz bu faktorlardan çıxış edərək fəlsəfə elmləri doktoru **Rafail Əhmədli** də türkçülüyü pozitiv-mütərəqqi milliyyətçiliklə eyniləşdirərək hesab edir ki, hər milliyyətçiliyin öz adı olduğu kimi türk milliyyətçiliyinin də adı türkçülükdür. Onun fikrincə, bu mənada, türkçülük türk millətinin milli mənafeyini özündə əks etdirən dünyagörüşdür: "Türkçülük türk millətini, onun vətənini, dövlətini sevmək, türk millətinin birlik və bərabərliyini qorumaq, millətini yüksəltmək uğrunda əzmlə mübarizə aparmaq deməkdir" [78, 239]. Onun fikrincə, beləliklə türkçülük ideologiyası türklərə 20-ci əsrdə yaşamaq haqqı qazandıran milli dövlətlər bəxş etmişdir ki [78, 240], onlardan biri də Azərbaycan ideyasıdır: "Milli-fəlsəfi və ictimai-siyasi fikir milli özünüdərk, milli oyanışın bilavasitə nəzəri, tarixi-məntiqi ifadəsi deməkdir. Bu dövrün ən böyük mənəvi uğuru Azərbaycan ideyasının təşəkkül tapması və şüurlara aşılanması idi. Azərbaycan ideyası özündə vətənin tərəqqisi, bütövlüyü, azadlığı uğrunda mübarizə əzmini, istək və arzuları, bu yolda milli həmrəylik, milli birlik məramını ehtiva etmişdir" [78, 95].

Bu baxımdan azsaylı etnik qruplar məsələsini önə çəkərək azərbaycançılıq və türkçülük arasında sədd çəkmək, uçurum yaratmaq nəinki doğru deyil, hətta deyərdim ki, təhlükəlidir. Ona görə də Ə.Tağıyevin bu məsələlərlə bağlı sual qoyması ki, vaxtilə türkçülükdən ayrı götürülmüş və Qərb dövlətləri tərəfindən dəstəklənən osmançılıq ideologiyasının Türkiyədə özünü doğrultmaması kimi, azərbaycançılığı da Azərbaycanda belə bir tarixi tale və perspektiv gözləyə bilər, hər halda bunu, düşünməyə dəyər. Ə.Tağıyev yazır: "Osmançılığı Qərb ölkələri müdafiə etdikləri kimi azərbaycançılığı da bir sıra qonşu dövlətlər dəstəkləyirlər. Onlara görə bu, Azərbaycanı Türkiyədən uzaqlaşdırmaq vasitəsinə də çevrilə bilər" [213, 184]. Deməli, bütün hallarda azərbaycançılıq türkçülük və islamçılıq ideyaları ilə bir yerdə mövcud ola, ancaq zamanın tələbləri və məqsədləri baxımından müəyyən mənada önə də çəkilə bilər. Bütün hallarda isə, bu zaman azərbaycançılıq türkçülüyə və islamçılığa qarşı qoyulmamalı, əksinə ortaq nöqtələrdən çıxış edilməlidir.

Eyni zamanda, Ə.Tağıyevin bir neçə həmmüəlliflə (Azər Mustafayev və Məmməd Balayev) birgə irəli sürdüyü aşağıdakı fikirlərlə isə tamamilə razılaşmaq mümkün deyildir. Müəlliflər yazırlar: "Azərbaycan xalqı çox mürəkkəb və keşməkeşli bir tarixə malik olmuş, onun formalaşıb bir millət halına gəlib çatmasında istər türk, istərsə də qeyri-türk etnik elementlərin rolu olmuşdur. Ona görə də bu fakt milli ideya sahəsində xeyli polemikalara səbəb olmuşdur" [211, 11]. Bizə elə gəlir ki, milli ideya sahəsindəki problem "çox mürəkkəb" və "keşməkeşli tarix" məsələləri ilə deyil, Azərbaycan Cümhuriyyətinin şah damarı olan türklərin milli şüur, milli özünüdərketmə səviyyəsi ilə bağlıdır. Belə ki, Azərbaycanı müəyyən dövrlərdə əsarət altında saxlayanlar (çar Rusiyası, Sovet Rusiyası, İran-Pəhləvi rejimi, İran fars-molla rejimi və b.) ilk növbədə, burada yaşayan türklərə qarşı assimilyasiya

siyasəti yürüdüblər və yürüdürlər. Bunun nəticəsində, əsarət dövrlərində ən çox milli şüuru (milli mənliyi) zədələnən Azərbaycan türkləri olmuşdur ki (hazırda bu siyasəti İranın fars-molla rejimi Güney Azərbaycan türklərinə qarşı həyata keçirirlər), onlar azadlıq əldə etdikdən sonra, milli ideyanın formalaşması məsələsində problem yaşayırlar. Bunun səbəbi də bəllidir, çünki həmişə hansısa bir etnos milli azadlıq hərəkatında aparıcı rol oynamışdır. Tarixi bir reallıqdır ki, İran-Pəhləvi və çar Rusuyasında əksər inqilabların aparıcı qüvvəsi türklər olmuşdur. Bu baxımdan, vaxtilə çar Rusiyası, Sovet Rusiyası və İran pəhləvi rejimi daha çox türklərə qarşı assimilyasiya siyasəti yürütmüşlər, onların varisləri də bu siyasəti davam etdirirlər.

Türkçülük və azərbaycançılığın alternativlik, yoxsa eynilik təşkil etməsi məsələlərində bu ideyaların sinergizmindən çıxış edən Azərbaycan filosofu, professor **Əbülhəsən Abbasov**un da fikrincə, milli ideologiya problemi araşdırılarkən milli mənəvi dəyərlər və çağdaş dövrün tələbləri arasında uzlaşma olmalı, ancaq milli maraqlar burada üstün mövqe tutmalıdır: "Milli dövlətçilik ideologiyası bütövlükdə cəmiyyətin həyat və fəaliyyətini, ictimai münasibətləri zəruri olan istiqamətdə və məzmunda təşkil etmək, milli maraqların həyata keçirilməsini gerçəkləşdirmək üçün praktiki vəzifələrin həll edilməsinə yönəldilmiş biliklərin sintezidir. Yalnız ümummilli mənafeyə, milli birlik və ictimai tarazlıq tələblərinə cavab verdikdə milli ideologiya öz missiyasını daşımağa qadir olur. Məhz bu mahiyyətdə və statusda milli ideologiya hakim ideologiya səviyyəsinə yüksəlir, bir sosial qrupun və yaxud da ayrıca bir siyasi partiyanın deyil, bütöv xalqın maraqlarını ifadə və müdafiə edir" [2, 29].

Onun fikrincə, azərbaycançılıq ideyası milli ideologiya ilə eyniləşdirilməməli, yaxud da onun nümunəsi kimi nəzərdən keçirilməməlidir. Belə ki, azərbaycançılıq milli ideologiyanın tərkib hissəsindən yalnız biridir. Bu mənada, azərbaycançılığın

daxil olduğu milli ideologiyanın tərkib hissələrinə aşağıdakı prinsiplər aiddir: 1. Suverenlik; 2. Demokratiya; 3. Respublikaçılıq; 4. Ədalət; 5. Millilik (millətləşmə); 6. Azərbaycançılıq; 7.Müxtəliflik vasitəsilə birliyə (vahidliyə) cəhd etmə; 8. Tolerantlıq; 9.Sinergizm; 10. Zəruri məhdudiyyət (qadağa) [2[a], 95]. Ə.Abbasov qeyd edir ki, azərbaycançılıq yüksək milli nizam-intizamın, dövləti şüurun, birgəyaşayış və birgəfəaliyyət mədəniyyətinin həm səbəbi, həm də nəticəsidir: "O (azərbaycançılıq-F.Ə.), fikrimizcə, hər bir azərbaycanlının şüurunda, həyat tərzində, əmək fəaliyyətində aparıcı mövqe tutmalı və daim təbliğ olunmalıdır. Ona yalnız bu günün ideya-siyasi baxışlar sisetmini modernləşdirən prinsip kimi yanaşmaq düzgün olmazdı. Azərbaycançılığın əhəmiyyətli rolu perspektiv təfəkkürün və həyat tərzinin formalaşdırılmasındadır. Və burada özünəməxsusluqla beynəlmiləlçiliyin üzvi vəhdətinin nəzərə alınması ümdə əhəmiyyət daşıyır. Belə ki, azərbaycançılıq heç də bəsit mənada özünə qapalılıq deyil. O, cəmiyyət üzvlərini, sosial qrupları, etnik icmaları bir millət kimi konsoldasiyaya gətirməklə yanaşı, onların dünyaya açıqlığını da təmin etməli, faydalı ünsiyyət və əlaqəni qidalandırmalıdır. Hesab edirəm ki, millətin ümumi maraqlarının formalaşmasında, bu maraqlardan irəli gələn məqsədlərin müəyyənləşməsində, ümumi maraqların formalaşması və reallaşması prosesinə subyektiv mövqedən müdaxilənin qarşısının alınmasında azərbaycançılıq prinsipi xüsusi yer tutmalıdır" [2, 39].

Ə.Abbasovun bu fikirlərinə qatılaraq hesab edirik ki, doğrudan da azərbaycançılıq yalnız modernləşməni deyil, özündə "mühafizəkarlığ"ı da əks etdirməlidir. Bu "mühafizəkarlıq" heç də keçmişə qayıtmaq anlamına gəlməməlidir. Burada əsas vacib olan milli mənəvi dəyərlərlə müasirliyi uzlaşdırmaq, bu zaman Ə.Abbasovun da dediyi kimi, üstünlüyü birinciyə verməkdir. Yəni hər zaman modernləşmə nə qədər zəruri olursa olsun, milli mənəvi dəyərlər həmişə bir addım öndə olmalıdır. Bu mənada, modernləşmə, qloballaşma, beynəlmiləlçilik ideyaları adı altında

azərbaycançılığı gücləndirmək nə qədər zəruridirsə, türkçülük və islamçılıq ideylarını qoruyub saxlamaq ondan daha çox zəruridir. Digər tərəfdən unutmamalıyıq ki, Azərbaycan milli ideoloqları Azərbaycan milli ideyasını – Azərbaycan türkçülüyünü (indiki anlamda azərbaycançılığı) irəli sürərkən təməl prinsiplər kimi türkləşməyi, müasirləşməyi və islamlaşmağı bir yerdə götürüblər. Ancaq buradakı müasirləşmə-yeniləşmə heç də Qərbin-Avropanın ideyalarının kor-koranə Azərbaycanda tətbiq edilməsi deyil, daha çox türklüyün və islamlığın ruhundakı yeniliyin gücləndirilməsi olmuşdur. Çünki türklüyün və islamlığın ruhu həmişə yeniləşmə ilə paralelik təşkil etmişdir.

Ancaq burada problem doğuran məsələ ondan ibarətdlir ki, türklüyün və islamlığın ruhuna saxta beynəlmiləlçilik təsir etdikdə, bu ideyalar sözün həqiqi mənasında müasirliklə ayaqlaşa bilməmişdir. Çünki bu cür "yeniləşmə" onları irəliyə aparmaq əvəzinə geri salmış, bununla da Türk-İslam dünyasında müəyyən problemlər meydana çıxmışdır. Şübhəsiz, bu cür "yeniləşmə"nin türklüyə və islamlığa təsiri Türk-İslam dünyasının daxilindən deyil, xarici ölkələr (Rusiya, ABŞ, Fransa, Almaniya və b.) və onların məhsulu olan ideologiyalar (kommunizm və b.) tərəfindən olmuşdur. Bu gün də həmin kənar ideologiyaların təsiri Azərbaycan toplumunda hiss olunur.

Hazırda Azərbaycanda saxta "beynəlmiləlçilik", yaxud da kosmopolitizm şüuru yalnız türklüyü, islamlığı deyil, müstəqil milli ideologiyaya çevrilməyə çalışan azərbaycançılığı da hədəf almışdır. Çünki azərbaycançılıq məhz çağdaş ruhlu türkçülük və islamçılığın sintezindən meydana çıxmışdır. Xüsusilə, azərbaycan-çılığın yaranmasında türkçülüyün müstəsna rolu, onun əhəmiyyətli dərəcədə milli məna kəsb etməsini saxlayır. Azərbaycan filosofu **Ağayar Şükürov** doğru qeyd edirdi ki, hazırda bəşəri ideyaları və ənənəvi dəyərləri birləşdirən, yeganə ideologiya türkçülüyün sinonimi olan azərbaycançılıqdır: "Bu ideologiya bəşəri ideyaları Azərbaycanın ənənəvi dəyərləri ilə birləşdirərək həm milli və

deməli, beynəlmiləl xarakterə malik olmalıdır. Bu ideologiya azərbaycançılıq ideologiyası olmalıdır. Türkçülük, onun Azərbaycan variantı olan azərbaycançılıq milli ideologiyanın əsasını təşkil etməlidir. Çünki burada nə hakim millətçilik idyeası var, nə də yalançı beynəlmiləlçilik şüuru" [209, 235].

Buradan belə bir nəticə də çıxartmaq olar ki, əslində azərbaycançılıq kimi, türkçülük də hakim millətçilik ideyası deyildir, heç vaxt da belə olmamışdır. Sadəcə, Azərbaycan xalqının nüvəsi olan türklər həmişə bu coğrafiyadakı bizə bəlli tarixdəki dövlətlərin yaradıcısı olduqları üçün, türkçülük istər-istəməz önə çıxmışdır. Ancaq bu önə çıxmaq heç də türkçülüyün hakim millətçilik kimi şovinist məna daşımasına səbəb olmamışdır. Sadəcə, türkçülüyə münasibətdə daha çox qıcıq yaradan onun mahiyyəti deyil, adıdır. Bu mənada azərbaycançılıq ona görə qıcıq yaratmır ki, onun adında milli kimlik öz əksini tapmır. Əgər taparsa onda azərbaycançılıq da türkçülük kimi şovinizm mənasında yozulacaq.

Bu baxımdan azərbaycançılığın cəlbedici olmasında əsas məsələ kimi onun başlıca prinsipinin "azərbaycanlı" kimliyi və "Azərbaycan dili" ilə bağlı olduğu ifadə edilir, bununla da dolayısıyla türk kimliyini və türk dilini ifadə etməməsi göstərilir. Başqa sözlə, bəzi tədqiqatçılara görə (R.Mehdiyev, Ə.Daşdəmirov və b.) "azərbaycanlı" kimliyi və "Azərbaycan dili"nin mövcudluğu imkan verir ki, yalnız Azərbaycan türkləri deyil, Azərbaycanın azsaylı etnosları (talış, ləzgi, tat və b.) özünü bu kimliyə və dilə aid etsinlər. Əslində bu dolayısıyla da olsa, "azərbaycanlı" kimliyi və "Azərbaycan dili" ilə yanaşı, özünü başqa kimlikdə və dildə görənlərin varlığını təsdiq edir. Bu mənada, bəziləri azsaylı etnosların ikili kimliyini (azərbaycanlı-talış, azərbaycanlı-ləzgi və s.) və ikili dilini (Azərbaycan dili-talış dili və s.) normal qəbul etdikləri halda, milli çoxluğun – Azərbaycan türklərinin eyni statusla (azərbaycanlı-türk, Azərbaycan dili-türk dili) çıxış etməsinə bir o qədər də dözümlü yanaşmırlar. Halbuki bu statuslar,

yəni azərbaycanlı-türk kimliyi, Azərbaycan dili-türk dili bir medalın iki üzüdür. Çünki burada nə qədər qəribə olsa da, bir millətin iki adı və iki dili var. Əslində isə azərbaycanlı adlanan millət türk milləti, Azərbaycan dili türk dilidir. Belə olduğu təqdirdə, yalnız türk millətinin və türk dilinin üstündən xətt çəkilərək uyğun olaraq "azərbaycanlı" milləti və "Azərbaycan dili"ni müdafiə etmək doğru deyildir.

Bizə elə gəlir ki, məhz bu faktı nəzərə alaraq son illərdə Azərbaycanda "azərbaycanlı" kimliyi və "Azərbaycan dili" ilə paralel "azəri" kimliyi və "azəri dili"nin təbliğatına başlanmışdır. Bu da, türklüyə, türk ruhuna qarşı yönəlmiş təbliğatdan başqa bir şey deyildir. Fikrimizcə, bu məsələdə də əsas məqsəd hansı yolla olursa-olsun "azərbaycanlı" kimliyini və "azərbaycan dili"ni türklükdən uzaqlaşdırmaq, Azərbaycan türklərinin milli varlığını danmaqdır. Başqa sözlə, "azəri" kimliyi və "azəri dili"nin təbliğatı ilk növbədə, türklüyü Azərbaycan türklərinin yaddaşından silmək, milli mənlik şüurunun zədələnməsini daha da dərinləşdirməyə xidmət edir.

Qeyd edək ki, "azəri" anlayışının təbliğində iki amil: 1) vaxtilə Sovet-Rus və İran-Fars ideoloqlarının bu sahədə apardıqları iş və 2) bunun Azərbaycan və Türkiyə ədəbiyyatına təsiri mühüm rol oynamışdı.

Azərbaycan Cümhuriyyətini süquta uğramasından sonra (1920) "azəri" anlayışı daha geniş istifadə olunmağa başlamışdır ki, bunda Sovet-Rus və İran-Fars ideoloqlarının "əməyi" danılmazdır. İrançılığın ideoloqlarından Əhməd Kəsrəvi 1926-cı ildə "Azəri, yaxud Azərbaycanın qədim dili" əsərini yazdı. Həmin dövrdə Sovet-Rus alimləri də Ə.Kəsrəvi kimi, sübut etməyə çalışırdılar ki, Azərbaycan xalqının qədim dili farsmənşəli azəri dilidir [46[a], 226-227]. "Azəriçilik" nəzəriyyəsinin 1920-ci illərdə - Azərbaycan Cümhuriyyətnin və Qacarlar dövlətinin devrilməsindən sonra dövriyyəyə buraxılması Azərbaycan türk mütəfəkkiri Əmin Abidin həmin

dövrdə qələmə aldığı bir məqaləsində də açıq şəkildə qeyd olunmuşdur: "…Bu gün "azəri" kəlməsi Azərbaycanda yaşayan bir fərdə elm olmuşsa da, bu kəlmə ancaq son on sənə içində bu mənada kullanmağa başlamışdır; daha əvvəllər bir azərbaycanlıya azəri denildiyi görülməmişdir" [37, 21].

Sovet-Rus və İran-Fars ideoloqlarının apardığı təbliğat nəticəsində çox keçmədi ki, Azərbaycanda "azəri" anlayışından geniş istifadə edilməyə başlandı. Məsələn, Azərbaycan türk mütəfəkkirlərindən Səməd Vurğun, Rəsul Rza və başqaları əsərlərində "Azəri yurdu" [225[a], 101], "Azəri oğlu" [224[b], 127; 195[a], 172], "Azəri xalqı" [195[a], 177], "Azəri dili" [195[a], 161] anlayışlarına müraciət etmişlərdir. Hətta, 1960-cı illərdə AKP MK-nın rəhbərlərindən Şıxəli Qurbanov Azərbaycan türklərinin "azəri" milləti olmasını geniş şəkildə təbliğ etmişdir. Bunun təsiri altında Fikrət Qoca "Azəriyəm" (1966), Məmməd Araz "Azəri qızı" (1968) isə şeirlərini qələmə almışdır [138[a], 16; 25[a], 218]. F.Qoca yazırdı: "Od oğluyam, alovlardan doğuldum, Alovlana-alovlana, İlk bahardan doğuldum, Lalə kimi yana-yana. Onunçün də baxışımın, Odlara var bənzəri. Azəriyəm, azəri" [138[a], 16]. Həmin dövrdə "azəri" milləti nəzəriyyəsinə qarşı çıxan Xəlil Rza isə şeirlərindən birində bunu, qədim bir millətin başına açılan oyun kimi ifşa etmişdir: "Dəb düşdü bir arada "Azər", Azəri" sözü. Şadlandırmaq istədi guya qəzetlər bizi… Mən çırpıram bu sözü maskalanmış üzlərə. Mən nifrət bəsləyirəm saxtakarın dilində odu keçmiş sözlərə [195[c], 84].

Sovet-Rus və İran-Fars ideoloqlarının "azəri" nəzəriy-yəsi o qədər geniş ölçülü olmuşdur ki, 1920-1930-cu illərdən başlayaraq Türkiyədə də Azərbaycan türklərinə münasibətdə bu anlayışdan geniş istifadə edilməyə başlandı. Doğrudur, ilk vaxtlarda Türkiyədə "azəri" sözü tək işlədilmir, əksər halda "azəri türkü", "azəri türkcəsi" anlayışları ilə bir yerdə çəkilirdi. Məsələn, Azərbaycan milli ideoloqu Məhəmməd Əmin Rəsulzadənin Türkiyədə nəşr etdiyi jurnal "Azəri Türk"

adlanırdı. Mühacirətdəki milli şairimiz Almas İldırım şeirlərində "Azəri Türk" ifadəsini işlədirdi [116, 150].

Ancaq sonralar Türkiyə mətbuatında və ədəbiyyatında bəzi müəlliflər Azərbaycan türklərini Azəri türküdən daha çox "azəri" adlandırır, onu türklükdən fərqli mənada verirdilər. Bu ayrı-seçkiliyə qarşı çıxan tanınmış türkoloq Əhməd Cəfəroğlu yazırdı ki, Azərbaycan və Türkiyə türkləri eyni soyu və dili paylaşdıqları halda, hər iki ölkədən bəzi tədqiqatçıların türk mütəfəkkirlərini "azəri", "türkiyəli" deyə iki yerə parçalamaları yolverilməzdir: "Bu hər bir Azəri türkünü nə qədər mütəəssir eləyirsə, eyni dərəcədə də bir soydan olan, bir dili paylaşan iki qardaşın – Azəri və Anadolu türkünün ortaq ədəbiyyat, dil və mədəniyyətini parçalamağa rəvac verir və təbii ki, məhz bu səbədən də hər iki tərəfdən olan türkləri əsla məmnum etməyəcəkdir. Mirzə Fətəli əslən və nəslən bir türk olduğu halda onu Türkiyə mühitinə əcnəbi bir müəllif kimi tanıtmaqdan güdülən məqsəd nədir? Anlaşılması ən çətin olan məsələ də elə budur. Əgər məqsəd Azəri türk müəlliflərini Anadolu mühərrirlərinə, Azəri türklərini isə Anadolu türklərinə əcnəbi kimi tanıtmaqdırsa, belə olan surətdə Füzuli və Nəsimi kimi böyük türk şairlərini də sadəcə "əcnəbi" Azəri mühitinə daxil edərək onları ümumtürk mədəniyyəti sahəsindən kənarda saxlamaq lazımdır. Halbuki elə dünən Ulu Qazinin (Atatürkün) göstərişi ilə Ankarada toplanan ilk Türk tarix qurultayında Türk birliyinin ana vətəni, mənşəyi, mədəniyyətinin və ümumiyyətlə, bütün mövcudiyyətinin qətiyyən "ayrılıq və qeyrilik" güdülmədən bir küll halında araşdırılması ilə bağlı qərar verilmişdir" [63, 370].

Çox təəssüflər olsun ki, bü gün də Türkiyənin tanınmış siyasət, incəsənət və elm xadimləri Azərbaycan türklərinə yönəlik "azəri" anlayışından istifadə edirlər. Bu onu göstərir ki, həmişə Türkiyə və Azərbaycan türklərini yalnız dışardan deyil, içəridən də bir-birindən ayrımağa xidmət edən qüvvələr

olmuşdur və bu gün də var. Türkülüyn düşməni olan bu qüvvələr heç bir zaman türk millətlərinin birliyinə sevinməmiş, daima onlar arasında nifaq salmağa çalışmışlar. Biz bunu keçmiş tarixdə Teymurlar və Bəyazidlər, Şah İsmayıllar və Sultan Səlimlər, Şah Təhmasiblər və Sultan Süleymanlar və başqa zamanlarda çox görmüşük. Biz bunun 20-ci əsrin əvvəllərində də, Cümhuriyyət dövründə və Cümhuriyyətin işğalından sonrakı dövrlərdə də şahidi olmuşuq. Bu gün də Türkiyə-Azərbaycan birliyinin, ilk növbədə siyasi, iqtisadi, hərbi, mədəniyyət və s. sahələrdə birliyinin baş tutmaması üçün əlindən gələni edən iç və dış qüvvələr vardır. Şübhəsiz, o dövrdə türk birliyinə qarşı olanlara Ə.Cəfəroğlular, Ə.Ağaoğlular, Ə.Hüseynzadələr, M.B.Məmmədzadələr, M.Ə.Rəsulzadələr, A.İldırımlar və başqaları cavab verdiyi kimi, bu gün də bizlər vardır və sabah da başqaları olacaqdır.

Maraqlıdır ki, əsrlər boyu və günümüzdə də yunanlar, farslar, ərəblər, gürcülər, ermənilər və başqa millətlər, onların tarixçiləri bizləri (Türkiyə, Türküstan, Azərbaycan, Krım, Tatarıstan və b. ölkələrdə yaşayan türkləri) türk adlandırdıqları halda, eyni millətin genini daşıyanlardan biri – Azərbaycan türkü digərinə – Türkiyə türkünə vaxtilə "osmanlı" dediyi kimi, indi də Türkiyə türkü Azərbaycan türkünə "azəri" deyir. Doğrudanmı 21-ci əsrdə türkün türkə "türk" deməsi bu qədər çətindir?! Təbii ki, yox. Sadəcə, bütün bunlar türkün şüuruna yeridilən assimilyasiya siyasətidir. Türkü məhv etməyin ən asan yolu, türkü türklüyündən – türk kimliyindən, türk dilindən, türk mədəniyyətindən, türk mənəviyyatından uzaqlaşdırmaqdır. Bu mənada, həmin məsələ ilə bağlı təkcə Türkiyə türklərini suçlamaq doğru olmazdı. Belə ki, hətta Güney Azərbaycan türkləri bəzi hallarda Quzey Azərbaycan türklərini "şurəvi", quzeylilər isə güneyliləri "iranlı", "tat" adlandırırlar. Halbuki hər ikisi türkdür, türklüyü təmsil edirlər.

Şübhəsiz, Azərbaycan türklərinin "tatar", "azəri", "tat", "şurəvi", "iranlı" adlandırılması onların təbii istəyi ilə deyil, Sovet-Rus və İran-Fars rejimlərinin apardıqları siyasət nəticəsində meydana çıxmışdır. Sadəcə, istər içimizdə, istərsə də kənarda bir çoxlarını hazırda bu anlayışların necə meydana çıxmasından daha çox, ondan necə istifadə etməsi maraqlandırır. Fikrimizcə, son zamanlar "azəri" anlayışının geniş mənada təbliğ olunması da bunun tərkib hissəsidir.

Belə anlaşılır ki, hələlik "azərbaycanlı" kimliyinə və "Azərbaycan dili"nə toxunmamaqla yanaşı, buna paralel olaraq "azəri" kimliynin və "azəri dili"nin formalaşdırılması prosesinə başlanmışdır. Xüsusilə, bəzi telekanalların və kütləvi informasiya vasitələrinin (qəzetlərin, portalların və s.) bu məsələ də fəallıq göstərməsi "azəri" anlayışının təbliğinin sistemli şəkildə baş verdiyini göstərir. Artıq bəzi alimlərin əsərləri ilə yanaşı, dövlətin rəsmi nəşrlərində "azəri" kimliyindən və dilindən bəhs olunması da buna bariz örnəkdir. Məsələn, 2011-ci ildə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən iki dildə (Azərbaycan türk dili və ingilis dilində) nəşr olunan "Müstəqil Azərbaycan – 20 il" kitabında dövlət dili həm "azərbaycan", həm də "azəri" adlandırılmışdı [160, 99].

Bu o deməkdir ki, artıq "azərbaycanlı" kimliyi və "Azərbaycan dilinə paralel olan, ilk baxışda ona daha yaxın və inandırıcı olan "azərbaycanlı"- "azəri", "Azərbaycan dili"-"azəri dili" yeni bir statusa çevrilməyə başlamışdır. Bu mənada istisna etmirik ki, müəyyən bir dövrdən sonra "azəri" kimliyi və "azəri dili" istər parlament səviyyəsində, istərsə də dövlət səviyyəsində müəyyən status əldə etsin. Hətta, yaxın gələcəkdə "Azərbaycan dili" dərsliklərinin "azəri dili"nə çevrilməsinin də şahidləri ola bilərik.

Bizcə, son zamanlarda bəzi ali məktəblərdə jurnallarda tələbələrin milliyyəti kimi "azəri" adından istifadə olunması da məsələnin ciddiliyindən xəbər verir. Hər halda dünənə qədər

bəzi istisnaları nəzərə almasaq (nadir hallarda da olsa, bəzi tələbələr etnik kimliyini ləzgi, kürd və s. göstərirdilər), tələbələrin milliyyət qrafasının qarşısında "azəri" deyil, "azərbaycanlı" yazılırdı. Bu isə, SSRİ dövründən qalma ənənə kimi hamı tərəfindən "başa düşülürdü".

Görünür, "azəri" kimliyi və "azəri dili" artıq sovet dövründə formalaşmış Azərbaycan insanının deyil, yeni nəslin milli mənlik şüuruna hesablanmış bir nəzəriyyədir. Yəni "azərbaycanlı" kimliyi və "Azərbaycan dili" SSRİ dövründə yaşamış insanların şüurları üçün hesablandığı kimi, "azəri" kimliyi və "azəri dili" müstəqil Azərbaycanın vətəndaşlarına yönəlmişdir. Şübhəsiz, "azəri" anlayışının əsaslandırılmasının növbəti mərhələlərində tarixə, etnoqrafiyaya, dilçiliyə və başqa sahələrə də "səyahət" ediləcəkdir və edilir də.

Doğrudur, biz də hesab edirik ki, milli mənlik şüurunun qorunub yaşaması üçün vətəndaşlığı, yurddaşlığı bildirən "azərbaycanlı" kimliyində və "Azərbaycan dili"ndə müəyyən korrektələr edilməlidir. Amma bu korrektələr türklüklə uzlaşmayan "azəri" kimliyi və "azəri dili" adı altında deyil, türk kimliyi və türk adı altında baş verməli, xüsusilə milli dilin adına münasibətdə Azərbaycan türklərinin mühüm mövqeyi nəzərə alınmalıdır. Fikrimizcə, yalnız bu halda türkçülükdən yaranmış azərbaycançılıq öz varisliyini ləyaqətlə davam etdirə bilər. Əks halda sələfinin başlıca ideyalarını yaşada bilməyən xələf üçün yalnız bir neçə formal, hüquqi məsələlər baxımından varislikdən çıxış etməsi, üstəlik türk kimliyi və türk dili əvəzinə "azəri" kimliyi və "azəri dili"nə meyil etməsi milli ideologiyanın həllinə deyil, daha da mürəkkəbləşməsinə səbəb olacaqdır.

Xüsusilə, əgər biz bu gün türkçülüklə azərbaycançılığın bütövlüyündən, vəhdətindən bəhs ediriksə, o zaman varislik və obyektivlik prinsipləri pozulmamalıdır. Əgər biz dövlətçiliyin qorunmasının vacibliyindən bəhs edirksə, bu halda da başa düşməliyik ki, həmin məsələdə türkçülüyün rolu

azərbaycançılıqdan heç də az deyildir. Bu mənada,başqa bir milli aydınınmz **Yadigar Türkel** doğru qeyd edir ki, "Azərbaycanın əsasında türkçülük ideyası dayanan milli dövlətçilikdən başqa yolu yoxdur" [216, 123]. Yəni Azərbaycan ilk növbədə bir türk dövlətidir. Ancaq onun bir türk dövləti olmaqla yanaşı, Azərbaycan dövləti olması və bütün azsaylı etnosların (talış, kürd, ləzgi və b.) və milli azlıqların (rus, ukraynalı, gürcü və b.) da dövlətinə çevrilməsi mümkündür və bu gün də belədir. Bu mənada, Y.Türkelin o fikiri ilə də razılaşırıq ki, Azərbaycan xalqının irandilli, albandilli və türkdilli etnoslardan formalaşması mülahizəsi də uydurmadan başqa bir şey deyildir [216, 116]. Başqa sözlə, Azərbaycan xalqının tərkibində bir çox etnosların olmasını təsdiqləməklə yanaşı, onun əsasında türklərin daynaması inkar olunmaz faktdır.

O da bir faktdır ki, türkçülük kimi azərbaycançılıq da ilk növbədə, Azərbaycan türklərinin ideyası kimi yaranmışdır. Çünki türkçülüyü də, onun Azərbaycanda yerli forması olan Azərbaycan türkçülüyünü yaradan və yaşadan məhz türk ideoloqları – M.Ə.Rəsulzadə, N.Yusifbəyli, M.B.Məmmədzadə olmuşdur. Bir sözlə, azərbaycançılıq milli ideya kimi türk ideoloqları tərəfindən türkçülük əsasında yaradılmışdır. Bu mənada tarixçi alim **Həsən Həsənov**un o fikiri ilə razılaşırıq ki, azərbaycançılıq türk milli düşüncəsi əsasında qurulmuş milli ideologiyadır (ideyadır): "Biz türkəsilli Azərbaycan xalqıyıq, dilimiz türkəsilli dildir, dinimiz islam, siyasi durumumuz müstəqil dövlətçilikdir. Azərbaycançılıq türkçülüyə əsaslanmaqla həm dövlətimizin, həm də millətimizin ideologiyasıdır, bunlar arasında heç bir ziddiyyət yoxdur. Niyə? Ona görə ki, bizim xalqımızın ideologiyası ilə dövlətimizin ideologiyası arasında heç bir ziddiyyət yoxdur və ola da bilməz. Azərbaycançılıq türkçülükdən, türkçülük isə Azərbaycan xalqının və onun dövlətçilik marağından ayrı bir müstəqil ideologiya deyil" [99, 151].

Bütün bunların yekunu olaraq hesab edirik ki, hazırda azərbaycançılıq türklərlə yanaşı, digər azsaydlı etnosları və milli azlıqları birləşdirdiyi üçün milli ideya kimi qəbul edilə bilər. Çünki bu zaman sayca çoxluq və azlıq təşkil etməsindən asılı olmayaraq Azərbaycanda yaşayan bütün etnosların, milli azlıqların ortaq dəyərlərindən çıxış edilir. Ona görə də siyasi, iqtisadi, dini, fəlsəfi, etik və s. baxışlarından asılı olmayaraq bütün azərbaycanlılar azərbaycançılığı qəbul edə bilərlər. Yadigar Türkelin sözləri ilə desək: "Azərbaycançılıqda millətin yaşam tərzi, əxlaqi, dini və başqa maddi-mənəvi dəyərləri, millət sevgisi, yurda (vətənə), millətə yiyəlik duyğusu, dünya millətləri içində şərəflə var olmaq, Azərbaycan Respublikasını qorumaq, gəlişdirmək, "Bütöv Azərbaycan"a çevrib sonsuzadək yaşatmaq ruhu vardır" [215, 21-22]. Başqa sözlə, azərbaycançılıq ona görə milli ideyadır ki, onun hədəfində Azərbaycan dövlətinin suverenliyi, ərazisinin bütövlüyü, vahid Azərbaycan milləti (siyasi mənada) və s. məsələlər dayanır. Burada önəmli olan azərbaycanlıların Azərbaycan dövlətçiliyi, ümumi vətən əsasında birləşməsi və onu qorumasıdır. Əslində çağdaş dövrdə azərbaycançılıq bu məqsədlə də irəli sürülmüşdür. Deməli, azərbaycançılıq Azərbaycan daxilində bir milli ideyadır.

Bəs Azərbaycandan kənarda da, azərbaycançılığı bir milli ideya kimi qəbul etmək olarmı? Zənnimizcə, buna birmənalı cavab vermək çətindir. Çünki azərbaycançılığın dünya azərbaycanlılarını özündə birləşdirməsi ilə bağlı fikirlər səslənsə də, ancaq həqiqət ondan ibarətdir ki, İranda eyni soykökü və dini inancı deyil, hətta eyni tarixi-siyasi-coğrafi Azərbaycan adını paylaşdığımız azərbaycanlıları, Azərbaycan türklərini müdafiə etmək mümkün olmur. İran adlanan fars-molla rejimində azərbaycanlıların öz ana dillərində təhsil almaları məsələsində faktiki olaraq əl-qolu bağlı qalır, onlara heç bir mənada yardım edə bilmirik.

Bu zaman belə anlaşılır ki, əslində azərbaycançılıq daha çox dövlət daxilində milli ideya kimi öz təsdiqini tapır. Vətəndən kənarda isə azərbaycançılıq yalnız türkçülüyə söykəndikdə müəyyən bir məna kəsb edir. Hətta, deyərdim ki, Azərbaycandan kənarda azərbaycanlıların birliyi – azərbaycançılıq deyil, türk dünyasının birliyi – türkçülük cəlbedici görünür. Bu zaman azərbaycançılıq deyil, Azərbaycan türklərinin milli ideyası kimi türkçülük Güney Azərbaycandakı türkləri müdafiə edə bilər. Bu mənada türkçülük hətta, bütün Azərbaycan türkləri üçün milli ideyaya çevrilir. Çünki bu halda müxtəlif məkanlarda, ayrı-ayrı dövlətlərin tərkibində yaşayan türklər müxtəlif dini, etik, siyasi, iqisadi baxışlara malik olmaqla yanaşı, türkçülüyü bütün bunların ümumiləşdirilməsini, birləşdirilməsini, ortaq tarixin, ədəbiyyatın, dilin yaranmasını nəinki istisna etmirlər, hətta bu istiqamətdə əməli işlər belə görürlər. Deməli, Azərbaycanda və Türkiyədə milli ideya olan türkçülük ümumtürk mənafeyini – yəni türk millətinin dilini, mədəniyyətini, tarixini, ədəbiyyatını qorumaq və yaşatmaq məsələsində milli ideologiyaya çevrilir. Çünki filologiya elmləri doktoru Aybəniz Əliyevanın təbrincə desək, "türkçülük - türk millətçiliyi, türk millətinin ideologiyası deməkdir və millət, dil, din, əxlaq, etika, estetika baxımından ortaq olan fərdlərin bütünü olduğu üçün türk milləti anlayışı dünyanın harasında yaşamasından asılı olmayaraq, əsir və hürr olan bütün dünya türklərini özündə birləşdirir" [80[a], 76].

Türkçülüyə də azərbaycançılıq kimi həm milli ideya, həm də milli ideologiya kimi yanaşmaq mümkündür. Azərbaycançılıqdan fərqli olaraq türkçülük ölkə daxilində milli ideya kimi təqdim olunur. Çünki burada bir millətin maraqlarının irəli çəkilməsi müddəası irəli sürülür. Bu mənada, azsaylı etnik qruplar türkçülüyə bir o qədər də "isti" yanaşmırlar. Bu yanaşmanın nə qədər doğru və yanlış olmasından asılı olmayaraq türkçülüyə münasibətdə fərqli

baxışlar daha çoxdur. Bunun nəticəsidir ki, Türkiyədə və Azərbaycanda türklər sayca çoxluğu təşkil edən millət olsalar da, bu gün həmin ölkələrdə dövlət ideologiyası baxımından türkçülük aparıcı ideyaya çevrilə bilmir. Üstəlik, türkçülük tərəfdarları türkçülük ideyasının bu gün Türkiyədə və Azərbaycanda hakim ideya olmasından çox, həmin ideyanın bu və ya digər formada qorunması və yaşadılması uğrunda mücadilə aparırlar. Çünki Türkiyədə və Azərbaycanda türkçülük daha çox şovinizm mənada millətçilik kimi qələmə verilir və bunun fonunda türkiyəçilik, azərbaycançılıq, yurddaşlıq, vətəndaşlıq, dövlətçilik önə çəkilir. Deməli, bu gün istər Türkiyədə, istərsə də Azərbaycanda türkçülüyə məhdud, hətta millətçi ideya kimi baxanlar vardır.

Digər tərəfdən, türk millətinin özü də ancaq bir dövlətin tərkibində yaşamır. Belə ki, türklərin yaşadığı coğrafiya böyük olduğu üçün, onların bir yox, bir neçə dövləti (Azərbaycan, Türkiyə, Türkmənistan, Qırğızıstan və b.) mövcuddur. Hətta, türklərin bir qismi Çin, İran kimi bəzi dövlətlərdə hüquqsuz və haqsız bir şəraitdə yaşayırlar. Bu zaman məlum olur ki, türkçülük iki halda: 1) hər hansı türk dövlətində türklər monomillət olmadıqları; 2) müxtəlif məkanlarda, müxtəlif dövlətlərin tərkiblərində yaşadıqları üçün özünü konkret bir ideya kimi doğrultmur.

Deməli, türkçülüyün ideyadan ideologiyaya çevrilə bilməsini əngəlləyən əsas faktorlardan biri, bu ideyanın türk olmayan etnik qrupların mənafeləri ilə "ziddiyyət" təşkil etməsidir. Əslində "ziddiyyət" deyilən şey Azərbaycan və Türkiyə türklərinin hər hansı üstünlüyü və sair ilə deyil, daha çox milli kimliyini və milli dilini türk olaraq göstərməsidir. Maraqlıdır ki, azsaylı etnik qruplar (kürdlər, lazlar, çərkəzlər, talışlar, ləzgilər və b.) bu cür etdikdə o, "ziddiyyət" deyil, onların təbii haqqı kimi qələmə verilir. Ancaq Azərbaycan və Türkiyə türkləri eyni prizmadan çıxış etdikdə millətçilik kimi

yozulur. Bununla da iddia olunur ki, türkçülük yalnız türklərin maraqlarını müdafiə edən ideyadır. Ancaq bu doğurdanmı belədir? Bizə elə gəlir ki, burada problem yalnız türkçülüyün digər etnosların maraqları ilə uzlaşıb-uzlaşmaması ilə deyil, həm də qeyri-türk etnosların özlərinin buna hansı münasibət bəsləməsi ilə bağlıdır.

Bunun üçün 20-ci əsrdə Türkiyə və Azərbaycanda baş verən siyasi-ideoloji proseslərə nəzər salmaq yetərlidir. Məsələn, 1920-1930-cu illərdə türkçülüyün yalnız Türkiyə türklərinin deyil, bütün türk xalqları açısından daha geniş anlam kəsb etdiyi bəyan edilərək, onun əvəzində konkret Türkiyədə yaşayan türk və qeyri-türk vətəndaşların birliyini hədəfləyən xalqçılıq, millətçilik, inqilabçılıq, dünyəvilik, respublikaçılıq və dövlətçilik irəli sürülmüşdür [216[a], 141]. Burada məqsəd türk olmayan azsaylı etnik qrupların mənafeyini nəzərə almaq idi. Halbuki Türkiyə Cümhuriyyət qurulana (1923) qədər Z.Gökalpın müdafiə etdiyi türkləşmək, müasirləşmək və islamlaşmaq "düsturu" Türkiyə türklərinin əsas ideologiyası idi. Özü də bu ideologiyanın arasında türkçülük ideyası aparıcı rola malik idi.

Bununla belə, Türkiyə Cümhuriyyətinin qurulmasından sonra türkçülük ideyası müəyyən mənada arxa plana keçirilməyə başladı və onun yerini müəyyən mənada türkiyəçilik, xalqçılıq, ya da dövlətçilik ideyaları tutmağa başladı. Bununla da, türkçülükdən imtina olunmasa da, ancaq onun Türkiyədə əsas ideya kimi rolu bir qədər məhdudlaşdırıldı. Belə ki, bir tərəfdən türk dili rəsmi dil elan olunub, vahid türk millətinin olması barədə müədəalar Ana Yasada öz əksini tapsa da, digər tərəfdən vahid Türk milləti dedikdə etnik deyil, siyasi millət nəzərdə tutulurdu. Bu siyasi millətə isə türk, kürd, laz və bütün etnoslar daxil edilirdi. Bununla da Türkiyə daxilində bir neçə ideya (dövlətçilik, xalqçılıq, müasirləşmək və s.) ilə birlikdə mövcud olan türkçülüyün, yalnız ölkə xaricində qalan türklərin

mənafeyini müdafiə etməsi baxımından milli ideologiya ola bilməsi vurğulanırdı. Hətta, əvvəllər türkçülük, islamlaşmaq və müasirləşmək uğrunda mübarizə aparan Z.Gökalp özü də yazırdı ki, Türkiyə üçün hazırda türkçülük deyil, real olaraq türkiyəçilik vacibdir. Onun fikrincə, türkçülük-oğuzçuluq və turançılıq isə bütün türklərin gələcək idealıdır. Bu mənada Atatürkün də əsas siyasəti türkçülük deyil, heç bir milli və dini ayrı-seçkilik qoyulmadan vahid türk millətinin yaranması, yəni türkiyəçilik-dövlətçilik üzərində qurulmuşdur. Ancaq Z.Gökalpın bu yöndəki ideyaları, Atatürkün siyasi islahatları xeyli dərəcədə uğurlu olsa da, milli məsələnin həllində yetərli olmadı.

Hər halda, bunu, Türkiyənin bugünkü siyasi-ideoloji mənzərəsi də bizə deməyə əsas verir. Belə ki, Türkiyədə yenidən milli məsələ müzakirə obyektinə çevrilmişdir. Son zamanlar Türkiyədə baş verən proseslər göstərir ki, Türkiyə türk milləti yenidən seçim qarşısındadır [248[a], 358]. Hətta, hazırda Ana Yasada dəyişiklik edilərək Türkiyə dövlətində "Türk milləti" anlayışının yurddaşlıq-vətəndaşlıq (Türk vətəndaşlığı, Türkiyə vətəndaşlığı və s.) anlayışı ilə əvəz olunması ilə bağlı fikirlər səslənməkdədir. Ümumiyyətlə, 1995-ci il Azərbaycan Konstitusiyasında olduğu kimi, Türkiyənin yeni Ana Yasasında da "Türk" anlayışının (türk milləti, türk dili, türk dövləti və s. anlamlarda) çıxardılmasını təklif edən siyasi-ideoloji dairələr vardır.

"Türk" anlayışının aradan qaldırılması fikrini irəli sürənlər hesab edirlər ki, bununla da Türkiyədə etnik mənşəyindən asılı olmayaraq bütün vətəndaşlar arasında bərabərlik bərqərar olacaqdır. Buradan belə nəticə çıxır ki, indiyə qədər Türkiyə dövlətində türklər istisna olmaqla digər etnik azlıqlara - kürdlər, lazlar, ermənilər və başqalarına, xüsusilə də kürdlərə qarşı münasibətdə ədalətsizlik olmuş, onların hüquq və azadlıqları boğulmuşdur. Özəlliklə, Türkiyənin bir Türk dövləti, onun vətəndaşlarının Türk milləti adlanması ilə

kürdlərə qarşı haqsızlıq edilmişdir. Ona görə də, Türkiyədə türk dövləti, türk milləti, hətta yeri gələndə Türkiyə Cümhuriyyəti adından (məsələn, Türkiyə Cümhuriyyəti Sağlık Bakanlığı deyil, sadəcə Sağlık Bakanlığı adlandırılsın) belə istifadə edilməməlidir. Deməli, Türkiyədə dövlətin adına birmənalı münasibət bəsləməyən, bu mənada yenidən Türkiyəni keçmiş Osmanlı imperiyasına oxşar bir dövlət kimi görmək istəyənlər vardır. Bu mənada, nəinki türk anlayışı, eyni zamanda dövlətin adı olan "Türkiyə Cümhuriyyəti" məfhumu belə bəzi dairələr tərəfindən qəbul edilməz hala gəlmişdir.

Bu onun göstəricisidir ki, Türkiyə bir vaxtlar Azərbaycanda olduğu kimi, türk kimliyinin dövlətçilik, vətənçilik, insaniyyət ideyaları fonunda aradan qaldırılması təhlükəsi ilə üzüzə qalmışdır. Artıq istisna deyil ki, Türkiyənin yeni Ana Yasasında türk anlayışı ilə bağlı nə varsa, hamısı aradan qaldırıla bilər. Hətta, bunlardan birinin Türk dili ilə bağlı olması da mümkündür. Ola bilsin ki, 1995-ci ildə Azərbaycan Respublikası referendum yolu ilə Türk dilindən imtina edib "Azərbaycan dili"nə üz tutduğu kimi, Türkiyədə də buna oxşar "yeni dil" və "yeni dil"ə uyğun "yeni vətəndaş" yaransın. Çünki Türkiyənin də tarixi təcrübəsində belə bir nümunə vardır (məsələn, "osmanlı dili" və "osmanlı"). Halbuki Türkiyə Cümhuriyyəti qurulmamışdan öncə, neçə əsrlər türklər öz dövlətlərini Osmanlı dövləti, dillərini və kimliklərini osmanlı adlandırdıqları halda, Avropa millətləri onları Türkiyə və türk olaraq tanımışdır.

Maraqlıdır, necə olmuşdur ki, Fransada bütün etnik qruplar fransız kimliyi altında fransızlaşdırıldıqları, Almaniyada almanlaşdırıldıqları, İtaliyada italiyanlaşdırıldıqları halda, türklər ən azı min ildən çoxdur Türkiyədə və Azərbaycanda böyük çoxluğu təşkil etmələrinə baxmayaraq, azsaylı etnik qrupları türkləşdirə bilməmişdir? Üstəlik, öz milli kimliyindən, milli dövlətindən, milli dilindən və başqa milli

özünəməxsusluqlardan imtina etmək təhlükəsi ilə üzbəüz qalmışdır? Şübhəsiz, bu sualların çoxsaylı cavablarından ən əsası, birincisi türk millətinin həmişə digər etnik qruplara, xüsusilə onunla eyni dini kimliyi paylaşanlara mədəniyyət, dil, adət-ənənə və başqa milli məsələlərdə xoşgörüdən çıxış etmələridir. Yəni türklər tarixən etnik mənşəcə ona yad olan etnik qrupları heç zaman assimilyasiya etməmişlər. Buna bariz nümunə kimi Türkiyə və Azərbaycanda yaşayan azsaylı etnik qrupları göstərə bilərik. Bu günün özündə də həmin etnik qruplar (kürdlər, ləzgilər, ermənilər, lazlar, talışlar və b.) həm milli kimliyini, həm də dini inanclarını qoruyub saxlamışlar. Bununla da etnik azlıqlar nəinki Türkiyə və Azərbaycanda assimilyasiya olunmuş, əksinə heç bir ayrı-seçkilik qoyulmadığı üçün həmin Türk dövlətlərində yüksək vəzifələr tutmuşlar.

Ancaq etnik azlıqlardan ermənilər və kürdlər türklərin bu xoşgörü, heç bir irqi ayrı-seçkiliyin qoyulmaması siyasətindən nəticə çıxarmaq əvəzinə tarixdə bir neçə dəfə "müstəqil Ermənistan", "müstəqil Kürdüstan" dövlətləri yaratmağa cəhd göstərmişlər. Xüsusilə, ermənilərin milli kimliklə yanaşı, dini kimliyi də irəli sürməsi, 20-ci əsrin əvvəllərində tarixi Türk torpaqlarında "Ermənistan dövləti" yaratması ilə nəticələnmişdir. Halbuki ermənilər Rusiyanın və başqa böyük xristian inanclı dövlətlərin dəstəyi ilə "müstəqil dövlət" yaradana qədər Osmanlı imperiyasında müxtəlif yüksək vəzifələr tuturdular. Türklər isə bu məsələyə milli və dini kimlik deyil, dövlətçilik, yəni bilik və bacarıqlı insanların layiq olduğu vəzifəni tutması baxımından yanaşdıqları üçün, buna heç bir etiraz etməmişlər. Hətta, türk imperiyası olmasına baxmayaraq, Osmanlıda bir çox hallarda haqsızlıqla üzləşənlər türklər özləri olmuşlar.

Bütün bunlar o deməkdir ki, XX əsrin əvvəllərində bəzi etnik qrupların, xüsusilə də ermənilərin və kürdlərin fəallaşaraq müstəqil dövlət yaratmaları fikrinə düşmələri, onların

Osmanlıda milli və yaxud da dini kimliklərindəki hər hansı ayrı-seçkiliklə deyil, Türk ruhunu qəbul etməyən xarici qüvvələrin də təhriki ilə əsrlərboyu barış içində yaşadıqları türklərə xəyanət etmələri ilə bağlı olmuşdur. Bu xəyanətin nəticəsi olaraq da ermənilər XX əsrin əvvəllərində himayədarlarının birbaşa yardımı ilə "müstəqil dövlət"lərini yarada bildikləri halda, kürdlər buna nail ola bilməmişlər. Deməli, XXI əsrin əvvəllərində növbəti hədəf Türk torpaqlarının hesabına "müstəqil Kürdüstan"ın yaradılmasıdır. Bəs, sonra?

Bu baxımdan türklərin milli mənlik şüurunun zədələnməsi (türk dilinin sıxışdırılması, türk kimliyinin dolaşdırılması, türk tarixinin saxtalaşdırılması və s.), əvəzində etnik qrupların "milli şüurunun oyadılması" ssenarisini Qərb və Avropanın antitürk ruhlu qüvvələri Türkiyədə uyğulamağa sonralar da davam etmişlər və edirlər də. Bunu nümunə kimi, Türkiyə alimi prof. Oktay Sinanoğlunun mülahizələrinə diqqət yetirmək maraqlı olardı. Sinanoğlu qeyd edir ki, ötən əsrlərdə çar Rusiyası və Sovet Rusiyası Orta Asiya (Azərbaycan da buraya aiddir) türk dövlətlərində möhtəşəm türk mədəniyyətini, türk tarixini, türk dilini bir sözlə, türk ruhunu necə sıxışdırıb çıxartmaq siyasəti yürütmüşdürsə, eyni siyasəti ABŞ və Avropanın aparıcı ölkələri Türkiyədə həyata keçirməyə çalışmışdır: "Türk və İslam düşməni olan, hələ də xaçlı səfəri mentalitetini davam etdirən təəssübkeş qərblilər türklərin bu böyük töhfələrini əvvəlcə İslam dünyasında, sonra Qərbdə və nəhayət Türkiyə içində unutdurmaq və inkar etdirməklə işə başladılar. Sonra növbə (düz 40 il əvvəl) tarixin, mədəniyyətin, milli hiss və bütövlüyün və adət-ənənənin yaşaması üçün əsas fundament olan türk dilinin yox edilməsinə gəlib çatdı. Kağız üzərində rəsmi dili Türk dili olan Türkiyənin təhsil dili tamamilə ingiliscə olmağa başladı" [117, 178]. Sinanoğluya görə, öz möhtəşəm tarixini və möhtəşəmliyini dərk edərək onu yenidən əzəmətinə qovuşdurmayacağı təqdirdə türk dili əcnəbi dillər

arasında məhv ola bilər: "Bu, türk dilinə, türk tarixinə, türk hegemoniyasına, türk dünyasına, müsəlman ölkələr öndərliyinə, türkün dünya üzərindəki heysiyyətinə "bye-bye" deməkdir. Bəylər! Havaydan (söhbət hazırda ABŞ-ın ştatlarından biri olan Havay adalarından gedir. Vaxtilə Havayın yerli hökmdarları bu adaları müəyyən pul miqdarında amerikalı missionerlərə satıblar-F.Ə.) ibrət alaq. Türk dilini, dolayısı ilə türkün gələcəyini satanlar nəvələrinin miras sahibi olaraq rifah içində yaşayacaqlarını zənn edib sevinməsinlər" [117, 172].

Bütün bunlar o deməkdir, XXI əsrin Türk əsri olmasını istəməyən kifayət qədər xarici qüvvələr var ki, onlar türk dövlətlərinin güclənməsini və birləşməsini (yəni hər hansı birlikdə birgə hərəkət etməsini) istəmirlər. Bunun üçün də, Türkiyəyə münasibətdə klassik forma kimi "parçala və hökm sür!" ideolojisini həyata keçirməyə çalışırlar. Hər halda, ötən əsrin əvvələrində olduğu kimi, XXI əsrin əvvəllərində də türk dövlətlərində baş verən prosesləri təsadüfi saymaq mümkün deyildir. Əksinə bu proseslər müəyyən bir ssenari üzrə davam etdirilməkdədir.

Özəlliklə, XXI əsrin "Türk əsri" olması şüarının fonunda baş verənlər heç də ürəkaçan deyildir. Belə ki, türkçülüyün dayaq mərkəzləri olan Türkiyə və Azərbaycanda üzdə türksevərlik, ancaq mahiyyət etibarilə türksüzləşdirmə prosesinin getdiyi bir dövrdə bu şüar öz mənasını və əhəmiyyətini itirir. Çünki Türkiyə və Azərbaycanda baş verən türksüzləşdirmə prosesi fonunda bu şüardan əleyhimzə istifadə edirlər. Bu səbəbdəndir ki, ən ali səviyyədə - Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin dilindən belə dəfələrlə bu şüar səsləndirilsədə bunu qulaqardına, görməməzliyə vuranlar var. Ona görə də hesab edirik ki, hazırda sözün həqiqi mənasında XXI əsrin "Türk əsri" olmasından çox türksüz "Türk əsri"nin reallaşması meyli özünü açıq şəkildə büruzə verir.

Bizə elə gəlir ki, antitürk dairələrin Azərbaycanda və Türkiyədə türksüz "Türk əsri" ssenarisini pozmaq üçün milli şüurumuza yeridilən və indinin özündə də bu və ya digər formada yaşadılan saxtalaşdırılmış tarixdən, ədəbiyyatdan, qeyri-milli ideyadan deyil, vahid bir millətin neçə min illiklər boyu qoruyub saxladığı və yaşatdığı milli tarixdən, milli fəlsəfi fikirdən, milli ədəbiyyatdan, milli ideyadan çıxış etməliyik. Çünki vahid türk fəlsəfəsini, türk tarixini, türk dini-fəlsəfi düşüncə sistemini, türk ədəbiyyatını və s. mənimsəmədən, onun tarixi-fəlsəfi mahiyyətinə varmadan heç vaxt türkçülüyün bütün türklər üçün hansı əhəmiyyət kəsb etməsini də, dərk edə bilmərik. Başqa sözlə, ayrıca götürülmüş bir ölkənin (Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Tatarıstan və b.) fəlsəfəsi, tarixi, ədəbiyyatı, mədəniyyəti ilə yanaşı, ümumtürk fəlsəfəsi, türk dini-fəlsəfi dünyagörüşü, türk mədəniyyəti, türk ədəbiyyatı, türk tarixindən də bəhs olunmalı, tədris edilməlidir. Ancaq bu halda türk dövlətlərində, o cümlədən ötən əsrin sonlarında keçmiş SSRİ-nin tərkibindən çıxaraq yenicə müstəqillik əldə edən ölkələrin gənc nəsilləri, sözün həqiqi mənasında, türkçülüyü – türk kimliyini, türk mədəniyyətini, türk fəlsəfəsini, türk tarixini daha dərindən və yaxından anlamış olacaqlar. Məhz bütün bunların gerçəkləşəcyi təqdirdə "Türk əsri"ndən bəhs etmək olar.

Qeyd edək ki, Qərb və Avropanın Türkiyə türklərinin mənlik şüurunun zədələnməsi, əvəzində etnik qrupların "milli şüurunun oyadılması" işini, təxminən vaxtilə eyni xətt üzrə Sovet Rusiyası Azərbaycan türkləri arasında həyata keçirməyə çalışmışlar. Məhz bu antitürk ideologiyanın nəticəsidir ki, 20-ci əsrin əvvəllərində müstəqillik elan etmiş Azərbaycan Cümhuriyyəti Sovet Rusiyası tərəfindən işğal olunduqdan bir müddət sonra milli kimliyindən və milli dilindən məhrum edilmişdir. Eyni siyasəti bu və ya digər dərəcədə Sovet Rusiyası Orta Asiyadakı digər türk dövlətlərinə (Türkmənistan,

Qazaxıstan və b.) də uyğulamış, yüz minlərlə insanlar Azərbaycanda olduğu kimi, Türküstanda da repressiyaya məruz qalmışdır. Şübhəsiz, bütün bunlarda Sovet Rusiyasının rəhbərlərinin və ideoloqlarının başlıca məqsədi türk mənlik şüurunu zədələmək, onları kökündən və mədəniyyətindən ayırmaq olmuşdur. Ancaq əvəzində sovet ideoloqları Azərbaycanda və Türküstanda türk olmayan etnik qrupların şüurunda milli kimliyi və milli şüuru oyatmağa çalışmış, bu zaman əsas məqsədləri də onları türklərə qarşı qoymaq olmuşdur. Özəlliklə, SSRİ rəhbərliyi Azərbaycanda bu işlərə daha çox diqqət ayırmışdır ki, buna səbəb də Azərbaycanın Türkiyə ilə həm etnik kimlik və dil, həm də coğrafi sərhəd yaxınlığı mühüm rol oynamışdır.

Görünür, Azərbaycan Cümhuriyyətini quranlar hələ o dönəmdə gələcəkdə belə təhlükələrin ola biləcəyini əvvəlcədən hesablamış, bu mənada böyük uzaqgörənlik edərək Türk dövlətinə "Azərbaycan" adı vermişlər. Bununla da, gələcəkdə hər hansı şəkildə ola biləcək milli ayrı-seçkiliyi düşüncələrində önləmiş olmuşlar. Bir sözlə, türk dövlətinə türk adı verməkdən yan qaçan türk ideoloqlar (M.Ə.Rəsulzadə və b.) hesab etmişlər ki, bununla da yalnız türklər deyil, bütün etnik qruplar Azərbaycanı özünə vətən və dövlət kimi görmüş olarlar. Beləliklə, istənilən parçalanmanın, yəni separatizmin qarşısı alınmış olar.

Bu mənada, Azərbaycan Cümhuriyyəti qurulana qədər türkçülük, islamlaşmaq və müasirləşmək, xüsusilə türkçülüyün bu bölgədə konkret təzahürü olan Azərbaycan türkçülüyü əsas rol oynasa da, 1918-ci ildə dövlət qurulduqdan sonra Azərbaycan dövlətinin qorunması və onun yaşaması üçün əsas diqqət "Azərbaycanizm", "Azərbaycan məfkurəsi" hətta, müəyyən mənada "Azərbaycan milləti" ideyasına doğru yönəlmişdi. Halbuki, Azərbaycan Cümhuriyyətində də rəsmi dili türk dili, milləti türk milləti kimi qəbul edilmişdi. Çünki Azərbaycan Cümhuriyyətinin yaranmasında da Türkiyə

Cümhuriyyətinin qurulmasında olduğu kimi, əsas rolu türklər və türkçülük ideyası oynamışdı. Əlbəttə, islamlaşmaq və müasirləşmək ideyalarının da sintezi ilə.

Azərbaycan Cümhuriyyətinin yaranmasından sonra M.Ə.Rəsulzadə başda olmaqla Azərbaycan türk ideoloqlarının əsas diqqəti "Azərbaycan məfkurəsi"nə yönəltmələri, eyni zamanda, tutduğu ideyadan, siyasi və dini mənsubiyyətindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşlarını bu ideyanı müdafiə etməyə dəvət etmələri təsadüfi deyildi. Məqsəd siyasi-ideoloji mövqeyindən asılı olmayaraq müstəqil və "Azərbaycan ideyası"nı şüurlara yeitmək idi. Fikrimizcə, Rəsulzadə və onun məsləkdaşları xeyli dərəcədə buna nail ola bildilər. Yəni artıq Azərbaycan Cümhuriyyətində yaşayan hər bir kəs islamçı, türkçü, müasirləşmək tərəfdarı, hətta sosial-demokrat olmasından asılı olmayaraq həm də bir azərbaycançı olmağa başladılar. Məhz Cümhuriyyət dövründə qoyulan bu azərbaycançılığın nəticəsi idi ki, Sovet Azərbaycanın ilk rəhbərləri də N.Nərimanov, Ə.Xanbudaqov və başqaları Azərbaycan milli ideyasını bu və ya digər dərəcədə qorumağa və yaşatmağa çalışdılar. Görünür, bunu nəzərə alaraq tədqiqat-çılardan B.Bayramov və J.Qurbanqızı yazırlar ki, Ə.Hüseyn-zadə, M.Ə.Rəsulzadə, N.Nərimanov türkçülük ideologiyasını hazırlayarkən onun ən aparıcı tərkib hissəsi kimi "azərbay-cançılıq" ideologiyasını da nəzərdə saxlayıblar [53[a], 124].

Bütün bunları dərindən təhlil edən SSRİ ideoloqları anlayırdılar ki, artıq türk ruhlu, türkçülüyün doğurduğu Azərbaycan milli ideyasını aradan qaldırmaq mümkün deyildir. Çünki artıq qısa müddətdə türkçülük əsasında yaranan Azərbaycan ideyası yalnız türklər deyil, bütün etnik qruplar üçün milli ideala çevrilmişdir. Bu baxımdan SSRİ rəhbərləri və ideoloqları mövcud ideyanı aradan qaldırmaqdansa, onun mahiyyətini saxtalaşdırmağa qərar verdilər.

Deməli, 20-ci əsrin əvvəllərində türkləşmək, islamlaşmaq və müasirləşmək prinsipindən çıxış edən Türkiyə və Azərbaycan türkləri, milli dövlətlərini (Azərbaycan Cümhuriyyəti və Türkiyə Cümhuriyyəti) yaratdıqdan sonra, həmin ideyalardan üz döndərməsələr də, Qərbin-Avropanın və SSRİ-nin təsiri altında müəyyən "redaktələr" etmək məcburiyyətində qaldılar. Burada hökmən qeyd etməliyik ki, həmin "redaktələr" Türkiyədə və Azərbaycanda" fərqli şəkildə baş verdi. Belə ki, Azərbaycanda bu "redaktələr" əsasən SSRİ rəhbərlərinin və ideoloqlarının diktəsi altında baş vermişdi. Doğrudur, bir müddət Azərbaycanda N.Nərimanov, Ə.Xanbudaqov, H.Cavid, Ə.Cavad və başqa milli aydınlarmız Azərbaycanın milli ruhunun qorunmasına çalışmışlar. Ancaq bu cəhdlər onların repressiyaya məruz qalması ilə nəticələnmişdir. Azərbaycanın mühacirətdəki milli ideoloqları isə vətənlərində türkçülüyün və islamçılığın başına açılan oyunları ölkədən kənardan izləyərək yalnız buradan etiraz səslərini ucalda bilmişlər. Bununla da, Azərbaycanda bütün "redaktələr" yalnız Moskvanın göstərişi əsasında həyata keçirilmişdir. Xüsusilə, Sovet İmperiyasının 1937-ci ildən etibarən Azərbaycanda türkçülüyün bütün əlamətlərinə (türk dövləti, türk dili, türk kimliyi, türk ədəbiyyatı və s.) rəsmi və qeyri-rəsmi şəkildə qadağa qoyması, üstəlik Azərbaycanı bilərəkdən etnik qruplara bölüb 13-14 "millət" meydana çıxarması milli mənlik şüurunu ciddi şəkildə zədələmişdir. Bütün bunların nəticəsi olaraq türkçülük, islamçılıq eyni zamanda, Cümhuriyyət dövründə vahid Vətəni və vahid Dövləti qorumaq naminə irəli sürülən Azərbaycan milli ideyası – azərbaycançılıq Sovetlər Birliyi dönəmində siyasi-ideoloji təhriflərə məruz qalmışdı. Vəli Osmanlının təbrincə desək, SSRİ dövründə Azərbaycan türklərinin "azərbaycanlılar"a çevrilməsi təsadüfi olmamışdır: "Sovet quruluşundan sonra bizə "azərbaycanlılar" demişlər. Gürcüstanda və indii Ermənistan adlandırılan ərazilərdə yaşayan

Türklərə də "azərbaycanlılar" deyilib. Bu isə bilərəkdən Türklərin yaşadıqları bütünlükdə Qfaqazı "Azərbaycanla" kiçildib məhdudlaşdırmaq siyasətini güdmüşdür" [175[a], 367].

Beləliklə, SSRİ dövründə azərbaycançılıq ideyası yalnız təhrif edilməmiş, ona SSRİ ideoloqları tərəfindən yeni bir forma geyindirilərək Azərbaycan türklərinin şüuruna yeridilməyə başlamışdır. SSRİ ideoloqlarının təqdimatındakı azərbaycançılıq (Azərbaycan dövləti, azərbaycanlı milləti, Azərbaycan dili, Azərbaycan tarixi, Azərbaycan ədəbiyyatı anlayışlarının üst səviyyəyə gətirilməsi baxımından) milli şüura deyil, "sovet beynəlmiləlçiliyi" şüuruna əsaslandığı üçün ilk növbədə, sözdə "beynəlmiləl" mahiyyət vurğulanmış və milli-türk nə varsa birmənalı şəkildə "beynəlmiləlçiliyin", yaxud da qeyri-müəyyən kommunizm quruluşunun tərkibində məhv edilməyə çalışılmışdır. Başqa sözlə, SSRİ ideoloqları beynəlmiləlçilik ideyasını saxtalaşdırdıqları, yəni saxta "sovet beynəlmiləlçiliyi" yaratdıqları kimi, bu mənada milli ruhlu azərbaycançılığa tam zidd olan sovet kosmopolit azərbaycançılığı irəli sürmüşlər. Bu baxımdan "sovet beynəlmiləlçiliyi" nə qədər beynəlmiləlçilik ideyaları ilə eynilik təşkil edə bilərdisə də, milli-türk azərbaycançılıqla sovet-kosmopolit azərbaycançılığı da bir o qədər üst-üstə düşə bilərdi. Bu isə o deməkdir ki, SSRİ ideoloqları Azərbaycan milli ideyasının (indiki anlamda azərbaycançılığın) mahiyyətini saxtalaşdırmaqla Azərbaycan xalqında, onun əksəriyyətini təşkil edən Azərbaycan türklərində milli şüurun formalaşmasına əngəl olmuşlar. Bunun da nəticəsində Azərbaycan türkləri başda olmaqla azsaylı etnik qrupların vahid millət – azərbaycanlı siyasi kimliyi əsasında formalaşması prosesi millilikdən çıxaraq sovet kosmopolit-izminə yuvarlanmışdır.

Beləliklə, yeni siyasi millətin formalaşması prosesində Azərbaycan türklərinin aparıcılığı "beynəlmiləlçilik" adı altında inkar olunmuş, üstəlik onların milli kimliyinə və milli dilinə

qadağa qoyulmuşdur. Bütün bunlarla yanaşı, yalnız Azərbaycan türklərinin timsalında qeyri-müəyyən azərbaycanlı etnik kimliyi və dili irəli sürülmüş, bu mənada azsaylı etnik qruplara demək olar ki, toxunulmamışdır. Üstəlik, naməlum azərbaycanlı milləti və Azərbaycan dilinin əsaslandırılması işində onların ziyalılarına Azərbaycan elminin bütün sahələrində müəyyən mənada şərait yaradılmışdır. Fikrimizcə, bu zaman azsaylı etnik qrupların ziyalılarının xüsusilə tarix, etnoqrafiya və dilçilik sahələrində yetişdirilməsində SSRİ rəhbərliyi daha çox maraqlı olmuşdur. Təsadüfi deyil ki, istər Sovetlər Birliyi dövründə, istərsə də müstəqiliyimiz bərpa edildikdən sonra azərbaycanlıların əksəriyyətinin türk olmasını danmaq yolu tutanların əksəriyyəti özlərini türk hesab etməyən İqrar Əliyev, Fəridə Məmmədova, Ağamusa Axundov və başqa tarixçi, dilçi alimlər olmuşlar.

Bu isə o deməkdir ki, SSRİ rəhbərliyi və ideoloqları Azərbaycan türkçülüyünü-milli azərbaycançılığı inkar edib onun yerində sovet azərbaycançılığı ideyasını formalaşdırması yolunda uğurlar əldə etmək, ən əsası gələcəkdə Azərbaycan dövlətində yeni siyasi millətin Azərbaycan türklərinin əsasında formalaşmasının qarşısını almaq üçün, hələ o vaxtlar məkrli planlar cızmışlar. Yəni sovet rəhbərliyi bir yandan Azərbaycan türklərinin milli klimliyini və milli dilini inkar etmək yolu tutduqları halda, digər tərəfdən türk olmayan azsaylı etnik qrupların nəinki etnik kimliyinə və dilinə qarşı ciddi şəkildə hər hansı repressiyaya yol verməmişlər, üstəlik, onların da Azərbaycan türklərinin kimliyini və dilini saxtalaşdırmaq prosesinə cəlb etməyə çalışmışlar. Şübhəsiz, bu məsələlərdə tarixən Azərbaycan türkləri ilə yanaşı yaşayan, onlarla qaynayıb-qarışan, özəlliklə vahid dini kimliyi və demək olar ki, eyni mədəniyyəti paylaşan azsaylı etnik qruplar (talışlar, ləzgilər, tatlar, kürdlər və b.) yuxarıdakı bəzi istisnaları da nəzərə almasaq, sovet rəhəbərliyinin riyakar, məkirli oyunlarının təsiri altına düşməyiblər. Görünür, məhz bu baxımdan SSRİ

rəhbərliyi həmin dövrdə Azərbaycan türklərinə qarşı daha çox gəlmə "erməni kartı"ndan istifadə etmişdir.

Bütün bunlar bizə onu deməyə əsas verir ki, SSRİ rəhbərliyi və ideoloqlarının apardıqları "sovet beynəlmiləlçiliyi"nə uyğun sovet-kosmopolit azərbaycançılq ideyası Azərbaycan türkləri ilə azsaylı etnik qruplar arasında tarixi birliyin qorunmasına deyil, əksinə vaxtilə mövcud olan milli birliyin zədələnməsinə yönəldilmişdir. Hər halda, Sovet Rusiyasının işğalı dönəmində, xüsusilə 1937-ci ildən sonra milli mənlik şüuruna vurulmuş zədələrin nəticəsidir ki, ötən əsrin əvvəllərində olduğu kimi, 1991-ci ildə Azərbaycanün müstəqiliyinin bərpa olunmasında türkçülük-Azərbaycan türkçülüyü aparıcı rol oynamasına baxmayaraq, hazırda "üçlük" düsturu və milli ruhlu azərbaycançılığa birmənalı olmayan münasibətlər mövcuddur. Belə ki, hazırda da SSRİ dönəmində olduğu kimi, bəziləri tərəfindən türkçülükdən danışmaq, milli kimliyini və dilini türk olaraq ifadə etmək şovinist millətçilik kimi yozulur, dövlətçiliyə təhlükə anlamında dəyərləndirilir. Əvəzində isə cəmiyyətin əksəriyyəti üçün mənası tam aydın olmayan azərbaycançılıqdan danışmaq, azərbaycanlı kimliyini və dilini ifadə etmək isə millətsevrəlik, vətənsevrəlik kimi yozulub, hətta dövlətçiliyin qorunması şəklində qiymətləndirilir.

Fikrimizcə, bu cür yanlış təsəvvürlərə son qoymaq üçün bütün sahələrdə (elmi nəşrlərdə, təhsildə, KİV-də və s.) təxirəsalınmaz işlər görülməli, 70 il ərzində Sovet Azərbaycanında baş verənlər obyektiv şəkildə işıqlandırılmalıdır. Bütün bunlarla yanaşı ən vacib məqam odur ki, Azərbaycanda sayca çoxluq təşkil edən türklər və azsaylı etnik qruplar azərbaycanlı kimi keçmişdə baş verənləri obyektiv qiymətləndirməyi və mövcud reallıqları görüb doğru nəticə çıxarmağı bacarmalıdırlar. Milli aydınımız, xalq şairi **Sabir Rüstəmxanlı**nın təbrincə desək, türkçülüklə azərbaycançılıq bir-birindən ayrılmazdır: "Türkçülük Azərbaycanın dövlət kimi nicatıdır:

dolayı yolla Azərbaycandakı azsaylı xalqların (azsaylı etnosların – F.Ə.) nicatıdır. Buna hamımızın ümimi sərvətimiz olan bu dövlətin təməl fikri kimi baxmalıyıq" [194[c], 579].

Bu mənada, eyni Vətəni və Dövləti paylaşan azərbaycanlılar milli birliklərini gücləndirməli, Azərbaycanın ərazi bütövlüyünə çalışmalıdırlar. Fikrimizcə, artıq neçə minilliklər konkret bir coğrafiyada, yaşayan həmin ərazini özünə vətən-yurd hesab edən, xarici istilaçı qüvvələrə qarşı birgə çıxış edən, bir-birləri ilə qaynayıb-qarışan, üstəlik ortaq tarixi, ədəbiyyatı, mədəniyyəti paylaşan milli ruhlu azərbaycançılıq islamlaşmaq, türkləşmək və müasirləşmək "üçlüy"ünü də inkar etmədən, yəni yalnız bu mənada bütün azərbaycanlıların gerçək bir ideologiyası ola bilər.

Bəlli olduğu kimi, tarixən türklər yaratdıqları dövlətə yalnız öz dövləti kimi baxmamış, onun daxilində həmişə rəngarənlik olmuşdur. Belə ki, türklər, o cümlədən Azərbaycan türkləri qurucusu olduqları dövlətlərdə heç zaman milli üstünlüklərini irəli çəkməyiblər. Yəni hər hansı bir dövlətin yaranmasında aparıcı rol oynasalar da, dövlət yarandıqdan sonra onun idarə olunmasında, yaxud da dövlət dilinin müəyyənləşməsində və s. məsələlərdə heç bir üstünlükdən, hakim mövqedən çıxış etməyiblər. Çünki "hakim millət", "hakim sinif" faktoru həmişə türk xalqlarına yad olmuşdur. Məsələn, Səlcuqlar, Osmanlılar, Səfəvilər, Qacarlar və başqa türk dövlətlərinin dövründə məhz belə olmuşdur.

Bu gün Azərbaycan Respublikasının əsas nüvəsi Azərbaycan türkləri olmalarına baxmyaraq, "hakim millət" statusuna malik deyildirlər. Bu baxımdan tədqiqatçı İbrahim Ağayev alman filosofu F.Engelsə istinadən düzgün qeyd edirdi ki, vaxtilə Osmanlı İmperiyasında türkləri hakim millət adlandırmaq çətin olduğu kimi, bu eynən bugünkü Azərbaycan türklərinə də aiddir. Onun fikrincə, Azərbaycan türklərində

hakim millət təfəkküründün ümumi səciyyə kəsb etməməsidir: "Biz millət etibarilə bəşəriliyə meyil etmişik" [32, 148-150].

Ancaq türklər, o cümlədən Azərbaycan türkləri qurucusu olduqları dövlətlərdə "hakim millət" sifətindən imtina edib xoşgörüdən, tolerantlıqdan, bir sözlə bəşəri dəyərlərdən çıxış etsələr belə, bu milli ideya ətrafında birləşmək məsələsində yetərli olmur. Fikrimizcə, Azərbaycan türkləri və azsaylı etnik qruplar (talışlar, ləzgilər və b.) vahid azərbaycanlı Milləti (siyasi anlamda), vahid Vətən, vahid Dövlət ətrafında kor-koranə deyil, şüurlu şəkildə birləşməlidirlər. Yəni azərbaycançılıq ideologiyası ətrafında birləşmə birtərəfli deyil, çoxtərəfli olmalı, bunda azərbaycanlı siyasi kimliyini, vətəndaşlıq-yurddaşlıq adını daşıyan bütün azərbaycanlılar maraqlı olmalıdırlar.

4.2.3. Mili dil məsələsi: Türk dili və Azərbaycan dili

Fikrimizcə, hazırda Azərbaycan milli ideologyası problemi ilə bağlı mübahisəli məsələlərdən biri də milli kimlik və milli dilin adı ilə bağlıdır. Çünki milli ideologiyanın hər hansı bir adla ("türkçülük", "azərbaycançılıq", "islamçılıq" və s.) adlandırılması müəyyən əhəmiyyət kəsb etsə də, bununla yanaşı iki vacib faktor: 1) millətin adı; və 2) dilin adı məsələsi də var. Əslində millət və dilin adı ilə bağlı məsələlərə aydınlıq gətirildikdən sonra, bütün hallarda milli ideologiya, hətta müəyyən kənara çıxmalar olsa da, bütövlükdə bu amillər əsasında təşəkkül tapacaqdır.

Özəlliklə, 1990-cı illərdə milli dillin və milli kimliyin müəyyənləşməsi kimi önəmli məsələlərdə ziddiyyətlərin meydana çıxması yalnız kimin haqlı kimin isə haqsız olması ilə bağlı olmamışdır. Bu, ilk növbədə iki illik Azərbaycan milli ideyası ilə (Azərbaycan Cümhuriyyəti) 70 illik "Sovet Azərbaycanı" (Azərbaycan SSR) arasında ideya savaşının

müstəqillik dövründə davamı idi. Azərbaycan milli ideyasını müdafiə edənlər haqlı olaraq hesab edirdilər ki, Azərbaycan Cümhuriyyətinin varisi kimi çıxış edən Azərbaycan Respublikası sələfinin üçrəngli bayrağını, dövlət himnini, dövlət gerbini və başqa mühüm atributlarını sorğu-sualsız qəbul etdiyi kimi, milli dil və milli kimlik məsələsində də eyni mövqeyi ifadə etməlidir. Yəni milli dilin adı ilə bağlı hər hansı referendumun keçirilməsi nəinki doğru deyil, eyni zamanda bu imperiyanın göstərişi ilə dəyişdirilmiş bir millətin yenidən doğma dilinə dönmək istəyinə qarşı yenidən "sovet ideologiyasından" çıxış etməkdir.

Ancaq 70 illik "Sovet Azərbaycanı" ideyasından qurtula bilməyənlər bu milli atributlara, xüsusilə də milli dilin adına münasibətdə heç də eyni mövqeyi müdafiə etmirdilər. Fikrimizcə, bu milli atributlar arasında milli dilin adına münasibətdə onların daha çox dirəniş göstərmələri, Azərbaycan dövlətinin rəsmi dilinin Türk dili olmasına etiraz etmələri heç də təsadüfi olmamışdır. Şübhəsiz, bu ilk növbədə 70 illik "Sovet Azərbaycanı" ideyasından qurtula bilməməyin nümunəsi idi. "Azərbaycan dili" ideyasını müdafiə edənlər onu da yaxşı anlayırdılar ki, hələ xalqın əksəriyyətinin nə türk dili, nə də türk dilini Azərbaycan Cümhuriyyətinin dövlət dili kimi qəbul etdirən milli ideoloqlarla bağlı aydın təsəvvürləri yoxdur. Bunun əvəzində, sıralarımızda dünyaya azərbaycanlı kimliyində gəldiyini və "Azərbaycan dili"ndə danışdığını zənn edənlər var. Şübhəsiz, belə düşünənləri milli dil və millilik kimlik məsələsində "Azərbaycan dili"nə yönəltmək bir o qədər çətin deyildi.

Sovet ideologiyasından tamamilə xilas ola bilməməyin nəticəsidir Milli Məclisdə təsdiq edildikdən sonra sabiq prezident Əbülfəz Elçibəyin imzası ilə 1992-ci ilin dekabrın 22-də Azərbaycan Respbulikasında dövlət dlilinin türk dili olması ilə bağlı Qanunun qəbuluna [216[b]] etiraz etməyən Azərbaycan

xalqının əksəriyyəti, 1995-ci ildə keçirilən ümumxalq səsverməsi zamanı milli dilin necə adlandırılması məsələsində "Türk dili"nə deyil, "Azərbaycan dili"nə səs verdi. Halbuki, özünü Azərbaycan Cümhuriyyətinin bütün mənalarda (siyasi, hüquqi, mənəvi, iqtisadi, ərazi və s.) qanuni varisi kimi dünyaya bəyan etmiş Azərbaycan Respublikası və onun vətəndaşlarının ilk növbədə, onun vaxtilə müəyyənləşdirdiyi ideyalardan çıxış etməsi gərəkirdi.

Ümumiyyətlə, bir millətin dilinin və kimliyinin adı elə bir məsələdir ki, fikrimizcə, onu referendum yolu ilə birdəfəlik həll etmək mümkün deyildir. Özəlliklə də, 70 illik müstəmləkə həyatı yaşamış (hələ ondan öncə də təxminən bir o qədər buna məruz qalmış), bununla da milli mənlik şüuru zədələnmiş hər hansı millət azadlığa qovuşduqdan çox az bir müddətdən (4 il) sonra referendumla milli özünütəyinin müəyyənləşdirilməsi mübahisəli bir məsələdir. Belə ki, artıq babalarının etnik kimliyinin və dilinin türk olmasını əsasən unutmuş, daha doğrusu unutdurulmuş və yenicə keçmiş milli şüur yaddaşını bərpa etmək istəyən bir cəmiyyət üçün bu cür önəmli məsələdə qəti qərarını verməsi inandırıcı deyildir. Çünki milli şüur yaddaşını bərpa edə bilməyən, 70 il öncəki və ondan irəlidəki tarixini yalnız imperiya ideoloqlarının göstərişi əsasında hazırlanmış ədəbiyyatdan öyrənən bir cəmiyyətin əksəriyyəti üçün milli dilin adı məsələsində verilmiş qərar da xeyli dərəcədə buna uyğun olacaqdır. Bu baxımdan, fikrimizcə milli yaddaş şüurunu bərpa etməyən, üstəlik SSRİ-nin "sovet beynəlmiləlçiliyi" ideologiyasından qurtulmayan bir xalqın milli dilin adı məsələsində "Azərbaycan dili" adını müdafiə etməsi milli deyil, "sovet beynəlmiləlçiliyi" şüurunun ifadəsi olmuşdur.

Ancaq "sovet beynəlmiləlçiliyi" şüurundan qurtulmağa çalışan toplumun yaxın gələcəkdə yenidən milli dilin adını gündəmə gətirməsi və Türk dilinin Əsas Qanunda öz təsbitini tapması uğrunda mübarizə aparması qaçılmazdır. Çünki bizim

babalarımız, atalarımız (Dədə Qorqud, Xaqani, Mahmud Kaşğarlı, Yusif Balsaqunlu, Əhməd Yəsəvi, Nizami Gəncəvi, Nəsimi, Füzuli, Yünis Əmrə, Şah İsmayıl Xətai, Seyid Əzim Şirvani, Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid və b.) ana dillərindən bəhs edərkən referendum yolu ilə dillərinin adını müəyyənləşdirməmiş, onu birmənalı şəkildə Türk dili adlandırmış və onunla da həmişə fəxr etmişlər. Məhz bunun təbii nəticəsidir ki, Azərbaycan Cümhuriyyətini quranlar da başda M.Ə.Rəsulzadə olmaqla, dövlət dilini türk dili adlandırarkən bu varislikdən çıxış ediblər. Yəni milli ideoloqlar qeyri-adi bir işə imza atmayıblar. Sadəcə, onlar türk dilini türk dövlətinin rəsmi dili olduğunu bəyan ediblər. Bunu, Azərbaycan türkləri kimi, həmişə bu bölgədə türk dilini ortaq dil kimi istifadə edən bütün azsaylı etnik qruplar, milli azlıqlar və onların nümayəndələri də birmənalı şəkildə qəbul ediblər.

Bu baxımdan Azərbaycan türk ideoloqları etnik türkçülüklə-azərbaycançılıqla bağlı nəzəri ideyalarını 1918-ci ilin mayın 28-də qurulan Azərbaycan Cümhuriyyətinin dövlət dilinin və millətinin adını türk olaraq əməli şəkildə müəyyənləşdirməklə bu məsələləri əsasən həll etmişlər. M.Ə.Rəsulzadə ideyalarının məhsulu olan Azərbaycan türkçülüyü-azərbaycançılıq ideyası (ortaq türk dili, ortaq türk tarixi, ortaq türk mədəniyyəti və s.), 1920-ci il yanvarın 11-də Azərbaycan Cümhuriyyətinin dünyanın aparıcı dövlətləri tərəfindən tanınması ilə beynəlxalq hüquqi status da qazanmışdır. Azərbaycan Cümhuriyyətinin bir türk dövləti kimi dünya dövlətləri tərəfindən tanınmasının nəticəsi olaraq da, SSRİ işğalının müəyyən bir dövründə (1920-1936) də "Azərbaycan Türk milləti", "Azərbaycan Türk dili" və bu kimi anlayışlar öz statusunu qoruyub saxlamışdır. Məsələn, 1926-cı ildə Bakıda keçirilən 1-ci Türkoloji qurultayın iştirakçıları dəfələrlə Azərbaycandan və Orta Asiyanın Türk dövlətlərindən Türk respub-

likaları kimi bəhs etmişlər [172[a], 27; 297]. Bir sözlə, 1937-ci ilə qədər Azərbaycan dövlətinin dili Türk, milləti Türk adlanmış və Quzey Azərbaycan istər SSRİ, istərsə də dünya ölkələri tərəfindən Türk ölkəsi, Türk dövləti kimi qəbul edilmişdir.

Bu baxımdan Azərbaycan Cümhuriyyətini süquta uğradaraq onun yerində Azərbaycan Sovet Sosialist Respublikasını yaradan Sovet Rusiyasının başçıları və ideoloqları yalnız siyasi durumu dəyişdirməklə kifayətlənə bilməzdilər. Ona görə də, ölkənin ictimai-siyasi quruluşunu dəyişən sovet-rus ideoloqları çox keçmədən, Azərbaycanda kök salmış milli ideyaya – Azərbaycan türkçülüyünə qarşı da hücuma keçdilər. Ancaq Azərbaycanı silah gücünə işğal edən Sovet Rusiyası bu məsələdə də xeyli əziyyətlər çəkməli oldu. Buna başlıca səbəb etnik kimliyini, dilini, dinini, mədəniyyətini Türk-İslam məfkurəsi sintezində qəbul etmiş bir millətin, onun bəzi rəhbərlərinin (N.Nərimanov, Ə.Xanbudaqov və b.), ziyalılarının (H.Cavid, Ə.Cavad, B.Çobanzadə və b.) bir müddət Azərbaycan türkçülüyü ideyasını açıq şəkildə müdafiə edərək, SSRİ-nin sözdə "Sovet Azərbaycanı" ideyasına qarşı müqavimət göstərmələri olmuşdur. Ancaq onların bütün səylərinə baxmayaraq, Azərbaycan türklərinin milli kimliyi və milli dili Mərkəzin göstərişi ilə dəyişdirilmiş və saxtalaşdırılmışdır. Bununla da, SSRİ ideoloqları Azərbaycan türklərinin milli şüurunu müəyyən qədər zədələməyə nail ola bilmişlər.

Bu baxımdan filologiya elmləri doktoru Mübariz Yusifovun o fikrinə qatılmırıq ki, Azərbaycan Cümhuriyyətinin dövründə milli dilin adı məsələsi qəti şəkildə öz həllini tapmamışdır [231[a], 7]. Hətta, bu müəllifin fikirlərinə görə, milli dilin adı məsələsinin doğru həllinə səbəbkar bir təsadüf nəticəsində SSRİ-nin diktatorlarından İ.V.Stalin olmuşdur: "Azərbaycan Xalq Cümhuriyyəti süquta uğrayandan sonra da bir müddət dövlət dilinin adı türk dili kimi işlənməkdə davam etdi. 1935-ci ildə yalnız bir təsadüf nəticəsində türk dili adı

Azərbaycan dili adı ilə əvəz olundu. O təsadüf bundan ibarət idi ki, 1935-ci ildə İ.V.Stalin Kremldə Azərbaycan nümayəndələrini qəbul edərkən aqronom Kremlyayevaya belə bir sual vermişdi: "Siz Azərbaycan dilini bilirsinizmi?". Bundan sonra mətbuatda türk dili adı əvəzinə Azərbaycan dili işlədilməyə başlamışdır. Şübhəsiz, Stalinin Azərbaycan üçün canı yanmırdı və Azərbaycan dili adı işlədərkən heç də Azərbaycan xalqının milli mənəvi keyfiyyətlərini və azərbaycançılıq ideyalarını yaşatmaq barədə düşünmürdü. Bu adı işlətməklə o azərbaycanlı düşüncəsini, Azərbaycan milli və etnik varlığını, azərbaycanlı psixologiyasını, ilk növbədə Türkiyəyə meyillilikdən, türk dünyası barədəki təəssüratlardan ayırırdı. Ancaq eyni zamanda, Azərbaycan dili adında Azərbaycana məxsus milli, mədəni, etnik xüsusiyyətlər, eləcə də umümmilli psixologiya öz təcəssümünü tapırdı" [231[a], 8]. Çox təəssüflər olsun ki, bir Azərbaycan alimi millətin dilinin adının təsadüfdən dəyişməsinə inanır və üstəlik, bunu əsaslandırmağa çalışır. Hətta, M.Yusifov türk dilini Azərbaycan dili ilə əvəz etməsinə görə, Stalinə dolayısı ilə də olsa haqq qazandırır. Halbuki SSRİ rəhbərləri və ideoloqları Stalin başda olmaqla, bir təsadüf nəticəsində deyil, düşünülmüş şəkildə Azərbaycan türk millətinin dilini və etnik kimliyini saxtalaşdırmışlar [172, 48]. Fərid Ələkbərlinin təbrincə desək, 1936-cı ilə qədər bütün sənədlərdə, mənbələrdə Azərbaycan türkləri, yaxud da sadəcə türklər adlanan bir millətin adı və dili Stalinin əmri ilə dəyişdirilmişdir [284].

Ancaq buna baxmayaraq əvvəllər də, indinin özündə də bəzi alimlərimiz (İqrar Əliyev, Vaqif Piriyev, Ağamusa Axundov, Nurəddin Kazımov, Mübariz Yusifov və b.) inadla sübut etmək istəyirlər ki, azərbaycanlıların dili türk dili deyil, Azərbaycan dilidir. Hər halda, aradan keçən 70 il ərzində sovet ideoloqlarının azərbaycanlıların milli şüurunda kifayət qədər dəyişikliklər etməsinin, eyni zamanda müstəqillikdən sonra müxtəlif fərqli ideyaların meydana çıxmasının nəticəsi olmalı idi

ki, milli dil məsələsi müstəqillik dönəmində ziddiyyətlərə yol açdı. Bu mənada, bəzi Azərbaycan alimlərinin azərbaycançılığın məzmununa uyğun olaraq bu gün də əsasən Azərbaycan dili anlayışını müdafiə etmələri təsadüfi deyildir. Çünki "Azərbaycan dili"nin varlığı və Konstitusiyada öz əksini tapması azərbaycançılıq ideologiyasının mövcudluğundan bəhs etmək üçün ən vacib ideoloji silahlardan biridir [113, 36].

Görünür, məhz bu amilləri nəzərə alaraq, 1992-ci ildə Konstitusiyada "Azərbaycan dili"nin "Türk dili" adlandırılmasını tələsik, düşünlməmiş, əsassız və populist qərar [144, 301] adlandırmaqla kifayətlənməyən akademik Ramiz Mehdiyev daha çonra yazır ki, bu zaman Konstitusiya və hüquq normaları pozularaq "əslində, Azərbaycan dili"nə qarşı mənəvi vandalizm aktı törədildi. Məktəb dərsliklərinin adları tələm-tələsik dəyişməyə başladı ki, bu da böyüməkdə olan nəslin şüurunda çox böyük dolaşıqlıq və çaşqınlıq yaradırdı. O vaxt H.Əliyev Naxçıvanda öz yaxın silahdaşlarının məhdud dairəsində həmin qərarın qeyri-elmliyi və siyasi nadanlığını məyusluqla və təəssüflə izah edirdi. Lakin o vaxt həmin düşünülməmiş qərarı qəbul edən şəxslərə hər hansı bir təsir göstərmək imkanı yox idi" [141, 442]. Onun fikrinə görə, 1995-ci ildə H.Əliyevin təşəbbüsü və fəal iştirakı ilə bu populist qərar və mənəvi vandalizm aktı haqlı olaraq aradan qaldırıldı və "tarixən vətəndaşlıq hüququ qazanmış və dünya miqyasında geniş yayılmış "Azərbaycan dili" anlayışının qanuni haqqı özünə qaytarıldı" [144, 301].

Bütün bunlarla yanaşı, akademik son illərdə nəşr olunmuş əsərlərində onu da qeyd edir ki, "Cənubi Qafqaz regionundan söhbət gedəndə "Azərbaycan dili" və "Türk dili" - eyni şeydir" [145, 34]. Ümumiyyətlə, akademik son əsərlərində çağdaş azərbaycanlıların əksəriyyətinin milliyyətcə türk- "Azərbaycan türkləri", dilini "Azərbaycan türkcəsi"-türk dili, eyni zamanda tarixi-siyasi-coğrafi Azərbaycan dövlətlərini, o cümlədən

Azərbaycan Səfəvilər imperiyasını, Azərbaycan Cümhuriyyətini və Azərbaycan Respublikasını "Azərbaycan Türk dövlətləri" də adlandırır [145, 33-54]. Hətta, akademik Azərbaycan SSR-ni də "türk-müsəlman respublikası" [113, 20] kimi qələmə vermişdir. Bizə elə gəlir ki, R.Mehdiyev bununla da milli dil və milli kimlik məsələsində "azərbaycan"la yanaşı, "türk" faktorunun da mühüm əhəmiyyət daşıdığını ifadə etmiş olur. Bu isə o deməkdir ki, çağdaş dövrdə də azərbaycançılıq ideologiyasının yaşamasında "Azərbaycan" qədər "Türk" faktoru da eyni missiya daşıyır. Bunlardan hər hansı birinin kölgədə saxlanılması həm azərbaycançılıq, həm də türkçülük üçün mənfi haldır. Çünki Azərbaycanda artıq bu anlayışlar bir-birinin dayağına çevrilmişlər.

Azərbaycanlıların əksəriyyətinin özünün milli identikliyini türk kimi müəyyənləşdirməsi Türkiyəyə olan münasibətdə də özünü dəfələrlə büruzə vermişdir. Xüsusilə, azərbaycanlıların Türkiyənin futbol üzrə milli komandasının Dünya Çempionatlarında uğurlarına sevinməsi, qondarma "erməni soyqırımı"na münasibətdə birlik nümayiş etdirməsi və s. buna ən bariz nümunədir. Bu baxımdan, R.Mehdiyevin Azərbaycan milli identikliyi ilə bağlı azərbaycanlıların Dünya Çempionatında Türkiyə milli komandasının uğuru ilə bağlı Türkiyə səfirliyinin qarşısındakı sevinc göstərilərini nümunə gətirməsi təsadüfi deyildir: "Minlərlə azərbaycanlının bir anda Türkiyənin Bakıdakı səfirliyi qarşısında toplaşmasına və "Türkiyə!", "Türkiyə!" deyərək öz sevincini ifadə etməsinə səbəb bu iki xalqın birliyini, onların ümumi etnik-mədəni identikliyini, tarixi, mədəni və dini birlikdən irəli gələn qardaşlıq hisslərini səmimi qəbul etmələri idi. Bu halda ümumi identiklik birləşdirici amilə çevrilmişdi" [145[a], 637].

Bizə elə gəlir ki, R.Mehdiyev Azərbaycan milli ideyası ilə bağlı əvvəllər üstünlüyü birmənalı şəkildə daha çox azərbaycançılığa verirdisə, son zamanlarda onun qorunub

yaşaması yolunda türkçülüyün də mühüm faktor olduğunu ifadə etməyə çalışır. Xüsusilə də, bu daha çox Azərbaycanın daxili milli birliyinə hesablanmış azərbaycançılığın ölkə kənarında daha güclü bir ideologiyaya çevrilməsi baxımından önəmlidir. Başqa sözlə, əgər azərbaycançılıq ölkə daxilində daha cəlbedicidirsə, Azərbaycandan kənarda azərbaycançılığın türkçülüklə qoşa qanad təşkil etməsi bir o qədər zərurətə çevrilmişdir. Bu baxımdan akademikin son əsərlərində tarixi Azərbaycan dövlətlərini Azərbaycan-türk, "Azərbaycan dili"ni Azərbaycan türkcəsi adlandırması başa düşüləndir.

"Tarixin hökmü ilə Azərbaycan etnikliyinin başlıca indikatoru (göstəricisi) məhz dil olmuşdur" [72, 156] deyən, akademik **Ə.Daşdəmirov** da milli dilin adı məsələsində türk dilindən və Azərbaycan dilindən çıxış edənlərin hər ikisinin bu və ya digər dərəcədə haqlı olduğunu söyləsə də, nəticədə üstünlüyü sounuculara vermişdir: "Etnomədəni diskursun (mülahizələrin) mərkəzində əsrin əvvəllərində olduğu kimi, yenidən dil problemi özünün etnik identifikasiyasında çıxmışdır. Onu necə adlandırmalı: Türk, yoxsa Azərbaycan dili? Bu mübahisələrin mahiyyətinə və təfərrüatına varmadan qeyd edilməlidir ki, tərəflərdən hər birinin öz güclü arqumentləri var, və bəlkə də, tərəflərdən hər biri bu və ya digər dərəcədə haqlıdır. Məsələ də elə bundadır ki, real həyatın gedişi ilə bu mübahisə əslində, həll olunmuşdur, özü də azərbaycançılıq konsepsiyasının, etnotarixi mötəbərliyə, etnomədəni, etnosiyasi özünümüəyyənliyə azərbaycançılıq mövqeyindən yanaşmanın xeyrinə həll edilmişdir" [72, 160].

Maraqlıdır ki, akademik milli dilin adı məsələsində türk dili və Azərbaycan dili variantından çıxış edən hər iki tərəfin eyni dərəcədə haqlı olduğunu söyləsə də, Konstitusiyada "Azərbaycan dili"nin öz əksini tapmasını "real həyatın gedişi" ilə bağlayır. Halbuki bir millətin dilinin mahiyyətinin yüzdə-yüz Türk olduğu halda, adının "Azərbaycan dili" kimi müəyyənləşdirilməsi "real həyatın gedişi" ilə

həll oluna bilməzdi. Ümumiyyətlə, milli dilin adı məsələsi ilə bağlı akademik "real həyatın gedişi" dedikdə konkret nəyi nəzərdə tutmuşdur, məlum deyildir. Ancaq Ə. Daşdəmirovun daha sonra qeyd etməsi ki, milli dilin adı məsələsi azərbaycançılıq konsepsiyasının xeyrinə həll edilmişdir, bu zaman müəyyən suallar ortaya çıxır. Yəni Ə.Daşdəmirovun bu yanaşmasından belə nəticə çıxarmalıyıq ki, türk dilinin Azərbaycan dili ilə əvəz olunması azərbaycançılıq konsepsiyasını əsaslandırmaq üçün baş vermişdir. Bu, doğrudan da, məhz belə olmuşdursa, deməli Azərbaycan türklərinin türk dili ilə azərbaycançılıq bir-birinə zidddir. Əgər türk dili və azərbaycançılıq ziddiyyət təşkil edirsə, Azərbaycan türklərinin türk kimliyi ilə azərbaycançılıq da belə olmalıdır. Ancaq bütün bunlar doğrudanmı belədir? Şübhəsiz ki, yox. Əgər türk dili və türk kimliyi azərbaycançılığa zidd olsaydı, Azərbaycan türk ideoloqları nə "Azərbaycan" adına müraciət edər, nə də bir Türk dövlətinə Azərbaycan Cümhuriyyəti adını verməzdilər.

Milli dilin adının türk dili deyil, "Azərbaycan dili" olmasını əsaslandırmaq üçün AMEA-nın müxbir üzvü **Nizami Cəfərov** isə üç tezis irəli sürür: 1) iki müstəqil türk mənşəli dilin hər ikisinin eyni bir adla adlandırılması özünü doğrultmur; 2) qeyri-türk mənşəli etnoslar "Azərbaycan dili"nin "Türk dili" adlanmasından narahatdır; 3) "Azərbaycan dili" adı artıq neçə on illərdir ki, uğurla işlənir [65, 244]. Eyni zamanda, o qeyd edir ki, "Azərbaycan dili" "Azərbaycan xalqı", "Azərbaycan milləti", "Azərbaycan dövləti" anlayışları ilə səsləşir. Əgər "Azərbaycan dili" əvəzinə "türk dili", yaxud da "Azərbaycan türkcəsi" desək, onda "türk milləti", "türk ədəbiyyatı", "türk dövləti" məfhumları kimi yeni analogiya təklif edilmiş olur [64, 326].

Fikrimizcə, N.Cəfərovun birinci tezisi ümumiyyətlə, heç bir mənada məntiqə uyğun deyil. Ən azı ona görə ki, iki, üç, beş və s. deyil, hər bir türksoylu millətin türk dilinə sahib çıxması onun təbii haqqıdır. Qeyri-türk mənşəli etnosların türk dilindən narahat olmasına gəlincə, belə anlaşılır ki, əhalinin 100-də 90 faizini təşkil

edən biz Azərbaycan türkləri millətimiz və dilimizin "türk" adından azsaylı etnoslara (talışlar, ləzgilər, avarlar, kürdlər və b.) görə imtina etməliyik, ancaq bu mənada həmin etnik qruplar nə dillərindən, nə də etnik adlarından imtina etməyə bilərlər və etmirlər də. Sonuncu məsələyə gəlincə isə, "Azərbaycan dili"nin bir neçə on illik tarixi olduğu halda, türk dilinin tarixi nəinki on illiklərlə, heç minilliklərlə müqayisə edilə bilməz. Bu baxımdan türk dilini istər vətəndaşlıq hüququ qazanması, istərsə də dünya miqyasında tanınması mənasında Azərbaycan dili ilə müqayisə etmək belə doğru deyil. Özəlliklə, N.Cəfərovun türk dilinin öz haqlı və təbii mövqeyini bərpa edəcəyi təqdirdə "türk dövləti", "türk ədəbiyyatı", "türk tarixi" və bu kimi anlayışların da işlədiləcəyini, ancaq bunun doğru olmaması ilə bağlı mülahizələrinin heç bir elmi əsası yoxdur. Çünki hər millətin tarixi onun yaşadığı coğrafi ərazinin adından öncə milli kimliyi, dili və adət-ənənələri ilə bağlıdır. Məsələn, ABŞ-ın rəsmi dili ingiliscədir, ancaq əhalisi amerikan adlanr. Ona görə də fikrimizcə, N.Cəfərovun burada "Azərbaycan dili"nin varlığını isbat etmək üçün irəli sürdüyü müddəaların heç bir əsası və inandırıcı görünən tərəfi yoxdur.

"Azərbaycançılıq" və "türkçülüy"ün sintezindən çıxış edənlərin əksəriyyəti (B.Vahabzadə, Anar, H.Həsənov, T.Hacıyev, K.V.Nərimanoğlu, K.Abdulla, C.Həsənli və b.) hesab edirlər ki, Azərbaycan dili Türk dili, "Azərbaycan Türk dili", "Azəri Türk dili", "Azərbaycan türkcəsi" kimi də adlandırla bilər. Məsələn, tarixçi alim **Həsən Həsənov (Əzizoğlu)** yazır ki, dilimiz türk dili adlansaydı daha yaxşı olardı [99, 39]. Azərbaycan filosofu **Rafail Əhmədli** də təxminən enyi mövqedən çıxış edir: "Dil davası, millət olaraq varlıq, müstəqillik davasıdır. Mənsub olduğumuz türk dili vətənimizin birlik və bütünlüyünü, milli tariximizin davamlılığını yaşadır" [78, 238]. Onlardan fərqli olaraq Azərbaycan alimi **Kamal Abdulla** bu məsələ ilə bağlı bir neçə variant irəli sürür və fikrimizcə, o qədər də məqbul olmayan belə bir nəticəyə gəlir: "Dilimiz, əlbəttə ki, Türk dilidir… Amma bəlkə onu Azərbaycan dili adlandırsaq, daha

düzgün olar?! Elədir ki, var, dilimiz həm də Azərbaycan dilidir. Azərbaycan Türk dili necə? Şübhəsiz, o da doğrudur. Dilimiz Azərbaycan Türk dilidir… Eyni dilin üç adı? Təəccüblənməyə tələsməyək. Niyə də yox?! Bu adların heç biri digərini inkar etmir" [1, 65-66]. Fikrimizcə, bir millətin həyatı üçün müstəsna əhəmiyyətə malik olan dil məsələsinə, yəni milli dilin adının hansı şəkildə müəyyənləşməsi ilə bağlı problemə bu cür yanaşma qətiyyən doğru deyildir. Bəlkə də, coğrafi ərazi, yaxud da dövlət adının hansı adla adlandırılmasıyla bağlı bir neçə variant olsaydı, bunu haradasa da təbii qəbul etmək olardı. Buna örnək olaraq, indiki dövlətimizin vaxtilə hansı adla adlandırmasıyla bağlı bir neçə variantın (Xəzər, Azərbaycan, Cənubi Qafqaz Türk və b.) irəli sürülməsini də xatırlatmaq yerinə düşərdi. Ancaq milli dilin adı ilə bağlı bir neçə variantın (Azərbaycan dili, türk dili, Azərbaycan türk dili) irəli sürülməsi, üstəlik onların hər birinin eyni mənanı ifadə etməsi ilə bağlı K.Abdulanın yuxarıda irəli sürdüyü fikirlərlə əsasən, razılşamırıq.

Biz burada Kamal Abdulanın o fikri ilə müəyyən dərəcədə razılaşırıq ki, Azərbaycan dövlətinin dilinin türk dili ilə yanaşı, Azərbaycan türk dili kimi də ifadə olunması mümkündür. Bizə elə gəlir ki, bu isə bir dilin iki adı olmasından daha çox, eyni dili paylaşan bir millətin yalnız ləhcə və qrammatika fərqlərini göstərmək üçün lazımdır. Hər halda ən azı elmi ictimaiyyətə məlumdur ki, bir çox obyektiv səbəblərə görə Azərbaycan və Türkiyə türklərinin minilliklər boyu paylaşdıqları türk dili, sonralar müəyyən dərəcədə müxtəlif istiqamətlərdə inkişaf etmişdir. Bu isə daha çox ədəbi dilin formalaşmasında öz təsirini göstərmişdir. Halbuki, ədəbi dilin fərqli istiqamətdə inkişaf etdiyi dövrdə belə Türkiyə ilə Azərbaycan ictimaiyyətinin əksər təbəqləri arasında dil ayrılığı olmamışdır, bu gün də belə bir hal yoxdur.

Bu mənada, biz də Türkiyə Türk dili (Türkiyə türkcəsi), Azərbaycan Türk dili (Azərbaycan türkcəsi) kimi ifadələri müdafiə edən Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Sabir Rüstəmxanlı,

Nəriman Həsənzadə, Kamil Vəli Nərimanoğlu və başqalarının fikirlərini doğru hesab edirik [195[c], 217-218; 194[b], 178; 103[a], 93-94]. Özəlliklə xalq şairi **Bəxtiyar Vahabzadə** milli dil məsələsi ilə bağlı mövqeyi konkret və dəyişməz idi: "Dilimizin adı azəri türkcəsi, millətimizin adı isə azəri türküdür" [219[a], 167]. Bu fikrin əleyhinə çıxanlara, azərbaycanlıların farsdillilərdən və qafqazdillilərdən törəmə olmasını iddia edən İ.Əliyev, F.Məmmədova və başqalarına cavab olaraq o, "Mən türkəm" (1995) şeirində yazırdı:

Əslimi, nəslimi tanıyıram mən,
Qarışıq deyiləm, özümdən hürkəm.
Sən kimsən, sən nəsən, özün bilərsən,
Mən ilk qaynağımdan türk oğlu türkəm!

Subutdur, dəlildir, ağlın qibləsi,
Dəyişə bilərsən adımı ancaq.
Canım çıxanadək qəlbimin səsi,
"Türkəm" - gerçəyini pıçıldayacaq [218, 144].

B.Vahabzadə doğru qeyd edirdi ki, türk kimliyinin və türk dilinin əleyhinə olanlar özünü türk oğlu türk bilən Nəsimi, Füzuli, Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Hüseyn Cavid və başqalarından ağıllı olduğunu zənn etsələr də, yanılırlar. Çünki bu cür konsepsiyadan çıxış etsək onda öz milli varlığını bilən və öz türklüyü ilə öyünən həmin nəhəng korifeylərdən əl çəkməliyik. Vahabzadə yazır: "Demək, biz türk deyiliksə bu cahanşümul türk oğullarını milli ədəbiyyatımıza və fikir tariximizə daxil etməyə də haqqımız yoxdur" [219[a], 104]. "Azərbaycan türküyəm", "Türkəm, neçə millətlərə öz qanımı vermişəm" [195[c], 259] deyən Xəlil Rza da yazırdı ki, Türk ahəngi, Türk dili onun üçün müqəddəsdir: "Aman Tanrı, düşmənlər nasıl qorxur Türkcədən! Məgər Türkcəm seçilir pardaxlanan qönçədən" [195[c], 182].

Xalq yazıçısı **Anar** milli dilin adı ilə bağlı yazır ki, dilimizin Azərbaycan türkcəsi, yaxud Azəri türkcəsi adlanmasının tərəfdarıdır: ""Azərbaycan türk dili", "Azəri türk dili" söz birləşmələrini də

məqbul sayıram. Bu söz birləşmələrində "türk" kəlməsi dilimizin əsrlərdən gələn ənənəvi adıyla bağlıdırsa, "Azərbaycan", yaxud "Azəri" kəlmələri dilimizi Türkiyə türkcəsindən fərqləndirmək üçündür" [23, 28]. Ancaq onun daha sonra Azərbaycan və Türkiyə türklərinin dillərini bir-birindən müəyyən qədər fərqlənən ləhcələr kimi deyil, müstəqil dillər kimi qəbul edilməlidir [23, 27] mülahizəsi ilə razılaşmırıq. Çünki bizə elə gəlir ki, digər türksoylu xalqlarla da müqayisədə, bir-birinə son dərəcə yaxınlıq baxımından Türkiyə və Azərbaycan türklərinin (buraya Güney Azərbaycan türkləri, Türkmənistan türkləri, Kərkük türkləri, Borçalı türkləri, Dərbənd türkləri, Quzey Kipr türkləri və başqaları da aiddir) dilinin bir adı var: Türk dili. Bu da, şübhəsiz onların Türk millətinin Oğuz nəsilindən olması ilə bağlıdır. Ancaq ümumilikdə qazax, özbək, qırğız, tatar, başqırd, yakut, qaraqalpaq, krım və başqa türksoylu etnosların dillərinin də kökü türk mənşəlidir.

Bu baxımdan, müəyyən zamanlarda aryı-aryı türksoylu etnosların türk dili əvəzinə bəzən tayfa və yaxud hakim sülalə adlarından (uyğur, özbək, qazax, osmanlı, tatar, başqırd və b.) istifadə etmələri də təbiidir, indi də bu amildən yararlanan türk dövlətləri (Qazaxıstan, Özbəkistan və b.) vardır. Maraqlıdır ki, hazırda rəsmi dili Türk dili olan Türkiyə Cümhuriyyətinin sələfi Osmanlı dövlətinin dili osmanlı dili olduğu halda, indi dövlət dil Azərbaycan dili olan Azərbaycan Respublikasının sələfləri Azərbaycan Cümuhriyyəti və Azərbaycan Səfəvi İmperiyasının dövlət dili Türk dili olmuşdur. Özəlliklə, Türk cümhuriyyətləri arasında ilk dəfə, Azərbaycan Cümhuriyyətinin dövlət dilinin türk dili olması, Azərbaycan türklərinin türk dilinə verdiyi önəminin və milliyyət hissinin üst səviyyədə olmasının göstəricisidir. Ancaq burada məsələni birinci və ya da ikinci olaraq hansı türk dövlətinin dilini türk adlandırılması şəklində qoymaq da doğru deyildir. Bu baxımdan tədqiqatçı Aydın Abbasovun təbrincə desək, Azərbaycanın dövlət dilinin türk dili adlandırılmasının müstəqilliyə təhlükə kimi dəyərləndirilməsi mənasızdır. Çünki İngiltərənin dövlət

dilinin ingilis dili olduğu halda, ABŞ-ın da həmin dili rəsmi şəkildə qəbul etməsi nə qədər təbiidirsə, Azərbaycan və Türkiyə dövlətlərinin də eyni dili paylaşmaları bir o qədər təbiidir [2[c], 208]. Başqa sözlə, ABŞ-da milli ideologiya kimi amerikançılıq-amerikanizm geniş yayılıb onun siyasi-ideoloji həyatında aparıcı yer tutması ilə yanaşı, bu ölkədə milliliyi-etnikliyi ifadə edən "ingilis" anlayışı (ingilis dili, ingilis mədəniyyəti və s.) da özünəməxsus yer tutur. Burada, xüsusilə ingilis dili amrerikanların və ingilislərin ümumi mentallıqdan çıxış etmələrinin əsasını təşkil edir.

Bunu, müəyyən mənada Azərbaycan və Türkiyə dövlətlərinə də aid etmək olar. Yəni Azərbaycan və Türkiyə müstəqil dövlətlər olsalar da, ortaq tərəfləri (soykök, dil, mədəniyyət, din və s.) vardır. Bu, hər iki dövlətin başçıları tərəfindən də dəfələrlə bəyan edilmişdir. Bu birlik mesajları isə ümumi tarix, mədəniyyət, soykök, dil və sair məsələlər üzərində qurulmuqdur. Yəni burada ümumi mentallığı formalaşdıran mühüm amillər vardır ki, onun əsasında da dil dayanır. Ancaq linqvistikanın fəlsəfi problemləri, etnodil prosesləri üzrə araşdırmaçı, fəlsəfə elmləri doktoru Afaq Rüstəmova hesab edir ki, dil birliyi ümumi mentallığın formalaşmasında mühüm amil olsa da, "lakin o da məlumdur ki, ingilislər və amerikanlar eyni dildə danışsalar da, müxtəlif mentallığa malikdirlər. Əksinə, eyni ərazidə yaşayan, lakin müxtəlif dillərdən istifadə edən xalqları birləşdirən tarixi tale və vahid dövlət ümumi mentallığın formalaşmasına və inkişaf etməsinə çox münbit zəmin yarada bilər. Buna bariz nümunə Azərbaycanda yaşayan 100-dən artıq millət, milli azlıq və azsaylı xalqdır. Bu xalqlar müxtəlif genoloji mənşəyə malik, fərqli funksional və struktur inkişaf səviyyəsində olan 20-yə qədər dillərdən istifadə edirlər. Bununla belə, burada yaşayan xalqlar bu və ya digər cəhətdən müxtəlif xüsusiyyətlər daşısalar da, bütövlükdə, ümumi mentallığa malikdirlər. Sözsüz ki, burada xalqlar arasında ümumi mentallğın formalaşmasında digər amillərlə yanaşı (ümumi tarixi tale, adət, ənənələr, inanclar, davranış setrotipləri və s.) Azərbaycan dilinin müstəsna rolu vardır" [194[a], 56].

Bizə elə gəlir ki, ingilislər və amerikanlar əsasən, müxtəlif deyil, ümumi mentallığa malikdirlər. Çünki amerikanların əsas nüvəsini ingilislər və ingilis mədəniyyəti təşkil edir. Ümumi mentallığın formlaşmasında isə tarixi tale və vahid dövlətdən öncə, müəyyən bir ərazidə (məsələn, ABŞ-da) çoxluq təşkil edən millətin (ingilislərin) öz dilini və mədəniyyətini milli azlıqlara və etnik qruplara qəbul etdirə bilməsidir. Xüsusilə, müəyyən bir ərazidə hər hansı dilin aparıcı yer tutması ümumi mentallığın formalaşması və həmin mentallıqda dili danışılan millətin üstün mövqeyə malik olması şübhəsizdir. Hər halda, A.Rüstəmova özü də sonra qeyd edir ki, Azərbaycan da ümumi mentallığın formalaşmasında digər amillərlə müqayisədə Azərbaycan dilinin (Azərbaycan türkcəsinin – F.Ə.) müstəsna rolu vardır. Bu mənada, ümumi mentallığın formalaşması baxımından dil Azərbaycanda hansı statusu oynamışdırsa, ABŞ-da da eyni rola malik olmuşdur. Yəni dilin ümumi mentallığın formalaşmasında birində müstəsna (Azərbaycan), digərində (ABŞ) sıradan bir amil kimi rol oynadığını iddia etmək doğru olmazdı. Ən əsası odur ki, müəllif özü də sonda ümumi mentallığın formalaşmasında dilin tarixi tale və vahid dövlətdən mühüm yerə malik olması qənaətinə gəlir. Deməli, dil hər bir millətin varlığının nüvəsidir; bu nüvə olmadan tarixi taleyə və əraziyə əsaslanaraq dövlət yaratmaq mümkün deyildir.

Bu baxımdan ABŞ-da və Azərbaycanda uyğun olaraq İngilis dili və Türk dili müasir-milli dövlətin yaranmasında ilk prinsipi təşkil etmişdir. Sadəcə, ABŞ-da əraziyə verilmiş ad dövlətin rəsmi adına çevrildiyi halda, ölkənin dili burada çoxluq təşkil edən və yeni dövlətin yaranmasında aparıcı yerə malik olan ingilislərin ana dilinin adına uyğun şəkildə ingilis dili kimi öz təsbitini taprmışdır. ABŞ-ın rəsmi dilinin ingilis dili olmasına nə o zaman (1774-cü ildə ABŞ dövləti yaradılan zaman), nə də sonralar ciddi şəkildə etiraz edən etnik qruplar və yaxud milli azlıqlar olmamışdır. Ancaq Azərbaycanda hər şey başlanğıcda (1918-ci ildə Azərbaycan Cümhuriyyəti yaradılan zaman) ABŞ-da olduğu kimi gerçəkləşib,

yəni ərazi adı (Azərbaycan) dövlətin adına verilib, ölkənin rəsmi dili Türk dili olaraq qəbul edilsə də, sonralar fərqli tarixi talelər fərqli nəticələrə gətirib çıxarmışdır.

Bütün bu reallıqları dərk edə-edə, indi bəzi tədqiqatçıların, arışdırmaçıların Türk dilinə qarşı "Azərbaycan dili"ni əsaslandırmağa çalışmaları başa düşüləndirsə, ancaq onların bunun sübutu üçün gətirdikləri "elmi dəlillər"in heç bir əsası yoxdur. Xüsusilə, Türk dilinin əleyhdarlarının iddia etmələri ki, "iki xalqın bir dili ola bilməz" müddəasının yuxarıda da gördüyümüz kimi heç bir əsası yoxdur. Bu mənada, tanınmış ictimai xadim **Qasım Qasımzadə** doğru yazırdı ki, tarixən də, hazırda da eyni dili paylaşan, ancaq müstəqil dövləti olan bir çox xalqlar (ispanlar, ərəblər, ingilislər və b.) vardır. Eyni zamanda, o, Güney Azərbaycan türklərinin də milli kimliklərini və milli dillərini türk olaraq gördüyünü, bu mənada Quzey Azərbaycan xalqının onlardan fərqli yol tutmasının mənasızlığını və mümkünsüzlüyünü ifadə etmişdir. Onun fikrincə, millətin və dilin adı cəbrən dəyişdiridiyindən tarixi əsaslarla onun yenidən bərpası, bir daha dürüstlüklə müəyyənləşdirilib konstitusiya mövqeyində sənədləşdirilməsinin milli taleyimiz üçün zəruriliyi mübahisə obyekti belə olmamalıdır [132[a]].

Eyni müddəalarla çıxış edən **Kamil Vəli Nərimanoğlu** da hesab edir ki, Stalinin "yeni dil" siyasətinə qədər (1936) Azərbaycan mütəfəkkirləri özlərinə türk deyiblərsə, yaxud da farslar, ermənilər və başqaları bizləri türk adlandırıbsa, "ana dili dərslikləri "Türk dili" adı ilə çıxıbsa, burada nəyi isə sübut etmək, xüsusilə, coğrafi adı olan Azərbaycan kəlməsini dilin, xalqın adı kimi iddia etmək hər cür elmi, tarixi, məntiqi əsasdan məhrumdur" [172, 48]. Nərimanoğlunun fikrincə, Türk dili anlayışını isə nə M.Ə.Rəsulzadə və onun silahdaşları, nə də N.Nərimanov və başqaları özlərindən icad etməmişdilər: "Bu xalqın adı belə idi: Türk. Bu xalqın əsrlər boyu yayılmış dilinin adı belə idi: Türk dili" [172, 49].

Ancaq 1995-ci ildə qəbul edilmiş Konstitusiyada təkrarən "Azərbaycan dili"nə qayıtmağımızın nəticəsidir ki, son dövrlərdə

Azərbaycan türklərinin etnik tərkibinin və milli dilinin türksüzləşdirilməsi artıq nəinki ayrı-ayrı yerli alimlərin kitablarında, monoqrafiyalarında, hətta rəsmi dövlət nəşrlərində də öz ifadəsini tapır. Məsələn, 2011-ci ildə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən iki dildə (Azərbaycan türk dili və ingilis dilində) nəşr olunan "Müstəqil Azərbaycan – 20 il" kitabında Azərbaycan Respublikasının əhalisinin milli tərkibi (2009-cu ilin rəqəmlərinə görə) aşağıdakı kimi verilmişdi: azərbaycanlılar 91, 6 %, ləzgilər 2,0 %, ermənilər 1,3 %, ruslar 1,3 %, talışlar 1,3 %, avarlar 0,6 %, türklər 0,4 %... (160, 98). Deməli, dövlətin bu rəsmi nəşrindən belə məlum olur ki, azərbaycanlılar və türklər başqa-başqa millətlərdir. Hətta, türklərin sayı nəinki azərbaycanlılardan, o cümlədən ləzgilər, ermənilər, ruslar, talışlar və başqalarından da qat-qat azdır.

Doğrudur, bu kitabı ərsəyə gətirənlər bəyan edə bilərlər ki, onlar Azərbaycan əhalisinin bir faizini belə təşkil etməyən türklər dedikdə, hansısa amillərdən (məsələn, Axıska türklərini nəzərdə tutaraq) çıxış ediblər. Əgər belə bir faktor olubsa, o hökmən qeyd edilməli idi. Əks təqdirdə yalnız türklərin deyil, o cümlədən onlarla bərabər ləzgilər, talışlar, avarlar və başqa azsaylı etnik qrupların ayrıca qeyd edilməsi, istənilən halda azərbaycanlıların ondan sonra qeyd edilənlərlə eyni milli tərkibi paylaşmamasını ortaya qoyur. Nəzərə alsaq ki, bu kitab iki dildə nəşr olunmuşdur, onda bu rəsmi nəşri oxuyan əcnəbi millətlərin azərbaycanlıların yalnız türklərdən deyil, talışlar, ləzgilər, kürdlər, tatlar, udinlər və başqa etnik azlıqlardan da fərqli bir millət olması qənaətinə gəlməsi təbiidir. Bu halda məlum olmur ki, azərbaycanlılar etnik mənşəcə kimdir, onlara məxsus "Azərbaycan dili" Türk dilinə nə dərəcədə doğma və yaxud da yaddır?

Maraqlıdır ki, bu kitabın doğma dilimizdə olan hissəsində dövlət dili "azərbaycan", ingilis dilində isə "azəri" adlandırılmışdı. Eyni zamanda bu kitabda qeyd olunduğuna görə "azərbaycanlı milləti"nin 99,7 faizi öz millətinin dilini ana dili sayır və öz

millətinin dilində, yəni "Azərbaycan dili"ndə danışırlar. Azərbaycan əhalisinin cəmi 0,4 faizini təşkil edən türklərin isə 83,7 faizi öz millətinin, yəni türk millətinin dilini ana dili sayır, ancaq onlardan 85,5 faizi "Azərbaycan dili"ndə [160, 99] danışırlar. Maraqlıdır bütün bu rəqəmləri Dövlət Statistika Komitəsi haradan əldə etmiş, hansı mənbələrə və faktlara əsaslanmışdır?

Bizcə, Azərbaycan əhalisinin böyük əksəriyyətini təşkil edən türklərin – Azərbaycan türklərinin çox cüzi bir azlıq kimi, bu kitabda təqdim olunması adi bir yanlışlıq ola bilməz!!! Əgər burada söhbət etnik azərbaycanlılardan gedirsə, o zaman qeyd olunmalıdır ki, əhalinin 91,6 faizi kimi göstərilən azərbaycanlılar məhz Azərbaycan türkləridir. Eyni zamanda əgər burada milli dildən bəhs olunursa, onda "Azərbaycan" deyil, ən azı "Azərbaycan türk dili" anlayışından istifadə olunmalıdır. Əks təqdirdə belə anlaşılır ki, azərbaycanlılar türk deyillər və onların türklərə dəxli olmayan ayrıca etnik kimliyi və dili vardır. Halbuki, Almaniya tədqiqatçısı V.Humboldtun təbirincə desək, hər bir millət ilk növbədə, müstəqil varlığına görə milli dilinə borcludur. Çünki dil millətin milli xüsusiyyətlərini əks edirən ideal bir varlıqdır [262, 47, 158].

Göründüyü kimi, bugünkü Azərbaycan Respublikasının qurulmasında Azərbaycan türkləri müstəsna rol oynamalarına baxmayaraq, onların özünəməxsusluqlarını ifadə edən amillərdən heç biri (milli kimliyi, milli dili və s.) Azərbaycan Konstitusiyasında öz əksini tapmamışdır. Hazırda faktiki olaraq başda Azərbaycan türkləri olmaqla, bütün Azərbaycan xalqının yazı və danışıq dili Azərbaycan türkcəsi (türk dili) olmasına baxmayaraq, bu dil Konstitusiyada "Azərbaycan dili" kimi öz ifadəsini tapmışdır. Halbuki, hazırda "Azərbaycan dili" adlanan Azərbaycan türkcəsini ana dil kimi, birmənalı şəkildə Azərbaycan türkləri qəbul edirlər. Bu mənada qeyri türklər, yəni azsaylı etnik qruplar – talışlar, ləzgilər, udinlər, tatlar, kürdlər və başqaları "Azərbaycan dili"ni türk dili hesab edərək, doğma dillərini də unutmurlar. Bu da təbiidir. Çünki etnik azlıqların dillərinin, demək olar ki, Azərbaycan türk dili ilə heç

bir qohumluq əlaqəsi yoxdur. Onlar ya "Qafqazdilli", ya da "İrandilli" dil ailəsinə daxildirlər. Deməli, bir millətin varlığı üçün son dərəcədə önəmli olan dilin adı məsələsində də faktiki olaraq güzəştə gedən, yəni doğma türk dilinin "Azərbaycan dili" adlandırılmasına etiraz etməyən Azərbaycan türkləri olmuşdur. Bu baxımdan, Dilqəm İsmayılov doğru qeyd edir ki, hazırda Azərbaycan türkünün adı və dili simvolik səslənir: "Əslində Azərbaycan türklərinin BMT-nin sənədlərində öz əksini tapmış identifikasiya (özünüeyniləşdirmə) hüququ, öz milli mənsubiyyətinin özlərinin müəyyənləşdirilməsi hüququ pozulmuşdur" [118, 101].

Qeyd edək ki, yalnız milli dil məsələsində deyil, milli mənsubiyyətlə də bağlı tolerantılqdan, barışdırıcı nöqtələrdən çıxış edərək milli kimliklərini-türklüklərini siyasi kimliklə-azərbaycanlılıqla eyniləşdirilməsinə razı olan da Azərbaycan türkləridir. Hər halda, 1995-ci il Konstitusiyasında milli kimlik, milli dillə bağlı məsələlərdə yalnız Azərbaycan xalqından və Azərbaycan dilindən bəhs olunur. Şübhəsiz, bütün bunlar onun göstəricisdir ki, Azərbaycan türkləri Azərbaycan Respublikasının yaranmasında aparıcı rol oynasalar da, ancaq bundan heç vaxt sui-istifadə etməyiblər və etmirlər də.

Bütün bunlara baxmayaraq, hətta bəzi əsərlərdə, məqalələrdə "Azərbaycan dili"nin əslində bir Türk dili, Azərbaycan mədəniyyətinin həm də bir Türk mədəniyyəti, Azərbaycan tarixinin həm də bir türk tarixi, Azərbaycan dövlətinin həm də bir türk dövləti, azərbaycanlıların əksəriyyətinin isə türk olmaları ilə bağlı fikirlər dərhal ciddi tənqidə məruz qalır. Bu isə o deməkdir ki, xüsusilə milli məsələlərdə tolerantlıqdan, xoşgörüdən, bəşərilikdən çıxış etməyin də müəyyən həddi olmalıdır. Əks təqdirdə həmin millətin özünün assimilyasiya olunaraq tarix səhnəsindən getməsi qaçılmazdır. Əgər bir dövlətin yaradıcısı olan bir millət tarix səhnəsindən gedəcəksə, fikrimizcə, o zaman həmin dövləti azsaylı etnik qruplarla saxlamaq mümkün olmayacaqdır.

4.2.4. Azərbaycançılıq: millilik və kosmopolitizm

Azərbaycançılıqdan bəhs olunarkən nəzərdən qaçan məsələlərdən biri də, Sovetlər Birliyi dövründə "Azərbaycan" və "türk" anlayışları, buna uyğun olaraq azərbaycançılıq və türkçülük ətrafında gedən ideoloji oyunlara aydınlığın gətirilməməsidir. Bizcə, bu məsələni aydınlaşdırmadan, türkçülük və azərbaycançlıqla bağlı hər hansı hökmlər çıxarmaq doğru deyildir. Çünki SSRİ rəhbərləri və ideoloqları Azərbaycan milli ideyasını - milli ruhlu azərbaycançılığı türkçülükdən ayırmaq, uzaqlaşdırmaq üçün SSRİ dövründə ona alternativ olan Sovet Azərbaycanı - beynəlmiləl və kosmopolit Azərbaycan ideyasını irəli sürmüşlər. Bununla da onlar bir tərəfdən milli ruhlu azərbaycançılığı beynəlmiləlçi-kosmopolit azərbaycançılıq halına gətirməyə çalışmış, digər tərəfdən onu türkçülüyə və islamçılığa qarşı qoymuşlar. Başqa sözlə, əgər azərbaycançılıq "üçlüy"ün, xüsusilə türkçülüyün əsasında yarandığı üçün ona sıx bağlı olduğu halda, sovet ideoloqlarının əlində isə o artıq beynəlmiləlçi-kosmopolit bir məna kəsb etdiyi üçün müvafiq olaraq "üçlüy"ə, o cümlədən türkçülüyə qarşı yönəldilmişdir. Bu baxımdan Azərbaycan filosofu Ə.Tağıyev doğru qeyd edir ki, "Sovet dövründə azərbaycançılıq bolşeviklərin əlində türkçülüyə və islamçılığa qarşı mübarizə vasitəsinə çevrilmişdi. Bolşeviklər istər-istəməz hər vasitə ilə azərbaycançılığı inkişaf etdirməli olmuş, hətta "türk dili"nin əvəzinə "Azərbaycan dili"nə vətəndaşlıq hüquqi qazandırmışlar. Onlar bununla Azərbaycanı İslam-türk aləmindən ayırıb daha sıx tellərlə Moskvaya bağlamağa cəhd göstərdilər" [217, 20].

Şübhəsiz, bolşeviklərin "azərbaycançılığı inkişaf etdirmələri" və Türk dilini Azərbaycan dilinə çevirmələrində də başlıca məqsəd milli mənlik şüurunun saxta beynəlmiləlçilik və kosmopolit şüurla əvəz olunmasına hesablanmışdır. Yəni bu, Ə.Tağıyevin hesab etdiyi kimi, heç də müsbət xarakter daşımamışdır. Əksinə,

bolşeviklərin və daşnakların apardıqları siyasət nəticəsində Azərbaycanda bir-birinə daban-babana zidd olan ikili nəzəriyyə meydana çıxmışdır. Beləliklə, Azərbaycan müstəqilliyini bərpa edənə qədər iki növ: 1) milli azərbaycançılıq (burada "milli azərbaycançılıq" anlayışını beynəlmiləlçi və kosmopolit azərbaycançılıqdan fərqləndirmək üçün işlədirik); 2) beynəlmiləlçi və kosmopolit azərbaycançılıq olmuşdu.

Burada aydınlıq gətirmək lazımdır ki, islamçılıq, türkçülük və qərbçiliyə əsaslanan Azərbaycan milli ideyası – milli azərbaycanıçılıq bütün bunlarla yanaşı, konkret hansı prinsipləri hədəfləmiş və onlardan bir addım da olsun geri çəkilmək istəməmişdir. Başqa sözlə, milli ruhlu azərbaycançılıq beynəlmiləlçi və kosmopolit azərbaycançılıqdan konkret hansı cəhətlərinə görə fərqlənmişdir? Bu mənada, fikrimizcə, milli azərbaycançılığın məzmun və mahiyyətinə aşağıdakı prinsiplər daxildir:

1. Ölkənin hər hansı quruluşla (sosializm və b.) idarə olunmasından asılı olmayaraq müstəqilliyinin vacibliyi;

2. Azərbaycan adının qorunub saxlanılması;

3. Müstəqil Azərbaycan dövlətində türklərin hakimiyyətdə, hökumət orqanlarında sayca çoxluğu təşkil edən əsas millət kimi təmsil olunması;

4. Müstəqil Azərbaycanda Türk dilinin dövlət dili olması;

5. Müstəqil Azərbaycanda Türk mədəniyyətinə (türk ədəbiyyatı, türk tarixi və s.) əsaslanmaq və onu inkişaf etdirmək;

6. Müstəqil Azərbaycanın dünyəvi dövlət olması ilə yanaşı, əhalinin əksəriyyəti müsəlman olan bir ölkədə İslama və onun əsas kitabı olan Qurana hörmətlə yanaşılması.

Göründüyü kimi, burada milli azərbaycançılığın əsas qayələri olan müstəqil və milli Azərbaycan, türk hökuməti, türk dili, türk mədəniyyəti, demokratik dəyərlər və islam inancı dəyişilməzdir. Bu mənada hesab etmək olar ki, Azərbaycan türkçülüyü ideyasının yaşaması üçün Cümhuriyyət dövründəki milli-demokratizm kimi, Sovet dönəmindəki sosial-demokratizmi də ona zidd hesab etməmək

olar. Yəni burada iki önəmli məsələ: 1) Azərbaycan türkçülüyü ideyası-azərbaycançılıqla; 2) Cəmiyyətin siyasi quruluşu bir-birindən fərqləndirilməlidir. Bu isə o deməkdir ki, Azərbaycan türkçülüyü ideyası istənilən siyasi quruluşda mövcud ola və inkişaf etdirilə bilər. Çünki millətin ideoloqlarının nəzərində Azərbaycan türkçülüyü ideyası-azərbaycançılıq əsas məqsəd olduğu halda, cəmiyyətin siyasi quruluşu həmin məqsədin gerçəkləşməsi yolunda bir vasitədir. Məsələn, Azərbaycan türkçülüyünün reallaşmasını "ittihadçılıq"da, sosial-demokratizmdə, liberal-demokratizmdə, milli-demokratizmdə və başqa ideyalarda da görənlər olmuşdur. Ancaq bunlardan hansının Azərbaycan türkçülüyü ideyasına yaxın və real olması isə zamanla sübut olunmalı idi. Bu baxımdan Azərbaycan Cümhuriyyəti dövründə cəmiyyətin siyasi quruluşunda milli-demokratizm əsas götürülmüş və bu mənada Azərbaycan türkçülüyü ideyasına zidd olan heç bir addım atılmamışdır. Əksinə, cəmiyyətin siyasi quruluşu ilə Azərbaycan türkçülüyü ideyası arasında mükəmməl bir uzlaşma yaranmışdır. Bu uzlaşma ilə barəbər demək olar ki, bu dönəmdə milli ruhlu azərbaycançılıq cəmiyyətin siyasi quruluşunun fövqündə dayanmışdır.

Çox təəssüflər olsun ki, eyni sözləri Sovet Azərbaycanı dövründəki siyasi quruluşla Azərbaycan türkçülüyü arasındakı münasibətlərə aid edə bilmirik. Doğrudur, Sovet Rusiyasının Azərbaycan Cümhuriyyətini işğalından sonra ilk dövrlərdə, onun yerinə hakimiyyətə gələnlərdən bir qismi başda N.Nərimanov olmaqla, milli azərbaycançılığa sadiq qalmağa çalışıblar. Xüsusilə, Nərimanovun Azərbaycan Sovet Cümhuriyyətində türk hökuməti, türk dili, türk mədəniyyəti uğrunda mübarizəsini inkar edə bilmərik. Bu o deməkdir ki, Nərimanov sosalist quruluşda bacardığı qədər Azərbaycanın türksüzləşdirilməsinə qarşı mübarizə aparmış, hətta özünün dediyi kimi, beynəlmiləlçi olduğu halda millətçiyə çevrilmişdir. Deməli, türk ruhlu azərbaycançılıq bir müddət SSRİ dövründə də qorunub saxlanılmağa çalışılmışdır.

Ancaq Cümhuriyyət dövründən fərqli olaraq Sovetlər Birliyi dönəmində Azərbaycan türkçülüyü ideyasını axıra qədər qoruyub saxlamaq mümkün olmadı. Bizə elə gəlir ki, milli şüuru zədələyən əsas işlərin təməli də əsasən, bu dövrdə qoyuldu. Belə ki, sovet ideoloqları üçün milli ruhlu azərbaycançılıq qəbul edilməz bir ideologiya idi və ona qarşı alternativ ideyanın yaranması lazım idi. Belə bir ideya isə tezliklə yarana bilməzdi. Bu baxımdan Sovet dövründə milli azərbaycançılığa qarşı qoyulmuş Sovet Azərbaycanı – beynəlmiləlçi və kosmopolit Azərbaycan ideyası tədricən meydana çıxdı və iki mərhələdən: 1) 1920-1936-cı illər; və 2) 1937-1991-ci illərdən keçməli oldu.

Beynəlmiləlçi və kosmopolit Azərbaycan ideyasının müəllifləri ilk mərhələdə milli azərbaycançılığa qarşı qəti şəkildə çıxa bilmədikləri üçün, sadəcə onu sübut etməyə çalışırdılar ki, Azərbaycan türkçülüyü osmançılıqdan və yaxud da Türkiyə türkçülüyündən tamamilə fərqli xüsusiyyətlərə malikdir. Başqa sözlə, bu dövrdə bir çox sovet ideoloqları Azərbaycan türkçülüyü ilə Türkiyə türkçülüyü arasındakı ziddiyyətlərdən, fərqlərdən bəhs edir, ancaq çox dərinə gedə bilmirdilər. Şübhəsiz, onların bütövlükdə türkçülüyə qarşı çıxmalarında başlıca əngəl türkçülüyü rəsmi olaraq (türk dili, türk milləti və s. kimi) Azərbaycan Cümhuriyyəti kimi Sovet Azərbaycanın da qəbul etməsi idi. Bu baxımdan 1920-1930-cu illərdə sovet ideoloqları və onların Azərbaycandakı məsləkdaşları Azərbaycan milli ideyasının tərəfdarlarını (H.Cavid, Ə.Cavad, B.Çobanzadə və b.) türkçlükdən daha çox osmançılıqda, osmanlı şivəsini və ədəbiyyatını Azərbaycanda təbliğ etməkdə, eyni zamanda panturanizmdə (türk birliyində), panislamizmdə (islam birliyində) ittiham edə bilirdilər.

Bununla da, sovet ideoloqları, o cümlədən bəzi yerli ziyalılar Azərbaycan türklüyünün Türkiyə türklüyündən tamamilə fərqli olması, hətta "osmanlı türkçülüyü" ideyasının Azərbaycan xalqına zərərli olmasının rəsmi şəkildə təbliğatına başlamışlar. Deməli, bu dövrdə sovet ideoloqları və onların təsiri altında olanlar pantürkizm

və panislamizm adları altında osmanlı türkçülüyünə, Türkiyəyə qarşı çıxır, ancaq Azərbaycan türkçülüyünə isə, hələlik toxuna bilmirdilər. Şübhəsiz, həmin dövrdə sovet ideoloqlarının qarşısında ən ciddi əngəl hər iki Cümhuriyyətin millətinin və dilinin türk adı daşıması, bir sözlə, müxtəlif siyasi quruluşlarda və dövlətlərdə yaşamasına baxmayaraq, vahid türklüyü ifadə etmələri idi. Bu baxımdan ilk mərhələdə, sovet ideoloqları Azərbaycan və Türkiyə türkçülüyünü qəbul etdikləri halda, nədən Türkiyə türkçülüyünün Azərbaycan türkçülüyünə zidd olması fikrini ciddi şəkildə əsaslandıra bilmirdilər.

Xüsusilə, 1923-cü ildə Osmanlı İmperiyasının yerində Türkiyə Cümhuriyyətinin qurulması, dilinin və millətinin adının türk kimi ifadə olunması, SSRİ imperiyası və onun ideoloqları üçün Azərbaycanı Türkiyədən ayırmağı daha da zorlaşdırmışdı. Bu baxımdan SSRİ-nin başçıları və ideoloqları Azərbaycan və Türkiyə türklərini bir-birindən ayırmaq üçün, ilk olaraq Azərbaycanın ərəb əlifbasından latın əlifbasına keçməsi məsələsini ortaya atdılar. Ancaq çox keçmədən, Türkiyənin də oxşar addım atması, artıq sovet ideooloqlarını Azərbaycan türkçülüyü üzərinə qəti hücuma keçməyə vadar etdi. Belə ki, rəsmi şəkildə SSRİ imperiyasının tərkibinə qatılmğa məcbur edilmiş Azərbaycanın öncə (1937) dilinin və millətinin adından "türk" anlayışı çıxarıldı, daha sonra (1940) latın əlifbası kiril əlifbası ilə əvəz edildi. Bununla da, SSRİ rəhbərlərinin və ideoloqlarının apardığı siyasət nəticəsində Azərbaycanda türklüyü rəsmi şəkildə ifadə edən, demək olar ki, heç bir nişanə qalmadı.

Bütün bunlardan sonra sovet rəhbələri və ideoloqları Azərbaycan türkçülüyü ideyasına – milli ruhlu azərbaycançılığa qarşı apardıqları siyasi-ideoloji mübarizənin ikinci mərhələsinə (1937-1991) başlamışlar. Artıq bu mərhələdə bolşeviklər bu günə qədər də öz aktuallığını itirməyən bir addım atmışlar; Azərbaycan türkçülüyünə, milli ruhlu azərbaycançılıq ideyasına qarşı "Sovet Azərbaycanı" adı altında beynəlmiləl və kosmopolit azərbaycançılıq ideyasının irəli sürmüşlər. Başqa sözlə, sovet ideoloqları dünənə

qədər milli azərbaycançılıq ideyasının əsasını təşkil edən türk dili, türk tarixi, türk ədəbiyyatı və s. anlayışlara rəsmi qadağa qoymuş, onların əvəzinə "Azərbaycan dili", "Azərbaycan ədəbiyyatı", "Azərbaycan tarixi" və sair bu kimi məfhumları irəli sürmüşlər. Eyni zamanda, sovet ideoloqları beynəlmiləl və kosmopolit azərbaycançılığı əsaslandırmaq üçün tarix, ədəbiyyat, dil və s. sahələrdə Azərbaycan türklərinin milli mənəvi dəyərlərini də saxtalaşdırmağa başlamışlar.

Milli ruhlu azərbaycançılığa qarşı kosmopolit azərbaycançılıq ideyasını irəli sürməkdə sovet rəhbərlərinin və ideoloqlarını əsas məqsədi ilk növbədə, Azərbaycanı türksüzləşdirmək, bu mənada milli mənlik şüurunu zədələmək idi. Çünki həmin dövrdə SSRİ ideoloqlarını narahat edən əsas məsələ eyni soykökü, dili, dini, mədəniyyəti, ədəbiyyatı paylaşan Türkiyə və Azərbaycan türklərinin ortaq dil, ortaq ədəbiyyat, ortaq əlifba və b. məsələlərdə daha da yaxınlaşması ilə Azərbaycanın Sovet Rusiyasının əlindən çıxması idi. Ona görə də, sovet ideoloqları Azərbaycanda türk milləti, türk dili, türk ədəbiyyatı, türk tarixinə qarşı, beynəlmiləl və kosmopolit azərbaycançılığın əsas prinsiplərini təşkil edən "Azərbaycan dili"ni, naməlum "Azərbaycan milləti"ni, Azərbaycan tarixini, Azərbaycan mədəniyyətini qoydular. SSRİ rəhbərləri və ideoloqları sübut etməyə çalışırdılar ki, Azərbaycanda yaşayan və əhalinin böyük əksəriyyətini təşkil edən xalq etnik mənşəcə türk deyil, türklərin assmilyasiyası nəticəsində türk dillərindən birində danışan farsdili, yaxud da qafqazdilli etnosların törəmələridir. Beləliklə, dünənki türklər azərbaycanlıya (bu zaman əsas assimilyasiya siyasəti Azərbaycan türklərinə qarşı yönəldilmişdir, çünki etnik azlıqların mənsubiyyətləri əvvəlki kimi dəyişilməz olaraq qalırdı), türk dili azərbaycan dilinə, türk teatrı Azərbaycan teatrına, türk ədəbiyyatı Azərbaycan ədəbiyyatına çevrildi. Halbuki tarixçi alim Yusif Yusifovun da qeyd etdiyi kimi, Sovet Rusiyasının antitürk əməllərinə qədər, yəni 1930-cu illərin sonuna kimi azərbaycanlılar "türk, türk xalqı", dili isə "türk dili" adlandırılmışdır [43, 231].

Bizcə, SSRİ dövründə, xüsusilə 1936-cı ildən sonra Azərbaycan milli ideyası – milli azərbaycançılıq birmənalı şəkildə Azərbaycan sovet ideyası – beynəlmiləlçi və kosmopolit azərbaycançılıqla əvəz olundu. Türk dilinin Azərbaycan dilinə çevrilməsi də, məhz "sovet Azərbaycanı" ideyasının möhkəmləndirilməsinin tərkib hissəsi idi. Əslində, 1936-cı ildən sonra Azərbaycan Cümhuriyyətinə aid milli nə varsa, demək olar ki, hamısından imtina olunmuşdu. Əvəzində Azərbaycan sovet ideyasına uyğun olaraq, kosmopolit azərbaycançılıq ideyası ortaya atılmışdı. Bununla da milli ruhlu azərbaycançılıqla beynəlmiləlçi və kosmopolit azərbaycançılıq üz-üzə qoyulmuşdur.

Gördüyümüz kimi, bütün dünya türklərinin, o cümlədən Azərbaycan türklərinin vahid ideya, konsepsiya ətrafında birləşə bilməməsi üçün antitürk, antiazərbaycan qüvvələri artıq bir neçə əsrdir ki, ona alternativ qeyri-milli ideyalar irəli sürmüşlər. Ən sonuncu halda isə, sovet ideoloqları türkçülükdən yaranan milli azərbaycançılığa qarşı, beynəlmiləlçi və kosmopolit azərbaycançılıq ideyasını qoymuşlar. Bununla da, istər-istəməz bir-birinə zidd iki: milli Azərbaycan və sovet Azərbaycanı ideyaları meydana çıxmışdır. Birincisi, türkçülüyün doğurduğu Azərbaycan milli ideyası – milli azərbaycançılıq olduğu halda, ikincisi rus müstəmləkəçiliyinin yaratdığı Azərbaycan sovet ideyası – kosmopolit azərbaycançılıq olmuşdur.

Bu gün ən çox təəssüf doğuran odur ki, bəzi hallarda SSRİ dövründə və ondan əvvəllər yaranmış milli və antimilli ideyaların mahiyyəti və məzmunu araşdırılmadan, onlar arasındakı fərqlər göstərilmədən hansısa hökmlər çıxarılır, xüsusilə sovet dövründə təməli qoyulmuş saxta beynəlmiləlçi və kosmopolit ruhlu azərbaycançılıq bəzi hallarda milli ruhlu azərbaycançılıqla eyniləşdirilir. Başqa sözlə, bəzən bilərəkdən və ya bilməyərəkdən kosmopolit azərbaycançılıq Azərbaycan milli ideyası kimi qələmə verilir, üstəlik "üçlüy"ə, o cümlədən türkçülüyə qarşı qoyulur. Bu zaman SSRİ dövrünün məhsulu olan kosmopolit azərbaycançılığın

türkçülüyə qarşı qoyulması isə məntiqi cəhətdən əsaslı görünür. Çünki bu halda sovet dövründə olduğu kimi, Azərbaycan ədəbiyyatı, Azərbaycan mədəniyyəti, Azərbaycan tarixi və Azərbaycan dili türk mədəniyyəti, türk dili, türk tarixi və türk ədəbiyyatından tamamilə fərqli şəkildə qələmə verilir. Halbuki Azərbaycan dilinin, ədəbiyyatının, mədəniyyətinin və tarixinin nüvəsini məhz türklük təşkil etmişdir və edir də.

Ancaq Azərbaycanda indinin özündə də bəziləri hesab edirlər ki, türk mədəniyyəti, türk dili, türk ədəbiyyatı və s. yalnız Türkiyə türklərinə məxsusdur. Bu mənada, artıq Azərbaycan xalqının öz mədəniyyətini, ədəbiyyatını, dilini, milli kimliyini türk adlandırması doğru deyildir. Şübhəsiz, bütün bunlar həqiqəti özündə əks etdirmir. Çünki Azərbaycan Respublikası müstəqil dövlət olmaqla yanaşı, həmişə türklüyün nüvəsi olmuş və olmaqda da davam edir. Bunu, son dövrlərdə Azərbaycanın Türkiyə və Orta Asiyanın türksoylu dövlətləri ilə yaxından əməkdaşlıq etməsi, bir sıra ortaq təşkilatların (Türkdilli dövlətlərin sammiti, Türksoy, Türk Parlament Assambleyası, TAKM və s.) yaranmasında aparıcı rol oynaması da göstərir.

Bu baxımdan, bizcə, hazırda Azərbaycan üçün önəmli məsələlərdən biri də məhz Türk dövlətləri arasında birliyin inkişaf etdirilməsidir. Ancaq dəqiqləşdirmək lazımdır ki, Türk birliyi dedikdə konkret nəyi nəzərdə tuturuq. Çünki bu, bir qədər geniş anlamdır. Burada söhbət konkret milli kimliyini, milli dilini, milli dövlətini türk olaraq qəbul edən toplumlardan gedə bilər. Ancaq bu məsələlərdə də bir qədər obyektiv və subyektiv səbəblərdən dolayı problemlər var. Məsələn, "Türk birliyi"nin içərisində nəzərdə tutulan ölkələrin (Türkiyə, Azərbaycan, Türkmənistan, Özbəkistan və b.) bir yerə toplanması Türkdilli dövlətlərin sammiti adlandığı halda, orada bir araya gələnlərin əksəriyyəti rus dilində danışırlar. Əlbəttə, problem yalnız sammitin adı, yaxud da oraya toplaşanların hansı dildə danışmaları ilə bağlı deyildir. Əsas problem bu türk dövlətlərinin hakimiyyətlərindən daha çox ayrı-ayrı müstəqil

ölkələrdə yaşayan, ancaq əsasən eyni soyu, dili, mədəniyyəti və tarixi paylaşan türk xalqlarının bir-birlərini hansı şəkildə dərk etmələri, qəbul etmələri ilə bağlıdır. Məsələn, SSRİ dövründə bu imperiyanın tərkibində yaşamağa məcbur olan Orta Asiya, Krım, Tatarıstan, Qafqaz, Sibir və başqa türk toplumları arasında iqtisadi, mədəni və s. əlaqələr heç də pis deyildi. Sadəcə, həmin dövrdə türk toplumlarının əsas əlaqə vasitəsi rus mədəniyyəti, rus dili, rus ədəbiyyatı idi. Qırğız, özbək, qazax, türk (Azərbaycan), türkmən, tatar və başqaları məhz məcbur olaraq rus dili və mədəniyyəti vasitəsilə bir-biri ilə əlaqə saxlayırdılar. Şübhəsiz, bütün bunlar nə qədər müstəmləkəçiliyə xidmət etsə də, müəyyən qədər onlar bir-biri ilə təmas yarada bilirdilər. Ancaq bu ölkələr müstəqil olduqdan sonra həmin səviyyədə eyni təmasları yarada bilməmişlər. Yalnız son zamanlarda bu istiqamətdə müəyyən addımlar atılmışdır ki, bəzi türk ölkələri heç də ortaq türk mədəniyyəti, ortaq türk dili və s. əsasında əlaqələrin yaradılmasında maraqlı görünmür. Bu, nə deməkdir? Bu onun göstəricisidir ki, SSRİ dövründə Mərkəz, yəni Moskva türk toplumlarını kölə halına gətirmək üçün türk dilini, türk mədəniyyətini, türk ədəbiyyatını və s. assimilyasiya etmiş və onun əvəzinə həmin xalqların şüuruna rus dili, rus mədəniyyəti və s. yürütmüşdür (Halbuki, rus mədəniyyətinin, rus ədəbiyyatının və sairənin əsas yaradıcılarından biri də elə türklərin özüdür). Bu gün isə biz könüllü şəkildə türk mədəniyyətinə, türk dilinə, türk ədəbiyatına, türk fəlsəfəsinə sahib çıxmaq istəmirik.

Bütün bunları nəzərə alaraq hesab edirik ki, Azərbaycan türk dövlətlərinin birliyinin yaranmasında öz aktiv iştirakını əməli şəkildə də ortaya qoymalıdır. Bunun üçün ilk növbədə, Azərbaycan türklərinin milli dili olan türk dili hər hansı formada Azərbaycanın Əsas Qanunda öz əksini tapmalıdır. Bunu, vaxtilə Azərbaycan Cümhuriyyətinin liderləri dövlət məktəblərində ortaq türk tarixi, türk ədəbiyyatı, türk mədəniyyəti, türk dili tədris etməklə Türk Federasiyasının tərəfdarı olduqlarını bariz şəkildə nümayiş etdirmişlər. Bizə elə gəlir ki, bu baxımdan Azərbaycan

Cümhuriyyəti (1918-1920) dövründə irəli sürülmüş Türk Federasiyasının yaradılması ideyası yenidən gündəmə gətirilməli, ilk növbədə bu addımı Türkiyə və Azərbaycan türk dövlətləri atmalıdırlar.

Burada daha bir incə məsələ, Türkiyə və Azərbaycan türklərinin eyni millət olması (identiklik) və eyni dili paylaşması ilə bağlıdır. Fikrimizcə, eyni millət adını daşımaq və eyni dili paylaşmaqla, heç də bir ölkə digər ölkənin varlığını gölgə altında qoymur. Əslində Türkiyə Cümhuriyyəti daxilində yaşayanlar Türkiyə vətəndaşları olduğu kimi, Azərbaycan Cumhuriyyəti sərhədləri çərçivəsində yaşayanlar da Azərbaycan vətəndaşlarıdır. Ancaq bütün bunlarla yanaşı, hər iki müstəqil ölkənin vətəndaşlarının böyük əksəriyyətinin türk kimliyini, türk dilini, türk ədəbiyyatını, türk fəlsəfəsini və sairəni paylaşması çox təbii bir haldır.

Bizcə, modernləşmənin vacibliyi, dövlətçiliyin qorunması, bütün etnik azlıqların maraqlarının nəzərə alınması adı altında türkçülüyün az qala radikal millətçilik, tarixə qovuşmuş və milli ruhlu azərbaycançılıqdan tamamilə fərqli bir ideya kimi qələmə verilməsi doğru deyildir. Hər bir milləti yaşadan və onun varlığını təsdiq edən milli ideyadır. Milli ideyanın son nöqtəsi isə milli və müstəqil dövlətin yaranmasıdır. Əgər biz Azərbaycan türkçülüyü ideyasını – azərbaycançılığı doğru şəkildə mənimsəsək, dünya xalqları arasında milli varlığımızı sona qədər sürdürmək çətin olmaz. Ancaq bu cür mənəvi-ideoloji məsələlər üzərində çalışan tədqiqatçı kimi hesab edirik ki, milli kimliyini, milli dilini, milli mədəniyyətini, milli tarixini (tarix fəlsəfəsini), milli ədəbiyyatını, bir sözlə milli mənlik şüurunu vaxtında dərk etməyən bir millət, bir toplum üçün dünya millətləri arasında özünü ifadə etmək də çətin olar. Çünki hər bir millətin tarix fəlsəfəsi o millətin keçmiş təcrübələri olmaqla yanaşı, eyni zamanda milli prinsiplərinin, milli şüurunun da arxividir [246, 135].

Hər bir Azərbaycan vətəndaşının milli mənəvi dəyərləri, yəni vahid vətəni, vahid dövləti qorumaq baxımından milli ruhlu

azərbaycançılıq ideyasının vacibliyini dərk etməsi ilə yanaşı, Azərbaycanda sayca çoxluq təşkil edən türklərlə, azlıq təşkil edən etnik qrupların (talış, ləzgi, tat, avar və b.) kimliyinə və dilinə sahib çıxmaları da təbii qarşılanmalıdır. Əks təqdirdə bir dövlətdə sayca əksəriyyəti təşkil edən Azərbaycan türklərinin, eləcə də etnik azlıqların keçmişi ilə gələcəyi arasında bağ qırılar, bununla da vahid millətin üzvləri vəhdətlikdən parəkəndəliyə üz tutarlar. Xüsusilə də, Azərbaycan Respublikasının yaranmasında mühüm rol oynayan və onun nüvəsini təşkil edən Azərbaycan türklərinin azərbaycanlı siyasi kimliyi ilə yanaşı, türk kimliyini və türk dilini qəbul etmələrini də təbii qəbul etmək lazımdır. Çünki hər hansı millətin varlığı o zaman əbədiyyən mümkün olar ki, L.N.Qumilyovun təbrincə desək, millətin və yaxud etnik birliyin hər hansı fəal qurucusu özünü əcdadlarının tutduğu xəttin davamçısı kimi görür və ona-milli ideyaya nə isə əlavə etmək istəyir. Bir növ üzərində keçmişlə varisliyin itməməsi və gələcək nəsilə ötürülməsi üçün, hansısa milli bir missiyanın olmasına inanır [263, 93].

Azərbaycan türkləri ilk növbədə, onun aydınları belə bir missiyanın məsuliyyətini dərk edirlər. Məhz bu milli missiyanı dərk etməyin nəticəsi kimi də, onlar dövlətçilik, vətənçilik, xalqçılıq mənalarında milli ruhlu azərbaycançılıq ideyasının vacibliyini irəli sürməklə yanaşı, Azərbaycan türklərinin etnik kimliyini və milli dilini də qoruyub yaşatmağa çalışırlar. Çünki bunlar olmadan Azərbaycan milli ideyasından – azərbaycançılıqdan bəhs etmək mümkün deyildir. Ən azı ona görə ki, milli ruhlu azərbaycançılıq ilk növbədə, Azərbaycan türklərinin müstəqil etnik kimliyi və milli dili uğrunda mübarizə nəticəsində yaranmış, bunun nəticəsi olaraq 1918-ci ildə Azərbaycan Cümhuriyyəti qurulmuşdur. Azərbaycan Cümhuriyyəti isə, digər etnik azlıqların rolunu azaltmadan, ancaq Azərbaycan türklərinin də aparıcı rolunu inkar etmədən keçmişdən süzülüb gələn milli mənəvi dəyərlərin çağdaş dövrün tələblərinə uyğunlaşdırılmış milli ideyasının nəticəsi idi. Sadəcə, əvvəlki dönəmlərdə də olduğu kimi (Ağqoyunlular, Qaraqoyunlular,

Səfəvilər, Qacarlar və b.), Azərbaycan türkləri yeni qurduqları dövləti yalnız bir türk dövləti kimi görməmiş, ona görə də yeni dövlətə "Azərbaycan" adı verməklə bütün azərbaycanlılar üçün ortaq nöqtədən çıxış etdiklərini rəsmən ortaya qoymuşlar. Ancaq bununla yanaşı, Azərbaycan milli ideoloqları təbii haqları olaraq Azərbaycan Cümhuriyyətinin dövlət dilini türk dili elan etmiş və bayraqlarında türklüyü ifadə etmişlər ki, istər Cümhuriyyət dövründə, istərsə də bir müddət Sovet Azərbaycanı dövründə (1937-ci ilədək) etnik azlıqlar tərəfindən bu heç bir narazlıq ilə qarşılanmamışdır.

Ancaq yuxarıda da qeyd etdiyimiz kimi, sonrakı dönəmlərdə artıq sovet ideoloqları vahid Azərbaycan dövlətçiliyinin təməlini sarsıtmaq, milli mənlik şüurunu zədələmək üçün bir tərəfdən Azərbaycan türkçülüyü ideyasına – milli azərbaycançılığa qarşı hücuma başlamış, digər tərəfdən türklər başda olmaqla azərbaycanlı siyasi kimliyi altında bütövləşən, vahidləşən siyasi bir milləti on üç etnik "millət"ə – erməni, fars, rus, kürd, talış, ləzgi və başqalarına bölmüşlər [154[a], 121-122]. Şübhəsiz, sovet ideoloqarı onu bu gün üçün, yəni Azərbaycanın bir gün müstəqil yaşaya biləcəyinə və həmin müstəqillik dövründə mərkəzdənqaçma meyillərinə hesablamışlar. Bunun ən bariz nümunəsi hazırda mövcud olan Dağlıq Qarabağdakı erməni separitzmidir. Ancaq müstəqil Azərbaycan Respublikasının həyatında bu yeganə hal olmamış, başqa etnik azlıqlar arasında da müəyyən dövrlərdə (1992-1993-cü illərdə) mərkəzdənqaçma halları baş vermişdir.

Ona görə də, milli şüurumuzda baş verən dəyişiklərdən doğru nəticə çıxarmalı, keçmişlə bu gün arasında varislikdən, ya da milli şüurun bərpasından bəhs edərkən elmi obyektivliyi gözləməli və süni, kosmopolit düşüncələrdən uzaq olmalıyıq. Bu baxımdan bugünkü azərbaycançılıq ideyası sovet dövründə zorla şüurumuza yeridilmiş kosmopolit azərbaycançılığa deyil, türkçülükdən təşəkkül tapmış milli ruhlu azərbaycançılığa əsaslanmalıdır. Əgər kimlərsə azərbaycançılığın türkçülüyə əsaslanmasını Azərbaycanın

çoxetnoslu dövlət olması, bu mənada etnik azlıqların maraqlarının nəzərə alınması baxımından təhlükə kimi görürlərsə, bizcə, yanılırlar. Ona görə ki, Azərbaycan Respublikasında yaşayan etnik azlıqlar kimi, bu dövlətin nüvəsini təşkil edən Azərbaycan türklərinin maraqlarının nəzərə alınması da eyni dərəcədə önəmlidir.

NƏTİCƏ

Milli ideologiya problemi hər millətin həyatında ümumi yanaşmalarla yanaşı, özünəməxsusluqları da inkar edə bilməz. Çünki hər bir millətin adət-ənənələri, mədəniyyəti kimi, mövcud həyat tərzi də fərqli xüsusiyyətlərə malikdir. Bu mənada, daha çox Şərq mədəniyyətinə, o cümlədən İslam-Türk dünyasına aid olan, ancaq bununla yanaşı, Qərbin-Avropanın mütərəqqi dəyərlərinə də biganə qalmayan Azərbaycan xalqının milli ideologiyaya münasibətində də özünəməxsuluq qaçılmazdır. Çünki Azərbaycan xalqı Şərq və Qərb mədəniyyətinin qovşağında yaşamaları ilə yanaşı, özü də bu mədəniyyətlərdən yalnız qidalanmamış, eyni zamanda onların yaranmasında və inkişafında müəyyən pay sahibi olmuşdur.

Azərbaycan milli ideyasının formalaşmasında da bu faktorlar mühüm rol oynamışdır. Hələ, XIX əsrin Azərbaycan mütəfəkkirləri (A.A.Bakıxanov, M.F.Axundzadə, H.Zərdabi) yaxşı anlayırdılar ki, Azərbaycan xalqının gələcəyi yalnız birtərəfli, yəni tamamilə İslam-Türk-Şərq mədəniyyəti ilə bağlı ola bilməz, müəyyən mənada Qərbin-Avropanın mütərəqqi dəyərlərinə də yiyələnmək lazımdır. Bu məqsədlə onlar Azərbaycan xalqının maariflənməsi və sivil cəmiyyətə çevrilməsi yolunda, bu və ya digər dərəcədə Qərb mədəniyyətinə də müraciət etmiş, İslam-Türk dünyasının bu hissəsində islahatlar aparmağa cəhdlər göstərmişlər. Əgər Bakıxanov bu məsələdə daha mühafizəkar mövqədən çıxış edərək Qərb mədəniyyətindən bəhs edərkən İslamın müasirliyini və üstünlüyünü önə çəkirdirsə, Axundzadə ondan fərqli olaraq İslam dinində radikal islahatlar aparılmasını və Qərb-Avropa mədəniyyətinin burada tətbiqini təklif etmişdir. Ancaq H.Zərdabi isə onlardan fərqli olaraq həm

hər iki mədəniyyətdən yararlanmağın faydalı olunmasını irəli sürmüş, həm də ümumilikdən xüsusiliyə doğru addım ataraq konkret Qafqaz-Azərbaycan müsəlmanlarının-türklərinin milli oyanışı üçün əməli işlər görməyə çalışmış, Azərbaycan milli ideyasının yaranması prosesini sürətləndirmişdir.

Fikrimizcə, 19-cu əsr mütəfəkkirlərmizin Azərbaycan milli idyeasının yaranması yolunda atdıqları ilk addımlar səmərəsiz qalmamış, onların davamçıları (Ə.Ağaoğlu, Ə.Hüseynzadə, Ə.Topçubaşov, M.Ə.Rəsulzadə, N.Yusifbəli və b.) azərbaycançılığın milli ideyaya çevrilməsi yolunda mühüm addımlar atmışlar. Şübhəsiz, onlar bu işə başlarkən sələflərinin Azərbaycan milli ideyası yolunda atıdığı ilk addımlardan ciddi "dərs" almış, bu milli dərs əsasında milli və müstəqil Azərbaycan yaratmağa çalışmışlar. Bizcə, Azərbaycan milli ideyasının müəyyənləşməsi zamanı milli ideoloqlar sələflərinin hər birinin ideyalarından yararlanmağa çalışaraq, onların milli dünyagörüşləri əsasında islamlaşmağı, türkləşməyi və yeniləşməyi-avropalaşmağı bir xətt olaraq qəbul etmişlər.

Bu mənada Ə.Ağaoğlunun İslam-Türk birliyinə əsaslanan "İslam millətçiliyi", Ə.Hüseynzadənin türkləşmək, islamlaşmaq və avropalaşmaq "üçlüy"ü, M.Ə.Rəsulzadənin və N.Yusifbəylinin bu "üçlük" əsasında Azərbaycan türkçülüyü ideyasını – azərbaycançılığı irəli sürməsi bir təkamülün nəticəsi idi. Bu təkamülün kökü nə qədər qədimlərə gedib çıxsa da, çağdaş mərhələdə onun yeni cizgiləri 19-cu əsrdə meydana çıxmış, 20-ci əsrin əvvəllərində isə Azərbaycan milli ideyasının və onun bariz nümunəsi olan Azərbaycan Cümhuriyyətinin (Respublikasının) yaranması ilə nəticələnmişdir.

Bütün Şərqdə, o cümlədən İslam-Türk dünyasında ilk demokratik dövlət olan Azərbaycan Respublikasının əsaslandığı ideologiya milli-demokratik bir ideologiya idi. Çünki bu respublikada milli və demokratik dəyərlər bərabərlik təşkil edir, ölkə sözün həqiqi mənasında demək olar ki, bütün vətəndaşların

maraqlarına uyğun olaraq idarə olunmuşdur. Hətta, həmin dövrdə Azərbaycan Milli hökumətinə müxalif olan, Azərbaycan parlamentində təmsil olunan bütün siyasi-ideoloji qüvvələrin (bolşeviklər, menşeviklər, ittihadçılar və b.) nümayəndələri belə, bu dövlətin demokratikliyini dəfələrlə etiraf etmişlər. Çünki Azərbaycan Respublikası Azərbaycan türklərinin milli azadlıq hərəkatı nəticəsində və onların nüvəsi ilə yaranmasına baxmayaraq, bu dövlətdə yaşayan yerli və gəlmə etnosların heç birinə qarşı ayrı-seçkilik siyasəti yürüdülməmiş, əksinə müəyyən mənada onlara güzəştlər belə edilmişdir.

Bu baxımdan Azərbaycan Cümhuriyyəti dövründə hər hansı bir millətin, yəni konkret olaraq Azərbaycan türklərinin mütləq üstünlüyündən söhbət gedə bilməzdi. Sadəcə, o dövrdə türk və türk olmayan bütün Azərbaycan vətəndaşları yaxşı anlayırdılar ki, bu dövlətin qurulmasında "üçlük" və ona əsaslanan Azərbaycan türkçülüyü ideyası (indiki anlamda azərbaycançılıq) mühüm rol oynamışdır. Ancaq bu ideyaların (islamlaşmaq, türkləşmək və avropalaşmaq-yeniləşmək) hər birində də Azərbaycan türk millətinin digər etnoslardan üstünlüyü deyil, Azərbaycana bağlılıq və demokratik dəyərlərə əməl olunması önə çəkilirdi. Beləliklə, Cümhuriyyət dövründə milli-demokratik dəyərləri özündə əks etdirən Azərbaycan milli ideyası–azərbaycançılıq yalnız Azərbaycan türklərinin və entik azlıqların (talış, kürd, ləzgi və b.) deyil, Azərbaycandakı milli azlıqlar (yəhudi, rus, alman, polyak və b.) üçün də qəbul edilən bir ideologiyaya çevrilmişdi. Doğrudur, sonrakı dönəmlərdə Azərbaycandakı bəzi milli azlıqlar, o cümlədən ruslar və ermənilər Azərbaycan Cümhuriyyətinin süqutunda müəyyən rol oynadılar. Ancaq bütün hallarda, müəyyən bir dövrdə milli-demokratik dəyərlərə əsaslanan azərbaycançılığın ən azı vətən və dövlət ideologiyası kimi üstünlüyünün olması faktı da danılmazdır.

Çox təəssüflər olsun ki, "üçlüy"ə əsaslanmaqla yanaşı, özündə vətənçilik, dövlətçilik və demokratik dəyərləri də birləşdirən Azərbaycan milli ideyası-azərbaycançılıq Azərbaycan Cümhuriyyəti işğal olunduqdan sonra sovetləşmə adı altında əvvəlcə təzyiqə və təqibə, daha sonra isə təhrif və simasızlaşdırmaqla üz-üzə qalmışdır. Belə ki, ilk dövrlərdə SSRİ rəhbərləri və ideoloqları Azərbaycan milli mütəfəkkirlərinə təzyiq göstərərək onları Türk və İslam dünyasından ayırmağa çalışmış, bu məqsədlə də onları pantürkist, panislamist adı altında repressiya etimişlərdir. Hətta, bu məsələdə onlarla bir yerdə sosializm uğrunda mübarizə aparan, ancaq milli-mənəvi dəyərlərə sadiq qalmağa çalışan N.Nərimanov, Ə.Xanbudaqov kimi şəxsiyyətlərə qarşı belə bolşeviklər amansız davranmışlar.

Beləliklə, milli ruhlu azərbaycançılığın təməl prinsiplərindən biri olan siyasi millət birliyini çoxlu etnik və gəlmə "millətlər"ə parçalayan sovet ideoloqları bir tərəfdən Azərbaycan üçün yeni problemlərin, xüsusilə də separtizmin əsasını qoymuş, digər tərəfdən Azərbaycan türklərinin milli kimliyinə və milli dilinə qəsd etmişdir. Bunu, süni şəkildə örtbasdır etmək üçün isə "Azərbaycan dili" və "Azərbaycan milləti" (etnik mənada) ortaya atılmış, sovet alimləri isə "yeni millətin" dilini və milli kimliyini əsaslandırmaq üçün mübarizəyə başlamışlar.

Türk kimliyinin və türk dilinin qadağan olması, əvəzində Azərbaycanda Azərbaycan türkləri ilə yanaşı, ən azı 13 "millət"in meydana çıxmasından sonra, irəli sürülən "yeni millət" və "yeni dil" ideyası milli mənlik şüurunun məhvinə yönəlmişdir. Belə ki, sovet ideoloqları bir tərəfdən Azərbaycan türklərinin milli mənlik şüurunu məhv etməyə çalışmış, digər tərəfdən sovetləşmə, "xalqlar dostluğu"- "beynəlmiləlçilik" adı altında kosmopolit şüur formalaşdırmağa çalışmışlardır. Bu "xalqlar dostluğu"- "beynəlmiləlçilik" ideologiyasına görə, Azərbaycan türklərinin milli kimlikləri və milli dilləri naməlum

"azərbaycanlı" etnik kimliyi və "Azərbaycan dili" adı altında unutdurulmalı, ancaq bu zaman digər etnik azlıqlar isə bu prosesdən kənarda saxlanılmalı idi. Etiraf edək ki, sovet rəhbərləri və ideolqları bu məsələdə Azərbaycan türklərinin milli şüurunu xeyli dərəcədə zədələməyə nail olmuşlar. Belə ki, sovet ideologiyasının təxribatı olan bu "yeni mllət" və "yeni dil" ideyası bu günə qədər də aktuallığını qoruyub saxlamaqdadır. Ən acınacaqlısı odur ki, bu faktordan nəinki Azərbaycanın xaricində, hətta daxilimizdə də sui-istifadə edənlər olmuşdur və indi də var.

Belə ki, SSRİ dövründə meydana çıxan "yeni millət" və "yeni dil"in varlığını Azərbaycanın daxilində müdafiə edənlər bu zaman ilk növbədə, etnik azlıqların maraqlarını önə çəkmişlər. Hələ, SSRİ dövründə bəzi Azərbaycan alimləri (İ.Əliyev, F.Məmmədova və b.) bu amillərdən çıxış edərək yazırdılar ki, "yeni dil" və "yeni millət" türklərlə deyil, ya qafqazdilli etnoslarla, ya da irandilli etnoslarla bağlıdır. Hətta, onların iddiasına görə, qədim dövrdə Azərbaycanda türklər deyil, qafqazdilli albanlar, ya da irandilli etnoslar ermənilərdən öncə bu bölgədə yaşamış, onlar son əsrlərə qədər burada aparıcı millət olmuşlar. Şübhəsiz, bütün bunlar SSRİ dövrünün rəhbərlərinin və ideoloqları tərəfindən ortaya atılmış, milli-türk ruhlu azərbaycançılığa qarşı yönəlmiş "xalqlar dostluğu"-"beynəlmiləlçi" azərbaycançılığın yeni dövrdəki təzahürləridir. Azərbaycan türklərinin milli kimliyinin və milli dilinin qəsdinə yönəlmiş "xalqlar dostluğu"-"beynəlmiləlçilik" ideologiyasının həyata keçirilməsində isə bəzi yerli alimlərin maraqlı olması da başa düşüləndir. Əgər sovet rəhbərləri və ideoloqlarına Azərbaycanın nüvəsini təşkil edən türklərin məhvi maraqlı idisə, bu yolda geniş imkan yaratdıqları bəzi yerli alimlərə də öz "millət"lərini təsdiq etdirmək önəmli idi. Bu baxımdan, Sovet Rusiyasının "parçala və hökm sür!" siyasətinə uyğun olaraq Azərbaycan dövlətinin nüvəsini təşkil edən türklərin məhv edilməsi,

əvəzində çoxlu "millət"lərin yaradılması prosesi dünənimizin acı bir reallığıdır.

Bu gün həmin reallıqları dərk edib nəticə çıxarmaq əvəzinə, bir çoxları hələ də SSRİ rəhbərlərinin və ideoloqlarının vaxtilə müəyyənləşdirdikləri "xalqlar dostluğu"-"beynəlmiləlçilik" ideologiyasını davam etdirməklə məşğuldurlar. Sadəcə, SSRİ dövründə bütün bunlar "xalqlar dostluğu"- "beynəlmiləlçilik" ideologiyası adı altında həyata keçirildiyi halda, indi onu azərbaycançılıq əvəz etmişdir. Bu zaman azərbaycançılıq dedikdə isə, daha çox ümumi müddəalar (biz azərbaycanlılarıq, Azərbaycan vətəndaşlarıyıq, Azərbaycan hamımızın vətəni və dövlətidir və s.) irəli sürülərək onun yaranması və inkişaf mərhələləri səthi şəkildə təqdim olunur.

Bu mənada, hazırda milli ideologiya ilə bağlı əsas problemlərdən biri milli-türk ruhlu azərbaycançılıqla SSRİ ideoloqlarının ortaya atdıqları "xalqlar dostluğu"-"beynəlmiləlçi" ruhlu azərbaycançılıq arasında dəqiq təsəvvürlərin olmamasıdır. Bu fərqlər nəzərə alınmadan ümumilikdə azərbaycançılıq türkçülük ideyasına qarşı qoyulur ki, bununla da səhv nəticələr çıxarılır. Hətta, iddia olunur ki, ümumilikdə azərbaycançılıq və türkçülük bir-birinə eynilikdən daha çox alternativlik təşkil edir. Deməli, ilk növbədə bu yanlış təsəvvürü aradan qaldırmaq lazımdır. Bunun üçün isə, türkçülük və azərbaycançılığı müqayisə etməzdən öncə, milli-türk ruhlu azərbaycançılıqla "xalqlar dostluğu"-"beynəlmiləlçi" ruhlu azərbaycançılığı bir-birindən ayırmaq lazımdır. Yalnız bu halda bəlli olacaq ki, türkçülük hansı azərbaycançılığa alterantiv, hansı ilə isə eynilik təşkil edir. Fikrimizcə, bu məsələlərə aydınlıq gətirmədən türkçülüyü azərbaycançılığa və yaxud əksinə azərbaycançılığı türkçülüyə qarşı qoyanlar, müəyyən mənada SSRİ ideoloqlarının ideyalarını yaşatmaqla məşğuldurlar. Ən maraqlısı isə odur ki, azərbaycançılıq və türkçülüyü bir-birinə

alterantiv kimi görənlər Sovet ideoloqlarının bu yönlü mülahizələrini də tamamilə inkar etmirlər.

Çağdaş dövrdə milli-türk ruhlu azərbaycançılığı yaradan türkçülükdən bəzən SSRİ-nin Azərbaycanı işğal etdiyi 1920-1930-cu illərin ab-havası fonunda bəhs olunur. Həmin dövrdə Sovet rəhbərliyi və onların ideoloqları türkçülük ideyasının Azərbaycan türklərinin yaddaşından silmək üçün təxminən 20 ilə qədər (1920-ci ildən 1936-cı ilədək) çalışdılar. Ancaq bu milləti asanlıqla diz çökdirə bilməyəcəklərini, yəni tək-tək onları öldürməklə, yaxud da müxtəlif şirinlikdirilmiş təkliflərlə işin bitmədiyini görüb 1930-cu illərdə bir tərəfdən kütləvi repressiyalara əl atmış, digər tərəfdən separtizmin əsaslarını işləyib hazırlamışlar. Unutmaq lazım deyil ki, sovet rəhbərliyi yalnız kütləvi repressiyalardan sonra türkçülüyü və onun Azərbaycanda bariz təcəssümüsü olan milli ruhlu azərbaycançılığı rəsmən qadağan etmiş, dünənə qədər milli kimliyi türk, milli dili türk dili adlanan bir millətin üstündən amanzıcasına xətt çəkmişlər. Yəni demək istədiyimiz odur ki, o zaman da türkçülüyü əngəl kimi görənlər olmuşdu. Ancaq onda türkçülüyü inkişafa əngəl kimi görənlər sovet rəhbərliyi və onların Azərbaycandakı əlaltıları idilər. Onlar deyirdilər ki, Azərbaycanın gələcəyi ancaq rus xalqı, onun mədəniyyəti, dili, ədəbiyyatı, əlifbası, bir sözlə rusun nəyi varsa onunla bağlıdır. Güya, türk kimliyi, türk mədəniyyəti, türk dili, türk ədəbiyyatı, bir sözlə türklüyə aid nə varsa, hamısı gerilikdir, inkişafa əngəldir.

Çox təəssüf ki, bu gün də türkçülüyü başqa formada gerilik, Azərbaycanın inkişafına, hətta, güya, liberalizmə, modernləşməyə və demokratiyaya əngəl kimi görənlər tapılır. Bütün bunlar türkçülüyün mahiyyətini saxtalaşdırmaqdan başqa bir şey deyildir. Hələ, 20-ci əsrin əvvəllərində Ə.Ağaoğlu, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə və başqa mütəfəkkirlərimiz türkçülüyün, o cümlədən onun bariz nümunəsi olan milli ruhlu

azərbaycançılığın liberalizmə, demokratiyaya zidd olmadığını, əksinə onlarla üst-üstə düşdüyünü elmi-nəzəri cəhətdən əsaslandırmışlar. Bu baxımdan hər hansı mənada azərbaycançılığın yaranmasında mühüm rol oynayan türkçülüyü liberalizmə, demokratiyaya, modernləşməyə zidd sayanlar ya məsələnin əsil mahiyyətini bilmirlər, ya da bilərəkdən bu cür mülahizələr irəli sürürlər.

Unutmaq olmaz ki, bütün zamanlarda və indinin özündə də, müəyyən istisnaları nəzərə almasaq, hər bir dövlətdə onun aparıcı nüvəsini əsasən, bir millət təşkil etmişdir. Digər etnik azlıqlar isə, həmin dövlətlərin tərkibində müəyyən nüfuzlarına görə bu və ya digər dərəcədə iştirak etmişlər və ya edirlər də. Hətta, əgər bir dövlətin (İsveçrə, Kanada, Belçika və b.) yaranmasında və hazırkı durumunda iki ayrı-ayrı millət eyni rolu oynamışdırsa, bu da həmin dövlətin Konstitusiyasında (milli dil və s.) öz əksini tapmışdır. Yəni hər bir inkişaf etmiş dövlətdə başa düşürlər ki, vətəndaşlıq, yurddaşlıq yəni dilindən, etnik mənsubiyyətindən asılı olmyaraq yaşadıqları dövlətdə bərabər hüquq və azadlıqlara malik olmaları ilə yanaşı, bu ölkədə əksəriyyəti təşkil edən bir millətin milli kimliyinə, milli dilinə də göz yumula bilməz. Bu mənada, Azərbaycan Respblikasında yaşayan Azərbaycan türklərinin də hər hansı formada milli dilinin və milli kimliyinin Konstitusiyada öz əksini tapması istəyi təbiidir. Fikrimizcə, bunu etnik azlıqlara qarşı şovinist siyasət, yaxud da dövlətçiliyə qarşı təhlükə kimi dəyərləndirmək doğru deyildir.

Ona görə də milli ruhlu azərbaycançılıqla türkçülüyü bir-biri ilə uzlaşdırmaq əvəzinə, əksinə onları bir-birinə tamamilə alternativ kimi qələmə vermək Azərbaycan dövlətinin bu günü və gələcəyi üçün çox təhlükəlidir. Azərbaycan milli ideyası dedikdə kosmopolit, ya da qeyri-müəyyən bir ideya deyil, türkçülüyə, vətənçiliyə, dövlətçiliyə, islamçılığa, modernləşməyə əsaslanan milli ruhlu azərbaycançılıq önə

çəkilməlidir. Çünki milli ruhlu azərbaycançılıq vətənçilik, dövlətçilik anlayışları kimi, türkçülük və islamçılıqdan da güc alır. Fikrimizcə, bu cür nəzər nöqtəsindən azərbaycançılıq etnik və dini mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşın milli ideyası ola bilər.

ƏDƏBİYYAT VƏ QAYNAQLAR

Azərbaycan Türk dili

1. Abdulla Kamal. Dilçiliyə səyahət. Dilçi olmayanlar üçün dilçilik. Bakı, Mütərcim, 2010, 200 səh.
2. Abbasov Əbülhəsən F. Milli ideologiyanın formalaşmasında Heydər Əliyev irsinin rolu// Ümummilli Lider Heydər Əlirzaoğlu Əliyevin irsi və milli ideolgiyanın formalaşması məsələləri. Bakı, "Elm və təhsil", 2010, 424 səh.
2[a]. Abbasov Ə. F. Milli ideologiya birləşdirici məna-simvol kimi // Milli strategiyalar, ideolgiyalar və beynəlxalq münasibətlər: tarix, nəzəriyyə və müasir praktikalar. Bakı, "Elm və təhsil", 2012, 752 s.
2[b]. Abbasov Ə.F. Milli maraqlar və milli ideologiya. Bakı, Təknur, 2012, 240 s.
2[c]. Abbasov Aydın. Milli dövlətçilik məfkurəsi və layiqlik (genezis və təkamül). Bakı, "Bakı universiteti", 2002, 252 səh.
3. Ağamirov Midhət. Abdulla Şaiqin dünyagörüşü. Bakı, Maarif, 1982.-244 s.
4. Ağamalıoğlu Səmədağa. Elmdən və tarixdən. – Bakı, 1927, 24 səh.
5. Ağaoğlu Əhməd. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb",2007, 392 s.
6. Ağaoğlu Ə. İslama görə və islamda qadın // "Mədəniyyət dünyası" - elmi-nəzəri məcmuə, 12 buraxılış,Bakı, 2006, 452 s.
7. Ağaoğlu Ə. İttihadi-islam və panislamizm məsələsi // "İrşad" qəz., 10 aprel 1906-cı il, №86
8. Ağaoğlu Ə. Üç mədəniyyət. – Bakı: Mütərcim, 2006, 154 s.
9. Ağaoğlu Ə. Materializmin təntənəsi və əsassızlığı. "Kaspi" qəz., №3, 4 yanvar 1908-ci il
10. Ağaoğlu Ə. Millət və millətçilik. "Tərəqqi" qəz., 1909, 22 yanvar №16, 26 yanvar №19, 29 yanvar №22, 5 fevral №28
11. Ağamirov M. M. Birinci rus inqilabı illərində Azərbaycan ictimai fikrində milli məsələyə dair. Bakı, Azərnəşr, 120 səh.
12. Ağayev Müstəqil. Məhəmməd Əmin Rəsulzadə. Bakı, Nurlan, 2006,144 s.
13. Ağayev M.B. Azərbaycan ictimai fikrində milli məsələ (1917-

1920-ci illər). Bakı, Nurlan, 2007, 148 səh.
14. Ağayev M.B. Hüseyn Cavidin dünyagörüşü. Bakı, Təknur, 2005.
15. Ağayev M.B. XX əsr Azərbaycan ictimai və fəlsəfi fikrində din problemi. Bakı, "Nurlan", 2008, 168 səh.
16. Ağazadə Fərhad (Şərqli). Türk dilinin dirilmək və zənginləşdirilmək yolları (tükənəklər). Bakı, 2006. – 48 səh.
17. Axundzadə Əbuturab. Bizə hansı elmlər lazımdır?// "Həyat" qəz.,1906, 17 may, №106.
18. Axundzadə Ə. İslamın təfriqəsi səbəbləri. Bakı, Azərnəşr, 1993.
19. Axundzadə Əbdüssalam. Müqəddəs peyğəmbərlər tarixi. Bakı, Azərnəşr, 1993, 140 s.
20. Axundov Ruhulla. Seçilmiş əsərləri. Bakı, Azərnəşr, 1977, 208 s.
21. Axundzadə Mirzə Fətəli. Əsərləri. Üç cilddə. II cild. Bakı: "Şərq-Qərb", 2005, 376 s.
21[a]. Axundzadə M.F. Əsərləri. Üç cilddə. III cild. Bakı, "Şərq-Qərb", 2005, 296 səh.
22. Akçuraoğlu Yusif. Türkçülüyün tarixi. Bakı, Qanun, 2010, 272 s.
23. Anar. Azərbaycançılıq haqqında düşüncələr. Bakı, Nurlan, 2003.
24. Atsız Nihal H. Məqalələr. Bakı, "Şəms" nəşriyyatı, 2005, 200 s.
25. Atatürkün Azərbaycan siyasəti (öz dili ilə). Bakı, Çaşıoğlu, 2008,84 s.
25[a]. Araz Məmməd. Seçilmiş əsərləri. İki cilddə. I cild.Bakı: 2004, "Lider", 224s.
26. Azərbaycan ədəbi dili tarixi (sovet dövrü). 3-cü cild. Bakı, Elm, 1982, 254 s.
27. Azərbaycan Kommunist Partiyasının oçerkləri. İki cilddə I cild, Bakı: Azərnəşr, 1986, 503 s.
28. Azərbaycan mətbuat tarixi antologiyası (2 cilddə 1 cild). Bakı, "Elm və təhsil", 2010. – 440 səh.
29. Azərbaycan mətbuat tarixi antologiyası (2 cilddə II cild). Bakı, "Elm və təhsil", 2011. – 440 səh.
30. Azərbaycan publisistikası antologiyası. Bakı, "Şərq-Qərb", 2007.
31. Ayvazov Həsən Səbri. Nədən bu hala qaldıq?// "Füyuzat" jur., №12, 1907, 15 mart.
32. Ağayev İbrahim. Müasir şəraitdə Azərbaycanda milli-etnik proseslər. Bakı, "MBM", 2006, 180 səh.

33. Ağayev F.İ. İsmayıl Hikmət və Azərbaycan ədəbiyyatı. Bakı, 2004, 132 s.
34. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (steno-qraifk hesabatlar). I c. Bakı, "Azərbaycan" nəşriyyatı, 1998. – 976 s.
35. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (steno-qraifk hesabatlar). II c. Bakı, "Azərbaycan" nəşriyyatı, 1998. – 992 s.
36. Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil, mədəniyyət quruculuğu). Bakı, "Elm" nəşriyyatı, 1998, 298 s.
36[a]. Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyası. 2-ci cilddə. I cild. Bakı, "Lider" nəşriyyatı. 2004, 440 s.
36[b]. Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyası. 2-ci cilddə. II cild. Bakı, "Lider" nəşr. 2005, 470 s.
37. Abid Əmin (Gültəkin). Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007.
38. Azərbaycan sovet ədəbiyyatı tarixi. II cilddə 1-ci cild. Bakı, Azərnəşr, 1967.
39. Azərbaycan SSR qanunları, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti fərmanları və Azərbaycan SSR hökuməti qərarlarının xronoloji külliyyatı. 1-ci cild (1920-1935). Bakı, 1960, 260 səh.
40. Azərbaycan SSR qanunları, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti fərmanları və Azərbaycan SSR hökuməti qərarlarının xronoloji külliyyatı. 2-ci cild (1936-1945). Bakı, 1961, 393 səh.
41. Azərbaycan SSR Konstitusiyası(Əsas Qanun).B:,1937,98 s.
41[a]. Azərbaycan SSR Konstitusiyası (Əsas Qanunu). Bakı, 1947,34 s.
41[b]. Azərbaycan SSR Konstitusiyası (Əsas Qanun). Bakı, 1954, 38 s.
41[c]. Azərbaycan SSR Konstitusiyası (Əsas Qanun). Bakı, 1959, 31 s.
41[d]. Azərbaycan SSR Konstitusiyası (Əsas Qanun). Bakı, 1937, 98 s.
42. Azərbaycan tarixi. Üç cilddə. 3-cü cild. Bakı, "Elm", 1973,548 s.
43. Azərbaycan tarixi. Dərslik. Bakı: Azərnəşr, 1994, 680 səh.
44. Azərbaycan tarixi. Yeddi cilddə, V cild. Bakı: Elm, 2008. - 696 s.
45. Azərbaycan tarixi. Yeddi cilddə. VI cild. Bakı: Elm, 2008. -568 s.
46. Azərbaycan tarixi. Yeddi cilddə.VII cild. Bakı: Elm, 2008.-608 s.
46[a]. Azərbaycan tarixi. Dərslik. Bakı: Azərnəşr, 1994, 680 səh. (redaktorlar: Z.M.Bünyadov və Y.B.Yusifov)
47. Azərbaycan türk xalq şivələri lüğəti. 1 cild. 1-ci buraxılış. "A" hərfi. Bakı, Az.DETİ nəşriyyatı, 1930, 250 səh.
48. Azərbaycan-Türkiyə münasibətləri (1920-1922). Sənədlər və

materiallar. Bakı, "Orxan" nəşri., 2003, 334 s.
49. "Azərbaycan" qəzeti, 24 noyabr, 1998-ci il.
50. Bağırov Şahin. Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğunun siyasi aspektləri. Bakı, 2006, "MBM", 124 s.
50[a]. Bakıxanov A.A. Seçilmiş əsərləri. Bakı, 2005, 488 s.
51. Balayev Aydın. Məmməd Əmin Rəsulzadə (1884-1955). Bakı, 2011, 288 səh.
52. Baykara Hüseyn. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, "Azərnəşr", 1992, 276 s.
53. Bayramoğlu A.M. Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat. Bakı, "Elm", 2003, 276 səh.
53[a]. Bayramov B., Qurbanqızı J. Yaşar Qarayev: milli yaddaş təlimi - azərbaycançılıq. Bakı, BDU nəşriyyatı, 2001, 138 səh.
54. Bünyadov Ziya. Qırmızı terror. Bakı,Azərnəşr, 1993, 331 s.
55. Cabbarlı Cəfər. Əsərləri. Dörd cilddə. I cild. Bakı, Şərq-Qərb, 2005, 328 s.
56. Cabbarlı C. Əsərləri. Dörd cilddə. 2 cild. Bakı, Şərq-Qərb, 2005.
57. Cabbarlı C. Əsərləri. Dörd cilddə. 4 cild. Bakı, Şərq-Qərb, 2005.
58. Cavad Əhməd. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2005, 296 s.
59. Cavid Hüseyn. Əsərləri. Beş cilddə. I cild. Bakı, "Lider nəşr.", 2005, 256 s.
60. Cavid H. Əsərləri. Beş cilddə II cild. Bakı, "Lider", 2005, 352 s.
61. Cavid H. Əsərləri. Beş cilddə III cild. Bakı, "Lider", 2005, 304 s.
62. Cavid H. Əsərləri. Beş cilddə IV cild. Bakı, "Lider", 2005, 256 s.
63. Cəfəroğlu Əhməd. Seçilmiş əsərləri.Bakı: Mütərcim,2008, 408 s.
64. Cəfərov Nizami. Seçilmiş əsərləri. I cild. Bakı:"Elm",2007,352 s.
65. Cəfərov Nizami. Azərbaycanşünaslığın əsasları. Bakı, Pedaqogika, 2005. 256 s.
65[a]. Cəfərov Nizami. Mühacirət poeziyası Səməd Vurğun səviyyyəsində deyil. http://modern.az/articles/46610/1/.
65[b]. Cəfərov Nizami. YAP-çı deputat Rəsulzadənin tarixi səhvlərini sadaladı. http://virtualaz.org/uzbeuz/14076
66. Cəfərov Nazim. Milli-ictimai fikir tariximizdən (1914-fevral, 1917). Bakı: Azərnəşr, 1993, 80 səh.
67. Çəmənzəminli Y.Vəzir. Əsərləri. Üç cilddə. III cild. Bakı, 2005, 440 s.

68. Çobanzadə B. Seçilmiş əsərləri. 5-ci cild. Bakı, "Şərq-Qərb", 2007, 264 səh.
69. Dadaşzadə A.M. Seçilmiş əsərləri.3 cilddə 1-ci cild. Bakı, 1967, 620 s.
70. Dəmirçizadə Ə.M. Azərbaycan ədəbi dili tarixi xülasələri (20-ci əsrə qədər). Bakı, XMQ nəşriyyatı, 1938, 71 səh.
71. Dildə, fikirdə, işdə birlik. İ.Qaspıralı 1851-1914. Bakı, Qartal, 2002, 242 səh.
72. Daşdəmirov Ə.F. Millət və cəmiyyət tarixin sərt dönəmlərində. Bakı: "Elm", 2008. – 344 səh.
73. Elçibəy Əbülfəz. Deyirdim ki, bu quruluş dağılacaq. Bakı, Gənclik, 1992, 96 s.
74. Elçibəy Ə. Bütöv Azərbaycan yolunda.Bakı, "Nurlar", 2004,376 s.
75. Əfəndiyev S.M. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, 1988.
76. Əfəndiyev S.M. Seçilmiş əsərləri. İki cilddə. 2-ci cild. Bakı, 1990.
77. Əhmədli Rafail. Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsi: türkçülük, müasirlik, islamçılıq. Bakı, "Elm", 2007,280 s.
78. Əhmədli R. Azərbaycan dövlətçilik fəlsəfəsi. Bakı, "Nurlan", 2008. -360 s.
79. Əhmədov H.M. Nəriman Nərimanov (həyatı, fəaliyyəti, pedaqoji və tibbi fikirləri). 2004, Bakı, -284 s.
79[a]. Əhmədov Ə.M. Azərbaycanda marksizm-leninizm fəlsəfəsi ideyalarının yayılması. Bakı, Azərnəşr, 1962, 120 səh.
80. Əhmədova Firdovsiyyə. Nəriman Nərimanov – İdealı və gerçəkçilik. Bakı, "Elm və həyat" nəşriyyatı, 1998, 170 səh.
80[a]. Əliyeva (Kəngərli) A. Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük. Bakı, "Elm", 2002, 332 səh.
81. Ələkbərov Faiq (Qəzənfəroğlu). Məhəmməd Əmin Rəsulzadənin dünyagörüşü. Bakı "Elm", 2007, 270 səh.
81[a]. Ələkbərov Faiq (Qəzənfəroğlu). Azərbaycan Respublikasının varislik problemi: "türkçülük" və "azərbaycançılıq" //Milli strategiyalar, ideologiyalar və beynəlxalq münasibətlər: tarix, nəzəriyyə və müasir praktikalar. Bakı, "Elm və təhsil", 2012, 752 s.
82. Əliyev H.Ə. Müstəqillik yollarında.I c.,IV cilddə, Bakı, "Azərbaycan", 1997.
83. Əliyev H.Ə. Müstəqillik yollarında.II c., IV cilddə, Bakı,

"Azərbaycan", 1997
84. Əliyev H.Ə. Müstəqillik yollarında. III c., IV cilddə, Bakı, "Azərbaycan", 1997.
85. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. 1-ci kitab. Bakı: Azərnəşr, 1997, 597 s.
86. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. 2-ci kitab. Bakı: Azərnəşr, 1997, 604 s.
86[a]. Əliyev İ.Ə. 28 May – Respbulika Günü münasibətilə rəsmi qəbulda İ.Əliyevin nitqi. http://president.az/articls/5170
86[b]. Əliyev İ.Ə. Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respbulikasının Prezidentinin sərəncamı. "Azərbaycan" qəz., 23 noyabr 2013-cü il, http://president.az/articles/10239
86[c]. Əliyev İ.Ə. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısında İlham Əliyevin nitqi. "Azərbaycan" qəz., 17 avqust 2013-cü il, http://president.az/articles/9059
86[d]. Əliyev İ.Ə. İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın mətbuat üçün birgə bəyanatları. "Azərbaycan" qəz., 14 noyabr 2013-cü il. http://president.az/ articles/10203
87. Əsədli M. Yusif Ziya Talıbzadənin həyatı və mühiti. Bakı, Nurlan, 2005, 190 s.
87[a]. Füyuzat (1906-1907). Bakı: Çaşıoğlu,2006. 672 s.
87[b]. Fətəli Xan Xoyski. Həyat və fəaliyyəti (sənəd və materiallar), Bakı, "Azərbaycan", 1998, 152 s.
88. Gökalp Ziya. Türkçülüyün əsasları.Bakı:Maarif,1991,175 s.
89. Göyüşov Altay. Azərbaycanda ittihadçılıq. Bakı, "İrşad", 1997.
90. Göyüşov Ziyəddin. İslam dininin bayram və ayinlərinin mənşəi və onların mürtəce mahiyyəti. Bakı, 1953, 52 s.
91. Hacıbəyli Üzeyir. Bir yaş// "Azərbaycan" qəz.,1919-cu il, 28 may, №190
92. Hacıbəyli Üzeyir. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı, 2005.
93. Hacıbəyli Üzeyir. Nəşrlərdə kənara qoyulmuş, ixtisar və "redaktə" edilmiş əsərləri. Bakı, "Elm", 2010, 236 s.
94. Hacıyeva Arzu Əşrəf qızı. N.Nərimanovun din haqqında fəlsəfi düşüncələri. Bakı: Az. Ensiklopediyası NPB,1998,168 s.
95. Hacıyeva A.Ə. Xalqın musiqi dühası və ruhunun əbədi mənbəyi:

Üzeyir Hacıbəyovun muğam hermenevtikası// "Elmi əsərlər" jur., 2012, №1 (18).
96. Hacıyev Rövşən. "Xalq" anlayışına dair. "Azərbaycan arxeologiyası və etnoqrafiyası" elmi jurnalı, 2012, №1
97. Hadi Məhəmməd. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2005.
98. Haqverdiyev Əbdürrəhman. Seçilmiş əsərləri. İki cilddə.II cild. Bakı, "Lider", 2005, 408 s.
99. Həsənov Həsən Əziz oğlu. Türklüyümüz. Bakı, AzAtaM, 2007.
100. Həsənov H.Ə. Nəriman Nərimanov – milli təmayüllü kommunist. Bakı: Pedaqogika 2004. – 80 səh.
101. Həsənov Əhməd. Azərbaycan maarifçiləri tərəfindən islamın tənqidi (XIX əsrin ikinci yarısı XX əsrin əvvəlləri). Bakı, Yazıçı, 1983. 224 səh.
102. Həsənov Ə., Mustafayev Q. İslamın mahiyyəti. Bakı, Azərnəşr, 1967, 212 s.
103. Həsənli Cəmil. Azərbaycanda milli məsələ: siyasi rəhbərlik və ziyalılar (1954-1959). Bakı, Adiloğlu, 2008, 544 s.
103[a]. Həsənzadə Nəriman. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2004, 336 səh.
104. Hüseynov Şahnəzər. Əhmədbəy Ağaoğlunun dünyagörüşü. Bakı: Azərnəşr, 1998, 107 səh.
105. Hüseynov Şirməmməd. Müstəqilliyin çətin yolu... Biz hara gedirik. Bakı: Azərnəşr, 1996, 326 s.
106. Hüseynov Ş. Mətbu irsimizdən səhifələr. Bakı, "Çənlibel" NPM, 2007, 484 s.
107. Hüseynov Heydər. Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən. Bakı, "Şərq-Qərb", 2007, 400 s.
108. Hüseynzadə Əli bəy. Türklər kimdir və kimlərdən ibarətdir? Bakı, Mütərcim, 1997.
109. Hüseynzadə Ə. Seçilmiş əsərləri.Bakı,"Şərq-Qərb", 2007, 480 s.
110. Hüseynzadə Ə. Siyasəti-fürusət. Bakı: Elm, 1994. 236 səh.
111. Hüseynzadə Ə. Seçilmiş əsərləri. İki ciddə. II cild.Bakı:Çaşıoğlu,2008.496 s.
112. Xəlilov S.S. Lider. Dövlət. Cəmiyyət. Bakı, "Azərbaycan Universiteti", 2001,358 s.
113. Xəlilov S.S. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı,

"Azərbaycan Universiteti" nəşr., 2002, 232 s.
113[a]. Xəlilov S.S. Sivilzasiyalarası dialoq. Bakı, "Adiloğlu" nəşr., 2009, 252 səh.
114. Xudiyev Nizami. Azərbaycan ədəbi dilinin sovet dövrü. Bakı, 1989, 402 s.
115. İbrahimov Mirzə. Seçilmiş əsərləri. 4 cilddə, 3-cü cild. Bakı, 1972, 484 səh.
116. İldırım Almas. Seçilmiş əsərləri. Bakı, "Öndər", 2004, 160 s.
117. Xəlilov S.S. Elm adamları elm haqqında. Professor Səlahəddin Xəlilovun təqdimatında. Bakı, "Çaşışoğlu", 2010 – 312 səh.
118. İsmayılov Dilqəm. Azərbaycanın transformasiya prosesində ideologiyalar: konservatizm, liberalizm, sosial-demokratiya. Bakı, "Adiloğlu" nəşriyyatı-2005, 344 s.
119. Köçərli Firidun Bəy. Azərbaycan ədəbiyyatı. İki cilddə. I cild. Bakı, 2005, 560 s.
120. Köçərli Firudin Qasım oğlu. Üzeyir Hacıbəyovun ictimai-siyasi görüşləri. Bakı, Azərnəşr, 1965, 92 səh.
121. Köçərli F.Q. Nəriman Nərimanov. Bakı, Azərnəşr, 1965, 340 s.
122. Köçərli F.Q. Marksizm-leninizm və Azərbaycanda demokratik ictimai fikir. Bakı, Azərnşər, 1976, 236 səh.
123. Köçərli F.Q. Din və onun mənşəyi. Bakı, Azərnəşr, 1964, 44 s.
124. Köçərli Tofiq. Qarabağ: yalan və həqiqət. Bakı: 1998, 244 səh.
125. Qarayev Yaşar. Azərbaycan realizminin mərhələləri. Bakı, Elm,1980, 258 s.
126. Qarayev Y. Azərbaycan ədəbiyyatı XIX və XX yüzillər. Bakı, Elm, 2002.
127. Qarayev Y. Tarix: yaxından və uzaqdan. Bakı, "Sabah", 1996.
128. Qaspıralı İsmayıl. Türküstan üləməsı.Bakı, "Örnək", 2001, 56 s.
129. Qasımov Mehbalı. XIX əsrdə Rusiyanın qabaqcıl ideyalarının Azərbaycanda ictimai fikrin inkişafna təsiri. Bakı, 1953, 46 səh.
130. Qasımov M. M.F.Axundovun islam dini əleyhinə mübarizəsi. Bakı, 1962.
131. Qasımzadə Fuad. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı,Maarif, 1966, 488 s.
132. Qasımzadə Qasım. Ədəbiyyatda millilik və beynəlmiləlçilik. Bakı, Elm, 1982, 274 s.

132[a]. Qasımzadə Q. Tənqidə dözümsüz müsahibə, yaxud aksiomanın həllinə cəhd. "Azərbaycan" qəzeti, 10 fevral 1993
133. Qazıyev M.A. Məşədi Əzizbəyov: həyat və fəaliyyəti. Bakı, 1976, 128 səh.
134. Qəhrəmanlı Nazif. Nəsib bəy nümunəsi. Bakı,"Nurlan", 2008.
135. Qəmküsar Əli. Seçilmiş əsərləri.Bakı,"Şərq-Qərb", 2006, 168 s.
136. Qənizadə Sultan Məcid. Seçilmiş əsərləri. Bakı, Avrasiya press, 2006, 200 s.
137. Qurbanov Şamil. Məmməd Əmin Rəsulzadə. Bakı: Nurlan, 2001.
138. Qurbanov Ş. Nəriman Nərimanov dünyası. B.: Azərnəşr, 2001.
138[a]. Qoca Fikrət. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2004, 248 s.
139. Mehdiyev Ramiz. XXI əsrdə milli dövlətçilik. Bakı, XXI YNE, 2003, 248 s.
140. Mehdiyev R.Ə. Yeni siyasət: inkişafa doğru. I cild, Bakı, "Oskar", 582 səh.
141. Mehdiyev R.Ə. Milli məfkurə dövlətçilik, müstəqillik yolu ilə (məqalələr, çıxışlar, müsahibələr). II cild. Bakı, "XXI YNE", 2007.
142. Mehdiyev R.Ə. Müasir Azərbaycan milli ideyanın təcəssümü kimi // Elmi əsərlər (beynəlxalq elmi-nəzəri jurnal). 2011, №1 (16), s. 17-34
143. Mehdiyev R.Ə. Azərbayan: tarixi irs və müstəqillik fəlsəfəsi.Azərbaycan Milli Ensiklopedik Nəşriyyatı,2001,276 s.
144. Mehdiyev R.Ə. Milli məfkurə dövlətçilik, müstəqillik yolu ilə. I cild. Bakı, "XXI YNE", 2006, 624 səh.
145. Mehdiyev R.Ə. Gorus-2010: Absurd teatrı mövsümü. Bakı. Şərq-Qərb, 2010.
145[a]. Mehdiyev R.Ə. Demokratiya yolunda: irs haqqında düşünürkən. Bakı, "Şərq-Qərb", 2008, 792 səh.
146. Məmmədquluzadə Cəlil. Əsərləri. IV cilddə, I cild. Bakı, "Öndər", 2004.
147. Məmmədquluzadə Cəlil. Əsərləri. IV cilddə, II cild. Bakı, "Öndər", 2004.
148. Məmmədquluzadə Cəlil. Əsərləri. IV cilddə. IV cild. Bakı, "Öndər", 2004.
149. Məmmədquluzadə Cəlil. Əsərləri. IV cilddə. III cild. Bakı, "Öndər", 2004.

150. Məmmədov Məmməd. Azərbaycan ədəbi tənqidi. Müntəxabat. Bakı, "Tural-Ə" NPM, 2002, 388 səh.
151. Məmmədov Mikayıl. Cəlil Məmmədquluzadə din və mövhumat əleyhinə. Bakı, 1962, 72 səh.
152. Məmmədova Afaq. XX əsr Azərbaycan romantizminin fəlsəfəsi (Məhəmməd Hadi irsinin tədqiqi əsasında), Bakı, 2003, 168 səh.
153. Məmmədova Fatimat. Azərbaycan mühacirətinin kulturoloji irsində dil problemi. Bakı, "Elm", 192 səh.
154. Məmmədzadə Mirzə Bala. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, 246 s.
154[a]. Məmmədzadə M.B. Köylü hərəkatı. Lenin milli siyasəti. Bakı, 2007, 144 s.
155. Məmmədzadə İlham. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında. Bakı, Təknur, 2009, 226 s.
156. Mənsur Səməd. Seçilmiş əsərləri.Bakı,"Şərq-Qərb", 2006,248 s.
157. Mikayılov Nurqələm. Elmi kommunizm ideyalarının Azərbaycanda yayılması. Bakı, "Maarif", 1988, 320 səh.
158. Mirzə Rasim. Türkçülüyün babası (Əlibəy Hüseynzadənin fikir dünyası). Bakı: Elm 2000, 172 s.
159. Mustafayev Qədim. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı, Maarif, 1973, 296 s.
160. Müstəqil Azərbaycan – 20 il. Bakı -2011, 640 səh. Rəsmi nəşr. Azərbaycan Dövlət Statistika Komitəsi.
160[a]. "Molla Nəsrəddin" jurnalı 6 cild. 8 cilddə. "Çinar ÇAP" nəşriyyatı, Bakı, 2010, 984 səh.
161. Müşfiq Mikayıl. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2004.
161[a]. Müşfiq Mikayıl. Əsərləri. Üç cilddə, 3-cü cild. Bakı, "Səda", 2004, 364 s.
162. Müznib Əlabbas. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2006.
163. Nazim Əli. Mədəni inqilab və mədəni irs// "İnqilab və mədəniyyət", 1928, №9.
164. Nazim Əli. Seçilmiş əsərləri. Bakı, Yazıçı, 1979, 274 s.
165. Nemanzadə Ömər Faiq. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2006, 352 səh.
166. Nəcəfov Xəlil. Səmədağa Ağamalıoğlu. B., Azərnşər,1966, 55 s.

167. Nərimanov Nəriman. Məqalələr və nitqlər. II cilddə, I cild, Bakı, Azərnəşr, 1971, 267 s.
168. Nərimanov N. Seçilmiş əsərləri. Bakı, "Lider nəşriyyatı", 2004.
169. N.Nərimanov V.İ.Lenin haqqında. Bakı, Azərnəşr, 1957, 42 səh.
170. Nərimanov N. Seçilmiş əsərləri. Bakı, "Elm" nəşriyyatı, 1973.
171. Nəzmi Əli. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2006
172. Nərimanoğlu Kamil Vəli. Azərbaycanda dövlət dili siyasəti. Bakı, "Çinar-ÇAP" nəşriyyatı, 2006, - 257 səh.
172[a]. Nərimanoğlu K.V. 1926-cı il Bakı Türkoloji qurultayı. Bakı, "Çinar-ÇAP" nəşriyyatı, 2006, 570 səh.
173. Ordubadi Məmməd Səid. Əsərləri. Səkkiz cilddə. I cild. Bakı, Azərnəşr, 1964, 448 s.
174. Orucov Əliyar. Azərbaycan xalqı milli özünüdərk yollarında: XIX əsrin sonu – XX əsrin əvvəlləri. Bakı, "Avropa", 2012, 251 s.
175. Osmanlı Vəli. Azərbaycan romantikləri.Bakı,Yazıçı,1985,220 s.
175[a]. Osmanlı Vəli. Azərbaycan romantizmi. I cild, Bakı, "Elm", 2010, 464 səh.
176. Ramazanov Fərrux. Azərbaycan ictimai fikrində dini əxlaqın tənqidi. Bakı, 1965
177. Rəfili Mikayıl. M.F.Axundov: həyatı, mühiti və yaradıcılığı. Bakı: Elm, 1990, 256 s.
178. Rəfili Mikayıl. Sərbəst şeir haqqında ilk söz// "Maarif işçsi", 1929, №1
179. Rəsulzadə Məhəmməd Əmin. Panturanizm. Qafqaz sorunu. Bakı, Təknur, 2012, 68 s.
180. Rəsulzadə M.Ə. Azərbaycanda Milli Hərəkat.Bakı,"Elm", 2009.
181. Rəsulzadə M.Ə. Milli birlik. Bakı, "Çıraq", 2009, 176 s.
182. Rəsulzadə M.Ə. Stalinlə ixtilal xatirələri. Bakı, Elm və təhsil, 2011, 104 s.
183. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990.
184. Rəsulzadə M.Ə. İstiqlal məfkurəsi və gənclik// "Azadlıq" qəz., 1990, 31 dekabr.
185. Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). I cild, Bakı, Azərnəşr, 1992, 470 s.
186. Rəsulzadə M.Ə. Əsərləri (1909-1914). II cild, Bakı, 2001, 528 s.

186[a]. Rəsulzadə M.Ə. Əsərləri (1915-1916). III cild, Bakı, "Elm", 2012, 596 s.
186[b]. Rəsulzadə M.Ə. Əsərləri (1915-1916). IV cild, Bakı, "Qanun", 2013, 456 s.
187. Rəsulzadə M.Ə.Bolşeviklərin Şərq siyasəti. Bakı: Sabah, 1994.
188. Rəsulzadə M.Ə. Əsrimizin Siyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. B.: Gənclik, 1990. 112 səh.
189. Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı, Təknur, 2012, 112 səh.
190. Rüstəmov İzzət. Həsən bəy Zərdabi. Bakı, Turan nəşrlər evi, 2012, 236 s.
191. Rüstəmov İ.Ə. Azərbaycanda təbii-elmi biliyin inkişafının fəlsəfi problemləri (XIX əsr-XX əsrin əvvəli). Bakı: Diplomat, 2001.
192. Rüstəmov İ.Ə. Seçilmiş əsərlər. Bakı, Turan Nəşrlər evi, 2012.
193. Rüstəmov Yusif. Siyasi-Hüquqi təlimlər tarixi. Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, 2000, 318 s.
194. Rüstəmov M.Ə., Tağıyev Ə.M. Karl Marks və müasir ideoloji mübarizə. Bakı, "Bilik", 1985, 64 səh.
194[a]. Rüstəmova Afaq. İctimai inkişaf və dil. Bakı, Təknur, 2012.
194[b]. Rüstəmxanlı Sabir. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2004.
194[c]. Rüstəmxanlı Sabir. Dərdə əyilmə. Bakı, "Qanun", 672 s.
195. Rza Rəsul. Seçilmiş əsərləri. Beş cilddə. 4 cild. Bakı, "Öndər", 2005, 336 s.
195[a]. Rza Rəsul. Seçilmiş əsərləri. Beş cilddə. 5 cild. Bakı, "Öndər", 2005, 264 s.
195[b]. Rza Xəlil. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, 2005, 296 s.
195[c]. Rza Xəlil. Seçilmiş əsərləri. İki cilddə.II cild. Bakı, 2005,248 s.
196. Sabir Mirzə Ələkbər. Hophopnamə.İki cilddə.II cild. Bakı, 2004
197. Sabir Mirzə Ələkbər. Hophopnamə.İki cilddə. I cild. Bakı, 2004
198. Sanılı Hacı Kərim. Seçilmiş əsərləri. Bakı: Bakı Universiteti nəşriyyatı. 1993, -260 s.
199. Səhhət Abbas. Seçilmiş əsərləri. Bakı, "Lider", 2005, 456 s.
200. Səttarov Məqsəd. İslam dini qalıqları.Bakı,Azərnşər,1967,182 s.
200[a]. Sultanlı Vaqif. Azərbaycan mühacirət ədəbiyyatı. Bakı, Şirvannəşr, 1998
201. Sidqi Məmməd Tağı. Əsərləri. Bakı,Çaşıoğlu, 2004, 279 s.

201[a]. Süleymanova Sevda. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX əsrin sonu, XX əsrin əvvəlləri). Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1999, 419 s.
202. Sovet hakimiyyəti uğrunda alovlu mübariz Məşədi Əzizbəyov. Nitqlər, sənədlər və materiallar. Bakı, Azərnəşr, 1976, 291 səh.
203. Svyatoçovski T. Rusiya və Azərbaycan: sərhədyanı bölgə keçid dövründə. Bakı: "Xəzər Universiteti nəşriyyatı", 2000, 373 səh.
204. Şahtaxtlı Məhəmmədağa. Seçilmiş əsərləri. Bakı: "Çaşıoğlu", 2006. – 432 s.
205. Şaiq Abdulla. Seçilmiş əsərləri. Üç cilddə. II cild. Bakı, 2005, 568 səh.
206. Şeyxzamanlı Nağı. Azərbaycan istiqlal mücadiləsi xatirələri. Bakı, "Azərbaycan" nəşriyyatı, 1997. – 176 səh.
206[a]. Şeyxzamanlı Nağı. Xatirələrim. Bakı, "Vətən", 2004. – 192 s.
207. Şəmsizadə Nizaməddin. Azərbaycan ideologiyası. Bakı: "Sabah", 1996, 103 s.
208. Şəmsizadə N. Azərbaycançılıq.Bakı,"Nurlar" NPM,2006, 192 s.
209. Şükürov Ağyar. Etnos, millət və millətçilik. Bakı: "Təknur", 2008 – 254 s.
210. Tağıyev Əlikram. Milli ideya və milli ideologiya: Problemlər və onların şərhi. Bakı: Təbib, 2000, 188 s.
211. Tağıyev Ə., Mustafayev A.X., Balayev M.A. Azərbaycanda milli hərəkat ideyalarının yaranması və tarixi təkamülü (XIX sonu - XX əsrin əvvəlləri). Bakı: ADPU-nun nəşriyyatı. 1994, 83 s.
212. Talıbzadə Kamal. XX əsr Azərbaycan tənqidi. Bakı, Azərnəşr, 1966, 540 s.
213. Tağıyev Ə.M., Şükürov M.A. İki əsrin qovşağında Azərbaycan: milli və millətlərarası problemlərin həlli yolunda. Bakı: "Adioğlu" nəşriyyatı, 2004, 194 s.
214. Topçubaşov Əli Mərdan. Paris məktubları, Bakı, Azərnəşr, 1998, 120 səh.
214[a].Topçubaşı. Ə.M. Azərbaycan Cümhuriyyətinin yaradılması. Bakı, "Təknur", 2013, 55 səh.
215. Türkel Yadigar. Politologiya. Bakı: Təknur, 2008, 478 s.
216. Türkel Y. İnsan, təbiət, cəmiyyət münasibətləri. Biososial və fəlsəfi aspektlər. Bakı, "İşıq", 1998, 160 səh.

216[a]. Türkiyə tarixi məsələləri. Bakı, "Elm", 1972, 190 səh.
216[b]. "Türküstan" qəzeti, №68 (280) 23-29 dekabr 2012-ci il.
217. Ümummilli Lider Heydər Əlirzaoğlu Əliyevin irsi və milli ideolgiyanın formalaşması məsələləri. Bakı, "Elm və təhsil", 2010. – 424 səh
217[a]. Ümummilli Lider Heydər Əlirzaoğlu Əliyevin irsi və milli ideolgiyanın formalaşması məsələləri. Bakı, "ADPU-nun mətbəəsi", 2013. – 260 səh
217[b]. Ubeydullin Ə. Əsərləri. Bakı, Şərq-Qərb, 2010, 328 s.
218. Vahabzadə Bəxtiyar. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, "Öndər", 2004, 328 s.
219. Vahabzadə B. Seçilmiş əsərləri.İki cilddə.II cild.Bakı, "Öndər", 2004, 320 s.
219[a]. Vahabzadə B. Ədəbi düşüncələr (məqalələr toplusu). Bakı, "Təhsil", 216 s.
220. Vəliyev (Baharlı) Məhəmməd Həsən. Azərbaycan (Fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk). - Bakı, "Azərbaycan" Nəşriyyatı, 1993, 192 s.
221. Vəliyeva Sona. Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi. Bakı, "Azərbaycan Universiteti" nəş., 2002, 140 s.
222. Vəzirov Nəcəf. Əsərləri.Bakı, "Şərq-Qərb", 2005, 304 s.
223. Vəzirov Xasay. Azərbaycan bolşevik mətbuatı sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizədə. Bakı, Azərnəşr, 1961.
223[a]. Vazeh M.Ş. Nəğmələr. Bakı, "Şərq-Qərb", 2004, 96 səh.
224. Vurğun Səməd. Əsərləri. 6 cilddə. 1 cild. Bakı, Azərnəşr, 1960
224[a]. Vurğun Səməd. Əsərləri. 6 cilddə. 3 cild. Bakı, Azərnəşr, 1961
224[b]. Vurğun Səməd. Əsərləri. Seçilmiş əsərləri. Beş cilddə. III cild. Bakı, "Şərq-Qərb", 2005, 424 səh.
225. Vurğun Səməd. Əsərləri. 6 cilddə. 5 cild. Bakı, Elm, 1972,426 s.
225[a]. Vurğun Səməd. Əsərləri. Seçilmiş əsərləri. Beş cilddə. IV cild. Bakı, "Şərq-Qərb", 2005, 400 səh.
226. Yaqublu Nəsiman. Azərbaycan milli istiqlal mübarizəsi və M.Ə.Rəsulzadə. Bakı: 2001, 154 s.
227. Yaqublu N. Türkiyənin azərbaycanlılara müstəqillik mücadiləsində dəstəyi (Sovetlər dönəmi: 1920-1991-ci illər). Bakı, 2009, 264 səh.

228. Yaqublu N. Əbdürrəhman Fətəlibəyli-Düdənginski. Bakı, "Abşeron-Nəşr", 2009, 232 s.
229. Yaqublu N.Azərbaycan mühacirət irsi. Bakı, Elm və Təhsil, 2011, 232 s.
230. Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı: Gənclik, 1991
231. Yaqublu N. Müsavat partiyasının tarixi. Bakı, Adiloğlu, 2012
231[a]. Yusifov Mübariz. Dövlətçilik və dil.Bakı, "Nurlan",2004,176 s.
232. Zeynallı Hənəfi. Seçilmiş əsərləri.Bakı,Yazıçı,1982, 319 s.
233. Zəkyev Ə.K. Bəhmənyarın fəlsəfi görüşləri. Bakı, Qızıl Şərq, 1958, 92 s.

Türkiyə Türk dili

234. Ağaoğlu A. Türk alemi. İslamiyet ve türklük//İstanbul, "Türk yurtu", 1912, №7
234[a]. Aküzüm Feyzi. M.E.Resulzadeye göre çeşidli cebheleriyle Azerbaycan istiqlal mücadilesi. Ankara, 1977
235. Arvasi Əhmed S. Türk-İslam ülküsü. 2-ci cild. İstanbul, "Burak",1994, 400 s.
235[a]. Aslan Yasin. Azerbaycan tam bağımsızlık yolunda. Ankara, 1992, 118 s.
236. Bayar C. Atatürkün metodolojisi və günümüz.İstanbul, Kervan, 1978, 157 s.
237. Düzdağ E.M. Türkiyede islam ve irkçılık meselesi. İstanbul, "Cihad",1976,350 s.
237[a]. Cəfəroğlu Əhməd. Azərbaycan Cümhuriyyəti// Ankara, "Mücahit" dərgisi, №31-32, 1960-cı il, iyul-avqust
238. Erzurumlu Kenan. Türklüye baxış. İstanbul, 2006, 294 s.
238[a]. Qaraca Əhməd. Kommunist-Rus imperializminin yeni taktikaları// Ankara, "Azərbaycan" dərgisi, №218, 1976-cı il
239. Gökalp Z. Türkleşmek, islamlaşmak, muasirleşmek. İstanbul, Akvaryum, 2005.
239[a]. Göygöl Çingiz. Mühafizəsi lazım gələn milli ruh// Ankara, "Mücahit" dərgisi, №9, 1957-ci il, iyun
240. İhsan İ. Rusyada birinci müslüman Kongresi tutanakları. Ankara: 1990, 518 s.

240[a]. Təkinər Süleyman. Tarix boyunca kommunistvari fikir və hərəkatlar//Ankara, "Birləşik Qafqasiya" məc., 1963, №6 (23).
241. Mehmetzade M.B. Azerbaycan dövleti// "Odlu Yurt" jur, İstanbul, 1931, №3(28).
242. Mehmetzade M.B. Sovyet Azerbaycanda Türk dilinin ruslaşdırma ve imha siyaseti hakkında. Kurtuluş, Berlin, 1936, №20
243. Mehmetzade M. B. Azerbaycan Misaqi-Millisi.Ankara,2002,87 s.
244. Resulzade M.E. Milli tesanüd. Ankara, 1978, 143 s.
245. Resulzade M.E.Hatıralar ve Kafkasya.İstanbul,2011,208 s.
245[a]. Resulzade M.E. Şefibeycilik. İstanbul, 1934, 136 seh.
246. Yazıçı N. Milli tarih şuuru və büyük türk devleti. Ankara, "Ocak", 1984, 160 s.
247. Yurtsever A. Sabirin Azerbaycan edebiyatındakı yeri. Ankara, 1951.
247[a]. Yurtsevər Abdülvahab. Sovet istismarçılığı// Ankara, "Azərbaycan" dərgisi, №10-11, 1956-cı il yanvar-fevral
248. Yılmaz Meşkure. Tarixi, siyasi ve kültürel yönleriyle Türklerin dünyası ve Türkiyenin dış türkler politikası. Ankara, Kripto, 2010
248[a]. Yeniçəri Ö. Milli Bilinç nasıl kırılır?Ankara, Kripto, 2009,407s.
249. Gökdemir A. Düşüncə tarihimizden portreler. İstanbul, "Bayrak", 2005, 359 s.
249[a]. Ünal Cəmil. Yenidən doğuş// "Azərbaycan" kültür dərgisi, №271, 1990-cı il, yanvar-fevral

Rus dili

250. Агайев А. Положенийе мусулманских народов // "Каспий", 1903 гг. 14 нойабр №246, 21 нойабр №251, 29 нойабр №256, 10 декабр №264, 13 декабр №267, 17 декабр №272, 24 декабр №276.
251. Агайев А. Панисламизм, его характер и направление. "Каспий" газ., 1900 гг. 14 апрел №81, 22 апрел №87
252. Балаев А. Азербайджанские тюрки: процессы формиоравния нации и национальной идентичности на рубеже XIX-XX вв. Баку, Ганун, 2010, 328 стр.
253. Балаев А. Азербайджанское национальное-демократическое движение в 1917-1920 гг., Баку: Элм, 1990, 280 стр.

254. Балаев А. Этноязыковые процессы в Азербайджане в XIX-XX вв. Баку, 2005.
255. Гасанова Э.Ю.Идеология буржазного национализм в Турции (1908-1914 г.г.). Баку, 1966
256. Геюшев З.Б. Философская мысль в советском Азербайджане. Баку, Элм, 1979.
257. Кулизаде З. Концептуальные проблемы исследования социокультурного развития (конец XX – начало XXI вв.). ч.II. Баку: "Текнур", 2009, 398 с.
258. Нариманов Н. Ответ некоторым товарищам. "Бакинский рабочий" газ., 15 ийун, 1922 год.
259. Нариманов Н. Избранные произведения. Том 2. Баку, 1989.
260. Свйатоховский Т. Руский Азярбайджан 1905-1920 гг. "Хазар", 1990, №1
261. Заманова Э. Эстетическая мысль в Азербайджане в XIX – начале XX века. Баку, "Текнур", 2011. – стр. 256
261[a]. Заманова Э. Эстетика азербайджанского романтизма XX века. Баку, Текнур, 2007. 170 стр.
262. Гумбольт В. Избранные труды по языкознанию. Москва: Прогресс,1984, 397 с.
263. Гумилев Л.Н. Этногенез и биосфера земли. Москва, "АСТ", 2002, 560 с.
264. Дашдамиров А. Идеологические проблемы, межкавказские отношения. Баку: ИОПИИ. 2001, 87 с.
265. Дашдамиров А. Национальная идея и этничность (Азербайджанская идея в этнокультурном интерьере). Москва, ЦИМО. 1996, 54с.
266. Жданов Н.В. Исламская концепция миропорядка. Москва, 2003, 214с.
267. Кулиев Г.Менталитет:проблема дефиниции и философии.Баку,Наука, 2004.
268. Кулиев Г. Научная стратегия малых стран (Поиски Азербайджанской модели). Баку: "Сяда". 2007, 152 стр.
269. Тойнби А. Постижение истории. Москва: 1996, 605с.
270. Тойнби А. Цивилизация перед судом истории. Москва, Прогресс. 1996, 256с.

271. Фукуяма Ф. Великий разрыв. Москва: 2003, 361с.
272. Хабермас Ю. Демократия, Разум, Нравственность. Москва: Наука. 1992, 175 с.
273. Хантингтон С. Столкновение цивилизаций. Москва: АСТ, 2003, 350с.
274. Хатами С.М. Традиция и мысль. Москва, 2001, 288с.
275. Хюбнер К. Нация: от забвения к возрожению. Москва, Канон, 2001, 400с.
276. Шпенглер О. Закат Европы. Т.1-2. Москва: 1998, 225с.
277. Мангейм К. Идеология и утопия. Москва: 1991. 320с.
278. Мамед-заде И. Гражданское общество и национальная идеология. Баку, 1995.
279. Исмаилов Э. Власть и народ. Послевоенный сталинизм в Азербайджане: 1945-1953 гг. Баку, 2003.
280. Геллнер Э. Нация и национализм. Москва: Академия, 1998
281. Исаев М.И. Современная концепция Кавказа: Этнокультурный аспект//Московское Эхо Кавказа.Москва. 1997.
282. История азербайджанской философии, т.1. – Баку: Элм, 2002. 360 стр. (редактор I тома д.ф.н. З.А.Кулизаде).
283. Мамедова Ф. Кавказская Албания и албаны. Баку, ЦИКА. 2005, 800 с.
284. Алекперли Ферид. Азербайджанские тюрки - история и современность. “Зеркало”, 15.08.2009.
285. Алекперли Ф. Нацию творит язык.WWW.azcongress.ru
286. Алекперли Ф. Парадигмы азербайджанского национального сознания. http://www.kultura.az/

FAİQ ƏLƏKBƏRLİ

MİLLİ İDEOLOGİYA PROBLEMİNƏ TARİXİ-FƏLSƏFİ BAXIŞ

3 CİLDDƏ

II CİLD

"Elm və təhsil" nəşriyyatının direktoru:
İnal MƏMMƏDLİ

Dizayner: Zahid Məmmədov
Tekniki redaktor: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 15.10.2025
Şərti çap vərəqi 32. Sifariş № 141
Kağız formatı 60x84 1/16. Tiraj 300

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Тел: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.